


QAŞIM HACIYEV

HEYDƏR ƏLİYEVİN DAĞLIQ QARABAĞA ERMƏNİ İDDİALARINA QARŞI MÜBARİZƏSİ

QASIM HACIYEV

HEYDƏR ƏLİYEVİN DAĞLIQ QARABAĞA ERMƏNİ İDDİALARINA QARŞI MÜBARİZƏSİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı – "Təknur" – 2014

Elmi redaktor: **akademik İsmayıl Hacıyev**

Rəyçilər: **t.ü.e.d. Ədalət Qasımov**
t.ü.e.d. Kərim Şükürov

Q.Ə.Hacıyev. «Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi». – Bakı: "Təknur", 2014. – 400 s.

Kitab dünya miqyaslı siyasi xadim, dövlətçilik tariximizdə mühüm mövqe tutan, cəmiyyətin bütün qüvvələrini öz arxasınca aparmağa qadir olan, inamlı xarici siyasət yürüdə bilən qüdrətli şəxsiyyət - Heydər Əliyev fenomeninə, onun Azərbaycan dövlətinə rəhbərliyi dövründə ölkəmizə qarşı yönəlmiş əsassız ərazi iddialarına, erməni separatizminə, məcburən cəlb edildiyimiz Qarabağ müharibəsinin dayandırılmasına, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı məqsədyönlü siyasətə həsr edilmişdir.

İSBN: 978-9952-445-46-8

© Qasım Hacıyev, 2014

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN 91-İLLİYİNƏ İTHAF EDİRƏM!

BİZ AZƏRBAYCAN ƏRAZİSİNDƏ İKİNCİ BİR ERMƏNİ DÖVLƏTİNİN YARANMASINA YOL VERƏ BİLMƏRİK

Prezident Heydər Əliyevin
ATƏT-in Lissabon zirvə görüşündə nitqindən
2 dekabr 1996-cı il

MƏN ÇOX ŞADAM Kİ, TARİXÇİLƏRİMİZ ÇOX SANBALLI VƏ ƏSASLI ƏSƏRLƏR YARADIRLAR. XÜSUSİLƏ ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN MÖVCUDLUĞU BİZƏ DİKTƏ EDİR Kİ, BU SAHƏYƏ DAHA DA BÖYÜK DİQQƏT GÖSTƏRƏK ...

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

HEYDƏR ƏLİYEV FENOMENİ! BU, BİZİM SEÇİMİMİZ İDİ, YOXSA TARİXİN? BƏZƏN FƏRDLƏRİN SEÇİM İMKANININ MƏHDUDLUĞU ÜZÜNDƏN TARİX ONLARIN KÖMƏYİNƏ GƏLİR. TARİX ZAMANCA VAXTINA, MƏKANCA YERİNƏ DÜŞMÜŞ ŞƏXSİYYƏTİ ONLARIN KÖMƏYİNƏ GÖNDƏRİR, ÇAŞQINLIQ İÇƏRİSİNDƏ YAŞAYAN İNSANLARIN HƏYATINA MÜƏYYƏNLİK GƏTİRİR.

Akademik Ramiz Mehdiyev

MÜNDƏRİCAT

Müəllifdən 10

Giriş 17

I FƏSİL. ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TARİXİ VƏ MAHİYYƏTİ

1.1. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixşünaslığı 26
1.2. Azərbaycan SSR ərazisində DQMV-in yaradılmasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Çar Rusiyasının və Sovet imperiyasının Cənubi Qafqaz siyasətində erməni amilindən istifadə 39

II FƏSİL.ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN BAŞLANMASI

2.1. Sovetlər dövründə ermənilərin Azərbaycana qarşı ərazi iddialarının genişlənməsi 51
2.2. Kremlin Dağlıq Qarabağa dair siyasəti 93

III FƏSİL. ERMƏNİSTANIN AZƏRBAYCANA HƏRBİ MÜDAXİLƏSİ - QARABAĞ MÜHARİBƏSİ

3.1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı açıq müharibəyə başlaması 98
3.2.Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı. Atəşkəs haqqında sazişin imzalanması 111
3.3. Heydər Əliyevin Qarabağ müharibəsində atəşkəsə nail olması 115

3.4. Qarabağ müharibəsi dövründə bəzi region dövlətlərinin antiazərbaycan siyasəti 120
3.5. Azərbaycan Respublikası Prezidentinin «Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqələrinin elan edilməsi haqqında» fərmanı 146
3.6. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» fərmanı 147

IV FƏSİL.ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ MƏSƏLƏSİNİN HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN BEYNƏLXALQ MÜSTƏVİYƏ ÇIXARILMASI

4.1. Münaqişənin həlli məsələsi beynəlxalq müzakirələrdə 153
4.2. Heydər Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini beynəlxalq müstəviyə çıxarması və həlli ilə bağlı xüsusi konsepsiyası 179

V FƏSİL. MÜHARİBƏNİN GEDİŞİNDƏ ƏSASLI DÖNÜŞ VƏ ONUN SÜLH PROSESİNƏ TƏSİRİ

5.1. Heydər Əliyevin Qarabağ müharibəsini dayandırmaq istiqamətində fəaliyyəti 186
5.2. Atəşkəsdən sonrakı siyasi proseslər 235

VI FƏSİL. ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN SÜLH YOLU İLƏ HƏLLİ MƏSƏLƏSİ

6.1. Budapeşt zirvə toplantısı, Heydər Əliyevin dünyanın nüfuzlu dövlətlərinin rəhbərləri ilə görüşləri 244
6.2. Beynəlxalq təşkilatların münaqişəyə dair qətnamə və qərarları 247

6.3. ATƏT-in Lissabon Zirvə görüşündə Heydər Əliyevin qətiyyəti 257
6.4. Heydər Əliyevin xarici siyasətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində fəaliyyətinin növbəti mərhələsi 269
6.5. Heydər Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ATƏT-in Minsk qrupunun yeni təkliflərinə münasibəti 279
6.6. Heydər Əliyevin tarazlı siyasəti və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə qarşı maneələr 288
6.7. Heydər Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə dair görüş və çıxışlarının xronikası 294

VII FƏSİL. PREZİDENT İLHAM ƏLİYEVİN ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ

7.1. Prezident İlham Əliyev və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi 313

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin xronologiyası (1987-1994-cü illər) 340

Nəticə 366

İstifadə edilmiş ədəbiyyat 384

MÜƏLLİFDƏN

XX əsrinsonlarında dünyanın nəhəng imperiyalarından biri olan SSRİ obyektiv və subyektiv səbəblərdən dağıldı. Sovetlər məkanında müstəqil respublikalar yarandı. O cümlədən, Azərbaycan Respublikası da öz müstəqilliyini yenidən əldə etdi. Taleyin qismətindən, xalqımız Heydər Əliyevin yenidən müstəqil Respublikamızda hakimiyyətə qayıtmasını tələb etdi. Xalqına güvənən və onun ümidini qırmayan Heydər Əliyev hakimiyyətə qayıtdı, ölkəmiz üçün çox işlər gördü: Azərbaycanı çox bəlalardan qurtardı, xalqı xilas etdi, dirçəltdi, onda özqnəinam yaratdı, Azərbaycan dövlətçiliyini bərpa etdi.

Heydər Əliyevin sovet dövründə Azərbaycanın bölgələrinə səfərlərini, maraqlı və yaddaqalan görüşlərini yaşlı nəslin nümayəndələri yaxşı xatırlayırlar. Həmin görüşlər indi də xalqın yaddaşındadır və əziz xatirə kimi yad edilir.

Heydər Əliyev Qarabağ bölgəsinin iri rayonlarından olan Bərdəyə də tez-tez gəlirdi və hər dəfə də böyük sevgi və hərarətlə qarşılanırdı. Bu kitabın müəllifi də Heydər Əliyevin Bərdədə onun rayon zəhmətkeşləri ilə söhbətlərinin dəfələrlə şahidi olmuşdur.

Böyük Azərbaycanlı, qurtuluş mübarizəsinin qalibi, dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın müstəqilliyini qoruyub-saxlayacağına and içdi. Andına sadiq qaldı. Azərbaycanlı olması ilə fəxr edən ulu öndər Vətən naminə mübarizədə Azərbaycan dövlətçiliyini xilas etdi, müstəqilliyimizi qoruyub saxladı.

Kreml rejiminin xalqımızın böyük oğlu Heydər Əliyevə qarşı həyata keçirdiyi ağır təqib illərində belə, doğma xalqını düşünməsi, Azərbaycanı sıxışdırıldığı məngənədən çıxarmaq yollarını axtarması, ölkəni ağır böhrandan çıxarmaqdan ötrü bütün qüvvəsini sərf etməsi qədirbilən xalqımız tərəfindən yüksək qiymətləndirildi.

Dünya dahiləri sırasına daxil olan böyük şəxsiyyət, «Ata-

türk Beynəlxalq sülh mükafatı» laureatı Heydər Əliyev əsl fenomen kimi yüksək imic qazandı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə gəlincə, bunu ölkəmizin ən ağrılı və bəzən də ağır problemi adlandıranlar çox haqlıdırlar. Çünki bu problem bir günə, beş günə yaranan problem deyil. Bu, iki əsrdən artıq bir dövrdə formalaşmış siyasi oyunların – irticanın, əyalətçiliyin, antimilli siyasətin, torpaq əldə etmək arzusu ilə çulğalaşan antiazərbaycan siyasətin nəticəsidir. Bu siyasətin bəzən qarşısı bilərəkdən alınmamış, bəzən buna imkan verilməmiş, bəzən də, sürətləndirilmişdir.

Həmin siyasətin nəticəsi, ilk növbədə, Heydər Əliyevin Moskvaya SSRİ-nin ali rəhbərliyinə getməsindən sonra, 1980-ci illərin sonlarında Azərbaycanın çox ciddi problemlərlə üz-üzə qalması idi ki, bunların da ən mürəkkəbi ermənilərin kəskinləşdirdiyi ərazi iddiaları oldu. Bu məqam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən belə şərh edilmişdir: «Heydər Əliyevin o vaxt Azərbaycanda olmaması tədricən respublikanı tənəzzülə uğratdı. 1982-1987-ci illərdə hələ ki, inersiya davam edirdi və ümumiyyətlə, respublikada proseslər müsbət istiqamətdə gedirdi. Ancaq buna baxmayaraq, artıq o qətiyyət, o iradə yox idi. Həlledici anlarda Heydər Əliyevin yoxluğu əlbəttə ki, respublikanı çox böyük problemlərlə üzləşdirdi».

Heydər Əliyev SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra Azərbaycana təzyiqlərin güclənməsi, erməni millətçilərinin Dağlıq Qarabağı Azərbaycan SSR-dən qoparmaq və Ermənistan SSR-ə birləşdirmək planlarını açıq şəkildə büruzə verməsi xalqımızın başı üzərini almış təhlükədən xəbər verirdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin köklərinin daha dərinlərdə olması, habelə zaman-zaman aparılan antitürk, antiazərbaycanlı təbliğatın yaratdığı maneələrin həddindən artıq çoxalması və Heydər Əliyev kimi qüdrətli şəxsiyyətin kənarda qalması bu proseslərin acı sonluqla nəti-

cələnəcəyindən xəbər verirdi. Azərbaycanın özünün bütövlükdə tarixi taleyi üçün təhlükəli məqamda qondarma Dağlıq Qarabağ problemini ortaya atan, Azərbaycan dövlətçiliyi üçün təhlükə yaradan qüvvələr var gücü ilə problemi münaqişəyə çevrilənə qədər dərinləşdirdilər. Böyük dünyagörüşünə malik, dünya siyasətini, xüsusilə SSRİ imperiyasının kəşfiyyatının imkan və fəaliyyət istiqamətlərini dəqiq bilən təcrübəli bir şəxsiyyət «unuduldu», hakimiyyət siyasətdən başı çıxmayan, kəşfiyyatdan isə xəbəri olmayan, gəlişi gözəl, bayağı ifadələrlə dolu bəlağətli çıxışlarla özünü rəhbər kimi göstərməyə cəhd edən şəxslərin əlinə keçdi. Onların gözü qarşısında Azərbaycanı uçuruma yuvarlamaq, siyasəti aparıldı. Ermənistanda məxfi şəkildə milli ordu yaratmaq tədbirləri görüləndə Azərbaycanda bu barədə danışmaq istəyənin "ağzına vururdular". Ermənistanda sovet ordusundan alınmış silahlardan hərbi sursat anbarı yaradılanda, Dağlıq Qarabağ Muxtar Vilayətində gizli döyüş silahları paylananda, azərbaycanlılardan ov tüfəngləri də yığıldı. *Addım-addım uçuruma yaxınlaşdırılmış*, hərbi sursat baxımından acınacaqlı vəziyyətə salınmış Azərbaycan kifayət qədər hazırlıqlı Ermənistan hərbi qüvvələrinə qarşı müqavimət imkanından məhrum idi. Bacarıqlı, təcrübəli, milli qeyrətli hərbçi zabitləri təcili toplayaraq müqavimət göstərə bilən ordu yaratmaq əvəzinə «dayanın, qoyun görək başımıza nə çarə qılırıq» deyən "rəhbərlər" iki yüz il ərzində ölkəmizə və xalqımıza qarşı dəfələrlə həyata keçirilən işğal, ekspansiya, qırğın, deportasiya, soyqırımı, repressiya kimi hərbi-siyasi əməllərin müəllifi olan «böyük qardaşının» yardımına ümid edirdi. Ermənilərin hiyləgər siyasəti qarşısında gülüş həddinə çevrilməyin səbəbini, ünvanını belə müəyyənləşdirməyi bacarmayanlar qəflət yuxusundan ayılanda artıq iş-işdən keçmişdi. Ömründə hərbi işin nə olduğunu bilməyənlər, özündən əvvəlkilərin çaşqınlığından istifadə edərək hay-küylə başları çıxmadığı böyük bir vəzifənin məsuliyyəti altına girdilər. Bazar münasibətlərinin orduya tətbiqi ilə elə bir "ordu yaratdılar ki," əsas devizləri «mən bil-

mərəm, dedilər, elədim». - Niyə? - bilmirəm. Nə üçün? - əcəb elədim" və s. və i.a. üsullarla gözdən pərdə asdılar. Bütün nazirliklər müharibə ilə "məşğul olurdu", təkcə Müdafiə Nazirliyindən başqa. Tanışlıq, dostluq və qohumluq prinsipləri əsasında seçilmiş «komandirlər» *Vətən torpağını müdafiə etməyə* hazır olan qeyrətli gənclərin çoxunu qırğına verdilər. Azərbaycanlıların ordu yaratmasının əhəmiyyətsiz iş olmasını «sübut etmək» üçün apardıqları təşviqat yerdə qalan gənclərin də gözünü qırdı. Rusiya Federasiyasının hərtərəfli köməyi ilə müharibəyə başlayan Ermənistanın hərbi qüvvələri ilə savaşın çətin olacağını nəzərə alıb daha ciddi müqavimət qüvvəsi yaratmaq əvəzinə rus, erməni kəşfiyyatına işləyən adamları öz ətraflarına toplayıb onsuz da dərin olmayan hərbi sirlərin yayılmasına şərait yaratdılar. Azərbaycan döyüşçülərinin mövqelərinin guya düzgün seçilməməsi adı altında mətbuatda açıqlanması heç kimi narahat etmirdi.

Güclü düşmənə qarşı qüvvələri vahid komandanlıq altında birləşdirmək üçün güclü intizamın olmaması səbəbindən bir-birinin işinə qısqanclıqla yanaşaraq qarşı-qarşıya duran, biri digərinə mane olan pərakəndə dəstələrin, onların özfəaliyyətlə məşğul olan rəhbərlərinin fantaziyalarına qulaq asmağa məhkum edildik. Bünövrəsində heç bir əsasın olmadığı mənəm-mənəmlik xeyli insanımızın məhv edilməsi ilə nəticələndi. Döyüş bacarığına yiyələnməmiş, hərbi intizamla idarə olunmağa hələ alışmamış azərbaycanlı gənclər Ermənistanın muzdla tutduğu peşəkar hərbçiləri üzərinə plansız, pərakəndə hücumlar zamanı məhv oldular. Ermənistan tərəfindən başlanmış açıq hərbi təcavüz nəticəsində Qarabağ müharibəsində 30 minədək günahsız azərbaycanlı həlak oldu. Üstəlik, ərazimizin xeyli hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi.

Hərbi strukturda düzgün mövqe tutmayan, məqsəd və məramları müəmmalı olan şəxslərə ali baş komandan tərəfindən vaxtında və düzgün münasibətin göstərilməməsi bü-

tün bu proseslərin acınacaqlı sonluğundan xəbər verirdi.

Saymaqla qurtarmayan səhvlərin sahibləri - özlərinin hansı quruluşun sakini, hansı məzhəbin sahibi olduqlarını belə müəyyənləşdirə bilməyənlər səhvlərini dərk edərək geri çəkilmək, hakimiyyəti daha bacarıqlı və təcrübəli şəxsə vermək əvəzinə, xalqın taleyi ilə oynayaraq, müxtəlif üsullarla maneçilik törətdilər. Canımızdan və qanımızdan müqəddəs olan şəhərlərimiz, kəndlərimiz bir-birinin ardınca dağıdıldı, yandırıldı, ərazilərimiz işğal edildi. Küt vəzifəpərəstlərin davam etdirdiyi inadkarlıq əhalidə sarsıntılar yaratdı. Qeyri-bərabər döyüşlərdə, planlı şəkildə həyata keçirilən soyqırımında həlak olanlardan əlavə, dinc əhali arasında əsəbdən, sarsıntıdan onlarla ziyalı dünyasını dəyişdi.

Ümumiyyətlə, bu illər ərzində ölkə daxilində çox hadisələr baş verdi. Vəzifə üstündə çəkişmələr, hakimiyyət dəyişiklikləri oldu. O vaxta qədər ki, Kreml rejiminin Azərbaycan üzərindəki siyasi eksperimentləri öz işini gördü. Azərbaycan torpaqları işğal edildi, hərbi təcavüzə məruz qalan xalq inamsızlığa düçar oldu, onun mübarizə əzmi zəifləndi, Ermənistan qarşısında məğlub vəziyyətə salındı. «Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi», qanunsuz «Dağlıq Qarabağ Respublikası» yaratmaq haqqında qərarlar qəbul edən ermənilər Azərbaycanı ağır sülh şərtlərinə itaət etməyə məcbur edirdilər.

Bütün bu proseslərdə Heydər Əliyev Azərbaycana rəhbərlik edən, Moskva qarşısındakı müti, özündən müştəbeh şəxslərin xəyanəti nəticəsində hər vəchlə kənarda saxlanıldı, onun potensialından istifadə edilmədi. Kreml rejiminin sonuncu başçısı, erməni mafiyasının tora saldığı M.Qorbaçov böyük dövlət xadimi Heydər Əliyevi təqib edirdi. O vaxtlar "özümüzünkülər"in bir çoxu da Heydər Əliyevi Azərbaycanda nəinki öz önlərində, heç öz sıralarında da görmək istəmədi. Bu ədalətsizlik və bəsirətsizlik xalqımıza baha başa gəldi.

Ancaq doğma, etibarlı, qədirbilən insanlar arasında – Naxçıvanda qərar tutan el atası Heydər Əliyev onu yaşlı hesab

edənlərin (həm Kremldə, həm də Bakıda) hamısını heyrətə saldı. Blokadaya alınmış Naxçıvanın məğlub olmasına imkan vermədi. Azərbaycanın, demək olar ki, bütün yerlərində qeyri-sabit vəziyyət, özbaşınalıq, anarxiya, kütləvi itaətsizlik hökm sürdüyü bir vaxtda Naxçıvan Muxtar Respublikasının rəhbəri seçilən Heydər Əliyev bu diyarda sabitlik yaratdı, onun rəhbərliyi altında erməni qəsbkarlarına qarşı ciddi müqavimət göstərildi. Naxçıvanlılar Muxtar Respublikaya edilən ərazi iddialarına qarşı Heydər Əliyevin rəhbərliyi altında çox qətiyyətli cavab verdilər, torpaqlarını qorudular.

Öz şəxsi nüfuzundan və rəhbərçilik təcrübəsindən istifadə edən Heydər Əliyev Naxçıvanın müdafiəsini təşkil etmək üçün hərbi potensial yaratdı. Ərzaq və gündəlik tələbat mallarının üçqat qiymətə olduğu Naxçıvanı tərəqqi dövrü keçirən regiona çevirmək istiqaməti götürən dahinin qədrini bilənlərin sayəsində Bakıda – Azərbaycanın paytaxtında və digər yerlərində Heydər Əliyevin yerinin görünməsi özünü göstərdi. Tarix böyük şəxsiyyəti öz layiq olduğu yerə gətirdi. O isə taleyi təsadüflərin ümidinə buraxılmış xalqına, Vətəninə xidməti öz üzərinə götürdü.

Azərbaycan torpaqlarının xeyli hissəsi əsasən yadellilərin geostrateji və iqtisadi maraqlarından irəli gələn məqsədlərindən, eyni zamanda, ya dövlət başçısının zəifliyi, laqeydliyi, yaxud tamahları ucbatından özgəninkiləşdirilmişdi.

Bəzən xalq arasında gəzən fikirlər yazılı sənədlər qədər mötəbər olur. SSRİ-nin dağılması ərəfəsində məxfi sənədlərin əldə edib oxuduğumuz surətlərindən, vaxtilə mühüm dövlət vəzifələri tutmuş şəxslərin yazılarında rast gəldiyimiz siyasi proqnozların, yayılan siyasi şayiələrin əsasən təsdiqini tapdığının şahidi olduq. Xarici ölkələrdə necə olduğunu deyə bilmərəm, ancaq deyərdim ki, SSRİ ərazisinin çox yerində "yazıq ermənilərə qonşusu azərbaycanlıların etdiyi zülmdən" danışılırdı. Qısa bir müddətdə yayılan bu cür şayiələri Moskvada, Leninqradda (indiki Sankt-Peterburqda), hətta Sibirdə və

Uzaq Şərqdə belə eşitmək bizi heyrətləndirməyə bilməzdi. Bu şayiələrin müxtəlif şəkillərdə ifadə edilməsinə baxmayaraq, məqsədli şəkildə aparılan təbliğatdan başqa bir şey olmadığını deyə bilərəm. SSRİ-nin ən ucqar nöqtələrindən biri olan Cənubi Saxalində adi mehmanxana işçisindən tutmuş istefada olan hərbçiyədək müxtəlif səviyyəli adamların "Bakıda ermənilərin sıxışdırılmasından", "Dağlıq Qarabağın erməni ərazisi olmasından", "ermənilərin vaxtilə türklər tərəfindən məhv edilməsindən" danışması təsadüfi deyilmiş (Bunlar təkcə 1990-cı ildə dissertasiya müdafiəsi üçün şura axtararkən və elmi ezamiyyətlərdə olarkən aldığım təəsuratlardır).

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə Azərbaycanın bir qarış torpağı da başqa ölkəyə verilməyib; Yuxarı (Dağlıq) Qarabağ ərazisinin Ermənistana verilməsinə dair əsassız iddiaların qarşısı alınıb; Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərin separatçılığının genişlənməsinə imkan verilməyib.

Azərbaycanın parçalanmağa, dövlət müstəqilliyini itirməyə doğru getdiyi bir vaxtda – 1993-cü ilin yayında isə xalq öz böyük oğlu Heydər Əliyevi siyasi hakimiyyətə dəvət etdi. Ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, qanunsuz silahlı birləşmələr ləğv edildi, daxili sabitlik yaradıldı və Azərbaycan bu sabitlik əsasında inkişaf etməyə başladı. On il ərzində müasir Azərbaycan dövlətinin quruculuğu prosesində misilsiz işlər görüldü. Bir sözlə, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu oldu. Heydər Əliyevin qurduğu bu dövlət yaşayır və sürətlə inkişaf edir. Azərbaycan Respublikasının apardığı müstəqil siyasət xalqımız və vətənimiz üçün yeni uğurlar gətirir.

Bütün bu inkişafın təməlində Heydər Əliyev amili, tarixin təltif etdiyi şəxsiyyət Heydər Əliyevin siyasəti dayanır. Dövlətimiz və xalqımız bu siyasətə sadiq olaraq Azərbaycan xalqının taleyini yaşayan Heydər Əliyevin yolu ilə gedir.

GİRİŞ

Azərbaycanın müasir tarixi Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. O, Azərbaycan xalqının tarixinin 40 illik bir dövrünün simvoludur.

Bu, dünya şöhrətli dahi bir siyasi xadimin, dünya xalqları içərisində azərbaycanlı adını daşıyan siyasi qüvvənin dövlətçilik tarixində mühüm mövqe tutması ilə əlamətdardır. Eyni zamanda, ali xarakterli, yüksək intellektual xüsusiyyətləri ilə səciyyələnən Heydər Əliyev fenomeni ilə bağlıdır. Şəxsiyyəti müəyyən zaman və məkana sığmayan Heydər Əliyevin idarəetmə gücünün, onun aurasının Azərbaycanın sərhədləri ilə məhdudlaşmadığını göstərən faktlardır. Heydər Əliyevin planetar miqyaslı, həmçinin özünün ideyası və layihələri ilə böyük şəxsiyyət olması çox yaxşı məlumdur. Bunlar, Ulu Öndərin vaxtilə tutduğu mövqeyi, SSRİ kimi nəhəng bir dövlətdə yaşayan on minlərlə insanın taleyini həll etməsinə dair tutarlı faktlarla təsdiqini tapmışdır.

Heydər Əliyev fenomeni iki əsas detalla, onun yaradıc-qurucu obrazı və tarixə öz möhürünü vurması ilə də tanınır. Bu, Heydər Əliyevin Sovet İttifaqı dövründə Azərbaycan KP MK-nın birinci katibi olması, eləcə də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, həm də Siyasi Büronun üzvü olaraq, Dünyanın nəhəng dövlətlərdən biri olan SSRİ-nin vacib strateji sahələrini idarə etməsi ilə bağlıdır. Buraya geniş spektrli problemlərin həlli, xarici siyasi əlaqələr ilə bağlı Yaxın Şərq, Mərkəzi və Cənub-Şərqi Asiya, Latın Amerikası ölkələrinin taleyüklü məsələlərinin həllində iştirakı daxil idi. O zaman böyük şəxsiyyət Heydər Əliyev ölkənin tikinti, səhiyyə, təhsil, gənclərlə iş kimi mühüm sosial-iqtisadi sahələrinə nəzarət və rəhbərlik edirdi.

Heydər Əliyevin titanik əməyinə, rəhbərlik və təşkilatçılıq istedadına görə Azərbaycan keçmiş SSRİ-nin ən qabaqcıl subyektinə çevrilmişdi. O dövrdə milli kadrların hazır-

Azərbaycan Milli Kitabxanası

lanmasına xüsusi diqqət yetirməsi Azərbaycanın gələcəyini görən, ona xidmət etməyi bacaran kadrların yetişməsinə şərait yaradan Ulu Öndərin xalqını sevməsindən irəli gəlirdi. O, gəncləri Azərbaycanın gələcəyi hesab edir, onların təhsili və məişət problemləri ilə şəxsən maraqlanırdı. Onun şəxsi təşəbbüsü ilə gənc azərbaycanlılar SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrinə göndərilirdi. Onların Vətənə qayıtdıqdan sonra respublikamızın inkişafı üçün fəaliyyət göstərmələri böyük rəhbərin uzaqgörənliyinin nəticəsi idi.

Sovetlər dövründə İkinci Dünya müharibəsində iştirakına görə, Azərbaycanın öz layiqli qiymətini ala bilməməsi Heydər Əliyevin bu istiqamətdə bir sıra həlledici addımlar atmasına, bununla da Azərbaycanın tarixdə yeri və rolunun düzgün göstərilməsinə nail olundu. Taqanroq şəhərində 416-cı Taqanroq diviziyasının memorial abidəsinin qoyulmasının (1980-ci il) təşəbbüskarı olan Heydər Əliyevin göstərdiyi qətiyyət, şəxsən bu abidənin açılışında iştirakı, bununla da Azərbaycanı sevməyən müəyyən qüvvələrə layiqli mesaj verməsi tarixi fakta çevrilmiş, yaddaşlara əbədi həkk olunmuşdur.

Heydər Əliyev Azərbaycanı təmsil edəcək SSRİ Ali Soveti deputatlarının keyfiyyətcə yüksək olmasına xüsusi diqqət yetirirdi. Çətinlik çəkmədən o, bu istəyini həyata keçirir, Azərbaycanın sanballı deputat korpusu ilə təmsil olunmasına nail olurdu. Bununla da azərbaycanlılar SSRİ xalqları arasında böyük hörmət qazanır, xalqımızın özünə layiq potensialı və real gücü qəbul edilirdi.

Heydər Əliyevin xüsusi qayğı və diqqəti sayəsində Azərbaycan beynəlxalq sərgilərin və elmi konfransların keçirildiyi yer kimi də məşhur idi. Dünyanın bir çox ölkələrinin parlament və hökumət rəhbərlərinin - Finlandiya, Yəmən, ADR, Macarıstan, Fələstin, Çexoslovakiya, Bolqarıstan, Suriya, Kuba, Efiopiya, Misirin rəhbərlərinin Azərbaycana gəlməsi Azərbaycanın tanınmasında xüsusi əhəmiyyətə malik idi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zaman SSRİ nümayəndə heyətinin başçısı kimi bir sıra Qərb və Şərq ölkələrinə, eləcə də Hindi-Çin və Latın Amerikası ölkələrinə rəsmi səfərlər etmiş, SSRİ dövləti adından danışıqlar aparmışdır. Onun Vyetnama, ADR-ə, Suriyaya, Hindistana, Yuqoslaviyaya, Meksikaya, Laos və digər ölkələrə dəvət olunması və SSRİ hökuməti adından danışıqlar aparması xalqımız, millətimiz üçün qürur mənbəyinə çevrilirdi. Çünki bu, türk dünyasının böyük oğlu - Heydər Əliyevin SSRİ məkanında nüfuzunun artması idi.

Ulu Öndərin keçdiyi böyük yolu olduğu kimi dərk edərkən məlum olur ki, Heydər Əliyev SSRİ-nin əsas liderlərindən olmuşdur.

1970-ci illərdən SSRİ-nin ucqarlarında belə tanınan Heydər Əliyev, sözün həqiqi mənasında, bütün sovet vətəndaşlarının həyatına daxil olmuşdu. Onun əbədi xatirəsi Sovet dövrünün ən enerjili liderlərindən biri kimi qaldı və bunu bilənlər çox yaxşı xatırlayırlar ki, ölkənin hər yerində Azərbaycanı Heydər Əliyevə görə tanıyırdılar.

Ulu Öndər Heydər Əliyev elmi ədəbiyyatda pedaqoq, tibb mütəxəssisi, mühəndis, nəqliyyatçı, yaxud dəmiryolçu və daha hansı sahələrin böyük bilicisi kimi təqdim olunur. Onu da əlavə etsək ki, Heydər Əliyev böyük tarixçi idi, səhv etmərik.

Heydər Əliyev öz bacarığı, dərin biliyi, dahiyanə ağlı, qeyri adi məharəti, dəmir məntiqi, tükənməz sərbəstliyi ilə bütün sovet xalqlarının əsl lideri, himayəçisi və istəklisi idi. Heydər Əliyevin RSFSR Ali Sovetinin deputatlığına Altay bölgəsindən seçilməsi ona olan ümumi sevgini üzə çıxardı. Heydər Əliyevi ona görə sevirdilər ki, o özü sadə xalqı sevirdi, bütün qəlbi ilə Azərbaycana bağlı idi.

Heydər Əliyevin Sov.İKP sıralarından çıxmaq haqqında bəyanatı, partiya üzvlüyünü tərk etməsi məqamı ümummilli liderin Azərbaycanın, öz xalqının naminə hər bir addımı

atmağa hazır olduğunu, həmçinin heç nədən çəkinmədən, cəsarətlə atdığı bu addımın doğru olduğunu göstərən faktlardır.

Taleyin ən mürəkkəb dövrlərində Azərbaycan xalqının harayına çatan Heydər Əliyevin doğru qərarlarından biri - Vətənə qayıtmaq, canından artıq sevdiyi, ömrünün çoxunu inkişafına, çiçəklənməsinə həsr etdiyi Azərbaycanı müstəqil dövlət kimi tanıtmaq və möhkəmlətmək amalı oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vurğuladığı kimi «... O vaxt Azərbaycandakı rəhbərlik bütün yollarla çalışırdı ki, Naxçıvanda Heydər Əliyevin mövqelərini sarsıtsın və onu orada rəhbərlikdən uzaqlaşdırsın.

Ancaq xalq həm Naxçıvanda, həm bütövlükdə Azərbaycanda həlledici sözünü dedi. Azərbaycanda vətəndaş müharibəsi başlanandan sonra artıq Naxçıvana, Heydər Əliyevə kütləvi qaydada müraciətlər gəlməyə başlamışdır ki, təkcə ona ümid bəslənilir və təkcə o, Azərbaycanı bu ağır vəziyyətdən xilas edə bilər. O vaxt xalqımızın, müstəqilliyimizin taleyi həll olunurdu».[1]

Həm xalqın qəzəbinə tab gətirməyən, həm də düşdükləri çıxılmaz vəziyyətdə AXC-Müsavat hakimiyyəti dövlət rəhbərliyinə Heydər Əliyevi təkidlə dəvət etməkdən başqa çıxış yolu tapa bilmədi. Taleyin iradəsi ilə Azərbaycan dövlətinə və xalqına tarixin ahəngini öz nəzarəti altına götürə biləcək, realist və praqmatik, cəmiyyətin bütün aparıcı qüvvələri tərəfindən qəbul edilən və onları öz arxasınca aparmağa qadir olan, xülya və təxəyyüllərdən uzaq daxili və xarici siyasət yeridə bilən şəxsiyyətin – xarizmatik lider Heydər Əliyevin yenidən respublika rəhbərliyinə, tarixə Milli qurtuluş günü kimi daxil olan 15 iyun 1993-cü ildə müstəqil Azərbaycanın rəhbərliyinə qayıdışı tarixi inkişafın, obyektiv ictimai-siyasi prosesin məntiqi nəticəsi, müasir Azərbaycanın müstəqillik yolu ilə irəliyə doğru hərəkəti üçün dönüş məqamı idi.

Son 13 il Heydər Əliyevin keşməkeşli ömründə ən mürək-

kəb illər oldu. Hakimiyyətə qayıdış, çoxsaylı terror aktları, dövlət çevrilişləri, Qarabağ müharibəsi, atəşkəs müqavilələrinin bağlanması və möhkəm bir düyünü xatırladan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi, neft strategiyasının parlaq təntənəsi, Heydər Əliyev siyasi xətti və diplomatik fəaliyyətinin əsasını təşkil etdi.

Hakimiyyətə qayıtdığı ilk vaxtlardan etibarən Heydər Əliyevin vətəndaş cəmiyyəti qurulması, dövlət quruculuğu prosesinin daha səmərəli şəkildə həyata keçirilməsi, ümummilli problemlərin uğurlu həlli ilə bağlı ölkənin bütün siyasi qüvvələri üçün nümunə ola biləcək konkret addımlar atması ilk növbədə xilaskarlıq missiyası idi.[2]

Heydər Əliyevin xilaskarlıq missiyasını yüksək qiymətləndirən akademik Ramiz Mehdiyev yazır: «Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağrılarını yaşayan dövlətimizin gələcək inkişaf strategiyasını dərin elmi və məntiqi əsaslarla müəyyənləşdirən, xalqı milli təhlaq hissindən və həmin dövrdə baş vermiş sosial-iqtisadi və ictimai-siyasi proseslərin nəticəsində yaranmış milli natamamlıq kompleksindən xilas edən, qələbə əzmini öz vətənpərvərlik ruhu ilə gücləndirən Heydər Əliyev tarixi şəraiti düzgün qiymətləndirərək, bu dövrün minimal itkilərlə və faciəsiz keçilməsini təmin etdi. Az vaxt ərzində ölkədə hakimiyyətsizliyə və total özbaşınalığa son qoyulması, vətəndaş qarşıdurmasından ümummilli həmrəyliyə keçilməsi, atəşkəs rejiminə nail olmaqla xalqın genefondunun əbəs yerə məhv olmasının qarşısının alınması onun böyük və çoxşaxəli fəaliyyətinin nəticəsi olmaqla, qeyri-müəyyənliklər içərisində çaşıb qalmış cəmiyyətə yenidən dirçəlmək, öz qüvvələrini quruculuq işlərinə səfərbər etmək imkanı verdi»[3].

Ümummilli lider Heydər Əliyevin vətənimiz, xalqımız, dövlətimiz üçün gördüyü nəhəng işlər hamını əmin etdi ki, Azərbaycanda onun yürütdüyü siyasətin alternativi yoxdur, ölkənin davamlı inkişafı, xalqın firavanlığı, xoşbəxt gələcəyi

məhz həmin siyasətin varisliyindən, dövlət hakimiyyətinin bu siyasətin həyata keçirilməsini təmin edəcək etibarlı davamçısından asılıdır.

Ulu öndər Heydər Əliyevin xalqımıza bəxş etdiyi dəyərlərdən biri də özünün siyasi məktəbində yetişdirdiyi bir şəxsin, Heydər Əliyev siyasi kursunun uğurlu davamçısı İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi idi.

Cənab İlham Əliyev həyatımızın və elmimizin, xüsusilə tariximizin öyrənilməsinə gündəlik qayğı göstərir. Son illərdə ölkə başçısının təşəbbüsü və çağırışı ilə tarixi keçmişimizə dair onlarla fundamental əsərlər nəşr olunmuş, erməni təcavüzkarlarına qarşı informasiya müharibəsində mühüm qələbələr qazanılmışdır.

Bunlarla yanaşı, aşağıdakıları da qeyd etməyi özümüzə borc bilirik:

Azərbaycanın, o cümlədən onun qədim tarixini və zəngin ənənələrini yaşadan əhalinin gözündə doğma vətənin inkişaf edib çiçəklənməsində əvəzsiz tarixi rolu olan Ulu Öndər Heydər Əliyev və cənab İlham Əliyev misilsiz insanlardır. «Qarabağın bütün guşələri, ... mənim üçün daha doğma, daha əzizdir» deyən Ulu Öndərin Qarabağı Azərbaycanın dilbər guşəsi adlandıran, onun Azərbaycanda xüsusi yeri olduğunu, həmçinin hər bir azərbaycanlı üçün doğma yer, doğma məkan olduğunu vurğulayan cənab İlham Əliyevin fikirləri ilə birbaşa bağlılıq var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Qarabağa göstərdiyi qayğı və xüsusi münasibətə dərin hörmətlə yanaşdığını və buna sadiq olduğunu dönə-dönə nümayiş etdirir.[4]

Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin yolunu davam etdirənləri, Heydər Əliyev kursuna sadiq və etibarlı insanları da yüksək qiymətləndirir. Bu cür ali keyfiyyətlərə malik insanlar hörmətli cənab Prezident İlham Əliyevin komandasında Heydər Əliyev kursuna sadiqliyi ilə seçilənlər sırasında xalqımızın

xüsusi rəğbət bəslədiyi Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın xüsusi yeri olduğu danılmazdır.

Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin, o cümlədən Qarabağ həqiqətlərinin dünya miqyasında təbliğ edilməsi və tanıdılmasında xüsusi xidmətləri vardır.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun nəşr etdirdiyi «Qarabağ həqiqətləri» bukletlər toplusu dünyaya yayılaraq erməni qəsbkarlarının iç üzünü açır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, Azərbaycan Respublikasının zorən qoşulduğu Qarabağ müharibəsinin tarixi, Xocalı soyqırımı, işğal altındakı torpaqlarımızda törədilən vəhşiliklər, maddi və mənəvi irsimizin amansızlıqla məhv edilməsi barədə nəşrlər silsiləsinin də Fondun diqqət mərkəzində saxlanılması çox təqdirəlayiqdir.

Son zamanlar Xocalı soyqırımı ilə bağlı Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə tanınması kampaniyasının təşkil edilməsi və bu missiyanın həyata keçirilməsi geniş vüsət almışdır. Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri və «Baku» jurnalının baş redaktoru Leyla Əliyeva Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqla, böyük tarixi bir missiyanı həyata keçirir.

Azərbaycanın müstəqilliyinin, ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməli qoyulmuş, həyatımızın bütün sahələrində köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmiş, dövlətimiz dünya birliyinin ayrılmaz tərkib hissəsinə çevrilmiş və orada öz layiqli yerini tutmuş, dünya siyasət səhnəsinin fəal iştirakçısına və güclü regional amilə çevrilmişdir. Bu gün Azərbaycan BMT, NATO, ATƏT, Avropa Şurası və İslam Konfransı Təşkilatında, bir sıra beynəlxalq maliyyə qurumlarında və digər dövlətlərarası və demokratik təsisatlar çərçivəsində xarici siyasət prioritetlərini həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, həqiqi dövlət müşaviri, akademik Ramiz Mehdiyev də bir ictimai xadim olaraq Heydər Əliyev şəxsiyyətini yüksək qiymətləndirir: «Heydər Əliyev fenomeni! Bu, bizim seçimimiz idi, yoxsa tarixin? Bəzən fərdlərin seçim imkanının məhdudluğu üzündən tarix onların köməyinə gəlir. Tarix zamanca vaxtına, məkanca yerinə düşmüş şəxsiyyəti onların köməyinə göndərir, çaşqınlıq içərisində yaşayan insanların həyatına müəyyənlik gətirir. Bu, tarixi şəxsiyyətlərin əbədi tarixi missiyasıdır. Bəşər tarixinin başlanğıcından bu günədək belə olub və bu cür şəxsiyyətlərin rolunu azaltmaq istəyənlərə tarix sübut edib ki, bu qanun zaman ölçüsündən ucadır. Azərbaycan vətəndaşının normal, dinc həyatını təmin etmək, onun siyasi, iqtisadi və sosial-mədəni sahədə yaradıcı fəaliyyətinə şərait yaratmaq, əsas hüquq və azadlıqlarını qorumaq ən mühüm vəzifələr kimi qarşıda dururdu. ... *Azərbaycanda anarxiya və hərbi çevrilişlər mərhələsi* 1993-cü ilin iyun ayının ortalarında yeni siyasi quruluş dövrü ilə - elmi əsaslara, məntiqə və siyasi təcrübəyə söykənən, beynəlxalq norma və prinsiplərə uyğun olan müstəqil dövlət quruculuğu dövrü ilə əvəz edildi».[5]

Ermənistan Respublikasının qeyri-konstruktiv mövqeyi, bəzi beynəlxalq təşkilatların və böyük dövlətlərin laqeydliyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsinin əsas səbəbidir. Bizcə, səbəblərdən biri də böyük siyasi təcrübəyə malik Heydər Əliyevin vaxtilə Dağlıq Qarabağın tarixi taleyinin həllinin gərginləşdiyi məqamlarda proseslərə rəsmi müdaxiləsinə imkan verilməməsi idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun 6 illiyinə həsr olunmuş mərasimdə demişdir: «Əgər Heydər Əliyev o vaxt Azərbaycanda qalsaydı və Azərbaycanın rəhbəri kimi fəaliyyət göstərsəydi, Dağlıq Qarabağda heç vaxt separatçılar baş qaldıra bilməzdilər. Heç vaxt bizim torpaqlarımız işğal altına düşə bilməzdi».[6] Ulu

Öndərin vurğuladığı kimi, «Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır».[7] Əlbəttə, Azərbaycan xalqına Heydər Əliyev kimi təcrübəli bir siyasətçi başçılıq etmiş olsaydı, Dağlıq Qarabağ faciəsinin qarşısını almaq olardı.

Tarix Heydər Əliyev şəxsiyyətinin qüdrətini, onun öz xalqının və milli dövlətçiliyimizin keşiyində duran, Azərbaycan varlığını müdhiş uçurumdan xilas edən müdrik strateq olduğunu artıq təsdiq etmişdir. Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın təcavüzə məruz qalan, Ermənistanın isə təcavüzkar olduğunun sübuta yetirilməsi, erməni millətçilərinin ölkəmizə qarşı yaratdığı informasiya blokadasının yarılması, müstəqil dövlətimizin dünya birliyində öz layiqli yerini tutması və digər reallıqlar Heydər Əliyevin zamanı qabaqlamağı bacaran nadir dövlət xadimi olduğunu təsdiqləyir.

Beləliklə, Heydər Əliyevin həyat və fəaliyyəti elə bir qaynaqdır ki, bu, indi çoxsaylı elmi tədqiqatların mövzusuna çevrilmişdir[8]. Bu əsər böyük rəhbərimiz, ulu öndərimiz, XX-XXI əsrin böyük azərbaycanlısı, dünya siyasətinin azərbaycanlı dahisinə, onun yürütdüyü uğurlu daxili və xarici siyasətinə böyük rəğbətlə yazılmışdır.

Kitabın müəllifi onun çapa hazırlanmasında əməyi olan xeyirxah niyyətli bütün şəxslərə, redaksiya, nəşriyyat və mətbəə işçilərinə təşəkkürünü bildirir, oxucularına isə Qarabağ torpaqlarının azad edildiyi günü tezliklə görməyi arzulayır.

I FƏSİL

ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TARİXİ VƏ MAHİYYƏTİ

1.1. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixşünaslığı

Məlumdur ki, XX əsrin II yarısı – XXI əsrin əvvəllərində Cənubi Qafqazın son üç əsrlik siyasi tarixinə dair həm xaricdə, həm də Azərbaycan Respublikasında çoxsaylı əsərlər yazılmışdır. Bu əsərlərin böyük əksəriyyəti, Azərbaycanda nəşr olunanları çıxmaq şərti ilə öz qərəzliliyi, qeyri-obyektivliyi və qeyri-elmiliyi ilə seçilir. Bunlar "demokratiya" rənginə boyadılmış siyasi konyunkturadır. Bəziləri, az miqdarda olsa da, münaqişəyə bitəraf qiymət verməyə təşəbbüs göstərilmiş yazılarla[9] yanaşı, ənənəvi birtərəflilikdən kənara çıxa bilməyən "neytral" təşəbbüslərdir[10].

Sirr deyil ki, ermənilərin və onların havadarlarının məzmun və mahiyyətinə görə ənənəvi yalan, böhtan və iftiralarla dolu «kitabları» geniş yayılmışdır.

Belə bir dövrdə müasir tariximizin ən mürəkkəb və ağrılı problemlərindən biri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və münaqişənin gedişində Azərbaycan Respublikasının məcburi cəlb edildiyi Qarabağ müharibəsinin həlli məsələsi öz obyektiv əksini Azərbaycan Respublikası ziyalılarının, filosof, tarixçi və siyasətçilərinin əsərlərində tapmışdır.

Bu baxımdan, akademik Ramiz Mehdiyevin əsərləri böyük əhəmiyyətə malikdir. Müasir Azərbaycanda ictimai-siyasi və fəlsəfi elmlərin bu səviyyəyə çatmasında onun müstəsna xidmətləri var. Azərbaycanda siyasi-ideoloji strategiya və

humanitar-ictimai oriyentirlər məhz akademikin əsərlərinin təsiri altında formalaşır.

Akademik Ramiz Mehdiyev müstəqil respublikanın dövlət quruculuğu prosesində bilavasitə iştirak edən bir şəxsiyyət kimi də zəmanəmizin çağırış və tələblərinə həssaslıqla yanaşır, bu istiqamətdə qarşıda duran məqsəd və vəzifələri müəyyənləşdirir, onların həlli yollarını göstərir. Onun əsərləri humanitar və ictimai elmlər, təbliğat və informasiya sahəsində yığılıb qalmış problemlər, milli ideologiyamızın mahiyyəti və XXI yüzillikdə onun məzmununun dəyişməsi və s. haqqındadır, vətənimizin bu günü və gələcəyi üçün dəyərli ideya mənbəyidir.

Akademik Ramiz Mehdiyev qloballaşma çağırışları, tarixi irs və müstəqillik fəlsəfəsi, dövlət və vətəndaş cəmiyyətinin inkişafı, demokratiyanın inkişafının müasir mərhələsinin xüsusiyyətləri kimi ən aktual mövzuları tədqiqata cəlb edir. Onun əsərlərində dünya tarixində, politologiya və ictimaiyyətşünaslığında Azərbaycan dövlətinin və millətinin mövcudluğunun mahiyyətini təşkil edən mövzular - Azərbaycan xalqının milli ideyası mövzusu xüsusi yer tutur, xalqımızın milli mənlik şüurunun oyanmasına, uğurlu tarixi inkişaf yolu keçməsinə xidmət edən tarixi proseslər dərindən şərh edilir.

Akademik Ramiz Mehdiyev «Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri» adlı əsərində[11] 1990-cı ilin yanvarında Bakıda törədilmiş 20 Yanvar faciəsini dərin tarixi-elmi planda və dünya tarixi kontekstində ilk dəfə olaraq qələmə almış, bu qanlı faciənin ictimai-siyasi və tarixi köklərini üzə çıxarmış, faciə ilə əlaqədar hadisələri, prosesləri elmi tədqiqat süzgəcindən keçirmişdir.

Müəllif Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətlə bağlı dərin elmi təhlil aparmış, o zamankı Azərbaycan hökumətinə rəhbərlik edənlərin mütiliyini, xalqa qarşı xəyanətkar mövqe tutduqlarını, Kreml rejiminin Dağlıq Qarabağın erməni separatçılarını açıq-aşkar himayə və müdafiə etməsini, xalqımıza qarşı aparılan informasiya müharibəsini və s.

hərtərəfli şərh etmişdir.

Akademik bu əsəri ilə Azərbaycan Respublikası ərazilərinə erməni təcavüzünü, DQMV-nin sosial-iqtisadi vəziyyətinə dair uydurulmuş problemin əsil mahiyyətini, Ermənistanın Azərbaycan Respublikasına qarşı ərazi iddialarının kökünü hərtərəfli və konkret şəkildə anlatmış, Azərbaycan xalqına qarşı yönəldilmiş güclü təxribatın məğzini açmışdır. Əsərdə «Böyük Ermənistan» yaratmaq xəstəliyinə tutulmuş ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri bütün soyqırımıların, o cümlədən Xocalı soyqırımının, indiyədək həll olunmamış Dağlıq Qarabağ münaqişəsinin kökündə məhz Rusiyanın imperiyaparəst, şovinist dairələri ilə erməni millətçilərinin ittifaqının durduğu mənfur siyasət açıqlanmışdır.

«XXI əsrdə milli dövlətçilik» əsərində isə o, Azərbaycanda ictimai-siyasi fikrin inkişafında yeni mərhələnin başlanğıcını qoymaqla, ölkədə gedən müasir quruculuq prosesinin nəzəri özünüdərkinin əsasını yaratmışdır.[12]

Akademik Ramiz Mehdiyev cəmiyyətdə gedən ictimai-siyasi proseslərin mahiyyətini və ideya əsaslarını açmış, mühüm ideya istiqaməti müəyyənləşdirmişdir. Müəllif Heydər Əliyevin fəaliyyətini sadəcə işıqlandırmır, hər bir fikrin bütün çalarlarını çatdırır. Mahiyyət etibarilə dərin məzmun kəsb edən aforizmlərin əhəmiyyətini şərh edir. Digər tərəfdən, onun bilavasitə Heydər Əliyevdən bəhs edən məqalələri də, əslində, ictimai-siyasi proseslərin məcmusunu, Azərbaycanda dövlət quruculuğunun mühüm mərhələlərini əhatə edir. Heydər Əliyevin həyat və fəaliyyətinə yaxından bələd olan akademikin ulu öndərin fikir və mülahizələrinə verdiyi izah və şərhlər mötəbərliyi ilə seçilir.

Qloballaşmanın tələbləri ilə üzləşdiyimiz, Avropaya inteqrasiya olunduğumuz, informasiya və kommunikasiya texnologiyalarının rolunun artdığı bir dövrdə cəmiyyətimizin milli ideologiyasının beynəlxalq aləmin aparıcı ictimai-siyasi fikirləri kontekstində özünə yer tutması mühüm əhəmiyyət kəsb edir.

Buna görə də Azərbaycanın öz tarixi keçmişinə nəzərən inkişaf yolunu düzgün müəyyənləşdirməsi, xarici müdaxilələrə, daxili separatizmə imkan vermədən keçid mərhələsini uğurla başa vurması zəruri idi. Mövcud ictimai-siyasi proseslərin həm tarixi, həm də fəlsəfi-siyasi aspektlərinin nəzərdən keçirilməsinə ehtiyac hiss edilərkən, tarixin ibrət dərsləri nəzərə alınmaqla, ictimai inkişafın düzgün proqnozlaşdırılması xüsusi diqqət tələb edirdi. Çox vacib və həyati əhəmiyyəti olan bu məsələlərdə ümumi istiqamətlərin müəyyən edilməsində lazımi mövqe tutmaq üçün Ramiz Mehdiyevin tədqiqatlarının əhəmiyyəti şəksizdir.

Ölkəmizdə müasir siyasətşünaslığın banisi Ramiz Mehdiyevin əsərlərində Azərbaycanda gedən proseslər dünyanın ictimai-siyasi mənzərəsində baş verən yeni meyllərin aşkara çıxarılması istiqamətində öyrənilir. Onun müasir dövrün aktual problemlərinə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi məsələsinə, ölkəmizin hazırkı lideri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətçiliyinin inkişaf perspektivlərinə dair son müsahibələri qüdrətli bir strateq mövqeyidir.

Təbiidir ki, ulu öndər Heydər Əliyevin ictimai-siyasi və elmi-tarixi irsinin tədqiqi və təbliği müasir tarixşünaslığımızın ən aktual problemlərindən biridir. Bu məsələdə böyük intelektual səviyyəyə, geniş təfəkkürə malik alim şərhinə həmişə ehtiyac olub və olacaqdır. Bu sahədə ən dəyərli işlərdən biri də Azərbaycan Fəlsəfə və Sosial-Siyasi Elmlər Assosiasiyasının nəzdində Əliyevşünaslıq İnstitutunun yaradılmasıdır. İnstitutun Heydər Əliyevin fəlsəfi fikirlərinin, ictimai-siyasi görüşlərinin elmi-nəzəri səpkidə araşdırılması istiqamətində geniş fəaliyyəti cəmiyyətimizin ictimai-siyasi düşüncə tərzini, şəxsiyyətin tarixdə rolu haqqında bilikləri zənginləşdirir. Aparılan tədqiqatlar təkcə Heydər Əliyevin elmi-nəzəri irsini öyrənməklə məhdudlaşmır, bütövlükdə, Azərbaycan Respublikasında dövlət quruculuğunun elmi əsaslarının öyrənilməsini də əhatə edir[13]. Respublikanın elmi tədqiqat müəssisələrində, ali təhsil

ocaqlarında, kitabxanalarda, eləcə də bir sıra şəhər və rayonlarda bu təşəbbüslə əlaqədar yaradılmış mərkəzlərdə ulu öndərin irsi öyrənilir və təbliğ edilir.

Məlumdur ki, Heydər Əliyevin qurub-yaratdığı və başçılıq etdiyi müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin əsas xəttini «Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi» məsələsi təşkil etmişdir. Bu mövzuda yazılan əsərlərdə Dağlıq Qarabağla bağlı həqiqətlər ortaya qoyulur, erməni yalanları ifşa edilir.

Dağlıq Qarabağa iddia edən ermənilərin, nəinki Azərbaycan ərazisinə, eləcə də Ön Asiyaya və Cənubi Qafqaza gəlmə, köçürülmə etnos olması akademik Ramiz Mehdiyevin «Gorus-2010: absurd teatrı mövsümü» monoqrafiyasında dərin elmi əsaslarla öz əksini tapmışdır[14].

Müəllif Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini yığcam və konkret şəkildə belə şərh etmişdir: «Onlar mənasız müharibədə minlərlə taleyin qırılmasından, milyonlarla qaçqından, dağıntılardan, geniş sahələrin becərilmək əvəzinə minalanmasından, sosial xərclər əvəzinə hərbi xərclərin artırılmasından başqa heç nəyə nail olmamışlar...».[15]

Akademik Ramiz Mehdiyevi bu əsəri yazmağa Ermənistan prezidenti Serj Sarkisyanın 2010-cu il oktyabrın 16-da Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisindəki Gorus şəhərində erməni diasporunu təmsil edən jurnalistlər qarşısındakı çıxışı sövq etmişdir. O, mötəbər tarixi mənbələrə əsaslanaraq, dərin məzmunlu və inandırıcı təhlillər aparmış, tarixşünaslığımız üçün dəyərli bir əsər yaratmışdır. Müasir tarixşünaslığımızda hadisə hesab olunan bu əsər mühüm ictimai-siyasi təsir gücünə malikdir.[16]

Tarixi prosesləri diqqətlə izləyən müəllif «Gorus-2010: absurd teatrı mövsümü» kitabında ermənilərin beynəlxalq ictimaiyyəti uydurma və yalanlarla çaşdıran, tarixi saxtalaşdıran simalarını nəinki tənqid etmiş, habelə yeni elmi dəlil-

lərlə ifşa etmişdir. Çoxsaylı tarixi faktlara söykənən bu əsərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti şərh edilmiş, münaqişənin indiyədək həll olunmamasının səbəbləri açıqlanmışdır.

Xüsusi vurğulamaq lazımdır ki, akademik Ramiz Mehdiyevin bu əsəri erməni müəlliflərin müxtəlif səviyyəli böhtan, saxtakarlıq və yalanlarla dolu yazılarına bu günə qədər verilən cavablardan ən güclüsü və sanballısıdır. Burada nəinki «Qədim erməni dövləti», «Şərqi Ermənistan» və s. kimi uydurmalara, həm də «Böyük Ermənistan» xülyasına uyanlara tutarlı cavab verilmişdir.

Akademik Ramiz Mehdiyev Azərbaycan xalqının bu torpaqların qədim sakini, qədim daş dövrünün Quruçay mədəniyyətini, sonrakı Kür-Araz, Xocalı-Gədəbəy mədəniyyətlərini yaradanların varisi olduğunu tutarlı fakt və dəlillərlə şərh etmişdir. Eyni zamanda 5 min ildən artıq dövlətçilik ənənəsi olan, bu torpaqlarda daimi yaşayıb yaradan xalqımızın böyük dövlətlər və imperiyalar yaratmasının tarixi həqiqət olduğunu bir daha bəyan etmişdir[17].

Tarixi faktlar və tədqiqatlar göstərir ki, qədim etnosların qarşılıqlı münasibətləri fərqli olmuşdur. Qafqazın türk və digər yerli xalqlarının qədimdən mövcud olan tarixi dostluq münasibətləri bu gün də həmin ənənələr əsasında davam edir. Qədim iskit-sakların, kimmerlərin, sarmatların, massagetlərin, alanların, xəzərlərin, albanların, iberlərin, osetinlərin, ləzgilərin, çeçenlərin və başqa xalqların etnik, siyasi, iqtisadi və mədəni əlaqələrinin müxtəlif səviyyələrdə qarşılıqlı münasibətlərinin mövcudluğunun tarixi ənənələri bu gün də öz təsirini saxlamışdır[18]. Qafqazda qədim dövrdən yaşayan etnosları birləşdirən onların müsbət münasibətlərinin olmasıdır. Belə olan halda, hərbi-siyasi gərginliklər bu münasibətləri tamamilə korlaya bilmir. Çünki bu etnoslar arasında olan tarixi qarşılıqlı münasibətlətin müsbət ruşeymləri onların düşmənçilik ruhunda davam etməsinə imkan

vermir. Təəssüf ki, Qafqaza sonralar gəlmiş erməni etnosu əzəldən bu qarşılıqlı münasibətlərin korlanmasına çalışmış, iri dövlətlərin bu bölgədəki maraqlarından öz xeyrinə istifadə etmişdir.

«Gorus-2010: absurd teatrı mövsümü» əsərində obyektiv tarixi faktlara əsaslanan müəllif müasir dövrdə ermənilik və erməni siyasətinə, erməni saxtakarlığı və hiyləgərliyinə tarixi, siyasi və fəlsəfi baxımdan kəskin münasibət bildirmiş, Azərbaycan torpaqlarına köçürüldükləri vaxtdan münaqişələr yaradan, torpaq iddiası ilə etnik təmizləmə aparan, separatizm, terrorizm yolu ilə dövlətçiliyə və insanlığa qarşı vəhşiliklər törədən ermənilərin ədalətdən danışmağa haqqının olmadığını vurğulamışdır.

Akademik Ramiz Mehdiyevin bu əsəri erməni düşüncəsinə hakim kəsilmiş saxtakarlıqları açıqlamaqla, tarixi həqiqətləri ortaya qoymaqla erməni liderlərinə ciddi təsir etmişdir. Artıq xeyli vaxtdır ki, Ermənistan rəhbərləri daha Cənubi Qafqazda "aborigen" (yerli) olmaqlarından deyil, azərbaycanlılar tərəfindən tarixi-ideoloji cəhətdən «sıxışdırılmaqlarından» danışırlar.

Ulu öndər Heydər Əliyevin beynəlxalq səviyyədə etdiyi çıxışlarında Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı və müasir ərazisinin bir hissəsi olduğunu, ulu öndərin davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarını şərh edərkən tarixi faktlar və məntiqi dəlillərə əsaslanan akademik Ramiz Mehdiyev, bir qayda olaraq, erməni yalanlarının ifşa edildiyini xüsusi vurğulayır.[19]

Azərbaycan cəmiyyətini və elmi ictimaiyyətini ciddi narahat edən problemlərdən biri tarixi azərbaycanlı-türk torpaqlarında – indiki Ermənistan ərazisində Azərbaycan türklərinə məxsus yer adlarının rəsmi və qeyri-rəsmi dəyişdirilməsidir. Akademik Ramiz Mehdiyev Qərbi Azərbaycanda İrəvan xanlığının ərazisində yaşamış Azərbaycan türklərinin izlərini məhv etmək məqsədi ilə yüzlərlə toponimin sovet dövründə adlarının dəyişdirilərək onlara erməni adla-

rı qoyulmasına, bu toponimlərin yox olmasına xüsusi diqqət çəkir, ermənilərin bu əməllərini davam etdirməsinə, beynəlxalq təşkilatların isə bu siyasətə ciddi reaksiya verməməsinə alim kimi, Azərbaycan elmi ictimaiyyətinin lideri kimi etirazını bildirir.[20]

Akademikin tənqid hədəfi müasir həyatda öz cinayətkar əməlləri ilə tanınan, lakin «böyük güclər» tərəfindən himayə, müdafiə və idarə edilən, yüksək vəzifəli adamlardır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasını, ərazimizin 20%-nin işğal altında qalmasını akademik Ramiz Mehdiyev xalqımızın tarixlər boyu qoruyub saxladığı dövlətçilik ənənələrinə vurulmuş ağır zərbə kimi şərh edir, münaqişənin əsl mahiyyətini açıqlayır. Azərbaycana məxsus torpaqların bir daha Ermənistana birləşdirilməsinə imkan verilməyəcəyini vurğulayır. Bildirir ki, «Dağlıq Qarabağı Ermənistana birləşdirmək mümkün olmamışdır və heç vaxt mümkün olmayacaqdır – nə 20 il bundan əvvəl, nə bu gün, nə də 100 ildən sonra».[21]

Akademikin təkcə elə bu kitabındakı elmi-siyasi fikirləri son 200 ildə regionda baş verən ictimai-siyasi proseslər haqqında indiyə kimi müsbət mənada yazılanların gücünü birə-beş artırır.

Akademik Ramiz Mehdiyevin ideya rəhbərliyi ilə hazırlanan, dünya azərbaycanlıların ümummilli lideri Heydər Əliyevin əbədiyaşar xatirəsinə həsr edilmiş «Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi» adlı 2 cildlik monoqrafiya ulu öndərin bu sözləri ilə açılır: «Azərbaycanlılara qarşı soyqırımı siyasətini ifşa etmək, bütün həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün müəyyən işlər görülmüşdür. Lakin bu sahədə hələ qarşıda görüləsi işlərimiz çoxdur...»[22]. Bu qiymətli tarixi salnamə ulu öndərin çağrışına və tövsiyəsinə layiqli cavabdır.

Sözügedən monoqrafiyada Heydər Əliyevin «Xalqımıza qarşı əsrlər boyu müntəzəm surətdə ağır cinayətlər törədil-

miş, məkrli niyyətlər gerçəkləşdirilmişdir. Öz ağırlığına, miqyasına və nəticələrinə görə bunlar həm də bəşəriyyətə qarşı cinayətlər kimi xarakterizə olunmalı, beynəlxalq hüquqi-siyasi qiymətini almalı, onun ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdır. Bunu təmin etmək bizim hamımızın ümumi vəzifəmizdir» fikrində xalqımızın qarşısında duran bugünkü əsas vəzifənin nədən ibarət olduğu bir daha xatırladılır[23].

İkicildlik həm də ulu öndərin bu tarixi tələblərinə cavab verir, Azərbaycan xalqının məruz qaldığı soyqırımlarının unudulmaması və onların bir daha baş verməməsi, günahkarların layiqli cəzaya məhkum ediməsi uğrunda həyata keçirilən bugünkü ideologiyamıza tamamilə uyğundur.

Ramiz Mehdiyev işğalçı Ermənistanın siyasətinə nəzər salaraq, onun müasir dünyada «kölgəli», Azərbaycan Respublikasının isə mötəbər mövqeyini belə xatırladır: «Azərbaycanın beynəlxalq nüfuzunun, iqtisadi və hərbi qüdrətinin artması fonunda Ermənistan hərbi blokun arxasında gizlənməyə çalışır. Halbuki, Ermənistandan başqa bu blokun bütün üzvləri Azərbaycana dost ölkələrdir və onlar Ermənistanın işğalçı mahiyyətini başa düşürlər».[24]

Akademik Mehdiyev bu siyasətin fəlsəfəsini açmaqla onun yüksək amal kəsb etdiyini bildirir: «Dövlətin, millətin gələcək strategiyasını, daxili və xarici problemləri həll etmək yollarını tarixi şəxsiyyətlər müəyyən edir, formalaşdırır. Uğurlara və uğursuzluqlara, qələbə və nailiyyətlərə görə də gələcək qarşısında məhz onlar məsuliyyət daşıyırlar. Əzəldən bəri belə olmuşdur, bundan sonra da belə olacaqdır. Qədimdən bu günədək dövlətlər yaranır, millətlər dirçəlir, bunu həyata keçirə bilməyənlər isə tale qarşısında öz acizliklərini sübut edirlər. İnkarolunmaz həqiqətdir ki, dünyanı ideyalar idarə edir. İdeyaları gerçəkləşdirən, tarixi prosesləri təsir gücünə malik real qüvvəyə çevirən tarixi şəxsiyyətin əzmi, siyasi iradəsidir.

Tarixdə hər şey şəxsiyyətlə və şəxsiyyət vasitəsilə həyata keçirilir. İdeya yalnız onda təcəssüm edir. Tarix sübut edir ki, gələcəyə şəxsiyyətlərin açdığı yol və gördükləri işlər gəlib çıxır. Azərbaycanın gələcəyi üçün yol isə 1993-cü il iyunun 15-də açılıbdır. Müstəqilliyə, azad, demokratik gələcəyə və vətəndaş cəmiyyətinə aparan yol nə qədər çətin və məşəqqətlidirsə, bir o qədər də müqəddəs və şərəflidir».[25]

Akademik Azərbaycan xalqının tarixi keçmişini, dövlətçilik ənənələrini və mədəniyyətini dünya ölkələri sırasında yer tutan respublikamızın müasir səviyyəsini, onun zənginləşməsinin səbəblərini hərtərəfli açıqlamaqla bərabər, bu yüksək fazada dayanan böyük şəxsiyyəti olduğu kimi təqdim etmişdir: «Zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı əsrlər boyu müstəqillik arzuları ilə yaşamış və öz tarixinin ayrı-ayrı dövrlərində güclü, müstəqil dövlətlər qurmağa da müvəffəq olmuşdur. Bu dövlətlər xalqımızın maddi-mədəniyyət abidələrinin, ədəbiyyatının, dilinin, mənəvi-əxlaqi dəyərlərinin inkişafmda və qorunub saxlanmasında mühüm rol oynamışlar. Eyni zamanda, qeyd edilməlidir ki, xalqımız öz qədim və zəngin tarixi ilə istedadını, qabiliyyətini eramızdan əvvəl III minillikdən, qədim Mannadan, Albaniyadan başlayaraq zaman-zaman müstəqil dövlət halında yaşamaq haqqını sübut etmişdir. Yaxın və Orta Şərqdə ilk dramaturgiya, ilk opera, ilk qəzet Azərbaycanda meydana gəlmiş, latın əlifbasına keçməyə burada cəhd göstərilmişdir. Müsəlman Şərqində ilk demokratik respublika Azərbaycan xalqı tərəfindən qurulmuş, bütün Şərqdə müasir parlament mədəniyyətinin əsası məhz Azərbaycanda qoyulmuşdur. Sovet hakimiyyəti illərində, xüsusən 1970-1980-ci illərdə Azərbaycanın iqtisadiyyatı, elmi, mədəniyyəti, kadr potensialı güclü inkişaf etmiş, gələcək müstəqil dövlətin möhkəm təməli qoyulmuşdur. Bu dövrdə milli mənlik şüurunun güclənməsi, tarixi yaddaşın oyanması, mədəniyyətimizin və ədəbiyyatımızın inkişafı, milli-mənəvi dəyərlərin təbliği ta-

mamilə yeni mənəvi-psixoloji mühit yaratmışdır.

Öz tarixinin və taleyinin sahibi olmaq, dünya birliyinə daxil olan dövlətlər sırasında özünün siyasi varlığını sübut etmək, çox vaxt milli inkişaf maraqları ilə üst-üstə düşməyən qlobal proseslərin milli hakimiyyətə təsir qüvvəsini tarazlaşdırmaq, qlobal siyasi avantüralara cəlb olunmaq təhlükəsindən kənarda qalmaq bacarığı milli müstəqilliyin qorunmasının əsas şərtlərindəndir.

Müstəqillik illərində keçdiyimiz yola nəzər salmaq, qələbələrimizlə yanaşı, çətinliklərimiz və problemlərimizi təhlil etmək çox vacibdir. Gələcək tədqiqatların araşdırma obyektinə çevriləcək bu illər, heç şübhəsiz ki, Heydər Əliyev kimi yenilməz iradə sahibinin fəaliyyəti sayəsində anarxiyadan sabitliyə doğru inkişafın xüsusi mərhələsi kimi qiymətləndiriləcəkdir. Təcrübə göstərir ki, keçid dövrünü yaşayan hər bir xalqın tarixi taleyində xüsusi sınaq mərhələsi olmuşdur. Bu dövrü yaşayan dövlətlərin qarşılaşdıqları çətinlikləri dəfetmə müddətləri, konkret daxili və beynəlxalq şəraitdən asılı olaraq müxtəlif olmuşdur. Ayrı-ayrı ölkələrin, o cümlədən müasir Avropanın inkişaf etmiş dövlətlərinin tarix boyu bir-birini əvəz edən dövlət quruculuğu təcrübələri buna əyani sübutdur.»[26]

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə, münaqişənin sülh yolu ilə həllinə dair yazılmış kitablar da var ki, bunların da içərisində Əli Həsənovun əsərləri xüsusi yer tutur. Onun əsərlərində həm də beynəlxalq təşkilatlarda, xüsusilə BMT, ATƏT, AŞ-da, eləcə də böyük dövlətlərin siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı diplomatik danışıqlar işıqlandırılmışdır. Bu baxımdan onun «Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru» əsərində Azərbaycan Respublikasının dünya siyasətində aparıcı yeri olan ABŞ-la münasibətlərin dinamik inkişafı şərh edilmişdir.[27] Monoqrafiyada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsinin həllində rəsmi Vaşinqtonun yürütdüyü sülh siyasəti öz əksini tapmışdır.

Əli Həsənovun «Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996)» monoqrafiyasında[28] Azərbaycan Respublikasının xarici siyasət xəttinin əsas istiqamətlərindən biri olan - Avropa dövlətləri və ABŞ-la diplomatik münasibətlərin, qarşılıqlı əlaqələrin yaradılmasına və inkişafına yönəlmiş Qərb siyasəti tədqiq edilmişdir. Burada müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin vəzifələri, prinsip və xüsusiyyətləri, əsas istiqamətlərinin elmi-nəzəri konseptual məsələləri, Qərb siyasətinin inkişaf mərhələləri, xarici siyasət konsepsiyasının formalaşması və həyata keçirilməsində Heydər Əliyevin prezidentliyi dövründəki diplomatik fəaliyyətin mühüm məqamları elmi-siyasi yöndə araşdırılmışdır. Monoqrafiyada qeyd edilən zaman çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər, Azərbaycan dövlət başçısının respublika daxilində və eləcə də xarici ölkələrə səfərlərində bu problemlə əlaqədar görüşləri və apardığı danışıqlar öz əksini tapmışdır.[29]

Əli Həsənovun «Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda» əsərində, adından da göründüyü kimi, Dağlıq Qarabağ münaqişəsi ümumavropa təhlükəsizliyi fonunda araşdırılmışdır.[30]

Onun «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti» əsərində beynəlxalq münasibətlər sisteminin formalaşması və inkişaf mərhələləri, müasir dünya siyasətinin xarekteristikası, meyilləri və əsas amillər; beynəlxalq və regional məsələlər, o cümlədən müstəqil Azərbaycan Respublikasının xarici siyasəti, habelə ölkəmizin təhlükəsizlik poblemləri və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz əksini tapmışdır[31].

Yaqub Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" monoqrafiyasında Heydər Əliyev şəxsiyyə-

tinə Azərbaycanın dövlətçilik tarixi fonunda nəzər salınmış, dahi dövlət xadiminin doğma xalqa bəxş olunmuş ömür yoluna ayrıca başlıqlar həsr olunmuşdur[32].

Yaqub Mahmudovun «Heydər Əliyev ideyalarının zəfər yürüşü» monoqrafiyasında Heydər Əliyev şəxsiyyəti, onun zəngin irsinin və ideyalarının davamçısı olan Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti, bu siyasətin uğurları Azərbaycanın dövlətçilik tarixi fonunda şərh edilir. Əsərdə ulu öndərin doğma xalqına bəxş olunmuş ömür yoluna «Azərbaycanın dövlətçilik tarixindən», «Azərbaycan dövlətçiliyinin xilaskarı», «Ötən minilliklərin tarixinə Heydər Əliyev baxışı və ya tariximizin dirçəliş konsepsiyası», «Qurtuluş mübarizəsinin qalibi», «Yeni Azərbaycan Partiyasının banisi, Yeni Azərbaycanın qurucusu», «Ata Yurdumuzun Atatürkü» adlanan ayrıca başlıqlar həsr olunmuşdur[33].

Yaqub Mahmudov və Kərim Şükürovun Azərbaycan Respublikasının Qarabağ bölgəsinin real tarixi faktlar və sənədlər əsasında yazdıqları və altı dildə nəşr edilmiş «Qarabağ: real tarix, faktlar, sənədlər» əsərində Azərbaycanın tərkib hissəsi olan Qarabağın tarixi yığcam şəkildə şərh edilmişdir[34].

Tanınmış Azərbaycan yazıçı-publisisti Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və Zaman" roman-tədqiqatında Heydər Əliyev fenomeni, habelə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasi proseslərə dair dəyərli məlumatlar verilmişdir.

Beləliklə, Azərbaycan Respublikasının qədim tarixə, zəngin mədəniyyətə malik regionlarından biri olan Qarabağın tarixini saxtalaşdıran, mədəniyyət ənənəsini mənimsəyərək özününküləşdirməklə milli mədəniyyət abidələrimizə sahib çıxmağa çalışan bədxah qonşularımızın böhtanlar uydurduğu[35], cəfəng tarix yaratdığı, ölkəmizə təcavüz edərək ərazilərimizin 20 faizini işğal altında saxladığı bir zamanda Qarabağla bağlı Azərbaycan həqiqətlərinin obyektiv işıqlandırılması, dünya miqyasında yayılması xüsusi əhəmiyyət kəsb edir.

1.2. Azərbaycan SSR ərazisində DDQMV-nin yaradılmasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Çar Rusiyasının və Sovet imperiyasının Cənubi Qafqaz siyasətində erməni amilindən istifadə

Qarabağ dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx, Tağlar düşərgəsi insanlarının yaşadığı ərazidir. Bura Paleolit dövrünün Quruçay, sonrakı Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış məskənidir.

Antik dövrdə Qarabağ ərazisi Albaniyanın tərkibində ən iri vilayətləri əhatə etmişdir. Qaynaqlar Kür və Araz çayları arasında yerləşən Qarabağ bölgəsi tayfalarının alban-türk mənşəli olmasını təsdiq edir. Uti, Paytakaran və Arsakda əsasən türk mənşəli tayfalar – albanlar, utilər, qarqarlar və savdeylər, həmçinin gəlmə tayfalar maskutlar, saklar, gellər və ballar yaşayırdılar. Albaniyada erkən orta əsrlərdə müxtəlif cinsli çoxsaylı səslərdən tərtib edilmiş xüsusi yazı mövcud idi. Alban əlifbası zəngin boğaz səsləri olan qarqar ləhcəsi əsasında yaradılmışdı və 52 işarədən ibarət idi. V əsrin əvvəllərində Albaniyanın mərkəzi Bərdədə məktəb var idi. Çar III Vaçaqanın əmri ilə açılmış xüsusi məktəblərdə uşaqlara yazı və dini ehkamlar öyrədilirdi.

Albaniyada, o cümlədən Qarabağda xristianlıq IV əsrin əvvəllərindən rəsmi dövlət dininə çevrilmiş, lakin geniş yayılmamışdı.

IV-VII əsrlərdə Albaniyanın bir sıra vilayətlərində, o cümlədən Qarabağ ərazisində - qədim Uti və Arsak vilayətlərində alban xristian monastırları tikilmişdi.

Albaniya Cavanşirin hakimiyyəti dövründə (616-681) siyasi, iqtisadi və mədəni cəhətdən inkişaf etmiş qüdrətli

dövlətə çevrilmişdi.

VII əsrdən başlayan ərəb yürüşləri Albaniyanın zəbt edilməsi ilə nəticələndi. VIII əsrin əvvəllərində ərəblər Albaniya dövlətini ləğv etdilər. Ölkənin idarəçiliyi Xilafətin canişinləri tərəfindən həyata keçirilirdi. Azərbaycanın hər yerində olduğu kimi, Qarabağda da yeni dövr başlandı.

X əsrin sonlarında ərəb xilafəti parçalandıqdan sonra isə Qarabağ ərazisində (Yuxarı Qarabağda) Sünik və Arsax-Xaçın (Arsak türk mənşəli ərsak sözüdür) knyazlıqları yarandı. Alban soyuna mənsub olan Həsən Cəlalın dövründə (1215-1261) yüksək inkişaf mərhələsinə çatdı. Gəncəsər (Qanzasar) alban xristian məbədi də onun zamanında tikilmişdi.

Qarabağ ərazisi XII əsrin birinci rübündən Azərbaycan Atabəyləri dövlətinin tərkibinə daxil oldu. Belə ki, 1136-cı ildə Səlcuq sultanı Məsud bu əraziləri atabəy Şəmsəddin Eldənizə bağışlamışdı. Atabəyiliyin ilk paytaxtı əvvəl Qarabağda - Bərdədə olmuş, sonra Naxçıvana köçürülmüşdür [36].

XIII əsrin əvvəllərində bütöv Azərbaycan, həmçinin Qarabağ böyük Hülakülər dövlətinin hakimiyyəti altına keçdi. XIV əsrin sonlarında tərkibində Qarabağın da olduğu Cəlairilər dövləti Teymurun hücumları nəticəsində süquta uğradı. XV əsrdə Qarabağ Teymurilərlə Qaraqoyunluların müharibə meydanına çevrildi. 1410-cu ildən etibarən Kürdən cənubda yerləşən Azərbaycan torpaqları Qaraqoyunluların hakimiyyəti altına düşdü.

1501-ci ildə I Şah İsmayılın başçılığı altında Azərbaycan Səfəvilər dövləti yarandı. Səfəvilərin yaratdığı inzibati ərazi bölgülərindən biri olan Qarabağ bəylərbəyiliyinin tərkibinə XVII əsrdən XVIII əsrin əvvəlinə qədər Astabad, Cavanşir, Bərgüşad, Qazax, Şəmşədil bölgələri daxil idi. Qarabağ əhalisinin əsas, aparıcı hissəsi türk tayfalarından ibarət idi.

XVIII əsrin ortalarında Nadir xan Əfşar Səfəvilər sülaləsinin hakimiyyətinə son qoydu, Əfşarlar imperiyasını yaratdı. Lakin onun ölümündən sonra (1747-ci il) imperiya

müstəqil feodal dövlətlərə parçalandı. Azərbaycan ərazisində 20 xanlıq və 7 sultanlıqdan ibarət feodal dövlət qurumları yarandı. Bu xanlıqlardan biri Kür və Araz çayları arasında böyük ərazini əhatə edən Qarabağ xanlığı idi. Onun əsasını Cavanşirlər sülaləsinin Sarıcalı oymağından olan Pənah Əli xan qoymuşdu.

Hələ XVIII əsrdə öz iqtisadi maraqlarını müxtəlif üsullarla reallaşdırmağa çalışan Rusiya imperiyanın siyasi təsir gücünü bir çox bölgələrdə göstərirdi. Onun planlarında «İsti dənizlər uğrunda» mübarizənin xüsusi yeri vardı. Bu planı reallaşdırmaq üçün ilk növbədə Qafqaza yiyələnmək nəzərdə tutulurdu. Rusiyaya əlaltı lazım idi. Bu planın həyata keçirilməsi üçün istifadə etmək daha «əlverişli» sayılırdı. Belə bir oyuncaq rolunu bir qədər sonra ermənilər oynuyacaq. Başqa sözlə, bu işdə əsas rol oynamağa hazır olan ermənilərin Qafqazda dövlət yaratmaq təklifi çar Rusiyası tərəfindən müsbət qarşılandı. Bu isə, birinci növbədə, Rusiyanın Qafqazda geosiyasi maraqlarını həyata keçirmək, regionda müstəmləkəçilik siyasətinin real bazasını yaratmaq təşəbbüsünə xidmət edirdi.

1805-ci ildə Qarabağ xanı ilə Rusiya imperatoru arasında Kürəkçay müqaviləsi imzalandı. 11 maddədən ibarət «Andlı öhdəlik» adlanan bu traktat ilə Qarabağ xanlığı Rusiya himayəsinə qəbul edildi. Traktatın şərtlərinə görə, Qarabağ xanlığı Rusiya imperiyasının vassalı oldu.

Bir müddət sonra Rusiya ilə İran arasında bağlanan Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələrindən sonra Qarabağda ermənileşdirmə prosesi başlandı. Rəsmi və tarixi sənədlərdə 1828-1830-cu illərdə İrandan 40 min nəfər, Osmanlı Türkiyəsi ərazisindən isə 84 min nəfər ermənin Azərbaycan ərazisinə köçürüldüyü bildirilir. Həmin dövrdə rus ordusunun köməyi ilə Qarabağın müsəlman-türk kəndləri boşaldılır, onlara erməni ailələri yerləşdirilirdi.

1832-ci ildə keçirilmiş kameral təsvirin nəticələri gös-

tərir ki, Qarabağda ermənilərin sayı 34,8 faizə çatdırılmış, türk-müsəlman əhalinin sayı isə 64,8 faizə endirilmişdi.

Ümumiyyətlə, XX əsrin əvvəllərinədək Cənubi Qafqaza köçürülmüş 1 milyona yaxın ermənինin hesabına demoqrafik vəziyyət dəyişdirildi, ermənilərin yerli türk-müsəlman əhalisindən sayca üstünlüyü süni surətdə təmin edildi.

XIX əsrin sonlarından başlayaraq ermənilərin pozuculuq əməlləri - terrorçu təşkilatların, quldur dəstələrinin fəaliyyəti ilə Qafqazın, xüsusilə Qarabağ bölgəsinin dincliyi pozuldu. Təsadüfi deyil ki, xarici müəlliflərdən biri ermənilər haqqında yazmışdır: «Ermənilərin bir millət kimi əbədi bədbəxtliyə məhkum olması fikri mənə təbii görünür, çünki onların bədbəxtliklərinin bir hissəsi ona görə azalmır ki, onlar səfeh, köçəri, xəstə xislətli despotizm şəraitində yaşayırlar, əksinə, onların özlərinin bir-birinə olan münasibətindən bu, daha da artır. Bir qədər əvvəl Vanda olmuş aclıq vaxtı erməni tacirləri qiymətli taxılı gizlətməyə cəhd etmişdilər; erməni inqilabçıları düşmənlərlə döyüşə girən öz legionerlərinin əmlakını çapıb-talayırlar; Konstantinopoldakı anarxistlər soyqırımı görüntüsü yaratmaq məqsədi ilə öz millətindən olanların evlərinə qumbaralar atırlar. Erməni kəndləri müxtəlif cəbhələrə bölünüb; inqilabçı cəmiyyətlər bir-biri ilə didişir; dindarlar yepiskopun öldürülməsinə barmaqarası baxırlar; kilsə lap başlanğıcdan bölünmüşdür»[37].

Bununla da Rusiya Cənubi Qafqazdakı müstəmləkə siyasətini həyata keçirmək üçün özünə dayaq yaratdı,[38] Azərbaycanın Qarabağ bölgəsi gələcək münaqişə yuvasına çevrildi.

XX əsrin əvvəllərində Qarabağda vəziyyət gərginləşdirilmiş, ermənilərin mövqeyinin möhkəmləndirilməsi üçün törədilən etnik qarşıdurma 1905-1906-ci illərdə türk-müsəlmanların silahlandırılmış ermənilər tərəfindən qırğını ilə nəticələnmişdi.

Beləliklə, ermənilər çarizmin hərtərəfli dəstəyi və yaratdığı əlverişli şərait nəticəsində Yuxarı Qarabağda möhkəm-

lənə bildilər.

1918-ci ildə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Türk-oğuz yurdu İrəvan şəhəri də paytaxt kimi verilməklə erməni dövləti yaradılan kimi, onun təhriki və təzyiqi ilə Qarabağın dağlıq hissəsindəki erməni əhalisinin müəyyən təbəqələri Azərbaycan Respublikasının hakimiyyətini tanımaqdan imtina etdi. 1918-ci ildə Andronikin silahlı quldur dəstələri Qarabağ üzərinə yeridi. 1918-1920-ci illərdə Qarabağda soyqırımı törədən erməni daşnakları kəndləri məhv edərək, minlərlə azərbaycanlını doğma yurdlarından qovdular.

1920-ci il aprelin 27-də Sovet Rusiyasının XI Ordusunun hissələri Azərbaycana soxuldu, Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Azərbaycan Xalq Cümhuriyyəti yarananda ərazisi 97 min kv.km. idi. 1920-ci ilin əvvəllərindən 1988-ci ilədək Kremlin «xeyir-duası» ilə Azərbaycanın xeyli torpaqları itirildi. Sovet hakimiyyətinin süqutu ərəfəsində sovet Azərbaycanının ərazisi 86,6 min kv.km təşkil edirdi.

Ermənilər Sovet imperiyasının yaranması ilə meydana çıxan əlverişli şəraitdən istifadə edərək, havadarlarının köməyi ilə Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) deyilən, nə tarixi, nə də sosial-iqtisadi əsası olmayan bir qurum yaradılmasına nail oldular (7 iyul 1923-cü il).

Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə ayrı və dağlıq hissələrə bölündü, Azərbaycan rəhbərliyi Qarabağın Dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verməyə məcbur edildi. Özü də bu muxtar qurum Qarabağın dağlıq hissəsində yaşayan azərbaycanlıların rəyi nəzərə alınmadan, onların hüquqları kobudcasına tapdalanmaqla yaradılmışdı.

Bu, bir həqiqətdir ki, ermənilərin Azərbaycana ərazi iddiaları Avropanın bəzi dövlətlərinin «Şərq siyasəti» və Rusiya Federasiyasının «siyasi kartı» olan «erməni məsələsi»nin

təzahürləridir.

Vaxtilə böyük dövlətlərin iqtisadi və siyasi maraqlarından doğan bu proseslər XX əsrin əvvəllərindən etibarən aparılan etnik təmizləmə və ekspansiya siyasəti ilə davam etdirilmişdir. Ermənipərəst bolşeviklər partiyası rəhbərlərinin və erməni ünsürlərin gizli məramı ilə DQMV də bu məqsədlə yaradılmışdı.

Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları sovet dövründə də davam etdirilir, planlı şəkildə siyasi proqramla həyata keçirilirdi. Sovet dövründə DQMV-nin inzibati ərazi bölgüsündə dəfələrlə dəyişikliklər edilmişdi. Bunlardan şirniklənən ermənilər indi zəbt etdikləri Azərbaycan Respublikasının 20% ərazisini işğal altında saxlayaraq sübut etməyə çalışırlar ki, guya Dağlıq Qarabağ Ermənistanın tarixi ərazisi, «Böyük Ermənistan»ın tərkib hissəsi olmuşdur. Erməni «tarixçilərinin» uydurduğu «Ermənistanın Şərq diyarı», «qədim Ermənistan» kimi dövlətçilik xülyaları erməni siyasətçiləri tərəfindən təbliğ edilir. «Ermənistanın ayrılmaz hissəsi» barədə uydurmalardan siyasi vasitə kimi geniş istifadə edilir, bununla da işğala haqq qazandırmağa cəhd göstərilir. Akademik Ramiz Mehdiyevin vurğuladığı kimi, «Ermənistanda ümid edirlər ki, tarixi primitiv şəkildə saxtalaşdırıb beynəlxalq təşkilatlara Dağlıq Qarabağın guya qədim erməni torpağı olduğunu «sübut» etməklə, onu özlərinə birləşdirməyə nail olacaqlar. Təəssüf ki, vaxtilə tarixdə belə ədalətsizliyə yol verilmə halları olub, lakin indi artıq bu, mümkün deyildir»[39].

Ulu öndər Heydər Əliyev XX əsrin 60-70-ci illərində yüksək rəhbər vəzifələrdə olarkən ermənilərin DQMV-nin Ermənistana birləşdirilməsi məqsədi daşıyan gizli fəaliyyətlərinin qarşısı bir müddət alındı. XX əsrin 60-cı illərində Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən ermənilərin DQMV-də gizli fəaliyyətlərindən xəbərdar olmuş, onlara qarşı tədbir görülməsi üçün müəyyən təşəbbüslər göstərmişdi. Azərbaycan KP MK-nın birinci katibi seçildikdən son-

ra isə ermənilərin bu fəaliyyətinin qarşısını almaq üçün həm siyasi, həm də iqtisadi tədbirlər gördü ki, bu da ermənilərin gizli planlarının və niyyətlərinin puça çıxmasına səbəb oldu. DQMV-nin sosial-iqtisadi inkişafına dair tədbirlərin görülməsi erməni separatçılarına bəhanə yeri qoymadı.

Heydər Əliyev Moskvaya SSRİ-nin ali rəhbərliyinə gedəndən sonra Azərbaycana rəhbərlik edənlər Dağlıq Qarabağdakı gizli siyasi proseslərə məhəl qoymadılar.

Heydər Əliyev 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan, bütün vəzifələrdən istefa verəndən sonra Azərbaycana təzyiqlər güclənir, erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırmaq və Ermənistana birləşdirmək planlarını açıq şəkildə büruzə verirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, «Heydər Əliyev vəzifədən uzaqlaşdırılandan sonra bu meyllər daha da gücləndi və Azərbaycana qarşı açıq ərazi iddiası prosesi başlandı. Əfsuslar olsun ki, bu prosesə başçılıq edən o vaxtkı sovet rəhbərliyi idi. Əgər sovet rəhbərliyinin bu işlərdə əli olmasaydı, Cənubi Qafqazda heç vaxt münaqişə yaranmazdı»[40].

Heydər Əliyevin SSRİ rəhbərliyindən getməsi məqamını gözləyən ermənilər, guya sosial vəziyyətin pisləşməsini və buna görə də Azərbaycan hökumətinin rəhbərliyi altında yaşamağın mümkünsüzlüyünü özlərinə şüar edərək, ictimai fikri çaşdıra bildilər. Qarabağda açıq separatizm başlandı.

Heydər Əliyev sonralar öz istefasının doğurduğu nəticələrdən danışarkən deyirdi: «Azərbaycan üçün bəla ondan başladı ki, 1987-ci ildə ermənilər bizim azərbaycanlıların bəziləri ilə yığışdılar, mənim Kremldən istefa verməyimə nail oldular. Bundan iki ay sonra Dağlıq Qarabağda üsyan, münaqişə başlandı. O vaxtdan ermənilərin bir məqsədləri var idi ki, Heydər Əliyevi Kremldən uzaqlaşdırsınlar. Çünki bilirdilər ki, mən Moskvada oturmuşam və belə məsələlərin qaldırılmasına yol verməyəcəyəm. Məni Kremldən uzaqlaş-

dırdılar. Amma təkcə onlar yox, bizim bədxah azərbaycanlılar da bu işə kömək etdilər. Onlar birləşərək məni Kremldən uzaqlaşdırdılar. Bundan sonra Azərbaycan nə günə düşdü"[41].

Ermənilər 1988-ci ildə «Dənizdən dənizə Böyük Ermənistan» uydurmasını yenidən ortaya ataraq «miatsum» (birləşmək) çağırışları ilə ərazi iddialarını canlandırdılar. Tarixi ata-baba yurdlarından, öz tarixi-etnik torpaqlarından - Qərbi Azərbaycandan (indiki Ermənistandan) türk-müsəlman əhali deportasiya edildi.

Həmin dövrdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ətrafında planlaşdırılan siyasi oyunların təhlili göstərir ki, bunlar birdən-birə və təsadüfən baş verməmişdir. Bu barədə mötəbər bir jurnalist tədqiqatında deyilir: «... 1987-ci ilin dekabrında Qorbaçov ABŞ-da olarkən erməni elitası ona bir neçə qiymətli hədiyyə vermişdir. Nə idi bu hədiyyələr?

Amerika erməni icması Raisa Maksimovna Qorbaçovaya Amerika rəssamı İnok Klousonun «Dünyanın xəritəsi» əsərini və Ayvazovskinin «Peterburq. Vasilyev adasının qurtaracağının görünüşü» əsərini, Şaginyan ailəsi isə XVII əsr rus əlyazma kitabını hədiyyə vermişlər. Bundan əlavə, Raisa Maksimovnaya brilyantdan ibarət qiymətli qolbağ da bağışlamışdılar. Moskvaya qayıdan Qorbaçov və onun həyat yoldaşı sənət əsərlərini və əlyazmaları dövlət muzeylərinə təhvil verdilər. Qolbağını isə saxladılar. Lakin bir ildən sonra, 1988-ci ilin dekabrında Ermənistanda zəlzələ ilə əlaqədar İrəvana gəlmiş Qorbaçov və xanımı yerli əhali tərəfindən heç də müsbət qarşılanmadılar. Şüarların birində belə sözlər yazılmışdı: «Raisa, qolbağını qaytar!» Dekabrın 11-də Moskvaya qayıdan Qorbaçovlar ailəsi mətbuatda ifşa olunacağından qorxur və dekabrın 12-də Raisa Maksimovna həmin qolbağını Qosoxrana (Qiymətli əşyaların dövlət saxlanğıcı) təhvil verdi. Dekabrın 13-də isə «Sovetskaya kultura» qəzeti bu haqda informasiya yaydı. Sual oluna bilər: Nə üçün həmin qiymətli hədiyyə bir il əvvəl dövlətə təhvil verilməmişdir?

Həm də onu demək lazımdır ki, bu hədiyyələr erməni icması tərəfindən elə-belə verilməmişdir. Karta Dağlıq Qarabağ qoyulmuşdur. Qorbaçov 1987-ci ilin dekabrında Amerikada olarkən oradakı erməni icması onun razılığını, demək olar ki, almışdı. Məhz həmin görüşdən sonra Dağlıq Qarabağ problemi yaradıldı və SSRİ-nin dağıdılmasının bünövrəsinə partlayıcı maddə qoyuldu»[42].

Yeri gəlmişkən, «Dağlıq Qarabağ problemi» Ermənistan Respublikasının tarixçi və iqtisadçı ideoloqları tərəfindən «əsaslandırılır», siyasətçiləri tərəfindən isə bundan geniņə-boluna istifadə edilir. Məsələn, Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərin sosial-iqtisadi ayrı-seçkilik və mədəni istismarına görə rəsmi Bakını təqsirləndirirdi. Bu, Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün məqsədyönlü şəkildə ortaya atılmış avantüra idi. Dağlıq Qarabağ SSRİ-də yeganə muxtar vilayət idi ki, o, respublika Ali Sovetində sədrin müavini ilə təmsil olunmuşdu. Ümumiyyətlə isə Azərbaycan SSR Ali Sovetində Dağlıq Qarabağdan 10 erməni deputat var idi.[43] Maraqlıdır ki, 1988-ci il iyunun 17-də Azərbaycan SSR Ali Soveti DQMV-nin Azərbaycan SSR-dən ayrılması barədə sorğunu yekdilliklə rədd edərkən Dağlıq Qarabağdan kənardakı seçki dairələrindən olan 17 erməni deputat da bu qərarın lehinə səs vermişdi. Dağlıq Qarabağ Vilayət Sovetinin 140 deputatından 110-u erməni idi[44].

1988-ci ilin əvvəllərindən DQMV-də və Ermənistanda tətillər, nümayişlər keçirməyə başladılar. Bu işdə Ermənistanda «Qarabağ», Xankəndidə isə «Krunk» adlı millətçi təşkilatlar fəal rol oynayırdı. 1989-cu il yanvarın 12-də guya Qarabağda vəziyyəti qaydaya salmaq üçün Xüsusi İdarə Komitəsi yaradıldı. Lakin Arkadi Volskinin sədrlik etdiyi bu qurum vəziyyəti sabitləşdirmək əvəzinə onu daha da kəskinləşdirdi.

Erməni silahlı dəstələri isə Azərbaycan ərazisinə hücumlar edir, qanlı faciələr törədirdilər. SSRİ hökuməti isə bütün

bu baş verənlərə laqeyd yanaşır, hətta himayədarlıq edirdi.

O vaxt xarici mətbuatda bu barədə açıq məlumat verilirdi: «Hələ 1987-ci ilin yayında ermənilər Dağlıq Qarabağın alınması haqqında məsələ qaldıranda belə başa düşmək olardı ki, Qorbaçov və onun ətrafında olanlar bu tələbi müdafiə edirlər. Bu hərəkat gündən-günə genişlənirdi. Moskva isə susurdu. 1988-ci il fevralın 26-da Qorbaçov müraciətlə çıxış edəndə onun nitqi təxminən belə oldu: «Mən hər şeyi başa düşdüm. Ancaq bir az gözləyin»[45].

Azərbaycana qarşı ərazi iddialarını əsaslandırmağa çalışan Ermənistan ona sərf etməyən hər bir sözə mənfi reaksiya verirdi. Məsələn, ermənilər Kremldə ikinci adam sayılan Y.Liqaçovun 1988-ci il mayın 21-də Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması haqqında çıxışından narazı qaldıqlarını bildirmişlər[46].

1989-cu ilin fevral ayında Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında qərarın qəbul edilməsi ilə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının, etnik təmizləmənin yeni mərhələsi başlandı. Vəziyyəti gərginləşdirmək üçün ermənilərlə azərbaycanlılar arasında ədavət qızışdırıldı, azərbaycanlılara qarşı qətllər törədildi. Ermənilər Moskvadan idarə olunan bu prosesləri «məqsədəuyğun» istiqamətə yönəldərək, istədiklərinə nail olmaqdan ötrü əvvəlcədən düşünülmüş ssenari üzrə hərəkət edirdilər. Baş verənlərdən hiddətə gəlmiş Azərbaycan xalqının hisslərini daha da qızışdırmaq üçün Dağlıq Qarabağ bölgəsində «meşələrin qırılması» əməliyyatını təşkil etdilər, bütün Azərbaycan xalqını ayağa qaldırdılar. Ermənilərin əlində oyuncağa çevrilmiş M.Qorbaçov Azərbaycan xalqını sarsıtmaq, mübarizə əzmini qırmaq üçün 1990-cı ilin yanvarında Bakıya qoşun yeritdi və qırğın törətdi. Bu, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının davamı idi. Planlı şəkildə davam etdirilən, getdikcə geniş vüsət alan münaqişə müharibəyə çevrildi.

M.Qorbaçov 1990-cı il iyulun 25-də «SSRİ qanunvericiliyində nəzərdə tutulmayan hərbi dəstələrin yaradılmasının qadağan edilməsi, qeyri-qanuni saxlanılan silahların yığılması haqqında» fərman verdi. M.Qorbaçovun «səmimiliyinə» etibar edən A.Mütəllibov bu fərmanın «erməni boyeviklərinə aid olduğunu» bəyan etdi və o, yalnız Azərbaycanda «hərtərəfli» icra edildi.

İki respublikanın sərhədində - Noyemberyanla Qazax rayonları arasında təxribat təşkil edildi. Bundan istifadə edən Sovet Ordusu hissələri toplardan və vertolyotlardan Azərbaycan ərazisinə ağır zərbə endirdi[47]. SSRİ hökuməti Azərbaycan sərhədlərinə doğru hücum əməliyyatı keçirən Ermənistanı cəzalandırmaq əvəzinə Ermənistan hökumətinin respublikada fövqəladə vəziyyət elan etməsinə şərait yaratdı. Ermənistan SSR-də 1990-cı ilin sentyabr-noyabr aylarında silahların təhvil verilməsinə başlanıldı. Lakin silahlar Sovet Ordusuna deyil, Ermənistan DİN-in anbarına təhvil verildi[48].

Azərbaycanda isə o vaxt yalnız Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev öz şəxsi nüfuzundan istifadə edərək, xalqın özünümüdafiəsi məqsədi ilə Sovet Ordusunun regiondakı rəhbərliyindən hərbi sursat ala bilmişdi[49]. Heydər Əliyev Naxçıvanda yerləşən 75-ci motoatıcı alayın ləğv edilməsi və onun bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq almışdı. Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il 25 iyun tarixli iclasında Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin ləğvi və onun əsasında Azərbaycan Müdafiə Nazirliyi tərkibində müvafiq strukturun yaradılması zəruri hesab edilmiş, Azərbaycanda birinci olaraq Rusiya qoşun hissələrinin hərbi və təsərrüfat əmlakı Azərbaycan Müdafiə Nazirliyinin yeni yaradılan hərbi hissəsinin sərəncamına verilmişdi. Bu da Muxtar Respublikanı Ermənistanın hərbi təcavüzündən qorunmağa xidmət etmişdi[50].

1991-ci ilin sonlarında Ermənistan faktiki olaraq Azərbaycan Respublikasına qarşı açıq hərbi təcavüzə başladı. Ermənistan Respublikasının hərbi qüvvələri Azərbaycan Respublikasının sərhədlərini pozub Qarabağa daxil oldular və Dağlıq Qarabağın erməni separatçı-terrorçuları ilə birləşərək, respublikanın bir sıra şəhər və kəndlərini işğal etdilər. 1991-ci il sentyabrın 2-də erməni separatçıları Yuxarı Qarabağda qeyri-qanuni bir qurum, oyuncaq «Dağlıq Qarabağ Respublikası»nın yarandığını və onun müstəqilliyini elan etdilər. Buna cavab olaraq, 1991-ci il noyabrın 26-da Azərbaycan Ali Soveti Dağlıq Qarabağın vilayət statusunu ləğv etdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti ondan ibarətdir ki, azərbaycana qarşı irəli sürülən ərazi iddiaları ilə bağlı siyasət planlı şəkildə həyata keçirilirdi. Belə ki, daimi vətəni olmayan ermənilər vaxtilə köçürüldükləri ərazilərə sahib çıxmaq üçün müxtəlif vasitələrə əl atmış, ilk növbədə, məskunlaşdıqları ərazilərin onlara məxsus olmasını sübut etmək üçün saxta tarix uydurmuş, süni ideologiya yaratmışlar. Zaman-zaman Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək, onu reallaşdırmaq üçün bütün vasitələr – təşkilatlanma, təbliğat, təzyiq, deportasiya, hərbi üsul tətbiq etmək planlaşdırılmışlar. Bu istiqamətdə yaratdıqları ideologiyaya uyğun olaraq ermənilərin həyata keçirdiyi separatçılıq və etnik təmizləmə siyasəti Cənubi Qafqaz regionuna, xüsusilə Azərbaycana böyük bəlalar gətirmişdir. Azərbaycanlılara qarşı 1905-1906-cı illər qırğınları, qanlı repressiyalar, azərbaycanlıların 1948-1953-cü və 1988-ci illər deportasiyaları, 1990-cı il 20 Yanvar qırğını tötədilmişdir. Təkcə bir əsrdə dəfələrlə - XX əsrin əvvəli və sonlarında ermənilər azərbaycanlılara qarşı soyqırımı törətmişlər.

II FƏSİL

ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN BAŞLANMASI

2.1. Sovetlər dövründə ermənilərin Azərbaycana qarşı ərazi iddialarının genişlənməsi

Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları sovetlər dövründə də davam etdirilir, planlı şəkildə, siyasi proqramla həyata keçirilirdi. Hətta dünya ölkələrinin faşizmə qarşı mübarizə apardığı İkinci Dünya müharibəsi dövründə - 1945-ci ildə də ermənilər Dağlıq Qarabağla bağlı ərazi iddiaları irəli sürmüşdülər.

1945-ci ilin payızında Ermənistan hökuməti coğrafi məkan yaxınlığını əsas götürərək, ÜİK(b)P MK qarşısında DQMV-nin Ermənistana verilməsi məsələsini qaldırmışdı. İddiaya əsas kimi DQMV-nin iqtisadi və mədəni inkişafının aşağı olması və hətta Ermənistanın bölgəyə iqtisadi cəhətdən yaxından kömək etməsi göstərilmişdi. Lakin tarixi faktlar göstərir ki, bəhs edilən dövrdə Azərbaycan hökuməti DQMV-yə digər bölgələrdən üstün şərait yaratmışdı.[51]

Ümumiyyətlə, etirazla qarşılandıqlarına baxmayaraq, ermənilər vaxtaşırı - 1956, 1960, 1965-1967, 1977-1978 və 1988-ci illərdə Azərbaycana qarşı ərazi iddiaları qaldırmışdılar.

1948-1953-cü illərdə 200 min azərbaycanlı ailəsi öz ata-baba yurdları olan Qərbi Azərbaycandan (indiki Ermənistan ərazisindən) deportasiya edilmişdir.

Sovet hökuməti rəhbərliyində mühüm vəzifələr tutmuş A.Mikoyan bu siyasətin önündə gedirdi.

Erməni rəhbərləri Ermənistan Respublikası ərazisində «Türksüz Ermənistan» şüarını həyata keçirməyə də

A.Mikoyanın gizli tapşırığı ilə başlamışdılar[52]. Ermənistan rəhbərliyi Moskvadakı ermənipərəst qüvvələrin köməyi ilə respublika ərazisindən azərbaycanlıları sıxışdırıb çıxardı. Sovet Ermənistanına Xaricdən ermənilərin gəlməsinə icazə verildi, erməni mühacirlərinin buraya gəlmələri üçün geniş imkanlar yaradıldı. Ermənisandan Azərbaycan türklərinin çıxarılması Sovet hökumətinin dövlət siyasəti səviyyəsində aparıldı. Bu proses xaricdən ermənilərin buraya köçürülmələri ilə müşayiət olunurdu. Bu zaman SSRİ-də yaşayan xalqların heç birinə ermənilərin malik olduğu qədər imtiyazlar verilməmişdi. Erməni tarixçisi S.Ağayan yazırdı ki, 1946-1949-cu illər ərzində müxtəlif ölkələrdən sovet Ermənistanına 100 minə yaxın erməni köçürülmüşdür. Rəsmi məlumatlara görə köçürülənlər üçün ayırılmış vəsaitin yalnız yarısından da azı, cəmi 45-47 %-dən istifadə edilmişdir. Azərbaycanlıların boşaldılmış kəndlərinin çoxu boş qaldı.

Sovet hakimiyyəti illərində davam etdirilən «Türksüz Ermənistan» siyasəti 40-cı illərdən sonra özünün yeni mərhələsinə qədəm qoydu. Bu məqsədlə Ermənistanda, yəni tarixi Qərbi Azərbaycan torpaqlarında, aborigen türk-müsəlman xalqa qarşı bir neçə dəfə rəsmi deportasiya həyata keçirildi. Belə ki, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsinə dair» 4083 saylı qərar qəbul etdi.[53] Qərarın 1-ci və 11-ci bəndlərində deyilirdi: «1948-1950-ci illərdə Ermənisğan SSR-dən 100 min kolxozçu və digər azərbaycanlı əhali könüllü olaraq Azərbaycan SSR-nin Kür-Araz ovalığına - 10 mini 1948-ci ildə, 40 mini 1949-cu ildə və 50 mini 1950-ci ildə köçürülsün.[53] Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsin»[53].

Beləliklə, 150 mindən artıq azərbaycanlı əsrlərlə yaşadıqları yurdlarından deportasiya edildilər. Deportasiya edilən azərbaycanlıların yerinə xaricdən 90 mindən artıq erməni köçürüldü. Bununla "Ermənistan" deyilən ərazilərdə ermənilərin sayının əsasən kənardan köçürülmə ilə mexaniki artırılması ənənəsi davam etdirildi. Əsas məqsəd xaricdən gələn ermənilər üçün yer hazırlamaq deyil, azərbaycanlıları oradan çıxarmaq idi. Bu proses Sovet imperiyası dövründə müxtəlif adlar altında davam etdirilmişdir. Ermənilər paralel şəkildə "Ermənistan" deyilən ərazilərdən azərbaycanlıları çıxarır və Dağlıq Qarabağla bağlı əsassız iddialarını reallaşdırmağa çalışırdılar.

Azərbaycanlıların Ermənistan ərazisindən deportasiyası prosesi Sovet hakimiyyəti illərində heç vaxt dayanmamışdır. Sovet partiya və dövlət rəhbərliyində mühüm mövqelər tutmuş erməni millətçiləri hər bir əlverişli məqamdan və fürsətdən istifadə elərək Azərbaycanın Qarabağ bölgəsinə olan ərazi iddialarını həyata keçirməyə çalışırdılar. A.Mikoyan SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olarkən Sovet rəhbəri N. Xruşova təklif etmişdi ki, Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirsin. Xruşov ona belə bir cavab vermişdi: «Mən bir sutka ərzində DQMV ermənilərinin Ermənistana köçürülməsi üçün 12 min hərbi yük maşını ayırmağa hazıram».[54]

1964-cü ildə DQMV-nin Ermənistana birləşdirilməsi üçün SSRİ Ali Sovetinə ünvanlanmış müraciət ermənilərin əsassız ərazi iddialarından əl çəkməyəcəyini aydın göstərirdi. A.Mikoyanın DQMV-də guya ermənilərin çətin iqtisadi vəziyyətdə yaşaması, Azərbaycan hökuməti tərəfindən sıxışdırılması barədə əsassız müraciəti N.S.Xruşov dövründə iflasa uğrasa da, 1960-cı illərin ortalarından Ermənistan SSR-də antiazərbaycan hərəkatı yenidən vüsət aldı. 1965-ci il aprelin 23-də ermənilər İrəvan şəhərində 400 min nəfərlik nümayiş keçirdilər. Onlar nümayişə «Naxçıvan Ermənistan

torpağıdır», «Dağlıq Qarabağ bizimdir», «Qərbi Ermənistan Ermənistana birləşməlidir» (avantürist erməni ideoloqları Türkiyənin Şərqi Anadolu ərazisini «Qərbi Ermənistan» adlandırırlar – Q.H.) və s. antiazərbaycan, antitürk şüarlarla çıxmışdılar.

Moskvanın «işə qarışması» ilə 1965-ci ildə ermənilərin çıxışlarının qarşısı alındı. Ancaq Mərkəzdən və Ermənistan rəhbərliyindən güclü dəstək alan millətçilər DQMV-də azərbaycanlıları hərtərəfli sıxışdırmaqda davam edirdilər. 1965-ci ildən etibarən DQMV-də və Ermənistanda antiazərbaycan hərəkatı yeni formaya keçirildi. Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana ilhaq edilməsi barədə 45 min ermənինin imzaladığı petisiya Moskvaya təqdim olundu. Sov.İKP MK katibliyi «Dağlıq Qarabağ məsələsi»nin Ermənistan SSR-in xeyrinə həll edəcəyi təqdirdə ağır nəticələr verəcəyini başa düşərək, bu məsələni təxirə saldı.

Bu zaman Sovet hakimiyyət orqanlarında yer tutmuş ermənilər müxtəlif mətbuat orqanlarında antiazərbaycan yazıları dərc edir, "məzlum ermənilərin" qonşu azərbaycanlılar tərəfindən sıxışdırılması barədə uydurma fikirlər yayırdılar. Yeri gəldi-gəlmədi, Qarabağ və Naxçıvan torpaqlarını «doğma əraziləri» kimi gündəmdə saxlamağa çalışırdılar.[8] Bunun üçün erməni ideoloqlarının fitvası ilə müxtəlif üsullarla azərbaycanlı-türk-müsəlmanlara aid tarixi izlərin yox edilməsi əməliyyatı həyata keçirirdilər. Naxçıvan və Qarabağ bölgələrində xalqımızın daş yaddaşı olan abidələri, xüsusilə türkçülük rəmzi olan qoç heykəllərini müxtəlif yollarla məhv edir xristian albanlara məxsus abidələri isə bərpa adı ilə dəyişdirir, saxtalaşdırırdılar[55]. Onlar bu yolda heç nədən çəkinmirdilər. Əslində, heç onları cəzalandıran da yox idi. Əgər belə olmasa idi, Cermuk (İndiki Ermənistanda əvvəllər İstisu adlanan ərazidə yerləşən qədim türk yurdu) şəhəri yaxınlığındakı qayaüstü yazıları müxtəlif bəhanələrlə silməz, qədim qəbiristanlıqları dağıtmaz, qədim türk toponimlərini

dəyişməzdilər. Həmçinin, Cermuk şəhərindən Əzizbəyov rayonuna gedən yolda körpü salarkən qazıntı zamanı, eləcə də qədimdən azərbaycanlılara məxsus Tarp və Terp (Sarvan) kəndləri ərazisində, «Gümüş mədəni» adlandırılan yerdə və digər yaşayış məskənlərində aşkar olunan qoç heykəllərini və başqa maddi mədəniyyət nümunələrini məhv etməzdilər.

Yeri gəlmişkən, həmin dövrdə müxtəlif yerlərdə - Ermənistan SSR-in azərbaycanlılar yaşayan bölgələrində, Azərbaycan SSR və Gürcüstan SSR-in bir sıra ərazilərində tarixi və memarlıq abidələri gizli şəkildə ermənilər tərəfindən Ermənistana daşındığı, müxtəlif bəhanələrlə dağıdıldığı və saxtalaşdırıldığı halda, Naxçıvan MR-də onların bu mənfur niyyətlərinin qarşısı alınırdı[56]. Azərbaycanın müxtəlif yerlərində, qayaüstü rəsmlərin, tikili qalıqlarının və daş heykəllərin (bütlər) yanında dayanıb şəkil çəkdirən ermənilər sonra bu şəkilləri müxtəlif üsullarla ermənicə çıxan qəzet və jurnallarda çap etdirib xarici ölkələrə ötürəndə az-az adam tapılardı ki, hiyləgərliyi vaxtında duyub qarşısını alsın. Tarixən daimi yurd-yuvası olmayan ermənilərin məqsədlərini bilən səlahiyyətli şəxslərin uzaqgörənliyi bu əməllərin qarşısına sipər çəkirdi. Naxçıvan MR-in Mədəniyyət Nazirliyi, xüsusilə nazir Fəttah Heydərov bu işdə gözüaçıqlığı ilə fərqlənirdi. Sözsüz ki, ermənilərin müxtəlif səviyyələrdə təxribat xarakterli əməlləri barədə dövlət işçiləri səviyyəsində məlumatlandırmalar aparılır, onların ayıq-sayıq olmağına diqqəti artırırdı.

Qarabağda arxeoloji tədqiqatlar aparan Azərbaycan alimlərinin verdiyi məlumatlara görə, DQMV ərazisində qədim abidələr, xüsusilə müsəlman abidələri dağıdılıb, yox edilirdi.[57] Sonrakı hadisələr, ermənilərin «Qarabağın azərbaycanlılara məxsus olmasına dair bir abidə göstərin» deməsi onların bu siyasəti ardıcıl olaraq bütün dövrlərdə davam etdirməsindən xəbər verirdi. Vaxtilə Leninqradda (indiki Sankt-Peterburq) Ermitajın Şərq zalında nümayiş etdirilən

arxeoloji nümunələr içərisində yeganə eksponat Füzuli şəhəri yaxınlığındakı Qaraköpəktəpə abidəsindən aşkar edilmiş Tunc dövrü materialları idi ki, onların da, hətta elmi dərəcəsi olmayan erməni familiyalı birisinin adı yazılmışdı.

Bir qayda olaraq ermənilərin fitnəkarlığı təəssüf ki, azərbaycanlıları şübhələndirməmişdir. Xankəndi şəhərinə dəmir yolu çəkiləndə lazım olmadığı halda, ətrafın təmizlənməsi bəhanəsi ilə qədim kurqanların dağıdılması, yeni həyətyanı sahələr verilərkən və yeni tikintilər aparılarkən qədim abidələrin yerləşdiyi ərazilərin seçilərək ayrılması, həmin yerlərdə qədim mədəniyyət izlərinin məhv edilməsi göstərir ki, bu siyasət elə «məharətlə» aparılmışdır ki, onun nəticələri Qarabağ müharibəsi zamanı özünü göstərdi.

Nəhayət, dövlət başçısı olarkən Heydər Əliyevin göstərişi ilə qədim şəhərlərin tarixinin öyrənilməsinə dair təklif və tövsiyələr Qarabağ bölgəsinin tarixinin öyrənilməsinə böyük zəmin yaratdı. 10 il ərzində Qarabağın bütün ərazilərində arxeoloji qazıntı işləri aparıldı. Materiallar toplandı, böyük mənbə bazası yarandı. Biz bu gün Qarabağın qədim tarixinə dair nəyi biliriksə, buna görə ilk növbədə ulu öndər Heydər Əliyevə borcluyuq.

Tarixən böyük dövlətlərin əlində oyuncaq olan ermənilər növbəti dəfə (XX əsrin sonlarında) Rusiya dövlətinin himayəsi ilə Azərbaycanda daxili separatizm təşkil etdilər. Həmçinin müstəqillik əldə etmiş Ermənistan heç bir beynəlxalq qanunlara məhəl qoymadan Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiası irəli sürməyə başladı. DQMV-nin iqtisadi, mədəni və sosial həyatında guya Azərbaycan dövlətinin dözülməz şərait yaratdığını, iqtisadi böhranın dözülməz olduğunu, bunun daha da dərinləşdiyini bəhanə gətirərək, Azərbaycan dövlətinin tərkibindən çıxmaq istədiklərini bildirdilər. Bu siyasətin - süni «Dağlıq Qarabağ problemi»nin ortaya atıldığı dövrdə Azərbaycanın kommunist rəhbərliyi ilə, yeni yaranmış xalq hərəkatının - Xalq Cə-

bhəsi rəhbərlərinin qarşıdurması başlandı. Dağlıq Qarabağla bağlı proseslərdə SSRİ-nin dövlət başçılarının yürütdüyü mənfur siyasətə qarşı etiraz əlaməti olaraq Bakıda yaranmış müxalifət hərəkatı milli azadlıq hərəkatına çevrildi. Xalqın tələblərinə etinasız yanaşan moskvapərəst rəhbərliyin əleyhinə çevrilən, dövlət rəhbərlərinin istefasını tələb edən Xalq Cəbhəsi ilə uzun müddət qarşıdurma hökm sürdü. Erməni təcavüzü qarşısında, əraziləri təhlükə altında olan ölkənin ərazi bütövlüyünün pozulmasına qarşı mübarizə, əslində hakimiyyət uğrunda mübarizəyə çevrildi. Bu vəziyyət xeyli davam etdi. Təcrübəli siyasətçi Heydər Əliyev həmin vəziyyəti belə qiymətləndirir: «Azərbaycan Xalq Cəbhəsi hərəkatı qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümummilli platforma yaratmaq əvəzinə, populist çıxışlara və meydan əhval-ruhiyyəsinə üstünlük verdi. Nəticədə Kommunist Partiyası-Xalq Cəbhəsi xətti üzrə formalaşmış qarşıdurma hakimiyyət uğrunda mübarizə müstəvisinə yönəldildi».[58]

Heydər Əliyev «Dağlıq Qarabağ problemi»nə tarixin və zamanın süzgəcindən keçmiş aşağıdakı qiyməti vermişdir: «Əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları dururssa, digər qütbündə, nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır, - bizim bəzi siyasətçilərin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur».[59]

Həmin dövrdə Azərbaycan xalqının milli potensialına yaxşı bələd olan təcrübəli siyasətçi Heydər Əliyev nöqsanları görür və bunu belə qiymətləndirirdi: «Amma yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara, bütün təqiblərə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi. Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hisslərindən konstruktiv şəkildə istifadə olun-

saydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq».[60]

Ancaq o zaman SSRİ rəhbərliyinin əlində alət olan ermənilər yeganə güclü qüvvə olan Heydər Əliyev haqqında böhtan xarakterli yazılar dərc etdirərək onu xalqın gözündən salmağa çalışırdılar. Sovet hökumətinin neqativ təzahürlərindən narazı olan kütlələrin gözündə sanki günahkar kimi, Heydər Əliyev kabusu yaratmağa çalışırdılar. Bundan istifadə edən bəzi siyasi qüvvələr hər vəchlə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinə qarşı çıxırdılar. Əslində isə Heydər Əliyev kimi təcrübəli bir siyasətçi Azərbaycan dövlətinə rəhbərlik etsəydi, Dağlıq Qarabağ münaqişəsi belə həddə çatmazdı.[61]

O zamankı Azərbaycan rəhbərliyinin bu məsələdə tutduğu laqeyd mövqeyin isə öz xalqına qarşı əsil cinayət olduğunu bəyan edən Heydər Əliyev son dərəcə acı bir həqiqəti də açıqlayır: «Hələ Azərbaycanda Sovet hakimiyyəti dövründə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütlələri tərəfindən yığılıb dövlət istintaq komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparılmışdı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müvafiq istintaq tədbirləri həyata keçirməmiş, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən mühüm arxiv sənədləri məhv edilmişdir».[62]

Ramiz Mehdiyev «Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə» əsərində yazır: «Bu gün təsdiq edə biləcəyimiz real tarixi həqiqət bundan ibarətdir ki, Heydər Əliyevin hələ ötən əsrin 1970-1980-ci illərdəki dövlət quruculuğu fəaliyyətinə, onun siyasi iradəsinə, əzminə və uzaqgörənliyinə arxalanan Azərbaycan xalqı nəinki öz müstəqilliyini əldə etmiş və onu qoruyub saxlamışdır, həm də respublikada həyata keçirilən çox mühüm islahatlar və uğurlu xarici siyasət sayəsində bu nailiyyətlərin əbədiliyini və dönməzliyini təmin etmişdir.

Diletantların yaratdığı dərəbəylik və özbaşınalıqlar 1993-cü ildə müstəqil dövləti uçurum qarşısında qoydu. Tarixi təcrübənin də göstərdiyi kimi, belə xüsusi məsuliyyət tələb edən məqamlarda hakimiyyətə təsadüfən gəlmiş insanların törətdiyi faciələrin ağrılarını bütün xalq, dövlət onilliklər boyu yaşamalı olur. Heydər Əliyev isə sübut etdi ki, vətənpərvər, təcrübəli insanlar üçün, müdrik strateqlərdən ötrü siyasi hakimiyyət demokratik dəyərlərə əsaslanan, insan və vətəndaş hüquqlarının təmin olunmasına hər cür şərait yaradan azad, müstəqil cəmiyyətin formalaşdırılması yolunda güclü və səmərəli bir vasitədir.

1992-1993-cü illərdə həm ölkəmiz, həm də cəmiyyətimiz ölkə rəhbərliyinin səriştəsizliyi, ziddiyyətli və qeyri-ardıcıl siyasəti nəticəsində dərin siyasi, sosial-iqtisadi böhran içərisində, uçurum astanasında idi. Müstəqilliyin itirilməsi, dövlətin məhv olma təhlükəsi real xarakter almışdı. Azərbaycanın dövlət müstəqilliyi artıq «olum, ya ölüm» dilemması qarşısında idi. Ən acınacaqlısı isə bu idi ki, Azərbaycan tarixində xalqımızın müqəddəratı baxımından çox əhəmiyyətli dövr özlüyündə qeyri-müəyyənlik prinsipi əsasında qurulmuşdu. Əsası M.S.Qorbaçovun «yenidənqurma» və «yeni təfəkkür» konsepsiyalarından, Dağlıq Qarabağ problemindən götürülsə də, 1992-1993-cü illərin siyasi və sosial-iqtisadi prosesləri, sözün əsil mənasında, öz kortəbii axarına buraxılmışdı»[63].

Beləliklə, tarixi-coğrafi baxımdan Azərbaycanın mərkəzi ərazilərindən biri olan Qarabağ erməni-rus siyasətbazlarının girovuna düşdü, tədricən ermənilərin sığındığı yuvaya, sonra ermənilərin iddia obyektinə, nəhayət münaqişə ocağına çevrildi.

Sovetlər dövründə Dağlıq Qarabağın Ermənistana verilməsi üçün yürüdülən siyasət son dövrlərdə iki istiqamətdə aparılırdı. Azərbaycandan fərqli olaraq, Ermənistanı sosial şərait baxımdan mümkün qədər yaxşı qələmə verərək, azər-

baycanlılardan üstünlük görünüşü yaradılırdı. Bununla da, Azərbaycandan ayrılma siyasətinə lazımi bəhanə yaratmaqla ərazi iddialarını "əsaslandırmağa" çalışırdılar. Məsələn, Ermənistanın heç bir təbii resursları və iqtisadi potensialı olmadığı, SSRİ büdcəsindən ayrılan dotasiyalarla yaşadığı halda, Mərkəzdən edilən tələb və xahişləri dərhal və lazımi səviyyədə yerinə yetirilirdi. Bu zaman nəinki Ermənistandan, digər bir çox respublikalardan fərqli olaraq Azərbaycan SSR-in SSRİ büdcəsinə ödəmələri çox yüksək idi. Ancaq buna baxmayaraq, Ermənistanın Azərbaycandan üstün tutulması – sosial-iqtisadi cəhətdən Azərbaycandan üstün səviyyəyə çıxarılması cəhdləri ilə (hətta belə bir təsəvvür də yaradılırdı ki, əhalisinin bir qismi ərzaq məhsullarını Ermənistandan daşıyıb gətirir, ona möhtacdır) Azərbaycana qarşı məkrli fikir formalaşdırılır, digər tərəfdən, Azərbaycanda sosial-iqtisadi sahədə baş verən çətinliklərdən sui istifadə edərək, Azərbaycan hökumətinə qarşı təbliğat kompaniyası təşkil edirdilər. Azərbaycandakı hər hansı kiçik bir nöqsan Moskvada dərhal əks-səda doğurduğu halda, Ermənistanda vaxtaşırı milli düşüncədə, xüsusilə Dağlıq Qarabağla bağlı Azərbaycan SSR-ə qarşı çıxışlara məhəl qoyulmur, erməni xalqının «haqlı tələbi» kimi qələmə verilirdi. Bəzən bu "haqlı tələblər" elə üsulla irəli sürülürdü ki, onların mahiyyəti zahirən pislənirdi. Erməni ideoloqlarının (Z.Balayan, S.Kaputikyan və b.) o vaxt «gizli şəkildə» təşkil etdiyi təşkilati və təbliğat işləri, indi erməni xalqının ardıcıl mübarizəsi kimi qələmə verlir, bunlarla fəxr edilirdi[64].

SSRİ-nin dövlət aparatında yuva salmış ermənilərin müxtəlif üsullarla göstərdiyi təzyiq nəticəsində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il 7 may tarixli qərarla 2 min hektardan çox Azərbaycan torpağının (Laçında Qaragöl yaylağı, Qubadlıda Çayzəmin ərazisinin, Qazaxda Kəmərli kəndi torpaqlarının bir hissəsi, Kəlbəcərdə qızıl mədəni və s.) Ermənistan SSR-ə verilməsi haqqında hələ 1938-

ci il 5 mayda verilmiş qərarı təsdiq etdi. Lakin bəhs etdiyimiz dövrdə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində işləyən Heydər Əliyev 1953-cü ildə erməni əsilli Kələntərov və Qadaqçiyan tərəfindən tərtib edilərək, Moskvaya təqdim olunmuş xəritələrin saxtalığının üzə çıxarılmasına nail oldu. 1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan KP MK-nə birinci katib seçilməsi ilə o dövrdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyuldu. «Mübahisəli» hesab olunan ərazilərdə qanuni iş aparmaq üçün Heydər Əliyev tərəfindən bölgəyə ekspert qrupu göndərildi. 1898 və 1903-cü illərdə tərtib olunmuş xəritələr Ermənistan nümayəndə heyətinə təqdim olundu və 1968-ci ildə Mərkəzə təqdim olunan xəritənin ermənilər tərəfindən saxtalaşdırıldığı bildirildi. Bununla da 2 min hektardan çox Azərbaycan torpaqlarının Ermənistana verilməsinin qarşısı Heydər Əliyev tərəfindən qətiyyətlə alındı[65].

Bəhs etdiyimiz dövrdə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bərabər dövlət separatizmi, terror və s. davam etmişdir. Erməni daşnakları Qarabağdakı türk mənşəli yer adlarını hiyləgər üsullarla - erməni millətindən olan - yazıçıların, şairlərin, «tarixi şəxsiyyətlərin» adını əbədiləşdirmək bəhanəsi ilə dəyişdirmişlər. Hətta Qarabağ xanının mülkü olan, Qarabağın axırıncı xanı Mehdiqulu xanın doğulduğu Xankəndinin adını Stepan Şaumyanın «şərəfinə» Stepanakert adlandırmışlar. Qədim tarixə malik oğuz-türk yer adlarının saxtalaşdırılması prosesi bütün 20-ci yüzillik boyu davam etmişdir.

XIX əsrdə Yuxarı Qarabağda 567 yaylaq və yurd yerindən yalnız 2-si əslən erməni dilində, 1 toponim isə rus dilində olmuşdur. Qarabağa köçürüldükdən sonra ermənilər tarixi yer adlarını nə qədər dəyişdirməyə çalışsalar da, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-ci ildə Dağlıq Qarabağdakı 407 toponimin 309-u (76 faizi) şəffafdır və onlardan 67,3 faizi sırf azərbaycancadır. Göründüyü kimi, Dağlıq

Qarabağın erməni rəhbərliyi oğuz-türk mənşəli toponimlərin təxminən 33,7 faizini erməni, rus toponimləri və qarışıq toponimlərlə əvəz etmək üçün Azərbaycan SSR Ali Sovetinə müraciət edərək, onların adlarının dəyişdirilməsinə nail olmuşdur[66].

Mərkəzdən dəstək alan DQMV erməni rəhbərliyi rayonların iriləşdirilməsi adı altında 1963-cü il 4 yanvar tarixli qərarla Şuşa rayonunu ləğv etdi. 289 kvadrat kilometrlik ərazi, 30 kənd və 1 şəhər Stepanakert (Xankəndi) rayonuna birləşdirildi. «Azərbaycan Milli Azadlıq Qərargahı»nın bu məsələyə qəti etirazını bildirməsi sonda müsbət həllini tapdı, 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusu yenidən bərpa olundu[70].

Ermənilər əlverişli saydığı məqamlardan istifadə edərək, Dağlıq Qarabağda münasibətləri gərgin vəziyyətdə saxlamaq üçün təxribatlar, hadisələr törədirdilər. Belə təxribatların baş verməsini Heydər Əliyev sonralar, 1996-cı il mayın 6-da Prezident sarayında Şuşa və Laçın rayonlarından olan məcburi köçkünlərin bir qrupu ilə görüşdə belə xatırlayırdı: «Mən ilk dəfə Şuşaya 1967-ci ildə, o vaxt baş vermiş faciəli bir hadisə ilə bağlı getdim. Bilirsiniz ki, o vaxtkı Stepanakertdə 1967-ci ildə böyük bir münaqişə olmuşdu, Dağlıq Qarabağdakı ermənilər ilə azərbaycanlılar arasında qan tökülmüşdü. Çox böyük bir faciə baş vermişdi. O dövrdə Dağlıq Qarabağda olan bəzi quldurlar, Azərbaycan xalqına düşmən münasibəti bəsləyən adamlar həbsdə olan iki-üç nəfər azərbaycanlını aparan dustaq maşınını dağıdıb yandırmışdılar. O vaxt biz bunun səbəblərini araşdırdıq»[71].

Heydər Əliyev Azərbaycan xalqına müraciətində demişdir: «Düzdür, Dağlıq Qarabağ məsələsi 1920-ci ildən başlanıb. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaranıb. Sonrakı illərdə bu məsələ erməni millətçiləri tərəfindən qaldırılıb. Ancaq gəlin tarixə düzgün qiymət verək. Gəlin etiraf edək ki, o dövrlərdə erməni millətçilərinin qarşısı alınmış-

dı»[72].

Bakı-Ağdam dəmir yolunun Xankəndiyə qədər uzadılması, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialının açılması, sosial-iqtisadi və mədəni sahələrdə görülən digər işlər Dağlıq Qarabağ Murdar Vilayətinin Azərbaycan SSR-in tərkib hissəsi, bir bölgəsi olmasını əyani surətdə təsdiqləyən tədbirlər idi.

1987-ci ildə Parisdə keçirilmiş erməni milli konqresində SSRİ-dəki mövcud vəziyyətdən «DQMV-nin Ermənistana yenidən birləşməsi ilə bağlı erməni xalqının qanuni tələblərini həyata keçirmək» üçün istifadə etmək haqqında qərar qəbul edilmişdi. Həmin ilin oktyabrında İrəvanın Puşkin meydanında «Qarabağ» komitəsinin rəhbərliyi ilə ilk açıq mitinq keçirildi. Əsas məqsədi Dağlıq Qarabağı Ermənistana birləşdirmək olan bu təşkilatın fəaliyyətinə rəsmi İrəvan rəhbərlik edir, hər cür şərait yaradırdı. Heydər Əliyev Moskvadakı rəhbər vəzifəsindən uzaqlaşdırıldıqdan sonra Ermənistan KP MK-nin birinci katibi K.Dəmirçyan niyyətlərinin baş tutmasını belə ifadə etmişdi: "Biz ən əsas işi bacardıq - (Qarabağ) hərəkatına qədər Əliyevi yıxdıq. Bu, çox mühüm idi"[73].

1987-ci ildə M.Qorbaçovun məsləhəti ilə Aqanbekyanın Fransanın «Humanite» qəzetinə müsahibəsi ilə ortaya atılan bu siyasi oyun münasibətləri gərginləşdirdi. Azərbaycanda, xüsusilə də Dağlıq Qarabağ bölgəsində guya milli münaqişə zəmininde baş verən hadisələr kimi, SSRİ DTK tərəfindən idarə olunan separatizm prosesi başlandı.

M.Qarbaçovun ortaya atdığı avantürist "yenidənqurma" siyasəti pərdəsi altında ermənilərin Azərbaycana qarşı ərazi iddiası yenidən baş qaldırdı. Ermənistan SSR-də və DQMV-də erməni əhalisi arasında imza toplayaraq, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün hazırlıq işləri görüldü. Bu planın həyata keçirilməsi üçün nümayiş və mitinqlərə başlandı. Hətta erməni ekstremistləri öz məqsədlərinə çatmaq üçün Qarabağda (Əsgəranda) təxribata əl ataraq Topxa-

na meşəsini qırmağa başladılar, qətllər törətdilər, DQMV-ni Azərbaycan SSR-dən ayırmaq üçün Azərbaycan xalqını ləkələmək məqsədi ilə Sumqayıt hadisəsini təşkil etdilər.

SSRİ DTK sədrinin birinci müavini F.Bobkov bu barədə yazır: «İlk qurbanlar azərbaycanlılar oldu. Üzümlükdə işləyən iki nəfər, kəndli və balaca oğlan erməni atıcısına şübhəli göründü və fevralın 22-də 1988-ci ildə həmin iki nəfər öldürüldü»[74].

Ulu öndər Heydər Əliyev Dağlıq Qarabağ ətrafında gedən proseslərin əsl mahiyyətini gizlədərək böhtan və əsasız ittihamlar irəli sürülməsinə də öz münasibətini bildirirdi: «Dağlıq Qarabağ hadisələri ilə bağlı ünvanıma səslənən iradlarla da razılaşa bilmərəm. Onlar əsassız və sübutsuzdur. Muxtar Vilayət və onun ətrafında mürəkkəb vəziyyət yaranmışdır və bu, dərin, düşünülmüş, başlıcası isə obyektiv təhlil tələb edir. Burada emosional yanaşma yolverilməzdir.

Mən Azərbaycandan 1982-ci ildə getmişəm, Dağlıq Qarabağda hadisələr isə 1988-ci ildə başlayıb. Azərbaycanda işlədiyim dövrdə Dağlıq Qarabağda vəziyyət normal, sabit idi. Millətlərarası zəmində heç bir neqativ hal yox idi. Dağlıq Qarabağda tez-tez olurdum, mehriban münasibət görürdüm, heç kim mənim qarşımda bu cür xarakterli məsələləri qoymurdu. Azərbaycan KP MK-nın birinci katibi işlədiyim dövrdə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxması haqqında bir dənə də olsun məktub, xahiş olmamışdı. Yeri gəlmişkən, sosial-iqtisadi inkişaf səviyyəsinə görə Dağlıq Qarabağ Muxtar Vilayətinin göstəriciləri Azərbaycan və Ermənistan üzrə olan orta respublika göstəricilərini üstələyir. Bununla mən demək istəmirəm ki, keçmişdə Dağlıq Qarabağa, onun partiya təşkilatına rəhbərlikdə nöqsan və səhvlər olmayıb və orada problemlər yoxdur. Vilayətdə sosial-iqtisadi və mənəvi xarakterli problemlər vardır, onları həll etmək lazımdır, lakin görülən işləri qiymətdən salmaq, danmaq olmaz»[75].

Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasının Dağlıq Qarabağ məsələsi ilə bağlı kompaniyanın başlanması ilə əlaqəsi haqqında çoxlu fikirlər söylənmiş, məqalələr yazılmışdır. A.Aqanbekyanın Fransanın «Humanite» qəzetinə verdiyi müsahibədə Heydər Əliyevin istefasından cəmi 20 gün sonra dərc olunmuşdu. F.Bobkov Aqanbeqkyanın M.Qorbaçovla yaxın olmasını xatırlayır, xaricdə onun M.Qorbaçovun siyasi baxışlarının ifadəçisi kimi tanımasını bildirirdi: «Belə bir xəbərin erməni diasporu arasında yayılması, Ermənistana və Azərbaycana çatmasından sonra Aqanbekyan azərbaycanlılar üçün ümumiləşmiş fiqura - Qarabağ tonqalına kibrit yaxınlaşdıran ilk adama çevrildi»[76].

İngilis jurnalisti Tomas de Vaal «Qara bağ» kitabında İqor Muradyanın «miatsum» təşəbbüskarlarının Moskvaya Dağlıq Qarabağ haqqında ərizə aparması və onun imzalanması üçün MK üzvləri və tanınmış alimlər də daxil olmaqla, doqquz moskvalı ermənini yola gətirmələrini yazır: «Qorbaçovun iqtisadi islahatlar üzrə müşaviri Aqanbeqyanın imzası daha əhəmiyyətli oldu. Muradyan xatırlayır ki, Aqanbekyan məktubu imzalayacağı evə gələndə onun hara və nə üçün aparıldığını bilmirdi. Məktuba imza atana qədər Aqanbekyan dörd saat orada oldu. Və bu dörd saat ərzində iki litrə yaxın araq içmişdi»[77].

Məlumdur ki, M.Qorbaçovda ermənipərəstlik Dağlıq Qarabağ hadisələrindən xeyli əvvəl, hətta onun Sov.İKP MK Baş katibi seçilməsindən də qabaq yaranmışdı. M.Qorbaçovun ermənipərəst kimi tanınmasında ona yaxın adamlarının - ailə üzvlərinin xüsusi rəğbəti də mühüm rol oynayırdı.

Filip Bobkov «Xainləri necə hazırlayırdılar» adlı kitabında yazır: «Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağda müharibənin başlanmasına iki il qalmış mən şəxsən Sov.İKP MK-nın katibi Yeqor Liqaçovu qanlı münaqişə təhlükəsi haqda xəbərdar etmişdim. Qorbaçov da vəziyyətdən heç bir nəticə çıxarmadı və özünün ikimənalı çıxışlarını davam etdirdi.

Düşünmədən bir tərəfi alqışladı, o birini rədd etdi. Situasiya alovlanırdı, Kreml isə təkrarlamaqda davam edirdi: «qorxulu heç nə yoxdur, dramatikləşdirməyin». 1988-ci ildə Sumqayıtda talanlar və Dağlıq Qarabağdakı ilk toqquşmalar zamanı Y.K.Liqaçov bunu etiraf etdi və bizim söhbətimizi xatırladı. Təəssüf ki, artıq gec idi»[78].

Bütün bunlar M.Qorbaçovun sonrakı çıxış və müsahibələrində də, hətta nə qədər ört-basdır etmək istəsə də, özünü büruzə verir. Bu siyasət - Rusiya dövlətinin ermənilərə xüsusi diqqəti keçən əsrlərdə də, sonrakı dövrdə - sovetlər dövründə də olmuşdur, bu indi də davam edir. M.Qorbaçovun son zamanlar «Azadlıq» radiosuna verdiyi müsahibəsində deyilir: «Həqiqətən 80-ci ildə Qarabağ ağlamalı gündə idi: hakimiyyət Qarabağa fikir vermirdi. Hətta Qarabağdan əlaqə saxlamağa, deyək ki İrəvanla, imkan verilmirdi. Qarabağ maliyyə ilə təmin edilmirdi»[79].

SSRİ-nin keçmiş dövlət başçısı fikrinə əlavə edir: «Məsələn, mən, Qarabağa respublika statusu verilməsini təklif etdim. O zamankı Azərbaycan rəhbərliyi, deyəsən, onda Vəzirov idi, razılaşmağa hazır idi, lakin sonra alınmadı. Həmin dövrdə, bəlkə də, məsələni həll etməyə imkan vardı, indi isə artıq təsəvvür etmək mümkün deyil ki, Qarabağ Azərbaycanın tərkibində ola bilər.

Mənə elə gəlir ki, kömək etmək lazım idi ki, Dağlıq Qarabağa status verilsin. Həmçinin iqtisadi cəhətdən elə etmək lazım idi ki, əhali İrəvanla sakitcə əlaqə saxlaya bilsin. Sonra biz, əlbəttə, Qarabağa vəsait ayırdıq, ancaq bu vəsait necə sərf edildi, bunu mən bilmirəm»[80].

Xaricdə M.Qorbaçovun ermənipərəst əhval-ruhiyyəsi barədə xəbər tutan kimi, erməni lobbisində böyük maraq yarandı. O, Baş katib seçiləndən sonra erməni separatizminin ideoloqları daha fəal hərəkət etməyə başladılar. Dağlıq Qarabağ Muxtar Vilayətində Ermənistanla birləşmək haqqında ermənilərin «referendum» adlandırdıqları sənəd üçün imza

toplanırdı, Moskvaya bir-birinin ardınca nümayəndə heyətləri göndərilirdi. Anastas Mikoyanın oğlu Sergey Mikoyan, avantürist yazıçı Zori Balayan və b. xarici ölkələrdəki erməni lobbisi ilə görüşür, dünya ictimaiyyətinin diqqətini «Dağlıq Qarabağ probleminə» cəlb etmək üçün təbliğat aparırdılar.

M.Qorbaçov DQMV ətrafında cərəyan edən hadisələri «Həyat və islahatlar» kitabında özünəməxsus şəkildə geniş şərh etmişdir: «1988-ci ilin fevralında Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisi (85 faizi ermənilərdir) vilayəti Ermənistan SSR-in tərkibinə keçirməyi tələb etdi. Qərar Vilayət Soveti tərəfindən qəbul olunmuş və dərhal da Ermənistanda çoxminlik nümayiş və mitinqlərlə dəstəklənmişdi. Bunlar mütəşəkkil, asayişi pozmadan keçirdi. Yenidənqurma və aşkarlığı dəstəkləyən plakatlarla gedirdilər. Hüquq mühafizə orqanları yalnız qayda-qanuna nəzarət edirdi, heç bir başqa ölçü götürmürdü, bu insan dənizinə qarşı heç götürə də bilməzdi.

Bu, Azərbaycanda kəskin cavab reaksiyası doğurdu, orada da antierməni şüarları altında mitinqlər keçdi.

Fevralda Siyasi Büro Dağlıq Qarabağ haqqında məsələni müzakirə etdi. Razumovski məlumat verdi ki, fevralın 12-də Stepanakertdə keçirilən partiya və təsərrüfat rəhbərlərinin yığıncağı Ermənistanla birləşməyin lehinə fikir bildirib. Fevralın 13-də mitinq olub. «Camaatı yerindən oynadan» iki nəfərin adı çəkilib - İrəvandan «Qosplanın» əməkdaşı Muradyan və vilayət partiya komitəsinin təlimatçısı Karapetyan. Respublika rəhbərlərinin mövqeyi haqqında məlumat daxil oldu. K.Bağırov təkid edirdi ki, mərkəz DQMV-nin dəyişilməz statusunu təsdiqləsin və buna zəmanət versin. K.Dəmirçyan DQMV-nin müraciətinə Azərbaycan, Ermənistan və Sovet İttifaqının Ali Sovetlərində baxılmasını istəyirdi. Aydın oldu ki, Bakı və İrəvanın Stepanakert ətrafında mübahisəsini Moskva həll etməli olacaq.

Rıjkov dedi ki, «Konstitusiya çərçivəsində hərəkət etmək

lazımdır». Çebrikov fikir söylədi ki, bir yox, bir neçə addım atmaq lazımdır: birgə iclas keçirmək, Moskvadan elə adamları göndərmək lazımdır ki, onların fikirlərini eşitsinlər. Məlumat verdi ki, hadisələr digər respublikalarda da əks-səda doğurur. Estoniyada SSRİ-nin tərkibindən çıxmaq əhval-ruhiyyəsi artır, Tacikistan Buxara və Səmərqəndə olan iddialarını müzakirə edir.

Mənim nöqteyi-nəzərim belə idi: problemi siyasi üsullarla həll etmək lazımdır. Bəyan edilməlidir ki, MK hər hansı sərhəd dəyişikliklərini yolverilməz hesab edir. Dağlıq Qarabağın iqtisadi, sosial və mədəni həyatı ilə bağlı təkliflər hazırlamaq. Qoy ermənilər və azərbaycanlılar bir yerə yığışıb özləri həll etsinlər, biz onların istənilən qərarını qəbul edərik. Rus ziyalılarını, fəhlələri onların diskussiyalarına qoşmaq. Qərara alındı ki, yerli rəhbərliyə kömək üçün hər iki respublikaya Siyasi Büro nümayəndələri göndərilsin. Bakıya Yeqor Liqaçov və Razumovski, İrəvana isə Aleksandr Yakovlev və Dolgix yollandılar. Onların vəzifəsinə əlaqə yaratmaq, insanları sakitləşdirmək daxil idi.

O anda başlıcası sakitliyi bərpa etmək, insanları ümidsiz vəziyyətə çatdırmamaq, millətçi-ekstremistlərin demokratiyanı öz xeyirlərinə çevirməyə imkan verməmək idi. Fevralın 26-da mən Azərbaycan və Ermənistan xalqlarına düşüncə, məsuliyyət, ağıl nümayiş etdirmək çağırışı ilə müraciət etdim. Çağrışda deyilirdi ki, biz müxtəlif təklifləri açıq müzakirə etməkdən kənara çəkilmirik. Lakin bunu sakit, demokratik proses və qanun çərçivəsində etmək lazımdır.

Müraciət şəraitin bir qədər normallaşmasına kömək etdi. İrəvanda fasiləsiz kütləvi mitinq dayandırıldı, sakitləşmiş adamlar evlərinə dağıldılar.

Mən dialoq qurmağa, mənim qəti inamıma görə vəziyyətdən çıxmaq üçün yeganə yol olan kompromis axtarmağa çalışırdım.

Bu günlərdə şair Silva Kaputikyan və jurnalist Zori Balayanla görüşüm oldu. Söhbətdə G.Şahnazarov da iştirak edirdi.

Söhbət uzun çəkdi. Mən həmsöhbətlərimə məsələnin tarixçəsini ətraflı danışmaq imkanı verdim. Qarabağ ətrafında mübahisənin kökləri, deyilənlərə görə, uzaq keçmişə gedib çıxır. Əsrlərdən bəri iki xalq bu bərəkətli torpaqda yan-yana yaşamışdır. Vaxt olub torpaq əldən-ələ keçmiş, yüzilliklərlə İranın hakimiyyəti altında olmuşdur. Ancaq əsas etibarilə oranın əhalisi ermənilər olmuşdur. İnqilabdan dərhal sonra onların ana vətənlə birləşmək haqqında çoxdankı arzusu az qala gerçəkləşəcəkdi (?!). Lakin əvvəlcə buna söz verən Azərbaycanın o vaxtkı rəhbəri Nəriman Nərimanov, tezliklə sözünü geri götürdü. Sonradan bu məsələ dəfələrlə qaldırılmışdı, o cümlədən müharibədən sonra, lakin öz həllini tapmamışdı.

Bu barədə Kaputikyan və Balayan ətraflı danışırdılar, mənə səliqə ilə toplanmış sənədləri, coğrafi xəritələri, tarixi arayışları göstərirdilər. Sonra isə Qarabağın erməni əhalisinin sıxışdırılması, onun Ermənistandan təcrid olunması, tarixi abidələrin dağıdılması haqqında danışmağa başladılar. Əslində, söhbət ermənilər vilayətdən məqsədyönlü çıxarmaqdan gedirdi. Necə ki, bunu Naxçıvan MR-də həyata keçirmək mümkün olmuşdu - orada inqilabdan sonra erməni əhalisi üstünlük təşkil edirdi, indi isə 95 faiz azərbaycanlılardır. İslamın xristianlıq üzərinə hücumu davam edir - qonaqlarımdan kimsə bütün baş verənləri belə səciyyələndirdi.

Sonra isə mən sözə başladım və rəhbərliyin mövqeyini təfərrüatı ilə izah etdim. Bu mövqeyin məğzi ondan ibarətdir ki, DQMV ermənilərinin qanuni və haqlı istəkləri yerinə yetməlidir, lakin ölkədə zəncirvarı reaksiya doğura biləcək, qan tökülməsinin başlanğıcı ola biləcək milli-ərazi bölümünü dəyişmədən. Fikirləşin, - mən onları inandırmağa çalışırdım, - alovlanan münaqişə hansı nəticələrə gətirib çıxara bilər. O, indi Azərbaycanda yaşayan 500 min erməninin və Ermənistanda yaşayan 200 min azərbaycanlının labüd ola-

raq qovulmasına gətirib çıxaracaqdır. Böyük insan kütlələri məhrumiyyətlərə və əziyyətlərə düçar olacaqdır. Bu fakt öz-özlüyündə dözümsüzlüyün güclənməsinə gətirib çıxaracaqdır. Bəlanın qarşısını almaq – bizim ümumi borcumuz, ilk növbədə, hər iki respublika ziyalılarının müqəddəs vəzifəsidir. Halbuki, həm bu, həm də digər tərəf ehtirasları qızışdırmaqla məşğuldur.

Silva Kaputikyan etiraz etdi: Bu, milli hisslərin intibahıdır, burada hansı qızışdırmadan söhbət gedə bilər!

- Yaxşı, - cavab verdim, - sizin sözlərinizin səmimiliyinə şübhə etmirəm. İnanıram ki, bir çox başqaları da erməni xalqının taleyinə yanır. Lakin artıq indidən milli hisslərlə oynayanlar var. Bir qədər irəliyə gedib deyim ki, hər şey belə də oldu. Ermənistanın adlı-sanlı ziyalılarını, intellektuallarını utanmadan ikinci plana sıxışdırdılar. Azərbaycanda, Gürcüstanda və digər respublikalarda da belə oldu. Bir il sonra SSRİ xalq deputatlarının I qurultayı yığılanda, Kaputikyan hələ öz bəyanatlarını yayırdı, sonra onun səsi eşidilmədi. Həyasız, ağına-bozuna baxmayan qüvvələr işləri öz əllərinə aldılar.

Şahnazarov da eyni fikirdə idi: əsas odur ki, məsələ qızışdırılmasın, ehtiraslar coşmasın, bu, bəlli olmayan nəticələrə gətirib çıxara bilər. Onun özü isə Qarabağdandır, tanınmış knyaz Şahnazarovlar nəslindəndir.

Bu görüş nəticəsiz qalmadı. Ertəsi gün Balayan mənim xahişimlə hazırlanmış DQMV-yə ilk təcili yardım tədbirləri haqqında təklifləri göndərdi. Orada 21 bənd var idi - yolların salınması, mənzil tikintisi, kilsələrin bərpası, İrəvan radiosu verilişlərinin qəbul olunması üçün imkan yaradılması, erməni dilində kitabların nəşri, Stepanakertdə universitet açılması və s. Mən Rıjkovla əlaqə yaratdım:

- Nikolay İvanoviç, sənə Qarabağa dair təklifləri göndərirəm, mümkün qədər hamısını nəzərə almağa çalış.

- Əlbəttə, Mixail Sergeyeviç, bütün ölkə üçün həyati əhəmiyyətli məsələdir, bu işdə xəsislik etmək olmaz.

İki gün sonra Nazirlər Sovetindən DQMV-nin təxirəsalınmaz ehtiyacları üçün 400 milyon rubl ayrılmasını nəzərdə tutan qərarın layihəsini göndərdilər. Əvvəl bu çox güclü təəssürat oyatdı, lakin iki-üç aydan sonra siqnallar gəlməyə başladı ki, respublika hakimiyyəti Mərkəzin ayırdığı pulları özü bildiyi kimi sərf edir, yalnız kiçik bir hissə ünvan sahibinə çatır. *Komissiya göndərib yoxlamalı olduq.*

Əsas təkliflər, hər halda, nəzərə alınmışdı. Ancaq bu iş on il qabaq görülsəydi, Əliyev düzgün beynəlmiləlçilik xətti yürütsəydi fəlakətin qarşısını almaq olardı. 1988-ci ildə artıq gec idi».[81]

M.Qorbaçovun bu dedikləri, onun həqiqətən də belə bir mürəkkəb və incə problemi anlamaqda nə qədər diletant və səriştəsiz olduğunu, siyasətdə burnunun ucundan uzağı görə bilmədiyini, səbatsızlığını, zəifliyini göstərir. Dərindən dərk edə bilmədiyi məsələdə Azərbaycan Respublikasının keçmiş rəhbəri Heydər Əliyevi ittiham etməyə çalışır. Sovet dövləti başçısının öz ifadələrində ermənilərə, onların «haqlı istəklərinə», «haqlı tələblərinə» rəğbətin duyulması, Azərbaycana birtərəfli şəkildə «kompromislərə getmək» təklif olunması onun mövqeyini tamamilə ifadə edirdi. Halbuki, Ermənistanın dövlət şəklində separatizmi pislənməli olduğu halda, bu məsələ ört-basdır edilir, diqqətdən yayındırılırdı.[82]

M.Qorbaçov «qoy ermənilər və azərbaycanlılar özləri həll etsinlər. Biz onların istənilən qərarını qəbul edərik» fikri ilə, əslində, separatizmə və SSRİ-də müttəfiq respublikaların ərazi sərhədlərinin dəyişdirilməsinə yönəlmiş ilk cəhdə bəraət qazandırmış oldu. Nüfuzlu ekspertlərin fikrincə bu, SSRİ-nin dağılmasında detonator rolunu oynamışdır.

Ölkənin paytaxtında - Kremldə erməni separatizminin carçılar Z.Balayan və S.Kaputikyanın qəbul edilməsini yada salan F.Bobkov yazır: «Bu görüşlərin niyə keçirildiyini demək çətindir. Bəlkə ölkə rəhbərləri çətin düyünü açmaq üçün ziyalıların nüfuzundan istifadə etmək istəyirdi? Bəs

niyə Moskvada yalnız ermənilərı qəbul etdilər? Bu açıq-açığına, bəlkə də nümayişkaranə üstün tutmaq nəyə lazım idi?..

Hakimiyyətin belə hərəkətləri azərbaycanlılar arasında nəinki çaşqınlıq yaradır, həm də belə bir güman doğururdu ki, onlara xəyanət etmişlər. Ermənilər isə sevinirdilər, xüsusən də Moskvadan dönən S.Kaputikyan və Z.Balayan birmənalı şəkildə işarə edirdilər ki, Qorbaçov Qarabağ münaqişəsində ermənilərin tərəfindədir. Mərkəzin bilərəkdən bu cür addımlar atdığını söyləməyə məndə əsas yoxdur, lakin belə uzağı görməyən siyasət, münaqişəni şiddətləndirdi və burada günah bilavasitə Qorbaçovun üzərinə düşür»[83].

Proseslərin şahidlərinin fikirlərindən belə təəssurat yaranır ki, o zaman S.Kaputikyan və Z.Balayan kimi erməni ideoloqları guya M.Qorbaçova ermənilərə qarşı «vaxtilə edilmiş ədalətsizliyin» bərpa olunması məsələsini anladır, tələb edir, dövlət başçısı isə onların istəkləri ilə hərəkət etməyə məcbur olur. Bu araqızışdırıcıların hay-küyü əsasında mülahizələr yürütmək, nəticə çıxararaq, qərar vermək ermənipərəstliklə imperiyapərəstliyin, məğmun şəkildə görünsə də, çoxdan başlamış və davam edən simasızlığın əsl siması idi.

Təbiidir ki, Sov.İKP MK Siyasi Büro üzvlərinin əksəriyyəti M.Qorbaçovun Dağlıq Qarabağ məsələsinə ikili standartla yanaşdığını bilirdi. V.Vorotnikov bildirir ki, «erməni təsiri həmişə olub. Şahnazarov bu barədə mənimlə dəfələrlə söhbət edib»[84].

«Yenidənqurma»nın sadiq icraçılarından olan, ölkədə məlum xarici xüsusi xidmət orqanlarının buyruğu ilə fəaliyyət göstərən A.Yakovlevin M.Qorbaçovun təklifi ilə, İrəvana göndərilməsi bu məsələnin həllinin istiqamətini irəlicədən müəyyən etmək idi və belə də oldu.

SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sabiq sədri Vladimir Kryuçkov A.Yakovlev haqqında deyir: «Qafqazda o, Ermənistana rəğbətlə yanaşır, mahiyyətcə ermənilərı Azərbaycana qarşı çıxışlara şirnikdirirdi, Qarabağ ətrafında vəziyyəti

gərginləşdirirdi. Ümumiyyətlə, Azərbaycan haqda həmişə ikrahla danışırdı.

«Məhz Yakovlev Baltikyanı bölgədə, Qafqazda vəziyyətin səbatsızlaşdırılmasında az qala həlledici rol oynamışdı. O, Baltikyanı respublikalarda hər vəchlə millətçilik, separatçılıq ovqatına həyanlıq edir, onların ayrılmasına yönəldilmiş təmayülləri dəstəkləyirdi. O, Qafqazda Ermənistana «rəğbət» bəsləyir, əslində isə Azərbaycana qarşı çıxışlara təhrik edir, Qarabağ problemi ətrafında vəziyyəti qarışdırırdı. Ümumiyyətlə, Azərbaycan haqqında həmişə açıq-aşkar qərəzli söylənərdi»[85].

A.Yakovlevin Ermənistan KP MK-nın plenumundakı çıxışında DQMV məsələsinin üstündən sükutla keçməsi, cəmiyyətdə kök salmış mühafizəkarlardan və mühafizəkarlıq təhlükəsindən danışması, «Dağlıq Qarabağ» sözünü bir dəfə də olsun dilinə gətirməməsi Mərkəzin milli-ərazi sərhədləri haqqındakı qəti mövqeyini yada salmaması məsələnin kon kret həlli üçün lazım olan fikirlərdən yan keçərək, gələcək üçün «işıq yolu» qoymuşdu.[86] A.Yakovlev İrəvanda millətlərin öz müqəddəratını təyin etmək hüququ barədə mühazirəsi, faktik olaraq separatizmə rəvac verdi.

1988-ci il mayın 21-də Azərbaycan KP MK-nın plenumunda Y.K.Liqaçov Dağlıq Qarabağda baş verən hadisələr barədə sərt danışdı və bununla da erməni separatçılarının başladığı millətçilik hərəkətlərinin nəinki iki respublikaya, bütün ölkəyə ziyan gətirdiyini aşağıdakı kimi şərh etdi: «Məlumdur ki, bizim ölkəmiz çoxmillətlidir və hər hansı bir məsələni həll edərkən bütün millət və xalqların maraqları nəzərə alınmalıdır. MK ərazi-dövlət quruluşuna yenidən baxılmasını yolverilməz hesab edir. Bununla bərabər, MK-nın məlum qərarından nöqtəbənöqtə sitat gətirirəm - ona əsaslanır ki, bu regionda mövcud milli-ərazi quruluşuna yenidən baxılmasına yönəlmiş hərəkət və tələblər Azərbaycan və Ermənistan SSR zəhmətkeşlərinin maraqlarına ziddir və

milli münasibətlərə zərər gətirir. Müttəfiq respublikalar və muxtariyyətlər çərçivəsində bütün millətlərin və hər birinin ayrılıqda azad və hərtərəfli inkişafı üçün şərait vardır... Sonrakı hadisələr Sov.İKP MK-nın düzgün mövqedə olduğunu sübut etdi. Bir fikir verin, yoldaşlar, hətta Dağlıq Qarabağın verilməsi haqqında məsələ qaldırmağın özü belə erməni və azərbaycanlı əhalinin bir hissəsi arasında münasibətləri son dərəcə kəskinləşdirmiş, Ermənistan və Azərbaycanda millətçi, şovinist əhval ruhiyyə yaratmışdır... Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr partiya təşkilatlarını və əmək kollektivlərini yenidənqurmadan yayındırdı. Bundan əlavə, düşünürəm, mənimlə razılaşarsınız ki, sizlərdən bəziləri üçün nə qədər ağrılı olsa da, baş verənlərin hamısı yenidənqurma siyasətinə, cəmiyyətimizin demokratikləşməsinə vurulan birbaşa zərbədir»[87].

Keçən əsrin 80-ci illərinin ortalarında, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişənin başlanmasına bir neçə il qalmış, Rusiyada nəşr olunan bir sıra jurnallarda DDK-nın istefada olan yüksək rütbəli zabitlərinin maraqlı məqalələri dərc olunurdu. Eyni zamanda, Rusiya kəşfiyyatına sığınmış erməni yazıçılarının türkdilli xalqlarına, o cümlədən azərbaycanlılara nifrət və kin dolu kitabları çap olunurdu. Həmin nəşrlər insanların beynini «zəhərləyən» zaman Azərbaycanın yaradıcı ziyalılarının görkəmli nümayəndələri qarşıdan gələn təhlükə haqqında xəbərdarlıq edirdilər. Onlar respublika mətbuatında tənqidi məqalələr dərc edir, ittifaq orqanlarına şikayət məktubları göndərirdilər.

Heydər Əliyev 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin açılışındakı çıxışında Moskvada Siyasi Büronun üzvü olduğu vaxtlarda «Şərq qapısı» qəzetində (əvvəllər «Sovet Naxçıvanı» adlanırdı) Azərbaycan xalqının qədim tarix və mədəniyyət abidəsi Gəmiqaya haqqında məqalə verildiyini xatırlatmışdı. Həmin məqamdan ermənilər böyük bir problem düzəltmişdilər ki, guya

Azərbaycanda millətçilik vüsət almışdır[88].

Heydər Əliyev vaxtilə baş vermiş bir epizodu belə xatırlamışdır: «Yadımdadır, bir dəfə biz, Siyasi Büronun üzvləri, Moskvada, Böyük Teatrda mövsümün açılışında iştirak edirdik. Fasilə zamanı Qorbaçov, mən, Siyasi Büronun digər üzvləri çay içirdik. Qorbaçov məndən soruşdu ki, Azərbaycanda millətçilik genişmi yayılmışdır. Cavab verdim ki, bəzi müttəfiq respublikalarda millətçilik vardır, Azərbaycan isə SSRİ-də ən beynəlmiləl respublikadır, ona görə də orada millətçilik başqa yerlərdə olduğundan azdır»[89].

O illər Azərbaycan DTK-nın sədri işləyən, Dağlıq Qarabağ hadisələrinin lap əvvəlində Stepanakertdə (Xankəndidə) erməni deputatların vilayət İcraiyyə Komitəsinin sessiyasında DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərarı qəbul etdikləri vaxt orada olan Ziya Yusifzadə sonralar müsahibəsində demişdir: «1988-ci ilin fevralında mən Bakı Şəhər Partiya Komitəsinin birinci katibi Fuad Musayevlə birlikdə Kislovodskda «Partiyanın XXII qurultayı» sanatoriyasında istirahət edirdim. Heç on gün keçmədi ki, mənə MK-nın birinci katibi Kamran Bağırov zəng vurdu. Bəs, dərhal Bakıya gəl, Stepanakertdə vəziyyət yaxşı deyil. Mən Bakıya uçdum, sonra isə əməliyyat qrupu ilə birlikdə Stepanakertə. SSRİ DTK sədrinin birinci müavini Filip Bobkov da bizim ardımızca Stepanakertə gəldi. Mən öz adamlarımızı kütlənin içinə göndərdim ki, orada nə baş verdiyini öyrənək. O vaxt hansı iddiaların irəli sürüldüyü sizin yadınızdadır: guya DQMV-də sosial-iqtisadi vəziyyət pisdir, Azərbaycan muxtar vilayətə kömək etmir və s. Ekstremistlər gecə-gündüz vilayət partiya və icraiyyə komitələrinin qarşısında «Miatsum!» qışqırdılar. Mən gündə iki dəfə SSRİ DTK sədri Çebrikova şifrə teleqram göndərirdim ki, əgər təcili tədbirlər görülməsə vəziyyət nəzarətdən çıxa bilər. Bizim teleqramlar Baş katibin, kurator katibin və xarici işlər nazirinin stolunun üstünə qoyulur, lazım bildikləri halda Siyasi Büronun digər üzvlərinə də çatdırılır-

dı. Vaxtaşırı Kamran Bağırova da zəng vururdum, deyirdim ki, vəziyyət mürəkkəbdir, artıq sosial-iqtisadi məsələ müzakirə olunmur. Separatçılar DQMV-nin Azərbaycandan ayrılmasını tələb edirlər və artıq bu məsələni həll etmək üçün vilayət Xalq Deputatları Sovetinin sessiyasını çağırmağa hazırlaşırlar. Buna görə də Sizin buraya gəlməyiniz lazımdır. Kamran Bağırov MK katibi Həsən Həsənovla Stepanakertə gəldilər. Gevorkov o vaxt hələ vilayət partiya komitəsinin birinci katibi idi. Gevorkovun kabinetində sessiyanın keçirilməsi müzakirə olunurdu. DQMV-də azərbaycanlı deputatlar 11-12 nəfər idi. Biz məsləhət gördük ki, onlar iclasda iştirak etməsinlər. Çünki azlıqda olacaqlar, erməni deputatlar isə onsuz da özlərinə sərf edən qərarı qəbul edəcəklər, yəni Dağlıq Qarabağı Ermənistana birləşdirməyə səs verəcəklər. Həsən Həsənov Kamran Bağırovdan təkidlə xahiş edirdi ki, bu biabırçılığın şahidi olmamaq üçün vilayət XDS-nin sessiyasında iştirak etməsin. Ancaq K.Bağırov getməyi qərara aldı. Mən onunla birlikdə yollandım. Sessiyanı vilayət icraiyyə komitəsinin sədri aparırdı. Erməni deputatlar yekdilliklə DQMV-nin ayrılmasına və Ermənistana birləşdirilməsinə səs verdilər. Kamran Bağırov yaranmış vəziyyətdə orada çıxış etməyi lazım bilmədi və sessiyanın qurtarmasını gözləmədən zalı tərk etdi. Sonradan Azərbaycan Ali Soveti vilayət sovetinin qərarını səlahiyyətsiz elan etdi. Çox keçmədən biz Moskvaya, SSRİ Ali Sovetinin sessiyasına yollandıq. Orada foyedə Heydər Əliyevlə rastlaşdıq. O, artıq Siyasi Büronun üzvü deyildi, lakin SSRİ Ali Sovetinin deputatlığında qalırdı. Ona yaxınlaşdıq: Kamran Bağırov, Qurban Xəlilov, Həsən Seyidov və mən. O, bizə dedi: «Dağlıq Qarabağ haqqında məsələni Siyasi Büroya çıxarmağa çalışın. Söhbət artıq separatizmdən, sərhədlərin dəyişdirilməsindən gedir». K.Bağırov dedi ki, o da belə düşünür.

Bu hadisələrdən bir qədər sonra Sov.İKP MK katibi Razumovski başda olmaqla Sov.İKP MK-dan 15 nəfər Bakıya

gəldi. Kamran Bağırovun da kabinetini tutdular. Mən Stepanakertdən Bağırova zəng vururam ki, bəs, qərar qəbul etmək lazımdır: burada pozğunluq salan «Krunk» təşkilatının 10-12 nəfər əsas üzvü var...»[90].

Heydər Əliyev bu məsələ ilə bağlı prosesləri "Azərbaycanın XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı müraciətində (2000-ci il, 29 dekabr) belə şərh etmişdir: «1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi Azərbaycan xalqı tərəfindən elə ilk günlərdən respublikanın ərazi bütövlüyünə qarşı, vətəndaşların Konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş bir cəhd kimi qəbul olundu. Lakin sərhədlərimizin toxunulmazlığı müxtəlif səviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması məqsədini güdən siyasət mərhələ-mərhələ həyata keçirilirdi.

Hələ 1988-ci ilin martında SSRİ rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında xüsusi bir qərar qəbul edərək, əslində, Dağlıq Qarabağın Azərbaycan SSR-in tabeliyindən çıxarılmasının təməlini qoydu. Heç bir obyektiv əsasa istinad etməyən, qondarma səbəblərlə qəbul edilmiş bu qərarla Dağlıq Qarabağa müstəsna hüquqlar verildi, külli miqdarda vəsait ayrıldı, vilayətin bir çox məsələlərinin həlli birbaşa ittifaq nazirlik və qurumlarına həvalə edildi. Azərbaycan SSR Ali Sovetinin 17 iyun 1988-ci il tarixli qərarında isə qeyd olunurdu ki, mərkəzin həmin qərarı ilə həyata keçirilən tədbirlər «Muxtar vilayətin məhsuldar qüvvələrinin inkişafının sürətləndirilməsi, onun istər erməni və azərbaycanlı əhalisinin, istərsə də başqa millətlərinin iqtisadi və mənəvi tələbatının ödənilməsi üçün əlverişli şərait yaradır»[91].

Azərbaycanla bağlı Moskvanın siyasətinin məqsədyönlü istiqamətdə davam etdirilməsi üçün daha münasib kadr tapdılar. O zamankı proseslərin hər üzünü yaxşı bilən Ramiz

Mehdiyevin bildirdiyi kimi, «1988-ci ilin mayında respublikada hakimiyyət dəyişikliyi baş verdi. Moskva Kamran Bağırovun yerinə 12 il respublikadan kənarda işləmiş, regionumuzdakı proseslərdən tamamilə uzaq olan Əbdürrəhman Vəzirovu təyin etdi. Həmin dövrdə tüğyan edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ciddi məşğul olmaq əvəzinə, o, bütün səylərini 70-80-ci illərin əvvəllərində fəaliyyət göstərən partiya orqanlarını gözdən salmağa, Heydər Əliyevi ləkələməyə yönəltdi»[92].

SSRİ Ali Soveti Rəyasət Heyəti Dağlıq Qarabağda vəziyyəti nizama salmaq adı altında Azərbaycanın hüquqlarını kobud surətdə pozaraq, 1989-cu il yanvarın 12-də «Azərbaycan SSR-in DQMV-də Xüsusi idarəçilik formasının tətbiqi haqqında» qərar qəbul etdi[93]. Həmin qərara əsasən, birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarəçilik Komitəsi (XİK) yaradıldı, Moskvanın Stepanakertdəki (Xankəndi) nümayəndəsi ermənipərəst A.Volski ona rəhbər təyin edildi. Komitənin tərkibində 5 nəfər rus, 2 nəfər erməni, yalnız 1 nəfər azərbaycanlı var idi[94]. A.Volskinin azərbaycanlılarla ermənilər arasında kompromis yaratmaq adı altında göstərdiyi fəaliyyət vəziyyəti daha da gərginləşdirirdi. O, Azərbaycanın deputatı olsa da, erməni millətçilərinin çirkin planlarını həyata keçirirdi.

Moskva XİK-ni yaratmaqla Azərbaycan SSR-dən DQMV-nin prinsipcə ayrılmasının əsasını qoydu. Belə ki, Komitənin yarandığı gündən vilayətdə Azərbaycan qanunları işləmədi. Azərbaycan SSR-in ictimai orqanlarının Dağlıq Qarabağda səlahiyyətləri dayandırıldı. DQMV XDS və İcraiyyə Komitəsinə böyük hüquqlar verildi. Onların fəaliyyəti Moskvanın göstərişlərinə tabe edildi[95].

1989-cu il yanvarın 28-də A.Volski Ermənistana gedərək gizli danışıqlar apardı. Dağlıq Qarabağın Ağdərə rayonu ərazisində gizli təyyarə meydanı düzəltdirdi, oraya Ermənistandan külli miqdarda müasir tipli silahlar və sursat daşındı.

Eyni zamanda, Azərbaycan SSR DQMV-nin erməni əhalisinin yığcam yaşadığı ərazilərində silah və sursat cəbbəxanaları yaradıldı[96].

Ermənipərəst A.Volski «təhlükəsizliyi təmin etmək» adı altında yaratdığı «Xüsusi dəstə» ilə azərbaycanlılar yaşayan kəndlərdə odlu silahların yığılması üçün reydlər keçirdi. Adi ov silahları da müsadirə edildi. Təxmini hesablamalara görə, 1989-cu ilin əvvəllərində azərbaycanlılardan 18 min ov silahı alındı. Dinc əhali yaxşı silahlanmış qəddar düşmən qarşısında əliyalın, müdafiəsiz vəziyyətə qaldı[97]. Komitə Vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə, azərbaycanlıların buradan qovulmasına şərait yaratdı.

Erməni millətçiləri 1989-cu ildə Dağlıq Qarabağ ərazisinə təkcə silah və sursat gətirməklə kifayətlənmədilər. Onlar həm də «xüsusi təlim adlandırılmış» «təbliğatçı» dəstələrin də bölgəyə gətirilməsinə şərait yaratdılar. Belə ki, aprelin 2-də Rusiya Dövlət Dumasının deputatı, qatı millətçi Qalina Starovoytovanın başçılığı ilə Ermənistan SSR-dən DQMV-yə 40 nəfərdən ibarət təbliğat qrupu gəldi. Nəticədə 1989-cu il mayın əvvəlində Dağlıq Qarabağın bütün erməni partiya, sovet rəhbərlərinin və deputatlarının imzası ilə M.Qorbaçova «açıq məktub» göndərildi. Məktubda yeni yaradılmış «Volski rejiminin» yaxşı cəhətləri vurğulanır, buna görə ona minnətdarlıq bildirilirdi. Eyni zamanda, DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi xahiş edilirdi. M.Qorbaçovun diqtəsi ilə SSRİ Nazirlər Sovetində erməni millətçilərinin yazdıqları «məktuba» cavab olaraq, 1989-cu il 6 may tarixli qərarı ilə DQMV-dəki idarə və müəssisələr Azərbaycan SSR-in tabeçiliyindən çıxarıldı. Sovet rəhbərliyi bununla da öz mövqeyini bəyan etdi. Bundan sonra Dağlıq Qarabağda azərbaycanlıların yaşadıqları ərazilərin ermənilər tərəfindən blokadasına imkan yarandı.

M.Qorbaçovun XİK-ə belə münasibəti Dağlıq Qarabağdakı erməni millətçilərinə çox böyük sərbəstlik verdi. 1989-cu

il iyunun 8-9-da ermənilərin «Qarabağ» təşkilatını Stepanakertdə (Xankəndi) keçirdiyi iclasda DQMV ərazisində yaşayan azərbaycanlıları bir nəfər kimi qovub çıxarmaq, çıxmayanlara qarşı zor tətbiq etmək qərara alınmışdı[98].

A.Volskinin rəhbərlik etdiyi XİK-in «fəaliyyəti» nəticəsində Azərbaycan SSR-in DQMV-də azərbaycanlıların vəziyyəti gündən-günə pisləşdi. Hətta iş o yerə çatmışdı ki, SSRİ Plan Komitəsinin hesabat sənədlərində DQMV 16-cı respublika kimi əlahiddə göstərilirdi. DQMV İcraiyyə Komitəsinin binası üzərindən Azərbaycan SSR-in dövlət bayrağı çıxarılıb, Ermənistan SSR-in dövlət bayrağı ilə əvəzlənmişdi[99].

DQMV-də XİK-nin yaratdığı şərait nəticəsində 1989-cu il iyunun 13-də azərbaycanlılar yaşayan məntəqələr blokadaya alındı. Sovet ordu hissələrinin köməyi ilə ermənilər Stepanakertdə (Xankəndi) bütün azərbaycanlıları - 14 min nəfəri döyüb təhqir edərək, ayaqyalın, başıaçıq şəkildə qovub şəhərdən çıxardılar[100].

Moskvanın ermənilərin qanlı əməllərinə qarşı qəti tədbirlər görməməsi onları yeni təhrikçi hərəkətlərə şirnikləndirdi. Ermənistan SSR Ali Soveti beynəlxalq hüquq normalarını pozaraq, 1989-cu il dekabrın 1-də « Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında» qeyri-qanuni qərar qəbul etdi. Vilayətin sosial iqtisadi inkişaf planı Ermənistan SSR-in dövlət planına daxil edildi. Hətta burada Ermənistan SSR xalq deputatları seçkiləri üzrə qeyri-qanuni seçki dairələri təşkil edildi və «deputatlar» seçildi[101].

Beləliklə, DQMV-də məqsədli şəkildə yaradılmış XİK fəaliyyət göstərdiyi dövr ərzində erməni millətçilərinin qarşıya qoyduqları planı reallaşdırdı. XİK vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə, onu Azərbaycana bağlayan iqtisadi əlaqələrin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlanmasına və separatçı-terrorçu dəstələrində birləşməsinə şərait yaratdı.

Sovetlər Birliyinin rəhbərliyi Azərbaycanın demokratik

qüvvələrinin tələblərinin güclənməsi ilə imperiya üçün artan təhlükəni azaltmaq və əhalini sakitləşdirmək üçün 1989-cu il noyabrın 28-də Xüsusi İdarəçilik Komitəsini ləğv etsə də, bu, müsbət dəyişikliyə səbəb olmadı.

Gözdən pərdə asmaq üçün 1990-cı il yanvarın 10-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti «Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi aktların SSRİ Konstitutsiyasına uyğun olmaması haqqında» qərar qəbul etdi[102]. Burada göstərilirdi ki, Ermənistan SSR Ali Sovetinin «Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında» 1989-cu il 7 dekabr tarixli və «1990-cı ildə DQMV-nin sosial-iqtisadi inkişaf planını Ermənistan SSR-in iqtisadi və sosial inkişafına dair dövlət planına daxil etmək haqqında» 1990-cı il 9 yanvar tarixli qərarları SSRİ Konstitutsiyasına uyğun deyildir və SSRİ Konstitutsiyasının 74-cü maddəsinə görə, respublika ərazisində qüvvədə ola bilməz.

Lakin əvvəllərdə olduğu kimi, təəssübkeşlik yenə də Ermənistanı dövlət separatizmi imicindən xilas etdi. Bundan istifadə edən ermənilər siyasi-ideoloji təbliğatı, informasiya müharibəsini gücləndirdilər. Ölkə daxilində əhalini milli ideya ətrafında birləşdirmək, Azərbaycana qarşı ərazi iddialarını tarixi və hüquqi baxımdan "əsaslandırmaq", müxtəlif ölkələrdəki erməni diasporunun gücündən istifadə edilməsinə çalışmaq, beynəlxalq hüququn millətlərin öz müqəddəratını təyinetmə prinsipi ilə manipulyasiya edərək, Qarabağ ermənilərini müstəqil subyekt kimi təqdim etmək ideoloji fəaliyyətin əsas ünsürlərinə çevrildi.

Erməni mafiyasının əlində oyuncağa çevrilmiş M.Qorbaçov Azərbaycan xalqını sarsıtmaq, mübarizə əzmini qırmaq üçün 1990-cı ilin yanvarında Bakıya qoşun yeritdi və qırğını törətdi. Elə həmin vaxt erməni hərbi birləşmələri Azərbaycan ərazilərinə silahlı basqınlar etdilər. Naxçıvan MR Ermənistan tərəfindən blokadaya alındı. Muxtar respublikanın

Ermənistanla həmsərhəd kəndləri ermənilərin hücumlarına məruz qaldı. Ermənilər Kərki kəndinə hücum edərək, dinc əhaliyə vəhşicəsinə divan tutdular, onlarca günahsız insan qətlə yetirildi, kənd zəbt olundu[103].

SSRİ DTK-sı və ermənilər tərəfindən təşkil edilən Sumqayıt hadisələri və M.Qorbaçovun bilavasitə göstərişi ilə törədilən 20 Yanvar qırğını Azərbaycan xalqının müstəqillik uğrunda başlanmış milli azadlıq hərəkatının qarşısını almaqla bərabər, Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsini həll etməyə yönəldilmişdi.

20 Yanvar faciəsi zamanı Heydər Əliyevin Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə gələrək, hadisəyə öz münasibətini bildirməsi böyük ürək sahibi olan şəxsiyyətin inamlı addımı, təhlükə ilə cəsarətin qarşılaşdığı gərgin bir an idi. Heydər Əliyev Azərbaycan xalqına başsağlığı verməklə bərabər, Bakıda qırğın törətdiyi üçün SSRİ-nin rəhbərlərini kəskin tənqid etdi və qırğını törədənlərin cəzalandırılmasını tələb etdi.

Həmin dövrdə baş verənləri Heydər Əliyev belə şərh etmişdir: 1990-cı il yanvarın «...19-dan 20-nə keçən gecə Bakı şəhərinə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti yeridilmişdi. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur... Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, hava hücumundan müdafiə qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır...

Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır»[104].

Heydər Əliyev SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına müraciətində (19 iyul 1991-ci il) deyirdi:

"Sizin nəzərinizə çatdırıram ki, mən Sov.İKP-dən çıxmaq qərarına gəldim. Dərhal xəbərdarlıq edirəm ki, bu, sadəcə, «dəbə» uymaq deyil, son illər ərzində keçdiyim ağır məyusluqlar yolunun məşəqqətləri və hadisələrini yenidən qiymətləndirməyimin yekunudur.

Məni bu addımı atmağa məcbur edən başlıca səbəblər aşağıdakılardır:

Birincisi, hələ 1990-cı ilin yanvarında Mərkəzin və Azərbaycan KP-nin siyasi rəhbərliyi altında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov.İKP sıralarından çıxmaq fikri yarandı. Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid bağlayırdım.

Özümü ələ alıb səbrlə gözlədim. Çıxışlarıma cavab əvəzinə çox çəkmədi ki, «Pravda»dan başlayaraq partiyanın mətbu orqanlarında mənə qarşı hücumlar təşkil edildi. Mənə qarşı yönəldilmiş uydurma faktları əsaslandırılmış şəkildə həmin kütləvi informasiya vasitələrinin özündəcə təkzib etmək cəhdlərim boşa çıxdı. Yenidənqurmanın əsas nailiyyəti olan aşkarlıq özünü birtərəfli göstərirdi.

Yanvar faciəsinin günahkarlarını üzə çıxarmaq və cəzalandırmaq haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, ayrı-ayrı vətəndaşların, görkəmli ziyalıların müraciətlərini Azərbaycan kommunist rəhbərliyi qətiyyətlə rədd edirdi.

Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil.

İkincisi, üç ildən artıqdır ki, Mərkəzin ikiüzlü siyasəti

nəticəsində, Sov.İKP-nin havadarlıq etdiyi erməni millətçilərinin səyi ilə DQMV-də yaranmış kəskin münaqişəli vəziyyət saxlanmaqdadır. Vilayət əslində tamamilə Azərbaycanın dövlət idarəçiliyindən çıxıbdır.

Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub.

Ermənistan və Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Hər gün iki tərəfdən də adamlar ölür.

Bütün bunlar «humanist ideologiyalı» Sovet dövləti üçün adi haldır.

Əminəm ki, partiya rəhbərliyi istəsəydi, hələ 1987-ci ildə üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişə təzə başlananda onun qarşısını ala bilərdi, get-gedə güclənən qarşıdurmaya və həm Azərbaycan, həm də erməni xalqına ağır fəlakət və müsibətlər gətirmiş bu qırğınlara imkan verməzdi. Deməli, siyasi Mərkəzə bu münaqişə lazımdır.

Üçüncüsü, bütün cəmiyyətin demokratikləşməsi, siyasi azadlıqların və plüralizmin bəyan edildiyi bir dövrdə Azərbaycanda ərazi bütövlüyünün müdafiəsinə qalxmış geniş demokratik hərəkat və cəmiyyətin demokratikləşməsi Sov. İKP-nin rəhbərliyi altında Azərbaycan KP MK-nın səyi ilə boğulur. Bu illərdə nə qədər adam siyasi fəaliyyətinə görə repressiyalara məruz qalıb.

İl yarımdır ki, Azərbaycanın 2 milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Məhz belə bir şəraitdə respublika Ali Sovetinə üzdəniraq demokratik seçkilər və nəticələri İttifaqın xeyrinə irəlicədən həll olunmuş referendum keçirilmişdir. Fövqəladə vəziyyət şəraitində hər hansı demokratikləşməyə və xalqın iradəsini sərbəst ifadə etməsinə ümid bağlamaq avamlıq olardı.

Demokratik təşkilatlar dəfələrlə seçiciləri «əksəriyyətinin referendumda iştirak etməməsi və referendumun nəticələrinin saxtalaşdırılması barədə məsələ qaldırmışlar. Ancaq Azərbaycanın kommunist rəhbərliyi bu müraciətlərə

hətta baxmağa belə lüzum bilməyib. Mən Mərkəz tərəfindən sırınan yeni İttifaq müqaviləsinin əleyhinə çıxmışam və çıxıram. Hər hansı bir suveren dövlətim tərkibində bir neçə suveren dövlət və eləcə də bundan irəli gələn azadlıqlar, səlahiyyətlər və funksiyalar ola bilməz. Bütün müttəfiq respublikalara əsl siyasi, iqtisadi azadlıqlara, milli dövlət dirçəlişi üçün müstəqilliyə imkan vermək lazımdır. Bu heç də respublikaların iqtisadi birliyinə və ənənəvi mədəni əlaqələrinə mane olmaz, əksinə, onların təkmilləşməsinə, ikitərəfli və çoxtərəfli istiqamətdə inkişafına təsir göstərər.

Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın xalq deputatı kimi öz çıxışlarımda bu məsələləri dəfələrlə qaldırdım. Təklif etdim ki, xalq arasında tam nüfuzunu itirmiş Azərbaycan KP təkhakimiyyətlikdən imtina etsin, bütün siyasi qüvvələrin azad və bərabərhüquqlu fəaliyyətini təmin etsin, demokratik cəmiyyətin yaranmasına, aşkarlıq və plüralizmə şərait yaratsın. Ancaq bu çıxış və təkliflərimə Azərbaycanın kommunist rəhbərliyi nəinki baxır, əksinə, mənim ünvanıma təşkil olunmuş və hazırlanmış hücumlar şəklində cavab verir. Azərbaycanda mənim çıxışlarımı dərc edən qəzet redaktorları, jurnalistlər işdən çıxarılır, təqiblərə məruz qalırlar.

Bütün yuxarıda ifadə etdiklərim məni bu axırıncı addımı atmağa və Sov.İKP sıralarından çıxmaq haqqında bəyanat verməyə məcbur etdi; baxmayaraq ki, bu qərara gəlmək mənim üçün olduqca çətin olub.

Mən kommunist ailəsində böyümüşəm və bütün şüurlu həyatım Kommunist partiyası ilə bağlı olub.

1943-cü ildə 20 yaşında ikən öz taleyimi bolşeviklər partiyasına bağlamışam. Kommunist partiyasının ideallarına varlığımla inanmışam və onun planlarının həyata keçirilməsində fəal iştirak etmişəm.

İndi bütün bu inamlarım məhv olub. Yeniləşən partiya və respublikaların yeniləşən ittifaqı haqqında saysız-hesab-

sız bəyanatlar yenə də xalqı aldatmaqdır.

Xalqa açıq və doğrusunu demək lazımdır ki, bizim ölkədə kommunizm eksperimenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaranan və saxlanan respublikaların ittifaqı süquta uğramaqdadır.

Bu bəyanatdan sonra qarşıma çıxa biləcək çətinlikləri təsəvvür edir, hər cür hücumları və mənəvi zərbələri qabaqcadan görürəm.

Partiyanın keçdiyi yolun ayıq təhlili məni yuxarıda bəyan etdiyim indiki mövqeyə gətirdi. Bununla belə üzərimə düşən məsuliyyətin dərəcəsini də başa düşürəm. Sov.İKP sıralarını tərk edərkən, mən bütün təmiz və namuslu kommunistlərə hörmət bəslədiyimi bildirirəm".[105]

Beləliklə, bu faciələr SSRİ rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinin genişlənməsinə - Azərbaycan torpaqlarının işğalına, bununla da Azərbaycanın istiqlalına mane olmağa yönəlmiş siyasətə xidmət edirdi. Belə ki, planlı şəkildə davam etdirilən, getdikcə geniş vüsət alan Dağlıq Qarabağ münaqişəsi Ermənistan-Azərbaycan müharibəsinə çevrildi. 1991-ci il sentyabrın 2-də Yuxarı Qarabağda qeyri-qanuni, oyuncaq bir qurum, müstəqil «Dağlıq Qarabağ Respublikası»nın yarandığı elan edildi, Azərbaycan torpaqlarının işğalına başlandı.

Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında (5 fevral 1991-ci il) çıxışında Dağlıq Qarabağ məsələsini ətraflı şərh etmişdir: "Azərbaycanda vəziyyət daha da ağır və dözülməzdir. Bu isə erməni millətçiləri tərəfindən ortaya atılmış Dağlıq Qarabağ məsələsi ilə əlaqədardır. Üç ildən artıqdır ki, respublikamız, Azərbaycan xalqı Ermənistan tərəfindən ardı-arası kəsilməyən təcavüzlərə məruz qalır. Nəticədə Azərbaycanın ərazi bütövlüyü pozulub, Dağlıq Qarabağ Muxtar Vilayəti, Şaumyan rayonu (yaxşı ki, o bu gün ləğv olundu), Çaykənd kəndi faktiki olaraq Azərbaycanın dövlət idarə tabeliyindən çıxıb, Ermənistanla geniş

siyasi-iqtisadi və mənəvi əlaqələr həyata keçirir. Şərur rayonunun Kərki kəndi isə Ermənistan tərəfindən tamamilə işğal olunub. Erməni silahlı birləşmələri mütəmadi olaraq Ermənistanla sərhəd rayonlarımıza basqınlar edir, insanlar həlak olur, qan tökülür, evlər yandırılır, kəndlər dağıdılır.

Uzun sürən erməni təcavüzünün qarşısını almaq üçün İttifaq dövləti, birinci növbədə şəxsən Qorbaçov və respublika rəhbərliyi tərəfindən qəti tədbirlər görülməmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayəti 3 ildir ki, Azərbaycan üçün böyük bəla olub. Bu gün sessiyada bu məsələnin müzakirəsini ürəkdən alqışlayıram. Çünki sessiyadan qabaq bu məsələ ilə maraqlanarkən mənə məlum oldu ki, üç il müddətində Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də vəziyyət haqqında ətraflı, dərin, lazımi səviyyədə məsələ müzakirə olunmayıb, səmərəli tədbirlər görülməyib. Bu gün məsələnin Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin qoyuluşu belədir: DQMV-də vəziyyətin normallaşdırılması tədbirləri haqqında. İndi burada məruzə etmiş V.Polyaniçkonun və təşkilat komitəsinin gördüyü bəzi işləri qiymətdən salmaq istəmirəm. Hər atılan addımı qiymətləndirmək lazımdır. Ancaq süni surətdə yaradılmış DQMV məsələsindən, Azərbaycan xalqının başına gəlmiş bəladan xilas olmaq üçün bu məsələ gərək çox dərin, ətraflı təhlil olunsun.

Əziz deputatlar, bilirsiniz ki, Azərbaycan xalqı 20-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Düzdür, Azərbaycan torpaqlarının bir hissəsi 20-ci ildən bəri vaxtaşırı əldən gedib. Mən bu barədə mümkün olsa, öz sözlərimi deyərəm. Biz 22-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır, Bu məsələyə tələm-tələsik baxmaq olmaz.

Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması — məsələnin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması — məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq. Ona görə də biz gərək təhlil edək: Nə cür oldu ki, biz Dağlıq Qarabağı əldən verdik. Üç il bundan qabaq Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi. Pis idi, yaxşı idi — Azərbaycanın tərkibində idi. Düzdür, Dağlıq Qarabağ məsələsi 1920-ci ildən başlanıb. 1923-cü ildə DQMV yaranıb. Sonrakı illərdə bu məsələ erməni millətçiləri tərəfindən qaldırılıb. Ancaq gəlin tarixə düzgün qiymət verək. Gəlin etiraf edək ki, o dövrlərdə erməni millətçilərinin qarşısı alınmışdı. Bəs nə cür oldu ki, respublikamız bu qədər böyüdü, yüksəldi, nüfuz qazandı, ölkədə, dünyada tanındı, lakin 1988-ci ildə Azərbaycan torpağının bir hissəsi əlindən getdi? İndi biz orada vəziyyəti normallaşdırmaq istəyirik. Biz torpaqlarımızı özümüzə qaytarmalıyıq, orada hakimiyyətimizi bərpa etməliyik, biz respublikanın suverenliyini təmin etməliyik. Buna görə də mən çox həyəcanla danışıram. Səkkiz il ərzində mən Azərbaycanda olmamışam, amma ürəyim Azərbaycanla, Azərbaycan xalqı ilə olub. Mən öz ürək sözlərimi deməyə imkan tapdığım üçün hamınıza minnətdaram. Sizə də, seçicilərimə də minnətdaram ki, siz mənə qulaq asırsınız. Mən yenə də deyirəm, bu məsələləri biz geniş təhlil etməliyik. Bu, tarixi məsələdir. Azərbaycan xalqının tarixində ən çətin, ən ləkəli dövrdür. Gələcək nəsillər, hətta biz DQMV-də hakimiyyəti bərpa etsək də, torpaqlarımızı geri qaytarsaq da, mütləq bu məsələnin baş verməsini, bu üç il müddətində gedən prosesləri təhlil edəcəklər, öyrənəcəklər. Əgər indi biz bunu etməsək, onlar üçün çətinlik yaratmış olacağıq. Ona görə də belə hesab edirəm ki, bu üç il müddətində DQMV-nin əldən getmək prosesini biz gərək təhlil edək, gərək bizim Ali Məclisin sessiyası bu barədə çox geniş, ətraflı qərar qəbul

etsin və bu tarixi məsələlərin hamısı orada öz əksini tapsın. Gərək müəyyən edilsin: harada, kim hansı günahı işləyib, nə cür olub, nə təhər olub ki, xalq belə acizlik göstərib, öz torpağını əldən verib. Bunlar gərək hamısı şərh olunsun. Burada V.Polyaniçko deyir ki, Dağlıq Qarabağın əldən getməsinə Qorbaçov yol verir. Düzdür, mən də bu fikirdəyəm. Ölkənin rəhbəri Qorbaçovun bu barədə Azərbaycana xəyanət mövqeyi gərək tamamilə açıq-aşkar bilinsin və bizim tariximizə yazılsın. Bu məsələ qalxanda da, sonralar Ayaz Mütəllibovla söhbət edəndə də mən bu haqda fikrimi demişəm.

Sizə də öz fikrimi çatdırmaq istəyirəm. 1987-ci ilin son aylarında bu məsələ qalxanda onun qarşısı alına bilərdi, ancaq alınmadı. 1988-ci ilin əvvəlində, fevral ayında böhran vəziyyəti gəlib çatanda da bu məsələnin qarşısını almaq mümkün idi. Ancaq alınmadı. Bu iki mərhələni götürürəm. Nə üçün alınmayıb? 1987-ci ilin son aylarında erməni millətçiləri müəyyən mövqeləri əldə etdikdən sonra Dağlıq Qarabağın ələ keçirilməsi üçün əlverişli şərait yarandığını hiss edərək, güclü siyasi kompaniyaya başladılar. O kompaniyanın qarşısını nə Azərbaycan Respublikasının rəhbərliyi ala bildi, nə də ki, Moskva respublikamıza, Azərbaycan xalqına kömək etdi. İstəyirəm dəqiqləşdirəm: Moskva deyəndə mən Qorbaçovu, onun ətrafında olan erməni müşavirlərini, erməni millətçilərini, ona təsir göstərən adamları nəzərdə tuturam. O vaxt onun qarşısı alınsaydı, nə Ermənistanla Azərbaycan arasında münasibətlər pozulardı, nə bizim millətlər arasında belə ziddiyyətlər əmələ gələrdi, nə də bir belə qanlar tökülərdi, Biz əsrlər boyu bir yerdə yaşamışıq. Nə edək ki, həyat bizi belə qonşularla rastlaşdırıb. Nə biz buradan, nə də ki, onlar oradan köçə bilərlər. Ancaq görün, bu xəyanətin dərinliyi nə qədər böyükdür. O vaxt qəti qərarlar qəbul etmək lazım idi. Ola bilərdi ki, bu qərarlar kiminsə xoşuna gəlməsin. Ancaq baş vermiş təhlükəli məsələnin qarşısını alıb, Ermənistanı Ermənistan kimi, Azərbaycanı da Azərbaycan kimi saxlamaq

olardı. Bunu ancaq İttifaqa rəhbərlik edən müdrik adam edə bilərdi. Ancaq Qorbaçovda bu müdriklik çatmadı və Azərbaycan rəhbərlərində də cürət, namus, cəsarət çatmadı ki, öz xalqının mənafeyini, öz xalqının namusunu qorusunlar. 1988-ci ilin mart ayında Sov.İKP Mərkəzi Komitəsi, SSRİ Nazirlər Soveti Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı üçün qərar qəbul etdilər. Bu qərar Azərbaycan xalqının, Azərbaycan Respublikasının necə deyərlər, kürəyinə süngü sancmaq idi. O qərara qol çəkən, razılıq verən adamlar Azərbaycan xalqının mənafeyi haqqında düşünməli idi. Belə bir qərarın qəbul olunmasına yol vermək olmazdı, o böyük səhv idi. Ondan sonra gedən proseslərdən danışsaq, 1988-ci ilin iyul ayında SSRİ Ali Soveti Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə olundu. Azərbaycan deputatları ilə Ermənistan deputatları eyni hüquqda orada Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində iştirak edirdilər. Axı Ermənistan Respublikasından olan deputatlar nə hüquqla orada iştirak etməli idilər. Çünki mart ayında qəbul olunmuş qərarda Ermənistan Respublikasının rəhbərlərinə Dağlıq Qarabağın işlərinə qarışmaq üçün ixtiyar verildi. Heç də təsadüfi deyil ki, o vaxtlar Ermənistan KP MK-nın birinci katibi Arutyunyan çıxış edərək öz həmvətənlərini sakitləşdirirdi ki, onlar tarixdə birinci dəfə olaraq Dağlıq Qarabağın daxili işlərinə qarışmağa imkan tapıblar. Bəli, belə bir imkanı Qorbaçov və onun ətrafı Ermənistan rəhbərləri üçün yaratdılar. Sonrakı dövr haqqında danışsaq, Azərbaycan xalqı üçün ən böyük xəyanət olan DQMV-də SSRİ AS Rəyasət heyətinin xüsusi idarəetmə komitəsinin təşkil olunmasını qeyd etmək lazımdır. V. Polyaniçko öz səhvini burada etiraf etdi. Ancaq bu işdə günahkar tək o deyil. Başqa günahkarlar da çoxdur. İstərdik ki, onlar da öz səhvlərini etiraf etsinlər. Axı əldən verilən mövqeləri indi qaytarmaq, hörmətli deputatlar, olduqca çətindir. Volski idarə üsulu Dağlıq Qarabağı Azərbaycandan ayırmağı tamamilə təmin etdi. Təəssüf ki, o

dövrdə Azərbaycanın siyasi rəhbərliyi bu idarənin yaranmasını böyük qələbə kimi qiymətləndirdi və bu idarəyə çox böyük ümidlər bəslədi. Onda onlar ya başa düşmədilər, ya da başa düşmək istəmədilər ki, bununla Dağlıq Qarabağ Azərbaycanın əlindən tamamilə çıxır. Torpağımızı əlimizdən vermişik, onu geri qaytarmaq üçün nə qədər böyük əziyyətlər çəkirik. Yaxşı ki, sonra xalq oyandı, xalq hərəkatı burada çox böyük fəaliyyət göstərdi və Volski üsul-idarəsi ləğv olundu. Ancaq nə etməli, indi Volski Azərbaycan Respublikasını SSRİ Ali Sovetində təmsil edir. O, Azərbaycan Respublikasına nəinki xeyir verməyir, əksinə xəyanət edir. Biz isə buna tamamilə laqeyd baxırıq, heç də dəhşətlənmirik, heç də narazı olmuruq və hətta bəzi yoldaşlar mənə irad tuturlar ki, köhnə palan içi sökürəm. Yox, mən köhnə palan içi sökmürəm, haqiqəti bir daha yada salıram. Bir Volski deyil, o vaxtlar Balayan da, Poqosyan da, Dadamyan da bizim respublikadan deputat seçildi və onlar orada Azərbaycan Respublikasına daha da xəyanət etmək üçün böyük hüquqlar əldə etdilər. İndi, nəhayət, təşkilat komitəsi yaradılıb. Mən bir faktı da demək istəyirəm ki, on beş min azərbaycanlı Volskinin idarəsi vaxtında Stepanakert şəhərindən qovuldu. Bir azərbaycanlı kimi buna dözə bilmirəm ki, mənim xalqımın bir hissəsi öz doğma torpağından didərgin düşsün. Bu günlərdə televiziya ilə eşitdim ki, respublika prokuroru Stepanakertdə 250 azərbaycanlı evinin yandırılması haqqında iş qaldırıb. Bəs buna necə dözək? Nə üçün indiyədək bu iş qaldırılmayıb? Evlər 1988-ci ildə yandırılıb. Bu cinayətlərə niyə bu günə qədər biganə qalmışıq? Bunların hamısı çox böyük dəhşət doğurur, çox böyük həyəcan hissi yaradır. Belə hesab edirəm ki, indi təşkilat komitəsindən bundan artıq fəaliyyət tələb etmək çətindir. İndi mən heç bir konkret təklif vermək istəmirəm.

Hesab edirəm ki, deputatlar öz fikirlərini deməlidirlər. Cürbəcür fikirləri öyrənəndən sonra qəti tədbirlər qəbul etmək olar. Fikrim belədir, üç il arxadadır. Əgər bu minval-

la getsək, biz bir neçə il də Dağlıq Qarabağda Azərbaycanın hakimiyyətini bərpa edə bilməyəcəyik. Unutmayın ki, Dağlıq Qarabağ Fələstin probleminə çevrilə bilər. Buna da heç cür yol vermək olmaz.

Üçüncü: Azərbaycan Sovet Respublikasının mövcud olduğu 70 ildə Ermənistan mərkəzin havadarlığına söykənərək respublikamıza qarşı torpaq iddiaları edib, təxribat əməliyyatları aparıb, nəticədə xeyli torpağımız zəbt olunub. Bir həqiqəti də qeyd etmək lazımdır ki, Ermənistan həmişə qəsbkarlıq fəaliyyəti göstərib, biz isə müdafiə olunmaq, bəzən isə təslim olmaq mövqeyində durmuşuq. İndi də belə mövqedəyik.

Biz bu məsələni Naxçıvan Muxtar Respublikasının Ali Məclisində müzakirə etdik. Məlum oldu ki, təkcə 1929-cu ildən sonra Naxçıvan Respublikasının ərazisindən 625 kvadrat kilometr torpaq sahəsi, yəni 9 kənd Ermənistana verilib. Bu isə 62 min hektar kənd təsərrüfatına yararlı torpaq deməkdir.

Burada Zəngilan rayonundan gərək ki, deputat Bədəlova çıxış elədi və Nüvədi kəndi haqqında danışdı. Sonra deputatlardan biri Zəngəzur, Göyçə mahalı haqqında danışdı. İndi qəti rəqəm demək istəmirəm. Ancaq mütəxəssislərdən bir neçəsi mənə dedi ki, 1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kv. kilometr olub. İndi isə 86 min kv. km-dir. Gör əlimizdən nə qədər torpaqlar gedib.

Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirib. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparıb. Ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qoruyub, onun yolunda canlarını və övladlarını qurban verməkdən belə çəkinməyiblər.

Təəssüf ki, biz bu ənənələri unuduruq. Buna artıq dözmək olmaz. Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən

Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaqlar verilib? Bu torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun. Və biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq və burada deputatların dediyi kimi, o torpaqların geri qaytarılması üçün mübarizə aparaq. İndi biz mübarizəyə keçməliyik və mən də bu mübarizəyə hazıram. Əgər deputatlar razı olarsa, bizim sessiyamız Ermənistanı təcavüzkar dövlət adlandırmalıdır. Biz bu barədə xüsusi qərar çıxarmalı və onu bütün dünyaya bəyan etməliyik, Soruşdular ki, o torpaqları kim verib? Mən təklif edirəm ki, aydınlaşdırılsın. Eyni zamanda arayış verə bilərəm ki, 1969-cu il 14 iyuldan (mən başa düşdüm, o sualı mənə niyə verdilər), Azərbaycana rəhbərlik etdiyim Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi dövründən, 1982-ci ilin dekabrına qədər Azərbaycan ərazisindən bir qarış da olsa, Ermənistana torpaq verilməyib.

Mən buna cavab verirəm və özümü çox xoşbəxt hesab edirəm ki, o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik. V. Polyaniçko dedi ki, 1977-ci ildə də Dağlıq Qarabağ məsələsi qalxmışdı. Bəli, qalxmışdı.

Lakin biz o hərəkətlərin qarşısını dərhal aldıq"[106].

2.2. Kremlin Dağlıq Qarabağa dair siyasəti

SSRİ-nin dağılması ərəfəsində tarixən sınaqdan keçmiş millətçiliyin qızışdırılması siyasəti xüsusi rol oynadı. Bu prosesə başlayan və onu nəzarətdə saxlayan sovet xüsusi xidmət orqanları idi. Bu siyasətin aparıcılarından biri və birincisi olan A.Yakovlev ölkə daxilində münaqişə ocaqlarının yaradılmasına xüsusi üstünlük verirdi. İki yüz ildən bəri davam edən ekspansiya siyasətini, ərazi iddialarını milli münaqişə pərdəsi altında

yürütməyi planlaşdırdılar. Bu eksperimenti ögey münasibət bəslədikləri Orta Asiyanın və Qafqazın türk mənşəli xalqlarının yaşadığı ərazilərdən (Daşkənd - Fərqanə, Qırğızıstan – Oş, Bakı - Sumqayıt) başladılar.[107] Bu ocağı XX əsrin əvvəllərində bünövrəsi qoyulmuş münaqişə yuvasında - Sovet Rusiyasının yaratdığı DQMV-də alovlandırmağı münasib hesab etdilər. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qızışdırılmasında əsas rol oynayan amillərin üzə çıxmasına xidmət edən faktlar göstərir ki, DQMV ətrafında münaqişə ermənilərin arxalandığı və «yuxarılar» hesab edilən MK-nın ən yüksək kürsülərində çoxları tərəfindən məqbul sayılmışdı. Lakin Heydər Əliyev fenomeni onların bu siyasətinin reallaşması yolunda başlıca maneə hesab edilirdi.

Milli ədavətləri qızışdırmaq Qorbaçov siyasətinin reallaşması üçün əsas rol oynadı. M.Qorbaçovun mətbuat katibi A.Qraçov öz kitabında yazır: «Sonrakı *hadisələrin* təsdiq etdiyi kimi, məhz millətçilik, hətta total ideoloji sistem, həm də güclü səfərbərədici amil kimi öz antipodu və qan qardaşı olan kommunist totalitarizminə meydan oxudu»[108].

A.Qraçov SSRİ-də millətçilik və separatizmin təhlükəsizlik orqanlarının işçiləri tərəfindən törədildiyini vurğulayaraq yazır: «Rejimin zəif nöqtələrini partiya liderlərindən daha yaxşı bilən məhz bu orqanların peşəkarları yenidənqurmanın zəif binasını millətçilikdən, vaxtilə təqib, bəlkə də himayə etdikləri ekstremistlərdən alışdırıcı kimi istifadə edərək, müxtəlif yerlərdən alışdırdılar. Məhz onlar Qorbaçovu qanlı Sumqayıt (orada qəsdən erməni qırğınına təhrik edərək), Tbilisi, Vilnüs və Riqa «imtahanına» çəkdilər. Bu yolla onlar ya təzə liderin əl-qolunu axıdılan qanla bağlamaq, ya da ölkədə əsl hakimiyyətin kimin əlində olmasını xatırlatmaq istəyirdilər»[109].

SSRİ DTK-nın 5-ci idarəsinin millətçiliklə mübarizə şöbəsinin rəisi olmuş Vladimir Lutsenko xatırladır: «Sumqayıt hadisələrindən sonra Moskvada Sov.İKP Siyasi Bürosunun qapalı

yığıncağı keçirildi. Bundan sonra Yeqor Liqaçovu Bakıya, Aleksandr Yakovlevi isə İrəvana göndərdilər. Aleksandr Yakovlev İrəvanda bəyan etdi ki, Dağlıq Qarabağ Ermənistanın tarixi ərazisidir. Və guya az qala sabah Moskvada Qarabağın sizə verilməsi haqda sənəd imzalanacaq. Eyni zamanda, Y.Liqaçov Bakıda inandırmağa çalışırdı ki, sərhədlər pozulmazdır, heç kim Qarabağı Ermənistana verməyə hazırlaşmır»[110].

A.Yakovlev qeyd edir ki, «Məni Ermənistana, Y.Liqaçovu isə Azərbaycana ezam etdilər. Uzun danışıqlardan sonra mən erməni elitası ilə razılığa gələ bildim ki, birincisi, Qarabağa Laçın dəhlizi açılacaq. İkincisi, sosial-mədəni inkişaf barədə qərara gəldik ki, kilsə belə dəhşətli vəziyyətdə olmasın. Və üçüncüsü, müstəqillik barədə söhbətlərə son qoyulsun, o şərtlə ki, Azərbaycanda dövlət səviyyəsində Qarabağın həmişə Azərbaycanın olduğu və olacağı haqqında heç bir söz-söhbət aparılmayacaqdır» [111].

Y.Liqaçov bu barədə bildirir ki, A.Yakovlevun fikrinə görə Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması, amma SSRİ vaxtında olduğu kimi, Dövlət Plan Komitəsi Azərbaycanın tərkibində Qarabağ üçün vəsaitin ayrılması (lakin ayrıca sətirlə) təklifi ilə razılaşmışdılar. Əlavə edir ki,»Mən sevincək telefonla Qorbaçova bütün bunlar barədə məlumat verirəm, xahiş edirəm ki, Bakıda olan Y.Liqaçova çatdırsın. Aydın məsələdir ki, qərar müvəqqətidir, lakin başqa, daha vacib məsələlər sahmana düşənə qədər, bu məsələ qoy bir müddət bu vəziyyətdə qalsın. Bəlkə də iqtisadi, siyasi məsələlər həll olunan zaman bütün bunlar başqa cür görünəcəkdir.

Lakin «Siyasi Büroda bizdə heç bir məsələdə fikir birliyi yox idi» [112].

Y.Liqaçov «Qorbaçov separatizmə göz yummağın təhlükəli olduğunu başa düşürdümü?» sualına cavabında bildirir ki, «sənədlər əsasında mühakimə yürütmək lazımdır. Qorbaçovun beynindəki, ürəyindəki nə idi, deyə bilmərəm, ancaq bu hadisələr dövründə qəbul etdiyimiz sənəd tamamilə ədalətli idi.

Orada göstərilirdi ki, indi, cəmiyyətdə islahatların getdiyi bir vaxtda milli-ərazi quruluşuna yenidən baxılmasının vaxtı deyil, status-kvonu saxlamaq lazımdır. Ermənistanla Azərbaycan arasındakı sərhəddə heç bir dəyişiklik olmamalıdır. Bu qərar Siyasi Büro tərəfindən qəbul edilmişdi» [113].

Y.Liqaçova verilən «Niyə əməli tədbirlər görülmədi, məsələn, Qarabağ separatçılarının liderləri həbs edilmədi?» sualına belə cavab vermişdir: «Ermənistanda elə adamlar var idi ki, Qorbaçov onlarla əlaqədə idi, məsələn, Kaputikyan, Balayan. Qorbaçov onlarla görüşmüşdü, söhbət etmişdi. Mənə də bir dəfə zəng etmişdilər, ancaq mən görüşdən imtina etdim. Onlar mövqeyimi bilirdilər, məni fikrimdən döndərmək istəyirdilər, lakin mən onlarla əlaqəyə getmədim. A. Yakovlevi isə inandırdılar. A.Yakovlev İrəvanda olanda, Siyasi Büronun qərarı haqqında bir söz belə demədi, baxmayaraq ki, biz iki məqsədlə getmişdik: yeni rəhbərləri təqdim etmək və ən əsası - Siyasi Büronun mövqeyini bəyan etmək. A.Yakovlev heç bir söz demədi. Mən Bakıda Siyasi Büronun bir qədər əvvəl qəbul etdiyi qərar barədə danışdım. O isə bunu gizlətdi. Ermənilərin yanında yerini yaxşı etmək istəyirdi» [114].

A.Yakovlev söhbətində bildirir: Bir çox hallarda Qorbaçov qətiyyətsiz hərəkət edirdi. Sumqayıtdan sonra mən ona, Ermənistan, Azərbaycan, Rusiya xüsusi xidmət orqanlarının bütün rəhbərlərini dəyişməyi təklif etmişdim. O etiraz edirdi: «Ola bilməz ki, təşkilatçı onlar olsunlar». Burada, Ali Sovetdə güc strukturlarının rəhbərləri çıxış edib deyəndə ki, ordu dağılıb, yenidənqurma müvəffəqiyyətsizliyə uğrayıb, mən ona bu adamları dərhal vəzifədən azad etməyi təklif edirdim, o isə deyirdi: «Adamların belini qırmaq olmaz». Ayrılıqda hər bir fakt əhəmiyyətsiz görünür, ancaq onun səbəblərini aramağa başlayanda, haradasa başqa səviyyədə hər şey qaranlıqlaşır. Qorbaçovun qətiyyətsizliyi isə ona çox adamların təsir göstərməsi ilə izah olunur» [115].

Qarabağ hadisələri başlananda Azərbaycan SSR-in baş-

çısı nələr baş verdiyini, və nə baş verəcəyini anlaya bilmirdi. Adətən Moskvanın tapşırıqlarını icra etməkdən kənara çıxmağı ağlına belə gətirmədikləri üçün qarşıdan gələn təhlükəni də dərk etmirdilər. Həmin anlarda hələ də marksizm-leninizm təlimindən, Kommunist Partiyasına sədaqətdən, dostluqdan, qardaşlıqdan, sosializmin birgəyaşayış qaydalarının əhəmiyyətindən, təntənəsindən dəm vuran təbliğatçı dəstələr yaradılır, bölgələrə göndərilirdi. Heydər Əliyev isə vaxtilə Azərbaycanın digər rayonunun hər birində ildə bir dəfə olurdusa, DQMV-yə ildə azı iki dəfə səfər edirdi. O, Qarabağın tarixi taleyini, strateji rolunu, ölkə üçün əhəmiyyətini yaxşı bilirdi. Təəssüf ki, Heydər Əliyevin «Dağlıq Qarabağı yadından çıxarma» tövsiyyəsinin mahiyyətini Azərbaycan rəhbərliyi nəzərə almadı, sonrası da məlumdur [116].

III FƏSİL.

ERMƏNİSTANIN AZƏRBAYCANA HƏRBİ MÜDAXİLƏSİ - QARABAĞ MÜHARİBƏSİ

3.1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı açıq müharibəyə başlaması

Heydər Əliyev keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın düşdüyü vəziyyəti təhlil edərək deyirdi ki, müstəqillik yoluna qədəm qoymuş bir ölkə kimi, Azərbaycan üçün də öz daxili və xarici siyasət konsepsiyasının təxirə salınmadan hazırlanıb həyata keçirilməsinə başlamaq aktual və taleyüklü vəzifə idi. Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanda daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmışdı, qızğın hakimiyyət çəkişməsi gedirdi. Bütün bunlar Azərbaycana böyük zərbələr vururdu.

1991-ci ilin noyabrında Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən «Sərhəd rayonları və Dağlıq Qarabağda yerli yaşayış məntəqələrinin mühafizəsinin təşkil edilməsi» haqqında kompleks proqramı nəzərdə tutan sərəncam imzalanmış, burada nəzərdə tutulanları yenicə yaradılmış Müdafiə Nazirliyinə tapşırılmışdı. Lakin sərəncamda hərbi texnika və hərbi xidmətdən istifadə deyil, yalnız tikinti və texniki işləri həyata keçirmək nəzərdə tutulurdu. Təəssüf ki, o dövrdə heç bir sərhəd bölgəsində müdafiə qurğularının inşası təşkil edilmədi.

Bundan istifadə edən ermənilər rus ordusundan «icarəyə» götürdükləri silahlarla tez-tez azərbaycanlılar yaşayan kənd və qəsəbələri atəşə tutur, evləri yandırır, dinc əhalini, qoca, qadın və uşaqları qətlə yetirirdilər.

Ermənilər 1991-ci ilin sentyabr ayının birinci on günündə Qarabağın dağlıq hissəsində 10 nəfər azərbaycanlını öldürdülər, 21 nəfəri isə ağır yaraladılar.

1991-ci ilin sonlarında Ermənistan faktiki olaraq Azərbaycan Respublikasına qarşı açıq və ədalətsiz müharibəyə başladı. Ermənistan Respublikasının hərbi birləşmələri Azərbaycan Respublikasının sərhədlərini pozub Qarabağa daxil olaraq, və Dağlıq Qarabağın erməni separatçı-terrorçuları ilə birləşdilər. 1992-ci ildə isə erməni silahlı birləşmələri Yuxarı Qarabağda irimiqyaslı hərbi əməliyyatlara başladılar. Erməni cəlladları tərəfindən tarixdə misli görünməmiş vəhşiliklər törədildi.

Azərbaycan Respublikasının yaranmasını, onun müstəqilliyini istəməyən, öz siyasi maraqlarını üstün tutan və niyyətini gizlətməyən Rusiya Federasiyası SSRİ-nin varisi kimi, Azərbaycanda öz nüfuz dairəsini qoruyub saxlamağa çalışırdı. İmperiya Azərbaycanın müstəqil dövlət kimi xarici siyasət aparacağına ambisiyalarını davam etdirən Rusiya qısqanclıqla yanaşırdı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibəti də məhz həmin qısqanclıqdan doğurdu.

Müdafiə Nazirliyi Dağlıq Qarabağda «Ermənistanın ekspedisiya korpusu» adlanan hərbi birləşmə yaratmışdı. Ermənistan silahlı qüvvələri Rusiya Federasiyasının məsləhətləri və fəal yardımı ilə formalaşdırılırdı. Ermənistan Respublikasının bütün siyasi və hərbi qərarları Rusiya Federasiyasının təşəbbüsü ilə həyata keçirilirdi. Yaradılmış əlverişli şəraiti nəzərə alaraq, Ermənistan ərazi iddialarını reallaşdırmaq üçün bu məqamdan yararlanmağa çalışırdı. Beləliklə, Azərbaycan Respublikası Rusiya Federasiyasının yeni imperiyapərəst siyasətinə və Ermənistan Respublikasının hərbi müdaxiləsinə qarşı mübarizə aparmağa məcbur oldu.

Ermənistan Respublikasının Rusiya tərəfindən təchiz edilmiş hərbi qüvvələrinə qarşı yalnız Azərbaycan Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyinin azsaylı qüvvələri müqavimət göstərirdi. 1991-ci ilin sentyabrından Mü-

dafiə Şurası, Müdafiə Nazirliyi, Baş Qərargah yaradılsa da, bunlar lazımi fəaliyyət göstərə bilmədi. Müdafiə Nazirliyinin yaratdığı 150 nəfərlik bir tabor və sonralar bölgələrdə yaradılmış özünümüdafiə dəstələri düşmənin güclü hücumlarının qarşısını almaq iqtidarında deyildi.

Ermənistan Respublikasının və Dağlıq Qarabağın erməni əhalisi içərisindən səfərbərliklə yaradılmış hərbi birliyin tərkibi 30 min nəfərdən artıq olduğu halda, Azərbaycan Respublikasının hərbi qüvvəsi son dərəcə zəif idi. Erməni hərbi birləşmələri SSRİ-nın süqutundan sonra Rusiya Federasiyasının tabeçiliyinə keçən hərbi hissələrin, o cümlədən 23-cü motoatıcı diviziyanın 366-cı motoatıcı alayı, 42-ci sərhəd dəstəsinin, Stepanakert (Xankəndi) qarnizonunun əlahiddə taborunun hesabına xeyli güclənmişdi.

1991-ci il dekabrın 30-31-də Azərbaycanın silahlı dəstələrinin əks-hücumla Xankəndiyə yaxınlaşması və Kərkicahanın yenidən nəzarətə götürülməsindən sonra, 1992-ci il yanvarın 25-26-da birinci kəşfiyyat taborunun Şuşa yaxınlığında Daşaltı kəndi istiqamətində keçirdiyi əməliyyatın uğursuzluğu yanvar ayının sonunda erməni hərbi birləşmələrinin Dağlıq Qarabağdakı son yaşayış məntəqələrini də zəbt etməsi ilə nəticələnmişdi. 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndləri, fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndi işğal edildi. Erməni işğalçıları Qaradağlı kəndinin 92 nəfər müdafiəçisini, 54 nəfər dinc sakinini öldürdülər, 117 nəfərini girov götürdülər və onlardan 77 nəfərini qətlə yetirdilər, 6 nəfər ferma işçisini diri-diri yandırdılar.

1992-ci il fevralın 26-da Ermənistan qoşunları Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə Azərbaycan Respublikasının Xocalı şəhərini yerlə yeksan etdi. Həmin dəhşətli gecə ermənilər nə uşaqlara, nə qocalara, nə də qadınlara aman verdilər. Rəsmi məlumata görə, 613 nəfərdən artıq, qeyri-rəsmi məlumatlara görə isə 800 nəfər Xocalı sakini, o

cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca vəhşicəsinə öldürüldü. 1275 dinc sakin əsir götürüldü, 150 nəfər isə itkin düşdü. Faciə zamanı 1000 nəfər dinc sakin müxtəlif dərəcəli yara aldı, 76 həddi-buluğa çatmamış gənc oğlan və qız əlil oldu. Əsir düşənlər və meyitlər qeyri-insani hərəkətlərlə təhqir edildi. Onların başı və digər bədən üzvləri kəsildi, başlarının dərisi soyuldu, uşaqların gözləri çıxarıldı, hamilə qadınların qarınları yarıldı[117].

Bu hərbi-siyasi cinayət zamanı 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi, 56 nəfər xüsusi amansızlıq və qəddarlıqla diri-diri yandırıldı.

Serj Sarkisyan ingilis jurnalisti Tomas De Vaala verdiyi müsahibəsində həyasızcasına demişdi ki: «Azərbaycanlılar ermənilərı yaxşı tanımırdılar. Elə bilirdilər ki, biz dinc əhaliyə əl qaldırmarıq, ancaq onlar yanılırdılar. Biz bu stereotipi aradan qaldırdıq... Məhz bu baş verdi»[118].

Davud Xeyriyan «Xaç uğrunda» kitabında yazır: «Biz Daşbulaq kəndinin yaxınlığında olan bataqlıqlardan yan keçmək üçün meyitlərin üzəri ilə gedirdik. Mən meyitlərin üzəri ilə getmək istəmirdim. Polkovnik Ohanyan mənə işarə etdi ki, mən qorxmayım. «Bu, müharibənin qanunlarından biridir», - dedi. Mən irəli addım atdım. Mənim ayaqlarım və fotoaparatım qan içində idi...

Sonuncu maşında mən təxminən 10 yaşında bir qız gördüm. O, alnından və əlindən yaralanmışdı. Qız göyərmişdi, soyuğa və aclığa tab gətirən bu qızcığaz hələ sağ idi. Güclə nəfəs alırdı. Mən bu qızın həyatla mübarizə apardığı gözlərini unuda bilmirəm. Müəyyən vaxtdan sonra bu qızı da «Qafan»lıların peşində yandıracaqlar. Taqətsiz uzanmış bu qızın barmaqlarının arasından qan gəlirdi, Tiqranyan soyadlı bir əsgər onu qaldırıb meyitlərin içinə atdı»[119].

Z.Balayan 1996-cı ildə dərc olunmuş «Ruhumuzun canlanması» adlı kitabında[120] Xocalıda baş verən soyqırım

barədə belə qeyd edir: «Biz Xaçaturla elə keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra bu uşağın başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincindən qürurlanırdı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu şeyi 3 türk uşağına etdik. Mən bir erməni vətənsevər kimi, öz vəzifəmi yerinə yetirdim»[121].

1992-ci il aprelin 7-də Kəlbəcər rayonunun Ağdaban kəndi darmadağın edildi. Kənd tamamilə yandırıldı, 67 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirildi, o cümlədən 90-100 yaşlı 8 qoca, 2 uşaq, 7 qadın diri-diri yandırıldı. Aprelin 12-də ermənilər beynəlxalq hüquqda cinayət hesab olunan daha bir vəhşiliyə əl ataraq, Şuşanın müdafiəçilərinə qarşı kimyəvi silahdan istifadə etdilər. Bunun ardınca Ermənistanın silahlı birləşmələri aprelin 26-da Zəngilan rayonunun Qazançı və Dərəli kəndlərinə soxuldular.

1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə qəbul edildi. Azərbaycanın müstəqilliyi, suverenliyi ilə bərabər Dağlıq Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü rəsmi qaydada tanındı. 1991-1992-ci illərdə B.Yeltsin və N.Nazarbayevin birgə missiyası, ABŞ-ın keçmiş dövlət katibi S.Vensin BMT baş katibinin xüsusi nümayəndəsi kimi regiona gəlməsi heç bir nəticə vermədi. İranın vasitəçiliyi də nəticəsiz qaldı.

1992-ci il yanvarın 30-da keçmiş SSRİ respublikalarının əksəriyyətinin daxil olduğu ATƏM-in Praqada toplantısı keçirildi. Tədbirin sonunda britaniyalı nümayəndə gözlənilmədən çıxış edərək, həmin gün üzv qəbul olunan ölkələrdən ikisinin – Azərbaycan və Ermənistanın müharibə vəziyyətində olmasını və bu məsələnin həlli ilə məşğul olmağın vacibliyini bildirdi. Və-

ziyyəti öyrənmək üçün ATƏM regiona missiya göndərilməsini qərara aldı. 1992-ci il martın 24-də qurumun xarici işlər nazirlərinin Helsinki görüşündə bu məsələ ilə bağlı sülh konfransı çağırılması təklif olundu. Belorus nümayəndəsinin konfransın Minsk şəhərində keçirilməsi barədə təklifi qəbul edildi. Lakin Ermənistan Respublikasının işğalçı hərəkətləri ilə əlaqədar bir müddət konfransı çağırmaq mümkün olmadı. Yarandığı zaman «Minsk konfransı», sonra «Minsk qrupu» adlandırılan bu qrupun ilk sədri İtaliyanın xarici işlər nazirinin keçmiş müavini Mario Rafaelli oldu. Minsk qrupunun ilk iclası Minskdə deyil, Romada keçirildi. Minsk qrupunun tərkibinə Azərbaycan, Ermənistan, Belorus, Çexoslovakiya, Fransa, Almaniya, İtaliya, Rusiya Federasiyası, İsveç, Türkiyə və ABŞ-ın, sonra isə Çexoslovakiyanın əvəzinə Avstriya, Finlandiya, Norveç daxil oldu.

Bakıda baş verən hakimiyyət böhranı Azərbaycanın onsuz da zəif olan silahlı qüvvələrinin müdafiə qabiliyyətini daha da azaldırdı. 1992-ci il mayın 7-də Ermənistan böyük canlı qüvvə və texnika ilə Şuşa şəhərinə hücum etdi. Şəhərin azsaylı müdafiəçiləri ağır döyüşlərdən sonra Laçına doğru geri çəkildikdən sonra Şuşa ermənilərin əlinə keçdi. Ermənistan hərbi qüvvələri hücumu davam etdirərək mayın 18-də Laçını işğal etdilər. Bununla da Dağlıq Qarabağla Ermənistan arasında 20 km enində dəhliz yaratdılar.

1992-ci il mayın 15-də Daşkənddə MDB dövlət başçılarının zirvə toplantısı keçirildi. Siyasi manevrlər niyyətində olan Rusiya hadisələrin onun nəzarətində olduğunu göstərməyə, işğal faktları ilə manipulyasiya etməklə, hər iki tərəfə öz şərtlərini qəbul etdirməyə çalışırdı.

Elə həmin gün Daşkənddə «SSRİ-nin hərbi əmlakının bölüşdürülməsi haqqında» müqavilə imzalandı. Bölgü prinsipinə birtərəfli münasibət Ermənistan qarşısında Azərbaycanın vəziyyətini kəskin şəkildə pisləşdirirdi. 1992-ci il mayın 15-də müdafiə naziri Rəhim Qazıyev Daşkənddə MDB dövlətləri müdafiə nazirlərinin yığıncağında silahların

sayına norma qoyulması haqqında cinah sazişini imzaladı. Azərbaycanın ərazisi daha geniş və əhalisi daha çox olmasına baxmayaraq, bu sənədlə onun Ermənistan və Gürcüstan ilə eyni sayda silaha malik olması nəzərdə tutulurdu. Milli maraqlara tamamilə zidd olan bu sənədin imzalanması müharibə aparan Azərbaycanı süni şəkildə düşmənlə bərabər vəziyyətə salmaq idi. Ağır silahların sayına normanın qoyulması Milli Ordunun yaranmasını mümkünsüz etmişdi.

Azərbaycanın cəbhədəki uğursuzluqları və Bakıda Azərbaycan Respublikasının MDB-yə qoşulması əleyhinə etirazlar ölkədəki siyasi vəziyyəti gərginləşdirdi. Xalqın silahlandırılaraq müdafiənin təşkil edilməsi, nizami dəstələr yaradılmasına çalışmaq əvəzinə, bunun əhəmiyyətsiz iş olduğunu təlqin edən Azərbaycan hökuməti xalqın tələbi ilə istefa verdi. Hökumətin səhv addımlarını və cəbhədəki böhran vəziyyətini hər an izləyən AXC hakimiyyətə nəzarəti öz üzərinə götürdü. İsa Qəmbər parlamentin sədri, Əbülfəz Elçibəy prezident seçildi.

Ermənistan yeni hücum üçün 1992-ci ilin yayında Dağlıq Qarabağda 20 min nəfərlik canlı qüvvə və 100-dən artıq zirehli texnika cəmləşdirdi. Ermənilər Ağcakənd tərəfdən Xanlar (Göygöl) istiqamətində irəliləyəndə Azərbaycan Milli Ordusunun xeyli qüvvəsi (3-cü əlahiddə motoatıcı briqada, 4-cü tank briqadası, Tərtər, Goranboy, Xanlar, Mingəçevir, Lənkəran, Yevlax ərazi taborları, «Qurtuluş» taboru, daxili qoşunlar) cəbhə xəttinə yeridildi və düşmənin hücumunun qarşısı alındı.

Azərbaycanın hərbi qüvvələri 1992-ci il iyunun 17-dən iyulun 9-a qədər Ağdərə, Marquşevan, Aterk kimi iri yaşayış məntəqələri azad etdi, Sərsəng su anbarının şimal sahilini nəzarətə götürdü. Azərbaycan rəhbərliyi beynəlxalq danışıqların yeni mərhələsinin başlanması ilə əlaqədar iyulun 9-da hərbi əməliyyatları dayandırdı.

Sentyabrın əvvəlində Azərbaycan ordusunun rəhbərliyində uğursuz dəyişikliklər, təxribat xarakterli proseslər,

xeyirli məsləhətlər adı altında ön cəbhədəki Azərbaycan ordusunun döyüş mövqeləri haqqında mətbuatda verilən məlumatlar dərhal öz mənfi nəticələrini göstərdi. Yuxarı (Dağlıq) Qarabağın şimalına doğru əməliyyatları davam etdirməkdən imtina edərək, hərbi əməliyyatların Laçın dəhlizi istiqamətinə yönəldilməsi sonda uğursuzluqla nəticələndi. Doğrudur, 1992-ci il sentyabr ayının 18-də Laçın dəhlizinin şimal səmtinə doğru başlanan hərbi əməliyyat, eyni zamanda, Şuşa və Xocavənd istiqamətinə yönəldilmiş hücumlar Ermənistan ordusunun müdafiə xəttinin yarılması ilə nəticələndi, Xocavənd şəhəri azad edildi, Azərbaycan ordusunun hissələri Laçına yaxınlaşdılar. Lakin Azərbaycan hərbi qüvvələrinin uğurlu əməliyyatlarını görən Rusiya Federasiyası dərhal məsələyə müdaxilə ilə hərbi əməliyyatların dayandırılmasını təşkil etdi. Belə ki, RF hökumətinin təkidi ilə hərbi əməliyyatlar sentyabrın 21-də danışıqlar müstəvisinə keçirildi. Bununla da Azərbaycan Respublikası hərbi əməliyyatların gedişini öz xeyrinə dəyişmək imkanını əldən verdi.

Müvəqqəti fasilə əldə edən Ermənistan əlavə silah-sursat almaq üçün Rusiya Federasiyasına müraciət etdi. Ermənistan Respublikasının prezidenti L.Ter-Petrosyanın B.Yeltsinə müraciətindən sonra Ermənistan ordusuna müxtəlif növ silahlar və hərbi texnika göndərildi. Sonralar rus generalı, Dövlət Dumasının deputatı L.Roxlin rəsmi açıqlamasında 1992-ci ilin avqustundan 1994-cü ilin iyununa qədər Rusiya Federasiyasından Ermənistana külli miqdarda silah-sursat göndərilməsi barədə məlumat verirdi (Gen. Roxlinin sonradan 1998-ci ildə öz bağında öldürülməsində erməni izinin də olmadığını söyləmək çətindir). Rusiya generalları P.Qraçov, F.Reut, M.Kolesnikov ermənilərin hərtərəfli təchiz edilməsində xüsusi rol oynayırdılar. O vaxt P.Qraçov müdafiə naziri, F.Reut əvvəllər Ermənistandakı 7-ci Sovet ordusunun komandanı, sonra isə Zaqafqaziya hərbi dairəsinin komandanı, M.Kolesnikov isə əvvəl 7-ci ordunun komandanı, sonra

isə Rusiya Silahlı Qüvvələrinin Baş qərargah rəisi idilər və bu yardımı göstərmək üçün geniş imkanları vardı. Əslində onların bu əliaçıqlığı Rusiya Federasiyası dövlətinin siyasəti ilə bağlı idi. Çünki, bu yardımlar nəzarətdə saxlanmış və planlı şəkildə yerinə yetirilmişdir. Rusiya Federasiyasının hər cür vasitələrlə Ermənistan Respublikasını silah-sursatla, xüsusilə zirehli döyüş texnikası, hərbi aviasiya sistemləri və raket-artilleriya qurğuları ilə təchiz etməsi, münaqişə bölgəsində vəziyyəti gərginləşdirməsi danılmazdır. Müharibə ərəfəsində, habelə döyüşlər getdiyi vaxtda olduğu kimi, münaqişənin sülh yolu ilə həlli dövründə də Ermənistanın silah-sursatla təchiz edilməsi yaxşı məlumdur. 1997-ci ilin əvvəllərində Azərbaycan Respublikası XIN-nin mətbuat mərkəzinin məlumatında bildirilirdi ki, 1994-1996-cı illər ərzində Ermənistana əvəzsiz olaraq 271 milyard Rusiya rublu dəyərində müxtəlif növ müasir tipli zirehli texnika verilmişdir. 1997-ci il fevralın 23-də Rusiya Federasiyasının müdafiə naziri İ.Rodionovun MDB ölkələri ilə əməkdaşlıq naziri A.Tuleyevə göndərdiyi məktubda Ermənistana silah göndərilməsi faktı təsdiqlənirdi. Eyni zamanda, həmin hərbi sursatın Ermənistan Respublikasına Rusiya Federasiyası hökumətinin heç bir qərarı olmadan, təmənnasız verilməsi bildirilirdi. Hansı ki, bu işlər RF Müdafiə Nazirliyinin xətti ilə həyata keçirilmişdi. Bu baxımdan düşünmək olardı ki, Rusiyadan Ermənistana qanunsuz silah verilməsinin birbaşa onun dövlət siyasəti ilə heç bir əlaqəsi yoxdur. Burada söhbət yalnız Rusiya Federasiyasındakı müəyyən qüvvələrin ölkənin milli maraqlarına zidd olan xəyanətkar əməllərindən gedə bilərdi. Əslində isə, baş verənlər və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin heç bir hüquqi prinsiplə, beynəlxalq qanunlar çərçivəsində həllini tapmaması məsələnin heç də belə olmadığını təsdiq etmişdir.

1992-ci ilin sentyabrında Ermənistan hərbi qüvvələri Ağdam, oktyabrda isə Xocavənd rayonlarının bəzi kəndlərini zəbt

etdi. Oktyabr-dekabr aylarında tərəflər dəfələrlə Laçın dəhlizinin cənub və şimal hissələrindəki həlledici məntəqələri ələ keçirməyə cəhd göstərdilər. Ermənistanın hərbi komandanlığı Laçın dəhlizini əldə saxlamaq məqsədi ilə dekabrın 10-12-də 15 km irəlilədi, Qubadlı və Zəngilan rayonlarının Şayıflı, Seyidlər, Ərkənd, Bərəli, Qazançı, Günqışlaq, Pirveyisli, Canbər, Yuxarı Qayalı kəndlərini işğal etdi.

1993-cü il fevralın 5 də Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdərə (Mardakert) istiqamətində zirehli texnika və ağır artilleriyanın köməyi ilə hücuma başladı. Düşmən rayonun içərilərinə doğru 4-9 km irəliləməyə və 7 yaşayış məntəqəsini yenidən ələ keçirməyə müvəffəq oldu. Fevralın 17-də Qozlu körpü, Heyvalı kəndləri, fevralın 23-də Sərsəng Su Elektrik stansiyası, martın 27-28-də Kəlbəcər rayonunun Ağqaya, Mərcimək, Təzəkənd, Ağcakənd, Narışlar kəndləri işğal olundu.

1993-cü il fevralın 28-də Kislovodsk-Bakı sərnişin qatarının erməni terrorçuları tərəfindən partladılması nəticəsində 11 nəfər həlak oldu, 18 nəfər yaralandı.

Ermənistan Respublikasının hərbi qüvvələri martın 31-də daha 12 kəndi, Laçın-Kəlbəcər yolundakı strateji əhəmiyyətli tuneli tutaraq Kəlbəcərə yaxınlaşdılar. Bu vaxt Azərbaycan ordusunun Kəlbəcərdəki hərbi qüvvələri Ermənistan ordusuna müqavimət göstərməklə bərabər, əhalinin yeganə nəqliyyat vasitəsi olan vertolyotlarla çıxarılmasına cəhd göstərirdi.

1993-cü il aprelin 2-də Kəlbəcər şəhəri işğal edildi. Kəlbəcərin müdafiəçiləri çox az olduğu üçün düşmənə ciddi müqavimət göstərə bilmədilər. Azərbaycan ordusunun hissələri Murovdağ aşırımı ilə geri çəkildilər. Kəlbəcər rayonunun işğal edilməsi Ermənistanın yalnız Dağlıq Qarabağın inzibati sərhədləri və «Laçın dəhlizi» ilə kifayətlənmək niyyətində olmadığını açıq şəkildə göstərdi. İşğalın genişlənməsinin qarşısını almaq üçün Azərbaycan hökuməti bir sıra tədbirlər həyata keçirdi. Aprelin 6-dan ölkədə fövqəladə vəziyyət rejimi elan olundu. Eyni zamanda, çağırışçıların və ehtiyat-

da olan hərbçilərin səfərbərliyə alınmasına başlanıldı. Hərbi komandanlığa 1993-cü ilin yayında əks-hücum kompaniyasının hazırlanıb həyata keçirilməsi üçün tapşırıqlar verildi.

1993-cü il aprelin 2-də Ermənistan hərbi qüvvələri Füzuli rayonunun Qacar, Divanalılar və Gövşadlı kəndlərini zəbt etdi. Füzuli şəhəri istiqamətində mövqe döyüşləri iyunun 12-ə qədər davam etdi.

Bu vaxt Gəncədə Surət Hüseynovun başçılığı altında mərkəzi hakimiyyətə qarşı qiyam başladı. 1993-cü il iyunun 4-5-də Gəncədə hökumət qüvvələri ilə qiyamçılar arasında silahlı qarşıdurma baş verdi. S.Hüseynov öz ətrafında böyük hərbi qüvvə cəmləşdirərək, Gəncəni tam nəzarətə götürdü. Azərbaycan hökumətinin istefasına dair tələb irəli sürdü. Yaxşı silahlanmış hərbi qüvvə ilə Bakı üzərinə yeridi. Onlar 1993-cü il iyunun 10-da Bakıya yaxınlaşdılar. Bu zaman ölkənin şimal-qərb və mərkəzi rayonları S.Hüseynovun qeyri-rəsmi rəhbərliyi altına keçdi. Mərkəzi hakimiyyət, o cümlədən hərbi strukturlar tam iflic vəziyyətinə düşdü. Beynəlxalq təşkilatlar isə Kəlbəcərin işğalından sonra hərbi əməliyyatların geniş miqyas alacağından ehtiyat edərək, ciddi şəkildə fəallaşmışdılar. Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən kənarda və həm də strateji əhəmiyyətli olduğu üçün Kəlbəcərin işğalı Rusiyanın göstərişi ilə həyata keçirilmişdi. Rusiyanın təsiri ilə işğalın genişlənməsindən narahat olan bəzi böyük dövlətlərin səyi ilə Ermənistan hərbi qüvvələrinin iyun ayının ortalarına qədər Kəlbəcərdən çıxarılmasına dair beynəlxalq vasitəçilər tərəfindən konkret sənəd hazırlandı, hətta qrafik müəyyən edildi. Beynəlxalq təşkilatların təzyiqləri qarşısında Ermənistan rəhbərliyi də həmin sənədi imzalamışdı. Məhz bu şəraitdə Ermənistan Respublikası Azərbaycandakı hakimiyyət böhranından istifadə edərək işğalçı planlarını əsasən başa çatdırmaq məqsədi ilə genişmiqyaslı əməliyyatlara başladı.

Ermənistan hərbi qüvvələri 1993-cü il iyununda Ağ-

dərənin işğalından sonra Ağdam üzərinə hücum etdilər. Ağdamın Papravənd, Boyəhmədli, Qalayçılar, Əlimədədli, Cinli, Əliağalı, Ağdam şəhəri Şelli, Muğanlı, Şıxbabalı, Mərzili, Novruzlu, Yusifcanlı, Qiyaslı, Xıdırlı, Sarıcalı, Muradbəyli kəndlərini, iyulun 23-də isə Ağdam şəhərini işğal etdilər.

Eyni zamanda düşmən Füzuli və Cəbrayıl şəhərlərin hücuma başlamışdı. 1993-cü il iyulun 4-də Füzuli rayonunun Arış, Qoçəhmədli, Qaracalı, Xatınbulaq, Gorazıllı kəndlərini zəbt edən Ermənistan ordusu, iyulun 24-də Cuvarlı, avqustun 15-də Aşağı Veysəlli, Yuxarı Yağlıvənd kəndləri, Cəbrayıl rayonunun Sur, Banazur, Quşçular, Qışlaq kəndlərini işğal etdi. Avqustun 23-də Cəbrayıl şəhəri, avqustun 25-də isə Cəbrayıl rayonunun qalan ərazisi işğal edildi. Ermənistan hərbi qüvvələri ağır döyüşlərdən sonra Füzuli şəhəri yaxınlığındakı Məngələnata yüksəkliyini, avqustun 23-də isə şəhəri işğal etdi. Daha sonra Qubadlı şəhərini ələ keçirdilər.

1993-cü il sentyabrın əvvəlində Ermənistan qoşunları Azərbaycanın İranla sərhədinə çıxdılar. Bu, region dövlətlərinin narahatlığına səbəb oldu. Türkiyə hökuməti Ermənistan hökumətinə xəbərdarlıq üçün 3-cü Səhra ordusunun əsas qüvvələrini sərhəd xəttinə yaxın əraziyə yeritdi. Hərbi qüvvələrin mexanikləşdirilmiş briqadaları Rusiya Federasiyasının Gümrüdə (Ermənistan) yerləşdirilmiş 127-ci motoatıcı diviziyası qarşısına yerləşdirildi. Həmçinin hərbi aviasiya hissələri döyüş hazırlığı vəziyyətinə gətirildi. Bu zaman Rusiya Federasiyasının Cənubi Qafqazdakı qoşunlar qrupunun komandanlığı 127-ci motoatıcı diviziyasında hərbi təlimlər keçirdi. Məqsəd Türkiyənin Ermənistan ərazilərinə hücum təhlükəsinin qarşısının alınması üçün manevr idi. İran Azərbaycanla sərhədə böyük hərbi qüvvə gətirdi və Araz çayı boyunca «Səhənd» hərbi təlimlərinə başladı.

Ermənistan Respublikasının hərbi qüvvələri 1993-cü ilin oktyabr ayında yenidən fəallaşdı. Oktyabrın 23-də düşmən Horadiz nəqliyyat qovşağını ələ keçirərək, Zəngilanın,

həmçinin Cəbrayıl və Qubadlı rayonlarının işğal olunmamış yaşayış məntəqələrinin Azərbaycanın digər əraziləri ilə əlaqəsini kəsdilər. Ağır döyüşlərdən sonra oktyabrın 28-də Ermənistan hərbi qüvvələri Mincivan dəmiryol stansiyasını, oktyabrın 29-da isə Zəngilan rayon mərkəzini və ətraf yaşayış məntəqələrini ələ keçirdi. Müqavimət göstərə bilməyən Zəngilan alayının şəxsi heyəti, habelə dinc əhali Araz çayından İran ərazisinə keçdilər.

Beləliklə, Ermənistan Respublikasının hərbi qüvvələri Dağlıq Qarabağı və onun ətrafındakı 7 rayonu işğal etdi. Rusiya Federasiyasının Ermənistan Respublikasına açıq şəkildə hərbi və siyasi dəstəyi rusiyalı hərbiçilərin, ermənilər tərəfində hərbi əməliyyatlarda bilavasitə iştirakı da həlledici rol oynadı. Rusiya Federasiyasının Ermənistanda yerləşən 127-ci motoatıcı diviziyası və sərhəd qoşunları hərbçilərinin müqavilə əsasında erməni ordusuna cəlb olunması halları çoxalmışdı. 1993-cü ilin noyabrında Qarabağda Rusiya Federasiyasının Sakit okean donanması dəniz piyada taborunun 480 keçmiş hərbi qulluqçusu, ABŞ, Avropa, Yaxın Şərqdəki erməni diaspor təşkilatlarının cəlb edib göndərdikləri 870-dən artıq muzdlu, Şimali Qafqazdan gətirilmiş 1200-ə qədər kazak Ermənistan hərbi qüvvələrinin planı əsasında Qarabağda Azərbaycan ordusuna qarşı döyüşlərdə iştirak etmişdir.

Beynəlxalq təşkilatlar isə işğalçı Ermənistan Respublikasını cəzalandırmaq əvəzinə, qeyri-müəyyən qərar, qətnamə və bəyanatlarla kifayətləndilər. Ən nüfuzlu beynəlxalq təşkilat olan BMT-nin Təhlükəsizlik Şurası 822, 853, 874, 884 nömrəli dörd qətnamə qəbul etdi. Bu sənədlərdə Azərbaycanın işğal edilmiş ərazilərinin qeyd-şərtsiz azad olunması tələbi qoyulur, lakin işğalçı tərəf kimi «yerli erməni qüvvələri» göstərilirdi. 884 nömrəli qətnamədə isə Ermənistana təklif olunurdu ki, «Dağlıq Qarabağ ermənilərinin qətnamələrə riayət etməsi üçün öz təsir imkanından istifadə etsin»[122].

Beləliklə, 1988-ci ildən bəri SSRİ rəhbərliyi tərəfindən

qarşısı alınmayan separatçı çıxışlar münaqişənin dərinləşməsinə səbəb oldu. 1991-ci ilin sonlarında Ermənistan Respublikası Azərbaycan Respublikasına qarşı açıq və ədalətsiz müharibəyə başladı. Ermənistan hərbi qüvvələri Azərbaycan sərhədlərini pozub Qarabağa daxil oldular və Dağlıq Qarabağın erməni separatçı-terrorçuları ilə birləşərək, bir sıra şəhər və kəndləri işğal etdi. Azərbaycanın dövlət müstəqilliyini gözü götürməyən qüvvələrin təhriki ilə Ermənistan silahlı qüvvələri Yuxarı Qarabağda irimiqyaslı hərbi əməliyyatları genişləndirdilər. 1992-ci il fevralın 26-da Ermənistan qoşunları Rusiyanın 366-cı qvardiya motoatıcı alayının köməyi ilə Azərbaycan Respublikasının Xocalı şəhərini yerlə yeksan etdi.

Azərbaycan Respublikasının Yuxarı (Dağlıq) Qarabağ bölgəsi, habelə Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Qubadlı, Fizuli və Zəngilan rayonları işğal olundu.

3.2. Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı. Atəşkəs haqqında sazişin imzalanması

1993-cü ilin may-iyununda Azərbaycanda siyasi, ictimai, hərbi, dövlət böhranı özünün kulminasiya nöqtəsinə çatmışdı. Azərbaycan Respublikası vətəndaş müharibəsi və müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir vəziyyətdə Heydər Əliyev xalqın təkidli tələbi, habelə AXC-Müsavat iqtidarının dəvəti ilə Naxçıvandan Bakıya gəldi. İyunun 15-də Heydər Əliyev respublika Ali Sovetinin sədri seçildi, iyunun 24-dən isə Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Oktyabrın 3-də isə xalq özünün böyük oğlunu ölkə Prezidenti seçdi. Akademik Ramiz Mehdiyev ulu öndərin bu qısa müddətdəki fəaliyyətini belə şərh edir: "Onun ilk üç ay ərzindəki gərgin fəaliyyəti hər

hansı bir nəzəriyyədən və ideyalardan tamamilə uzaq idi. Milli Məclisin televiziya ilə birbaşa yayımlanan iclasları zamanı aparılan kəskin siyasi diskussiyalar, ayrı-ayrı siyasi və ictimai xadimlərlə görüşlər, qəti qərarlar və konstruktiv təkliflər Heydər Əliyevə bu üç ay ərzində dərin siyasi və ictimai böhran prosesini dayandırmağa imkan verdi. Bu, möcüzəyə bənzər bir hadisə idi. Əslində, tabeliyində heç bir qurum olmayan, yalnız öz sözünə və zəkasına arxalanan siyasi xadim məhz öz zəngin rəhbərlik təcrübəsinə əsaslanaraq, dövlətin dağılmasının qarşısını ala bildi. "Fəaliyyətini donduran" dövlət məmurlarının sabotajı, ancaq öz bölgə komandirlərinə tabe olan silahlı qurumlar, iqtisadiyyatı iflic vəziyyətinə düşmüş bir məmləkət – bunların hamısı acı gerçəklik idi"[123].

1993-cü ilin sonlarında Ermənistan Respublikasının hərbi-siyasi rəhbərliyində qarabağlı ermənilərin təsiri güclənirdi. Müdafiə naziri S.Sarkisyanın başçılıq etdiyi qrup işğalçı əməliyyatların Beyləqan istiqamətində davam etdirilməsini tələb etmişdi.

1993-cü ilin sonunda Heydər Əliyevin göstərişi ilə Azərbaycanın hərbi rəhbərliyində bir sıra vacib tədbirlər həyata keçirildi. Mərkəzləşmiş komandanlıq və idarəetmə sistemi təkmilləşdirildi, təlim mərkəzləri və poliqonlarda döyüş hazırlığının səviyyəsi yüksəldildi. MDB ölkələrindən azərbaycanlı zabitlərin Azərbaycan Respublikasının Milli Orduya cəlb olunması prosesi intensivləşdirildi. Həmçinin Milli Orduya könüllülərin geniş şəkildə cəlb olunmasına başlanıldı. 1993-cü ilin oktyabrından 1994-cü ilin mayına qədər Silahlı qüvvələrə 4 çağırış həyata keçirildi. Xaricdən silah və texnika alındı. Bir sıra xarici dövlətlərlə hərbi əməkdaşlığı genişləndirildi. Bütün bunlar Milli Ordunun döyüş qabiliyyətini xeyli yüksəltdi.

1993-cü il dekabrın 10-da Ermənistan işğalçı qüvvələrinin Beyləqan rayon mərkəzi istiqamətində hücumunun qarşısı alındı və düşmən geri çəkilməyə məcbur edildi. De-

kabrın 15-dən etibarən Azərbaycan Ordusu beş istiqamətdə - Füzuli, Xocavənd, Ağdam, Ağdərə, Kəlbəcər istiqamətlərində əks-hücuma keçdi. Azərbaycan döyüşçüləri Ermənistan ordusunun müdafiə xəttini yardı və Araz çayı boyunca Füzuli rayonu istiqamətində irəlilədi. Tərtər-Ağdərə istiqamətində ağır döyüşlərdən sonra 3 yaşayış məntəqəsi azad edildi. Sərsəng su anbarına yaxınlaşdılar. Lakin dekabrın 31-də hücum əməliyyatı dayandırıldı.

1994-cü il yanvar ayının əvvəlində 11 yaşayış məntəqəsi və Azərbaycan-İran sərhədinin 40 km uzunluğunda ərazisi, habelə Horadiz qəsəbəsi və Xudafərin körpüsü azad edildi.

1994-cü il yanvarın 20-də Azərbaycan ordusu Kəlbəcər rayonunun ərazisinə daxil oldu. Hərbi qüvvələrimiz 12 yaşayış məntəqəsini ermənilərdən təmizlədi və Kəlbəcər-Ağdərə yoluna çıxdı. Ermənilər Rusiya Federasiyasının nəqliyyat vasitələri ilə buraya əlavə qüvvələr gətirdilər. Yanvarın 21-22-də düşmənin bir taboru (Çəpli kəndi yaxınlığında) darmadağın edildi, 200 nəfərə yaxın canlı qüvvəsi məhv edildi, xeyli əsir götürüldü (o cümlədən bir neçə erməni zabiti və 5 rusiyalı hərbçi). Digər erməni hərbi birləşmələri də ciddi itkilər verdi.

1994-cü il yanvar ayının 26-dək Azərbaycan qoşunları Füzuli və Cəbrayıl rayon mərkəzlərinə yaxınlaşdılar, Xocavənd və Ağdam istiqamətlərində də bir qədər irəlilədilər, lakin Ermənistan ordusunun ciddi müqavimətinə rast gəldilər. Fevralın əvvəlində döyüşçülərimiz Kəlbəcər şəhərinə yaxınlaşdılar.

İki aylıq əməliyyatların gedişində bir sıra nəticələrə nail oldu. Füzuli rayonu ərazisində 23 yaşayış məntəqəsi düşməndən təmizləndi.

Azərbaycan Ordusunun 1993-cü il dekabr-1994-cü il fevral hücumu Qarabağ müharibəsinin mühüm hadisələrindən hesab edilir. Azərbaycan Respublikasının Prezidenti, Ali baş komandan Heydər Əliyevin hərbi-siyasi rəhbərliyi altın-

da bu hücum əməliyyatı ilə düşmənə qarşı qətiyyət nümayiş etdirməsi Rusiya Federasiyası mətbuatında (xüsusilə V.Kazimirov tərəfindən) çox narahatlıqla şərh edilirdi.

1994-cü ilin aprelində cəbhədə vəziyyət yenidən kəskinləşdi. İşğalçı Ermənistan Respublikası yeni genişmiqyaslı hərbi əməliyyat planlaşdırırdı. Ermənilər Tərtər rayonu ərazisində Azərbaycan Ordusunun müdafiə xəttini yarmaq, Tərtər, Bərdə və Yevlax şəhərlərini ələ keçirərək, şimal-qərb regionunu Azərbaycan Respublikasının digər ərazilərindən ayırmaq istəyirdilər. Onlar bu niyyətlərini həyata keçirmək üçün Rusiya Federasiyasının hərbi-siyasi dəstəyinə arxalanırdılar. Ermənistan ordusu aprelin 9-dan 10-a keçən gecə hücuma başladı. Üç istiqamətdən Tərtər üzərinə zərbələr endirildi. Azərbaycan Ordusu uğurlu müdafiə döyüşləri apararaq, düşmənə əks-zərbələr vurdu.

Ermənilər ağır itkilər verməsinə baxmayaraq, əlavə qüvvələr cəlb edərək, aprelin 16-dan mayın 6-a dək cəbhə xəttini yarmaq üçün 5 dəfə davamlı cəhdlər göstərsələr də Ağdamın və Tərtərin yalnız bir neçə yaşayış məntəqəsini tuta bildilər.

1994-cü il aprelin 19-da Füzuli-Cəbrayıl istiqamətində Ermənistan silahlı qüvvələrinin əlahiddə kəşfiyyat taboru darmadağın edildi. Kəlbəcər istiqamətində Ömər aşırımında da düşmənə əks-zərbələr vuruldu. 1994-cü ilin bir ayı ərzində Ermənistan Respublikasının 1000 nəfərdən artıq canlı qüvvəsi, 50-dək zirehli texnikası, çoxlu sayda digər hərbi texnikası, silah və sursatı məhv edildi. Gözləmədiyi belə bir zərbədən sonra düşmən ordusunda mənəvi-psixoloji böhran, kütləvi fərarilik, orduya çağırışdan yayınma halları artdı. Ermənistan ordusunun döyüşçüləri hətta qrup şəklində əsir kimi Azərbaycan tərəfinə keçməyə başladılar. Bundan sonra Ermənistan Respublikası hücum əməliyyatlarını dayandırılmağı qərara aldı.

1994-cü il mayın 4-də Qırğızıstanın paytaxtı Bişkekdə MDB Parlamentlərarası Assambleyasının iclası çərçivəsində

atəşkəslə bağlı danışıqlar başlandı. Minsk qrupunun rusiyalı həmsədri V.Kazimirovun hazırladığı atəşkəsə dair sənəddə Dağlıq Qarabağın erməni icması ayrıca tərəf kimi göstərildiyinə görə, Azərbaycan tərəfi onu imzalamaqdan imtina etdi.

Mayın 8-də V.Kazimirovun Bakıya gətirdiyi "Bişkek protokolu" Azərbaycan tərəfindən iki əlavə ilə imzalandı. Sənəddəki "tutulmuş ərazilər" ifadəsi "işğal olunmuş ərazilər" ifadəsi ilə əvəzləndi, atəşkəsdən sonra cəbhə xəttində yerləşdiriləcək müşahidəçilərin isə "beynəlxalq müşahidəçilər missiyası" olması qeyd edildi.

Beləliklə, Azərbaycan ordusunun 1993-cü il dekabr-1994-cü il fevral hücumu Dağlıq Qarabağ müharibəsinin mühüm hadisələrindən hesab edilir. Azərbaycan Respublikasının Prezidenti, Ali baş komandan Heydər Əliyevin hərbi-siyasi rəhbərliyi altında bu hücum əməliyyatı ilə düşmənə qarşı qətiyyət nümayiş etdirildi. Ordumuzun hücum əməliyyatı keçirmək qabiliyyəti və əzmi özünü göstərdi, döyüş əhval-ruhiyyəsi bərpa edildi. İşğal edilmiş ərazilərin bir hissəsi azad olundu.

3.3. Heydər Əliyevin Qarabağ müharibəsində atəşkəsə nail olması

1993-cü il aprelin 17-si tarixindən etibarən vasitəçilik məqsədilə tərəflər arasında atəşkəs əldə etmək üçün Rusiya Federasiyası təşəbbüs göstərməyə başladı. Qeyd etmək lazımdır ki, 1993-cü il aprelin 15-də başlayan ATƏM-in Minsk qrupu danışıqları 1993-cü il oktyabrın sonuna qədər davam etmiş, lakin heç bir nəticə əldə edilməmişdi. Bu zaman paralel danışıqlar aparan Rusiya Federasiyası vəziyyətdən istifadə edərək təşəbbüsü ələ keçirmişdi. Onun vasitəçiliyi ilə 4-5 may 1994-cü il tarixdə Bişkekdə görüşən Azərbaycan Respublikası və Ermənistan Respublikası parlament rəhbərləri və Dağlıq Qarabağda-

kı erməni və azərbaycanlı icmalarının təmsilçiləri tərəfindən Bişkek atəşkəs protokolu imzalanmışdı.

Hərbi əməliyyatların gedişini hər vasitə ilə əlində saxlayan Rusiya Federasiyasının vəziyyəti dəyişə bilməsi çətin deyildi. V.Kazimirov həmin sənədlə birlikdə Bakıya gəlmiş, burada H.Əliyevin rəhbərliyi ilə xüsusi iclasda uzun müzakirələrdən sonra razılıq əldə olunmuşdu. Azərbaycan tərəfi sənədi Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri N.Bəhmənovun da imzalamalı olduğunu bildirmişdi. Heydər Əliyevin rəhbərliyi və V.Kazimirovun iştirakı ilə keçirilən xüsusi iclasda uzun və gərgin müzakirələrdən sonra razılıq əldə edilmiş, mayın 8-də Azərbaycan parlamentinin sədri R.Quliyev digər tərəflərlə birlikdə sənədi imzalamışdı. Atəşkəs haqda sənədi mayın 9-da Azərbaycan Respublikasının müdafiə naziri M.Məmmədov, mayın 10-da Ermənistan Respublikasının müdafiə naziri S.Sarkisyan, mayın 11-də Dağlıq Qarabağ separatçılarının «silahlı qüvvələri»nin rəhbəri S.Babayan imzaladı. Mayın 11-dən 12-nə keçən gecə atəşkəs rejimi tətbiq edildi. Heydər Əliyevin təşəbbüsü, qətiyyəti və uzaqgörənliyi nəticəsində 1994-cü il may ayının 12-də Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında razılaşma[124] imzalandıqdan sonra antiazərbaycan qüvvələr qarşısında ciddi maneə yarandı. Rusiya Federasiyasının müdafiə naziri P.Qraçovun rus hərbi qüvvələrini regiona yerləşdirmək cəhdinə imkan verilmədi. Beləliklə, Rusiya Federasiyası hökumətinin ən əsas niyyəti baş tutmadı. Sazişdə nəzərdə tutulan bəndin yerinə yetirilməsinə cəhd göstərilsə də, Heydər Əliyev Rusiya Federasiyasının bu təhlükəli təşəbbüsünün qarşısını qətiyyətlə aldı.

Heydər Əliyev atəşkəs elan olunandan bir gün sonra - 1994-cü il mayın 13-də ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun sədri Yan Eliasson, onun müavini Matias Mosberq və Rusiya Federasiyası prezidentinin səlahiyyətli nümayəndəsi, Rusiya Federasiyası XİN-in xüsusi tapşırıqlar üzrə səfiri V.Kazimirovla görüşdü. Rusiya Federasiyasının təmsilçisi V.Kazimirovun bu atəşkəsin 3 aylıq müddət üçün əldə edilməsi və bu müddətin tərəflərin təkrarən Rusiya Federasiyasının vasitəçiliyi ilə müzakirə edilməsinə dair təklifi haqlı olaraq qəbul edilməmişdi. Çünki V.Kazimirovun təklifi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi düyününü möhkəmləndirmək təşəbbüsündən başqa bir şey deyildi.

ABŞ-ın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Riçard Kozlariç 1994-cü ilin mayında keçirdiyi mətbuat konfransında çıxışında «Hətta hakimiyyətin ən yüksək pillələrində belə, kimin təcavüzkar, kimin zərərçəkən və ümumiyyətlə, kimin günahkar olmasını Amerika hökumətinin göstərməsini tələb edirlər. Lakin beynəlxalq həyatdan bir çox misallar sübut edir ki, bu, uğursuz addımdır. Çünki son nəticədə münaqişədə iştirak edən tərəflərdən heç biri özünün «günahkar» rolunda olması ilə razılaşmır» deməklə, məsuliyyəti münaqişə tərəfləri rəhbərlərinin üzərinə qoymuş oldu. R.Kozlariç Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında ABŞ-ın bu işlərin əsasən ATƏM-in Minsk qrupu çərçivəsində həyata keçirilməsinə üstünlük verdiyini vurğuladı.

1994-cü ilin mayında Parisdə Avropada sabitlik barədə beynəlxalq sazişin imzalanmasına hazırlıqla bağlı keçirilən təsis konfransında müşahidəçi qismində iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri məruzə ilə çıxış etdi. Məruzədə Dağlıq Qarabağı ətrafında yaranmış münaqişənin əsl mahiyyəti və başvermə səbəbləri dəqiq faktlarla açılıb göstərildi və bununla da, Ermənistanın təcavüzkar dövlət kimi əsl siması bir daha açılmış oldu.

Atəş dayandırılandan sonrakı proseslər göstərdi ki, bəzi dövlətlərin Azərbaycanın müstəqil respublika olmasını və müstəqil siyasət yürütmək iqtidarında olmasını qəbul etmək istəmirlər. Bunu Rusiya Federasiyasının məsələyə münasibətində görmək mümkündür: «ABŞ-ın Bakı və İrəvan üzərin-

də təsirini gücləndirmək üçün 1994-cü il mayın ortalarında, atəş dayandırılandan sonra həmin an ABŞ Dövlət Departamentinin yeni müstəqil dövlətlər koordinatoru Ceyms Kollinz və onun müavini, ABŞ-ın Minsk qrupuna yeni təyin olunmuş nümayəndəsi Cozef Pressel təcili olaraq İrəvan, Bakı, Ankara və Moskvaya səfərə çıxdılar»[125].

1994-cü il mayın 14-də C.Kollinz L.Ter-Petrosyanla görüşündə bəyan etmişdi ki, İrəvan havayı yerə Moskvanın planını qəbul edir. L.Ter-Petrosyan isə Vaşinqtonun ideyası olub-olmaması barədə sorğusuna cavab olaraq C.Kollinz Minsk qrupunun birinci planını irəli sürmüşdü. L.Ter-Petrosyan üstüörtülü şəkildə onun fəaliyyəti barədə fikrini bildirmiş, lakin qeyd etmişdir ki, burada Moskva və Vaşinqton əsas rol oynayır, Cənubi Qafqaza təsir dairəsi üzərində mübarizə aparmaq lazım deyil, fəaliyyəti onlar arasında razılaşdırmaq lazımdır. O, C.Kollinzə Rusiya Federasiyasının münaqişənin nizamlama planı ilə tanış olmağı, ABŞ və Rusiya Federasiyasının birlikdə sülhməramlı fəaliyyət göstərməsini təklif etdi. Mayın 15-də, axşam C.Kollinz və C.Pressel Bakıda Heydər Əliyevlə məsləhətləşmələr aparmışdılar. Onlar mətbuat qarşısında ABŞ, ATƏM və Minsk qrupunu tamamilə dəstəklədiklərini qeyd etmişdilər, lakin o biri tərəfdən Azərbaycan Respublikası ilə ikitərəfli əlaqələrin inkişafına hazırlığı qeyd edirdilər.

Heydər Əliyev 16 may 1994-cü ildə ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun sədri Yan Eliassonla görüşdü.

Heydər Əliyevin xüsusi tapşırığı ilə Azərbaycan Respublikasının müdafiə naziri M.Məmmədov atəşin dayandırılmasına dair sazişlə bağlı 16-17 mayda yüksək hərbi rəislərin görüşündə iştirak etmək üçün Moskvaya göndərildi. Moskva görüşündə ATƏT nümayəndələrinin tələbi ilə isveçli polkovnik Berqin də iştirakı təşkil edildi.

Heydər Əliyev mayın 17-də ABŞ-ın səfiri Riçard Kozlariçi qəbul etdi, sonra isə müdafiə naziri M.Məmmədovu Moskva-

dan P.Qraçovun yanındakı yığıncaqdan geri çağırdı. Sonrakı gün Heydər Əliyev Rusiya Federasiyası hərbi qüvvələrinin münaqişə zonalarında yerləşməsinə imkan vermədi. Bunu Rusiya Federasiyasında və Ermənistan Respublikasında ABŞ-ın təkidi ilə «Rusiyanı atəşi dayandırmaq üzrə vasitəçilikdən narazı salmaq üçün ona edilən güclü təzyiq» kimi qələmə verdilər[126].

Əslində, vəziyyət tamamilə başqa şəkildə idi. 1994-cü ilin əvvəlindən, xüsusilə mart-aprel aylarından, ölkə üçün cəbhə xəttində və arxada hərbi-siyasi durumda təzadlı bir vəziyyət yaranmışdı. Bir tərəfdən düşmənin cəbhədəki fəallığı, Bakı şəhərində, ölkənin dəmir yollarında törədilən təxribatlar, digər tərəfdən ölkə daxilində vətəndaş həmrəyliyinin artması, sabitliyin yaranması kimi vəziyyət hökm sürürdü. Azərbaycan Respublikası Prezidentinin xarici ölkələrə səfərləri, əldə olunmuş diplomatik uğurlar Cənubi Qafqazda sabitliyin yaranmasını istəməyən dairələri narahat edirdi. Öz geosiyasi maraqları çərçivəsində düşündüyünü gizlətməyən Rusiya Qərbin iddiaları qarşısında laqeyd qala bilmirdi. Çünki Rusiya Federasiyası, SSRİ-nin varisi kimi, keçmiş ittifaq respublikalarını, o cümlədən Azərbaycan Respublikasını «böyük qardaş»lıq «statusundan» bəhrələndirməyi davam etdirmək fikri ilə keçmiş SSRİ məkanında öz nüfuz dairəsini qoruyub saxlamağa çalışır, regiondakı konfliktlərdə sülhyaradıcı rol oynamaq istəyən başqa dövlətlərə və beynəlxalq təşkilatlara yumşaq desək, qısqanclıqla yanaşırdı. Rusiya Federasiyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün təklif etdiyi plan da məhz Azərbaycanın düşdüyü vəziyyətə görə narahatçılıqdan deyil, həmin qısqanclıqdan doğurdu. Məhz keçmiş ittifaq respublikalarını təsir altında saxlamaq iddiasının nəticəsi idi ki, Rusiya Federasiyası dünyanın fövqəldövlətlərinin getdikcə qütbləşməkdə olan qlobal maraqlarının toqquşma nöqtələrindən biri olan Qafqaza öz geosiyasi maraqları çərçivəsində baxırdı.

Rusiya Federasiyasında belə hesab edirdilər: «Açıq

demək lazımdır ki, ABŞ, təəssüf ki, münaqişənin nizamlanmasından çox, onun ətrafında geosiyasi oyunlara diqqət yetirir. Rusiya Federasiyasının regionda təsirinin saxlanması və möhkəmlənməsinin aktiv rolu kiminsə ürəyincə deyil. ABŞ-ın münaqişə tərəflərinə, xüsusilə Bakıya təsiri ona görə gücləndirilirdi ki, Rusiyanın planını qəbul etməyə imkan verilməsin. Rusiya Federasiyasının müdafiə naziri 16 mayda (1994-cü il) razılaşdırılmış layihəyə görə sülhməramlı əməliyyatların konkret şəkildə, ATƏM-in planı üzrə keçirilməsindən fərqinin effektliliyini onlara göstərdi[127].

Beləliklə, ABŞ-ın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında geosiyasi maraqlara yönəlmiş siyasət yürütməsinin qeyd edilməsini və onun dalında Rusiya Federasiyası hökumətinin narazılığının əsas səbəbini görürük.

3.4. Qarabağ müharibəsi dövründə bəzi region dövlətlərinin antiazərbaycan siyasəti

Azərbaycan Respublikasının müstəqilliyi əleyhinə və eləcə də ermənilərin Azərbaycana qarşı yönəlmiş Qarabağ müharibəsinin mahiyyəti və xarakterini, habelə regional çərçivədən kənara çıxmasını tədqiq etmək istər tarixi, istərsə də siyasi baxımdan böyük maraq doğurur. Bu ərəfədə gedən proseslərin bəzi məqamlarını xatırlatmağa ehtiyac olduğunu nəzərə alaraq, bir sıra siyasi və hərbi xadimlərin fikirlərinə diqqət yetirək.

Yeqor Liqaçov «Zaqadka Qorbaçova» kitabında yazır ki, «1990-cı ilin yanvarında Amerika qəzetlərinin birində dərc olunan bir məqalədə deyilirdi ki, görəsən, Qorbaçova kömək etmək lazımdırmı? Əgər bu, kommunist rejiminin güclənməsinə, sovet iqtisadiyyatının möhkəmlənməsinə sərf olunacaqsa, onda bu yardıma ehtiyac varmı? Göstərilən kömək o vaxt edilə bilər ki, ayrılan vəsait Kommunist Partiyasının

dağılmasına, iqtisadiyyatda xüsusi mülkiyyət formasının yaranmasına yönəlsin. Qorbaçov yenidənqurma siyasətinə başlayan gündən ikinci yolu seçdi və onu yavaş-yavaş həyata keçirməyə başladı»[128].

Dmitri Yazova jurnalistin verdiyi «Siz, böyük bir dövlətin müdafiə naziri, yəqin ki, öz xoşunuzla Bakıya gəlməmişdiniz, eləmi?» sualına cavabında demişdir: «Ən böyük hakim tarixdir. Tarixin isə obyektiv hökm çıxaracağına şübhə etmirəm. Ola bilsin, bizim də günahımız vardır. Bakıya bizi Qorbaçov göndərdi. Yanvarın 18-i idi. Səhər saat 11-də Qorbaçov məni öz yanına dəvət etdi. Onun yanında SSRİ daxili işlər naziri Bakatin və Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Kryuçkov var idi. Qorbaçov dedi ki, Bakıda vəziyyət gərginləşib, Primakov (SSRİ Ali Soveti İttifaq Sovetinin sədri. – Q.H.) və Qirenko (Sovet İttifaqı Kommunist Partiyası, Mərkəzi Komitəsinin katibi. - Q.H.) ona teleqram vurmuşlar. Qoşunları Bakıya yeritmək lazımdır. Təklif etdi ki, biz üçümüz də Bakıya gedək. Kryuçkov nəyi isə bəhanə gətirdi, yadımda deyil, biz Bakatin və Kryuçkovun birinci müavini F.Bobkovla saat 12-də Bakıya uçduq. Sumqayıt şəhərinin yaxınlığında yerləşən hərbi hissənin aerodromunda yerə endik. Birbaşa Bakıya, Mərkəzi Komitəyə yollandıq. Burada Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Ə.Vəzirov, Y.Primakov, S.Qirenko və bir sıra məsul şəxslər var idi. Y.Primakov Bakıda olan vəziyyəti bizə başa saldı. Hakimiyyəti devirmək təhlükəsi var idi. Müxalifət vəziyyəti dəqiqəbədəqiqə gərginləşdirirdi. Qərara alındı ki, Bakıda fövqəladə vəziyyət elan olunsun. Primakov Qorbaçova zəng vurdu və respublikada olan gərgin vəziyyəti ona izah etdi və dedi ki, mütləq şəhərə qoşun yeritmək lazımdır, yoxsa hakimiyyət müxalifətin əlinə keçə bilər. Yevgeni Maksimoviç dəstəyi mənə uzatdı. Mən Qorbaçovla danışmağa başladım. O, Primakovun təklifi ilə razı olduğunu bildirdi və Bakıya qoşun yerildilməsini mənə tapşırdı. Mən ondan Ali baş komandan kimi yazılı surətdə

məktub verilməsini xahiş etdim. O isə əvəzində mənə dedi ki, «elə zənn et ki, məktub sənin əlindədir. Qoşunları yeridin». Gecə saat 3-də biz qoşunları şəhərə yeritdik. Sonrası isə sizə məlumdur» [129].

D.Yazov jurnalistin «Xaricdə yaşayan erməni lobbisi Qorbaçovdan Dağlıq Qarabağın Azərbaycan Respublikasından alınıb Ermənistan Respublikasına verilməsini xahiş etmişdi, bunun müqabilində ona hətta rüşvət və hədiyyələr də vermişdilər» fikrinə münasibətini belə ifadə etmişdir: - «Bəli, belə hallar olmuşdur. Qorbaçov təsir altına düşən adam idi. Hakmiyyətə gələn kimi, onun ətrafına ermənipərəst qüvvələr toplaşdı. Onlar da tarixi şansdan istifadə edib Dağlıq Qarabağı Azərbaycandan qopartmaq istədilər. Azərbaycan xalqı isə buna yol vermədi. Bunun üçün də ermənilər Sumqayıtda qan tökdülər?» - «Bəli. Onlara qan lazım idi, bütün dünyaya car çəksinlər ki, azərbaycanlılarla dinc yaşamaq qeyri-mümkündür. Bizi onlardan qoruyun və Dağlıq Qarabağı alıb bizə verin» [130].

V.Jirinovskinin "Azərbaycanda müharibə hələ də davam edir" fikri də o vaxt təsadüfi deyilməmişdi. Məlumdur ki, müharibənin uzadılması bir sıra iri dövlətlərin marağındadır. Dünyanın ən iri, nüfuzlu ölkələri dünyada öz təsir dairəsini genişləndirmək üçün bir-biri ilə kompromissiz müharibə aparır. Həm də bu müharibələr hərbi-sənaye kompleksi üçün əlverişlidir. Belə ki, onların nəhəng zavodlarında istehsal olunan müasir silahlar özünə sifarişçi tapa bilməsə, yüz minlərlə adam işsiz qala bilər. Qaynar nöqtələrin və müharibənin olması onlar üçün gəlir mənbəyi, orada işləyənlər üçün isə yaşamaq imkanıdır. On il İran-İraq müharibəsi, sonra on il Əfqanıstanda lazımsız müharibə, İraq-Küveyt problemi, Azərbaycan-Ermənistan münaqişəsi, Bosniya və Hersoqovina və sair regionlar – bütün bunlar silahla təmin edilirdi. Bunu Rusiyanın hərbi-sənaye kompleksi təmin edirdi.[131] Hələ keçən əsrin 80-ci illərində istefada olan təcrübəli, keçmiş

DDK generallarının məqalələrində gələcəkdə başlanacaq münaqişələrin ocaqlarından biri kimi, Dağlıq Qarabağın adının hallanması bu məsələnin gələcəyindən xəbər verirdi.

V.Kryuçkovun «Liçnoe delo» kitabında deyilir: «Ermənistana Azərbaycanın 20 faiz torpağı ona görə lazımdır ki, Dağlıq Qarabağ məsələsinin həllində alver kimi istifadə eləsin» [132].

Azərbaycan torpaqlarına hərisliyin haradan qaynaqlandığına diqqət çəkən E.Məmmədov aşağıdakı misalı gətirir: «V.Kryuçkov «Liçnoe delo»kitabında yazır: «H.Borovikin və Q.Arbatovun 1988-1990-cı illərdə dəfələrlə ABŞ-a səfərlərinin fəal surətdə təşkilatçısı, verilən məlumata görə, Amerikanın xüsusi idarələri ilə əlaqəsi olan, San-Fransisko ticarət palatasının direktor müavini Harri Orbelyan idi. O, «qonaqlara» maddi cəhətdən kömək edirdi: onların bahalı mehmanxanalarda qalmalarının, hədiyyələrinin, ölkə üzrə səyahətlərinin, yelkənli gəmilərdə gəzintilərinin xərcini ödəyirdi» [133].

1992-ci il mart ayının 10-da Rusiyanın daxili işlər naziri Viktor Yarin Rusiya Federasiyasının prezidenti Boris Yeltsinə məktub və bir videokaset verir. Məktubda deyilirdi ki, «Xocalıda qadınları, uşaqları, qocaları güllələyirdilər, meyitlərin dərilərini soyurdular. Azərbaycanlı kino-dokumentalistinin videokasetə çəkdiyi sujetlər bütün bu vəhşilikləri göstərir. Kamera bir neçə uşağın qulaqlarının necə kəsildiyini lentə almışdır. Meyitlərin bədənlərini təhqir etmiş, tanınmaz hala gətirmişlər. Hərbi kəşfiyyatın məlumatına görə, kino-dokumentalist Mustafayev bu işdə 366-cı motoatıcı alayı günahlandırır və lenti hər yanda göstərir» [134].

B.Yeltsin videokasetə baxdıqdan sonra bu istiqamətdə işləmək üçün xüsusi sərəncam imzalayır (0219-21-OD -1992), rus əsgərlərinin şərəf və ləyaqətinə xələl gətirən belə kadrların çəkilməməsini hərbi kəşfiyyatçıların qarşısında vəzifə kimi qoyur.

Ermənilərin ruslarla birgə Xocalıda törətdikləri vəhşiliklərin dünya ictimaiyyətinə çatdırılmaması üçün Rusiya

rəhbərliyi hər cür çirkin əməllərə əl atmağa hazır idi. Azərbaycanın vətənpərvər və qeyrətli oğlu Çingiz Mustafayevin öldürülməsi də həmin məktubdan və kəşfiyyata verilən tapşırıqdan sonra oldu.)

Qondarma «Dağlıq Qarabağ problemi», xalq-azadlıq hərəkatı, 20 Yanvar qırğını, o dövrdəki respublika rəhbərliyinin xəyanətkar siyasəti, Azərbaycan Xalq Cəbhəsi hərəkatının fəaliyyəti, bir sözlə, 1993-cü ilədək davam edən daxili-siyasi proseslər Azərbaycanın o zamankı ümumi vəziyyətini səciyyələndirir.

Heydər Əliyev 80-ci illərin sonu, 90-cı illərdəki ümumdünya miqyaslı tarixi hadisələr kontekstində Azərbaycanın düşdüyü vəziyyətə nəzər salarkən göstərir: «O dövrdəki Azərbaycan rəhbərliyi sadə bir həqiqəti nəzərə almırdı ki, dünyanın siyasi mənzərəsi böyük sürətlə dəyişməkdə idi. Yeni coğrafi-siyasi vəziyyət yeni strategiyaların formalaşmasını tələb edirdi və günün bu tələblərinə Azərbaycan, təəssüf ki, cavab verə bilmədi. Yenidənqurmanı dəstəkləyən bir qüvvə kimi, rəsmi qeydiyyata alınan Azərbaycan Xalq Cəbhəsi hərəkatı qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümummilli platforma yaratmaq əvəzinə, populist çıxışlara və meydan əhval-ruhiyyəsinə üstünlük verdi. Nəticədə Kommunist Partiyası - Xalq Cəbhəsi xətti üzrə formalaşmış qarşıdurma hakimiyyət uğrunda mübarizə müstəvisinə yönəldildi. Dağlıq Qarabağda böyük məharətlə hazırlanmış hiyləgər planların gerçəkləşdiyi bir vaxtda özlərini böyük siyasətçi sayan bu şəxslər, səriştəsiz hərəkətləri ilə vətəndaşlarımızı bu oyunun qurbanlarına çevirdilər. Əfsuslar olsun ki, xalq adından çıxış edən bu insanlar öz şəxsi maraqlarını, öz şəxsi ambisiyalarını, hakimiyyət hərisliyini ümummilli mənafelərdən üstün tutdular.

Məhz bu baxımdan bu gün də biz bu ağılsız siyasətin nəticələrini aradan qaldıra bilmirik. Əgər Dağlıq Qarabağ

faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları dursa, digər qütbündə, - nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır, - bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur. Məhz onlar bu gün tarixi təhrif edərək, Dağlıq Qarabağ qarşıdurmasını, Azərbaycan xalqının Dağlıq Qarabağ məsələsində Moskvanın tutduğu ədalətsiz mövqeyinə kəskin etiraz aksiyalarını öz şəxsi nailiyyətləri kimi qələmə verməyə başlayırlar. Bu gün həmin şəxslər o dövrdəki səhvlərinə bəraət qazandırmaq istərkən müxtəlif bəhanələr gətirirlər.

Amma yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara, bütün bu təqiblərə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi. Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hisslərindən konstruktiv şəkildə istifadə olunsaydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq. Xalq çox tez başa düşdü ki, onun ən ülvi, ən müqəddəs, ən pak hissləri siyasi alverə, siyasi rəqabətə, kiminsə ucuz siyasi ambisiyalarının gerçəkləşməsinə xidmət edir. Bu ağır mənəvi sarsıntıdan, bu acı həqiqətin yaratdığı psixoloji zərbədən bir çox vətəndaşlarımız bu gün də özlərinə gələ bilmirlər.

Azərbaycan torpaqlarının tarixi taleyini həmişə düşünən Heydər Əliyev 6 may 1996-cı ildə Prezident Sarayında Şuşa və Laçın rayonlarının sakinlərinin bir qrupu ilə görüşdə həmin rayonların işğalından bəhs edərək demişdir: «Məlumdur ki, bu faciəli hadisələr həm Şuşa, həm də Laçın rayonlarının sakinlərini sıxır, kədərləndirir, incidir. Ancaq bu, eyni zamanda bütün xalqımızın ürək ağrısıdır, dərdidir, kədərdir. Çünki Şuşanın, Laçının Azərbaycan torpağı, respublikamız, xalqımız üçün nə qədər əziz, qiymətli olduğunu sübut etməyə ehtiyac yoxdur. Dörd ildir ki, biz bu rayonlardan məhrum olmuşuq. Ona görə də bu dərd çox ağır bir dərddir.

Bu dərdi biz hamımız çəkirik. Ancaq bilirəm ki, şuşalılar, laçınlılar daha çox dərd, qəm içindədirlər. Çünki onlar həm də yerlərindən, yurdlarından didərgin düşdüklərinə görə ağır həyat tərzi keçirirlər. Təəssüf ki, bunlar hamısı həyatımızın reallığıdır. Biz bunlara dözürük, eyni zamanda, əminik ki, bütün torpaqlarımız azad ediləcək, o cümlədən Şuşa da, Laçın da azad olunacaq, şuşalılar, laçınlılar öz evlərinə, yurdlarına, torpaqlarına qayıdacaqlar. Buna heç şübhə yoxdur. Ancaq ki, bu gün biz bu dərdin, kədərin, faciənin içindəyik».[135]

Ulu öndər bu faciənin səbəblərini belə şərh etmişdir: «Bilirsiniz, buna heç cür izahat vermək mümkün deyil. Ermənistan ilə Azərbaycan arasında olan hərbi münaqişə Azərbaycanın Dağlıq Qarabağ hissəsinə Ermənistanın torpaq iddiadasından başlanıbdır. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. O heç vaxt Ermənistana mənsub olmayıb və ola bilməz. Belə olan halda bu təcavüzkar, qəsbkar niyyətlərə, addımlara qarşı vaxtında lazımi tədbirlər görülməli idi. Təəssüflər olsun, bu tədbirlər görülməyib və müharibə, döyüşlər başlayıbdır. Bu da Azərbaycan xalqını belə bir ağır vəziyyətə gətirib salıbdır. Mən bir də qeyd etmək istəyirəm, təsəvvür etmək mümkün deyil ki, nə üçün Azərbaycan belə bir halda öz ərazisini qoruyub saxlaya bilməyibdir. Nə üçün?

Azərbaycan əraziyə görə də Ermənistandan iki dəfə, bəlkə iki dəfədən də çox böyükdür; əhalisinə görə də, – münaqişə başlayan vaxtda da, – Ermənistandan iki dəfə böyük olub. Dağlıq Qarabağda isə erməni millətinə mənsub yüz minə qədər Azərbaycan vətəndaşı yaşayıb. Belə olan halda, təsəvvür etmək mümkün deyil, – nə üçün Azərbaycan öz torpaqlarını qorumayıbdır?»[136]

Heydər Əliyev Azərbaycan torpaqlarına erməni iddiaları barədə demişdir: «Mən həmişə belə fikirdə olmuşam. Azərbaycan Prezidenti kimi də bunu dəfələrlə bəyan etmişəm, bu gün də bəyan edirəm ki, biz azərbaycanlılar, Azərbaycan xalqı başqalarının torpağına göz dikməmişik. Baxmayaraq

ki, keçmiş dövrlərdə Azərbaycanın torpaqlarının bir qismi cürbəcür hadisələr nəticəsində başqa ellərə keçibdir, o cümlədən indi Ermənistanın sərhədlərinin içərisində olan torpaqların bir hissəsi də dövri-qədimdən Azərbaycan torpağı, Azərbaycan diyarı olubdur: Göyçə mahalı da, Zəngəzur mahalı da, başqaları da.

İllər, əsrlər keçib, cürbəcür hadisələr baş veribdir. Nəhayət, bu əsrin əvvəllərində, yəni 1918-20-ci illərdə Azərbaycanın indiki sərhədləri müəyyən olunubdur. Bu sərhədlər içərisində olan torpaqları biz doğma torpaqlarımız kimi qorumuşuq və qorumalıyıq. Bu baxımdan, bir halda ki, sərhədlər belə müəyyən olunubdur, Cənubi Qafqazda yaranmış bu sərhədlər çərçivəsində biz başqa ölkələrin, dövlətlərin torpaqlarına göz dikməmişik və bu gün də dikmirik. Ancaq öz torpaqlarımızı qorumalıydıq, saxlamalıydıq. Biz heç zaman razı ola bilmərik ki, torpaqlarımızın hansı bir hissəsi isə başqa bir dövlətin əlinə keçsin. Ona görə də mən hesab edirəm ki, Azərbaycan hökuməti, dövləti bu münaqişə başlayan zamandan anlamalıydı ki, söhbət Ermənistanın Azərbaycana olan torpaq iddiasından gedir və onun qarşısının alınması üçün ciddi və çox səmərəli tədbirlər görülməlidir. Elə tədbirlər ki, bu hadisələrin qarşısını vaxtında alsın, bu hadisələrə cavab versin»[137].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Şuşanın tarixi yeri və vaxtilə inkişafından söhbət açır: «... Birincisi, Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik olan böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır.

Ona görə də Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. Ona görə də Şuşa bu qiymətinə, Azərbaycan üçün bu qədər mühüm əhəmiyyət kəsb etdiyinə görə xüsusi qorunmalı, saxlanmalı idi.

Şuşa Azərbaycanın demək olar ki, böyük bir tarixi abidəsi, eyni zamanda – əgər bunu şeir dili ilə desək, – incisidir.»[138]

Ümummilli lider Azərbaycanın ən böyük vətəndaşı kimi, Vətənin hər bir guşəsini sevməyi və qədrini bilməyi tövsiyə edir: «... Bir çoxları belə hesab edirlər ki, əgər kim hansı yerdə doğulub-böyüyübsə, o, həmin yeri başqasına nisbətən daha çox sevir. Bu, belə deyil. Ümumiyyətlə, biz Azərbaycanın hər bir yerini doğma Vətən kimi sevməliyik. «Kim haralıdır – oranı sevir» kimi əhval-ruhiyyəni aradan götürmək lazımdır. Vətən hamımız üçün Vətəndir. Vətənin hər bir yeri, hər bir nöqtəsi bizim üçün Vətəndir. Hər bir adam üçün Şuşa da, Laçın da vətəndir. Bu yerlər təkcə şuşalılar, laçınlılar üçün yox, hamımız üçün vətəndir. Şəxsən mən belə fikirdəyəm, belə duyğularla yaşamışam və bu gün də belə duyğularla yaşayıram. Ona görə də mən Şuşanı özüm üçün doğma bir yer hesab edirəm. Bu doğmalıq mənim daxili insani hisslərimlə əlaqədardır. Bir də, bir halda ki, mən Azərbaycanda rəhbər olmuşam, demək bu mənim borcum, vəzifəm olub.

Təəssüflə deyirəm ki, məsələn, keçmiş illərdə Azərbaycanın rəhbərliyində Şuşada doğulmuş, böyümüş adamlar, bu şəhərin qayğısına qalmaq imkanı olan adamlar da olub. İndi mən bunu deyirəm, çünki buna əsasım var. Nədənsə, onlar həmin 70-ci illərdə Şuşaya göstərilən qayğını 40-cı, 50-ci, yaxud 60-cı illərdə göstərməyiblər. Bu da həqiqətdir. Çünki hər şey göz qabağındadır ki, Şuşanın inkişafı üçün o illərdə nə olub, sonrakı dövrdə nə olub. Doğrudur, bu, bizim borcumuzdur və şəxsən mən bu barədə söhbət aparıramsa, sadəcə onu demək istəyirəm ki, mən öz borcumu yerinə yetirməyə çalışıram. Bəlkə bundan da

artıq etmək mümkün idi. Ancaq mən hesab edirəm ki, Şuşanın inkişafı, abadlaşdırılması, tarixi abidələrinin bərpası üçün görülmüş işlər də çox dəyərlidir»[139].

Heydər Əliyev Şuşanın işğalına imkan verənlər haqqında obyektiv fikirlər söyləyib: «... Şuşanın işğalına imkan verənlər onu sadəcə olaraq hakimiyyət mübarizəsi zamanı qurban veriblər ki, bu, dəhşətlidir. Bu fikirlər keçən il məhkəmə prosesində müəyyən olunub, təsdiq edilibdir. Yəni bunlar yeni fikirlər deyil. Əslində, belə fikirləri hər kəs deyə bilər, eyni zamanda, onu təsdiq etmək lazımdır. Ancaq gedən istintaq, Ali Məhkəmənin apardığı məhkəmə prosesi və çıxardığı hökm artıq bunu hüquqi nöqteyi-nəzərdən sübut edib ki, Şuşa da, Laçın da o vaxt Azərbaycanda ayrı-ayrı qrupların, dəstələrin, hakimiyyət uğrunda mübarizə aparan insanların mübarizəsinin qurbanı olublar. ...»[140].

Prezident Heydər Əliyev Şuşanın işğalının səbəblərini ürək ağrısı ilə xatırlayaraq vurğulayır: «... Ermənistan silahlı qüvvələri, bizə düşmən olan qüvvələr məhz bu rayonların işğal olunmasına bütün səylərini cəlb ediblər. Mən böyük ürək ağrısı, ürək acısı ilə bir daha deyirəm ki, bu, Azərbaycanın başında duran adamların xəyanətinin, satqınlığının nəticəsidir.

Keçmişdə Şuşaya nə qədər hücumlar olubdur. O vaxt vahid Azərbaycan dövləti də yox idi. Amma Şuşanı məhz onun tutduğu strateji mövqeyə görə fəth edə bilmədilər. Eləcə də Laçını.

...Ancaq Azərbaycan Respublikası Ermənistanın təcavüzü qarşısında çapaladığı bir zaman, belə bir zamanda sən Şuşanı qəsdən təslim edəsən? ... bu gün Nizami Bəhmənov həmin vaxtlar aybaay, günbəgün hansı kəndin nə vaxt işğal olunduğunu, nə vaxt yandırıldığını, alındığını dedi, - belə bir zamanda sən bir neçə gündən sonra Mütəllibovu hakimiyyətə gətirməkdən ötrü Şuşanı qəsdən təslim edəsən, – bundan artıq cinayət yoxdur»[141].

«... Laçının və Şuşanın işğalı ilə əlaqədar 1995-ci ildə məhkəmə prosesinə qədər mənim bu barədə məlumatım yox

idi. Mən bu məlumatları, məhkəmə prosesindən sonra o məlumatları alanda da hələ inanmırdım ki, yəni bu qədər böyük cinayət etmək olarmı? Xalqına qarşı bu qədər ağır xəyanət etmək olarmı? İnanmaq mümkün deyil. Amma məhkəmə prosesi də, məhkəmənin hökmü də və bu işlərin şahidləri olan sizlərin bu gün burada dedikləri də tam həqiqətdir. Bəli, bu, belə də olubdur. Bunu Rəhim Qazıyev, Mütəllibov ediblər. Bunu onların tərəfdarları ediblər. Digər tərəfdən, bunu edənlər o vaxt o hakimiyyətdə olanlara müxalifət qüvvələri idi: Xalq Cəbhəsi olubdur, Xalq Cəbhəsinin törəmələri – indi cürbəcür partiyalara yığışıblar – onlar olublar. Bu, həqiqətdir»[142].

Heydər Əliyev Qarabağ müharibəsi prosesində Azərbaycan hakimiyyətinin və müxtəlif siyasi qüvvələrin xəyanətini çox sadə dillə və dəqiqliklə şərh etmişdir: «... Mən bunu bu qədər təfsilatı ilə bilmirdim ki, Şuşanın müdafiəsində cürbəcür dəstələr, qruplar biri o birisinə tabe olmurmuş: bu, Rəhim Qazıyevin dəstəsidir; bu, o birisinin dəstəsidir; bu, başqasının dəstəsidir – belə müharibə, müdafiə aparmaq olmaz. Bir də ki, Xalq Cəbhəsi dövlət deyildi axı, nə üçün gedib özbaşına işlər görürdü? Ən dəhşətlisi odur ki, gedib orada şəhəri müdafiə edə bilməyiblər.

Şuşa işğal olunub və bundan sonra Mütəllibov hakimiyyətə gəlib, qaçıb gedib və nəhayət, bundan sonra Rəhim Qazıyev hakimiyyəti ələ almaq üçün, – burada siz də dediniz, – öz hərbi dəstələrini oradan çıxarıb gətirib. Xalq Cəbhəsi də öz hərbi dəstələrini oradan çıxarıb Azərbaycanın bu meydanlarına, Prezident sarayının, parlamentin, Ali Sovetin önünə gətirib ki, bəli, burada mübarizə aparsınlar, hakimiyyəti silahla ələ alsınlar. Bu, belə də olubdur. Mən vaxtilə bunların hamısını televiziya vasitəsilə görmüşəm. Ali Sovetin qabağındakı mitinqlərə Rəhim Qazıyev öz dəstəsi ilə o tərəfdən gəlirdi, İsa Qəmbər bu biri tərəfdən gəlirdi, Əbülfəz Elçibəy bu tərəfdən gəlirdi, Etibar Məmmədov öz dəstəsi ilə gəlirdi, o birisi burdan gəlirdi. Hərəsi bir dəstə ilə mitinq edirdi.

Dəhşətli hal budur ki, – mən belə başa düşdüm, – demək, mayın 8-də Şuşa işğal edilib, Azərbaycana rəhbərlik edən adamların isə bundan xəbəri olmayıb. Deyirlər mayın 9-da Yaqub Məmmədov Ağdama gəlib ki, xəbərim yoxdur. Burada Şuşanı işğala verəndən sonra Rəhim Qazıyev qaçıb gedib oturub Daşkənddə ki, Azərbaycanın başçısı olmaq üçün danışıq aparsın. O vaxt burada qarışıqlıq düşüb, ondan sonra qayıdıb bura. O, yenə də öz niyyətlərinə çatmaq üçün qoşunları çıxarıb və – siz də dediniz, – mayın 18-də Laçın işğal olunubdur. Ayın 18-də burada, – xatirənizdədir, onu da o vaxt televiziyada verdirdilər, – kimin Ali Sovetin sədri olması uğrunda mübarizə gedirdi. Nəhayət, İsa Qəmbərovu seçdilər ki, o, Ali Sovetin sədri olsun. Orada torpaq, Laçın kimi rayon əldən gedir, – Laçın demək olar ki, Azərbaycanın alaqapısıdır, böyük qapısıdır. Əgər o, əldən gedibsə, demək, qapı açıldı, demək, Ermənistan Azərbaycana nə qədər silahlı qüvvə istəsə gətirə bilər, – ora əldən gedir, onlar isə bunu unudub, burada meydanda, yaxud da ki, Ali Sovetin binasında bir-birinin üstünə silah çəkdilər, hakimiyyəti ələ aldılar.

Kimlər? Hakimiyyəti saxlamağa, dövləti idarə etməyə heç bir səriştəsi, heç bir mənəvi haqqı, heç bir bacarığı, heç bir qabiliyyəti olmayan adamlar. Bilirsiniz, Azərbaycanın faciəsi təkcə ondan ibarət deyil ki, respublikamız Ermənistan tərəfindən təcavüzə məruz qalıbdır və bu təcavüzün qarşısını ala bilməyibdir. Azərbaycanın ən böyük faciəsi ondan ibarətdir ki, küçədə gəzən ayrı-ayrı adamlar, xalqımızın qarşısında heç bir xidməti olmayan, bacarığı, səriştəsi olmayan adamlar şəxsi məqsədlər güdərək, bu fürsətdən istifadə edib Azərbaycanda hakimiyyəti əllərinə keçiriblər. Bu, dəhşətlidir. Xəyanət edib, satqınlıq edib vəzifə tutanlar bu vəzifəni heç vaxt əldə saxlaya bilməzlər. Allah buna yol verməz, yol verməməlidir.

Əgər bu qədər qurbanlar, bu qədər qanlar, xəyanətlər nəticəsində siz hakimiyyətə gəldinizsə, bəs onu saxlayaydı-

nız da, nə üçün saxlaya bilmədiniz? Əgər gücünüz yoxdursa, hakimiyyətə nə üçün can atırdınız? Hakimiyyətə gəlmək istəyən adam gərək ölçsün-biçsin ki, onun gücü nədir, imkanı, bacarığı nədir, Azərbaycan belə bir müharibə şəraitində olduğu zaman o, bunu edə bilər, yoxsa yox? Onlara nə Azərbaycan lazım idi, nə millət lazım idi, nə torpaq lazım idi. Sadəcə olaraq, onlara bu vəzifələri gəlib tutub, Azərbaycanın varını, dövlətini dağıdıb, öz şəxsi məqsədlərinə nail olmaq lazım idi»[143].

Ulu öndər bu xəyanətkarlığı olduğu kimi xatırladır və onlara layiq fikirlərini də ifadə edirdi: «Bir dəstə – Mütəllibovun dəstəsi satqınlıq edib Azərbaycana bu qədər zərbələr vurubdur, indi qaçıb gedib dörd ildir Moskvada oturubdur ki, guya yenidən Azərbaycanda hansısa bir hakimiyyəti ələ keçirmək istəyir. O biri dəstə öz şəxsi mənafelərinə nail olmaq üçün guya müxalifətdə olub, gəlib hakimiyyəti ələlərində saxlaya bilmədi, 1993-cü ildə respublikanı vətəndaş müharibəsi vəziyyətinə gətirib çıxardı. Qaçdılar, dağıldılar, indi də keçiblər müxalifətə, qəzetdə gündə bir şey yazırlar. Müxalifət olublar. Əgər siz hakimiyyətdə olduğunuz zaman Azərbaycana belə zərbələr vurmusunuzsa, nə müxalifətdə ola bilərsiniz? Siz müxalifətdə olduğunuz zaman Azərbaycan torpaqlarının işğal edilməsinin səbəbkarısınız. Sizin nə haqqınız var? Onların heç birisinin – nə Moskvada gizlənənlərin, nə Kələkidə gizlənənlərin, nə hakimiyyətdə olub, sonra qaçıb, indi özlərini müxalifət hesab edənlərin heç birisinin gəlib Azərbaycanda vəzifə almağa, hakimiyyətə gəlməyə heç bir mənəvi haqları yoxdur. Onların hamısı etdikləri günah, xəyanətlər, cinayətlər üçün Azərbaycan xalqı qarşısında cavab verməlidirlər.

Bəzilərinin cinayəti artıq sübut olunubdur. Amma bəzilərinin cinayəti sübut olunmayıbsa, bu o demək deyil ki, onlar cinayət, xəyanət etməyiblər. Bugünkü danışıqlar da tam aydınlıq yaratdı. Siz də bu işlərin şahidisiniz, bu prosesləri öz

gözlərinizlə görmüsünüz, – onlar cinayət ediblər. Ona görə də bunlar hamısı tək sizi yox, bütün xalqımızı, millətimizi incidir. İndi hamımızın dərdi, fikri ondan ibarətdir ki, işğal olunmuş torpaqlarımız azad edilsin, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun»[144].

Heydər Əliyev Şuşa və Laçının işğalının Azərbaycan üçün nə qədər böyük itki və təhlükə olduğunu vurğulamışdır: «... Şuşanın, Laçının işğalı görün Azərbaycana nə qədər böyük zərbələr vurubdur. Şuşanın və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı Azərbaycanın başqa bölgələrinin işğal olunması üçün qapı, yol açıbdır və onlar üçün böyük imkanlar yaradıbdır»[145].

Heydər Əliyevin Azərbaycan üçün strateji əhəmiyyəti olan Şuşa və Laçının işğalından çox təəssüflənirdi: «... İndi burada o-bu mübarizə edir ki, hakimiyyətə gəlsin. Bilirsiniz ki, o vaxt gedib oturmuşdum Naxçıvanda və heç yenidən Azərbaycanda vəzifə tutmaq məqsədim də yox idi. İndi də deyirsiniz ki, mən o vaxt, bu vaxt gəlsəydim yaxşı olardı, siz o vaxt, bu vaxt müraciət edirdiniz. Bu, sizin fikrinizdir. Amma axı, mənim fikrim belə deyildi. Mənim fikrim doğulduğum yerdə daim yaşamaq və yenidən Azərbaycana rəhbərliyə qayıtmamaq idi. Mənim qəti fikrim belə idi.

1993-cü ildə vətəndaş müharibəsi başlayanda mənə nə qədər müraciətlər oldu. Mən elə o dəqiqə durub gəlmədim. Mənə bir neçə gün müraciətlər oldu, məni buraya gətirmək üçün bir neçə gün təyyarələr gəldi. Razılıq vermirdim. Mən buraya gələndən sonra da razılıq vermirdim. Bakıya gəldim, bundan bir həftə sonra razılıq verdim. Buraya gəlmək üçün mənimlə beş-altı gün danışıq aparıldı. Respublikanın vəziyyətinin çox gərgin olduğunu görəndən sonra razılıq verdim. Dedim ki, indi xalq necə, mən də elə. Dedim ki, əgər xalq ağır vəziyyətə düşəcəksə, mən də bu ağır vəziyyətin içində olmalıyam. Ona görə də razılıq verdim.

... Ancaq bir halda ki, bu məsuliyyəti öz üzərimə götürmüşəm, demək, dərk edərək götürmüşəm ki, qarşımda duran məsələ budur, bunu həll etmək lazımdır. Siz əmin ola bilərsiniz ki, mən bunları həll etmək üçün bütün imkanlarımı sərf edirəm. Amma bax, bunların həll olunmasında da bir nöqtə var, gəlib orada dayanırıq. Bu danışıqlarda Nizami Bəhmənov iştirak edib, o, bunları bilir. Ermənilər də bu nöqtədən çəkilmirlər, biz də çəkilmirik...

Ancaq eyni zamanda, bilmək lazımdır ki, biz heç vaxt razı ola bilmərik ki, torpaqlarımız uzun müddət Ermənistan silahlı qüvvələrinin işğalı altında qalsın. Buna razı ola bilmərik. Müəyyən bir hədd var, əgər bu həddə qədər biz bu məsələni sülh yolu ilə həll etməyə nail ola bilməsək, şübhəsiz ki, bütün vasitələrdən istifadə etməliyik. Buna görə də şuşalılar da, laçınlılar da, ağdamlılar da, füzulililər də, cəbrayıllılar da, kəlbəcərlilər də, zəngilanlılar da, qubadlılılar da, tək onlar yox, Azərbaycanın bütün vətəndaşları, gənclərimiz bilməlidirlər ki, öz torpağını müdafiə etmək, öz torpağını işğalçılardan azad etmək üçün hər kəs gərək hazır olsun. ...

İşğal olunmuş torpaqlardan didərgin düşmüş vətəndaşlarımız məskunlaşdıqları yerlərdə öz rayonlarının ənənələrini daim qoruyub saxlamalıdırlar. Ona görə də bu rayonların bütün dövlət orqanları – icra orqanı da, polis, prokuror, hərbi komissarlıq orqanı da var. Bunlar mütləq olacaqdır. Baxmayaraq ki, siz, məsələn, 40, 50, yaxud 60 məntəqədə məskunlaşmısınız. Gərək, bir-birinizlə bağlılığı həmişə saxlayasınız. Gərək öz torpağınızı, evinizi unutmağa heç vaxt yol verməyəsiniz. Qayıdarsınız, gedərsiniz, öz evinizi bərpa edərsiniz, komanızı düzəldərsiniz, bundan sonra ya özünüz, yaxud uşaqlarınız gələr, yenə də Bakıda oxuyar, təhsil alar, böyük işə keçər. Bu, təbiidir. İndiyə qədər olduğu kimi, elə də olmalıdır. Güman edirəm siz, məni anlayırsınız...».

Heydər Əliyev sonralar çox təəssüf hissi ilə deyirdi ki, o vaxt Şuşada keçirilən tədbirlər zamanı mənim yanımda olan,

etdiklərimizi gözləri ilə görən vəzifəlilər, məni qar islatmasın deyə başımın üstünə çətir tutanlar sonralar bunları unutdular, dandılar, başqa istiqamətlərə yozdular.

Öz şəxsi mənafelərini xalqın taleyindən üstün tutanlar Şuşanı, Qarabağı əhali ilə möhkəmləndirmək əvəzinə, oraya pənah gətirənləri də çıxarıb, respublikanın hər yerinə səpələdilər. Müharibə dövründə bu da xalqımıza ağır bir zərbə oldu.

Respublikanın Ali Sovetində etdiyim sonrakı çıxışlarımda da bir neçə dəfə təklif etdim ki, gəlin bir daha ictimai-siyasi durumu təhlil edək. Mənə isə cavab verirdilər ki, Dağlıq Qarabağ heç vaxt indiki qədər bizim olmayıbdır. Həqiqət isə ondan ibarət idi ki, vaxtilə Sovet İttifaqının rəhbərlərindən biri olduğuma görə, öz siyasi təcrübəmə əsaslanaraq yaxşı anlayırdım ki, mənim xalqımı uçuruma, fəlakətə aparırlar».[146]

Azərbaycanın müstəqilliyinə qısqanclıqla yanaşan qonşu dövlətlərin irticaçı qüvvələrinin köməkliyi ilə Ermənistan silahlı qüvvələri Azərbaycanın 20% ərazisini zəbt etdi. İllər keçməsinə baxmayaraq, həmin torpaqlar hələ də işğal altındadır.

Beləliklə, Ermənistan Respublikası işğalçı müharibə nəticəsində Azərbaycan Respublikasının 360 km-lik sərhədini pozmuş, Füzuli rayonundakı Horadiz qəsəbəsindən Zəngilanadək 198 kilometrlik Azərbaycan-İran sərhədini nəzarət altına almışdır. Erməni işğalı nəticəsində Dağlıq Qarabağın 2 şəhər, 1 qəsəbə, 53 kəndində yaşayan 50 minədək azərbaycanlı öz doğma torpaqlarından, ev-eşiyindən qovulub çıxarılmışdır. Tarixi Qərbi Azərbaycan torpaqlarından (indiki Ermənistan Respublikası), Dağlıq Qarabağ və onun ətrafındakı rayonlardan 1 milyonadək azərbaycanlı deportasiya edilmiş, qaçqın və məcburi köşkünə çevrilmişdir. Ermənistan hərbi qüvvələri Azərbaycan Respublikasına məxsus 890 şəhər, kənd və qəsəbəni, 102 min yaşayış evini, 7 min ictimai binanı, 693 ümumtəhsil məktəbini, 695 səhiyyə ocağını, 800 km avtomobil yollarını, 160 körpünü, 23000 km su kəmərini, 156 min ha əkin sahəsini, 464 tarixi abidə və muzeyləri

zəbt etmiş, qarət etmiş, yandırmış, dağıtmış, məhv etmişdir.

Heydər Əliyev Azərbaycanın tarixi taleyi ilə bağlı prosesləri, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələləri ətraflı və konkret təhlil edərək, 2000-ci il dekabrın 29-da «Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında» müraciətində aydınlıq gətirmişdir. Müraciətdə deyilirdi:

«1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin iclasındakı çıxışımda respublikada o dövrdə yaranmış gərgin vəziyyəti, mövcud olan dərin siyasi böhranı şərh edərək, təxirəsalınmaz tədbirlərin gerçəkləşdirilməsindən, o cümlədən Bakıda fövqəladə vəziyyətin ləğv edilməsindən, Dağlıq Qarabağ probleminin tədricən Dağlıq Qarabağ faciəsinə çevrilməsi təhlükəsindən, Azərbaycan Kommunist Partiyasının ləğv edilməsinin zəruriliyindən söz açdım. Tarixə nəzər salarkən qeyd etdim ki, Azərbaycan xalqı 20-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Biz 1922-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Bu məsələyə tələm-tələsik baxmaq olmaz. Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması - məsələnin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması - məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq. Ona görə də biz gərək təhlil edək: nə cür oldu ki, biz Dağlıq Qarabağı əldən verdik. Üç il bundan qabaq Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi. Pis idi, yaxşı idi - Azərbaycanın tərkibində idi. Düzdür, Dağlıq Qarabağ məsələsi 1920-ci ildən başlanıb. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaranıb. Sonra-

kı illərdə bu məsələ erməni millətçiləri tərəfindən qaldırılıb. Ancaq gəlin tarixə düzgün qiymət verək. Gəlin etiraf edək ki, o dövrlərdə erməni millətçilərinin qarşısı alınmışdı.

Bəs nə cür oldu ki, respublikamız bu qədər böyüdü, yüksəldi, nüfuz qazandı, ölkədə, dünyada tanındı, lakin 1988-ci ildə Azərbaycan torpağının bir hissəsi əlindən getdi? Bu sualları qaldıraraq mən Ali Soveti, bütün qüvvələri, bütün Azərbaycan vətəndaşlarını hərtərəfli və konstruktiv bir proqram hazırlamağa çağırırdım. O dövrdə tam aydın idi ki, 1988-ci ildən başlayaraq hadisələri Azərbaycan xalqının iradəsi yox, erməni separatçıları idarə edirdilər. Hadisələr gerçəkləşdikdən sonra tədbirlər haqqında fikirləşməyə başlayan daim uduzur. Erməni separatçıları monolit bir qüvvə olaraq, ümummilli bir platforma səviyyəsində düşünülmüş addımlar ataraq, Dağlıq Qarabağı Azərbaycandan təcrid etmək yolunda hər gün yeni uğurlar qazanırdılar. Bunun müqabilində, o dövrdə təəssüf ki, heç bir qüvvə Azərbaycanda adekvat və konstruktiv addımlar atmağa qadir olmadı. Faciənin köklərini məhz burada axtarmaq lazımdır.

Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tabeliyindən çıxarmaq yolunda mərkəzin atdığı növbəti addım SSRİ Ali Soveti Rəyasət Heyətinin muxtar vilayətdə xüsusi idarəetmə forması yaratmaq haqqında 1989-cu il yanvarın 12-də verdiyi fərman oldu. Dağlıq Qarabağın idarə olunması mərkəzin nümayəndəsi A.İ.Volskinin başçılığı ilə yaradılmış xüsusi idarəetmə komitəsinə həvalə edildi. Bu, faktik olaraq Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılması demək idi.

SSRİ rəhbərliyi qəbul etdiyi rəsmi sənədlərdə belə bir təsəvvür yaratmağa çalışırdı ki, o, regionda yaranmış vəziyyəti normallaşdırmaq üçün atdığı addımlarda həm Azərbaycana, həm də Ermənistana münasibətdə paritetlik mövqeyindən çıxış edir. Halbuki mərkəzin Azərbaycana, azərbaycanlılara qarşı qərəzli münasibəti açıq-aşkar

göz qabağında idi. Azərbaycanlılar hələ 1988-ci ildən əvvəl də SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələrində və Ermənistanın müxtəlif mətbu orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalırdılar. «Mənfi azərbaycanlı obrazı» yaratmaq həmin kompaniyanın əsas məqsədi idi. Bu, 1988-ci ildə Ermənistan SSR-də, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətində başlanmış kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi hesab edilə bilər. Ermənistanda yaşayan azərbaycanlıların misli görünməmiş qəddarlıqla ata-baba yurdlarını tərk etməyə məcbur edilmələri zamanı neçə-neçə soydaşımız, o cümlədən qocalar, qadınlar və uşaqlar qətlə yetirildi. SSRİ-nin rejimi - dövlət qurumları, hüquq mühafizə orqanları və kütləvi informasiya vasitələri Dağlıq Qarabağ probleminə olduqca böyük diqqət yetirdiyi halda, Azərbaycan xalqının böyük faciəsi tam sükutla müşayiət olundu. Azərbaycan rəhbərliyinin bu məsələdə tutduğu laqeyd mövqe isə öz xalqına qarşı əsl cinayət idi.

Ermənistan SSR Ali Soveti Azərbaycan rəhbərliyinin bu mövqeyindən «cəsarətlənərək», 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistan SSR ilə birləşməsi haqqında qərar qəbul etdi. 20 Yanvar hadisələrinə bir neçə gün qalmış, yəni 1990-cı il yanvarın 15-də isə SSRİ Ali Soveti Rəyasət Heyətinin «Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyətin elan olunması haqqında» fərmanı ilə əslində azərbaycanlıların Dağlıq Qarabağdakı ev-eşiklərinə qayıtmaq ümidlərinə də son qoyuldu. Fərmanın başlığından göründüyü kimi, muxtar vilayətin və «bəzi digər rayonların» kimə mənsub olması məsələsi də artıq sual altına qoyulurdu.

Mərkəzin Azərbaycana qarşı qərəzli siyasət yeritməsi, respublika rəhbərliyinin xalqın taleyinə açıq-aşkar laqeydlik nümayiş etdirməsi geniş xalq kütlələri içərisində qəzəb və etirazlara səbəb olurdu. Onlar get-gedə daha aydın şəkildə dərk edirdilər ki, Azərbaycan rəhbərliyi respublikanın, xalqın

taleyi ilə bağlı gedən oyunların qarşısını almaqda acizlik və qətiyyətsizlik göstərir, bəlkə də rəhbər mövqelərini qoruyub saxlamaq üçün mərkəzlə sövdələşərək, xalqa qarşı gizli xəyanətkar planlar həyata keçirir. Xalqın bütün məsuliyyəti öz üzərinə götürməkdən, bu xəyanətkar planların həyata keçirilməsinin qarşısını almaq üçün ayağa qalxmaqdan başqa bir yolu qalmamışdı...

Müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətin idi. Müstəqil dövlət taleyin xalqımıza bəxş etdiyi töhfə kimi xalqımızın əvəzsiz milli sərvəti olmaqla bərabər, onun rəhbərlərindən tutmuş hər bir vətəndaşı qarşısında böyük məsuliyyət qoyurdu. Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkə əhalisinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətin həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Lakin Azərbaycanın müstəqillik tarixinin ilk illərinə nəzər salsaq, müstəqil dövlətin qarşısında duran vəzifələrin heç də həmişə ardıcıllıqla və qətiyyətlə həyata keçirilmədiyinin şahidi oluruq. 1991-ci ildə və 1992-ci ilin birinci yarısında respublikaya rəhbərlik edən şəxslər dünyada və SSRİ-də gedən siyasi proseslərə, dünya hadisələrinin inkişaf meyllərinə tam zidd siyasət yeridərək, xalqın müstəqillik iradəsinin əksinə gedərək, bütün mümkün vasitələrlə SSRİ-ni qoruyub saxlamağa çalışanlarla bir mövqedə dayanır və nəyin bahasına olursa-olsun, Azərbaycanın bu dövlətin tərkibindən çıxmasına yol verməməyə cəhdlər göstərirdilər.

Müstəqillik yoluna qədəm qoymuş hər bir ölkə kimi,

Azərbaycan üçün də öz daxili və xarici siyasət konsepsiyasını təxirə salmadan hazırlayıb onun həyata keçirilməsinə başlamaq aktual və taleyüklü vəzifə idi. Təəssüf ki, 1991-1992-ci illərdə bu istiqamətdə heç bir iş aparılmadı. Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanda daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və respublikamızın daxilində qızğın hakimiyyət çəkişməsi gedirdi. Təbiidir ki, müxtəlif qüvvələrin özlərinə məxsus silahlı dəstələrdən istifadə edərək apardığı bu hakimiyyət mübarizəsi Azərbaycana böyük zərbələr vurdu.

Azərbaycanda siyasi proseslərin bu cür qorxulu və ziddiyyətli gedişi respublika rəhbərliyinin Azərbaycanın müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya aktı qəbul edilməndən sonra da müstəqil xətt yeritmədiyindən, ikiüzlü, qeyri-ardıcıl siyasət apardığından xəbər verirdi. Məhz o zamankı rəhbərliyin respublikanın real müstəqilliyi üçün əməli addımlar atmaması, xalq kütlələrinin artan narazılığını və etiraz səsini qulaq ardına vurması və bütün bu etirazları boğmağa çalışması həm Azərbaycanın müstəqil dövlət quruculuğunun sonrakı işlərini çətinləşdirmiş, təhlükəli istiqamətə yönəltmiş, həm də Dağlıq Qarabağ problemini çətin düyünə salaraq, bugünkü nəsil üçün ağır problemlər yaratmışdır.

SSRİ dağıldıqdan və Azərbaycan müstəqil dövlət statusu aldıqdan sonra da Mütəllibov hökuməti xarici və daxili siyasətində daha çox müstəqil Azərbaycan dövlətinin deyil, öz hakimiyyət maraqlarını qoruyur və bu məqsədlə də xarici dövlətlərlə münasibətlərdə birtərəfli siyasət yeridirdi. Bütün bunlar Azərbaycanın iqtisadi, siyasi maraqlarına, onun təhlükəsizliyinə, ərazi bütövlüyünə, suveren dövlət hüquqlarının reallaşmasına cavab vermirdi.

Təəssüflə qeyd etmək lazımdır ki, 1992-ci ilin martından may ayına qədərki dövrdə də Azərbaycanın müstəqil dövlətçilik maraqlarından irəli gələn ardıcıl, düşünülmüş

siyasət həyata keçirilmədi. Bu dövrdə Azərbaycanda başlanan hakimiyyət uğrunda silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır zərbələr vurdu. Azərbaycanın bu gün də həllinə nail ola bilmədiyi qlobal problemlər məhz həmin çoxhakimiyyətlik və ondan sonrakı hakimiyyət çəkişmələri dövründə yaradılmışdır. Həmin dövrü bütövlükdə Azərbaycanın müstəqillik tarixinin ən ziddiyyətli, ziyanlı və təhlükəli dövrü hesab etmək olar. Cəmi bir neçə ayda müstəqil Azərbaycan dövlətinə elə zərbələr vuruldu ki, bunun təsirini həm indiki nəsil hiss edir, həm də gələcək nəsillər onlardan uzun müddət xilas ola bilməyəcəklər. 1991-1992-ci illər ərzində Dağlıq Qarabağda vəziyyət günü-gündən gərginləşirdi. Xocalı faciəsi baş verdi. 1992-ci il martın 6-da Mütəllibov istefaya getməyə məcbur oldu. Əsl hərc-mərclik dövrü başlandı. Həmin vaxt xəyanət nəticəsində Şuşanın təslim edilməsi, 1992-ci il may ayının 15-də o zamankı müdafiə naziri Rəhim Qazıyevin Silahlı Qüvvələrin kvotası ilə bağlı Daşkənddə imzaladığı xəyanətkar saziş bütün Azərbaycan xalqının və onun silahlı qüvvələrinin bu gününə və gələcəyinə ömürlük zərbə vurmuşdur. O dövrdə yüzlərlə belə hallar baş vermişdir. Mayın 14-də Mütəllibov yenidən hakimiyyətə qayıtdı, mayın 15-də isə Xalq Cəbhəsi parlamentin binasına hücum təşkil etdi. Mayın 18-də parlament 4 gün əvvəl qəbul etdiyi öz qərarını qanunsuz elan etdi və beləliklə, Mütəllibovun bir daha hakimiyyətə qayıtmaq cəhdləri puç oldu.

1992-ci ilin may-iyun aylarında Cəbhə-Müsavat birliyi hakimiyyəti ələ aldı. Əslində bu, Azərbaycanda neobolşevizm abı-havasının bərqərar olmasına gətirib çıxartdı. İqtisadiyyatda başlanmış hərc-mərclik davam etdi. Respubli-kanın maddi ehtiyatları qəddarcasına talanır, malların xaricə satışı nəticəsində əldə olunan vəsait xarici banklarda kiminsə şəxsi hesabında yatıb qalırdı. Əhalinin böyük bir hissəsi yoxsulluq həddində yaşa-

yırdı. Azərbaycandan xaricə güclü intellektual axın başlandı və bir çox tanınmış alim, yazıçı, şair, incəsənət xadimi Türkiyəyə, İrana, Rusiyaya və başqa ölkələrə üz tuturdu. Azərbaycan dilinin adı dəyişdirildi və bununla dil haqqında Konstitusiya müddəası kobudcasına pozuldu.

Əgər Mütəllibovun hakimiyyəti dövründə ziddiyyətli daxili və xarici siyasət yeridilirdisə, dövlət idarəçiliyi Moskvanın diktəsi ilə aparılırdısa və hər şey SSRİ-nin bərpa olunmasına tabe edilirdisə, indi beynəlxalq siyasətin obyektiv reallıqlarına, Azərbaycan vətəndaşlarının istək və arzularına zidd, obyektiv gerçəkliyi nəzərə almayan, məqsəd və məramı aydın olmayan, dövlət üçün xüsusi təhlükə kəsb edən siyasət yeridilirdi.

Region dövlətləri və qonşularla əsassız gərginliyin yaradılması, Azərbaycanın daxilində etimadsızlıq mühitinin formalaşdırılması və digər hallar getdikcə çox ciddi zərərli nəticələr verirdi.

Bu dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət həm də ardıcıl, prinsipial bir kursun olmaması idi. Dövlət idarəçiliyi vahid bir konsepsiya və sistem əsasında deyil, ayrı-ayrı məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birini təkzib edən, ziddiyyətli və emosional çıxışlar üzərində qurulmuşdu.

Hakimiyyətdə olan siyasi qüvvələr tərəfindən tez-tez səsləndirilən məsuliyyətsiz bəyanatlar müstəqil Azərbaycan dövlətinin ali məqsədləri və vəzifələri, prinsipləri və istiqamətləri haqqında beynəlxalq aləmdə yanlış rəy yaradır, onun sivil dünya dövlətlərindən təcrid edilməsinə səbəb olurdu.

Ölkədə daxili vəziyyət gündən-günə pisləşir, respublikada nəinki siyasi, iqtisadi, sosial islahatlar aparılmır, demokratik hüquqi dövlət quruculuğu həyata keçirilmirdi, əksinə, bu iqtidarın atdığı bütün addımlar cəmiyyəti sonu görünməyən uçuruma doğru sürükləyirdi. Onların respubli-

kada yaratdığı ictimai-siyasi xaos, anarxiya, «dövlət raketçiliyi», zorakılıq ənənələri nəticə etibarilə milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına rəvac verirdi. Belə düşüncəsiz və səriştəsiz siyasət qısa vaxtda AXC-Müsavat hakimiyyətinin ölkə daxilində öz nüfuzunu büsbütün itirməsinə, ölkəmizin regionda və dünyada təklənməsinə, respublika ətrafında faktiki olaraq antiazərbaycan koalisiyasının formalaşmasına gətirib çıxardı. Bütün bunlar - Azərbaycanda dövlət quruculuğu sahəsində baş alıb gedən hərc-mərclik, özbaşınalıq, ayrı-ayrı dövlətlər və siyasi dairələr tərəfindən dəstəklənən siyasi qüvvələrin hakimiyyət uğrunda silahlı mübarizəsi, iqtisadiyyatın dağıdılması, milli sərvətlərin talan edilməsi, Sovet dövründə əldə olunmuş bütün nailiyyətlərdən kor-koranə imtina edilməsi ilə müşayiət olunurdu. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhv olma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi.

Xalq Cəbhəsinin daxilində keçmiş silahdaşlar arasında baş verən qarşıdurmalar Gəncə qiyamı ilə nəticələndi. Ölkədə mövcud olan dərin siyasi-iqtisadi və sosial böhran hakimiyyəti iflic vəziyyətinə gətirib çıxardı. Baş nazir, Milli Məclisin sədri, bütün güc nazirliklərinin rəhbərləri istefaya getdi. Ölkə heç bir qurum və ya şəxs tərəfindən idarə olunmurdu. Artıq 1993-cü ilin iyun ayında Azərbaycanda dərin siyasi və ictimai böhran hökm sürürdü.

Vəziyyət elə təhlükəli xarakter almışdı ki, 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan iradəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan «ölüm, ya olum» dilemması qarşısında qalmışdı.

Azərbaycanın Ermənistanla apardığı müharibədə hərbi

məğlubiyyətə uğramasının bir neçə xarici və daxili səbəbləri vardır. Bunların sırasında Rusiyanın və xarici ölkələrdəki erməni diasporunun Ermənistana göstərdiyi siyasi dəstəyi və yardımı xüsusilə qeyd etmək lazımdır. Azərbaycandan fərqli olaraq, Ermənistan hələ münaqişə başlanmazdan çox-çox əvvəl onun uğurla başa çatdırılması üçün böyük hazırlıq işləri aparmışdı. Dağlıq Qarabağ məsələsində «məzlum erməni xalqının haqlarının tapdalanması» haqqında fikirlər hər bir ermənինin beyninə yeridilərək, onun milli şüurunun hakim komponentinə çevrilmiş, bu məsələdə dünya ictimaiyyətini aldatmaqla onun rəğbətini qazanmaq məqsədi ilə genişmiqyaslı təbliğat işi aparılmışdı. Artıq münaqişə başlayanda Ermənistan Respublikasının rəhbərliyi Dağlıq Qarabağın Azərbaycandan ayrılması zərurəti barədə həm daxildə, həm də xaricdə istisnasız olaraq bütün ermənilərin yekdil rəyinə, birliyinə arxalanırdı. Digər tərəfdən, Ermənistanda ordu yaradılması, Dağlıq Qarabağ zonasında döyüş əməliyyatları aparmağa qadir olan silahlı dəstələr hazırlanması istiqamətində işlər çoxdan aparılırdı.

Azərbaycanda isə vəziyyət tam bambaşqa idi. O zamankı Azərbaycan rəhbərliyi Ermənistanda gedən prosesləri görə-görə nəinki dünya ictimaiyyətinə, heç öz xalqına da Dağlıq Qarabağ haqqında həqiqətləri, real vəziyyəti çatdırmaq niyyətində deyildi. Qorbaçovun bədnam «yenidənqurma» dövründə hakimiyyətə gətirilmiş Əbdürrəhman Vəzirov xalqa, onun milli mənafelərinə zidd siyasəti ilə Dağlıq Qarabağ məsələsində ermənilərı öz xəbis niyyətlərini həyata keçirməyə daha da həvəsləndirdi. Azərbaycan xalqının mübarizə əzmini qırmaq məqsədi ilə törədilmiş Qanlı yanvar hadisələrindən sonra Əbdürrəhman Vəzirov xalqın qəzəbindən qurtarmaq üçün Moskvaya qaçmalı oldu. Ondan sonra hakimiyyətə gələn Ayaz Mütəllibovun aqibəti də eyni cür oldu. Moskvanın göstərişlərini «sədaqətlə» yerinə yetirməkdə öz sələfindən fərqlənməyən Ayaz Mütəllibov ordu yaradılması

barədə xalqın tələblərinə məhəl qoymadı, yalnız öz himayəsi üçün silahlı dəstələr yaratdı. Bəli, o, öz hakimiyyətini daxildəki bəzi qüvvələrdən qorumağı Azərbaycan torpaqlarını erməni təcavüzündən müdafiə etməkdən üstün tutdu. Nəticədə, o da Moskvaya qaçmalı oldu. Hakimiyyətə yeni qüvvələr - Xalq Cəbhəsi gəldi. Az keçmədi ki, Əbülfəz Elçibəy hakimiyyəti də öz səriştəsizliyi, orada təmsil olunan qüvvələrin böyük şəxsi ambisiyaları üzündən ölkəni uçurum astanasına gətirib çıxardı. Hərc-mərcliyin baş alıb getdiyi Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çatdı. Vəziyyəti nizama salmaqda aciz olan Əbülfəz Elçibəy də gizlicə baş götürüb Kələkiyə getdi. Üç başçı və üç qaçış...»[147].

3.5. Azərbaycan Respublikası Prezidentinin «Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqələrinin elan edilməsi haqqında» fərmanı

1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımını törətmişlər. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə qərara alıram:

Hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilsin.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 fevral 1997-ci il.

3.6. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» fərmanı

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsil qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək, ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında «Erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu, «Böyük Ermənistan» ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına «bəraət qazandırmaq məqsədi ilə» erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək, azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən bütün Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakıdan başqa Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın digər bölgələrində də xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi

ilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədi ilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kompaniyasına başladılar. Onlar keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda, onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. «Yazıq, məzlum er-

məni xalqı» görüntüsü yaradılaraq, əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qürurunu və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını

və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq, 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədi ilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı öldürüldü.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının oldürülməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq, bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi, Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarlarının məntiqi davamı olaraq, soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədi ilə qərara alıram:

1. 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, Azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.
Bakı şəhəri, 26 mart 1998-ci il[149]

IV FƏSİL

ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ MƏSƏLƏSİNİN HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN BEYNƏLXALQ MÜSTƏVİYƏ ÇIXARILMASI

4.1. Münaqişənin həlli məsələsi beynəlxalq müzakirələrdə

1980-ci ilin sonlarından Ermənistan SSR-in Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətininə əsasız olaraq ərazi iddialarının yenidən canlanması Azərbaycan SSR ilə münaqişənin, 1991-ci ildən isə Qarabağ müharibəsinin başlanmasına səbəb oldu. Beynəlxalq təşkilatlar bu problemə yalnız 1992-ci ildən, yəni Qarabağda döyüş əməliyyatlarının kəskin xarakter almasından sonra münasibət bildirdi. Münaqişəsinin dayandırılmasında və onun birdəfəlik aradan qaldırılmasında bir sıra beynəlxalq qurumlar, o cümlədən ATƏM böyük imkanlara malik idi. Lakin 1992-ci ildən bu təşkilata üzv olan Azərbaycan Respublikasının bu imkanlardan lazımınca yararlanmayan o zamankı rəhbərliyinin səriştəsizliyi və siyasi səbatsızlığından irəli gələn siyasəti səbəbindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kimi çox ağır bir problemin həlli məsələsi uğursuzluqla qarşılaşdı.

Şübhəsiz, hakimiyyətin münaqişənin həllində beynəlxalq təşkilatların rolunu düzgün qiymətləndirə bilməməsi uğurla nəticələnə bilməzdi. Təcrübəsizlikdən belə bir düşüncə hökm sürürdü ki, Dağlıq Qarabağ münaqişəsini daxili siyasətlə həll etmək mümkündür.

Ancaq beynəlxalq təşkilatların nüfuzundan istifadə etmədən Ermənistanın təcavüzünün qarşısını almaq, süni ya-

radılmış Dağlıq Qarabağ problemini həll etmək mümkün deyildi. Bu amili nəzərə almadan aparılan mübarizənin nə ilə nəticələnəcəyini anlamaq belə çətin idi[149]. 1992-ci ilin yanvar ayında ABŞ prezidenti C.Buş və RF prezidenti B.Yeltsin birgə bəyanat verdilər. Bəyanatda deyilirdi: «Biz münaqişənin davam etməsini və kəskinləşməsini, yaşayış məntəqələrinin amansızcasına atəşə tutulmasını və bombardman edilməsini, qaçqınların sayının artmasını, blokadaların tətbiqini, girov götürülməsi və əsirlərlə vəhşicəsinə rəftar da daxil olmaqla, beynəlxalq humanitar hüququn pozulmasını narahatlıqla qeyd edirik. Bu əməllər sivil dövlətlər, BMT və beynəlxalq humanitar qurumlar tərəfindən ciddi diqqət yetirilməsini və pislənməsini tələb edir»[150].

Bəyanatda döyüş bölgəsində hərbi əməliyyatların dərhal dayandırılması, münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində qəti tədbirlərin görülməsinin zəruriliyi bildirilir, ATƏM-in Minsk konfransının çağırılması təklif olunur, münaqişədə iştirak edən hər iki tərəfdən problemi sülh yolu ilə aradan qaldırmaq təkidlə tələb edilirdi.

Münaqişənin sülh yolu ilə həllinə maraqlı dövlətlərdən biri olduğunu bəyan etməsinə baxmayaraq, Rusiya Federasiyası obyektiv mövqe tutaraq Azərbaycanın sərhədlərini pozan, torpaqlarını işğal edən Ermənistan Respublikasına təzyiq göstərməkdənsə, ona müxtəlif yollarla yardımlar edirdi. Ermənistan Respublikası isə məqsədli şəkildə edilən bu yardımlardan şirniklənərək işğalı davam etdirirdi.

Azərbaycan Respublikası hökumətinin xarici siyasət fəaliyyətinin zəifliyi üzündən Avropanın ən böyük dövlətlərinin siyasətçiləri və yüksək vəzifəli şəxsləri regionda baş verən proseslərlə bağlı obyektiv məlumatlara malik olmadıqları üçün hadisələri etnik zəmində baş verən münaqişə kimi başa düşürdülər. Halbuki, bu, etnik zəmidə baş verən münaqişə şəklində təqdim edilən, əslində isə mahiyyətcə ərazi iddialarından ibarət olan və etnik təmizləmə ilə davam etdi-

rilən işğalçılıq siyasəti idi. Güclü erməni təbliğatının qarşılığında Azərbaycan Respublikasının səsi eşidilmirdi. Dünya ictimaiyyəti Azərbaycan xalqının öz torpaqlarının müdafiəsi üçün apardığı mübarizəni ermənilərin sıxışdırılması kimi dərk edirdilər.

Beynəlxalq təşkilatlardan fərqli olaraq, münaqişənin ilk dövrlərində bir sıra dövlətlər onun dayandırılmasına təşəbbüs göstərirdilər. Belə təşəbbüslərdən biri 1990-cı ildə Qazaxıstanın təklifi və iştirakı ilə Jeleznovodskda keçirilən görüşdə bəyannamənin imzalanması idi.

1992-ci ilin avqust ayında isə münaqişənin aradan qaldırılmasına dair növbəti görüş keçirildi. Üç respublikanın – Qazaxıstan, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin iştirakı ilə keçirilən bu görüşdə Ermənistan-Azərbaycan sərhədi boyunca atəşin dayandırılmasına dair sənəd imzalandı. 1992-ci il sentyabrın 1-də imzalanmış sənəd atəşin dayandırılmasına səbəb oldu. Eyni zamanda, iki gün sonra tərəflər razılığa gəldilər ki, gələcəkdə də Qazaxıstanın vasitəçiliyi ilə problemin həllinə dair işləri davam etdirsinlər.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ən böyük beynəlxalq təşkilat olan BMT-nin fəaliyyəti 1992-ci il oktyabrın 1-dən başladı. BMT Baş Məclisinin sessiyasında təşkilatın Azərbaycan Respublikasında müvəqqəti nümayəndəliyinin açılması haqqında saziş imzalandı. Sessiyanın gedişində dünya siyasətçilərinin diqqətinə çatdırıldı ki, Ermənistan Respublikası Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürmüş, bu əraziləri hərb yolu ilə ələ keçirmək üçün müharibəyə başlamışdır.

Moskvada Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında 1992-ci il oktyabr ayının 12-də dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik sahəsində tərəfdaşlığın bundan sonra da davam etdirilməsini nəzərdə tutan müqavilə imzalandı. O zaman B.Yeltsin bildirirdi ki, Rusiya Federasiyası Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdardır. Problemin həlli

ilə bağlı danışıqlar prosesinə ABŞ, Fransa və Almaniyanın dövlət rəhbərləri Corc Buş, Fransua Mitteran və Helmut Kolun cəlb edilməsi məqbul sayıldı.

Müqaviləyə görə, Qarabağda döyüş əməliyyatlarının kəskinləşdiyi bir vaxtda, vəziyyəti yaxından izləmək üçün bu ərazidə Rusiya Federasiyası, Ukrayna, Qazaxıstan və Belarusdan olan müşahidəçilərin yerləşdirilməsi barədə razılıq əldə edildi. Lakin Ermənistan Respublikası hökuməti bölgəyə BMT müşahidəçilərinin cəlb olunması təklifi ilə çıxış edərək, bu missiyanın həyata keçirilməsinə mane oldu.

Münaqişənin aradan qaldırılması məqsədi ilə ATƏM münaqişə tərəfləri arasında danışıqlar prosesini gücləndirmək və intensivləşdirmək üçün fəaliyyətini artırdı. Lakin Azərbaycan Respublikasının siyasi rəhbərliyi məsələyə bu cür yanaşmanı məqbul hesab etmirdi. Onlar bölgəyə gələn yeni müşahidəçilərdən ibarət qrupun və ya digər hər hansı nümayəndə heyətinin yeni təkliflər verməsi ilə imzalanacaq yeni sazişin və bunların həyata keçirilməsi üçün hazırlanacaq mexanizmlərin danışıqlar prosesinin uzanmasına gətirib çıxaracağını və bununla da sülhə nail olunmasında çətinlik yaranacağını düşünürdülər.

ATƏM-ə yardım etmək üçün BMT katibliyinin yüksək vəzifəli şəxsi X.Hortmanın Azərbaycan Respublikasına göndərilməsi və BMT-nin Azərbaycan Respublikasıdakı nümayəndəsi ilə Dağlıq Qarabağa səfər etməsinin əsas səbəbi baş verən hadisələrə yaxından bələd olmaq və münaqişənin aradan qaldırılması üçün məlumat toplamaq idi.

Lakin 1992-ci il dekabrın 10-da Ermənistan ordusu Zəngilan və Qubadlı rayonlarının kəndlərini atəşə məruz qoydu. Azərbaycan Respublikası hökuməti Ermənistan Respublikasına qarşı beynəlxalq qurumların nizamnamələrində nəzərdə tutulmuş sanksiyaların tətbiq edilməsi barədə ATƏM-in Stokholmda keçiriləcək sessiyasında baxılması üçün müraciət etdi.

Bu barədə Türkiyə Cümhuriyyəti NATO, ATƏM və BMT-ni məlumatlandırdı. Eyni zamanda, Türkiyə hökuməti Ermənistanın bu hərəkətləri ilə bağlı öz narahatlığını Ermənistan hökumətinin nümayəndələrinə də bildirdi.

BMT, əsasən tərəfləri sülh danışıqlarına cəlb etməklə, bölgədə getdikcə artan gərginliyin qarşısını almağa, bunun üçün bölgədə sülhməramlı qüvvələrin yerləşdirilməsinə çalışırdı. BMT rəhbərliyi hesab edirdi ki, ATƏM çərçivəsində münaqişənin aradan qaldırılmasına dair xüsusi qrupun yaradılmasına ehtiyac vardır. Sülhməramlı qüvvələrin yerləşdirilməsi münaqişə tərəflərinin razılığı olmadan mümkün deyildir.

1992-ci ilin dekabr ayında ATƏM Şurasının Stokholmda keçirilən sessiyasında qəbul edilmiş «Nəticələrin xülasəsi» adlı sənəddə bir sıra məhəlli problemlərin həlli məsələsinə toxunulurdu. Burada keçmiş SSRİ məkanında yaranmış dövlətlərin ərazisində baş verən münaqişələrin danışıqlar yolu ilə aradan qaldırılmasının vacibliyi bildirilirdi. Azərbaycan Respublikasının bu sessiyadan müsbət nəticələr gözləməsinə baxmayaraq, digər problemlərin həlli ilə bağlı məsələlər müzakirə edildiyi halda, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsinə imkan verilmədi. Stokholm görüşü ərəfəsində Ermənistan silahlı qüvvələrinin Qubadlı və Zəngilan rayonlarını güclü atəşə tutması Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hər hansı bir qərarın qəbul və ya elan edilməsinə imkan vermədi. Stokholm görüşündən mühüm bir nəticənin gözlənilməsi də sadəlövhlük olardı. Çünki qərar çıxarılması, münaqişə tərəflərinin hər ikisinin razılığından sonra mümkün idi və amma sözsüz ki, Ermənistan buna razı olmayacaqdı.

Sessiyada ATƏM-in Helsinki Vətəndaş Assambleyası çərçivəsində ekspert komissiyası yaradılması barədə qərar qəbul olundu. Bu komissiya münaqişədə iştirak edən tərəflər arasında vəziyyəti gərginləşdirməyə çalışan təxribatçı qüv-

vələrin aşkara çıxarılması vəzifəsini yerinə yetirməli idi ki, lakin bu da sonrakı proseslərdə obyektiv bir qərar çıxarılmasına nail olunmadı.

1993-cü ilin yanvar ayında ABŞ və Rusiya Federasiyası prezidentləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birgə bəyanat verdilər. Bu, Heydər Əliyevin Ağ evə ünvanladığı məktubun güclü reaksiya doğurması ilə bağlı idi. Prezidentlər münaqişənin həlli üçün tezliklə ATƏM-in Minsk konfransının çağırılmasına tərəfdar olduqlarını bildirdilər.[151]

ABŞ 1993-cü ilin əvvəllərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dəfələrlə Ermənistan Respublikasının mövqeyini əks etdirən, onu münaqişədə haqlı hesab edən bəyanatlar yaydı, bu ölkəyə həm mənəvi, həm siyasi, həm də maddi yardım göstərdi.

Heydər Əliyevin 1993-cü ilin iyun ayında siyasi hakimiyyətə gəlməsi təkcə xalqın deyil, həm də zamanın tələbi idi. AMEA-nın müxbir üzvü Yaqub Mahmudov həmin dövrün ümumi vəziyyətini belə şərh edir: «1993-cü ildə daxili və xarici düşmənlər Azərbaycan dövlətçiliyini yox olmaq həddinə çatdırmışdılar. Vətənimiz bir dövlət kimi, Qafqazın siyasi xəritəsindən silinmək üzrə idi. Lakin Ulu Tanrının ağır sınaq günümüz üçün qoruyub saxladığı qüdrətli tarixi şəxsiyyətimiz xalqın arzusu və təkidi ilə mübarizə meydanına atıldı. Heydər Əliyev Qurtuluş mübarizəsinin qalibi oldu. Yoxluqdan varlığa çevrildik...»[152].

Heydər Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün, dövlət müstəqilliyinin əbədi və dönməzliyinin təmin edilməsilə bağlı olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda gərgin mübarizəyə başladı. O, ATƏT-in sədrləri, Minsk qrupunun həmsədrləri, habelə bir çox başqa dövlət xadimləri ilə görüşlərdə və danışıqlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini ön sıraya çıxarmağa nail oldu.

Prezident Heydər Əliyevin dünya ölkələrinə səfərləri zamanı dövlət və hökumət başçıları ilə, digər qurumların rəhbərləri ilə müxtəlif səviyyəli görüşlərində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və tezliklə həll edilməsinə dair fikirləri söhbətlərin əsas mövzusunu təşkil edirdi.

Ardıcıl olaraq Fransaya, Türkiyə və ABŞ-a rəsmi səfərlər edən Azərbaycan Respublikasının Prezidenti görüşlərin hamısında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normalarına uyğun şəkildə həlli tələbini irəli sürürdü.

Azərbaycan Respublikası 1993-cü ilin ikinci yarısından hərtərəfli düşünülmüş, aydın, ardıcıl və prinsipial siyasət yeritməyə başladı. Məhz bu dövrdən etibarən Prezident Heydər Əliyev respublikamızın müstəqillik və təhlükəsizlik problemlərini beynəlxalq təşkilatlar vasitəsilə ümumavropa təhlükəsizliyi fonuna çıxararaq, regionda sülhün bərqərar olmasına onların təsir etməsini sürətləndirdi. Xüsusən, Azərbaycan Respublikasının cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində dövlət başçısı özünün əsas diqqət və səylərini münaqişə haqqında əsil həqiqətlərin dünyanın siyasi dairələrinə və dünya ictimaiyyətinə çatdırılmasına, Ermənistanın təcavüzkar kimi tanıdılmasına, Azərbaycan Respublikasını dəstəkləyən ölkələrin sayının artırılmasına, beynəlxalq və məhəlli təşkilatlarda münaqişənin həlli yollarına dair qərarlar qəbul edilməsinə nail oldu[153].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin diplomatiyasının çevikliyi və məqsədyönlülüyü nəticasində Avropa Birliyinin, NATO-nun, ATƏT-in və digər beynəlxalq və regional qurumların bir çox üzvləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələləsində Azərbaycan Respublikasını dəstəklədi.

Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsində 1993-cü ilin martında Bakıya səfər edən Tür-

kiyə Cümhuriyyətinin xarici işlər naziri Hikmət Çətinin apardığı diplomatik danışıqlar mühüm rol oynamışdı. Türkiyəli nazir Bakıya gəlməmişdən əvvəl münaqişənin dərinləşməsində bilavasitə maraqlı olan Moskvada RF xarici işlər naziri A.Kozırevlə görüşmüş və problemin sülh yolu ilə həlli mexanizminin işlənib hazırlanmasına dair hər iki ölkənin tutduğu mövqeyə aydınlıq gətirilmişdi. Ermənistan hərbi birləşmələrinin işğal etdikləri Azərbaycan torpaqlarından çıxarılması məsələsi də danışıqların əsas predmeti olmuşdu.[154] İlk dəfə idi ki, beynəlxalq təşkilatların diqqətini problemin həllinə cəlb etməyin vacibliyi önə çəkilirdi. Yuxarı Qarabağın Azərbaycan torpağı olması və Ermənistan qoşunlarının zəbt edilmiş ərazilərdən çıxarılması barədə fikirlər üst-üstə düşürdü. Hikmət Çətinin təkidi ilə bölgədə sülhün bərqərar olması üçün proqram qəbul edilməsi üzərində fikir mübadiləsi aparıldı. Bu zaman münaqişənin sona çatması üçün Ermənistan Respublikası da maraq göstərdi. [155]

Azərbaycan və Ermənistan Respublikaları nümayəndələrinin 1993-cü il aprelin 8-də Rusiya Federasiyasının müdafiə naziri P.Qraçovun vasitəçiliyi ilə Soçidə BMT TŞ-nin qəbul etdiyi 822 nömrəli qətnaməsinin tələblərinə əsasən, Ermənistan silahlı birləşmələrinin Kəlbəcər rayonundan çıxarılması ilə bağlı danışıqlar davam etdirildi. Bundan sonra sülh danışıqlarını davam etdirmək üçün hərbi əməliyyatların dayandırılması ilə bağlı məsələlər ətrafında geniş müzakirələr aparıldı. Lakin görüşdə heç bir müsbət nəticə əldə olunmadı.[156] İştirakçılar danışıqları Moskvada davam etdirməyi qərara aldılar.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində göstərilən səylərin heç bir nəticə verməməsi Azərbaycan cəmiyyətində müharibə ab-havasının artmasına səbəb oldu. Bu isə münaqişənin həlli ilə bağlı məsuliyyəti öz üzərinə götürən ATƏM-in Minsk qrupunu və dünyanın bir çox aparıcı dövlətlərini narahat edirdi. Ona görə

də onlar bu münaqişənin hərbi yolla həllinin mümkün olmayacağını vurğulayırdılar. Problemin aradan qaldırılması məsələsini heç kimin öhdəsinə buraxmaq istəməyən Rusiya Federasiyası ilə ABŞ arasında ziddiyyətlər yarandı. Qərbin bir sıra iri dövlətləri də bu məsələdə ABŞ-ı dəstəkladılər.

Vasitəçilik missiyasını öz üzərinə götürən ATƏM-in təkbaşına deyil, bu işdə maraqlı olan ABŞ, Türkiyə, Rusiya və digər ölkələrlə birgə fəaliyyət göstərməsinin, onların təşəbbüslərindən və vasitəçilik səylərindən yararlanmasının zəruriliyi də vurğulanırdı.

Türkiyə Cümhuriyyətinin vasitəçilik təşəbbüsü Ermənistan tərəfinin "problemin daha da düyünə düşəcəyi" düşüncəsi ilə qəbul edilmədi.

BMT Təhlükəsizlik Şurasının üzvü olan 15 dövlətin nümayəndələrinin iştirakı ilə qəbul edilmiş qətnamə münaqişə tərəflərini problemin ATƏM-in Minsk qrupu çərçivəsində aradan qaldırılması məqsədi ilə danışıqları davam etdirməyə, habelə münaqişənin sülh yolu ilə həllinə mane olan hərəkətlərə yol verməməyə çağırırdı. Münaqişə bölgəsində-ki vəziyyətə obyektiv qiymət verilməsi məqsədilə BMT-nin ali icraedici orqanları ilə ATƏM və onun Minsk qrupunun fəaliyyətdə olan sədrləri arasında birgə məsləhətləşmələrin aparılması və gəlinən nəticələr barədə Təhlükəsizlik Şurasına məruzə təqdim olunmasına dair təvsiyə də qətnamədə öz əksini tapmışdı. Bu, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində beynəlxalq qurumların səylərinin birləşdirilməsi kimi çox vacib bir başlanğıc idi. Lakin bütün səylərə baxmayaraq, Ermənistan tərəfi hər dəfə qeyri-konstruktiv mövqe nümayiş etdirməklə təklifləri imzalamaqdan imtina etdi. Təhlükəsizlik Şurasının qətnaməsinin tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə ATƏM–in Minsk qrupunun üzvü olan 9 dövlətin nümayəndələrinin Romada 3-4-iyunda keçirdikləri müşavirədə Mario Rafaellinin rəhbərliyi ilə hazırlanan «təcili tədbirlər cədvə-

li»ni Azərbaycan Respublikası və Ermənistan Respublikası hökumətinə göndərdilər.[157]

Roma müşavirəsindən bir neçə gün sonra, yəni 1993-cü il iyunun 8-də Moskvada Rusiya və Azərbaycan xarici işlər nazirləri arasında keçirilən görüşdə A.Kozırevin Rusiya Federasiyasının «Dağlıq Qarabağ Respublikası»nı tanımadığını və Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini bəyan etməsi onu göstərirdi ki, regionun iri dövlətlərindən biri olan Rusiya Federasiyası münaqişənin həllinə tərəfdardır. Bunun, eyni zamanda, bir sıra iri dövlətlərin öz siyasi maraqlarından irəli gəldiyini düşünməmək düzgün olmazdı.

ATƏM-in 1992-ci ildə Helsinkidə keçirilmiş birinci zirvə görüşündə Azərbaycana (Ermənistanın Azərbaycana qarşı - Q.Ə) hərbi təcavüzü hətta gündəliyə də salınmamışdı[158]. Bu, hər şeydən əvvəl Azərbaycan nümayəndə heyətinin təcrübəsizliyi, ikincisi, beynəlxalq təşkilatın özünün laqeydliyi, üçüncüsü, erməni tərəfinin güclü təbliğatı ilə bağlı idi.

Heydər Əliyev hələ Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işləyərkən o zamankı Azərbaycan rəhbərliyini ermənilərin beynəlxalq aləmdə Azərbaycana qarşı apardığı təbliğat və informasiya müharibəsinin çox təhlükəli olmasına və bunun ağır nəticələrə gətirə biləcəyinə dair dəfələrlə xəbərdar etmişdi.[159] Lakin vaxtında qarşısı alınmadığı üçün erməni təbliğatı ağır nəticələrə gətirib çıxardı.

Münaqişənin sülh yolu ilə nizama salınmasının tərəfdarı olan Azərbaycan Respublikası hökuməti dünya dövlətləri rəhbərlərini, BMT, ATƏM və digər nüfuzlu beynəlxalq təşkilatları Ermənistan Respublikasının təcavüzünü qətiyyətlə pisləməyə, işğalçı dövləti cilovlamaq məqsədilə təcili, təsirli və qəti tədbirlər görməyə çağırırdı.

Heydər Əliyevin hələ Azərbaycan Respublikasi Prezidentinin səlahiyyətlərini həyata keçirərkən - 1993-cü il iyulun 2-də verdiyi bəyanatda deyilirdi: «İyunun 12-dən etibarən Ermənistan Respublikasının hərbi qüvvələri Ağdam və Ağ-

dərə istiqamətlərində hücum edərək, Ağdərə rayon mərkəzini və bir neçə kəndimizi ələ keçiriblər. Qarabağ bölgəsinə daxil olmayan Gədəbəy rayonu da intensiv hərbi hücumlara məruz qalıb. Görülən müdafiə tədbirləri nəticəsində həmin hücumların qarşısı alındı və iki-üç gün bundan qabaq atəş müəyyən qədər dayandırıldı. Lakin iyulun 1-də Ermənistan Respublikası hərbi qüvvələri Azərbaycanın digər bir bölgəsinə – Füzuli və Cəbrayıl rayonlarına güclü hücum etdilər. Nəticədə bir neçə kəndimiz ələ keçirilmiş, bəziləri vəhşicəsinə yandırılmışdır, dinc sakinlər arasında həlak olanlar var.

Azərbaycanda olan 500 mindən çox qaçqın sırasına son hücumlar nəticəsində ev-eşiyindən məhrum olmuş daha minlərlə soydaşımız əlavə olunmuşdur. ABŞ, Rusiya Federasiyası və Türkiyənin münaqişəyə dinc vasitələrlə son qoyulmasına dair təşəbbüsünün, BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsinin elan olunduğu və ümumiyyətlə, bu qanlı savaşın qarşısının alınmasına müəyyən ümidlər yarandığı bir vaxtda Ermənistan Respublikasının bu təcavüzkar hərəkətləri vəziyyətin xeyli kəskinləşməsinə səbəb olmuşdur. Güman edirəm ki, beynəlxalq ictimaiyyət və bütün dövlətlər bu təcavüzü qətiyyətlə pisləməlidir. Azərbaycan dövləti adından bir daha bəyan etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının, Rusiya Federasiyası və Türkiyənin təşəbbüsü ilə ATƏM çərçivəsində göstərilən bütün cəhdlərin və qəbul olunmuş qərarların tərəfdarıyıq. Azərbaycan Respublikası ATƏM Minsk konfransının sədri cənab M.Rafaellinin başçılığı ilə göstərilən sülhməramlı cəhdləri alqışlayır və bunun həyata keçirilməsi üçün hər cür şərait yaradılacağına təminat verir, ümid edirəm ki, cənab Rafaellinin iyulun 5-də regiona səfəri «doqquzların» təşəbbüsünün reallaşmasına təkan verəcəkdir»[160].

Heydər Əliyev 1993-cü il 5 iyul tarixli bəyanatında bir daha bildirirdi: «1993-cü il 2 iyul tarixli bəyanatımda mən ABŞ, Rusiya Federasiyası, Türkiyə dövlətlərinin, BMT, ATƏM

və dünya ictimaiyyətinin diqqətini Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə intensiv hücumları ilə yaranmış vəziyyətə cəlb edərək, onları təcavüzün dayandırılması üçün lazımi tədbirlər görməyə çağırmışdım.

Qarabağ məsələsinin sülh yolu ilə həll olunması üçün təşəbbüskar olduqlarına görə bu dövlətlərin səyi ilə BMT Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsinin həyata keçirilməsinin zəruriliyi bildirilmişdi. Məlum olduğu kimi, ATƏM-in Minsk konfransının sədri cənab M.Rafaelli iyulun 5-də Azərbaycana gəlməli idi. Respublikanın rəhbərliyi cənab Rafaellini qarşılamağa hazırlaşaraq lazımi tədbirləri həyata keçirmiş və onun proqramını qəbul etmişdi. Çox böyük təəssüf və təəccüb hissiylə qeyd edirəm ki, buraya dəvət olunmuş dövlətlərin səfirləri, yəni onların təmsil etdikləri dövlətlər lazımi tədbirlər görməyiblər. Bunu bəyan edərək ona əsaslanıram ki, iyulun 2-dən sonra Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzkarlığı nəinki dayandırılmadı, hətta iyulun 3-4-dən daha da genişləndi.

Ona görə də bizə məlum deyil, ABŞ, Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti dövlətlərinin bu istiqamətdə fəaliyyətləri nədən ibarət olub? Bununla bərabər, biz cənab M.Rafaellinin Azərbaycana gəlməsinə çox böyük ümid bəsləyirdik. İnanırdıq ki, cənab Rafaellinin səfəri və nəzərdə tutulmuş proqramın həyata keçirilməsi Ermənistan qüvvələrinin hücumunu dayandıra biləcəkdir. Təəssüf ki, bu gün bizə məlumat çatıb ki, cənab M. Rafaelli Bakıya gəlməyəcəkdir və ümumiyyətlə səfərini təxirə salıbdır. Cənab M.Rafaellinin qəbul etdiyi qərarın səbəbləri bizə məlum deyildir. Onun bu addımını biz başa düşə bilmirik, belə qərardan narazılığımızı və narahatlığımızı bildiririk. Sonradan məlum oldu ki, cənab M.Rafaelli bu qərarını xarici agentliklərin ermənilərin guya Ağdamı tutması haqqında yaydığı məlumat əsasında qəbul edib. Əgər böyük siyasi, diplomatik addımlar ayrı-ayrı agentliklərin yaydığı qeyri-mötəbər və yoxlanılmamış infor-

masiyalar əsasında qəbul olunursa, bu, sadəcə olaraq, bizdə təəccüb doğurur və bunu anlaya bilmirik. Beləliklə, cənab M.Rafaellinin öz planından geri çəkilməsi və regiona nəzərdə tutulan çox əhəmiyyətli səfərini təxirə salması o deməkdir ki, Azərbaycanın ümid bəslədiyi ATƏM artıq özünü münaqişənin nizama salınması prosesindən kənara çəkərək təcrid edir və bizi Ermənistan ilə təkbətək vuruşmağa məcbur edir. Bu isə problemin dinc vasitələrlə həlli perspektivlərinə ciddi zərbə vurur və regionda müharibənin daha da şiddətlənməsi deməkdir. Belə bir vəziyyətlə barışmaq isə qətiyyən mümkün deyildir. Bunun qarşısını almaq üçün ABŞ, Rusiya Federasiyası, Türkiyə üzərlərinə götürdükləri missiyanı yerinə yetirməlidir və verdikləri vədlərə sadiq olmalıdır. Bu ölkələrin səfirlərinin iyul ayının 2-dən sonrakı vaxtda bu işə başladıkları münasibət bizi heç cür razı sala bilməz. Əgər böyük dövlətlər təşəbbüsü öz üzərlərinə götürüblərsə və onlar Azərbaycan hökumətini Qarabağ məsələsinin sülh yolu ilə həll olunmasına daim dəvət ediblərsə, onlar da öz öhdəliklərini yerinə yetirməlidir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasından xahiş edirik ki, məsələyə qarışsın, öz imkanlarından və səlahiyyətlərindən istifadə edib lazımi tədbirlər görsün.

İyul ayının 2-dən indiyədək Ermənistan silahlı qüvvələri tərəfindən aparılan hücumlar nəticəsində bir çox kəndlər və yaşayış yerləri əldən gedib, dağıdılıb, yandırılıbdır. Xeyli insan həlak olub, çoxları öz yaşayış yerlərini tərk ediblər və hazırda çöllərdə çox ağır vəziyyətdə yaşayırlar. Bunların hamısı, şübhəsiz, Ermənistanın məhz indi, bu günlərdə çox qəti təcavüzkar mövqedən çıxış etdiyini sübut edir. Bildirmək istəyirik ki, biz yenə də Ermənistan tərəfindən edilən hərbi təcavüzün qarşısını dinc yolla almaq üçün bütün imkanlardan istifadə etməyə çalışmışıq. Şəxsən mən bilavasitə Ermənistan rəhbərləri ilə, Rusiya Federasiyasının xüsusi tapşırıqlar üzrə səfiri V.Kazimirovla, ABŞ və Türkiyənin Azər-

baycandakı səfirləri ilə telefon danışıqları aparmışam, təcavüzün dərhal dayandırılmasını xahiş etmişəm, məsələnin asudə, sülh yolu ilə həllinə dəvət etmişəm. Təəssüf ki, bunlar nəticə verməyibdir və Ağdam, Füzuli, Cəbrayıl rayonları istiqamətində indi də qanlı döyüşlər davam etməkdədir.

Biz xahiş edirik ki, bu ağır vəziyyətdə hərə öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirsin. Heç kəs, o cümlədən burada iştirak edən xarici ölkələrin nümayəndələri də şübhə etməməlidirlər ki, bunların hamısı Ermənistan Respublikası silahlı qüvvələrinin təcavüzüdür və başqa cür qiymətləndirilə bilməz. Güman edirik ki, belə bir faciəli vəziyyətdə bu böyük dövlətlər gərək öz qəti tədbirlərini görsünlər. Bəyanatı bitirərək bir daha qeyd etmək istəyirik ki, biz cənab M.Rafaellinin təcili gəlməsini gözləyirik və Azərbaycan tərəfindən cənab Rafaellinin missiyasının həyata keçirilməsinə tam zəmanət veririk. Ancaq bu zəmanət ikitərəfli olmalıdır. Əgər doğrudan da Ermənistan və onun Dağlıq Qarabağda olan qüvvələri münaqişənin sülh yolu ilə həllini istəyirlərsə, onlar da buna zəmanət verməlidirlər. Üç böyük dövlət – ABŞ, Rusiya Federasiyası, Türkiyə və Birləşmiş Millətlər Təşkilatı bu zəmanətin cənab M.Rafaelliyə verilməsi üçün Ermənistan Respublikasına lazımi təsir göstərməlidir. Biz cənab M.Rafaellinin tezliklə gəlib işə başlamasını gözləyirik»[161].

1993-cü il iyulun 12-də Mario Rafaelli münaqişə tərəflərini «doqquzluğun» cədvəlini qəbul etməyə razı salmaq məqsədi ilə Bakı, İrəvan və Xankəndiyə səfər etdi. Bu zaman bir sıra dövlətlər öz siyasi mənafeləri naminə diplomatik fəaliyyətlərini artırdılar. 1993-cü il iyulun 20-də Heydər Əliyev Bakıya səfər edən Rusiya Federasiyası xarici işlər nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, Rusiya Federasiyasının Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə səlahiyyətli nümayəndəsi V.Kazimirovla münaqişəyə dair müzakirə apardı. Lakin Ermənistan ordusu iyulun 23-də Ağdam şəhərini işğal etdi. 24 iyul 1993-cü ildə Rusiya Federasiyası XİN Ağdam şə-

hərinin işğalı ilə bağlı bəyanat verdi.

Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə 1993-cü il 26 iyul tarixli müraciətində deyirdi: «1988-ci ildə Azərbaycan Respublikasının ərazisi olan Dağlıq Qarabağda azərbaycanlılarla yanaşı yaşayan ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi iddiaları ilə yaranan süni problem artıq müharibə şəklini alaraq, 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən Azərbaycan ərazilərinin zəbt edilməsinə gətirib çıxardı. 1992-ci il fevralın 26-da Xocalı, mayın 8-i və 18-də isə Şuşa və Laçın rayonları işğal edildi. Azərbaycan Respublikası hökumətinin münaqişənin dinc yollarla aradan qaldırılması sahəsindəki səylərinə baxmayaraq, Ermənistan tərəfi sülhün yaranmasına əngəllər törədir»[162].

Azərbaycan Respublikasının mövqeyinin beynəlxalq aləmdə müsbət qarşılanmamasının səbəblərindən biri də o idi ki, ABŞ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dəfələrlə Ermənistanın mövqeyini əks etdirən, onu münaqişədə haqlı hesab edən bəyanatlar yaydığı, bu ölkəyə həm mənəvi-siyasi, həm də maddi yardım göstərdiyi halda, Azərbaycana başqa münasibət göstərilirdi. Azərbaycana qarşı bu ögey münasibət 1993-cü ilin yayına qədər davam etdi və öz mənfi təsirini göstərdi. Lakin Heydər Əliyevin yenidən Azərbaycanda rəhbərliyə qayıtması münasibətlərdə köklü dəyişikliyə səbəb oldu. Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda gərgin mübarizəyə başladı. Heydər Əliyev Minsk qrupuna daxil olan ABŞ, Fransa və Rusiya Federasiyasının həmsədrləri, habelə bir çox başqa dövlət xadimləri ilə görüşdü, danışıqlar apardı və münaqişənin həlli məsələsini ön sıraya çıxarmağa nail oldu[163].

Heydər Əliyev düşünülmüş, aydın, ardıcıl və prinsipial siyasi xətlə respublikamızın ən ağrılı problemini beynəlxalq təşkilatlar vasitəsilə ümumavropa təhlükəsizliyi fonuna çı-

xardı, Azərbaycanın cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsil həqiqətlərin dünyanın siyasi dairələrinə və dünya ictimaiyyətinə çatdırılmasına nail oldu.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 1993-cü ilin iyulunda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) İstanbulda keçirilən iclasında da müzakirə olundu. Burada dövlət başçılarının imzaladıqları birgə bəyanatda deyilirdi: «Ermənistanın Azərbaycana qarşı təcavüzü BMT Nizamnaməsinin, beynəlxalq hüququn, insan haqları barədə ATƏM sənədlərinin prinsip və məqsədlərini pozur».

1993-cü il iyulun 26-da Heydər Əliyev erməni təcavüzünün qarşısının alınması məqsədilə təcili tədbirlər görülməsi üçün BMT Təhlükəsizlik Şurasının dərhal çağırılması xahişilə Təhlükəsizlik Şurasının sədrinə yazılı müraciəti ilə əlaqədar olaraq, iyulun 27-də ATƏM-in Minsk qrupunun sədri BMT-nin TŞ-na bu barədə məruzə etdi. Təhlükəsizlik Şurası 1993-cü il 29 iyul tarixlində BMT TŞ 853 nömrəli qətnamə qəbul etdi. Bu sənədlə ATƏM çərçivəsində həyata keçirilən sülh prosesinin, habelə ATƏM-in Minsk qrupunun daimi səylərinin tamamilə dəstəkləndiyi bir daha bəyan edilsə də, əməli bir tədbir görülmədi.

Təəssüflər olsun ki, nə ATƏT-in zirvə toplantılarının qərarları, nə də BMT Təhlükəsizlik Şurasının qətnamələri yalnız kağız üzərində qaldı.

1993-cü ildən başlayaraq, Rusiya Federasiyası XİN-in xüsusi tapşırıqlar üzrə səfiri V.Kazimirov bir-birinin ardınca irəli sürülmüş sülh planı layihələrini həyata keçirmək üçün canfəşanlıqla Moskva-Bakı-İrəvan-Xankəndi arasında hərəkətə başladı. Rusiya Federasiyasının müdafiə naziri P.Qraçovun bir neçə dəfə açıqcasına ATƏM-in vasitəçilik səylərinin mənasız olduğunu bəyan etməsi isə Rusiya Federasiyası hökumətinin başqa məqsəd güdməsindən xəbər verirdi. Münaqişə bölgəsində hərbi vəziyyətin süni surətdə pisləş-

məsinə nail olandan sonra Moskvanın Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair «sülh» planı ortaya qoyuldu. Burada məqsəd, əlbəttə ki, «sülh» yaratmaq deyildi, «sülh» pərdəsi altında Rusiya qoşunlarının sülhməramlı qüvvələr adı ilə yenidən Azərbaycan Respublikasına qaytarılması üçün hüquqi baza yaratmaq idi.

Bunu uzaqgörənliklə duyan Heydər Əliyev bu məsələdə son dərəcə prinsipiallıq nümayiş etdirdi. Rusiya Federasiyasının sülhməramlı qüvvələrinin regiona yeridilməsi haqqında məsələnin hətta müzakirəyə çıxarılmasına belə imkan vermədi.

Rusiya Federasiyası xarici işlər naziri A.Kozırevin, bir tərəfdən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair Rusiya Federasiyası planının ən real plan olduğunu iddia etməsi, digər tərəfdən isə, Rusiya Federasiyasının yalnız ATƏM və BMT ilə birlikdə münaqişənin ədalətli həllinə tərəfdar olduğunu bildirməsi Rusiyanın «ikili standart» mövqeyini açıq-aydın göstərirdi. Rusiya Federasiyasının təqdim etdiyi yeni planında ATƏM-in rolu və mövqeyi barədə suala cavab verərkən Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfiri Viktor Şoniya da bu sənədin ATƏM ilə razılaşdırıldığını bildirmişdi. Lakin vaxtında qarşısı alınmış belə «sülh» planının qeyri-reallığı bir qədər sonra tamamilə faş oldu.

Vəziyyətin, məhz Rusiya Federasiyasının nəzarətində olduğunu hiss etdirmək məqsədini həmin proseslərə "Qarabağa sülh" adlı monoqrafiya həsr etmiş Rusiya Federasiyası prezidentinin səlahiyyətli nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir V.Kazimirovun diplomatik ifadəsi bir daha üzə çıxarır: «Əldə edilmiş sülh hələ çox kövrəkdir və altı il gedən silahlı münaqişənin aradan qaldırılmasında maksimalist olmaq yersizdir». Göründüyü kimi, Rusiya Federasiyası ATƏM-in Minsk qrupunun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki səylərini kölgələmək və bu beynəlxalq təşkilatı dünya ictimaiyyətinin gözündən salmağa çalışırdı.

Əgər ATƏM səlahiyyətsiz orqan sayılırsa, eyni zamanda, istər ATƏM-in, istərsə də digər beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrə əməl edilmirsə, Ermənistan Respublikasının müharibədə iştirakı, Rusiyanın hərbi yardımı inkar edilirsə, bu halda Rusiya Federasiyası hökumətinin də mövqeyi tamamilə bəlli olur.

Rusiya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə ikili standartlarla yanaşırdı: bir tərəfdən, rəsmi Moskva Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini öz boynuna götürür, digər tərəfdən, Ermənistan Respublikasını fəal şəkildə silahlandırmaqla, İrəvanı Bakıya qarşı daha sərt mövqe tutmağa təhrik etməklə, problemin bir az da dərinləşməsinə şərait yaradırdı.

Münaqişə prosesinin xronoloji ardıcıllıqla izlənilməsi açıq-aydın göstərir ki, Rusiya Federasiyası bir qayda olaraq, sözdə müharibənin dayandırılmasına tərəfdar olduğunu bildirmiş, əməldə isə Azərbaycan Respublikasının sərhədlərini nəzarətdə saxlamış, istədiyi vaxt iqtisadi problemlər yaratmış, eləcə də, Ermənistan Respublikasına silah-sursat və enerji daşıyıcıları ilə kömək etmişdir. Sirr deyil ki, Rusiya Federasiyası Ermənistan Respublikasına min tonlarla yanacaq, milyonlarla rubl kredit verməklə Dağlıq Qarabağ münaqişəsini dərinləşdirmişdir.

1993-cü il iyul ayının sonlarında Ağdam şəhərinin erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi ilə əlaqədar Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə, BMT-nin Baş katibinə müraciət edərək, ermənilərin təcavüzkarlıq aksiyalarının qarşısının alınmasını, işğal olunmuş Azərbaycan Respublikası ərazilərinin tez bir zamanda azad edilməsi üçün lazımi tədbirlərin görülməsini tələb etdi, eyni zamanda, vəziyyəti qiymətləndirmək üçün dərhal Təhlükəsizlik Şurasının çağırılmasını da xahiş etdi. Heydər Əliyevin beynəlxalq təşkilatlara ünvanladığı müraciətlərdə onların Er-

mənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə laqeydliklə yanaşmaları ciddi tənqid olundu: «Əgər dünya birliyi Ermənistan Respublikasının və onun şirniklərdirdiyi Dağlıq Qarabağ liderlərinin Azərbaycana qarşı törətdikləri əməlləri beləcə laqeydliklə seyr etməsəydi, təcavüzkarın öz planlarını həyata keçirməsi əsla mümkün olmazdı»[164].

Ağdamı işğal etməyəcəklərini dəfələrlə Minsk qrupunun sədrinə bəyan edən Dağlıq Qarabağın erməni icmasının liderləri öz bəyanatlarına əməl etməməkdə ayrı məqsəd güdürdülər. Onlar, bununla Minsk qrupunun ATƏM çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair aparılan danışıqlar prosesinə daxil edilməsinin mümkünsüzlüyünü sübut etməyə çalışırdılar. ATƏM-in Minsk qrupu isə artıq bir il idi ki, öz arzusu ilə münaqişənin dinc yolla aradan qaldırılması üçün fəaliyyətə başlamışdı. Bununla yanaşı, ATƏM öz fəaliyyətini davam etdirərək, atəşin dayandırılması barədə irəli sürülmüş şərtlərə hər iki tərəfin əməl etməsinə nəzarəti həyata keçirmək üçün çoxnömrəli müşahidəçiləri bölgədə yerləşdirməyə çalışırdı. Qrupu düşündürən məsələlərdən biri də Dağlıq Qarabağın gələcək siyasi statusunu müəyyənləşdirməyə dair danışıqlar üçün hüquqi və siyasi bazanın axtarılıb tapılması idi. Təəssüf ki, onun göstərdiyi bütün səylər hər dəfə Ermənistan tərəfinin hərbi əməliyyatları gücləndirməsi ucbatından nəticəsiz qaldı. Buradan Dağlıq Qarabağ ətrafındakı rayonların işğalının kimlərin ssenarisi əsasında həyata keçirildiyi açıq-aşkar görünürdü.

Bu bir həqiqətdir ki, beynəlxalq təşkilatlar və böyük dövlətlər Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün açıq-aşkar genişləndiyi bir vaxtda hadisələrə çox ehtiyatla yanaşaraq, Ermənistan Respublikasının təcavüzkar dövlət kimi tanımadılar. Bu isə həm beynəlxalq təşkilatların ən fəal üzvləri və həm də dünyanın böyük söz sahibi dövlətləri olan ABŞ, Fransa və eləcə də Rusiya Federasiyasının məsələyə

ikili standartlarla yanaşması ilə bağlı idi.

ABŞ Dövlət Departamenti 1993-cü ilin iyul-avqust aylarında hərbi əməliyyatların güclənməsi ilə əlaqədar iki dəfə bəyanat verdi, Ağdamın işğalı ilə bağlı Böyük Britaniya hökuməti və Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi Dağlıq Qarabağa dair bəyanatlarla çıxış etdilər. Ağdam və Füzuli rayonlarının işğalı dünyanın aparıcı dövlətlərinin bəyanatlarında pislənildi, işğalçı qüvvələrin Azərbaycan Respublikası ərazisindən tamamilə və qeyd-şərtsiz çıxarılması göstərildi, lakin bütün bu deyilənlər yerinə yetirilmədi. Ermənistan Respublikası Azərbaycan Respublikasının ərazisini qeyd-şərtsiz azad etmək əvəzinə, əksinə, hücumları gücləndirdi, avqust ayının sonlarında Füzuli və Cəbrayıl rayonlarını da işğal etdi.

Heydər Əliyev 1993-cü il avqustun 30-da «Nezavisimaya qazeta»ya müsahibəsində münaqişənin həllinə mane olan əngəllər barədə fikrini açıqladı: «Dağlıq Qarabağdakı qüvvələr bu plan və təqvimin əleyhinə çıxdılar və Mario Rafaelli də kimlərin əngəl törətdiyini əslində aydınlaşdırdı. ATƏM nümayəndələri qayıtdıqdan sonra nəticə çıxarıb, məsələyə yekun vurdular. Mən bu nümayəndə heyətinin obyektivliyindən razıyam. O, BMT-yə geniş məruzə təqdim etmişdir. Erməni birləşmələri tərəfindən işğal olunmuş Ağdamdan erməni qoşunlarının təxirə salınmadan çıxarılması haqqında Təhlükəsizlik Şurasının qəbul etdiyi qərar ağıllı qərar idi. Lakin sonradan məlum oldu ki, Dağlıq Qarabağdakı qüvvələr idarəedilməzdir və Ermənistan Respublikası rəhbərliyinə tabe olmurlar. Bunu bizə İrəvandan dedilər. Əlbəttə, mən belə uydurmalarla razılaşa bilmərəm. Dağlıq Qarabağ kiçicik bir vilayətdir. Təbiidir ki, o, kənardan kömək edilməsəydi, 7 milyonluq respublikaya müqavimət göstərmək iqtidarında olmazdı. Lakin bütün dünya bilməlidir ki, biz bundan sonra müharibə etmək istəmirik, buna görə də Azərbaycan tərəfindən hərbi rəhbərlik erməni birləşmələrinin komandanlığı ilə əlaqə yaratdı. Üç gün müddətinə barışıq haqqında razılı-

ğa gəldik. Sonra təkrarən danışıqlar apardıq və barışığı daha 7 gün uzatmağı qərara aldıq. Biz bəlkə bundan sonra da bu yolla getdik»[165].

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyev 1993-cü il sentyabrın 23-də BMT-nın Bakıdakı nümayəndəsi Mahmud əl-Səidi qəbul edərkən münaqişənin həlli ilə bağlı ATƏM-in uğurlu nəticələr əldə edə biləcəyinə inandığını bildirdi. ATƏM-ə inamı ifadə etməklə bərabər, bəzi dövlətlərin bu beynəlxalq təşkilatın fəaliyyətini kölgədə qoymaq istəyini də söylədi: «Biz bu təşkilatdan (ATƏM-dən - Q.H.) çox şey gözləyirik. Amma son vaxtlar bəzi dövlətlər bu təşkilatın fəaliyyətinin sıxışdırılmasını istəyirlər. Biz bununla qətiyyən razı deyilik. Çünki ATƏM-ə BMT-nin bir hissəsi kimi baxırıq və istəyirik ki, bu təşkilatlar öz fəaliyyətinin əməli nəticələrini əldə etsinlər»[166].

BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan beş dövlətin xarici işlər nazirlərinin qəbul etdikləri bəyanatda da ATƏM-in fəaliyyəti dəyərləndirilirdi. BMT TŞ-nın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi 822 və 853 nömrəli qətnamələrinin bir daha xatırlandığı bəyanatda Ermənistan Respublikasının təcavüzkar siyasətinin əsl mahiyyəti üzə çıxırdı. Halbuki, bu vaxta qədər Ermənistanın işğalçılığına dair bir eyham belə vurulmamışdı. Həmin ildə Ermənistan Ali Soveti «Dağlıq Qarabağ Respublikası»nın Azərbaycan Respublikasının ayrılmaz hissəsi olduğu bildirilən hər hansı bir materialın Ermənistan Respublikası üçün qeyri-məqbul hesab ediləcəyinə dair qərar çıxarmışdı. Bəyanatda erməni tərəfinin müstəqil respublika kimi qələmə verdikləri bölgəni «Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi» kimi ifadə etməklə, Ermənistanı isə təcavüzkar adlandırmaqla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün düzgün istiqamət verilirdi. Bu prinsiplərin həyata keçirilməsində yeni yanaşma üsulları Ermənistanla Azərbaycan arasında davam edən

münaqişənin aradan qaldırılması yolunda perspektivlər açmış oldu. Məkirli siyasətə xidmət edən ermənilərin regionda baş verənləri beynəlxalq ictimaiyyətə qeyri-obyektiv şəkildə təqdim etməsi dünya ictimaiyyətinin fikrini xeyli dərəcədə çaşdırmışdı. Onlar əsassız ərazi iddialarını pərdələmək üçün hadisələrə etnik münaqişə məzmunu vermişdilər.

Belə bir mənfur siyasətin qarşısını almaq, dünya ictimaiyyətinə həqiqəti çatdırmaq üçün ciddi xarici siyasətə ehtiyac olduğu bir vaxtda Heydər Əliyev beynəlxalq aləmdə Azərbaycanın müsbət imicini formalaşdırmaq üçün kompleks tədbirlərə başladı. Azərbaycan dövlətinin yeni xarici siyasət xətti müəyyən edildi. Bu isə, ilk növbədə, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsindən başlandı.

Heydər Əliyev Ermənistan Respublikasının təcavüzünün dəf edilməsinin, respublikamızın pozulmuş ərazi bütövlüyünün bərpa olunmasının və işğalçıların ölkə ərazisindən çıxarılmasının düzgün yolunu müəyyənləşdirdi. Azərbaycan hökuməti bütün gücünü müstəqil dövlətimizin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəltdi.[167] Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması müstəqil dövlət quruculuğunun bütün dövrlərində Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifələrdən biri oldu[168].

Heydər Əliyev 1993-cü il oktyabrın 10-da andiçmə mərasimindəki nitqində demişdir: «Biz, ümumiyyətlə sülhsevər mövqe tutaraq, bu vəzifəni birinci növbədə sülh yolu ilə, danışıqlar yolu ilə həll etməyə üstünlük veririk. Bu baxımdan, müstəqil Azərbaycan Respublikası diplomatik vasitələrdən səmərəli istifadə etməli, sülh danışıqlarını Azərbaycan Respublikasının mənafelərini təmin etmək yolu ilə aparmalı və bu danışıqlar nəticəsində məqsədimizə nail olmalıyıq. Biz, BMT-nin, ATƏM-in, BMT TŞ-nın, bu münaqi-

şənin aradan qaldırılmasında iştirak edən böyük dövlətlərin və bütün beynəlxalq təşkilatların imkanlarından səmərəli istifadə edərək Azərbaycanı müharibə şəraitindən çıxarmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün bundan sonra da səy göstərəcəyik»[169].

1993-cü il oktyabrun 14-də BMT Təhlükəsizlik Şurası 874 nömrəli qətnamə qəbul etdi. Lakin oktyabrın 23-də Ermənistan silahlı qüvvələri atəşin dayandırılması haqqında razılaşmanı pozaraq, Azərbaycan Respublikasının cənub-qərb rayonlarına hücum etdi.[170] Horadiz qəsəbəsini ələ keçirərək, Azərbaycanı mühüm kommunikasiya qovşaqlarından biri olan Horadiz-Zəngilan avtomobil və dəmir yollarından məhrum etdi. Bununla da Zəngilan rayonunu ələ keçirməklə, Azərbaycanın cənub-şərq hissəsinin tamamilə işğal olunmasını başa çatdırdılar. Zəngilan rayonunun işğalı ATƏM-in sədri, İsveçin xarici işlər naziri xanım Marqaret Aff Uqlasın bölgəyə rəsmi səfəri zamanı baş vermişdi.

Heydər Əliyev 1993-cü il oktyabrın 22-də ATƏM-in sədri Marqaret af Uqlasın Bakıya səfəri ərəfəsində Dağlıq Qarabağ məsələsinə dair müşavirə keçirdi.

1993-cü il noyabrın 30-dan dekabrın 1-dək Romada ATƏM-in Nazirlər Şurasının toplantısı keçirildi. Bu toplantıda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsilə bağlı gündəliyə salınmış məsələ öz adı ilə adlandırıldı: «Ermənistanın Azərbaycana qarşı təcavüzü». Məsələnin gündəliyə bu adla salınması artıq ATƏM-in obyektiv mövqe tutmasına dəlalət edirdi. Lakin Ermənistan hakimiyyətinin qeyri-obyektiv mövqe tutması nəticəsində ciddi bir qərarın qəbul edilməsi mümkün olmadı.

1993-cü ilin dekabrından etibarən cəbhə xəttində yeni bir dönüş yarandı. Dekabrın 10-da Ermənistan silahlı qüvvələri Beyləqan istiqamətində yeni hücuma başlayanda Azərbaycan ordusu düşmənə əks-zərbə vurdu və geri çəkilməyə məcbur etdi. Dekabrın 15-dən Azərbaycan ordusu

beş istiqamətdə - Füzuli, Xocavənd, Ağdam, Ağdərə, Kəlbəcər istiqamətlərində əks hücuma keçdi. Əsas zərbə cəbhənin cənub kəsiyində - Füzuli, Horadiz istiqamətində endirildi. Azərbaycan ordusu Ermənistan ordusunun müdafiə xəttini yardı və Araz çayı boyunca Füzuli rayonunun içərilərinə doğru irəlilədi. Yanvarın əvvəlində 11 yaşayış məntəqəsi və Azərbaycan-İran sərhədinin 40 km-lik hissəsi düşməndən təmizləndi. Yanvarın 8-də Azərbaycan ordusunun 702-ci alayının hissələri düşmənin müqavimətini qıraraq, Horadizə daxil oldu, qəsəbəni və Xudafərin körpüsünü azad etdi. Cəbhənin Tərtər-Ağdərə hissəsində ağır döyüşlərdən sonra 3 yaşayış məntəqəsi azad edildi.

BMT TŞ-nın qəbul etdiyi qətnamələr içərisində 874 nömrəli qətnamə çox zəif idi. Burada da Azərbaycan ərazilərinin Ermənistan Respublikası hərbi qüvvələri tərəfindən işğal edilməsi göstərilmirdi. Ən qəribəsi isə münaqişənin həllinin Rusiya Federasiyasına həvalə edilməsi idi. Qətnamə 1993-cü il sentyabrın 28-də ATƏM-in Parisdə keçirilən görüşündə Minsk qrupu tərəfindən hazırlanan «Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli»nə əsaslanırdı. Azərbaycan tərəfininin etirazla qarşıladığı bu qətnamə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ, Fransa və Rusiya tərəfindən bəyənildi.

Bu zaman Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində ciddi maneə yaradan məsələ meydana çıxdı. Bu məsələdə aparıcı rolun Qərbin, yoxsa Rusiyanın ixtiyarında olması iddiaları problemin həllində ciddi maneələr yaratdı. Rusiya Federasiyasının birtərəfli təşəbbüsü ilə danışıqlar prosesində ATƏM-in Minsk qrupunu sıxışdırıb aradan çıxarmasından narahat olan Qərb ölkələri Rusiyanın öz vasitəçilik səylərini gücləndirməsinə, qoşunlarını BMT və ATƏM-in sülhməramlı qüvvələri adı altında regiona yerləşdirmək siyasətinə qarşı çıxdılar. Rusiya Federasiyasının bu məsələdə fəallığının artmasının beynəlxalq təşkilat-

ların nüfuzdan düşməsinə səbəb olacağını, BMT və ATƏM-in fəaliyyətinə ciddi əngəl yaranacağını nəzərə alan dövlətlər haqlı olaraq bunu qəbul etmədilər.

Heydər Əliyev Ermənistanın Azərbaycan ərəzilərinə işğalının miqyasının genişlənməsi ilə əlaqədar BMT Baş katibinə, Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək, beynəlxalq birliyin diqqətini Ermənistanın Azərbaycan Respublikasına qarşı birbaşa təcavüz həyata keçirməsi faktına cəlb etdi və təcavüzkara qarşı bütün lazımi tədbirləri görməyə çağırdı. Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına xahişlə müraciət etməsi ilə əlaqədar olaraq TŞ vəziyyəti müzakirə etdi və Ermənistan silahlı qüvvələri tərəfindən Zəngilan rayonunun işğalı ilə əlaqədar 884 nömrəli qətnamə qəbul etdi (1993-cü il 11 noyabr)[171].

Bu qətnamə də əvvəlkilərdən bir o qədər fərqlənmirdi. Əvvəlkilərdə olduğu kimi, burada da Ermənistanın Azərbaycana qarşı təcavüzü yenə də «Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə» kimi qiymətləndirilirdi. Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gərginliyi bildirilsə də, bu gərginliyin əsas mahiyyəti haqqında heç nə deyilmirdi.

Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığının artması ilə əlaqədar BMT TŞ-nın və dünyanın aparıcı ölkələrinin qəbul etdikləri bütün sənədlərdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilirdi. Lakin Təhlükəsizlik Şurasının daimi üzvləri olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına imkan vermədilər. Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxmasına deyil, münaqişənin danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər.

BMT TŞ-da aparılan müzakirələr və sənədlərin qəbulu zamanı Şuranın daimi üzvləri olan böyük dövlətlər Ermə-

nistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə obyektiv yanaşmadılar. Münaqişənin səbəbləri, xarakteri, məzmununa əhəmiyyət verilmədi. ABŞ və Böyük Britaniyanın mövqeləri ilə Rusiya və Fransanın mövqeyi arasında böyük fərq var idi. Rusiya və Fransanın mövqeləri ermənipərəstliyi ilə seçilirdi. RF və Fransanın təmsil olunduğu bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərin hamısında Ermənistanın Azərbaycana qarşı təcavüzü ört-basdır edilir, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi «Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə» kimi əks etdirilirdi.

Təəssüf ki, Ermənistan Respublikasının cəzasızlıqdan şirniklənərək Azərbaycan Respublikasının ərazilərini işğal etməsinin qarşısını almaq mümkün olmadı. BMT üzvü olan dövlətin ərazisinin müharibə yolu ilə ilhaq edilməsinə göz yumulduğuna görə Azərbaycan ərazisinin 20%-dən çox hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altında qaldı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması sahəsində BMT və digər beynəlxalq təşkilatların göstərdiyi səylər mühüm nəticə vermədi. BMT-nin fəaliyyətinin uğursuzluqlarının səbəblərindən biri Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü faktının birbaşa etiraf olunmaması, digəri Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması idi. Ermənistan Respublikası BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində və ATƏT-in Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozmasına baxmayaraq, nüfuzlu beynəlxalq təşkilatların faktlar toplamaq sahəsində çoxnömrəli missiyaları nəticə çıxararkən Ermənistan Respublikasının silahlı qüvvələrinin münaqişədə bilavasitə iştirakını etiraf etməyin mürəkkəb olduğunu bildirirdilər[172]. Əslində, BMT TŞ-nın məlum qətnamələrində və Təhlükəsizlik Şurası sədrinin bəyanatlarında Ermənistan Respublikasının münaqişədə bu və ya başqa formada iştirakı etiraf olunurdu. Buradan Ermə-

nistanın münaqişədə bitərəf deyil, hərbi təcavüzdə bilavasitə iştirakçı və təhrikçi olması məlum olurdu.

Bütün bunlara baxmayaraq, ölkənin pozulmuş ərazi bütövlüyünün bərpası, işğalçıların Azərbaycan ərazisindən çıxarılması, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və onun təhlükəsizliyinin təmin edilməsi kimi vəzifələrin həllində beynəlxalq aləmin dəstəyinin qazanılmasına zəmin yaradıldı, sonrakı mərhələlərdə bu dəstək qazanıldı və möhkəmləndi.

4.2. Heydər Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini beynəlxalq müstəviyə çıxarması və həlli ilə bağlı xüsusi konsepsiyası

Prezident Heydər Əliyevin gərgin və məqsədyönlü diplomatik səyləri sayəsində regionun iri dövlətləri - Rusiya Türkiyə və Iranla, habelə dünyanın bir sıra aparıcı dövlətləri ABŞ, Fransa və Böyük Britaniya ilə, Orta Asiyanın türkdilli respublikaları və başqa dövlətlərlə münasibətlər münasib şəkildə qurularaq inkişaf etdirildi, beynəlxalq və regional təşkilatlarla əlaqələr intensivləşdirildi, onların imkanlarından Azərbaycanın problemlərinin həlli istiqamətində istifadə etmək üçün tədbirlər görüldü.

Xarici təbliğat və informasiya fəaliyyətini qaydaya salmaq üçün ölkə daxilində mühüm işlər görüldü, xarici kəşfiyyat, informasiya və xəfiyyə orqanlarının Azərbaycandakı fəaliyyəti nəzarətə götürüldü.

Yenidən müstəqilliyini əldə etmiş Azərbaycan dövlət quruculuğu işləri baxımından dünya ölkələri içərisində layiqli yer almaq üçün məqsədəuyğun xarici siyasət mövqeyi tutmalı və həyata keçirməli idi. Bu məqsədlə Azərbaycan Respublikasının müstəqilliyinə tam nail olmaq, vaxtilə təsiri

altında olduğu region dövlətinin nüfuz dairəsindən çıxaraq müstəqil iqtisadi siyasət yeritmək, dünya ölkələri və region dövlətləri ilə siyasi, iqtisadi və mədəni sahələrdə qarşılıqlı faydalı münasibətlər qurmaq, məqsədəuyğun balanslaşdırılmış siyasət həyata keçirmək lazım idi.

Çarlz Van Der Liuv yazır: «Heydər Əliyev geniş dəstəkdən istifadə etdi». O, fikrini davam etdirərək qeyd edir: «insanlar inanırdı ki, Əliyev siyasətdə əvəzedilməz insandır, ölkəyə iqtisadiyyatı bərpa etmək və müharibəni bitirmək lazım idi. Əgər bu işə yarayan bir nəfər var idisə, o da o idi»[173].

Fransız Fransua Tual Qafqaza həsr etdiyi kitabında yazırdı: «Şübhəsiz, gələn illərdə Azərbaycanın beynəlxalq səhnədə möhkəmlənməsini görəcəyik. Bakı hökuməti, nəinki təkcə ondan asılı olmayan Qarabağ problemini həll etməlidir, hətta əhalinin sürətli artımı və qaçqınların olması ilə yaranan ictimai əhəmiyyətli böhranı həll etməlidir»[174].

Heydər Əliyev diplomatiyası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq müstəviyə çıxarılması və həlli ilə bağlı xüsusi konsepsiya hazırlayaraq, konkret vəzifələri həyata keçirmək üçün ardıcıl siyasi xətt yeritməyi planlaşdırdı. Bu xətt Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ermənisayaq həllini dəstəkləyən ölkələri bitərəfləşdirməyi, əvvəldən bitərəf qalan dövlətləri öz tərəfinə çəkməyi, Azərbaycanın müstəqil dövlətçiliyində marağı olan və onu müdafiə edən dövlətləri, beynəlxalq təşkilatları Azərbaycanla daha sıx bağlamağı, onların Ermənistana təzyiq etməsi üçün hərtərəfli düşünülmüş müvafiq diplomatik və siyasi iş aparmağı ehtiva edirdi. Heydər Əliyev siyasi xətti Dağlıq Qarabağ probleminin tarixini, mahiyyətini və köklərini hərtərəfli açıqlamağa, Azərbaycanın haqq səsini bütün dünya ictimaiyyətinə çatdırmağa xidmət etdi; mövcud olan informasiya boşluğunu doldurdu, dünyada ictimai rəyi respublikamızın xeyrinə formalaşdırmaq məqsədilə problemin milli zəmin əsasında baş verən etnik münaqişə və ya

insan hüquqlarının pozulması ilə meydana çıxan qarşıdurma deyil, Azərbaycanın istiqlaliyyəti yolunda süni yaradılmış manea, Respublikamızın müstəqilliyinin qarşısını almaq üçün düşünülmüş siyasi manevr və Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının nəticəsi olduğunu inandırıcı şəkildə bütün dünyaya bəyan etdi. Bunlarla yanaşı, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan dövlətinə qarşı yönəlmiş çıxışlarının beynəlxalq separatizmin tərkib hissəsi kimi qorxulu, ağır nəticələr törədən, digər dövlətlərin də ərazisində oxşar problemlərin alovlanmasına təkan verən təhlükəli bir hərəkət olduğu sübut edildi. Dünya ictimaiyyətinin diqqəti belə təhlükələrin qarşısını vaxtında almağın vacibliyinə yönəldildi. Bunların həyata keçirilməsi üçün Azərbaycanın Avropaya və ABŞ-a meyl göstərməsinin, sıx inteqrasiya olunmasının qarşısının alınmasına, onun əvvəlki kimi ayrı-ayrı region dövlətlərinin təsir və nüfuz dairəsində saxlanmasına yönəldilən xüsusi məqsədlə ortaya atılmış bir məsələ olduğu qeyd edildi, beynəlxalq aləmdə bu istiqamətdə geniş təbliğat başlandı.

1993-cü il dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Fransa prezidenti F.Mitteranın dəvəti ilə Parisdə rəsmi səfərdə olarkən imzaladığı və Azərbaycanın ATƏM-in yeni Avropa üçün Paris Xartiyasına qoşulmasını təsdiq edən sənədlə ölkəsinin BMT prinsiplərinə sadiq olduğunu göstərdi. Heydər Əliyev bununla həm öz üzərinə bir sıra öhdəliklər götürdü, həm də öz sülhsevər mövqeyini ortaya qoydu. Bu, gələcəkdə Azərbaycanın ərazi bütövlüyünün, dövlət müstəqilliyinin əbədi və dönməzliyini təmin etmək üçün atılan vacib addımlardan biri idi.

Prezident Heydər Əliyevin beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində qətiyyətsizlik nümayiş etdirməsi ilə bağlı münaqişənin həlli ilə bilavasitə məşğul olan dövlətlərə və beynəlxalq qurumlara mesajlar verir, onları fəal olmağa təhtik edirdi. Azərbaycan

Respublikasının Prezidenti MDB Dövlət Başçıları Şurasının Aşqabad görüşündə demişdi: «Təəssüflər olsun, son dövrün təcrübəsi göstərir ki, qətiyyətsizlik, tərəddüdlük, təcavüzkarın mənafeyi ilə onun qurbanlarının mənafeyi arasında tamamilə yolverilməz olan tarazlıq yaratmaq nəinki təcavüzkara münasibətdə səhlənkarlıqdır, həm də bütün Qafqaz regionunda əmin-amanlığı sarsıtmaq və münaqişənin MDB sərhədlərindən kənara genişlənməsi qorxusu törədir»[175].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa ölkələrinə hər bir səfərində Azərbaycana qarşı hərbi təcavüzün dayandırılması məsələsinin müzakirəsinə dair danışıqlara üstünlük verirdi. O, 1993-cü il dekabrın 21də Parisdə mətbuat konfransında bəyanatında demişdir: «Biz Azərbaycana qarşı hərbi təcavüzün dayandırılması məsələsinin sülh yolu ilə həlli prinsipinə tərəfdarıq, lakin Ermənistan Respublikası silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan Respublikası ərazilərindən çıxarılması, respublikanın sərhədlərinin, ərazi bütövlüyünün pozulmazlığı şərtilə. Bununla bərabər, biz Dağlıq Qarabağ məsələsinə baxılmasının labüdlüyündən yayınmırıq. Qeyd etmək çox vacibdir ki, həm Fransa prezidenti, həm də xarici işlər naziri sərhədlərin pozulmazlığı, zorakılığın və hərbi yolla özgə ərazilərinin işğalının yolverilməzliyi, hər bir dövlətin, o cümlədən də Azərbaycan Respublikasının ərazi bütövlüyünün gözlənilməsi barədə beynəlxalq prinsipləri bir daha təsdiq etmişlər»[176].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev həmin il dekabrın 24-də MDB Dövlət Başçıları Şurasının iclasındakı bəyanatında demişdir: «Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan Respublikası ərazisinin 14 min kvadrat kilometrə qədərini işğal etmişdir. Bunun 9 min kvadrat kilometri Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənardadır. Onu da qeyd etmək lazımdır ki, erməni silahlı birləşmələri Dağlıq Qarabağın ərazisini tam nəzarət

altına aldıqdan sonra təcavüzkar əməllərini ardıcıl surətdə genişləndirərək, onun hüdudlarından kənarda Azərbaycan Respublikasının Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını və Qazax rayonunun bir hissəsini işğal etmişlər. Hərbi əməliyyatlar zamanı dinc əhali kütləvi surətdə qırılır, işğal olunmuş ərazilərdə etnik təmizləmə aparılır və dağıntılar törədilir. Azərbaycana qarşı təcavüz başlayandan indiyədək 20 mindən çox adam öldürülmüş, 50 mindək adam yaralanmış və ya şikəst olmuş, 4 min nəfər əsir düşmüş, yaxud girov götürülmüş, 1 milyonadək azərbaycanlı ev-eşiyini itirmiş, 100 mindən çox yaşayış tikilisi, 1 mindən çox iqtisadi obyekt, 600-dən çox məktəb və tibb müəssisəsi yandırılmış, talan edilmiş və dağıdılmışdır; yüz milyonlarla dollar dəyərində şəxsi əmlak və dövlət əmlakı, maddi sərvətlər işğal olunmuş ərazilərdən Ermənistan Respublikasına daşınır. Bütün bunlar Azərbaycan Respublikasında böhranlı vəziyyət yaratmışdır. Böyük təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, 1993-cü ilin sentyabrında Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin tamhüquqlu üzvü olduqdan və Kollektiv Təhlükəsizlik Haqqında Müqaviləyə qoşulduqdan sonra Ermənistan Respublikası öz təcavüzünü, nəinki dayandırmamış, əksinə, hərbi əməliyyatlar daha geniş miqyas almışdır. Atəşkəs haqqında əldə edilmiş razılığa baxmayaraq, əvvəllər işğal olunmuş Laçın, Kəlbəcər, Ağdam rayonlarına və Qazax rayonunun bir hissəsinə bu ilin oktyabr-noyabrında Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən zəbt edilmiş Azərbaycan Respublikasının Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları da əlavə edilmişdir. Bununla da, təcavüzkar, Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədinə çıxaraq, MDB-nin cənub hüdudlarında təhlükəli gərginlik ocağı yaratmış, münaqişənin beynəlmiləl xarakter alması qorxusu törətmişdir. 300 mindən çox əhalinin yaşadığı rayonların 1993-cü ilin oktyabrında işğal edilməsini Azərbaycan xalqı həm də ona

görə çox ağır qarşılamışdır ki, bu hadisə Azərbaycan Respublikası MDB-yə daxil olduqdan və Kollektiv Təhlükəsizlik Haqqında Müqaviləyə qoşulduqdan sonra baş vermişdir. Deməli, Ermənistan Respublikası təkcə Azərbaycan Respublikasına qarşı təcavüz etmir, həm də indi bizim Birliyimizi birləşdirən prinsiplərə tam saymazlıq nümayiş etdirir.

MDB-nin üzvü və Kollektiv Təhlükəsizlik Haqqında Müqavilənin iştirakçısı olan Ermənistan Respublikasının başqa dövlətə, birliyin onun kimi tamhüquqlu üzvü olan dövlətə – Azərbaycan Respublikasına qarşı təcavüz etməsi yolverilməzdir. ...Ermənistan Respublikası BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏM-in, Rusiya Federasiyasının, Qazaxıstanın vasitəçilik səylərinə məhəl qoymayaraq, özünün həqiqi rolunu – birbaşa təcavüz edən ölkə rolunu ört-basdır etmək məqsədilə bizi Dağlıq Qarabağ ermənilərini münaqişədə iştirak edən tərəf kimi tanımağa təhrik etməyə çalışır. Həqiqətdə isə Dağlıq Qarabağ bölgəsində yaşayan və elə bir ehtiyatı olmayan 100 mindən bir qədər çox erməni 7 milyonluq əhalisi olan ölkəyə qarşı genişmiqyaslı hərbi əməliyyatlar apara və onun ərazisinin 20 faizini işğal edə bilməz. Respublikanın Dağlıq Qarabağ bölgəsinin 50 min azərbaycanlı əhalisinin hüquqlarını inkar etməyə cəhd göstərilir. Etnik təmizləmə nəticəsində onlar Şuşa, Xocalı, Xocavənd, Hadrut və Ağdərə rayonlarından tamamilə çıxarılmışdır.

Təəssüflər olsun, son dövrün təcrübəsi göstərir ki, qətiyyətsizlik, tərəddüdlük, təcavüzkarın mənafeyi ilə onun qurbanlarının mənafeyi arasında tamamilə yolverilməz olan tarazlıq yaratmaq nəinki təcavüzkara münasibətdə səhlənkarlıqdır, həm də bütün Qafqaz regionunda əmin-amanlığı sarsıtmaq və münaqişənin MDB sərhədlərindən kənara genişlənməsi qorxusu törədir. Bütün bunlar Kollektiv Təhlükəsizlik Haqqında Müqavilə imzalamış MDB ölkələrindən Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzünün səbəblərinə və onun nəticələ-

rinə ciddi yanaşmağı tələb edir. Bu zaman onu da nəzərə almaq lazımdır ki, baş verən hadisələr təkcə bizim regiona deyil, həm də bütün MDB məkanına aiddir. Bu məqsədlə biz, bütün MDB məkanında siyasi vəziyyətin sabitləşdirilməsinə yönəldilmiş ikitərəfli və çoxtərəfli sazişlər sisteminin ekspertlər səviyyəsində işlənib hazırlanmasını təklif edirik» [177].

1994-cü il yanvarın 11-də Brüsseldə NATO-nun üzvü ölkələrin dövlət və hökumət başçılarının görüşünün yekunlarına dair bəyanatda Cənubi Qafqaz respublikalarının ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət edilməsi zəruri cəhət kimi vurğulayırdı: «Biz bütün dövlətləri BMT-nin, ATƏM-in himayəsi altında beynəlxalq səylərə qoşulmağa çağırırıq. Bu səylər mövcud problemlərin nizama salınmasına yönəldilmişdir»[178].

V FƏSİL

MÜHARİBƏNİN GEDİŞİNDƏ ƏSASLI DÖNÜŞ VƏ ONUN SÜLH PROSESİNƏ TƏSİRİ

5.1. Heydər Əliyevin Qarabağ müharibəsini dayandırmaq istiqamətində fəaliyyəti

Heydər Əliyevin 1994-cü il xarici siyasətinin əsasını Qarabağ müharibəsinin dayandırılması və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi təşkil etmişdir. Azərbaycan Respublikası Prezidentinin bu istiqamətdə siyasi fəaliyyətinin xronoloji ardıcıllıqla şərhi həmin tarixi prosesləri aydın təsəvvür etməyə imkan verir.[179]

Heydər Əliyev Cənubi Qafqazdakı Rusiya Federasiyası qoşunlarının komandanı (əvvəllər Rusiya Federasiyasının Ermənistandakı 7-ci ordusunun komandanı olmuşdur) general-polkovnik Fyodor Reutla 1994-cü il yanvarın 6-da görüşü zamanı demişdir: «... Vəziyyət mürəkkəbləşdikdə nələr baş verdiyini biz Sizinlə Qarabağ münaqişəsi deyilən münaqişənin timsalında yaxşı görürük. Bu münaqişə genişlənərək, hazırda Ermənistan ilə Azərbaycan arasında aşkar hərbi əməliyyatlara çevrilmişdir. Buna görə də, Sizə mənim ilk xahişim bundan ibarətdir. İstərdim ki, Siz buna diqqət yetirəsiniz. Mən Azərbaycan dövləti adından dəfələrlə bəyan etmişəm və bu gün də Sizinlə görüşümdən istifadə edərək bildirirəm: biz bu məsələnin sülh yolu ilə həll olunmasına tərəfdarıq. Biz istəyirik ki, müharibə qurtarsın, o, demək olar, altı ildir ara vermir. Elə ötən illər bütün dünyaya inandırıcı şəkildə nümayiş etdirdi ki, bu müharibə istər Azərbaycan xalqına, istərsə də erməni xalqına müsibətlər gətirmişdir. Bu müharibə Ermənistandakı ekstremist qüvvələrin ümid etdikləri nəticələri verməyəcəkdir. Buna görə də, dünya təcrübəsinə, siyasi təcrübəyə əsaslanaraq demişəm və deyirəm

ki, bu məsələni sülh yolu ilə həll etmək lazımdır. Biz Ermənistanın bir metr də olsa ərazisini tutmamışıq, amma erməni silahlı birləşmələri – Siz hərbi adamsınız, bunu çox yaxşı bilirsiniz – Azərbaycan ərazisinin, o cümlədən onun keçmiş Dağlıq Qarabağ Vilayətinin hüdudlarından kənardakı ərazisinin təxminən 20 faizini işğal etmişlər. Erməni tərəfinin qələmə verməyə çalışdığı kimi, guya bu müharibənin Dağlıq Qarabağdakı erməni azlığının mənafelərinin müdafiəsi üçün aparıldığını güman etsək, onda necə başa düşmək olar ki, əvvəla, Dağlıq Qarabağın özündən 50 min azərbaycanlı qovulmuşdur, erməni silahlı birləşmələri Dağlıq Qarabağın hüdudlarından kənarda isə yeddi rayonumuzu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını işğal etmişlər, bu rayonların sakinləri ağır vəziyyətdədir, onların çoxu çadırlarda yaşayır. Onların yerləşdirildiyi rayonlarımıza gedib baxa bilərsiniz. On illər boyu, yüz illər boyu bu rayonlarda toplanmış, yaradılmış maddi sərvətlər talan edilmiş, dağıdılmışdır. Bu, erməni silahlı birləşmələri tərəfindən törədilmiş vəhşilikdir»[180]. Heydər Əliyev münaqişənin hazırki vəziyyətini təhlil edərək onun həlli üçün vacib olan şərtləri də şərh etmişdir: «Əlbəttə, bunu dünya, zənnimcə, heç kimə və heç vaxt bağışlamayacaqdır. Dünya təcavüzü, təcavüzkarları bağışlamır. Buna görə də, mən bildirmişəm və bu fürsətdən istifadə edərək bildirirəm, şəxsən Sizə deyirəm, - hərçənd Azərbaycan rəhbərliyinin bəyanatı Sizə məlumdur, - biz bu məsələnin dinclikllə həllinə tərəfdarıq, amma bir şərtlə ki, erməni silahlı birləşmələri Azərbaycan ərazisini, ən əvvəl keçmiş Dağlıq Qarabağ Vilayətinin hüdudlarından kənarda olan rayonları qeyd-şərtsiz tərk etməlidirlər»[181].

Heydər Əliyev belə təkliflərin əvvəllər də, yenə də verildiyinini vurğulayaraq Azərbaycan hökumətinin mövqeyini ifadə etmişdir: «Lakin təcavüzkarlar müvəqqəti, təkrar edirəm, müvəqqəti hərbi üstünlükdən istifadə edərək düşünürlər ki, əbədi olaraq belə qalmaq mümkündür. Mən dekab-

rın 24-də Aşqabadda MDB dövlətləri başçılarının görüşündə bəyanat verməli oldum. Siz onunla tanışsınız. Bu bəyanat onunla bağlı idi ki, Azərbaycan sentyabrın 24-də MDB-nin tərkibinə daxil oldu, MDB-nin tamhüquqlu üzvü olmaq üçün Kollektiv Təhlükəsizlik Haqqında Müqaviləni imzaladı. Ermənistan da MDB-nin tərkibindədir. Buna görə də, mən Aşqabadda bəyanat verərək bildirdim ki, əgər daxili təhlükəsizlik təmin edilməsə, xarici qüvvələrin mümkün hücumlarından bu Birliyin təhlükəsizliyini təmin etməkdən söhbət gedə bilməz. MDB ölkələrinin kollektiv təhlükəsizliyi ola bilməz. Buna görə də, orada dedim, MDB-yə daxil olan müstəqil ölkələrin ayrı-ayrı rəhbərləri ilə söhbətlərdə də təkrar etdim ki, biz bu vəziyyətlə barışa bilmərik və zənnimcə, bu bəyanat öz nəticəsini verməlidir. Bunu Sizə ona görə deyirəm ki, Kollektiv Təhlükəsizlik Haqqında Müqaviləni imzalayarkən biz Birliyin bütün ölkələrinin, o cümlədən də Azərbaycanın və Rusiya Federasiyasının, başqa dövlətlərin silahlı qüvvələrinin əməkdaşlığının, məhz bu prinsipini əsas götürmüşük»[182].

Rusiya Federasiyasının imkanlarını nəzərdə tutaraq, bununla bağlı məsələlərə toxunan Heydər Əliyev bildirmişdir: «Siz Rusiyanın Gürcüstandakı və Ermənistandakı qoşunlarını təmsil edirsiniz. Ona görə də, Sizdən xahiş etmək istərdim ki, Ermənistandakı bəzi dairələrin bu sərsəmlikdən əl çəkmələri üçün öz imkanlarınızdan, nüfuzunuzdan istifadə edəsiniz. Bir daha təkrar edirəm, biz məsələnin sülh yolu ilə həllinə tərəfdarıq, sülh tərəfdarıyıq, müharibənin, hərbi əməliyyatların dayandırılmasına tərəfdarıq. Son günlər şiddətli hərbi əməliyyatlar gedir. Bizim bunda təqsirimiz yoxdur, çünki bir ay-ay yarımdır ki, təcavüzkarlar Azərbaycan ərazisinin içərilərinə daha da irəliləmək, yeni-yeni rayonlarımızı işğal etmək planları hazırlayırlar. Bəlkə də əvvəllər buna nail ola bilərdilər, lakin indi bunu edə bilmirlər, kifayət qədər güclü müqavimətə rast gəlirlər. Bu da, əlbəttə, hərbi əməliyyatlara gətirib çıxarır, hər iki tərəfdən itkilər var, son

vaxtlar silahlı qüvvələrimiz erməni birləşmələrinin hücumlarını layiqincə dəf edirlər. Yəqin Sizə məlumdur ki, onlar həm canlı qüvvə, həm də texnika sarıdan böyük itkilər verirlər. Axı, bu nəyə lazımdır? Bu, bizə lazım deyildir. Biz hücum etmirik, öz ərazimizdə müdafiə olunuruq, onlar bizim torpağımıza soxulmuşlar. Ona görə də, sözün düzü, narazılığımı bildirmək istəyirəm. Birlik ölkələrindən olan dostlarımız, xüsusən Rusiyadan olan dostlarımız bu məsələlərdə kifayət qədər prinsipiallıq göstərmirlər»[183].

Heydər Əliyev Rusiya Federasiyasının başçılıq etdiyi MDB-nin də mövqeyinə toxunaraq demişdir: «Aşqabadda verdiyim bəyanatda qeyd etmişdim ki, sentyabrın 24-də Azərbaycan MDB tərkibinə daxil olduqdan və Kollektiv Təhlükəsizlik Haqqında Müqavilələri imzaladıqdan sonra Azərbaycanın 4 rayonu işğal olunmuşdur. Belə vəziyyətdən, MDB üzrə müttəfiqlərimizin buna müəyyən dərəcədə laqeyd yanaşmalarından narazılığımızı bildirməyə əsasımız var. Lakin bununla yanaşı, Sizdən sadəcə olaraq xahiş edirəm ki, bütün bunları dayandırmaq, vəziyyəti dəyişmək üçün imkanlarınızdan, nüfuzunuzdan, Ermənistanda tutduğunuz mövqeyinizdən istifadə edəsiniz. Sizə qəti şəkildə deyirəm və lazım bildiyiniz hər kəsə bu fikri çatdıra bilərsiniz, biz hərbi əməliyyatların dayandırılmasına, bu məsələnin sülh yolu ilə həll edilməsinə tərəfdarıq. Lakin qalan bütün məsələlər çox asanlıqla həll edilə bilər. Ən başlıca məsələ, – mən bu barədə dedim, – hərbi əməliyyatların dayandırılması, Azərbaycanın dövlət suverenliyinin, ərazi bütövlüyünün təmin olunması məsələsidir. Bu məsələ ilə bağlı Sizə bir daha müraciət edirəm. Təkrar edirəm, Sizin qoşunlarınızın Ermənistana yardım göstərdiyini demək istəmirəm, hərçənd belə söz-söhbət lap çoxdur. Rəsmi bəyanatlar vermək üçün əsasım yoxdur. Lakin Siz Ermənistan ərazisində yerləşirsiniz, həmin ərazidə Rusiyanın hərbi bazaları var, özü də bunlar rəsmi hərbi baza statusuna malikdir. Ermənistan bizimlə

müharibə aparır, biz onların yox, onlar bizim ərazimizi işğal edirlər. Ona görə də, beynəlxalq hüquq normaları əsasında, hüquqi normalar əsasında Sizə belə bir xahişlə müraciət etməyə ixtiyarım var ki, Siz öz nüfuzunuzdan istifadə edəsiniz, müvafiq tədbirlər görəsiniz. Ümidvaram ki, Siz bu tədbirləri görəcəksiniz»[184].

Heydər Əliyev RF hökumətinin Cənubi Qafqaz regionundakı Rusiya Federasiyası qoşunlarının həyat fəaliyyətini təmin etmək üçün lazım olan yüklərin Azərbaycan ərazisindən keçirilməsi faktına toxunaraq demişdir: «... biz buna imkan yaratmışıq və gələcəkdə də yaradacağıq, çünki bizim Rusiya ilə, təbii ki, Rusiya Federasiyasının qoşunları ilə dostluq münasibətlərimiz var və bu münasibətlər davam edəcəkdir. Mən bu münasibətlərin möhkəmlənməsi üçün bütün tədbirləri görürəm. Lakin bizə olduqca çox siqnal gəlir ki, Azərbaycan ərazisi vasitəsilə Rusiya qoşunlarından ötrü Gürcüstan və Ermənistana aparılan yanacaq sonradan erməni silahlı birləşmələrinin ixtiyarına keçir və bizə qarşı istifadə olunur. İndiki halda mən bu siqnallar və xəbərlər barədə danışıram. Özü də bütün bunlar şişirdilir və açığını deyim ki, Azərbaycan əhalisinin müxtəlif təbəqələri bizi hətta ittiham edir: əgər bütün bu yüklərin erməni hərbi birləşmələrinə bu və ya digər dərəcədə köməyi olursa, onları Azərbaycan ərazisindən nə üçün buraxırıq? Bunu Sizə ona görə deyirəm ki, həmin məsələlərə bir daha diqqət yetirəsiniz»[185].

Heydər Əliyev yanvarın 9-da xaricdə yaşayan soydaşlarımızın bir qrupu ilə görüşdə yaxın qonşumuz olan İranda yaşayan ermənilərin Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə iddialarla əlaqədar apardığı siyasətdə onu dəstəklədiklərini bildirmişdir: «... Bilirsiniz ki, İranda 200 mindən çox erməni yaşayır və şübhəsiz ki, onlar da Ermənistanı dəstəkləyirlər, yardım edirlər. Ermənistanın heç bir ölkəyə çıxışı yoxdur. Amma necə olur ki, belə bir balaca ölkə və Azərbaycanın içində olan Dağlıq Qarabağ (keçmişdə ona vilayət deyirdik, burada

yüz min erməni yaşayırdı və indi o da yoxdur) gəlib Azərbaycan torpaqlarını işğal edirlər? ...Azərbaycanı belə bərbad hala qoyublar. Digər tərəfdən isə erməni lobbisi Ermənistan silahlı qüvvələrinə kömək edib. Ermənistan üçün hər yer qapalıdır. Azərbaycandan gedən dəmir yolu bağlıdır. Gürcüstandan gedən dəmir yolunda vəziyyət çox ağırdır. Ermənistana hava yolu ilə ərzaq, silah, sursat gəlir. Bu ölkənin nə elə bir iqtisadiyyatı, nə də elə bir sənayesi yoxdur ki, Ermənistanın böyük varı olsun. Varı yoxdur, amma yaşayır, müharibə edir, müharibəyə çox böyük xərclər çəkir. Bunların isə hamısı xaricdən gəlir, hamısını xaricdəki lobbilər təmin edir. ...Mən Ermənistan prezidenti Ter-Petrosyanla Aşqabadda görüşərkən o dedi ki, Ermənistan bu müharibədə iştirak etmir, döyüşləri ancaq Dağlıq Qarabağ erməniləri aparır. Lakin indi bizim əlimizə keçən sənədlər sübut edir ki, orada vuruşanların 90 faizi Ermənistandan, eləcə də başqa ölkələrdən gələn ermənilərdir. Bunların hamısını artıq sübut etmək imkanımız var. Əvvəllər əlimizdə dəyərli sübutlar yox idi. Amma indi öz torpaqlarımızı azad edəndə, əsirlər götürəndə, əlimizə əşyayi-dəlillər, sənədlər keçirəndə biz artıq tam cəsarətlə deyirik ki, Ermənistan təcavüzkardır. Bu, əvvəl də belə idi. Amma indi buna etiraz etməyə, bunu təkzib etməyə Ermənistan tərəfinin əsası yoxdur»[186].

Heydər Əliyev 1994-cü il yanvarın 31-də Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm rol oynaya biləcək Rusiya Federasiyasının məsələyə yanaşması haqqında həmin dövlətin xarici işlər nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri V.Kazimirovla görüşündə demişdir: «... Təəssüf ki, bəzi informasiya orqanlarının yaydıqları birtərəfli informasiyalar ucbatından əsil vəziyyət barəsində heç də həmişə düzgün təsəvvür yaranmır. Halbuki, müharibə Azərbaycan ərazisində gedir, Azərbaycan ərazisi olan Dağlıq Qarabağ tamamilə erməni silahlı birləşmələrinin nəzarəti altındadır, üstəlik, onlar Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən yeddi rayona da nəzarət edirlər. Sizin vasitəçiliyinizlə biz, barışıq haqqında

dəfələrlə saziş bağlamışıq. Hər dəfə də bu sazişlər onunla nəticələnmişdir ki, erməni tərəfi sazişi pozmuş və yeni-yeni rayonları işğal etmiş, məsələni öz mənafeyi naminə zor mövqeyindən həll etmək üçün daha da irəliləməklə hədələmişdir. Bu gün mən sizə bildirmək istəyir və bunu Rusiya Federasiyasının rəhbərliyinə çatdırmağı xahiş edirəm ki, biz hərbi əməliyyatların dayandırılmasına, bu qanlı müharibəyə son qoyulmasına tərəfdarıq. Lakin müəyyən şərtlərlə. Bu şərtlər də şıltaqlıq deyildir, onlar real surətdə yaranmış vəziyyətdən irəli gəlir»[187].

O, həmin dövrdə hərbi əməliyyatların necə davam etməsini və siyasi proseslərin təsirini xatırladırdı: «Son vaxtlar hərbi əməliyyatların yenidən başlanmasına gəldikdə, deməliyəm ki, bu da bizim təşəbbüsümüzlə deyil, erməni silahlı birləşmələrinin təşəbbüsü ilə başlanmışdır. Onlar, hədə-qorxu gəldikləri kimi, öz planlarını həyata keçirməyə, Azərbaycanın yeni-yeni rayonlarını işğal etməyə can atırlar ki, öz şərtlərini daha sərt şəkildə irəli sürsünlər. Amma bu dəfə belə cəhdlər baş tutmamış, ermənilər Azərbaycan Silahlı Qüvvələrinin layiqli müqavimətinə rast gəlmiş, çoxlu itkilərə məruz qalmışlar. Müharibə getdiyi şəraitdə itkilər labüddür, hər iki tərəf itkilərə məruz qalır, lakin dediyiniz kimi, hücuma keçən tərəf daha böyük itkilərə məruz qalır. Bəli, hücum edən tərəf ermənilərdir. Buna görə də, onlar daha böyük itkilər verirlər. Bunu siz də bilməlisiniz. Erməni mənbələri ictimaiyyəti aldadaraq iddia etməməlidir ki, guya beş min azərbaycanlı həlak olmuşdur. Görəsən, onlar bunu necə hesablamışlar? Bu, doğru deyildir. Bir halda ki, onlar hücum edir, deməli, daha çox itkilərə də onlar məruz qalırlar. Biz tərəfdən də itkilər var. Lakin bu gün mən sizə açıq bildirirəm: biz ədalətli müharibə aparırıq, ona görə ki, öz ərazimizdəyik, biz istəyirik ki, öz torpağımızı işğalçılardan, Ermənistan silahlı qüvvələrindən dinc vasitələrlə baş tutmasa, hərbi yolla təmizləyək. Adamlarımız öz Vətənini müdafiə edərək həlak olur, özü də qəhrəmancasına həlak olurlar. Bəs ermənilər bizim

torpağımızda – Füzuli, Ağdam, Kəlbəcər, Ağdərə rayonlarında və müharibə gedən digər rayonlarda nə üçün həlak olurlar? Mən də bilmirəm ki, bu itkilər erməni xalqının xeyrinədirmi? ...Fürsətdən və kütləvi informasiya vasitələri nümayəndələrinin burada olmasından istifadə edərək, erməni xalqına müraciət etmək istəyirəm: bu müharibəyə son qoymaq lazımdır. Erməni və Azərbaycan xalqları əsrlər boyu yanaşı yaşayıblar və yanaşı yaşayacaqlar. Tale onları qonşu edib və deməli, düşmənçilik həmişə davam edə bilməz. Ermənistanın müxtəlif rayonlarından erməni gəncləri zorla Azərbaycan ərazisinə göndərilir və onlar Kəlbəcərdə, Füzulidə, digər yerlərdə həlak olurlar. Məgər bu, erməni xalqına lazımdırmı? Bu barədə bizim çoxlu sübutlarımız var. Hərbi əsirlərin, hətta mötəbər adamların ifadələri var. Məsələn, onlardan biri Ermənistanın Qukasyan rayonunun sabiq partiya komitəsinin birinci katibidir. O, vaxtilə Bakı Ali Partiya Məktəbində təhsil almışdır. Bu adamlar bildirirlər ki, onları müharibəyə zorla göndərir, onlara və ailələrinə hədə-qorxu gəlirlər. Buna görə də, onların çarələri qalmır: ya orada həlak olmalıdırlar, ya da burada. Son hərbi əməliyyatlar həqiqətən fəal surətdə aparılır, bu əməliyyatların şiddətlənməsinə səbəb isə erməni silahlı birləşmələrinin hücumudur. Lakin onlar bu dəfə yanılmışlar, çünki indi Azərbaycan Ordusu bir neçə ay bundan əvvəlki ordu deyildir. İndi o, müdafiə olunmaq, öz torpaqlarını qorumaq və Azərbaycanın işğal edilmiş rayonları ərazisində döyüş əməliyyatları aparan erməni silahlı birləşmələrinə layiqli cavab vermək iqtidarındadır. Buna görə də, mən erməni xalqına və Ermənistan rəhbərliyinə müharibəyə son qoymaq çağırışı ilə müraciət edirəm. Bilmək lazımdır ki, güc mövqeyindən yeridilən siyasət bir nəticə verməyəcəkdir. Biz Azərbaycan Respublikası üçün, Azərbaycan xalqı üçün hər hansı təhqiramiz sazişə heç cür yol verməyəcəyik ...Öz suveren respublikamızı, onun ərazisini qorumaq üçün bizim kifayət qədər qüvvə və imkanlarımız var. Siz fevralın 1-dən barışıq təklif edir və bunu ATƏM-in Minsk qrupunun yeni sədrinin öz vəzifəsinə başlaması ilə bağ-

layırsınız. Mən yeni sədri salamlayıram. Lakin bununla yanaşı, xatırlatmaq istəyirəm: Minsk qrupunun sabiq sədri cənab Rafaelli ötən ilin iyulunda Bakıda olmuşdu, biz onunla görüşdük və çox fəal əməkdaşlıq etdik. O, sonra Ağdamda oldu. Biz onun gətirdiyi sənədlə – qoşunların Kəlbəcər rayonundan çıxarılması cədvəli ilə tamamilə razılaşdıq. Lakin o, Azərbaycandan çıxıb getməmiş, erməni silahlı qüvvələri Ağdam rayonunu qəsb etdilər. Biz Minsk qrupunun yeni sədri cənab Eliassonun fəaliyyətə başlamasını yeni sülhsevər addımla əlamətdar etməyə hazırıq. Bəs erməni tərəfi buna hazırdırmı? Faktlar bunun əksini göstərir. Axı, Ermənistan Minsk qrupunu da, Rafaellinin özünü də təhqir etmişdir»[188].

Heydər Əliyev V.Kazimirovun bu məqamda ikibaşlı oyun oynadığını da diqqətə çatdırmışdır: ermənilər «... zənnimcə, Ermənistan Rusiya Federasiyasının xüsusi nümayəndəsi Vladimir Nikolayeviç Kazimirovu da təhqir etmişdir. O, xoş məramla, burada beş gün ərzində üzərində işlədiyimiz sazişin layihəsi ilə Qazaxdan Ermənistana gedərkən atəşə tutulmuş və yalnız möcüzə nəticəsində sağ qalmışdır. O vaxtlar Rusiya Xarici İşlər Nazirliyi və Rusiya Federasiyasının Nazirlər Soveti layiqli bəyanat vermiş, amma erməni tərəfi heç üzr də istəməmişdir. Lakin biz bunu unuda bilmərik. Belə düşünürəm ki, bunu siz də unutmamalısınız. Hər halda, biz razılaşa bilmərik ki, Ermənistan öz hökmünü yeritsin. Bu tərəfdaşla sülh dilində danışmaq olduqca çətindir və buna siz özünüz də şahidsiniz. Siz Ermənistanda, Dağlıq Qarabağda, Xankəndidə olmusunuz, lakin bilmirəm onlar dalda-bucaqda sizdən üzr istəyiblər, ya yox. Əslində isə onlar rəsmi surətdə üzrxahlıq etməmişlər»[189]. Diqqət edin, bu faktların mənası aydın deyilmi? Halbuki, sonralar Qarbağ müharibəsinə dair kitab yazan, İrəvanda və Xankəndində onun təqdimatını keçirən V.Kazimirov bunları üzə vurmamışdır. Baş verənləri şərh edən Heydər Əliyev «Bu isə beynəlxalq praktikada görünməmiş faktdır» - deyərək, bu prosesləri və bununla bərabər

Azərbaycan rəhbərliyinin normal diplomatik münasibətini diqqətə çatdırır: «Sizin buraya gəlişinizi və təşəbbüslərinizi böyük məmnunluqla qarşıladım. Fürsətdən istifadə edərək, erməni xalqına, Azərbaycan vətəndaşları olan Dağlıq Qarabağın erməni sakinlərinə üz tutub, onları ağıl-kamala çağırıram, çünki bu çoxillik müharibə heç nə verməmişdir. Mənə söylədilər ki, Martuni rayonundan olan əsir düşmüş bir gənc demişdir: «Biz müharibə etmək istəmirik, biz burada yaşamışıq və azərbaycanlılarla dostcasına yaşamaq istəyirik, onlara qarşı heç bir iddiamız yoxdur. Lakin bizi məcbur edir, oraya zor gücünə göndərirlər. Elə adamlar var ki, bizi bu müharibəyə təhrik edirlər». Mən Dağlıq Qarabağın bütün sakinlərinə müraciət edərək, onları silahı yerə qoymağa çağırıram, Azərbaycan Respublikasının Prezidenti kimi Dağlıq Qarabağda yaşayan bütün ermənilərin Azərbaycanın bərabərhüquqlu vətəndaşları tək tam təhlükəsizliyinə təminat verirəm. Biz, bu şərtlərlə hərbi əməliyyatları dayandıra bilərik, barışıq müqaviləsi bağlaya, saziş əldə edə bilərik»[190].

Heydər Əliyev 1994-cü fevralın 8-də Türkiyə Cümhuriyyəti Prezidentinin iqamətgahı «Çankaya» köşkündə rəsmi qarşılanma mərasimindəki nitqində demişdir: «Məlumdur ki, bir neçə vaxt bundan əvvəl ABŞ, Türkiyə və Rusiya Azərbaycanla Ermənistan arasında olan müharibəni bitirmək üçün, süni surətdə yaradılmış «Qarabağ problemi»ni həll etmək üçün təşəbbüs irəli sürmüşdülər. Biz, bu təşəbbüsləri də alqışlamışıq, bəyənmişik və onların həyata keçirilməsinə çalışmışıq. Biz, bu gün də beynəlxalq təşkilatların köməyi ilə, böyük dövlətlərin, o cümlədən bizim dostumuz və qardaşımız Türkiyə Cümhuriyyətinin köməyi ilə bu məsələlərin sülhlə həll olunması yolundayıq. Ancaq indi Azərbaycan Respublikasının ordusu formalaşmaqdadır. Xalqımızda vətənpərvərlik ruhu yüksəlib, formalaşıb. İndi ordumuz, Azərbaycan vətəndaşları öz torpaqlarının müdafiəsi üçün qanlı döyüşlər aparırlar. Bizim başqa bir dövlətdən torpaq

iddiamız yoxdur. O cümlədən Ermənistana da indi bir torpaq iddiamız yoxdur. Baxmayaraq ki, tarixən bizim torpaqlarımızın bir qismi Ermənistanın əlinə keçib. Biz, indi ancaq Azərbaycan Respublikasının BMT tərəfindən qəbul olunmuş, təsdiq olunmuş hüdudları çərçivəsində onun ərazisinin bütövlüyünü təmin etmək istəyirik. İndi müharibə Azərbaycan torpağında gedir. Erməni silahlı qüvvələri, işğalçılar Azərbaycan torpağındadırlar. Biz onların Azərbaycan ərazisindən çıxarılması, torpaqlarımızın işğalçılardan azad olunması üçün ədalətli müharibə aparırıq, döyüşlər aparırıq. Bildiyiniz kimi, artıq bu döyüşlərdə Azərbaycan xalqı, ordumuz cəsarət və qəhrəmanlıq göstərir, sizi əmin edirəm ki, bundan sonra da göstərəcəkdir. Bu məsələnin həll olunmasında biz sülh yolunu əsas tutaraq, torpaqlarımızın müdafiəsi uğrunda ədalətli müharibə aparırıq».[191]

Azərbaycan Prezidenti ertəsi gün nitqində Türkiyə Böyük Millət Məclisində çıxışı zamanı demişdir: «... 1987-ci ilin təxminən sonundan Azərbaycanı parçalamaq, dağıtmaq niyyətində olan düşmən qüvvələr Qarabağ problemini ortaya atdılar. O vaxtdan bəri Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Bu dövrdə biz, Türkiyədən daim yardım almışıq, mənəvi sahədə, dövlət quruculuğu sahəsində, beynəlxalq meydanda və başqa sahələrdə kömək görmüşük. Bu gün etiraf etməliyəm ki, təəssüflər olsun, biz Türkiyənin Azərbaycana göstərdiyi qayğı və münasibətin müqabilində lazımi tədbirlər görə bilməmişik. Əgər fəaliyyətimiz bizə göstərilən qayğı və kömək səviyyəsində olsaydı, bu gün Azərbaycanın vəziyyəti bundan yaxşı olardı. Lakin bu da həqiqətdir ki, altı ildir Azərbaycan müharibə şəraitindədir. Elə bu müharibə şəraitində də Azərbaycanın daxilində çox böyük dəyişikliklər olmuşdur. Həmin dövrdə Azərbaycanda müxtəlif siyasi qüvvələr arasında hakimiyyət uğrunda mübarizə getmişdir. Bu mübarizə Azərbaycanın dövlətçiliyini, Azərbaycanın hələ qurulmamış, təşəkkül tapıb formalaşma-

mış ordusunu və müdafiə imkanlarını zəiflətmişdir. Erməni silahlı qüvvələri, erməni təcavüzkarları da bütün bunlardan istifadə edərək, Azərbaycana hücumlarını davam etdirmişlər. Nəticədə, Azərbaycan torpaqlarının 20 faizi hazırda erməni işğalı altındadır. Əgər ilk vaxtlar söhbət Dağlıq Qarabağdan gedirdisə, indi Dağlıq Qarabağ tamamilə erməni silahlı qüvvələrinin, Ermənistanın nəzarəti altındadır. Bildiyiniz kimi, bundan sonra Dağlıq Qarabağ ətrafındakı rayonlar Ermənistan tərəfindən işğal olunmuşdur. Qeyd etdiyim kimi, bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin düşərək qaçqın-köçkün vəziyyətində yaşayır. Bütün bunlar Azərbaycanın müstəqilliyinə, müstəqil dövlət kimi inkişaf etməsinə çox böyük maneçilik törədir. Lakin biz nikbinik. Biz hesab edirik ki, müstəqilliyimiz əbədidir, bu müstəqilliyi heç vaxt, heç vəchlə əldən verməyəcəyik ...»[192].

Heydər Əliyev həmin gün Ankarada Dünya ölkələrinin Türkiyədəki səfirləri və diplomatik heyətlərinin üzvləri ilə görüşdə də çıxış etmişdir: «Ermənistan ilə Azərbaycan arasındakı münaqişə son altı ildə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlıdır. «Qarabağ problemi» kimi meydana çıxmış məsələ indi artıq Ermənistanla Azərbaycan arasında qanlı müharibəyə çevrilmişdir. Bu müharibə nəticəsində Ermənistan silahlı qüvvələri müəyyən imkanlardan istifadə edərək, Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdir. Keçmiş Dağlıq Qarabağ Vilayəti indi tamamilə Ermənistan silahlı qüvvələrinin nəzarəti altındadır. Bundan əlavə, keçmiş Dağlıq Qarabağ Vilayətinin ətrafında olan bir neçə rayon da Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Azərbaycan-İran sərhədinin bir hissəsinə də Ermənistan silahlı qüvvələri nəzarət edir. Bütün bunların nəticəsində bir milyondan artıq azərbaycanlı ev-eşiyindən, obasından qaçqın düşmüşdür və çox ağır şəraitdə yaşayır. Azərbaycan bu müharibəyə son qoymaq istəyir, bütün imkanlardan istifadə edərək bu problemi sülh yolu ilə həll etməyə çalışır. Bu-

nun üçün Azərbaycan ilk növbədə Birləşmiş Millətlər Təşkilatının, onun Təhlükəsizlik Şurasının imkanlarına çox ümid bəsləyir, ATƏM-in, onun Minsk qrupunun imkanlarından, böyük dövlətlərin, o cümlədən Amerika Birləşmiş Ştatlarının, Türkiyənin, Rusiyanın vasitəçilik imkanlarından istifadə etməyə çalışır və bu istiqamətdə bir çox diplomatik addımlar atmışdır. Təəssüf ki, bütün bu tədbirlərimiz indiyədək nəticə verməmişdir. Müharibə gedir, döyüşlər davam edir, yenə də qan tökülür. Onu da bilmək lazımdır ki, müharibə Azərbaycan torpağında gedir. Ermənistanla Azərbaycan arasında gedən bu müharibədə Ermənistan öz torpağının bir qarışını da itirməmişdir. Biz bu müharibəyə son qoymağa çalışırıq. Bir daha qeyd edirəm ki, biz bu istiqamətdə üstünlüyü yenə də yalnız və yalnız sülh məramına, sülh yoluna, sülh danışıqlarına veririk. Güman edirəm ki, dünya dövlətlər birliyi bu məsələnin sülh yolu ilə həll olunması üçün gərək daha çox səy göstərsin və Azərbaycanla Ermənistan arasında müharibəyə son qoyulsun, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü tamamilə təmin olunsun. Təəssüf ki, Ermənistan tərəfi məsələni güc yolu ilə, zor yolu ilə həll etmək istəyir, işğal olunmuş torpaqları əlində saxlamağa və Azərbaycanın yeni ərazilərini qəsb etməyə çalışır. Beləliklə də çalışır ki, öz iddialarını Azərbaycana qəbul etdirsin. Biz isə, şübhəsiz ki, buna heç vəchlə razı ola bilmərik»[193].

1994-cü il fevralın 10-da İstanbulda «Sülh və səbr» beynəlxalq dini konfrans nümayəndələri qarşısında çıxışı zamanı Heydər Əliyev demişdir: «Siz bilməlisiniz ki, Azərbaycan ilə Ermənistan arasında altı il bundan öncə, «Qarabağ problemi» əsasında meydana gəlmiş münaqişə indi artıq böyük müharibəyə çevrilmişdir. Güman edirəm, bizim xalqlarımız – həm Azərbaycan xalqı, həm də erməni xalqı belə bir münaqişəni istəmir. Təəssüf ki, ayrı-ayrı ekstremist, millətçi, avantürist qruplar, şəxsi məqsədlərinə nail olmağa çalışan qruplar xalqlarımızı bu münaqişəyə cəlb etmişlər və dediyim kimi, həmin

münaqişə böyük bir müharibə şəklini almışdır. Müharibənin də nəticəsi bu gün ondan ibarətdir ki, erməni silahlı qüvvələri Azərbaycana qarşı təcavüz edərək ərazimizin 20 faizini işğal etmişdir. Azərbaycanın işğal olunmuş ərazisindən bir milyondan artıq vətəndaşımız ev-eşiklərini, el-obalarını itirərək qaçqın düşmüşdür və onlar indi çox ağır şəraitdə yaşayırlar. Biz müharibə istəmirik, ona son qoymağa çalışırıq, Ermənistanla Azərbaycan arasında sülh yaratmaq istəyirik. Çünki erməni xalqı ilə Azərbaycan xalqı əsrlər boyu qonşu olmuşdur və gələcəkdə də yan-yana yaşayacaqlar. Başqa yol yoxdur. Ona görə də bu müharibənin gələcəyi yoxdur, onun nəticəsi ancaq sülh olmalıdır. Sülh isə bir şərtlə ola bilər: iki dövlətin, iki respublikanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilsin, yəni Azərbaycanın ərazi bütövlüyü təmin edilsin, erməni işğalçıları Azərbaycan ərazisindən çıxsınlar və azərbaycanlılar öz torpaqlarında yaşaya bilsinlər. Ermənistanın ərazi bütövlüyünə də heç kim qəsd etmək istəmir, onun da sərhədlərinin toxunulmazlığı təmin olunsun. Bu, sadə formula, sadə prinsipdir. Ancaq, bunu həyata keçirmək üçün böyük maneələr var və bunlardan biri də odur ki, bayaq dediyim kimi, altı ilə yaxındır müharibə gedir. Biz Ermənistana torpaq iddiası etmirik. Ancaq, öz torpaqlarımızı da, şübhəsiz ki, Ermənistana verə bilmərik»[194].

Heydər Əliyev beynəlxalq aləmdə təbliğ etdiyi erməni böhtanlarından da danışmışdır: «Ermənistanın güclü təbliğatı nəticəsində dünyanın bəzi dairələrində belə bir fakir yaranmışdır ki, guya Azərbaycan dövləti, Azərbaycan hökuməti Dağlıq Qarabağda yaşayan ermənilərı qırmaq, o ərazidən qovmaq istəyir. Bunların hamısı yalandır. Belə iddiaların heç bir əsası yoxdur. Mən bir həqiqəti sizin qarşınızda məsuliyyətlə bəyan edirəm: Azərbaycan hökumətinin, Azərbaycan xalqının respublikada yaşayan ermənilərə qarşı heç bir zorakılıq niyyəti, yaxud onları zorla buradan çıxarmaq məqsədi yoxdur. Onlar öz yerlərində rahat yaşaya bilərlər və Azərbaycan dövləti, şəxsən bir prezident kimi mən onların tamamilə

təhlükəsiz, sərbəst yaşamasına, öz milli ənənələrindən, mədəniyyətlərindən, dinindən, dilindən azad surətdə istifadə etməklə həyatlarını qurmasına təminat verirəm. Əvvəllər də belə olmuşdur. Dağlıq Qarabağda münaqişə başlayanadək əhalinin 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar idi. Ancaq, bu münaqişə nəticəsində, sonra isə başlanmış bu böyük müharibə nəticəsində orada yaşayan 50 min nəfər azərbaycanlı öz ölkəsində, öz dövlətində qaçqın düşmüşdür və Dağlıq Qarabağa qayıtmaq imkanları yoxdur. Ona görə də əgər biz insan hüquqlarının qorunmasından danışırıqsa, şübhəsiz ki, ermənilərin də, azərbaycanlıların da hüquqları qorunmalıdır. Çünki o ərazidə həm ermənilər, həm də azərbaycanlılar yaşamışlar. Orada ermənilərin və azərbaycanlıların yan-yana, dostcasına, mehriban yaşamaları üçün şərait yaratmağa imkanımız var. Belə şərait illər boyu olmuşdur və bundan sonra da olacaqdır. Son vaxtlar Ermənistan-Azərbaycan münaqişəsi, müharibəsi ilə əlaqədar ayrı-ayrı mətbuat orqanlarında təhlükəli şayiələr də yayılmışdır. Bu da ondan ibarətdir ki, bəzi adamlar qəsdən belə fikir yaymağa çalışırlar ki, guya bu müharibə xristian-müsəlman müharibəsinə çevrilə bilər. Bunlar əsassızdır, əvvəlcədən düşünülmüş, fitnəkar xarakter daşıyan təbliğatdır. Mən belə fikirlərə etirazımızı bildirir və onları rədd edirəm. Sizi əmin etmək istəyirəm ki, bizim fəaliyyətimiz ancaq Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar tərəfindən tanınmış və qəbul olunmuş ərazi bütövlüyünü təmin etməyə, sərhədlərimizin toxunulmazlığını təmin etməyə yönəldilmişdir» [195].

Heydər Əliyev həmin gün Türkiyədə yaşayan azərbaycanlılarla görüşdə də Qarabağ məsələsinə toxunmuşdur: «Dağlıq Qarabağ artıq tamamilə erməni silahlı qüvvələrinin işğalı altındadır. Dağlıq Qarabağdan kənarda da Azərbaycan torpaqlarının bir qismi erməni işğalçılarının əlindədir. Ona görə də indi, müharibə getdiyi bir dövrdə Azərbaycanın müstəqilliyini əldə saxlamaq asan bir iş deyildir. Bir həqiqəti də bilmək lazımdır

ki, ötən altı ildə Azərbaycana xaricdən təcavüz edilib, bu təcavüz isə ancaq təkcə Ermənistanın təcavüzü deyil, Azərbaycanı parçalamaq, dağıtmaq, onun güclü bir dövlət olmasına imkan verməmək məqsədi daşıyan qüvvələrin hamısının birlikdə təcavüzüdür. Belə təcavüzə məruz qaldığı bir dövrdə Azərbaycan qüvvələrini toplayıb özünü müdafiə etmək əvəzinə, respublikanın daxilində parçalanma getmişdir. Bundan istifadə edən ayrı-ayrı qruplar, siyasi qüvvələr hakimiyyət davası etmişlər. Ölkənin içərisində gedən hakimiyyət davası dövründə Ermənistan bu imkanlardan istifadə edərək, Azərbaycan torpaqlarını zaman-zaman, bir-birinin ardınca işğal etməyə nail olmuşdur. İndi işğal olunmuş torpaqları azad etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək asan məsələ deyil. Biz Ermənistan silahlı qüvvələri ilə üz-üzə durub vuruşuruq. Siz bunu da bilirsiniz ki, dünyada Ermənistanı dəstəkləyən qüvvələr nə qədər çoxdur. Ermənistanı o tərəfdən də, bu tərəfdən də, şərqdən də, qərbdən də, şimaldan da, cənubdan da dəstəkləyirlər. Belə bir dövrdə müharibəni aparmaq, torpaqlarımızı azad etmək üçün, şübhəsiz ki, bizim hamımızın birgə gücü lazımdır. Bu baxımdan biz Türkiyənin köməyinə, dəstəyinə həmişə arxalanmışıq və bundan sonra da arxalanacağıq. Şübhə etməyin ki, Azərbaycan xalqı bu ağır sınaqdan da çıxacaq, öz torpaqlarını azad edəcək, öz müstəqilliyini qoruyub saxlayacaq, xalqımız özünün bütün ərazisində öz taleyinin sahibi olacaqdır. 1993-cü il Azərbaycan üçün daha da ağır il oldu. Bilirsiniz ki, müharibə getdiyi bir dövrdə Azərbaycanın içində vətəndaş müharibəsi təhlükəsi meydana çıxdı. Gəncədə, Bakının ətrafında qardaş qanı töküldü» [196].

Azərbaycan Respublikasının Prezidenti 1994-ci il fevralın 11-də İstanbulda Mətbuat Mərkəzində keçirdiyi mətbuat konfransında öz fikirlərini açıq şərh etmişdir: «Hətta ATƏM-in, onun Minsk qrupunun fəaliyyətinə hörmətsizlik edərək, Minsk qrupunun sədri cənab Mario Rafaelli Azərbaycanın Yuxarı Qarabağ və Ağdam bölgələrinə səfər edib gedəndən bir neçə gün sonra erməni silahlı qüvvələri respublikamızın

Ağdam şəhərini işğal etdilər. Beləliklə, yaqin ki, sizdən ötrü aydındır: Ermənistan tərəfi məsələni zor ilə, güc ilə həll etmək istəyir. Azərbaycan Respublikasını diz çökdürmək, öz iddialarını həyata keçirmək istəyir. Biz isə beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışırıq. Diplomatiya yoluna daha çox üstünlük veririk. Bunları görən erməni silahlı qüvvələri onları dəstəkləyən xarici qüvvələrin və ayrı-ayrı qrupların yardımı ilə Azərbaycanın yeni-yeni ərazilərini işğal etməyə çalışır. Belə bir vəziyyətdə Azərbaycan xalqı öz gücünü, qüdrətini toplamalı idi. Yəni bir halda ki, bizim sülhsevər siyasətimiz nəticə vermir, deməli döyüş yolu ilə torpaqların azad edilməsinə nail olmalı idik. Bunu əvvəl də etmək lazım idi. Təəssüflər olsun, tam qətiyyətlə demək olar ki, əvvəlki illərdə Azərbaycanda sağlam, bir mərkəzdən idarə olunan və güclü ordu olmamışdır. Azərbaycanla Ermənistan arasında gedən müharibədə Azərbaycan tərəfi pərakəndəliyə yol vermiş, ayrı-ayrı siyasi qüvvələr, siyasi qruplar dövlət vəzifələrində olarkən yalnız öz siyasətini yeritmiş, bu isə Azərbaycanı zəiflətmiş, yaxud da ona qüvvələrini toplamağa imkan verməmişdir. Erməni silahlı qüvvələri isə bu fürsətdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə başlamışdır. Təsəvvür edin ki, Azərbaycanın bəzi torpaqları işğal olunarkən heç döyüş də getməmişdir. Erməni silahlı qüvvələrinin bir neçə tankının bölgəyə girməsi və daxildə ayrı-ayrı təxribatçı qrupların hay-küy salması nəticəsində adamlar həmin bölgələrdən qaçmışlar. Məsələn, indi Kəlbəcər bölgəsində ay yarımdır ki, qanlı döyüşlər gedir. Azərbaycan ordusu işğal olunmuş Kəlbəcər torpaqlarının bir hissəsini geri almışdır. Ancaq bu, asan başa gəlmir, erməni silahlı qüvvələri güclü müqavimət göstərirlər. Azərbaycan ordusunun üstünlüyü nəticəsində erməni qüvvələri böyük itki verərək geri çəkilirlər. Halbuki, bir il bundan öncə erməni silahlı qüvvələri heç bir döyüş əməliyyatı aparmadan, asanlıqla Kəlbəcər bölgəsini işğal etmiş və oranın 60 min nəfər

əhalisi hay-küyə uyaraq öz yerlərindən qaçıb getmişdi. Yəni demək istəyirəm ki, Azərbaycan son illərdə ordu yaratmaq üçün lazımi tədbirlər görmədiyinə, öz torpaqlarını etibarlı müdafiə etmək üçün ordusu olmadığına görə erməni silahlı qüvvələri üstünlük əldə etmişlər. Ona görə də biz son aylarda Azərbaycan ordusunun yaradılmasına çox fikir veririk. Şübhəsiz ki, belə böyük iş qısa müddətdə həyata keçirilə bilməz. Ancaq biz, müharibə şəraitini nəzərə alaraq, gecə-gündüz bu məsələ ilə məşğul oluruq və bu iş ilk nəticələrini verir. Həmin nəticələr isə ondan ibarətdir ki, əvvəlki illərlə müqayisədə indi Azərbaycan xalqında milli şüur, torpaqları müdafiə etmək əhval-ruhiyyəsi, vətənpərvərlik əhval-ruhiyyəsi, döyüş ruhu, qəhrəmanlıq ruhu yüksəlmişdir. İndi Azərbaycan əsgərləri, zabitləri qorxmadan, çəkinmədən döyüşə girir, erməni silahlı qüvvələrinə ağır zərbələr endirərək çox yerlərdə onları geri oturdur və işğal olunmuş kəndləri, qəsəbələri geri almağa çalışırlar»[197].

Heydər Əliyev görüş zamanı verilən suallara da cavab verərkən mövcud vəziyyəti dəqiqliklə qiymətləndirmişdir. Jurnalistin verdiyi «ermənilərin Qarabağla əlaqədar belə bir son təklifi var ki, erməni qüvvələri Azərbaycan torpaqlarının bir hissəsindən çıxarıldıqdan sonra Dağlıq Qarabağda sülh qüvvələri yerləşdirilsin» sualına cavabında demişdir: «Sizə bildirdim və bir də deyirəm ki, biz Ermənistanla Azərbaycan arasındakı müharibəyə son qoymaq istəyirik, bu məsələni sülh, danışıqlar yolu ilə həll etməyə çalışırıq. Lakin son vaxtlar erməni silahlı qüvvələri Azərbaycan ordusundan ağır zərbələr aldığına görə ermənilər təklif etmişdilər ki, üç həftəlik atəşkəs haqqında saziş bağlansın və bu müddətdə Rusiyanın vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında danışıqlar aparılsın. Biz bu təklifi rədd etmədik, lakin öz şərtlərimizi irəli sürdük. Bu da ondan ibarətdir ki, erməni silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarını sözsüz tərk etsin. Belə olarsa, biz hər cür sülh danışıqlarına gedə bilərik. An-

caq bizə deyirlər ki, gəlin üç həftəlik atəşkəs elan edək və bu müddətdə danışıqlar aparaq. Lakin bilmirəm ki, nədən danışacağıq? Çünki keçmişdəki danışıqlar zamanı Ermənistan həmişə Azərbaycanın zərərinə olan təkliflər irəli sürmüşdür. Bu təkliflər bizə əl vermədiyinə görə razılaşmamışıq»[198].

Heydər Əliyev 1994-cü il fevralın 23-də Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı zamanı demişdir: «Qarşımızda Azərbaycanın xəritəsi asılmışdır. Siz burada Azərbaycanı, onun sərhədlərini, Naxçıvan Muxtar Respublikasını aydın görürsünüz. 1923-cü ildən Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti mövcud olmuşdur. 1987-ci ilin axırlarında – 1988-ci ilin əvvəllərində «Qarabağ münaqişəsi» deyilən süni surətdə yaradılmış münaqişə baş vermişdir. Dağlıq Qarabağ əhalisinin 70 faizi ermənilər, 30 faizi isə azərbaycanlılar idi. Lakin Dağlıq Qarabağ ərazisində yaşamış bütün azərbaycanlılar, daha doğrusu, 50 min azərbaycanlı təcavüzkar hərbi əməliyyatlar nəticəsində həmin ərazidən qovulmuşdur. Bu bir yana, erməni silahlı birləşmələri hərbi əməliyyatlarını genişləndirərək Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından çox kənarlarda da Azərbaycan ərazisinin xeyli hissəsini işğal etmişdir. Dediyim kimi, bütün bu ərazidə bir milyon nəfərdən çox adam daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş, qaçqına çevrilmiş və indi son dərəcə ağır vəziyyətdədir. Bura isə İrandır – Azərbaycan İranla həmsərhəddir. Lakin Azərbaycanın həmin rayonlarının işğal olunması nəticəsində Azərbaycanın İranla sərhədinin xeyli hissəsinə indi erməni silahlı birləşmələri nəzarət edirlər»[199].

Heydər Əliyev Dağlıq Qarabağın və erməni əhalisinin taleyi məsələsinə də toxunmuşdur: «O ki qaldı Dağlıq Qarabağın və erməni əhalisinin taleyinə və ya problemlərinə, onlar Azərbaycan vətəndaşlarıdır, buna görə də Azərbaycan dövləti Dağlıq Qarabağın erməni millətindən olan bütün sakinlərinin təhlükəsizliyinə təminat verir. Biz Dağlıq Qarabağın müvafiq statu-

su məsələsinə baxmağa hazırıq, lakin bir şərtlə, erməni silahlı birləşmələri işğal etdikləri ərazilərdən sözsüz, qeyd-şərtsiz çıxarılsın. Bir daha bildirirəm ki, biz bu məsələlərin həllində ən əvvəl beynəlxalq təşkilatların imkanlarına arxalanırıq, habelə dünya siyasətində sanballı siyasi nüfuzu olan Böyük Britaniya kimi böyük ölkə tərəfindən köməyə və həyanlığa, yəni bu problemin həllinə obyektiv münasibət göstərilməsinə ümid bəsləyirik. Bildiyiniz kimi, Azərbaycan ötən ilin sentyabrında Müstəqil Dövlətlər Birliyinin tərkibinə daxil olmuşdur. ... Mən demişəm və bildirirəm ki, Azərbaycan Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə tam təminat verir. Dediyim kimi, erməni silahlı birləşmələri Azərbaycan ərazisindədir və ərazimizin təxminən 20 faizini işğal etmişlər. Onlar çıxıb getməlidirlər. Təhlükəsizliyə təminat verilməsi barədə isə bundan sonra danışmaq olar»[200].

Heydər Əliyev 1994-cü il fevralın 24-də Böyük Britaniyaya rəsmi səfərin yekunlarına dair mətbuat konfransındakı bəyanatında da Dağlıq Qarabağ məsələsindən də bəhs etmişdir: «Bu müharibə süni surətdə törədilmiş, uydurulmuş Dağlıq Qarabağ problemindən başlamış və genişlənərək böyük müharibəyə çevrilmiş, hər iki tərəfdən çoxlu miqdarda insanı həyatdan məhrum etmişdir. İndiyədək davam edən bu müharibənin bizim üçün ən ağır nəticəsi odur ki, Azərbaycan ərazisinin təxminən 20 faizi erməni silahlı birləşmələri tərəfindən işğal olunmuş və respublikanın həmin rayonlarının təqribən bir milyon sakini öz ölkəsində qaçqın vəziyyətinə düşmüş, daimi yaşayış yerlərini, öz ev-eşiklərini tərk etmək məcburiyyətində qalmış, var-yoxlarını tamam itirmişlər. Təbiidir ki, bütün bunlar Azərbaycanın həm iqtisadi, həm də sosial vəziyyətini zəiflədir, başlıcası isə, respublikanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə çox ciddi zərər vurur. ... Erməni tərəfinin məqsədi Dağlıq Qarabağın müstəqilliyinə nail olmaq və Azərbaycanı parçalamaq, Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum

etməkdir. Biz əlbəttə, bununla razılaşa bilmərik və ona görə də problemi danışıqlar yolu ilə həll etməyə səy göstərməklə yanaşı, torpaqlarımızın, ərazimizin müdafiəsi üçün tədbirlər də görürük. Təbii ki, bütün bunlar hərbi əməliyyatlara gətirib çıxarır və həmin əməliyyatlar, təəssüflər olsun, bu gün də davam edir. Lakin bir daha təkrar edirəm ki, biz hərbi əməliyyatların davam etdirilməsini istəmirik, biz məsələnin sülh yolu ilə həllinə tərəfdarıq»[201].

Heydər Əliyev RİTA-SÖTA agentliyinin jurnalistinin "Dağlıq Qarabağ barədə Rusiyanın mövqeyini necə qiymətləndirirsiniz? - sualına cavab verərkən demişdir: «Rusiya məsələnin sülh yolu ilə həllinə nail olmaq üçün səylər göstərir. Rusiya özünün vasitəçilik səylərini təklif edir və bunları reallaşdırmaq üçün bir neçə dəfə cəhdlər olmuşdur. Gərək ki, bir dəfə noyabrın 20-də olmuşdur, o zaman biz hərbi əməliyyatların dayandırılması və erməni silahlı birləşmələrinin işğal edilmiş ərazilərdən çıxarılması haqqında Rusiyanın iştirakı ilə Azərbaycanla Ermənistan arasında sazişin layihəsini almışdıq. Lakin o vaxt bu təşəbbüs reallaşmadı. Xüsusi tapşırıqlar üzrə səfir, Rusiya prezidentinin şəxsi nümayəndəsi Vladimir Kazimirov Azərbaycandan Ermənistana gedərkən Azərbaycan ərazisində erməni silahlı qüvvələri tərəfindən atəşə tutuldu. Xarici işlər nazirinin və hətta Nazirlər Soveti rəhbərliyinin şəxsində Rusiya rəhbərliyi erməni tərəfinin Rusiya prezidentinin xüsusi nümayəndəsinə qarşı, əgər belə demək olarsa, etikadan kənar mövqeyi ilə əlaqədar çox kəskin bəyanatla çıxış etdi və üzr istəməyi tələb etdi. Lakin erməni tərəfi bunu etmədi. Beləliklə, həmin danışıq prosesi yarımçıq qaldı. Bununla belə, Rusiya bu gün də məsələni sülh yolu ilə həll etmək üçün səylər göstərir»[202].

Prezident Heydər Əliyev 1994-cü il martın 4-də Prezident sarayında keçirilən müşavirədə beynəlxalq təşkilatların fəaliyyətindən bəhs edərkən demişdir: «ATƏM-in Minsk qrupunun böyük bir heyəti respublikamıza gəlmişdir. Mən

Minsk qrupunun yeni sədri, çox təcrübəli diplomat Yan Eliasson ilə görüşərək danışıqlar aparmışam. Onunla birlikdə gələn qrup Dağlıq Qarabağda da olmuşdur. Ermənistana da gedəcəkdir. Qayıtdıqdan sonra mən onlarla yenə görüşəcəyəm. Biz başqa vasitələrdən də istifadə edirik. Rusiya bu problemin sülh yolu ilə həll edilməsi barədə təkliflərini vermişdir. Biz bunları da rədd etməmişik. Əgər səmərəli olarsa, həmin təkliflərdən də istifadə etmək fikrindəyik. Ancaq mən hər yerdə demişəm və bu gün də deyirəm ki, yalnız bir şərtlə: Azərbaycanın müstəqilliyi toxunulmazdır, onun ərazi bütövlüyü təmin olunmalıdır və erməni silahlı qüvvələri işğal edilmiş torpaqlarımızdan dərhal çıxarılmalıdır. Başqa yol ola bilməz. Bildiyiniz kimi, müdafiə nazirimiz fevralın 18-də Ermənistanın və Rusiyanın müdafiə nazirləri ilə görüşmüş və atəşin kəsilməsi haqqında razılıq əldə olunmuşdur. Biz bunu təmin etdik. Lakin erməni silahlı qüvvələri dünən Füzuli rayonunun ərazisində güclü hücuma keçdi və qanlı döyüşlər oldu. Ordumuz öz mövqelərini etibarlı müdafiə edərək düşmənə güclü zərbə vurdu. Lakin atəşkəs haqqında sazişi pozan ermənilər həmişəki kimi, tələsik hay-küy qaldıraraq, guya Azərbaycan ordusunun hücuma keçməsi barədə car çəkmişlər. Rusiya televiziyasının «Vesti» proqramı da dərhal bu məlumatı yaymışdır. Şübhəsiz, bu, bizim təbliğatımızın zəifliyidir. Bəla burasındadır ki, Xalq Cəbhəsinin də təbliğatı ermənilərin təbliğatı ilə eynidir. Onlar ermənilərdən yalnız bir şeyi – təbliğat sahəsində çevikliyi əxz etmişlər. Kimə isə bir balaca toxunan olsa, «Vesti» bu barədə də dərhal xəbər verir. Bir daha təkrar edirəm: dünən «Vesti» proqramında xəbər verilmişdir ki, guya Azərbaycan tərəfi hücuma keçmişdir. Bunu eşidərkən mən məsələni araşdırdım və bəyan edirəm ki, Azərbaycan əsgərləri heç bir istiqamətdə hücuma keçməmişlər. Erməni silahlı qüvvələri atəşkəs müddətindən istifadə edərək hücuma keçmişlər. Azərbaycan Ordusunun hissələri Füzuli istiqamətində düşmənə layiqli müqavimət

göstərərək onun bir neçə zirehli texnikasını, çoxlu canlı qüvvəsini məhv etmişdir. Şübhəsiz ki, bizim tərəfdən də itki var. Mən bu gün səhər də həmin məsələlərlə məşğul olmuşam və göstəriş vermişəm ki, müdafiə qüvvələrimiz öz mövqelərində sayıq dayansın. Ola bilər ki, ermənilər fitnəkarlıq məqsədilə hücuma keçmiş və öz əməllərini bizim üstümüzə atmışlar. Ona görə də Minsk qrupunun rəhbəri Dağlıq Qarabağdan qayıdanda bu barədə onunla danışacağam. Biz belə ağır şəraitdə işləyirik. Bir tərəfdən hər gün Ermənistanın fitnəkarlıqları ilə qarşılaşır, digər tərəfdən isə daxildəki təxribatçıların əməllərinin şahidi oluruq»[203].

Heydər Əliyev 1994-cü il martın 8-də Çin Xalq Respublikasına rəsmi səfər zamanı Pekində mətbuat konfransındakı bəyanatla çıxış etmişdir: «Ermənistanın respublikamıza hərbi təcavüzü ilə bağlı müharibə Azərbaycan üçün ağır problemdir. Ermənistan bu müharibəyə Azərbaycan ərazisinin bir hissəsini – Dağlıq Qarabağı qoparmaq və onu Ermənistana birləşdirmək məqsədilə başlamışdır. Müharibə bütövlükdə bölgəmizdə vəziyyəti mürəkkəbləşdirmiş, Azərbaycan və Ermənistan xalqlarını böyük müsibətlərə düçar etmişdir. Təəssüf ki, hərbi əməliyyatlar indi də davam edir, adamlar həlak olur, qan tökülür. Bu, təkrar edirəm, Azərbaycan Respublikası üçün ən ağır amildir. Təəssüflər olsun ki, bəzi dairələrdə, dünyanın bəzi ölkələrində bu münaqişəni Dağlıq Qarabağda yaşayan erməni əhalisinin guya muxtariyyət almaq cəhdi ilə bağlayırlar. Bu, həqiqətə uyğun deyildir və belə fikir, görünür, bəzi yerlərdə fəal erməni təbliğatı və dünya ictimaiyyətinə yalan məlumat verilməsi nəticəsində yaranmışdır. Erməni əhalisi Dağlıq Qarabağda muxtariyyətə malik idi, yəni bu bölgə Azərbaycanın tərkibində təxminən 70 il muxtar vilayət kimi mövcud olmuşdur. Orada əhalinin təqribən 70 faizini ermənilərin, 30 faizini isə azərbaycanlıların təşkil etdiklərini nəzərə alaraq, Dağlıq Qarabağa muxtar vilayət statusu verilmişdi. Bu münaqişə ona görə yaranmışdır ki, muxtariyyət yox idi, əksinə, ona görə yaranmışdır ki, Ermənistan Respublikasında və Dağlıq Qarabağda müəyyən dairələr Dağlıq Qarabağı Ermənistana birləşdirməyə can atırdılar. Təbii ki, Azərbaycan öz ərazisinin bir hissəsinin qoparılıb digər respublikaya birləşdirilməsi ilə razılaşa bilməzdi. Münaqişənin yaranmasına səbəb də məhz bu olmuşdur. ... Zənnimcə, ayrıca sübut etməyə lüzum yoxdur ki, bu, hərbi təcavüzdür, bir ölkə tərəfindən digər ölkə ərazisi zor gücünə qəsb olunmuşdur. Görünür, dünya birliyinə sübut etməyə lüzum yoxdur ki, bu hərbi təcavüzə son qoymaq gərəkdir»[204].

Heydər Əliyev 9 mart 1994-cü ildə Pekin İctimai Elmlər Akademiyasındakı çıxışında da Dağlıq Qarabağ münaqişəsinə toxunmuşdur: «Biz BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, onun Minsk qrupunun və başqa beynəlxalq təşkilatların imkanlarından, münaqişənin sülh yolu ilə aradan qaldırılmasında rol oynaya biləcək böyük dövlətlərin imkanlarından istifadə edirik və bundan sonra da istifadə edəcəyik, lakin bir şərtlə – işğalçı erməni qoşunları Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Əgər həmin tədbirlər bir nəticə verməsə, Azərbaycan özünün hərbi imkanlarından istifadə edərək ölkənin ərazi bütövlüyünü, dövlətin müstəqilliyini və suverenliyini, sərhədlərinin toxunulmazlığını müdafiə edə biləcəkdir»[205].

Prezident Heydər Əliyev 1994-cü il aprelin 12-də Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi ilə əlaqədar Azərbaycan Televiziyası və radiosu ilə xalqa müraciət etmişdir: «Erməni silahlı qüvvələrinin hücumları dəf olunur və dəf olunacaqdır. Son günlərdə baş vermiş hadisələrlə əlaqədar mən Dağlıq Qarabağda yaşayan, erməni millətindən olan Azərbaycan vətəndaşlarına da müraciət edirəm. Onlar Azərbaycan ərazisində yaşayırlar. Azərbaycan Respublikasının vətəndaşlarıdırlar. Bizə dəqiq məlumdur ki, hətta onlar döyüşlərdə məğlub olaraq geri çəkilərkən onları

arxadan atəşə tutur, silah gücünə döyüş meydanında saxlamağa çalışırlar. Əsirlərin verdikləri məlumatlardan görünür ki, həm Dağlıq Qarabağın əhalisindən olan, həm də Ermənistanın bölgələrindən gələn əsgərlərin əksəriyyətini buraya məcburi gətirirlər. Məsələn, bu günlərdə Goranboy rayonunda əsir düşmüş erməni döyüşçü ifadə vermişdir ki, orada əsgərlərin əksəriyyəti həbsxanadan azad olunmuş adamlardır. Bu məhbuslara orada deyiblər ki, gedin, əgər qarşınızda duran vəzifələri yerinə yetirsəniz, sizin cinayətləriniz bağışlanacaqdır. İrəvandan, Leninakandan, Eçmiədzindən, Ermənistanın başqa bölgələrindən gələn şəxslər də onların buraya məcburi olaraq göndərildiklərini bildirirlər. Ancaq indi mən Dağlıq Qarabağda yaşayan ermənilərə – Azərbaycan vətəndaşlarına xüsusi olaraq müraciət edirəm. Altı ildir ki, siz də bəla içərisindəsiniz, əzab-əziyyətdəsiniz, nə qədər itkilər vermisiniz. Sizin də evləriniz, kəndləriniz dağılıb, yaşayışınız həddindən artıq çətinləşibdir. Sizə nə lazımdır? Bu döyüşlərdə siz də tələf olursunuz, itkilər verirsiniz. Nəyə nail olmusunuz? Altı ildir ki, təcavüzkar, millətçi dairələr sizi – Azərbaycan vətəndaşlarını, Dağlıq Qarabağ sakinlərini mənasız müharibəyə cəlb ediblər. Siz də, Dağlıq Qarabağda yaşamış azərbaycanlılar da, ətraf rayonlarda yaşamış və bu gün də yaşayan azərbaycanlılar da on illərlə dostluq, mehribanlıq şəraitində yaşamısınız. Siz, Dağlıq Qarabağda məskunlaşmış ermənilər 160 ildən artıqdır ki, orada yaşayırsınız. Bu müddətdə baş vermiş bəzi iğtişaşları kənara qoysaq, siz azərbaycanlılarla daim dostluq, mehribanlıq şəraitində yaşamısınız. Nə üçün belə yaşayış sizin üçün münasib olmadı? Siz nə üçün bu müharibəyə, qan tökülməsinə, bu tələfatlara, dağıntılara üstünlük verdiniz? Nə üçün? Aydın, bilin ki, bu müharibənin mənası yoxdur. Təcavüzkar dairələr öz niyyətlərinə, məqsədlərinə nail ola bilməyəcəklər. Azərbaycan Respublikası öz torpaqlarını heç vəchlə əldən verməyəcəkdir. Hələ ki, gec deyil, ziyanın yarısından da qayıtmaq xeyirdir. Bu mü-

haribədən əl çəkin. Bilin ki, biz sizi Azərbaycan vətəndaşları kimi gələcəkdə də qoruyacağıq. Sizin hüquqlarınız qorunacaqdır. Sizə əmin-amanlıq vəziyyətində yaşamaq üçün lazımi şəraiti yaradacağıq. Mən eyni zamanda Ermənistan Respublikasının vətəndaşlarına, erməni xalqına, Ermənistanın rəhbərlərinə, prezident Levon Ter-Petrosyana, Ermənistanda fəaliyyət göstərən siyasi partiyalara, onların başçılarına müraciət edirəm və bildirmək istəyirəm ki, bu təcavüzkar siyasətin mənası yoxdur! Siz bundan əl çəkin! Sübut etməyə ehtiyac yoxdur ki, bu müharibə Ermənistanın təcavüzkar, millətçi dairələri tərəfindən başlanıbdır və Ermənistan xalqına heç bir xeyir gətirməyibdir ... Bir məsələni də nəzərə çatdırmaq istəyirəm ki, erməni silahlı qüvvələrinin son üç gündə Azərbaycan torpağına, hərbi hissələrimizin mövqelərinə hücumları heç də təsadüfi baş verməmişdir. Təxminən bir ay bundan öncə ATƏM-in Minsk qrupunun yeni başçısı Yan Eliasson böyük bir heyətlə Azərbaycanda, Ermənistanda olmuş, danışıqlar aparmış, Minsk qrupunun fəaliyyətinin daha da güclənməsi haqqında bizə məlumatlar vermişdir. Aprelin 11-də, yəni dünən Praqa şəhərində Minsk qrupunun Dağlıq Qarabağ problemi ilə əlaqədar iclası başlanmışdır. Məhz bu günlərdə, həmin iclasda Azərbaycan və Ermənistan nümayəndələrinin iştirak etdiyi bir vaxtda Ermənistan silahlı qüvvələri belə güclü hücumlara keçmişlər. Bildiyiniz kimi, aprelin 14-15-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyi dövlət başçılarının görüşü keçiriləcək, mühüm məsələlər müzakirə olunacaqdır. Bu ərəfədə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hücumları da yəqin ki, bir məqsəd daşıyır: ola bilər ki, bu hücumlarla Azərbaycana və onun rəhbərliyinə təsir göstərmək istəyirlər. Ancaq böyük səhv edirlər. Heç kəs bizə təsir edə bilməz! Biz Azərbaycan Respublikasının müstəqilliyini qorumuşuq və bundan sonra da qoruyacağıq. Biz müstəqilliyimizin keşiyində nəyin bahasına olursa-olsun durmuşuq»[206].

Heydər Əliyev 1994-cü il aprelin 15-də MDB Dövlət Başçıları Şurasının iclasında Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində genişmiqyaslı hücumları ilə əlaqədar bəyanatında demişdir: «Ermənistan Respublikası qəbul edilməsi əvvəlcədən mümkün olmayan şərtlər irəli sürməklə hər cür əməli təklifə əngəl törədir. Onun irəli sürdüyü şərtlər Azərbaycan ərazisində hərbi əməliyyat meydanı yaratmış Ermənistan Respublikasının işğal etdiyi əraziləri Dağlıq Qarabağ üçün müstəqil dövlət statusuna dəyişmək, yəni əslində Azərbaycan Respublikasını parçalamaq məqsədi daşıyır»[207].

Heydər Əliyev 1994-cü il aprelin 17-də Prezident sarayında keçirilən müşavirədə demişdir: «Mətbuat konfransında həm mənə, həm də Ermənistan prezidentinə sual verləndə mən o suala qısa cavab verdim. Lakin Ermənistan prezidenti belə bəyanat verdi ki, guya Ermənistan bu müharibədə iştirak etmir və müharibə yalnız Azərbaycanla Dağlıq Qarabağ arasında gedir. O, eyni zamanda qeyd etdi ki, Ermənistan Rusiyanın təqdim etdiyi plana elə buradaca, bu stol arxasında, buraya toplaşanlarla birlikdə imza atmağa hazırdır. Sual olunur, əgər Ermənistan müharibədə iştirak etmirsə, müharibə edən tərəf deyilsə, onda Ermənistan hansı hüquqla və nəyə görə belə bir planı, belə bir sazişi imzalamaq istəyir? Yəni özləri öz əməllərini artıq büruzə verdilər və ictimaiyyətə göstərdilər ...Müşahidələr, cəbhə bölgələrindən bizə verilən məlumatlar göstərir ki, bu, yalnız Ermənistan silahlı qüvvələrinin özlərinin apardığı hücumlar deyil, müşahidələr göstərir ki, kənar qüvvələr o hücumların təşkil olunmasında fəal iştirak edirlər. Bunlar da cəbhədə vəziyyəti həddindən artıq gərginləşdirir. Eyni zamanda onu da qeyd etməliyəm ki, Azərbaycan Ordusunun hissələri belə ağır, dəhşətli hücumlara, mən bunu aldığım məlumatlara görə deyirəm, çox güclü hücumlara layiqli cavablar verirlər. Döyüşçülərimiz vətən yolunda həlak olurlar, şəhid olurlar, ancaq torpaqlarımızı müdafiə edirlər»[208].

Azərbaycan Prezidenti 1994-cü il mayın 4-də Brüsseldə NATO Şurasının iclasındakı çıxışında da Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrindən və onun həllində Azərbaycanın mövqeyindən bəhs etmişdir: «Sizə yaxşı məlumdur ki, Azərbaycan ərazisinin bir hissəsini ilhaq etmək, Dağlıq Qarabağı Ermənistana birləşdirmək məqsədi güdən Ermənistanın hərbi təcavüzü nəticəsində erməni silahlı birləşmələri Azərbaycan ərazisinin xeyli hissəsini işğal etmişlər. Altı ildən bəri davam edən müharibə nəticəsində 20 mindən çox adam həlak olmuş, təqribən 4 min nəfər əsir düşmüş və ya girov götürülmüş, Azərbaycan ərazisində minlərlə yaşayış evi, xəstəxana, məktəb, sosial obyekt, sənaye və kənd təsərrüfatı müəssisəsi məhv edilmişdir. Ölkəmizə milyardlarla dollar zərər dəymişdir. Lakin ən dəhşətlisi odur ki, Azərbaycan ərazisinin 20 faizə qədəri erməni silahlı birləşmələri tərəfindən işğal olunmuşdur və bu rayonların sakinləri – bir milyondan çox adam yaşayış yerlərini itirmişdir, çox ağır sosial-iqtisadi vəziyyətdədir və öz ölkəsində qaçqına çevrilmişdir. Dağlıq Qarabağın ərazisində yaşayan azərbaycanlıların hamısı oradan qovulmuşdur. Dağlıq Qarabağ və onun ətrafında Azərbaycanın daha yeddi rayonu, bayaq dediyim kimi, erməni silahlı birləşmələrinin işğalı altındadır. Biz həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılmasına tərəfdar olmuşuq və indi də bu mövqedəyik.

Artıq bütün bunlara dözmək mümkün deyildir. Ona görə də mən bu gün burada, NATO-nun iqamətgahında olmağımdan istifadə edərək, Azərbaycanın mövqeyini bir daha bəyan edirəm. Biz bu məsələnin sülh yolu ilə həllinə, atəşin və bütün hərbi əməliyyatların dərhal dayandırılmasına, işğalçı qoşunların Azərbaycan ərazisindən dərhal çıxarılmasının və bu zaman onun ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin edəcək danışıqlara tərəfdarıq. Biz bu şərtlərlə Dağlıq Qarabağın muxtariyyət statusu haqqında məsələni nəzərdən keçirməyə hazırıq»[209].

Heydər Əliyev həmin gün Brüsseldə beynəlxalq mətbuat

mərkəzində keçirilən mətbuat konfransında suallara cavabında demişdir: «O ki qaldı Ermənistanın Azərbaycanla münaqişəsində Rusiyanın Ermənistana köməyi, Azərbaycana təzyiq göstərmək, o cümlədən də neftlə bağlı problemlərə görə təzyiq göstərmək istəməsi barədə ikinci suala bir şey deyə bilərəm: Ermənistan ərazisində Rusiyanın qoşunları, hərbi bazaları var. Azərbaycan ərazisində Rusiya qoşunları yoxdur. Ermənistan ilə Azərbaycan arasında müharibə gedir. Döyüşlər bir gün belə ara vermir. Ermənistan ərazisi isə hər halda çox da geniş deyil, Azərbaycan ərazisindən üç dəfə kiçikdir. Odur ki, özünüz nəticə çıxarın»[210].

Heydər Əliyev 1994-cü il iyunun 18-də «Rossiyskaya qazeta»nın müxbirinə müsahibəsində demişdir: «Bu müharibəni Azərbaycan tərəfi başlamamışdır. İndi nə baş verdiyini təhlil etməyə lüzum yoxdur, amma mən bütün bunların nə vaxt baş verdiyi barədə bir şey demək istəyirəm. Azərbaycan vahid, mərkəzləşdirilmiş dövlətin – SSRİ-nin tərkibində idi və buna görə də İttifaq rəhbərliyi münaqişə yaranmasına imkan verməyə bilərdi. Yaxud da bu münaqişə başlasaydı, onun inkişafının qarşısını ala bilərdi. Təəssüf ki, belə olmadı. Qarabağ münaqişəsi SSRİ ərazisində ilk münaqişə idi, indi isə baxın, nə qədər qaynar nöqtə yaranmışdır»[211].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il iyulun 6-da «Utro Rossii» qəzetinə müsahibəsində demişdir: «Biz ədalətli sülh istəyirik. Erməni qoşunları Dağlıq Qarabağdan başqa bütün Azərbaycan ərazilərini azad etməlidirlər. Yalnız bundan sonra Qarabağın statusu haqqında normal danışıqlar prosesi mümkündür. Zənnimcə, bu şərtlər tamamilə qəbul edilə bilər` ...Qarabağ müharibəsi keçmiş Sovet İttifaqı ərazisində baş verən ən birinci və ən uzun sürən millətlərarası münaqişədir. Bu münaqişə təəssüf ki, özündən sonra gələn əksər münaqişələrin prototipinə çevrilib. Deməli, Qarabağ müharibəsindən yaxa qurtarmaq da beynəlxalq təcrübənin işlədiyi klassik sxem üzrə həyata

keçirilməlidir»[212].

Heydər Əliyev 1994-cü il iyulun 11-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində mətbuat konfransında bəyanatında demişdir: «... Ermənistan Azərbaycanın ərazisində mövcud olan, keçmişdə Dağlıq Qarabağ Vilayəti adlanan əraziyə iddia edir və orada yaşayan əhalinin çox hissəsi erməni olduğuna görə həmin ərazini Ermənistana birləşdirmək istəyir. Həmin Dağlıq Qarabağda yaşayan 50 min nəfər azərbaycanlı da ermənilər tərəfindən oradan zorla çıxarılmışdır və indi qaçqın vəziyyətindədir. Azərbaycanın bir sıra başqa məntəqələri kimi, Dağlıq Qarabağ da erməni silahlı qüvvələrinin işğalı altındadır»[213].

Azərbaycan Respublikasının Prezidenti mətbuat konfransında jurnalistin verdiyi «Dağlıq Qarabağ məsələsinin Kəraçidə ilk dəfə olaraq İslam Konfransı Təşkilatının gündəliyinə daxil edilmişdir. Bu yaxınlarda Tunisdə islam dövlətləri xarici işlər nazirlərinin növbəti görüşündə Azərbaycan iştirak edəcəkmi və əgər edəcəksə, həmin məsələ ilə bağlı həqiqəti bildirəcəkmi və müəyyən bir qərar layihəsi təqdim edəcəkmi?» - sualına cavabında demişdir: «İslam dövlətlərinin keçirdikləri hər bir tədbirdə Azərbaycanın nümayəndələri iştirak edəcəklər, buna heç kəsin şübhəsi olmasın. Xarici işlər nazirlərinin Tunisdə keçiriləcək görüşündə Azərbaycan xarici siyasət idarəsinin başçısı Həsən Həsənov iştirak edəcəkdir. O, indi burada əyləşmişdir. Ancaq sizdən xahiş edərdim ki, sizin qəzetiniz və başqa qəzetlər Tunisdə olacaq həmin görüşdə bu məsələnin müzakirə edilməsinə və qəti qərar qəbul olunmasına kömək etsinlər. Biz öz təkliflərimizi, layihəmizi təqdim edəcəyik. Ancaq arzu edərdim ki, islam dövlətlərinin hamısı həmin təkliflərin həyata keçirilməsi üçün səy göstərsin»[214].

Heydər Əliyev jurnalistin «Ermənistan ilə Azərbaycan arasındakı müharibə neçə ildir davam edir. Bu müddətdə islam dünyasından nə kimi kömək görmüsünüz?» - sualına

cavabında demişdir: «Az-çox kömək görmüşük. Ancaq qeyri-islam dövlətlərinin Ermənistana etdikləri yardım qədər islam dövlətləri Azərbaycana kömək göstərsəydilər, biz erməni silahlı qüvvələrini ərazimizdən çoxdan qovaraq, torpaqlarımızı azad etmişdik»[215].

Heydər Əliyev 1994-cü il sentyabrın 28-də ABŞ-a rəsmi səfəri zamanı Kolumbiya Universitetinin Harriman İnstitutunda keçirilən mətbuat konfransında verilmiş suala cavabında demişdir: «Məlumdur ki, ATƏM-in vasitəçiliyi nəticəsində atəşkəs əldə edilmişdir. Bu da məlumdur ki, Rusiya təkid edir ki, bölgəyə gələcək sülhyaratma qüvvələri əsasən Rusiya qüvvələrindən ibarət olsun. Bundan əlavə, Rusiya bu yaxınlarda imzalanmış neft müqaviləsi ilə əlaqədar narazılığını bildirir, hərçənd konsorsiuma Rusiya şirkəti də daxildir. Rusiyanın çəkiləcək neft kəmərinin marşrutu məsələsi ilə əlaqədar da etirazı var. Rusiya israr edir ki, bu neft kəməri onun ərazisindən keçsin...». «Rusiyanın Azərbaycanda və bütövlükdə Cənubu Qafqazda oynadığı rol barədə fikrinizi bilmək istərdik» - sualına cavabında demişdir: «Sual kompleks xarakter daşıdığına görə, mən də ona kompleks şəkildə cavab verirəm. Bu ölkələrin həyatında Rusiyanın nə kimi rol oynadığını bilmirəm, Rusiya MDB-nin tərkibindədir, buraya isə keçmişdə Sovet İttifaqı respublikaları olmuş 12 müstəqil dövlət daxildir. Şübhə yoxdur ki, Rusiya istər öz iqtisadi potensialına, istər əhalisinin sayına, istərsə də ərazisinə görə aparıcı dövlətdir. Əlbəttə, Rusiya böyük rol oynayır. Azərbaycan ilə Ermənistan arasında cari il mayın 12-də əldə olunmuş və bu günədək davam edən barışıq dediklərimə sübutdur. Bəli, bu, gərgin danışıqlarımızın, ən əvvəl, bilavasitə Ermənistan ilə Azərbaycan arasında danışıqların, ATƏM-in Minsk qrupunun vasitəçiliyinin, eləcə də Rusiya Federasiyasının fəal vasitəçiliyinin nəticəsidir. Ermənistan ilə Azərbaycan arasında münaqişənin tamamilə aradan qaldırılması, sülhyaratma qüvvələrindən istifadə edilməsi məsələsində

ATƏM-in Minsk qrupu ilə Rusiya arasında müəyyən ziddiyyətlər var. Lakin mən belə düşünürəm ki, bu, hələ işin başlanğıcıdır. Buna görə də indi müəyyən bir qiymət vermək istəməzdim. Azərbaycan öz mövqelərində möhkəm durmuşdur. Biz Azərbaycanın ərazi bütövlüyünü təmin etməli, müharibəyə son qoymalı, insanlara sülh şəraitində yaşamaq imkanı verməliyik. Biz bundan ötrü beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə həmişə çalışmışıq və bu gün də çalışırıq. Bu məsələ ilə ATƏM və onun Minsk qrupu fəal məşğul olduğuna görə, biz onlara böyük ümidlər bəsləyirik. Lakin biz, əlbəttə, Təhlükəsizlik Şurasının üzvü olan böyük dövlətlərə də ümidlə müraciət edirik ki, bu məsələdə onlar da yaxından iştirak edəcəklər».[216]

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il sentyabr 29-da BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışında demişdir: «Altı ildir ki, Azərbaycan torpağını müharibə alovu bürüyüb. Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin etnik qrupunun öz müqəddəratını təyin etmək hüququnu reallaşdırması bəhanəsi ilə dövlətimizin ərazilərinin ilhaqı, onun dövlət sərhədlərinin zorakılıqla dəyişdirilməsi və azərbaycanlı əhalinin öz doğma ev-eşiyindən zorla çıxarılması planlarını açıq-aşkar həyata keçirir.

Bütün bunlar xalqların öz müqəddəratını təyin etməsi hüququnun əsassız olaraq hər hansı bir etnik icmanın öz müstəqilliyini özbaşına elan etmək və başqa dövlətin tərkibinə daxil olmaq hüququ kimi yozulması ilə pərdələnir. Öz müqəddəratını təyin etmək hüququnun bu cür yozulması dövlətin suverenliyi və ərazi bütövlüyü prinsipləri ilə kəskin ziddiyyət təşkil edir. Bu hüququ mütləqləşdirmək sahəsində hər hansı bir cəhd amansız münaqişələrə gətirib çıxarır. Biz regionumuzda və planetimizin başqa guşələrində bunun şahidi olmuşuq.

BMT-nin baş katibi cənab Butros Qali də bu məsələ ilə

əlaqədar öz narahatlığını bildirmişdir. O demişdir: «Əgər hər bir etnik, dini və ya linqvistik qrup dövlətçilik tələb etsə, onda bölgünün həddi olmayacaq və dünyada sülhün, təhlükəsizliyin və iqtisadi firavanlığın əldə edilməsi daha çətin olacaqdır». Mən hörmətli Butros Qalinin belə bir fikri ilə də tam şərikəm ki, «təşəkkül tapmış beynəlxalq sistem çərçivəsində xalqların öz müqəddəratını təyin etməsi və dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi kimi eyni dərəcədə qiymətli və mühüm olan məsələlərin bir-birinə ziddiyyət təşkil etməsinə yol vermək olmaz».

Regionumuzda baş verən hadisələr haqqında dünya ictimaiyyətinin kifayət qədər məlumatlı olmadığını, bəzi hallarda isə birtərəfli məlumatı olduğunu bilərək, sizi real vəziyyətlə qısaca tanış etmək istərdim. Ermənistan Respublikası Azərbaycanın Dağlıq Qarabağ regionunun ərazisində qoşun qruplaşması yaradaraq, respublikamıza qarşı fəal döyüş əməliyyatları aparmışdır. Şuşa şəhəri və Laçın rayonu işğal edildikdən sonra Dağlıq Qarabağın ilhaqı başa çatdırılmış, Dağlıq Qarabağda yaşayan təxminən 50 min azərbaycanlı oradan qovulmuşdur. Erməni silahlı birləşmələri Dağlıq Qarabağ platsdarmından istifadə edərək, bundan sonra hücumun gedişində Azərbaycanın digər altı rayonunu – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüquqlarından Laçın rayonu kimi kənarda olan və sahəsi keçmiş vilayətin sahəsindən dörd dəfə çox olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarını işğal etmişlər. Təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Mən Azərbaycan tərəfinin dəhşətli itkilərini sizə deməliyəm: 20 mindən çox adam həlak olmuşdur, 100 minə yaxın adam yaralanmış və xəsarət almışdır, 6 min adam əsir düşmüşdür, bir milyondan çox azərbaycanlı – ölkə əhalisinin təxminən 15 faizi qaçqın vəziyyətinə düşmüşdür və çadır şəhərciklərində yaşayır. Onlar öz vətənində evsiz-eşiksiz qalmışlar, yayın istisindən, qışın soyuğundan, epidemiyalardan əzab çəkirlər, ən zəruri şeylərə ehtiyac duyurlar. Azərbaycanın işğal edilmiş ərazilərində 700 şəhər və kənd dağıdılmışdır. Həmin şəhər və kəndlərdə demək olar, bütün evlər, məktəblər, xəstəxanalar yandırılmış və talan edilmiş, qədim mədəniyyət abidələri məhv edilmişdir.

Zənnimcə, sübut etməyə ehtiyac yoxdur ki, belə bir vəziyyətdə biz «öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsi» ilə deyil, beynəlxalq hüququn kobudcasına pozulması ilə, BMT üzvü olan dövlətin suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı təcavüzlə qarşılaşmışıq. Müharibə xalqımı dözülməz vəziyyətə salır, sosial gərginliyi gücləndirir, Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsinə yönəldilmiş iqtisadi və siyasi islahatların həyata keçirilməsinə mane olur. Müharibə nəticəsində Azərbaycan xalqına milyardlarla Amerika dolları məbləğində çox böyük maddi ziyan vurulmuşdur. İnsan tələfatına vurulmuş mənəvi ziyan, xalqın dərd-bəlası isə heç nə ilə ölçülməzdir.

...Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi ilə əlaqədar son iki il ərzində Təhlükəsizlik Şurasının 4 qətnaməsi və onun sədrinin 6 bəyanatı qəbul edilmişdir. Bütün qətnamələrdə Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təsdiq edir, ərazi ələ keçirmək üçün zor tətbiq edilməsinin yolverilməzliyini qeyd edir, Azərbaycanın işğal edilmiş bütün rayonlarından bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasını qətiyyətlə tələb edir.

Lakin bütün bu qərarlara Ermənistan Respublikası hələ də qətiyyən məhəl qoymur. Bundan əlavə o, Azərbaycanın işğal edilmiş ərazilərində öz hərbi qüvvələrini artırmaqda davam edir.

Digər tərəfdən, Təhlükəsizlik Şurası da qəbul edilmiş

qətnamələrin mexanizmini işə salmamışdır. Belə bir sual meydana çıxır: Təhlükəsizlik Şurası nə dərəcədə ardıcıl və qətiyyətlidir, hər bir konkret halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir?

Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər. Regional münaqişələrin aradan qaldırılmasında toplanmış təcrübə göstərir ki, qətnamələrin yerinə yetirilməsi sahəsində səylər yalnız BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlərlə möhkəmləndirildikdə müvəffəqiyyət gətirir. Beynəlxalq hüquq normalarını kobud surətdə pozan dövlət barəsində təsirli tədbirlər çox nüfuzlu beynəlxalq təşkilatın dünya birliyi qarşısında borcudur.

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün göstərilən səylərdə biz ATƏM kimi nüfuzlu təşkilata da bel bağlayırıq. Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏM-in yaratdığı Minsk qrupu da işğal edilmiş bütün ərazilərin azad olunması və işğalçı qüvvələrin Azərbaycanın hüquqlarından tamamilə çıxarılması, onun suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq miqyasda tanınmış sərhədlərinə hörmət edilməsi zəruriliyinə əsaslanır.

Lakin ATƏM-in müvafiq mexanizmləri olmadığından onun çoxnömrəli vasitəçilik səyləri, təəssüf ki, indiyədək hər hansı bir nəzərəçarpacaq konkret nəticələrə gətirib çıxarmamışdır. Bu gün biz yalnız bir müsbət nəticə əldə etmişik: Rusiya Federasiyasının və ATƏM-in Minsk qrupunun çox böyük səyləri bahasına və fəal vasitəçilik missiyası sayəsində münaqişə zonasında atəşkəs əldə olunmuşdur.

Dörd aydan çoxdur ki, atəş səsləri eşidilmir, qan tökülmür. Bütün bunları biz yüksək qiymətləndiririk. Lakin vəziyyət hər halda son dərəcə mürəkkəb olaraq qalır, atəşkəs isə olduqca kövrəkdir.

Ermənistan Respublikası Azərbaycanın işğal edilmiş ərazilərinin bir hissəsini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun müstəqillik statusu ilə dəyişdirmək kimi əsassız şərtlər irəli sürür. O, Azərbaycanın bu regionunda öz hərbi qüvvələrinin qalmasını və Azərbaycanın Şuşa şəhəri və Laçın rayonu üzərində nəzarətinin saxlanmasını tələb edir ki, bu da əslində, ərazilərimizin ilhaqının təsbit edilməsi deməkdir.

Ermənistan münaqişənin başlanmasınadək Dağlıq Qarabağda mövcud olmuş demoqrafik vəziyyətin bərpasını və azərbaycanlı əhalinin oraya qaytarılmasını, o cümlədən Azərbaycan mədəniyyətinin ən qədim mərkəzlərindən biri olan Şuşaya qaytarılmasını tamamilə istisna edir.

Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədən, bu şərtlərlə beynəlxalq aralayıcı qüvvələri Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunun perimetri boyunca yerləşdirməyi təklif edərək, onları vəziyyətin konservasiyası alətinə, öz ilhaqçı siyasətinin girovuna çevirməyə cəhd göstərir.

Azərbaycan Respublikasının mövqeyi həmişə əməli mövqe olmuşdur və sülhsevər xarakter daşıyır. Bizə vurulmuş bütün ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə zəmanət verməyə hazırıq. Biz regionda kommunikasiyaların, o cümlədən Dağlıq Qarabağ ilə Ermənistan Respublikası arasında humanitar dəhlizin normal işini qarşılıqlı əsasda bərpa etmək tərəfdarıyıq. Biz, lazım gələrsə, münaqişə zonasında beynəlxalq sülhpərvər qüvvələrin yerləşdirilməsinə razıyıq. Biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunu da müzakirə etməyə hazırıq.

Lakin bizim üçün sarsılmaz normalar və prinsiplər də var – bu, Azərbaycanın suverenliyi və ərazi bütövlüyüdür, işğal olunmuş bütün ərazilərin azad edilməsidir, qaçqınla-

rın öz doğma ocaqlarına, o cümlədən 50 min azərbaycanlı qaçqının Dağlıq Qarabağa – öz vətəninə qaytarılmasıdır.

Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olaraq belə hesab edir ki, yalnız Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək yolu ilə təcavüzün nəticələrini aradan qaldıraraq, uzunmüddətli möhkəm sülhün bərqərar edilməsi və regionun bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə sabit və əməli danışıq prosesi aparmaq olar.

Həm də biz beynəlxalq normalara uyğun olaraq, sülhpərvərlərin dəqiq mandata malik olması şərti ilə razılaşdırılmış sülh qərarlarının həyata keçirilməsinin təmin edilməsində dünya birliyinin köməyinə ümid bəsləyirik.

Biz atəşin kəsilməsi haqqında əldə edilmiş razılığı yüksək qiymətləndirərək, başa düşürük ki, bu hələ sülh demək deyil, lakin atəşkəs tezliklə sülh əldə edilməsi üçün lazımi şərait yaradır. Biz sülh sazişi əldə edilənədək və silahlı münaqişəyə tamamilə son qoyulanadək atəşkəs rejiminə əməl etmək əzmində olduğumuzu dəfələrlə bildirmişik. Bu gün mən Birləşmiş Millətlər Təşkilatının yüksək tribunasından bunu bir daha bəyan edirəm.

Biz ATƏM-in Minsk qrupunun və Rusiya Federasiyasının sülhpərvər fəaliyyətini müdafiə edərək onların səylərinin birləşdirilməsinə tərəfdarlıq, münaqişənin aradan qaldırılmasında birincilik uğrunda hər hansı bəhsləşmənin əleyhinə çıxırıq. Belə bəhsləşmə Azərbaycan və Ermənistan xalqlarının eyni dərəcədə ehtiyac duyduqları sülhün əldə edilməsini yalnız çətinləşdirə bilər.

Azərbaycanın işğal olunmuş ərazilərinin tamamilə azad edilməsi barədə tələblərimiz hüquqa uyğun tələblərdir, onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrinə tamamilə uyğundur. Hər hansı bir rayonun ilhaqına cəhd göstərilməsi bizim üçün məqbul deyil və beynəlxalq hüquq normalarına ziddir.

Müharibəyə cəlb olunmağımız nəticəsində respublikada

son dərəcə ağır humanitar vəziyyət yaranmışdır. Yeddi milyonluq ölkədə hər yeddi nəfərdən biri ev-eşiyi, işi, yaşamaq üçün vəsaiti olmayan qaçqındır. Qaçqınlar və köçkünlər misilsiz məhrumiyyətlərə düçar olaraq çadır düşərgələrində yaşayırlar. Amansız qış şəraiti, kifayət qədər qida, dava-dərman olmaması əhalinin ən imkansız olan bu qrupu arasında epidemiya və aclıq təhlükəsi yaratmışdır. Qaçqınlar ilə əlaqədar ekstremal vəziyyətin aradan qaldırılması Azərbaycan dövlətinin başlıca qayğılarından birinə çevrilmişdir.

Respublikamızın təcili çağırışına beynəlxalq təşkilatlar, bir sıra dövlətlər səs verdilər və biz Azərbaycana humanitar yardım göstərilməsində BMT proqramlarının ən iri donorları olan İsveç, Böyük Britaniya, Almaniya, Yaponiya, İsveçrə, Niderland, Danimarka hökumətlərinə ən səmimi minnətdarlığımızı bildiririk. Biz, həmçinin ikitərəfli əlaqələr xətti ilə Azərbaycana xeyli humanitar yardım göstərən Türkiyənin, İranın, Səudiyyə Ərəbistanının və digər ölkələrin hökumətlərinə də minnətdarıq.

Biz Azərbaycanda qaçqınlara və köçkünlərə mühüm kömək göstərmiş BMT-nin qaçqınların işi üzrə ali komissarının idarəsinə, Beynəlxalq Qırmızı Xaç Komitəsinə, BMT-nin Uşaq Fonduna, «Həkimlər sərhəd tanımır» təşkilatına, çoxnömrəli qeyri-hökumət təşkilatlarına da minnətdarıq.

Hörmətli xanımlar və cənablar! Şərq və Qərb sivilizasiyasını vəhdət halında birləşdirən ölkəmizin coğrafi mövqeyindən, sosial-siyasi yönümündən və tarixi-mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində mənim respublikamın roluna və yerinə səciyyəvi təsir göstərir. Məhz öz xüsusiyyətlərimizi başa düşərək və dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq, biz addım-addım irəliləyərək xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq.

Azərbaycan Respublikası beynəlxalq miqyasda tanındığı vaxtdan etibarən biz əksər ölkələrlə bərabərhüquqlu, tarazlaşdırılmış münasibətlər yaratmış və bir çox ümumdünya və regional təşkilatlara daxil olmuş, beynəlxalq münasibətləri-

mizin genişləndirilməsi, müəyyən səbəblər üzündən itirilmiş əlaqələrin bərpa edilməsi üçün ciddi səylər göstərmişik. Biz keçmiş SSRİ-nin ərazisində yaranmış müstəqil dövlətlərlə tarixi, coğrafi, iqtisadi və humanitar əlaqələrə xüsusi əhəmiyyət verərək, istər ikitərəfli münasibətlər əsasında, istərsə də Müstəqil Dövlətlər Birliyi çərçivəsində onlarla, xüsusən Rusiya ilə bərabərhüquqlu əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdar çıxırıq.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya Birləşmiş Krallığı, Fransa, Çin ilə Azərbaycanın dostluq əlaqələri müvəffəqiyyətlə inkişaf edir. Regionumuzun və yaxın regionların Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan kimi ölkələri ilə bizi sıx, mehriban qonşuluq telləri birləşdirir. Bu ölkələrlə biz İslam Konfransı Təşkilatı çərçivəsində də sıx əməkdaşlıq edirik.

Bu ilin mayında NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına Azərbaycanın qoşulması onun siyasi həyatında mühüm hadisə oldu. Bu proqramda bizi ümumi təhlükəsizlik mənafeyi naminə əməkdaşlıq və qarşılıqlı fəaliyyət cəlb edir. Mən Varşava Müqaviləsinin keçmiş üzvlərinin bu proqrama qoşulmasını alqışlayıram. Bu, bütün Avrasiya qitəsində ümid yaradır ki, gələcəkdə onu sülh şəraitində əməkdaşlıq gözləyir və bu əməkdaşlıq bütün xalqların təhlükəsizliyini, inkişafını və tərəqqisini təmin edəcək, yeni cəbhələşmə bloklarının yaranması imkanını həmişəlik aradan qaldıracaqdır. Biz ümid edirik ki, NATO proqramında iştirak Avropada təhlükəsizliyin yeni binasının yaradılmasında ölkəmizin rolunu artıracaqdır»[217].

Heydər Əliyev 1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin 49-cu sessiyasında mətbuat konfransında «Vaşinqton post» qəzetində dərc edilmiş bir məqalədə deyilir ki, Azərbaycan Dağlıq Qarabağı əldən vermək istəyir. Bunu necə başa düşmək olar?» - sualına cavabında demişdir: «Güman edirəm ki, o məqaləni yazan adam çox böyük səhv bu-

raxıb. Necə ola bilər ki, biz öz ərazimizi əldən verək? Belə olsaydı, onda heç altı ildən bəri müharibə aparmaq lazım gəlməzdi. Bu altı ildə Azərbaycan tərəfi 20 min adam itirib. Yüz min nəfərdən çox adam yaralanıb. İşğal edilmiş ərazilərimizdə 700-dən çox şəhər, kənd və qəsəbə dağıdılıb. Belə böyük müharibədən sonra Dağlıq Qarabağı necə əldən vermək olar? Bu birincisi. İkincisi də, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Siz dünyada elə bir ölkə tapa bilərsinizmi ki, o, öz torpağının bir hissəsini başqasına versin? Odur ki, bu, yanlış məlumatdır».[218]

Heydər Əliyev 1994-cü il oktyabrın 30-da Prezident sarayində BMT-nin Baş katibi Butros Butros-Qali ilə görüşdə çıxışında demişdir: «Qeyd etdim ki, altı illik bu müharibə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikası ərazisinin yüzdə iyirmi faizini işğal etmişlər. İşğal olunmuş torpaqlar həm Azərbaycanın daxilində olan Dağlıq Qarabağın ərazisidir, həm də Dağlıq Qarabağın ətrafında olan yeddi rayonun ərazisidir. İşğal olunmuş rayonlardan bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın düşmüşdür. Onlar çox ağır vəziyyətdədirlər, əksəriyyəti çadırlarda yaşayır və çadırlarda olmayanların da yaşadıqları yerlərdə minimum şəraitləri yoxdur. Bunlar hamısı Azərbaycan Respublikasında həm iqtisadi-sosial vəziyyəti, həm də ictimai-siyasi vəziyyəti həddindən artıq gərginləşdirir.

Siz bunu bilirsiniz və bir daha qeyd etmək istəyirəm ki, müharibəni Azərbaycan başlamayıbdır. Azərbaycan sadəcə olaraq müharibəyə cəlb olunmuşdur. Azərbaycanın torpağı, ərazisi olan Dağlıq Qarabağı ələ keçirmək üçün Ermənistan altı il bundan əvvəl bu təcavüzə başlamışdır. Təəssüf ki, Azərbaycana aid olan səbəblərə görə də və daha çox Ermənistana ayrı-ayrı qüvvələr tərəfindən göstərilən yardım nəticəsində Ermənistan Azərbaycan torpaqlarının bir qismini işğal etməyə nail olmuşdur.

Bu müharibə nəticəsində Azərbaycan 20 mindən artıq

vətəndaşını itirmişdir, onlar həlak olublar. Yüz mindən artıq Azərbaycan vətəndaşı yaralanıb, əlil olmuşdur. İşğal olunmuş torpaqlarımızda yaşayış binaları, zavodlar, fabriklər, sosial obyektlər yandırılıb, dağıdılıb. Beləliklə, bu müharibə Azərbaycan xalqına, Azərbaycan Respublikasına həm mənəvi, həm də çox böyük maddi zərər vurmuşdur. Bunların hamısına baxmayaraq, Azərbaycan sülhsevər mövqedədir, bu məsələlərin sülh yolu ilə həll olunmasına çalışır. Ancaq bizim atdığımız sülhsevər addımlar hələ indiyədək öz nəticələrini verməmişdir.

Sizə məlumdur ki, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar məsələ Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında dəfələrlə müzakirə olunmuşdur. Təhlükəsizlik Şurası bu məsələlərlə əlaqədar dörd qətnamə qəbul etmişdir. 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822-ci qətnamə qəbul edilib, bundan sonra Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının işğalı ilə əlaqədar 874, 884 nömrəli qətnamələr qəbul olunmuşdur. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bu qətnamələrin hamısında tələb olunmuşdur ki, erməni silahlı qüvvələri heç bir şərt qoymadan, şərtsiz olaraq, işğal edilmiş torpaqlardan çıxmalıdır və həmin torpaqlar azad olunmalıdır. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində işğalçılıq hərəkətləri ilə bağlı olaraq bu qətnamələrdən başqa, Təhlükəsizlik Şurası sədrinin altı dəfə bəyanatı olmuşdur. Cənab Baş katib, şəxsən sizin özünüz də bu məsələlərlə əlaqədar bir neçə dəfə ciddi bəyanatlar vermisiniz. Ancaq təəssüf ki, bu qətnamələrin və bəyanatların heç birisi həyata keçirilməyibdir. Ermənistan tərəfi BMT Təhlükəsizlik Şurasının, ümumiyyətlə, BMT-nin qərarlarına tabe olmayıbdır və indiyə qədər də tabe olmur. Təəssüf ki, onların beynəlxalq normaları pozması və bu normalara tabe olmaması indiyədək cəzasız qalmışdır.

Məsələlərin sülh yolu ilə həll olunması üçün biz həm BMT ilə, həm də ATƏM təşkilatı ilə çox sıx əməkdaşlıq edirik. ATƏM

təşkilatının çərçivəsində bu münaqişə ilə əlaqədar olaraq xüsusi Minsk qrupu yaradılmışdır. Azərbaycan Respublikası Minsk qrupu ilə, ATƏM təşkilatı ilə daim əməkdaşlıq edir və Minsk qrupunun bu sahədə ciddi fəaliyyət göstərməsi üçün biz öz tərəfimizdən bütün şəraiti yaratmağa çalışmışıq.

Son illər bir neçə dövlət də müstəqil olaraq bu məsələlərin həll olunması üçün təşəbbüslər göstərmişdir. Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə dövlətləri belə təşəbbüslər etmişdir. Biz bu təşəbbüslərdən də istifadə etməyə çalışmışıq. Son vaxtlar Rusiya öz təşəbbüsü ilə bağlı çox fəaliyyət göstərir, bizim məsələlərin həll olunmasında vasitəçilik rolu oynamağa və bu sahədə ciddi səy göstərməyə çalışır. Biz Rusiyanın bu vasitəçilik fəaliyyətindən də səmərəli istifadə etməyə çalışmışıq və çalışırıq. Çünki bizim məqsədimiz məsələni yalnız və yalnız sülh yolu ilə həll etməkdir. Ona görə də bu məsələni ədalətli, faydalı həll etmək təşəbbüsündə olan ölkənin fəaliyyətini qəbul edirik.

Sizə məlumdur ki, Minsk qrupunun, Rusiyanın vasitəçiliyi ilə Ermənistan ilə Azərbaycan arasında bilavasitə aparılan danışıqlar nəticəsində beş aydan çoxdur ki, atəş dayandırılmışdır. Biz bunu mühüm bir nailiyyət hesab edirik. Ancaq, eyni zamanda, bu atəşkəs dövründən böyük bir sülhün yaranması üçün səmərəli istifadə etməyə çalışırıq. Bu sahədə həm Minsk qrupu ilə, həm də Rusiya ilə əməkdaşlıq edirik. Bizim məqsədimiz böyük sülh yaratmaqdır, müharibəyə tamamilə son qoymaqdan ibarətdir.

Məsələni bu cür qoyarkən biz belə hesab edirik ki, birinci mərhələdə erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından, o cümlədən Laçın və Şuşa rayonlarından çıxmalıdır. Dağlıq Qarabağ haqqında məsələ ikinci mərhələdə həll olunmalıdır. İşğal olunan ərazilər azad edilərkən qaçqınlar öz yerlərinə qayıtmalıdır. Əgər biz buna nail ola biləriksə, o cümlədən Laçın və Şuşa rayonları da daxil olmaq şərti ilə, bundan sonra danışıqların ikinci mərhələsin-

də Dağlıq Qarabağın statusunu müzakirə etmək olar və biz bu sahədə də müəyyən addımlar ata bilərik. Biz bu təklifləri edərkən şübhəsiz ki, Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinin təmin olunmasını da nəzərdə tuturuq. Aydındır ki, öz yerlərinə qayıda bilən qaçqınların hamısı qayıtmalıdır, Azərbaycan vətəndaşlarının hamısının təhlükəsizliyi təmin olunmalıdır. Dağlıq Qarabağda olan demoqrafik mənzərə bərpa edilməlidir. Çünki Dağlıq Qarabağda ermənilərlə yanaşı azərbaycanlılar da yaşamışlar. Onlar da öz yerlərinə qayıtmalıdır. Şübhəsiz ki, altı il gedən müharibə nəticəsində qarşılıqlı inamsızlıq, ziddiyyətlər yaranmışdır. Ona görə də bu məsələlər mərhələ-mərhələ həll olunmalıdır. Bütün bunların nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü, ölkəmizin sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Azərbaycan Respublikası müstəqil, suveren respublika kimi öz ərazisinin, öz sərhədlərinin sahibi olmalıdır. Biz ümidvarıq ki, bu məsələlərin həll olunmasında BMT, Təhlükəsizlik Şurası, xüsusən, cənab Baş katib, siz bundan sonra bir çox işlər görə bilərsiniz. Bu məsələlərin həlli ATƏM təşkilatı ilə bağlı olduğuna görə və ATƏM-in tərkibində bu məsələlərin həlli üçün, xüsusi Minsk qrupu yarandığı üçün biz bu məsələlərin ATƏM çərçivəsində, Minsk qrupu vasitəsilə həll edilməsinə üstünlük veririk ...».[219]

Prezident Heydər Əliyev 1994-cü il dekabr 6-da ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxışında demişdir: «... Azərbaycan xalqı Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirəyə böyük əhəmiyyət verir, indiki görüşdən çox şey gözləyir. 1975-ci ildə Helsinkidə ATƏM-in Yekun Aktının imzalanması dünya proseslərinin gedişinə uzunmüddətli müsbət təsir göstərmiş, son illərdə dünyada baş verən əsaslı dəyişikliklərin ilk əlamətlərindən biri olmuşdur. Dünyanın siyasi xəritəsi dəyişmiş, ATƏM-in üzvü olan yeni suveren dövlətlər meydana gəlmişdir ki, onlardan biri də mənim ölkəm – müstəqil

Azərbaycandır.

Müasir şəraitdə ATƏM-in rolu və əhəmiyyəti getdikcə daha da artır. Yeni Avropaya, sərhədlərin və nüfuz dairələrinin olmayacağı Avropaya təkmilləşmiş ATƏM gərəkdir. ATƏM-in fəaliyyətini gücləndirmək, onu demokratikləşdirmə və insan hüquqlarının qorunması proseslərinə təsirli kömək göstərməyə, hələ möhkəmlənməmiş gənc dövlətlərin azadlığına və istiqlaliyyətinə xələl gətirə biləcək təcavüzkarlıq hərəkətlərinin və ya planlarının qarşısını qətiyyətlə almağa, qitəmizin qaynar nöqtələrində sabitliyin bərpasına kömək etməyə qadir olan, «soyuq müharibə» qurtardıqdan sonra Avropa təhlükəsizliyinin yeni binasının dayaqlarından birini təşkil edə bilən səmərəli vasitəyə çevirmək son dərəcə zəruridir.

Azərbaycan Respublikası öz istiqlaliyyətini elan etmişdir və bazar iqtisadiyyatına, çoxpartiyalı sistemə, insan hüquqlarını və şəxsiyyətin azadlığını təmin edən qanunlara malik demokratik dövlət yaradılması yolunda inamla irəliləyir. Keçid dövrünün obyektiv çətinliklərinə, zorla cəlb edildiyimiz altı illik müharibənin nəticələrinə baxmayaraq, biz bu yolun xeyli hissəsini keçmişik və əminik ki, qarşıya qoyduğumuz məqsədlərə çatacağıq.

Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşdur, tərksilah və silahlanma üzərində nəzarət sahəsində beynəlxalq hüquqi öhdəliklərin, o cümlədən Avropada adi silahlı qüvvələr haqqında müqaviləyə aid öhdəliklərin yerinə yetirilməsi xəttinə ciddi əməl edir. Biz bərabərhüquqlu tərəfdaş kimi, iqtisadi cəhətdən dünya birliyinə qoşulmağımızı sürətləndirmək üçün də əlimizdən gələni edir, istər öz qonşularımızla, istərsə də dünyanın bütün ölkələri ilə sıx əməkdaşlığı inkişaf etdiririk. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlədilməsinə dair bu il sentyabrın 20-də dünyanın bir sıra iri şirkətləri ilə müqavilə imzalanması dediklərimə parlaq nümunədir. Xüsusi qeyd etmək istəyirəm ki, bu çox iri in-

vestisiya layihəsinin bir sıra iştirakçıları ATƏM-ə daxil olan ölkələri – ABŞ-nı, Rusiyanı, İngiltərəni, Türkiyəni, Norveçi təmsil edirlər. Ümidvaram ki, həmin müqavilə bu konsorsiumda iştirak edən ölkələrin və xalqların bir-birinə yaxınlaşmasına, bütövlükdə isə Avropada sabitliyin və əməkdaşlığın möhkəmlənməsinə kömək edəcəkdir ...Müşavirənin iştirakçılarına məlumdur ki, altı il bundan əvvəl respublikamızın bir hissəsini – Dağlıq Qarabağı onun əlindən qoparıb almaq məqsədi ilə bizə qarşı təcavüz edilmişdir. Ermənistan Respublikası, Dağlıq Qarabağdakı erməni separatçıları dövlətimizin ərazi bütövlüyünə qarşı geniş hərbi əməliyyatlara əl atmışlar. Azərbaycanın Şuşa şəhəri və Laçın rayonu zəbt olunduqdan sonra, əslində, Dağlıq Qarabağ ilhaq edilmişdir. Dağlıq Qarabağın 50 mindən çox azərbaycanlı yaşamış onlarca yaşayış məntəqəsi dağıdılmış və yandırılmışdır. Dağlıq Qarabağ əməliyyat meydanından istifadə etməklə erməni silahlı birləşmələri Azərbaycanın altı başqa rayonunu – Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən və sahəsi onun sahəsindən dörd dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarını da işğal etmişlər.

Təcavüz nəticəsində Azərbaycanın iyirmi faizindən çoxu işğal olunmuşdur. Mənim həmvətənlərimin 20 mindən çoxu həlak olmuş, təqribən 100 min nəfəri yaralanmış və şikəst qalmış, 6 min nəfəri əsir düşmüşdür, bir milyondan çox azərbaycanlı, yəni respublikanın əhalisinin təqribən on beş faizi doğma yurd-yuvasından qovulmuşdur və hazırda çadır şəhərciklərində yaşayır, ən zəruri ehtiyaclarını ödəyə bilmir. İşğal edilmiş Azərbaycan ərazilərində 700 şəhər və kənd dağıdılmış, yandırılmış, bütün evlər, məktəblər, xəstəxanalar talan olunmuş, ən qədim mədəniyyət abidələri məhv edilmişdir. Münaqişəni aradan qaldırmaq üçün Minsk qrupunun yaradılması haqqında ATƏM-in 1992-ci ilin yazında qəbul etdiyi qərarı Azərbaycan xalqı böyük ümidlə qarşılamışdır. Qrupun tərkibinə münaqişənin iştirakçısı olan Ermənistan

və Azərbaycan ilə yanaşı, dünyanın doqquz nüfuzlu ölkəsi daxildir. Ötən dövr ərzində xeyli iş görmüş bu qrupun fəaliyyətini biz böyük minnətdarlıqla qiymətləndiririk.

Rusiya Federasiyasının vasitəçilik fəaliyyətini qeyd etməyi zəruri sayıram. Onun səyləri və ATƏM-in köməyi ilə yeddi aya yaxındır ki, atəşkəsə əməl edilir və qan tökülmür. Lakin atəşin hər hansı şəkildə kəsilməsi hələ sülh demək deyildir. Tərəflərin mənafeyini və beynəlxalq hüquq normalarını nəzərə alan siyasi saziş imzalanmadan möhkəm və ədalətli sülh ola bilməz. Atəşkəsdən istifadə etməklə biz bu sənədin razılaşdırılıb qəbul edilməsinə intensiv çalışırıq.

Əmin etmək istəyirəm ki, Azərbaycan Respublikası bu prosesdə son dərəcə sülhsevər və əməli mövqe tutur. Təcavüzün ağır nəticələrinə baxmayaraq, biz Ermənistan tərəfinə ədalət və humanizmin əsasında, ATƏM-in prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında sülh təklif edirik. Biz Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə təminat verməyə hazırıq, münaqişə zonasında ATƏM-in sülhü qoruyan qüvvələrinin yerləşdirilməsinə razıyıq. Biz milli azlıq təşkil edən ermənilərin hüquqlarının həyata keçməsi üçün Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın statusunu müzakirə etməyə və Azərbaycanın Dağlıq Qarabağ regionu ilə Ermənistan Respublikası arasında nəqliyyat kommunikasiyalarının normal işləməsini təmin etməyə də hazırıq. Amma bizim üçün sarsılmaz olan normalar və prinsiplər vardır ki, bunlar da sərhədlərin pozulmazlığı, Azərbaycanın ərazi bütövlüyü, işğal edilmiş bütün ərazilərdən erməni silahlı birləşmələrinin çıxarılması, qaçqınların doğma ocaqlarına qaytarılmasıdır.

Bu gün məhz təcavüzkarın BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməkdən və işğal olunmuş bütün Azərbaycan ərazilərindən öz silahlı birləşmələrini mərhələ-mərhələ çıxarmağa razılıq verməkdən boyun qaçırması siyasi saziş əldə edilməsinə mane olur.

Minsk qrupunun üzvləri arasında fikir ayrılıqlarının aradan qaldırılmasından, onların səylərinin Azərbaycan ilə Ermənistan arasında sülhün və sabitliyin bərqərar edilməsi üçün birləşdirilməsindən də çox şey asılıdır.

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün sülhü qoruyan beynəlxalq qüvvələr təşkil etmək sahəsində ATƏM-in sədrinin səylərini biz alqışlayırıq. Mən sədrin çağırışına səs vermiş bütün ölkələrə təşəkkür edir və hamını bu nəcib işdə ona kömək göstərməyə çağırıram.

Xram çayı üzərində olan, Ermənistanı Gürcüstanla birləşdirən körpünün partladılması ilə əlaqədar Ermənistan Respublikasının prezidenti cənab Levon Ter-Petrosyanın bəyanatı məni son dərəcə təəccübləndirdi. Mən baş verən hadisədə Azərbaycan Respublikasının əli olması barədə ittihamları qətiyyətlə rədd edirəm və bu bəyanatı tamamilə sübutsuz, heç bir əsası olmayan bəyanat sayıram. Üçüncü dövlətin ərazisində, döyüş əməliyyatı zonasından yüz kilometrlərlə uzaqda baş vermiş bu hadisəyə atəşkəs rejiminin Azərbaycan tərəfindən kobud şəkildə pozulması kimi düşünülməmiş qiymət verilməsi də xüsusi narahatlıq doğurur.

Belə təəssürat yaranır ki, Azərbaycana heç bir dəxli olmayan bu hadisədən vəziyyəti kəskinləşdirmək, gərginliyi artırmaq üçün xüsusi olaraq istifadə edilir. Bununla əlaqədar mən cənab Levon Ter-Petrosyanı başlanmış sülh prosesinə, burada, Budapeştdə, bizim məclisimizdə hökm sürən əlverişli şəraitə ziyan vura biləcək hər hansı düşünülməmiş hərəkətlərdən çəkindirirəm. Mən öz tərəfimdən bir daha bildirirəm ki, dövlətimiz əldə olunmuş atəşkəsə sadiqdir və Ermənistan- Azərbaycan münaqişəsini sülh yolu ilə aradan qaldırmaq üçün səylərini əsirgəməməyə hazırdır. Mən cənab Levon Ter-Petrosyanı sülh axtarışı yolunda fəal əməkdaşlığa dəvət edirəm.

Münaqişənin aradan qaldırılması işində əsaslı irəliləyişə nail olmaq üçün Budapeşt görüşünün nadir imkanı vardır.

Mən ATƏM-in üzvü olan dövlətlərin hörmətli başçılarına müraciətlə xahiş edirəm ki, bu işdə fəal iştirak etsinlər, mənim xalqımı, milyonlarla adamı ağrı-acıya, iztirablara məruz qoyan altı illik müharibənin alovunu söndürməyə kömək etsinlər, bununla da Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin Yekun aktının ümdə prinsiplərinin həyata keçməsinə imkan açsınlar. Bu sənədi biz hamımız təntənə ilə imzalamışıq»[220].

Heydər Əliyev 1994-cü il dekabr 13-də İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Kasablanka zirvə toplantısında çıxışında demişdir: «Biz fəxr edə bilərik ki, İslam Konfransı Təşkilatı da məhz bu nəcib məqsədlərə xidmət edir. Asiyanın, Afrikanın və Avropanın 52 dövlətini birləşdirən bu təşkilat bir milyard nəfərdən çox əhaliyə, böyük mənəvi, siyasi, iqtisadi, elmi və mədəni potensiala malikdir. Ölkələrimiz arasında həmrəylik, hərtərəfli əməkdaşlıq, sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün ədalətə əsaslanan zəruri tədbirlər görülməsi İslam Konfransı Təşkilatının əsas prinsipləridir və onun nizamnaməsində öz ifadəsini tapmışdır. Ötən 25 il ərzində bizim təşkilatımız dünya siyasətinin mühüm amilinə çevrilmişdir, müasir dünyanın qlobal və regional problemlərinin həllinə sanballı təsir göstərir. Amma etiraf etmək lazımdır ki, biz islam dünyasının və öz təşkilatımızın nəhəng potensialından hələ heç də tam, istənilən səviyyədə istifadə edə bilməmişik. Biz nəinki təkcə öz xalqlarımızın, həm də bütün dünyanın tərəqqisi işində daha sanballı, daha təsirli rol oynaya bilərik və oynamalıyıq ... Sizə məlum olduğu kimi, Azərbaycan xalqı qonşu Ermənistan Respublikasının təcavüzünə məruz qalmış, bunun nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal edilmişdir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasında işğal etdikləri Dağlıq Qarabağ regionunda və ona bitişik yeddi digər rayonda ən qədim mədəniyyət abidələri məhv edilmiş, bütün məscidlər dağıdılmış, müsəl-

man məzarları təhqir olunmuş, Qurani-Kərimin nüsxələri yandırılmışdır. Ən qədim müsəlman sivilizasiyasının bütün izləri yer üzündən silinir. Mənim həmvətənlərimin 20 min nəfərindən çoxu öldürülmüş, təqribən 100 min nəfəri yaralanmış və şikəst olmuş, bir milyondan artıq azərbaycanlı öz doğma yurdundan qovulmuş, onların evləri viran edilmiş və yandırılmışdır. Bu adamlar, o cümlədən uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüş, qohum-əqrəbalarını itirmişlər. İndi isə sərt qış şəraitində çadır şəhərciklərində dözülməz vəziyyətdə yaşayırlar, soyuqdan donurlar, yoluxucu xəstəliklərə tutulurlar, ərzaq, dərman, pal-paltar sarıdan korluq çəkirlər.

Öz qətnaməsində Ermənistan Respublikasının müstəqil Azərbaycana qarşı təcavüzünü pisləmiş İslam Konfransı Təşkilatının fəaliyyətini biz yüksək qiymətləndiririk. O, bu münaqişənin aradan qaldırılması işində iştirak edən beynəlxalq təşkilatlara müvafiq müraciətlər göndərmişdir. Hesab edirəm ki, belə tədbirləri davam etdirmək lazımdır və biz çox ümidvarıq ki, İslam Konfransı Təşkilatının hər bir üzvü bu tədbirləri dəstəkləyəcəkdir.

Görüşümüzə Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamə layihəsi təqdim edilmişdir. Mən hamınızı bu layihəni bəyənməyə dəvət edirəm.

Son vaxtlar Ermənistan ilə Azərbaycan arasında atəşkəs əldə olunmuşdur. Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin Budapeştdəki Zirvə görüşü çoxmillətli sülhü mühafizə qüvvələrinin təşkil olunub münaqişə zonasına göndərilməsi haqqında mühüm qərar qəbul etmişdir. Bu, Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin iştirakçısı olan dövlətlərin səyləri və bizim onlarla konstruktiv əməkdaşlığımız sayəsində mümkün olmuşdur.

Münaqişənin tamamilə aradan qaldırılması üçün ermənilərin bütün silahlı birləşmələrinin işğal edilmiş Azərbay-

can ərazilərindən çıxarılmasını, qaçqınların doğma yurdlarına qaytarılmasını, Azərbaycanın bütün ərazisi üzərində onun suveren hüquqlarının bərpa edilməsini nəzərdə tutan siyasi saziş bağlanmalıdır.

Lakin Ermənistan Respublikası işğal olunmuş ərazilərin azad edilməsinə dair Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməkdən boyun qaçırır.

Hazırda sülhə nail olmaq üçün beynəlxalq həmrəyliyin, təcavüzkara beynəlxalq səviyyədə təzyiq göstərilməsinin çox böyük əhəmiyyəti var. İslam Konfransı Təşkilatı kimi nüfuzlu təşkilat və onun hər bir üzvü tərəfindən təzyiq göstərilməsi də son dərəcə vacibdir. Ona görə də, hörmətli görüş iştirakçıları, mən sizə üz tutub xahiş edirəm ki, siyasi iradənizi qətiyyətlə bildirəsiniz və Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda bizim ədalətli mübarizəmizə tərəfdar çıxasınız ...»[221].

Sammit zamanı Heydər Əliyev bir sıra müsəlman dövlətlərinin nümayəndələri ilə görüşlərində onlara Qarabağ ətrafında baş verənlər haqqında geniş məlumat vermiş və münaqişənin sülh yolu ilə həllinə dair məsləhətləşmələr aparmış, ədalətli mövqeylərinə görə onlara minnətdarlıq etmişdir.

5.2. Atəşkəsdən sonrakı siyasi proseslər

Atəşin dayandırılmasından sonrakı proseslərdə bir sıra Qərb və region dövlətlərinin manevrlərini görürük. Bəzi xarici dairələrin Azərbaycanın müstəqil dövlət olmasını və müstəqil siyasət yürütməsini qəbul etmək istəməməsi aydın hiss edilirdi. Bu, Rusiya Federasiyasının dilomatiyasında daha aşkar görünürdü. Rusiya Federasiyası Xariçi İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri V. Kazimirovun «ABŞ-ın Bakı və İrəvan üzərində təsirini gücləndirmək üçün 1994-cü il ma-

yın ortalarında, atəş dayandırılandan sonra həmin an ABŞ dövlət departamentinin yeni müstəqil dövlətlər koordinatoru Ceyms Kollinz və onun müşaviri, ABŞ-ın Minsk qrupuna yeni təyin olunmuş nümayəndəsi Jozef Pressel təcili olaraq İrəvan, Bakı, Ankara və Moskvaya səfərə çıxdılar» deyərək, Qərbin yürütdüyü siyasətin münaqişənin həllinə zidd mahiyyətini göstərmək istəyir. Həmçinin, «Bu səfərin müddəti də çox şeylərdən xəbər verirdi. P.Qraçov Azərbaycan Respublikası və Ermənistan Respublikası müdafiə nazirlərini, eləcə də Dağlıq Qarabağın ordusunun komandanını 16-17 mayda Moskvaya çağırdığı zaman amerikalılar münaqişənin tərəfləri olan iki dövləti, həmçinin dolayısı ilə İrəvan vasitəsilə Stepanakerti (Xankəndi) də «əyləmək» istəyirdi»[222] deməklə, münaqişənin həllini Qərb tərəfindən dolaşdırmaq istiqamətində işlər aparılmasına işarə edirdi. O, ABŞ-ın yürütdüyü siyasətin qeyri-adekvatlığına və Azərbaycan hökumətinin buna "səhv reaksiyasına" diqqəti çəkmək istəyirdi: «1994-cü il mayın 14-də C.Kollinz Levon Ter-Petrosyana bəyan etdi ki, İrəvan havayı yerə Moskvanın planını qəbul edir. Prezidentin (Levon Ter-Petrosyanın - Q.H.) «Vaşinqtonun öz ideyası varmı?» - sualına cavab olaraq, C.Kollinz Minsk qrupunun birinci planını irəli sürmüşdü. Levon Ter-Petrosyan üstüörtülü şəkildə onun fəaliyyəti barədə fikrini bildirmiş, onu da qeyd etmişdir ki, burada Moskva və Vaşinqton əsas rol oynayır, Cənubi Qafqaza təsir dairəsi uğrunda mübarizə aparmaq lazım deyil, fəaliyyəti onlar arasında razılaşdırmaq lazımdır. O, C.Kollinzə Rusiya Federasiyasının münaqişənin nizamlama planı ilə tanış olmağı, ABŞ və RF-nin birlikdə sülhməramlı fəaliyyət göstərməsini təklif etmişdi. Mayın 15-də axşam C. Kollinz və C.Pressel Bakıda Heydər Əliyevlə məsləhətləşmələr aparmışdılar. Onlar mətbuat qarşısında ABŞ, ATƏM və Minsk qrupunu tamamilə dəstəklədiklərini qeyd etmişdilər, lakin o biri tərəfdən, Azərbaycan Respublikası ilə ikitərəfli əlaqələrin inkişafına hazırlığı qeyd edirdilər. H.Ə.Əliyev artıq məc-

bur olaraq atəşin dayandırılmasına dair sazişə görə 16-17 mayda M.Məmmədovu Moskvaya yüksək hərbi rəislərin görüşünə göndərdi, amerikalıların təkidi ilə Moskva görüşündə ATƏM nümayəndələri - isveçli polkovnik Berqin iştirakını təkid etdilər». Prosesi özü istədiyi kimi şərh edən müəllifi burada Ermənistan Respublikası rəhbərliyinin öz müttəfiqinə (yəni Rusiyaya) sadiqliyi maraqlandırır və ona görə də Rusiyaya münasibətdə L.Ter-Petrosyanın H.Ə.Əliyevdən «etibarlı» olduğunu demək istəyir. Xatırlatmaq lazımdır ki, həmin dövrə qədər baş verənlərin əsl mahiyyətini Heydər Əliyev daha yaxşı bilirdi[223].

Diqqət edin! V.Kazimirov bildirir ki, «Heydər Əliyev 17 mayda ABŞ-ın səfiri Riçard Kozlariçi nəinki qəbul etdi, hətta öz müdafiə naziri M.Məmmədovu P.Qraçovun yanındakı yığıncaqdan geri çağırdı. Ertəsi gün Heydər Əliyev mənə M.Məmmədovu Moskvadan geri çağırmasını Qraçovun həqiqətən də uğursuz seçdiyi sərt, ultimativ tonla izah etdi, baxmayaraq ki, müdafiə nazirlərinin bütün iclaslarında mətbuat nümayəndələrinin iştirakı tamamilə artıq idi. Həqiqi səbəb isə daha sadə, daha prozaik - ABŞ tərəfindən ona edilən güclü təzyiq idi, ABŞ üçün Rusiya qüvvələrinin münaqişə zonasında yerləşdirilməsi daha məyusedici idi, nəinki Rusiyanın vasitəçiliyi ilə atəşi dayandırmaq»[224].

V.Kazimirovin şərhinə görə, «A.Kozırev mayın 20-də (1994-cü il - Q.H.) Moskvada Ceyms Kollinzi qəbul etdi və əlbəttə ki, onu ATƏM-in Minsk qrupunu dəstəkləməyə çağırdı. Rusiya xarici işlər naziri Azərbaycan tərəfinin inamının qırılması barədə danışığı qeyd edərək açıq dedi: ya onlar hərbi əməliyyatları dayandırmalı və ATƏM ilə birlikdə sülhməramlı qüvvələr kontingentinin yaradılmasına dair Rusiyaya xahişlə müraciət etməlidir, ya da nizamasalma imkanı növbəti dəfə korlanacaq; o, açıq dedi ki, ATƏM müstəqil hərəkət etməklə müvəffəqiyyət qazana bilməz. Eliasson isə böyük işlər görməsinə baxmayaraq, hələ aidiyyətı tərəflərin niyyətləri-

nin illuziyasından xilas olmamışdır».[225] Buradan Rusiya Federasiyası xarici işlər naziriliyinin mövqeyini, eyni zamanda, RF XİN-in münaqişənin həllinə dair məqsədyönlü təklif irəli sürdüyünü görmək olur. Ardınca o, A.Kozırevin Bakının manevrlərini kifayət qədər yöndəmsiz adlandırması, guya belə manevrlərin əvvəllər də bir neçə dəfə vaxt itkisinə, vasitəçilərin səylərininn əbəs yerə itirilməsinə gətirirb çıxardığını deyərək, Bakının ABŞ-a meyil etməsinə işarə edirdi. Azərbaycan dövlətinin siyasətinin düzgün istiqamətdə aparılmadığını bildirir, buna görə də o, Qərbin tutduğu mövqenin səhv olduğunu sübut etməyə çalışırdı.

ABŞ nümayəndəsi Kollinzin Ankarada keçirdiyi görüşləri Türkiyə Cümhuriyyətinin ABŞ-ın təzyiqi ilə Rusiya Federasiyasının əleyhinə çıxaraq, onu vasitəçilik və sülhməramlıların tərkibində yer alması məsələlərindən sıxışdırmaq fəaliyyətindən bəhs edən Rusiya mətbuatı baş verənləri təhriflə ifadə edirdi: «Türklər həm ikitərəfli əlaləqələr, həm də Azərbaycan müxalifətinin Moskva ilə yaxınlaşması əleyhinə çıxışlarını daha da aktivləşdirmək yolu ilə H.Ə.Əliyevə təzyiqi gücləndirməyi qərara almışdılar. Ümumiyyətlə, türklər ABŞ-a istinad etməklə Cənubi Qafqazda özünün və Amerikanın şəxsi maraqlarından çıxış edərək, «Rusiya planı»nı pozmaq üzrə işə qoşuldu»[226]. Burada məqsəd aydındır. «Rusiya planı» barədə yuxarıda qısa da olsa məlumat vermişik. Lakin bu məsələnin şərhində yer alan birtərəfli yanaşmanın davam etdirilməsini də diqqətə çatdırmaq istərdik.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində göstərilən səylərin heç bir nəticə verməməsi Azərbaycan cəmiyyətində müharibə ab-havasının artmasına səbəb olurdu. Bu isə təbii olaraq beynəlxalq təşkilatları, o cümlədən münaqişənin həlli ilə bağlı məsuliyyəti öz üzərinə götürən ATƏM-in Minsk qrupunu və dünyanın bir çox aparıcı dövlətlərini narahat edirdi. Ona görə də onlar bu münaqişənin hərbi yolla həllinin mümkün olmayacağını deyirdilər.

Bunu həmin dövrdə ABŞ-ın Azərbaycan Respublikasıdakı səfiri olan R.Kozlariçin səsləndirdiyi fikirlər də sübut edirdi: «Qafqazda gələcək sabitlik və tərəqqi Ermənistan ilə Azərbaycan Respublikası arasındakı sülhdən asılıdır. Dağlıq Qarabağ probleminin, onun köklərinin və inkişafının ciddi şəkildə öyrənilməsi məndə belə bir inam yaratmışdır ki, münaqişəni hərbi yolla aradan qaldırmaq mümkün deyildir» deməsi, münaqişənin yalnız sülh yolu ilə həll edilməsi istiqamətində düşünməyi tövsiyə edirdi[227].

Ümumiyyətlə, ABŞ hökuməti münaqişənin ATƏM və onun Minsk qrupu çərçivəsində həllini ən doğru yol hesab edirdi. ABŞ-la Rusiya Federasiyası arasında ziddiyyətlər Qərbin bir sıra iri dövlətlərinin də bu məsələdə ABŞ-ı dəstəkləməsi, bu işləri həyata keçirmək üçün 1994-cü ildə ATƏM-ə 5 milyon ABŞ dolları məbləğində vəsait də ayrılması və göstərilən bütün səylər o dövrdə ATƏM-in problemin həlli ilə bağlı üstünlüyü ələ keçirməsinə xidmət edirdi.

Bu, doğrudan, bir faktdır ki, atəşkəs Rusiya Federasiyasının vasitəçiliyi ilə olub, lakin bunu «humanizm tərəfdarlarının ədalətli prinsipiallığı ilə» əlaqədar izah etmək düzgün deyil. Eləcə də «Moskva buna digər vasitəçidən fərqli olaraq, məqsədyönlü şəkildə humanist məramla müvəffəq oldu»[228] demək də inandırıcı deyil. Tarixdə baş verənləri xatırlamaq kifayətdir ki, bu siyasətin nədən ibarət olması aydınlaşsın. Azərbaycan türklərinə qarşı 200 ildir davam edən qırğın, deportasiya və soyqırımlar (1805-ci il «Kürəkçay müqaviləsi»nin şərtləri və buna imperiya tərəfindən riayət edilməsi, Qarabağ xanının və xanlığının faciəli taleyi, Gülüstan, Türkmənçay müqavilələri, azərbaycanlılara qarşı 1905-1906-cı illər qırğını, 1918-ci il mart soyqırımı, azərbaycanlıların 1948-53-cü və 1988-ci il deportasiyaları), münaqişənin yenidən 1988-ci ildə, müharibənin isə 1991-ci ildə başladığını xatırlayırıq. Birmənalı demək olar ki, bəzi dövlətlərdə hakimiyyət də, hakimiyyətə gələn simalar da dəfələrlə dəyişsə də, siyasət dəyişmir, olduğu kimi davam etdirilir. Bunu

hələ I Pyotr dövründən Azərbaycan Respublikasına qarşı Rusiya Federasiyasının yürütdüyü siyasətdə açıq-aydın görmək mümkündür.

Heydər Əliyev 1994-cü il iyunun 15-də ATƏT-in Dağlıq Qarabağ probleminin nizamlanmasına dair Minsk qrupunun sədri Yan Eliassonla görüşmüş, 1994-cü il iyunun 18-də Y.Eliassonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Bölgəyə səfər edən nümayəndə heyətinin tərkibində Rusiya Federasiyasını təmsil edən heç bir diplomatın olması, ATƏM-in Minsk qrupunun digər üzvü olan Türkiyə Cümhuriyyəti nümayəndəsinin iştirak etməsi regionun digər böyük dövləti olan Türkiyə Cümhuruiyyətinin mövqeyinə üstünlük verməsi məsələnin həllinə yeni baxışı ehtiva edirdi. Lakin Yan Eliassonun «İndi çox incə bir məqam yetişmişdir. Elə vəziyyət yaranmışdır ki, vəziyyət həm yaxşıya, həm də pisə doğru əyilə bilər. Atəşkəs əldə edilmişdir, ona xeyli müddətdir ki, əməl olunur, lakin sakitliyin pozulacağı qorxusu qalmaqdadır»- deməsi, Rusiya Federasiyasının da ATƏM çərçivəsində fəaliyyətinə yer verilməsinin zəruri olduğuna işarə edirdi.[229]

ABŞ-ın Azərbaycan Respublikasındakı səfiri R.Kozlariç döyüş bölgəsində atəşkəsin əldə edilməsi ilə problemin aradan qaldırılması istiqamətində irəliləyişin əldə olunmasından və bununla da sülh danışıqları üçün yeni mərhələnin başlanmasından razılıq hissi keçirdiyini bildirərək demişdi: «Okeanın o tayında Azərbaycan üçün xoş yeniliklər vardır. Hər şeydən əvvəl, bunu deməliyəm ki, Amerika hökuməti hazırda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏM-in rolunun gücləndirilməsi üçün səylərini artırmışdır»[230].

1994-cü il iyunun 8-də Avstriyanın payaxtı Vyanada ATƏM-in Parlamentlərarası Assambleyasının 3-cü ildönümü münasibətilə keçirilən sessiyasında dünyanın bir çox aparıcı dövlətlərinin, o cümlədən ABŞ və Böyük Britaniya-

nın parlamentlərini təmsil edən şəxslər də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan Respublikasının ədalətli mövqeyini dəstəkladilər. Sessiyanın yekunlarına dair qəbul edilən sənədlərdə təsdiqini tapan bu münasibətdən narahatlıq keçirən Ermənistan Respublikasının qəbul olunmuş sənədə düzəliş etmək üçün müraciəti rədd edilmişdi.

ATƏM-in 1994-cü ilin iyununda «Vyana bəyannaməsi»nə Azərbaycan Respublikasının hüquqlarını müdafiə edən müddəalar da daxil edilmişdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏM-in Vyana sessiyası haqqında demişdir: «Mən Vyanadakı görüşləri müsbət qiymətləndirir və ATƏM-in Minsk qrupunun fəaliyyətinin müəyyən qədər fəallaşmasını müşahidə edirəm»[231].

Heydər Əliyev 1994-cü il iyunun 22-də V.Kazimirovu qəbul etmişdi.

V.Kazimirov bu barədə yazır: «Həmin gün C.Pressel mənim yanımda oldu. O, sevinirdi ki, azərbaycanlılar indicə bizim köməyimizlə Eliassonun hazırladığı «atəşkəs rejiminin möhkəmləndirilməsinə dair» «kiçik saziş»i imzaladılar. C.Presselin sevincinin səbəbi aydın idi: Azərbaycan Respublikasnın P.Qraçovun yanında imzaladıqları sənəddən imtina edilmiş, hər iki erməni tərəfinin «Eliasson planını» imzalamasına nail olunmasını təklif etmişdi. Qonaqlara göstərmək lazım idi ki, İsveç səfirinin gücünə hörmət edilir, onun «planında» yalnız tərəflərə təklif olunurdu ki, ATƏT-ə müraciət etsinlər, eləcə də MDB və Rusiyaya müraciət etsinlər ki, öz müşahidəçilərini göndərsinlər. Hansı ki, bu, atəşkəsin möhkəmləndirilməsi məsələsində heç bir ölçüyə uyğun gəlmirdi»[232].

Lakin «C.Pressel təkid etdi ki, əgər «Qraçov planı» ATƏT-in iştirakı olmadan reallaşsa, onda o, Rusiya üçün «havayı» başa gəlməyəcək – ola bilsin ki, Rusiya-Amerika münasibətlərində neqativ əks-səda doğursun» deməklə, baş verənləri neqativ hal kimi qiymətləndirən keçmiş həmsədrin əvvəki və sonrakı münasibətlərində eqoizmdən başqa bir şey gö-

rünmürdü.[233]

V.Kazimirov Bakıda Prezident Heydər Əliyevlə görüşündə bildirirdi: «Rusiya rəhbərliyi və Rusiyanın xarici siyasət idarəsi Azərbaycanla və Ermənistanla qonşu olan ölkələrin vəziyyətinin sabitliyinə, regionda mehriban qonşuluq münasibətlərinə olan marağını başa düşərək, həmin ölkələrdə əlaqələrə çox böyük əhəmiyyət verir. Bu ölkələr ATƏM və Rusiya ilə birlikdə sülh yaratmaq prosesində müsbət rol oynaya bilərlər»[234]. Burada V.Kazimirov əsasən İranı nəzərdə tuturdu. Rusiya diplomatının Bakıya gəlişi ərəfəsində Tehranda İranlı həmkarları ilə regiondakı vəziyyəti geniş müzakirə etməsi bunu deməyə tam əsas verir.

Prezident Heydər Əliyev isə münaqişə tərəflərini və eləcə də ATƏM-in, MDB-nin, habelə qonşu dövlətlərin səylərinin birləşdirilməsini sülh yaratmaq prosesində mühüm cəhət saydığını bildirmiş və onların fəaliyyətinin əlaqələndirilməsinin vacib olduğunu vurğulamışdı.

Ancaq V.Kazimirovun İrandan sonra Türkiyəyə səfər etməsi böyük maraq doğururdu. Regional məsələlərin ümumi vəziyyətinin öyrənilməsi ilə pərdələnməsinə baxmayaraq, danışıqlar zamanı daha ciddi mövzu olan Dağlıq Qarabağ məsələsinə də toxunan Rusiya Federasiyası təmsilçisinin bu səfərlərinin mahiyyətində onun keçmiş Sovetlər Birliyinin İranla və Türkiyə ilə sərhədlərini yenidən öz nəzarəti altına almaq məqsədi dayanırdı. Azərbaycan Respublikasında iqtisadi maraqlarından əli çıxdığını hiss edən Rusiya Federasiyası ATƏT-in sülh planları haqqında şübhəli və ikibaşlı fikirlər ortaya ataraq, plan haqqında beynəlxalq aləmdə mənfi rəy yaradaraq, Dağlıq Qarabağ münaqişəsinin həllinin yalnız Rusiyadan asılı olması görüntüsü yaratmaq istəyirdi.

Göründüyü kimi, Rusiyan Federasiyasının irəli sürdüyü təkliflər əsasında məsələnin həllindən bəhs edilir, «1994-cü ilin dekabrında ATƏT-in Budapeşt sammitində kompromis qərar qəbul olundu. Ayrıca elan edildi ki, Qarabağ üçün

ATƏT-in sülhməramlı qüvvələrinə dair «siyasi hazırlıq» yaratmaq yalnız dekorativ siyasi hazırlıqdır»[235] - deməklə, sammitin çıxardığı qərarlar şübhə altına alınırdı. Eləcə də bildirilirdi ki, «bunun üçün əvvəlcə hərbi münaqişənin dayandırılmasına dair saziş imzalamaq lazım idi və bu, buna qədər Rusiyanın vasitəçiliyi ilə Moskva danışıqlarında müzakirə edilmişdi. İllər keçməsinə baxmayaraq, yəqin soruşmaq olar, bundan sonra «siyasi hazırlıq» işi necə uzağa sıxışdırıldı».[236] Burada soruşmaq olar, Budapeşt sammitinə qədər sazişin imzalanmamasının əsl səbəbi nə ilə bağlı idi?

Bu məsələ onunla bağlı idi ki, 1994-cü ilin iyulunda təşəbbüsün Rusiya Federasiyasının əlinə keçməsi ATƏT-lə Rusiya Federasiyası arasında problemin həlli üçün vasitəçilik məsələsində rəqabətin yaranmasına səbəb olmuşdu. Rusiya Federasiyasının problemin həllindəki təşəbbüsünün və təkbaşına sülhməramlı qüvvə göndərməsinin qarşısını almaq üçün ATƏT-in Səlahiyyətli Məmurlar Komitəsi 1994-cü il iyulun 16-da münaqişə bölgəsinə yerləşdiriləcək sülhməramlı qüvvələrin çoxölkəli olmasının vacibliyi məsələsinə dair qərar qəbul etməklə Azərbaycanı yenidən Rusiyanın təsiri altına düşməkdən xilas etdi. Bu, birmənalı şəkildə düzgün və obyektiv qərar idi.

VI FƏSİL

ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN SÜLH YOLU İLƏ HƏLLİ MƏSƏLƏSİ

6.1. Budapeşt zirvə toplantısı, Heydər Əliyevin dünyanın nüfuzlu dövlətlərinin rəhbərləri ilə görüşləri

1994-cü ilin dekabrında ATƏT-in Budapeşt zirvə toplantısında Minsk qrupu daxilində daimi həmsədrlik statusu, NATO və Rusiya Federasiyasının birgə sülhməramlı qüvvələrinin yaradılması və bu qüvvələrin Dağlıq Qarabağda yerləşdirilməsi qərara alındı. ATƏT Rusiya Federasiyasına Minsk qrupunda daimi həmsədrlik missiyasını verərək, problemin həllinin ATƏT çərçivəsindən çıxmasının və Rusiya Federasiyasının himayəsinə keçməsinin qarşısını aldı.

1994-cü ildə ABŞ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair beynəlxalq hüquq normalarına uyğun qərarlar qəbul etməyə və münasibətlər qurmağa hazır olduğunu bəyan etdi. Bəyanatda Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, Dağlıq Qarabağın Azərbaycan ərazisi olması təsdiqlənirdi.

Budapeşt zirvə toplantısında Azərbaycan Prezidenti Heydər Əliyev dünyanın nüfuzlu dövlətləri rəhbərləri ilə görüşərək, Dağlıq Qarabağda sülhyaratma prosesinin intensivləşdirilməsinə dair qətnamənin qəbul edilməsində konsensusa nail olmaq və sülhməramlı qüvvələr kontingentinin formalaşdırılmasına kömək haqqında dövlət başçıları ilə dərhal danışıqlara başlamaq kimi vəzifələri yerinə yetirdi.

Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 1995-1996-cı illərdə Heydər Əliyev üç dəfə Fransa Respublikasında müxtəlif səfərlərdə olmuşdu. Azərbaycan Prezidenti görüşlərdə Dağlıq Qarabağ münaqişəsinin nizamalanmasında beynəlxalq təşkilatların və dünya dövlətlərinin rolunu xüsusi qiymətləndirərək, «ATƏT-in sərhədlərin və ərazilərin toxunulmazlığı prinsiplərinə Azərbaycanın həmişə tərəfdar olduğunu» bildirmiş və eyni zamanda, beynəlxalq təşkilatların, dünya siyasətində böyük nüfuza malik olan dövlətlərin Ermənistan Respublikasının işğalçılıq siyasətinin qarşısını almaq üçün təsirli tədbirlər görmədiyini təəssüflə ifadə etmişdir.

ATƏT-in Minsk qrupu həmsədrlərinin Budapeşt görüşü üçün hesabatının hazırlanması zamanı Bonn danışıqlarında ciddi mübahisələr baş vermişdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanın mövqelərinə uyğun olmayan müəyyən məqamlara görə öz etirazını bildirmişdi.

1995-ci il yanvar ayının sonlarında ATƏT-in Minsk qrupunun həmsədrləri Budapeşt zirvə toplantısında qəbul edilmiş qətnamənin həyata keçirilməsinin vəziyyəti və bu barədə tərəflərin fikirləri ilə tanış olmaq üçün münaqişə bölgəsinə səfər etdilər. Səfər zamanı münaqişə tərəflərinin imzalaması nəzərdə tutulan Böyük sülh sazişində Şuşa və Laçının taleyi barədə müzakirələr aparıldı.

Həmin görüşlərdə Azərbaycan Respublikasında və Ermənistan Respublikasında fəaliyyət göstərən ictimai təşkilatların imkanlarından istifadə edilməsi, əsirlərin və girovların dəyişdirilməsi qaydaları və bu prosesin sürətləndirilməsi ətrafında məsləhətləşmələr aparılması nəzərdə tutulmuşdu.

Heydər Əliyev 1995-ci il yanvarın 24-də BMT-nin humanitar məsələlər üzrə departamentinin nümayəndəsi Pol İberin rəhbərlik etdiyi nümayəndə heyətini, iki gün sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair danışıqlarda Rusiya Federasiyası Prezidentinin nümayəndəsi V.Kazimirovu və İsveç diplomatı

Andres Bürneri qəbul etmişdir.

ATƏT-in üzvü olan ölkələrin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə inamı Budapeşt zirvə görüşündən sonra xeyli artmışdı. Artıq ABŞ, Rusiya, Fransa və digər dövlətlərin siyasi dairələrinin Budapeşt zirvə görüşündən sonra obyektiv fikirlər söyləməsi münaqişənin həllinə marağın artdığını göstərirdi. Hətta 1995-ci ilin fevralında Bakıda səfərdə olan Fransa XIN-in baş katibi B.Düfürq ATƏT üzvü kimi Fransanın rəsmi mövqeyindən çıxış edərək, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipini müdafiə etdiyini bildirmişdir.

1995-ci il fevralın 6-11-də Moskvada aparılan danışıqlarda qəbul edilən qərarın həyata keçirilməsi yollarının müzakirəsi planlaşdırıldı. Təəssüf ki, Ermənistan Resublikasının qeyri-konstruktiv mövqeyi buna mane oldu. Burada ATƏT-in Minsk qrupu həmsədrlərinin hazırladıqları baza sənədində bəzi prinsipial əhəmiyyətə malik məqamlar, ilk növbədə, Laçın və Şuşanın boşaldılması məsələsi də əhatə olunmur, həmçinin, Dağlıq Qarabağın erməni icmasının münaqişədə iştirak edən müstəqil tərəf kimi göstərilməsinə cəhd edilirdi. Lakin Azərbaycan nümayəndə heyətinin qəti mövqeyi nəticəsində separatçılar öz istəklərinə nail ola bilmədilər.

Azərbaycan Respublikasına qarşı dövlət separatizmi həyata keçirən Ermənistan Respublikası işğal etdiyi ərazilərə ermənilərin köçürülməsini təşkil edirdi. Bu kampaniya dövlət səviyyəsində aparılırdı. Azərbaycan Respublikası XIN-in 1995-ci il 24 fevral tarixli bəyanatında deyilirdi: «Ermənistan Respublikasının bu cür hərəkətləri Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün kobudcasına pozulmasının davam etdirilməsidir və Ermənistan Respublikasının beynəlxalq hüquq normalarına, BMT Nizamnaməsinə, habelə ATƏT-in prinsiplərinə əsla məhəl qoymadığını göstərir. Bu hərəkətlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində dinc, siyasi yolla həll edilməsi prosesini pozur».

6.2. Beynəlxalq təşkilatların münaqişəyə dair qətnamə və qərarları

İslam Konfransı Təşkilatının 1994-cü il sentyabrın 7-9-da Pakistanın paytaxtı İslamabad şəhərində keçirilən fövqəladə sessiyasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə qəbul edildi. Ermənistanın Azərbaycana qarşı təcavüzü və nəticədə Azərbaycanın 20%-dən çox ərazisini işğal edilməsi qəti şəkildə pislənilən bu qətnamədə Ermənistan Respublikasından BMT Nizamnaməsinin və Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələrin tələblərinə əməl etməsi, erməni hərbi birləşmələrinin işğal etdikləri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Eyni zamanda, təşkilatın xarici işlər nazirlərinin Kəraçi şəhərində keçirilmiş XXI konfransının qətnaməsini bir daha təsdiq edirdi.

İKT-nin baş katibi Həmid əl-Qabidin 1994-cü ilin noyabr ayında Azərbaycana səfəri zamanı əsas müzakirə mövzusu Azərbaycanla İslam Konfransı Təşkilatı arasındakı əlaqələr idi. Həmid əl-Qabid İKT-nin Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasətin pisləşdiyini və münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi.

1994-cü il dekabr ayının 13-14-də Mərakeş Krallığının Kasablanka şəhərində İKT-yə üzv ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən VII zirvə konfransında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair növbəti qətnamə qəbul edildi. Bu qətnamədə də Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsindən narahatlıq ifadə olunurdu. Qətnamədə bir milyondan artıq azərbaycanlının qaçqın-köçkünə çevrilməsi və dözülməz şəraitdə yaşamağa məcbur olunması öz əksini tapmışdı.

Qətnamənin ən mühüm cəhəti İKT tərəfindən Ermənistanın beynəlxalq səviyyədə təcavüzkar dövlət kimi tanınması idi.

1995-cü ildə Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya Federasiyası Ümumxalq İttifaqının lideri S.Baburinin başçılığı ilə Bakıya gəlmiş deputatların bir qrupu ilə söhbət zamanı Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında Rusiya Federasiyasının roluna xüsusi məna verdi. «Qarabağ probleminin həllinin «açarı» Moskvadadır» deməklə, Heydər Əliyev dünyanın heç bir dövlətinin bu mürəkkəb məsələni Rusiya Federasiyası kimi həll edə bilməyəcəyinə əminliyini ifadə etdi. Azərbaycan Respublikası dövlətinin başçısı haqlı olaraq hesab edirdi ki, Rusiya Federasiyasının istər regionda, istərsə də özünün cənub sərhədlərində münaqişə ocağını söndürməyə, ümumən Qafqazda vəziyyəti sabitləşdirməyə imkanı vardır.

Bu məsələ ona görə gündəmə gəlmişdi ki, Rusiya Federasiyasından və digər dövlətlərdən maliyyə köməyi alan Ermənistan Respublikası Moskva danışıqları pozulduqdan sonra daha da azğınlaşmışdı. Bunun əsas səbəbi 1995-ci il martın 16-da Moskvada Rusiya Federasiyası ilə Ermənistan Respublikası arasında 25 il müddətinə imzalanmış hərbi müqavilə, habelə həmin müqaviləyə əsasən, Rusiya Federasiyasının faktik olaraq Ermənistanda özünün hərbi bazasını yaratması idi. Təsadüfi deyil ki, Türkiyə Cümhuriyyətinə və Azərbaycan Respublikasına təzyiq göstərmək üçün 1995-ci il martın 27-dən 30-dək bütün növ silahlardan istifadə olunmaqla Ermənistan Respublikası və Rusiya Federasiyası silahlı qüvvələrinin birgə hərbi təlimi keçirildi.

Sirr deyil ki, Rusiya Federasiyası Ermənistan Respublikasını özünün Cənubi Qafqazdakı yeganə etibarlı strateji tərəfdaşı, daha doğrusu, forpostu hesab edir. Ermənistan Respublikası Rusiya Federasiyasını öz müstəqilliyinin və təhlükəsizliyinin yeganə təminatçısı sayır. Bu ölkə bütün sahələrdə, xüsusilə də hərbi sahədə, Rusiya Federasiyasının inhisarındadır. MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinin

cənub istiqamətində əsas və yeganə tərəfdaşı funksiyasını icra edən Ermənistan Respublikasının hava məkanını, İran və Türkiyə ilə sərhədini də rus hərbçiləri qoruyur.

Vaxtilə Rusiya Federasiyası diplomatları Ermənistan Respublikasının münaqişəyə müəyyən «aidliyini» qeyd edərək, hər iki tərəf üçün balanslaşdırılmış güzəştlər təklif edirdilər ki, bu da, onların fikrincə, guya məsələnin həllində minimum irəliləyiş üçün zəmin yaradırdı. Bu, Rusiya Federasiyasının Azərbaycan Respublikasına dair mövqeyini əks etdirirdi. Dağlıq Qarabağ münaqişəsində hər iki tərəfin eyni dərəcədə məsuliyyət daşıdığını iddia edən Rusiya diplomatiyası qəsdən Ermənistan «dövlətini» münaqişədə oynadığı təşəbbüsçü rolundan uzaqlaşdırır və onun rolunu ancaq «maraqlı» bir tərəf səviyyəsinə endirirdi. Bu faktı vaxtilə Heydər Əliyev jurnalistlərlə görüşündə qeyd etmişdir: «Münaqişədə Ermənistan Respublikasının rolunu təyin etmək mümkün deyil. Lazım olan şəraitdə Ermənistan Respublikası bəyan edir ki, Qarabağ ermənilər Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycana qarşı milli azadlıq mübarizəsi aparırlar və bunun Ermənistana heç bir aidiyyəti yoxdur. Digər bir vəziyyətdə isə, xüsusilə, daxili siyasi həyatımızda Ermənistan münaqişədə birbaşa iştirakını inkar etmir».

Əslində, buda sirr deyil ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı törətdiyi bu münaqişə onun dövlət separatizmi səviyyəsində apardığı, hərbi müdaxilə ilə icra edilən təcavüzkarlıqdır. Ermənistan Respublikası həmçinin beynəlxalq terrorizm də həyata keçirir ki, bu da BMT Baş Məclisinin 39-cu sessiyasında qəbul olunmuş 35/159 nömrəli qətnamədə «Digər suveren dövlətlərin siyasi-ictimai quruluşunu poza bilən dövlətlərin hər hansı bir hərəkəti və dövlət terrorizmi siyasəti aparmasının yolverilməzliyi» kimi bəyan edilmişdir[237].

Beynəlxalq sənədlərdə terror siyasəti ittiham olunduğu halda, Ermənistan Respublikasının Azərbaycan Respublika-

sına qarşı dövlət terroru həyata keçirdiyini təsdiq edən xeyli dəlil və faktlar gətirmək olar.

BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsində Ermənistan Respublikasının Qarabağ münaqişəsində maraqlı tərəf kimi təqdim olunması məlum faktdır. Hətta BMT TŞ dünya dövlətlərini Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ ərazisində yaradılmış bandit rejiminə silah və hərbi sursat göndərməkdən imtina etməyə çağırır. 884 nömrəli qətnamənin 2-ci bəndində «Ermənistan hökumətinin Qarabağ ermənilərinə təsiri»ndən və bu «iştirakçı qüvvələrə hərbi kampaniyanı davam etdirmək üçün heç bir vasitə ilə kömək etməmək» zərurətindən danışılır.

Münaqişənin yarandığı andan Ermənistan Respublikasını separatçı, terrorçu və nəhayət, təcavüzkar dövlət kimi tanımaqla beynəlxalq təşkilatlar tərəfindən ona qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq edilməli idi. Bu da bir faktdır ki, Ermənistan Respublikası rəsmi səviyyədə, birmənalı olaraq, münaqişədə öz marağı olduğunu bəyan etmişdir. Ermənistan Respublikasının müstəqil Azərbaycan Respublikasına qarşı hərəkətlərinin Rusiya Federasiyasının da daxil olduğu beynəlxalq təşkilatlar tərəfindən təcavüz aktı kimi qiymətləndirilməməsi heyrət doğurur. Rusiya Federasiyası və digər bir sıra dövlətlərin də qanunverici orqanlarında məsələ bu cür qoyulur. Lakin Azərbaycana gəldikdə, bu məsələlər unudulur. Ermənipərəst qüvvələr bu məlum həqiqətin öz adı ilə adlandırılmasına imkan vermir. Bütün bu mənfi hallar Rusiya Federasiyası mətbuatında[238] tamamilə başqa yönümdə şərh edilir ki, bu da qəsdən dolaşıqlıq yaratmaqdan başqa bir şey deyildir.

Ermənistan «dövlətinin» müharibədə bilavasitə iştirakının inkar edilməsinin əsas səbəbi kimi, 1992-1993-cü illərdə Ermənistan Respublikası qoşunlarının Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisinə daxil olmalarına dair heç bir rəsmi sənədin olmaması göstərilir.

Qəsdən ortaya atılmış bu fikirlə bəzi dövlətlər BMT-nin Dağlıq Qarabağın və onun ətrafındakı rayonların Ermənistan Respublikası qoşunları tərəfindən deyil, Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaradılan separatçı rejimin silahlı dəstələri tərəfindən zəbt edilməsi kimi qəbul olunmasını təkid edirlər. Əgər Dağlıq Qarabağ ərazisinin Ermənistan Respublikasının nizami silahlı qoşunları tərəfindən işğalı hüquqi cəhətdən təsdiq olunarsa, münaqişə beynəlxalq və ölkələrarası münaqişə kimi qiymətləndirilər, beynəlxalq hüquq normaları əsasında ədalətli həllini tapardı.

Erməni tərəfi BMT Nizamnaməsinin 1-ci maddəsinin 2-ci paraqrafını əsas götürərək, bu məsələni «Dağlıq Qarabağ vətəndaşlarının azadlığı uğrunda» və ya «ermənilərin öz müqəddəratını təyin etmək» naminə milli azadlıq hərəkatı kimi təqdim edirlər. Bu məsələ ilə bağlı Ermənistan Respublikası Azərbaycan Respublikası ərazisində keçirilən silahlı əməliyyatlarda özünün birbaşa iştirakını inkar edir, Qarabağ ermənilərinə yardım faktını etiraf edirlər. Erməni liderləri və onların ideoloqları özlərinin cinayətkar hərəkətlərinə bəraət qazandırmaq üçün Dağlıq Qarabağdakı separatçı-terrorçu fəaliyyəti «milli azadlıq hərəkatı» kimi qiymətləndirməyə çalışırlar. Guya dünya ictimaiyyəti bu saxtakar ideoloqların nəzəriyyəsini anlamır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı uğurlu siyasətin formalaşmasında xüsusi rolu olan Heydər Əliyevin fəaliyyəti ilk növbədə özünü MDB daxilində Ermənistana qarşı ciddi alyansın yaranmasında göstərdi.

Azərbaycan Respublikası üçün ən ağrılı məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq problemə çevrilməsi və bu problemin sülh yolu ilə həll edilməsi üçün beynəlxalq səviyyədə atılan addımlar kifayət qədər müsbət töhfələr vermişdir. Lakin bir sıra səbəblərdən bu problemin hələ də həll edilməmiş qalmasının səbəbi Azərbaycan Respublikası ilə bağlı deyildir. Problemi yaradan, Azərbaycan

Respublikası ərazilərini işğal edən Ermənistan Respublikasının qeyri-konstruktiv mövqeyi, habelə beynəlxalq təşkilatların bu məsələdə ciddi mövqe tutmaması, işğalçı Ermənistana qarşı sanksiyalar tətbiq edilməməsi, onun birbaşa işğalçı mövqeyinin təsdiqlənməməsi ilə əlaqədardır.

ATƏT-in və digər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair qərar və qətnamələr qəbul etməsini müsbət hal kimi qəbul etmək, münaqişənin tezliklə həlli üçün perspektiv və potensial imkanların mövcudluğu mövqeyindən çıxış edərək, münaqişənin obyektiv, ədalətli həllinə nail olmaq mümkündür.

Heydər Əliyev 1995-ci il martın 24-də ATƏT-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun həmsədrləri Anders Bürneri və Vladimir Kazimirovu, aprelin 13- də Minsk konfransının və Minsk qrupunun həmsədrləri vəzifələrinin icrasına başlayan Heykke Talvitiye və Rene Niberqi, iyulun 17-də Minsk qrupunun Rusiya Federasiyasından və Finlandiyadan olan həmsədrləri Valentin Lozinskini və Heykke Talvitiyeni, avqustun 22-də AFR Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT-in Parlament Məclisinin vitse-prezidenti Vili Vimmerin başçılıq etdiyi nümayəndə heyətini, ATƏT-in Minsk qrupunun həmsədri, Rusiya Federasiyası prezidentinin Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə səlahiyyətli nümayəndəsi, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Vladimir Kazimirovu, avqustun 25-də ABŞ-ın Dağlıq Qarabağa dair danışıqlarda xüsusi nümayəndəsi, səfir Cozef Presseli və bu ölkənin ATƏT-dəki nümayəndəsi Sem Braunu qəbul etmişdir.

Heydər Əliyev 1995-ci il sentyabrın 26-da Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üzrə ATƏT-in Minsk konfransının həmsədrləri Heykke Talvitiyeni (Finlandiya) və Valentin Lozinskini (Rusiya Federasiyası), habelə Rusiya Federasiyası prezidentinin səlahiyyətli nümayəndəsi Vladimir Kazimirovu, Minsk konfransının Türkiyə, ABŞ və İsveç-

rədən olan üzvlərini qəbul etmişdir.

Həmin gün Heydər Əliyev ABŞ-ın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Riçard Kozlariçi, sonra isə Finlandiya dövlət katibinin müavini, ATƏT-in Minsk konfransının həmsədri Heykke Talvitiyeni qəbul etmişdir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1995-ci il oktyabr ayının 22-də BMT-nin yaradılmasının 50 illiyi münasibətilə keçirilmiş 36-cı plenar iclasda çıxışında BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respublikası ərazisinin işğalı faktına qətiyyətsiz münasibətini kəskin tənqid etmişdir. Bu çıxış öz ciddi təsirini göstərmiş, BMT-nin baş katibi Butros Qali Dağlıq Qarabağ məsələsini illik hesabatına salmışdı.[239]

1996-cı il yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Moskva görüşündən sonra hələ 90-cı illərin əvvəllərində ATƏT-in Minsk qrupunda ABŞ-ın nümayəndəsi olmuş Praqa Açıq KİV Üzrə Tədqiqat İnstitutunun rəhbəri Con Mareska[240] ilə söhbət zamanı bu məsələdə «ikili standartların» mövcudluğunu kəskin tənqid etmişdi: «Bəzi dövlətlər var ki, özlərinin ərazi bütövlüyü haqqında danışanda hesab edirlər ki, onların ərazi bütövlüyünə toxunmaq olmaz, amma başqa bir dövlətin ərazi bütövlüyü pozulanda bunun qarşısını almır, fikirləşmirlər ki, sonra onların da başına gələcək. Beynəlxalq prinsiplər, hüquq normaları var və hər bir dövlət bunlara sadiq olmalıdır. Bu məsələdə hansısa bir millətə, etnik qrupa, dövlətə simpatiya və antipatiya əsas götürülməməlidir. Bu münaqişənin həllində də təəssüf ki, bu sadə prinsiplər unudulub. Azərbaycanın hüquqları tapdalanıb, amma danışıqlarda həmişə deyiblər ki, Azərbaycanla Ermənistana eyni münasibət olmalıdır»[241].

Rusiya Federasiyası münaqişənin aradan qaldırılması istiqamətində səylərini bir qədər də artırdı. Fevralın ortalarında Rusiya xarici işlər nazirinin birinci müavini Boris Pastuxov İrəvana və Bakıya səfər etdi. Burada məqsəd ATƏT-in

və onun Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi ilə yanaşı, birbaşa təmaslar vasitəsilə Rusiya Federasiyasının əlavə səylərinin artırılması imkanlarını araşdırmaq idi. Rusiyalı diplomat İrəvanda olarkən Dağlıq Qarabağa dair danışıqlarda ABŞ prezidentinin səlahiyətli nümayəndəsi C.Pressel ilə görüşərək sıx qarşılıqlı əlaqə saxlamaq barədə razılıq əldə etmişdi. 1996-cı il fevralın 20-də isə Rusiya Federasiyasının xarici işlər naziri Y.Primakov Moskvada ATƏT-in sədri F.Kotti ilə problemin həllində Rusiyanın rolu ilə bağlı məsləhətləşmələr keçirdi. ATƏT rəhbərliyi rəsmi olaraq Dağlıq Qarabağda sülhyaratma missiyasına kömək edə biləcək hər bir hərəkəti təqdir etdiyini, lakin bu halda ATƏT-in Minsk qrupu ilə razılaşdırılmış qaydada fəaliyyət göstərməyin vacib olduğunu Rusiya tərəfinin nəzərinə çatdırdı. Faktik olaraq bu dəfə də ATƏT Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Minsk qrupunda aparıcı rolu Rusiya Federasiyasına həvalə etdiyinə işarə etdi.

Y.Primakov Bakıya səfəri zamanı Azərbaycan Respublikasına danışıqlara Dağlıq Qarabağla başlamağı məsləhət görmüşdü. Bu məsləhəti Ermənistan Respublikası təmsilçisi C.Liparidyan olduğu kimi təkrarlaması proseslərdə Ermənistanın özünün müstəqil fikir yürütmək iqtidarında olmadığını və onun müstəqil addım atmasının qeyri-mümkünlüyünü göstərməkdə idi.

Heydər Əliyev 1996-cı il avqustun 3-də ATƏT-in Minsk qrupunun həmsədri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Rusiya Federasiyası prezidentinin səlahiyyətli nümayəndəsi kimi diplomatik missiyasını başa vuran Vladimir Kazimirovu və onu bu vəzifədə əvəz edən Yuri Yukalovu qəbul etmişdir.

1996-cı il sentyabrın 26-da Moskvada ATƏT-in Minsk qrupu görüşünün növbəti mərhələsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının axtarılmasına dair məsələlər müzakirəyə çıxarıldı.

Rusiya Federasiyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan Respublikasına qarşı mülayimləşən münasibətindən guya narahatlıq keçirən Ermənistan Respublikası Qərb istiqamətində diplomatik uğurlar qazanmağa cəhdlər etməyə başladı. Moskva Zirvə görüşündən (1996-cı il) dərhal sonra qondarma «Dağlıq Qarabağ Respublikası» adından R.Koçaryanın ABŞ-a səfəri zamanı ABŞ hökuməti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yalnız ATƏT-in Minsk qrupu çərçivəsində həllinə tərəfdar olduğunu rəsmi bildirdi və bu məsələdə Dağlıq Qarabağın erməni icmasını tərəf kimi tanımaqdan bir daha imtina etdi. Bunun ardınca Dağlıq Qarabağ məsələsində ABŞ-ın Azərbaycan Respublikasına qarşı münasibətinin istiləşməsindən narahat olan Rusiya Federasiyası bu işdə Ermənistanı dəstəklədiyinə işarə edən siyasi gedişlərə üstünlük verdi. Çeçen yaraqlılarının guya Azərbaycan Respublikası ərazisində təlim keçdiklərini bəhanə gətirdi və şimal sərhədlərimizi qeyri-müəyyən vaxtadək faktik olaraq bağladı. Sentyabrın 16-19-da Rusiya Federasiyası və Ermənistan Respublikası hərbi qüvvələri Dağlıq Qarabağın separatçı liderlərinin də iştirakı ilə birgə təlim keçirdi. Bütün bunlar məhz V.Kazimirovun neytral qonşu kimi üstünlük verilməsinə çalışdığı Rusiya Federasiyası xarici siyasətinin təzahürü idi.

Həmin dövrdə Dağlıq Qarabağda üzdəniraq «prezident seçkiləri» keçiriləcəyi barədə məlumatlar dünya ictimaiyyətinin, ilk növbədə isə Türkiyə, ABŞ və digər rəsmi siyasi dairələrin etirazı ilə üzləşdi. Bununla əlaqədar Türkiyə Cümhuriyyəti XİN-nin mətbuat üçün yaydığı bəyanatda deyilirdi: «Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı açıqca zərərli olan bu cür hərəkətlər Yuxarı Qarabağ münaqişəsinin ətradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlara da mənfi təsir göstərəcəkdir və biz belə hərəkətləri pisləyirik».

O zaman Rusiya Federasiyası rəsmi və ya qeyri-rəsmi olaraq bu qeyri-hüquqi və beynəlxalq qaydalara zidd

hərəkələrə etirazını nəinki bildirdi, hələ bundan sonra da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində təkbaşına vasitəçilik etmək cəhdlərini davam etdirdi.

Rusiya Federasiyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində həllinə razı olmaması Qərb dövlətlərinin Minsk qrupunda həmsədrliyini qeyri-ciddi qəbul etməsi ilə izah edilirdi. Rusiya rəsmiləri, o cümlədən V. Kazimirov, məsələyə bu cür yanaşmalarının səbəbini Qərb dövlətlərinin Qafqaz problemlərinə yaxşı bələd olmaması ilə izah edirdilər, yəni dolayısı ilə onları Rusiya Federasiyasının mövqeyini və maraqlarını nəzərə almağa çalışırdılar.

Bu siyasətin nəticəsində 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə toplantısında Rusiya Federasiyasının təşəbbüsü ilə əlaqədar Minsk qrupunun fəaliyyətinin nəticəsiz olduğu qeyd edildi[242]. Rusiya Federasiyası bu fəaliyyətini Qərb dövlətləri, xüsusilə ABŞ ilə birgə davam etdirməyin vacibliyi təklifi ilə üzləşdi. Lissabon toplantısında ATƏT-in Minsk qrupunun vaxtaşırı dəyişən həmsədrlik statusu ləğv edildi, daimi həmsədrlik sayı üçə çatdırıldı və Rusiya Federasiyası ilə bərabər, ABŞ və Fransa da həmsədrlik statusu ilə Minsk qrupuna daxil oldu. Bundan sonra Rusiya Federasiyasının Minsk qrupu daxilindəki təkbaşçılığı digər iki Qərb dövlətinin iştirakı ilə balanslaşdırıldı, Rusiya Federasiyası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqlarındakı üstün mövqeyini itirmiş oldu. Münaqişənin həllində Rusiya Federasiyası daha istədiyi kimi deyil, digər iki həmsədr ölkələrlə bərabər şəkildə hərəkət etməli idi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində təşəbbüsü ələ keçirmək üçün diplomatik mübarizəyə qoşulmuş bəzi dövlətlər Cənubi Qafqaz bölgəsində siyasi və strateji maraqların toqquşmasında və regional münasibətlərin gərginləşməsində maraqlı idilər. Moskvanın münaqişənin həllində ABŞ-ın liderliyi ələ almaq cəhdi ilə heç cür razılaşmaq istəməməsini həmin günlərdə ABŞ-ın dövlət katibi M.Olbray-

tın Rusiyanın xarici işlər naziri Y.Primakovla keçirdiyi görüşdə Azərbaycan-Ermənistan sərhədində beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsinə dair irəli sürdüyü təklifə Rusiya Federasiyası rəsmisinin birmənalı olaraq etiraz etməsi də bunu bir daha aydın şəkildə göstərirdi.

Heydər Əliyev dekabrın 6-da Prezident sarayında ATƏT-in Lissabon Zirvə görüşünün yekunları ilə əlaqədar respublika ictimaiyyətinin nümayəndələri ilə görüşündə demişdir: "ATƏT-in Lissabon Zirvə görüşü beynəlxalq aləmdə böyük və əlamətdar bir hadisədir. ... Hesab edirəm ki, ATƏT-in belə bir sənədinin qəbul olunması Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün bizim istədiyimiz prinsiplərin, tək bizim istədiyimiz yox, ümumiyyətlə, bu məsələnin həlli üçün yeganə olan prinsiplərin təsdiq edilməsi, birinci növbədə Azərbaycanın ərazi bütövlüyünün tanınması, ATƏT çərçivəsində bu sənəd ilk dəfə əldə olunubdur, - Dağlıq Qarabağa məhz Azərbaycanın tərkibində status verilməsi - bunlar bizim üçün çox əhəmiyyətlidir... Eyni zamanda Lissabon Zirvə görüşünün Azərbaycan üçün böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, biz həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini açıb həm Zirvə görüşünün iştirakçılarına, həm də bütün dünya ictimaiyyətinə bildirdik".[243]

6.3. ATƏT-in Lissabon Zirvə görüşündə Heydər Əliyevin qətiyyəti

Ermənisan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycan diplomatiyasının fəaliyyətində mühüm yer tutan uğurlardan biri ATƏT-in Lissabon zirvə görüşü (1996-cı ilin dekabr) ilə bağlıdır. Bu uğur bilavasitə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin gərgin fəaliyyətinin nəticəsi idi[244].

Zirvə görüşü ərəfəsində, 1996-cı il oktyabr ayının əv-

vələrində ATƏT-in Minsk konfransının həmsədrləri - Rusiya Federasiyasından V.Lozinski və Finlandiyadan H.Talvitiye başda olmaqla nümayəndə heyətinin bölgəyə səfəri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar yaranmış vəziyyəti araşdıraraq obyektiv qiymət verilməsinə xidmət edirdi. Missiyanın tərkibinə ATƏT-in Minsk qrupunun həmsədrləri – R.Niberq və Rusiya Federasiyası tərəfindən V.Kazimirovu əvəz etmiş Y.Yukalov da daxil idilər. Bu səfərin əsas əhəmiyyəti onda idi ki, iştirakçı dövlətlərin başçıları və digər səlahiyyətli rəhbər şəxslər, habelə münaqişə tərəfləri əvvəlcədən Lissabon görüşündə müzakirə olunacaq məsələlər və görüşün iş planı ilə tanış olmaq imkanı əldə etdilər. Komissiyanın işində ABŞ, Türkiyə, Danimarka, Polşa, İsveçrə diplomatlarının və böyük ekspert qrupunun iştirakı ATƏT-in bu məsələyə ciddi yanaşmasından xəbər verirdi.

ATƏT və onun Minsk qrupuna daxil olan dövlətlər Lissabon zirvə görüşünə hazırlıq mərhələsində Azərbaycan Respublikası hökuməti ilə Dağlıq Qarabağ probleminin aradan qaldırılmasının konkret yollarını araşdıraraq, əməli təkliflərlə çıxış etmək üçün danışıqlara başladılar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in üzvü olan bütün dövlətlərin başçılarına məktubla müraciət etdi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində faəl iştirak etmələrinə dair istəyini bildirdi. Həmin dövrdə Azərbaycan Respublikası Prezidentinin ABŞ, Rusiya, Türkiyə, Almaniya, Fransa, Böyük Britaniya, Gürcüstan, Ukrayna, Qazaxıstan, Finlandiya, Niderland, Belçika, Yunanıstan, Norveç və digər dövlətlərin diplomatik nümayəndələri ilə keçirdiyi bütün görüşlər ATƏT-in zirvə toplantısına hazırlıq məsələləri ilə bağlı olmuşdur.

Azərbaycan Respublikası XİN-in 1996-cı il noyabrın 20-də tarixli bəyanatında deyilirdi: «...Lissabon görüşü ərəfəsində Azərbaycan tərəfi Ermənistan tərəfi ilə qarşılıqlı surətdə məqbul olan qərar qəbul edilməsi üçün ATƏT-in hazırlıq

konfransı, ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa danışıqlarda fəal səylər göstərir. Bu qərar Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında tərəqqiyə nail olmaq üçün zəruri olan əsas prinsipləri əks etdirməlidir»[245].

Lissabon görüşü ərəfəsində Azərbaycan tərəfinin təşəbbüsü və təkidi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədi ilə keçirilən hazırlıq konfransında Minsk qrupunun təqdim etdiyi layihəyəyə erməni tərəfi etirazını bildirdi.

Avropanın 52 ölkəsinin dövlət və hökumət başçıları, habelə ABŞ və Kanadanın nümayəndələrinin iştirak etdiyi tarixi Lissabon Zirvə görüşü 1996-cı il dekabrın 2-də öz işinə başladı.

Azərbaycan Prezidentinin ciddi səylərindən sonra bir sıra mühüm sənədlər müzakirəyə çıxarıldı. Ümumi razılıq üçün təqdim edilən sənədlər arasında XXI əsrin Avropası üçün ümumi və hərtərəfli təhlükəsizlik modelinə dair Lissabon bəyannaməsi, Avropadakı adi silahlı qüvvələrin məhdudlaşdırılması prosesinin parametrləri və əhatə dairəsi haqqında sənədlər yer almışdı.[246]

Heydər Əliyevin uzaqgörənliklə istiqamətləndirdiyi diplomatik fəaliyyət Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində irəliyə doğru daha bir mühüm addımın atılması ilə nəticələndi. Azərbaycanın ədalətli mövqeyinin bütün dövlətlər tərəfindən müdafiə olunması və ATƏT-in toplantısının sənədlərində bu məsələnin geniş əksini tapması üçün keçirilən görüşlər, aparılan danışıqlar Heydər Əliyev diplomatiyasının doğru yolda olduğunu göstərdi.

Heydər Əliyevin ABŞ dövlət katibinin müavini Linn Devis, Rusiya Federasiyasının xarici işlər naziri Y.Primakov, Ukrayna prezidenti L.Kuçma, İsrailin baş naziri B.Netanyahu, İsveçrənin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kotti, Finlandiya prezidenti Marti Ahtisaari, Rusiya

hökumətinin sədri V.Çernomırdin ilə keçirdiyi görüşlər faydalı nəticə verdi.

Prezident Heydər Əliyevin tarixi əhəmiyyətli nitqində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in və onun Minsk qrupunun rolu, habelə bir sıra dövlətlərin vasitəçiliyi ilə aparılan ikitərəfli danışıqların, Azərbaycanın atəşkəs rejiminə ciddi riayət etməsinin əhəmiyyəti öz əksini tapdı.[247]

Ulu öndər hələ o zaman Lissabon görüşünə dair öz fikrini belə bildirmişdi: «Bizim məqsədimiz ondan ibarətdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün Lissabon görüşünün sənədlərində yeni imkanlar açılsın. Bizim əsas məqsədimiz gələcəkdə məsələnin ədalətli həll olunması üçün Lissabon Zirvə görüşündə ən məqbul formulu təsdiq etdirmək, yaxud onun orada bəyənilməsinə nail olmaq idi»[248].

Lissabon görüşündə əldə edilən nəticə təsadüfi başa gəlməmişdir. Lissabona qədər olan dövr ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında keçirilmiş danışıqların nəticəsi kimi, Azərbaycan Respublikası əvvəlcədən bir sıra şərtlər haqqında fikir yekdilliyinin əldə edilməsinə nail olmuşdu. Bunlar işğal altında olan Azərbaycan Respublikası torpaqlarının azad edilməsindən, erməni silahlı qüvvələrinin bütün zəbt edilmiş torpaqlardan çıxarılmasından, qaçqın və məcburi köçkünlərin öz yerlərinə qayıtmasından ibarət idi. Bu üç şərt BMT TŞ-nin qətnamələrində, BMT-nin bir çox rəsmi sənədlərində, ATƏT-in və onun Minsk qrupunun sənədlərində, Azərbaycan Respublikası ilə ikitərəfli dövlətlərarası sənədlərdə, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının dövlət nümayəndələri arasında aparılan danışıqlarda öz əksini tapdı.

ATƏT-in fəaliyyət göstərən sədrinin bəyanatında deyilirdi: "Hamımız bilirsiniz ki, son iki ildə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində və Azərbaycan Respublikasının

ərazi bütövlüyü məsələsində tərəqqi əldə olunmayıb.

Təəssüf edirəm ki, tərəflərin tənzimlənmənin prinsiplərinə dair fikirlərini bir-birinə yaxınlaşdırmaq üçün Minsk konfransı həmsədrlərinin səyləri uğursuz olub.

Minsk qrupunun həmsədrləri tərəfindən Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını təşkil edəcək üç prinsip tövsiyə edilibdir. Həmin prinsiplər Minsk qrupunun üzvü olan bütün dövlətlər tərəfindən dəstəklənir. Onlar aşağıdakılardır:

- Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;

- Azərbaycan tərkibində Dağlıq Qarabağa ən yüksək dərəcəli özünüidarəetmə verən özünütəyinetmə əsasında Dağlıq Qarabağın sazişlə müəyyən edilmiş hüquqi statusu;

- tənzimləmə müddəalarına bütün tərəflərin əməl etməsini təmin edən qarşılıqlı öhdəliklər daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi.

Təəssüf edirəm ki, Ermənistan bunu qəbul edə bilmədi. Bu prinsiplər bütün digər iştirakçı dövlətlər tərəfindən dəstəklənir.

Bu bəyanat Lissabon sammitinin sənədlərinə daxil olacaq".

Lissabon görüşünə qədər Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münaqişənin həlli prinsiplərində fikir ayrılığı var idi. Söz sahibi olan iri dünya dövlətləri arasında da bu vaxta qədər yekdil bir fikir formalaşmamışdı. Burada Azərbaycan tərəfinin əsas məqsədi danışıqlar mexanizminin təkmilləşdirilməsi və beynəlxalq sülhü mühafizə qüvvələrinin tətbiq edilməsinə dair 1994-cü ildə Budapeştdə qəbul olunmuş qərarın məntiqi davamı olaraq, Lissabon görüşündə münaqişənin həlli prinsiplərinin bərqərar olunmasına nail olmaqdan ibarət idi.

Bu prinsiplər aşağıdakılardan ibarət idi:

1.Münaqişənin həlli Azərbaycan Respublikasının ərazi bütövlüyü əsasında öz əksini tapmalıdır;

2.Dağlıq Qarabağın hər hansı bir muxtariyyəti Azərbay-

canın tərkibində olmalıdır;

3.Dağlıq Qarabağın həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinə təminat verilməlidir.

Ermənistan Respublikası nümayəndə heyəti bu prinsiplərin, xüsusilə də Lissabon bəyannaməsinin Azərbaycan Respublikasının ərazi bütövlüyünü əks etdirən 20-ci maddəsini qəbuledilməz hesab edirdi. Bunu Ermənistan Respublikasında yaranmış daxili siyasi vəziyyətin gərginliyi ilə izah edirdilər. Bu prinsiplərin münaqişənin lap əvvəlində inkar etməsi, Ermənistan Respublikası rəhbərliyinin məsələyə dair uzunmüddətli strateji mövqeyindən xəbər verirdi və əslində, bu, bəhanə idi. Ermənistan Respublikası Azərbaycan Respublikasının ərazi bütövlüyünü danışıq mövzusu hesab etmir, Dağlıq Qarabağın siyasi cəhətdən müstəqil qurum kimi tanınmasını iddia edir, təhlükəsizlik məsələsinin isə yalnız bir icmaya – ermənilərə aid olmasını əsaslandırmağa çalışırdı.

Heydər Əliyev Azərbaycan dövlətinin maraqlarının müdafiəsi üçün ermənilərin fitnəkarlığına cavab olaraq Lissabon görüşünün sənədi səsə qoyulanda özünün veto hüququndan istifadə edəcəyini bildirdi. Azərbaycan Respublikasının Prezidenti əslində, çox uğurlu və məqsədyönlü diplomatik gedişlərlə ölkəmiz üçün məqbul sayılan sənədin qəbul edilməsinə nail oldu. Azərbaycan Respublikasının dövlət başçısı Ermənistan Respublikası Prezidentinin avanturist siyasi gedişlə yaratdığı şəraitdə siyasi iradə və cəsarət nümayiş etdirərək ölkəmizin mövqeyinə uyğun sənədin qəbul edilməsinə nail oldu.

Dünyanın bir sıra mötəbər agentlikləri və rəsmi şəxsləri Azərbaycan nümayəndə heyətinin Lissabonda çox faydalı iş görərək, sanballı nəticə əldə etdiyini bildirirdilər.

Assoşieyted Press Agentliyi Lissabon görüşündə baş verənləri belə təsvir etmişdir: «İki günlük zirvə görüşü prosesində aparılmış çoxsaatlıq danışıqlar nəticəsində, ermənilərin məskunlaşdığı bu dağ regionunun Azərbaycanın bir hissəsi olması barədə ifadəni Ermənistan qəbul etməkdən

imtina etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir ki, bu ifadənin olmadığı bir təqdirdə o, zirvə görüşünün yekun sənədinə razılıq verə bilməz. Son anda Heydər Əliyev Ermənistanın razılığı olmadan 53 dövlət tərəfindən ayrıca bəyanat qəbul etdirdi və o, sənəd statusunda bəyannaməyə əlavə olundu. Eyni zamanda, Heydər Əliyev Avropa İttifaqı tərəfindən dəstəklənməsi barədə güclü bəyanat aldı»[249].

«İnterkon Deyli» bülleteninə rəsmi İrəvanın pozucu mövqeyi Ermənistan Respublikası «özünü ATƏT-in 53 dövlətinə qarşı qoymuşdur» kimi qeyd edilmişdi[250].

Məşhur amerikalı politoloq Pol Qoblun Azərbaycan Respublikasının Vaşinqtondakı səfirliyinə telefonla zəng edərək Azərbaycan Respublikası nümayəndə heyətinin Lissabonda çox faydalı iş görərək, sanballı nəticə əldə etməsini bildirməsi də Heydər Əliyev diplomatiyasına verilən qiymət idi.[251]

ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatı və Lissabon zirvə görüşünün nəticələri dünyanın aparıcı dövlətinin rəhbərləri tərəfindən də rəğbətlə qarşılanmışdır. ABŞ-ın vitse-prezidenti Albert Qor Heydər Əliyevə göndərdiyi məktubda öz məmnunluğunu ifadə etmiş və Azərbaycan Respublikasının dövlət başçısının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirmişdir: «Sizin dövlət xadimi kimi məharətiniz və işlə şəxsən məşğul olmağınız bu məqsədə nail olmaq üçün olduqca əhəmiyyətlidir»[252].

Almaniyanın xarici işlər naziri Klaus Kinkelin Azərbaycan Prezidenti Heydər Əliyevə göndərdiyi teleqramında isə deyilirdi: «ATƏT-in Lissabon sammitinin axırında öz konstruktiv hərəkətinizlə Siz zirvə görüşünün ümumi sənədinin qəbul edilməsinə həlledici töhfə verdiniz. Bunun üçün Sizə bir daha ürəkdən təşəkkürümü bildirirəm. Sizin ölkəniz və xalqınız üçün məhz belə hərəkət etməyiniz, şübhəsiz, yaxşı oldu»[253].

Başda Heydər Əliyev olmaqla, Azərbaycan Respubli-

kası nümayəndə heyətinin təşəbbüsü və təkidi ilə dekabrın 12-də BMT Baş Məclisinin sessiyasında BMT ilə ATƏT arasında əməkdaşlığa dair qəbul olunmuş qətnaməyə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli edilməsi istiqamətində ATƏT-in fəaliyyətinə həsr olunmuş paraqraf daxil edildi. Bu sənəddə, Ermənistan Respublikası nümayəndələrinin bu düzəlişin əleyhinə çıxmasına baxmayaraq, Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsubluğu təsdiq olunurdu. Qətnamə və düzəliş BMT üzvlərinin tam əksəriyyətinin səsverməsi ilə Azərbaycan Respublikasının ədalətli mövqeyinin dəstəkləməsi ilə nəticələndi.[254]

Lissabon zirvə görüşündə Azərbaycan diplomatiyasının qələbəsi politoloqların və siyasi ekspertlərin gəldikləri ümumi rəylər əsasən aşağıdakı kimi ümumiləşdirilir:

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ATƏT-in formalaşmış mövqeyi ortaya qoyuldu. Zirvə görüşündə Minsk qrupu məsələnin həllinin əsas prinsiplərinin əks olunduğu və məhz Azərbaycan tərəfinin təklifləri əsasında hazırlanmış layihələri müzakirəyə çıxardı. Bu, ərazi bütövlüyünün qorunmasını başlıca şərt kimi qəbul edən ATƏT-in ədalətli yanaşmasına dəlalət edirdi.

Əvvəlki zirvə görüşlərindən fərqli olaraq, Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycan Respublikasının mövqeyinə rəğbət hissini yüksəltdi. Görüş ərəfəsində Avropanın və dünyanın aparıcı dövlətlərinin başçılarından Azərbaycan Respublikası Prezidentinin ünvanına daxil olmuş məktublarda bu məsələlərdə respublikamızın haqq işini dəstəklədikləri bildirilirdi. Azərbaycanın mövqeyinin beynəlxalq hüquq normaları və ATƏT-in prinsipləri ilə tam uzlaşmasına, işğala məruz qalmış ölkə kimi Azərbaycanın torpaqlarının azad olunması zərurətinin dünya ictimaiyyəti tərəfindən dəstəklənməsinə artıq nail olunmuşdur.

Beynəlxalq aləmdə Azərbaycan Respublikasının sülh-

sevər, Ermənistanın isə işğalçı dövlət olması, Azərbaycan diplomatiyasının məqsədyönlü və uzaqgörən siyasi fəaliyyəti Budapeştdən Lissabonadək ötən bir dövr ərzində nəinki ATƏT-in Minsk qrupunun işində, hətta bütün beynəlxalq və regional toplantılarda, dövlətlərarası ikitərəfli əlaqələrdə öz əksini tapmışdır.

Lissabon görüşündə Azərbaycan diplomatiyası qarşısında başlıca məqsədlərə nail olmaq üçün aşağıdakı konkret vəzifələr dururdu:

- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəblərinin və nəticələrinin, Dağlıq Qarabağ probleminin əsas mahiyyətinin, habelə bu məsələdə münaqişə tərəflərinin hansı mövqedə durduqlarının real mənzərəsini görüş iştirakçılarına çatdırmaq, bunun üçün bütün mümkün imkanlardan səmərəli istifadə etmək;

- Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək muxtariyyət statusunun verilməsi barədə Minsk qrupunun gəldiyi qənaətə ATƏT-in üzvü olan ölkələrdən yalnız Ermənistanın qeyri-konstruktiv və beynəlxalq prinsiplərə zidd mövqeyinin fakt kimi açıqlanması. (Nəhayət, hamı bilməli idi ki, məsələnin bu cür qoyuluşunda Ermənistanın heç bir ciddi dəlili yoxdur);

- Azərbaycan Respublikasının ədalətli mövqeyinin gözlənilməsi baxımından zirvə görüşündə qəbul olunmuş sənədlərdə və bəyanatlarda ATƏT-in Minsk qrupunun gəldiyi nəticələrin və Dağlıq Qarabağ probleminin məhz beynəlxalq prinsiplərə uyğun həlli formulunun əks etdirilməsinə nail olmaq.

Ermənistan Azərbaycan Respublikasının ərazi bütövlüyünü ehtiva edən maddəyə veto qoymaqla təkcə Azərbaycana deyil, əslində, BMT, ATƏT və eləcə də bütün dünya dövlətlərinin iradəsinə, onlar tərəfindən qəbul edilmiş ərazi bütövlüyü prinsipinə zidd çıxdığını nümayiş etdirdi. Onun bu siyasi gedişi Dağlıq Qarabağ problemini bölgədəki ermənilərlə Azərbaycan Respublikası arasında münaqişə kimi təqdim et-

mək cəhdlərini puça çıxardı, münaqişənin birbaşa Ermənistanın Azərbaycan Respublikasına olan ərazi iddialarından qaynaqlandığı barədə reallığı ortaya qoydu. Bundan başqa, Ermənistan beynəlxalq aləmdə cığal imici qazanaraq nüfuzunu və dəstəyini itirdi.

Lissabon zirvə görüşündə Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsi probleminə ümumdünya və ümumavropa təhlükəsizlik məsələlərinin kontekstində ilk dəfə aydınlıq gətirildi. Eyni zamanda, münaqişənin mahiyyəti, ümumi və xüsusi cəhətləri, həlli yollarının strateji baxımdan hüquqi siyasi çərçivəsi açıqlandı.[255]

Azərbaycan Respublikası Prezidentinin əldə etdiyi siyasi nailiyyətlərdən biri kimi, Lissabon zirvə görüşünün siyasi nəticələrinin Ermənistanla münasibətlərdə daha böyük dividendlər əldə etməyə imkan verməsi idi. ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan dövlətinin başçısı ilə görüşləri dünya dövlətlərinin, ilk növbədə, ABŞ və Rusiyanın Dağlıq Qarabağ probleminin həllində davamlı təşəbbüslərlə çıxış edəcəklərinə ümidi artırdı. Bu iki dövlətin Lissabon zirvə görüşündə ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi bəyanatının hazırlanmasında və görüşdə fəal mövqe nümayiş etdirməsi bu fikrə əsas verirdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in Lissabon zirvə görüşündə demişdir: «Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacaq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verməyəcəyik»[256].

Minsk qrupu yarananda Dağlıq Qarabağ münaqişəsinin həllində əsas rol oynayan Rusiya Federasiyası bütövlükdə Ermənistanı və Dağlıq Qarabağın separatçı qüvvələrini həm mənəvi-siyasi, həm də maddi cəhətdən dəstəkləyirdisə və bu məsələdə həmişə Azərbaycan Respublikasına birtərəfli qay-

dada təzyiq göstərirdisə, Lissabon ərəfəsində o, Azərbaycan Respublikasının bu problemin həlli ilə bağlı irəli sürdüyü bütün şərtləri həm nəzəri, həm də praktik cəhətdən müdafiə etdiyini açıq bəyan etdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin uğurlu siyasətinin nəticəsində Azərbaycan-Amerika münasibətləri tərəfdaşlıq və əməkdaşlıq istiqamətində yüksələn xətlə inkişaf etdi və Lissabonda Azərbaycan Respublikası üçün taleyüklü məsələ hesab olunan Dağlıq Qarabağ probleminin həlli prinsiplərini müəyyən edən qərarın qəbul edilməsində ABŞ bir daha öz prinsipial mövqeyini bildirdi.

ABŞ-ın Dağlıq Qarabağ ətrafında baş verən hadisələrə dair mövqeyinin tam dəyişməsini sübut edən ən bariz nümunə isə Prezident B.Klintonun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə göndərdiyi məktubda öz əksini tapmışdır. 1996-cı il 8 noyabr tarixli həmin məktubda B.Klinton açıq bildirirdi ki, o, Azərbaycan Respublikasının ərazi bütövlüyünü və müharibənin beynəlxalq hüquq prinsipləri əsasında həll edilməsini dəstəkləyir.

1994-1996-cı illərdə Almaniya ilə aparılan fəal iş nəticəsində Dağlıq Qarabağ münaqişəsinə dair qəti fikrin bildirilməsi və Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması zərurətinin rəsmi bəyan edilməsi Heydər Əliyev siyasətinin daha bir uğuru idi. ATƏT-in Parlament Assambleyası sədrinin müavini və Almaniya Bundestaqının Qafqaz qrupunun rəhbəri Villi Vimmerin «Almaniya heç vaxt hansısa ölkənin ərazi bütövlüyünün pozulması və əminamanlığın məhz ərazi hesabına təmin edilməsi mövqeyi ilə barışmayacaq» deməsi, xarici siyasətdə Heydər Əliyev diplomatiyasının çox mühüm qələbəsi idi.[257]

Hətta Ermənistan-Azərbaycan münaqişəsinin həllindən danışarkən Villi Vimmer AFR-ın Azərbaycanın mövqeyinə üstünlük verdiyini bildirmişdir.

Prezident Heydər Əliyevin diplomatik səylərinin nəti-

cəsi idi ki, Budapeşt və Lissabon zirvə görüşləri arasındakı iki illik fəaliyyəti nəticəsində ATƏT və onun Minsk qrupuna daxil olan digər üzvlərin də mövqeyi respublikamızın xeyrinə tam dəyişdi. İki il öncə bu məsələnin həlli barədə yekdil fikrə gələ bilməyən İtaliya, İsveç, Finlandiya, Belarus Lissabon zirvə görüşü ərəfəsində Azərbaycan Respublikasının haqlı olması qərarına gəldi. Təsadüfi deyildi ki, Minsk qrupunun 11 üzvündən 10-nun razılığı ilə (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin beynəlxalq prinsiplərə uyğun və Azərbaycan Respublikasını qane edən həlli layihəsi yekdilliklə qəbul edildi. Bu da, sözsüz ki, Heydər Əliyev diplomatiyasının gərgin fəaliyyətinin məntiqi nəticəsi idi.[258]

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev beynəlxalq və regional təşkilatların (BMT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, Avropa Şurası, NATO, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Birliyi, MDB və s.) tribunasından Ermənistanın işğalçılığını məntiqi şəkildə əsaslandıran konstruktiv çıxışlar üçün maksimum istifadə etdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsil mahiyyəti haqqında dünya dövlətlərini lazımınca məlumatlandırdı, ayrı-ayrı dövlətlərin, regional təşkilatların Ermənistan Respublikasının mövqeyini pisləyən qərarlarının, bəyanatlarının qəbul edilməsinə nail oldu.

Azərbaycan dövləti Budapeştdən keçən iki il müddətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox fəal iş aparmış Minsk qrupunun, ATƏT üzvü olan başqa ölkələrin münaqişənin yalnız beynəlxalq prinsiplər və Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək yolu ilə həll oluna bilməsi haqqında rəylərini almaq mümkün oldu.

ATƏT üzvü olan dövlətlərin Azərbaycan Respublikası ilə həmrəyliyi, sözsüz ki, Prezident Heydər Əliyevin ardıcıl siyasətinin sayəsində qazanılan beynəlxalq dəstəyin nəticəsi idi.

ATƏT-in 54 dövlətin başçısının iştirak etdiyi Lissabon zirvə toplantısı ilk dəfə olaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini, ümumi və xüsusi cəhətlərini, həlli yollarının hüquqi-siyasi çərçivəsini bəyan etdi.

Lissabon sammitinin Azərbaycan üçün böyük təbliğatı, hüquqi və mənəvi-siyasi əhəmiyyətini Heydər Əliyev belə şərh edirdi: «Əgər sammitə gələndə Dağlıq Qarabağ, Azərbaycan məsələsi tamamilə unudulmuşdursa, iki-üç gün içərisində bir nömrəli məsələyə çevrildi. Ona görə ki, bütün dövlətlər dərk etdilər ki, bu məsələ nə qədər kəskin məsələdir və biz nə qədər geniş ictimai rəy yarada bildik».[259]

6.4. Heydər Əliyevin xarici siyasətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində fəaliyyətinin növbəti mərhələsi

İslam Konfransı Təşkilatına üzv ölkələrinin xarici işlər nazirlərinin 1996-cı il dekabrın 9-13-də İndoneziyanın paytaxtı Cakarta şəhərində keçirilən 24-cü konfransda Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair qəbul edilmiş qətnamə ümumilikdə Kasablankada keçirilmiş VII Zirvə toplantısının qətnaməsini bir daha təsdiq edir və əlavə olaraq bir sıra yeni tələblər də irəli sürülürdü.

Ermənistandan işğal etdiyi bütün Azərbaycan ərazilərindən, o cümlədən, Şuşa və Laçın rayonlarından öz hərbi qüvvələrini dərhal və qeyd-şərtsiz çıxarması qətiyyətlə tələb edilirdi.

Konfransda Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindəki memarlıq, mədəniyyət və dini abidələrin talan və məhv edilməsi qətiyyətlə pislənilir, vurulmuş zərər və təzminat üçün bütün məsuliyyət isə Ermənistan Respublikasının üzərinə qoyulurdu.

Cakarta konfransında qəbul edilən qətnamələrin birində Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi məsələsi öz əksini tapmışdı.

Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan Respublikası tərkibində Dağlıq Qarabağa muxtariyyət verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması barədə ATƏT sədrinin Lissabon zirvə görüşündəki bəyanatı İKT konfransının iştirakçıları tərəfindən yekdilliklə dəstəklənirdi.

1997-ci il martın 3-də Azərbaycan Respublikası və Ermənistan Respublikasının prezidentləri Heydər Əliyev və L.Ter-Petrosyan telefon danışığı zamanı bundan sonra da atəşkəs rejiminə əməl ediləcəyinə dair razılığa gəlməklə yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar prosesi, bu məsələ ilə bağlı ATƏT-in Minsk qrupunun fəaliyyəti, eyni zamanda, Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələri arasında birbaşa görüşlərin mütəmadi olaraq keçirilməsi barədə fikir mübadiləsi apardılar və razılığa gəldilər[260].

«İzvestiya» qəzeti «İrəvan daha Qarabağın müstəqilliyinə israr etmir» adlı məqaləsində Ermənistan Respublikasının prezidenti L.Ter-Petrosyanın Dağlıq Qarabağ münaqişəsi mövzusunda keçirdiyi mətbuat konfransında söylədiyi belə bir mülahizəsini iqtibas gətirmişdi: «Qarabağın tam müstəqilliyində israr etsək, Bosniya serblərinin variantına düçar ola bilərik: öz inadkarlıqları ucbatından onlar qazana biləcəklərindən də çox itirdilər»[261].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına rəsmi səfərinin (1997-ci il 2-4 iyul) nəticələri ilə bağlı dövlət başçılarının mətbuat konfransında Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin vasitəçilərin fəaliyyətinin səmərəsiz olduğunu bildirmişdi: «Biz «Rusiya-NATO» məsələsi ilə necə məşğul olduqsa, nəhayət, bu məsələ ilə də belə məşğul olacağıq. Xarici işlər naziri özü-

nün hər bir iş gününü bu problemdən başlayacaqdır. Mən Bill Klinton ilə, Jak Şirak ilə razılığa gəlmişəm ki, müvəqqəti müqavilə və ya saziş imzalamaq üçün Azərbaycan Respublikası və Ermənistan Respublikasının prezidentlərini danışıqlar masası arxasında əyləşdirmək və iki qonşu dövlətin tarixinin bu pis dövrünə son qoymaq üçün biz üç dövlət, nəhayət, özümüzdə iradə tapacağıq»[262].

Lakin bundan sonra Rusiya Federasiyası Ermənistan Respublikası ilə 1997-ci ildə bağladığı strateji tərəfdaşlıq müqaviləsi və bu ölkəyə hədiyyə etdiyi 1 milyard dollarlıq silah verməklə Ermənistan Respublikasına arxa olduğunu bir daha göstərdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ildə Parisə səfəri zamanı Ermənistan Respublikası prezidenti L.Ter-Petrosyanla qısa görüşdən sonra burada ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların davam etdirilməsi ilə yanaşı, böyük sülh sazişinin işlənib hazırlanması məqsədi ilə həm ekspertlər, həm də prezidentlər səviyyəsində Azərbaycan və Ermənistan arasında bu təmasların davam etdirilməsi qərara alındı.

Həmin il yanvarın 19-da MDB ölkələri Dövlət Başçıları Şurası iclaslarının yekunlarına dair mətbuat kofransında Rusiya prezidenti B.Yeltsin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair maraqlı bir fikir söyləmişdi: «Etiraf etmək lazımdır ki, barışıq, atəşkəs haqqında saziş sülhyaratma səylərini, o cümlədən də Rusiya tərəfindən göstərilən səyləri bir qədər ləngitmişdir. Açıq demək lazımdır ki, biz bu məsələ ilə az maraqlanmışıq. Mən Azərbaycan prezidentinə vəd etdim ki, bu işə lazımi təkan veriləcək. Xarici işlər naziri məkik diplomatiyası metodu ilə fəaliyyət göstərəcək, «Azərbaycan-Dağlıq Qarabağ-Ermənistan» xətti ilə və əks istiqamətdə əlaqə yaradacaqdır». O, sözünə davam edərək demişdi ki, Azərbaycan Dağlıq Qarabağa muxtar respublika statusu təklif edir. Bundan yuxarısı yoxdur, bizdə, Rusiyada da bundan yuxarısı yoxdur, onlar isə deyirlər: «Bu, bizdən ötrü azdır, bizə daha böyük status

verin. Mən bilmirəm, onlara daha necə status lazımdır? Bəlkə, Amerika Birləşmiş Ştatları statusu istəyirlər»[263]. Təssüf ki, bu da söz olaraq qaldı, danışıqların sonrakı gedişi göstədi ki, bu da bir diplomatik jestdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici siyasətinin uğurlu nəticələrindən biri də o idi ki, nüfuzlu beynəlxalq təşkilat olan İKT Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə çox ciddi yanaşdı. İKT-yə üzv ölkələrin dövlət və hökumət rəhbərlərinin 1997-ci il dekabrın 8-11-də Tehran şəhərində keçirilən VIII Zirvə konfransında Ermənistanın Azərbaycana qarşı təcavüzü barədə növbəti qətnamə qəbul edilərkən təşkilatın əvvəlki qətnamələrinin müddəaları əsas kimi götürüldü. Tehran bəyannaməsinin 8-ci maddəsində Ermənistandan öz silahlı qüvvələrini işğal etdikləri bütün Azərbaycan ərazilərindən çıxarmağı tələb edilir, münaqişənin həllinə tez bir zamanda və sülh yolu ilə nail olunmasının vacibliyi bildirilirdi.

Tehran görüşünün yekun bəyannaməsinin 56-cı maddəsində deyilirdi: «Konfrans Ermənistan və Azərbaycan arasındakı münaqişənin nizama salınmasına dair ATƏT sədrinin 1996-cı il Lissabon sammitində verdiyi bəyanatda ifadə olunmuş üç prinsipə tərəfdar olduğunu bir daha təsdiq edir və bu addımı Azərbaycana qarşı təcavüzün ciddi nəticələrinin dərhal aradan qaldırılmasının təminatı kimi qiymətləndirir»[264].

Beləliklə, İKT tərəfindən qəbul edilmiş bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasət birmənalı şəkildə pisləniliridi. İslam Konfransı Təşkilatı yeganə beynəlxalq təşkilat idi ki, Ermənistanı birmənalı şəkildə təcavüzkar adlandırmışdı.

ABŞ-ın dövlət katibi Madlen Olbrayt 1997-ci ilin əvvəllərində Senatın Beynəlxalq münasibətlər komitəsində çıxışı zamanı demişdir: «Tarixin və coğrafiyanın dolaşıqlıqları ilə daha da çətinləşmiş digər mübahisə Dağlıq Qarabağın statusuna aiddir. Burada xeyir xəbər odur ki, atəşkəs rejimi saxlanır. Bəd xə-

bər isə ondan ibarətdir ki, artıq iki ildən çoxdur, ATƏT-in Minsk qrupu çərçivəsində indiyə qədər gedən proses sarsıdıcı dərəcədə ləng olub. Bizim bu regionda çox əhəmiyyətli iqtisadi, siyasi və humanitar maraqlarımız var və biz məsələnin çözülməsinə kömək etməkdə daha gözəçarpan rol oynamağa hazırıq. Bizim nüfuzumuzu artırmaq istiqamətində bir addım kimi Konqres Ermənistana olan geniş yardım proqramımıza dəstəyi davam etməklə yanaşı, Azərbaycana qeyri-hərbi yardıma qoyulan məhdudiyyəytləri ləğv edə bilərdi»[265].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1997-ci ilin yanvar ayında Fransada rəsmi səfərdə olarkən xarici jurnalistlərə verdiyi müsahibəsində bildirmişdi ki, «ATƏT-in Minsk qrupunda həmsədr kimi Finlandiyanın Almaniya və yaxud ABŞ-la əvəzlənməsinə tərəfdardır». Buna baxmayaraq, Almaniyanın həmsədrliyinin əleyhinə olan Rusiya Federasiyası və Ermənistan Respublikasının etirazından sonra, bu məsələ ilə bağlı ABŞ və Fransanın mövqeləri önə çəkilməyə başlandı[266]. Həmin görüşdə Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar rəsmi Parisin Azərbaycan və Ermənistana münasibətdə fərqli mövqe tutduğunu Fransanın prezidenti Jak Şirakın diqqətinə çatdırmışdı.

ATƏT-in sədri F.Kottinin Azərbaycan tərəfi ilə heç bir məsləhətləşmələr aparmadan Fransanı bu işə cəlb etməsi narahatlığa səbəb olmuşdu. 1997-ci il fevral ayının əvvələrində bu məsələ ilə əlaqədar ATƏT-in Minsk qrupundakı nümayəndəsi xanım Süzan Xristiansen Azərbaycan Respublikasına və Ermənistan Respublikasına səfər etdi. Öncə Ermənistan rəhbərliyi ilə danışıqlar aparan xanım S.Xristiansen sonra Bakıya gələrək ABŞ-ın da həmsədr təyin olunması barədə irəli sürülən təklifi müzakirə etmək üçün Azərbaycan rəhbərliyi ilə görüşdü. Heydər Əliyev bu məsələyə münasibətini qətiyyətlə ifadə etdi: «Bizim rəyimizi nəzərə almayan belə bir qərar təkcə məndə deyil, ictimaiyyətimizdə də böyük narazılıq doğurubdur. Azərbaycan Respublikası ATƏT-in bəra-

bərhüquqlu üzvü, müstəqil dövlətdir. Bizimlə hesablaşmaq, bizə hörmət etmək lazımdır, necə ki, biz də dünya birliyinin hər bir dövlətinə, o cümlədən ATƏT-ə daxil olan dövlətlərə hörmət edirik»[267].

Heydər Əliyevin ciddi tələbi ilə ABŞ ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri oldu.

Rusiya Federasiyasının hər cür vasitələrlə, məxfi surətdə Ermənistan Respublikasını silah-sursatla, zirehli döyüş texnikası, hərbi aviasiya sistemləri və raket-artilleriya qurğuları ilə təchiz etməsi də münaqişə bölgəsində vəziyyətin gərginləşməsinə səbəb olan əsas amillərdən idi. Bu cür qanunsuz əməliyyatlar 1997-ci ilin əvvələrindən artıq müntəzəm olaraq həyata keçirilməyə başlandı. Məsələnin maraqlı tərəfi burasında idi ki, Rusiya Federasiyasının bəzi yüksək rütbəli məmurları da Ermənistan Respublikasına silah göndərilməsi faktını gizlətmirdilər. Həmin dövrdə Azərbaycan Respublikası XİN-nin mətbuat mərkəzinin məlumatında bildirilmişdi ki,[268] 1994-1996-cı illər ərzində 271 milyard Rusiya rublu dəyərində müxtəlif növ müasir tipli zirehli texnikanın əvəzsiz olaraq Ermənistan Respublikasına verilməsi barədə faktlar mövcuddur. Bu, Rusiya Federasiyasının müdafiə naziri I.Rodionovun 1997-ci il fevralın 23-də MDB ölkələri ilə əməkdaşlıq naziri A.Tuleyevə göndərdiyi məktubda da öz əksini tapırdı. Həmin məktubda o da göstərilirdi ki, bütün bu işlərin Müdafiə Nazirliyinin xətti ilə həyata keçirilməsinə baxmayaraq, əməliyyat barədə Rusiya Federasiyası hökümətinin heç bir qərarı yoxdur. Bu baxımdan demək olardı ki, Rusiyadan Ermənistan Respublikasına qanunsuz silah verilməsinin birbaşa onun dövlət siyasəti ilə heç bir əlaqəsi yoxdur. Burada söhbət yalnız Rusiya Federasiyasındakı müəyyən qüvvələrin ölkənin milli maraqlarının ziddinə olaraq yol verdikləri xəyanətkar əməllərindən gedə bilərdi.

Rusiya Federasiyası hökumətindən xəbərsiz olaraq Er-

mənistan Respublikasına silah satılması barədə fakta Parisdə çıxan həftəlik «Ekspress» jurnalı belə münasibət bildirmişdi: «Özü də bunlar 1992-ci ildə ATƏT tərəfindən qoyulmuş qadağa pozulmaqla edilmişdir»[269].

Ermənistan Respublikasının daxili işlər və milli təhükəsizlik naziri S.Sarkisyanın Rusiya Federasiyasından silah aldıqları və milyardlarla dolların ordunun silahlandırılmasına sərf edilməsi barədə xarici radiostansiya vasitəsilə verdiyi məlumat və eləcə də Vazgen Sarkisyanın «sürətlə silahlanma müharibənin amansız qanunudur və bu gün heç kəs, məsələn, Dağlıq Qarabağı özü üçün təyyarələr və uzaqvuran toplar almaqda təqsirləndirə bilməz» - deməsi, şübhəsiz ki, bu dövlətin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlı olmadığını əks etdirirdi[270].

Ermənistan Respublikasının prezidentinin xarici siyasət məsələləri üzrə baş məsləhətçisi C.Liparidyan isə ABŞ-da dərc olunan erməni qəzetlərindən birinə verdiyi müsahibəsində demişdi: «Dağlıq Qarabağ üçün bizim istəyimiz beynəlxalq ictimaiyyətin mövqeyi ilə üst-üstə düşmür. Dərk etmək lazımdır ki, nə qədər bizim istəyimiz beynəlxalq qüvvələrin mənafeyinə ziddir, bizim istədiyimizi heç vaxt anlamayacaqlar. Müharibəni başlayan tərəf tutarlı səbəb göstərməlidir. Ermənistanın isə səbəb gətirməyə əsası yoxdur»[271].

Cənubi Qafqaz bölgəsinə maraq bəzi dövlətlərin siyasi və strateji maraqlarının toqquşmasına və regional münasibətlərin gərginləşməsinə səbəb olmuşdu. Belə bir vəziyyətdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçiliyi öz üzərinə götürmüş Minsk qrupuna həmsədrlik edən dövlətlər arasındakı münasibətlərdə də bu münasibətlər özünü göstərirdi. ABŞ-ın regionda liderliyi ələ almaq cəhdi ilə heç cür razılaşmaq istəməyən Rusiya Federasiyası münaqişənin həllində Azərbaycan-Ermənistan sərhədində beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsinə dair ABŞ-ın dövlət katibi M.Olbraytın irəli sürdüyü

təklifə Rusiya Federasiyası rəsmisi açıq-aşkar etiraz etdi. Bu siyasi çəkişmələrə baxmayaraq ABŞ, Rusiya Federasiyası və Fransanın birgə səy göstərməklə münaqişənin sülh yolu ilə həllinə nail olacaqlarını düşünürdülər.

1997-ci ilin əvvəlində NATO baş katibinin Bakıya səfəri NATO-Azərbaycan əlaqələrinin yaranması, 1998-ci ildə ATƏT-in Minsk qrupunun münaqişənin həllində «ümumi dövlət» prinsipinə əsaslanan yeni planına Azərbaycanın etiraz etməsi və ATƏT-in Minsk qrupunun 1997-ci il sentyabrın 19-da münaqişənin mərhələli həlli prinsipi üzrə danışıqları davam etdirməyə hazır olduğunu bildirməsi Heydər Əliyev siyasətinin uğurlu addımlarına əsaslanır.

ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiya Federasiyası tərəfindən, guya hamıya münasib hesab olunduğu üçün, ortaya atılmış avantürist «ümumi dövlət» ideyasında məqsəd isə bu təklifi növbəti zirvə görüşündə ATƏT-in rəsmi sənədi kimi qəbul etdirmək idi. «Ümumi dövlət» ideyası Azərbaycan Respublikası ilə müstəqil dövlət kimi tanınmamış qondarma «Dağlıq Qarabağ Respublikası» arasında yalnız üfüqi münasibətlərin yaradılmasını özündə əks etdirirdi. Bu isə Azərbaycan Respublikası ərazisində yeni bir suveren dövlətin yaranmasına zəmin vermiş olardı. Rəsmi Bakının bu təkliflə qəti surətdə razılaşmaması Azərbaycan Respublikasını məcbur edirdi ki, Minsk qrupunun fəaliyyətinin artırılması və danışıqlar prosesinə yenidən başlanılması üçün daha münasib yollar axtarsın. ATƏT-in Minsk qrupu çərçivəsində aparılan sülh prosesinin ciddi maneələrlə qarşılaşması üzündən danışıqların heç bir fayda verməməsinə, Ermənistanın güclü militarizasiya siyasətinə meyillənməsinə münasibət bildirmək üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunun həmsədri olan hər üç dövlətin başçısına - B.Yeltsinə, B.Klintona və J.Şiraka 1998-ci il 8 fevral tarixli eyni məzmunlu müraciətlər ünvanlamışdı. Beynəlxalq təşkilatların diqqətini Dağlıq Qarabağ

münaqişəsinin həllinə cəlb etmək üçün göstərilən bu səylər öz müsbət nəticəsini göstərdi. Belə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yaranmış vəziyyətlə əlaqədar martın 3-də ATƏT-in fəaliyyətdə olan sədri, Norveçin xarici işlər naziri K.Vollebekin Minsk qrupu həmsədrləri ilə Osloda apardığı müzakirələrin nəticəsi belə düşünməyə əsas verirdi ki vasitəçilər problemin həlli istiqamətindəki fəaliyyətlərini əsasən münaqişədə iştirak edən dövlətlər arasında müntəzəm olaraq aparılan dialoqlar nəticəsində və onlar arasında əldə edilmiş razılıq əsasında qurulmasını daha məqsədəuyğun sayırlar. Bu isə ATƏT və onun Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinin həllində məsuliyyətdən boyun qaçırması üçün atılmış addımdan başqa bir şey deyildi. Həmin təklif Azərbaycan Respublikası rəhbərliyi tərəfindən bu cür qəbul edildi və mətbuatda da orqanlarında öz əksini tapdı.

Ermənistan Respublikasına və onun tərəfini saxlayan siyasi qüvvələrə bəhanə yeri qoymamaq üçün Azərbaycan Respublikasının Prezidenti Ermənistanı yenə də birbaşa danışıqlara başlamağa çağırdı və bu danışıqların dialoq formasında həyata keçirilməsinə üstünlük verdi. Ermənistan Respublikasının siyasi rəhbərliyində 1998-ci ildəki dəyişiklikdən sonra rəsmi İrəvanın Azərbaycan tərəfinin görüşmək təklifindən müxtəlif bəhanələrlə yayınması onun bu dialoqda maraqlı olmadığını üzə çıxardı.

1998-ci il aprelin 28-də Moskvada MDB dövlət başçılarının növbəti zirvə görüşündə Azərbaycan və Ermənistan prezidentləri tərəfindən bəyanat imzalandı. Bu bəyanatda tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ATƏT-in Minsk qrupu çərçivəsində həllinə sadiq qaldıqlarını təsdiq etdilər. Rusiya Federasiyasının prezidenti B.Yeltsin də, xarici işlər naziri Y.Primakov da danışıqların məhz həmsədrlərin irəli sürdükləri təkliflər əsasında aparılmasına üstünlük verdilər.

1998-ci il iyulun 21-də Prezident Heydər Əliyevin Böyük Britaniyaya rəsmi səfəri zamanı birgə bəyannamə imzalandı. Bəyannamədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin məhz Lissabon görüşündə qəbul olunmuş prinsiplər əsasında həllini məqsədəuyğun sayılırdı.

Rusiya Federasiyası Azərbaycan Respublikasına qarşı münasibətdə ikili standartlar diplomatiyasından əl çəkmədi. Minsk qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin həllini öz boynuna götürmüş rəsmi Moskva, digər tərəfdən, Ermənistan Respublikasını fəal şəkildə silahlandırır, İrəvanı Bakıya qarşı daha sərt mövqe tutmağa təhrik edir və beləliklə problemin bir az da dərinləşməsinə şərait yaradırdı. Rusiya Federasiyasının müdafiə naziri İ.Sergeyevin Ermənistan Respublikasına «S-300» tipli uzaqvuran raketlər göndəriləcəyi barədə İrəvanda verdiyi vədlərdən, L.Ter-Petrosyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə yaxınlaşmağa dair məlum çıxışından sonra Rusiya Federasiyasının prezidenti B.Yeltsinin «Ermənistan strateji maraqlarımız dairəsindədir, o, bizə yaxın ölkədir, çünki xristian ölkəsidir» - deməsi, Rusiya Federasiyasının Qafqaz bölgəsindəki siyasi dayağının Ermənistan Respublikası olduğunu və buradakı bütün münaqişələrin həllinə rəsmi Moskvanın məhz bu prizmadan yanaşdığı haqda qənaəti bir daha təsdiqlədi. Təsadüfi deyil ki, Rusiya Dövlət Dumasının Beynəlxalq İşlər Komitəsinin sədri V.Lukini qəbul edərkən Heydər Əliyev deyirdi: «Bu təfsirlər Moskvanın əvvəllər, Sovetlər İttifaqı dövründə də, indi də Zaqafqaziya respublikalarına eyni münasibət göstərməməsindən ibarətdir. Rusiya Ermənistanı özünə Azərbaycandan həmişə daha yaxın hesab etmişdir». [272]

Məlumdur ki, indiyə qədər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar variantlar Rusiya Federasiyasının yaxından iştirakı ilə hazırlanmışdır. Bu variantları hər dəfə də elə tərtib edilmişdir ki, tərəflərin

bunları qəbul etməsi mümkün olmasın, nəticədə problem həll olunmamış qalsın. Çünki bu münaqişənin həll olunmaması Rusiya Federasiyasının maraqlarına daha çox uyğundur, Qafqazda qeyri-sabitliyin olmasından maraqlarını təmin etmək üçün geniş şəkildə istifadə edir.

Ermənistanda sülhə daha çox meylli olan prezident L. Ter-Petrosyanın 1988-ci ilin fevralında hakimiyyətdən getməsi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in nizamasalma planına mənfi təsir göstərdi. Sülh prosesinin gedişində yaranan fasilə, atəşkəs rejiminin monitorinqini keçirmək istəyən ATƏT müşahidəçilərinin erməni hərbi birləşmələri tərəfindən atəşə tutulması bu qrupun fəaliyyətini dayandırdı.

1999-cu il aprelin 1-də MDB ölkələri Dövlət Başçıları Şurasının növbəti iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə Ermənistan prezidenti Robert Koçaryan arasındakı danışıqlar zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair fikir müxtəlifliyinin kəskin şəkildə ortaya çıxması Ermənistanın hər vəchlə danışıqları nəticəsiz qoymağa istiqamətləndirməyə yönəltdiyi siyasətinin davam edəcəyindən xəbər verirdi[273].

6.5. Heydər Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ATƏT-in Minsk qrupunun yeni təkliflərinə münasibəti

ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplərə, ATƏT-in qərarlarına uyğun həll edilməsinin tərəfdarı olduğunu bildirirdi. Bu, Azərbaycanın maraqlarına uyğun idi. Ermənistan Respublikası isə bununla razılaşmırdı. ABŞ, həmçinin Minsk qrupu çərçivəsində aparılan danışıqlarda «Dağlıq Qarabağ rəhbərliyinin» üçüncü tərəf kimi iştirakına tərəfdar idi. Bunu

ermənilər müsbət qarşılasa da, Azərbaycan hökuməti bu təklifi qəbul etmirdi. Münaqişə tərəflərinə münasibətdə ikili standartı büruzə verməməyə çalışan ABŞ torpaqları işğal olunmuş Azəbaycanın haqlı tələbi ilə təcavüzkar Ermənistan Respublikasının ədalətsiz mövqeyini eyni səviyyədə tutmaqla məsələnin həllini kölgədə qoyurdu.

ABŞ Prezidenti B.Klintonun 1999-cu il aprelin 25-də Vaşinqtonda NATO-nun 50 illik yubileyi ilə əlaqədar dövlət başçıları səviyyəsində keçirilən tədbirlərdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə apardığı söhbət zamanı özünün Cənubi Qafqaz bölgəsinə dair siyasətə üstünlük verdiyini, hakimiyyətdə olduğu dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini həll edəcəyinə ümidvar olduğunu bildirmişdi.

J.Şirak isə Dağlıq Qarabağ münaqişəsinin həllində status məsələsinə diqqət çəkərək, Heydər Əliyevə məktubunda öz mövqeyini belə bildirirdi: «Dağlıq Qarabağın ala biləcəyi ən yüksək muxtariyyət statusunun dəqiqləşdirilməsi vaxtı da, şübhəsiz, gəlib çatmışdır. Bu baxımdan, son iki ilin nəticəsi bizə göstərir ki, danışıqlarda bizə hər hansı bir yeni maneənin yaranmasına imkan verməmək üçün, xüsusi və mümkün variantlardan istifadə edərək, Dağlıq Qarabağı münaqişənin həlli işinə cəlb etmək vacibdir»[274].

Rusiya Federasiyası hökuməti tərəfindən irəli sürülən «ümumi dövlət» prinsipi qəbul edilmədiyinə görə, Ermənistan Respublikası Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi üçün beynəlxalq təşkilatlara təzyiq göstərməyə başladı. ATƏT-in Minsk qrupu həmsədrərinin atəşkəsin beşinci ildönümünə dair yaydıqları bəyanatda «hərtərəfli və qəti tənzimləmə ATƏT-in qaydalarına və prinsiplərinə əməl edilməklə Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusu verilməsinə əsaslanmalıdır» - deyilməsindən belə anlaşılırdı ki, təşkilatın təcavüzkar Ermənistan Respublikasına və Dağlıq Qarabağın separatçılarına qarşı münasibəti liberal

xarakter alır[275]. ATƏT tərəfindən qəbul olunmuş heç bir rəsmi sənəddə bu vaxta qədər «ən yüksək muxtariyyət» ifadəsi işlənməmişdi. Maraqlı idi ki, burada bu vaxtadək mövcud olmayan, hələ dünya təcrübəsində rast gəlinməyən hər hansı bir status modeli nəzərdə tutulurdu.

Heydər Əliyevin ABŞ-a səfəri zamanı belə bir razılıq əldə edilmişdi ki, münaqişə tərəfləri mütəmadi olaraq birbaşa görüşlər və danışıqlar keçirsin. Belə bir görüş 1999-cu il iyulun 16-da keçirildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə Ermənistan Respublikasının prezidenti Robert Koçaryan arasında vasitəçilərin iştirakı olmadan keçirilən bu görüşdə hər iki tərəfin mövqeyinə uyğun gələn nizamasalma formaları müəyyənləşdirildi.

İsveçrənin Cenevrə şəhərində Azərbaycan Respublikası Prezidentinin Ermənistan Respublikası prezidenti ilə ikinci təkbətək görüşü zamanı hər iki tərəf Dağlıq Qarabağ probleminin həllində qarşılıqlı razılaşmaya riayət edəcəklərinə və atəşkəsin bundan sonra da davam etdiriləcəyinə zəmanət verdilər. Bu danışıqlarda qəbul edildi ki, bundan sonra hər iki ölkənin müdafiə nazirləri münaqişənin həlli məqsədilə qarşılıqlı fəaliyyətə cəlb edilsinlər. Bu danışıqların digərlərindən əsaslı fərqi də bundan ibarət idi.

Artıq son dövrlərdə Minsk qrupunun münaqişəsinin həlli ilə bağlı heç bir əməli nəticə əldə edilməməsi Azərbaycan Respublikası hökumətinin narazılığına səbəb oldu. Prezidenti Heydər Əliyev 1998-ci ilin sentyabrında ATƏT-in sədri K.Vollebeklə görüşündə Minsk qrupunun problemin həlli ilə bağlı münaqişə tərəflərinə münasibətdə qeyri-obyektiv və birtərəfli mövqe nümayiş etdirdiyini diqqətə çatdırdı: «Belə nəticə çıxarmaq olar ki, Minsk qrupu bu məsələyə birtərəfli baxır, Azərbaycan Respublikasına qeyri-obyektiv münasibət göstərir. O, bizim razılaşdığımız təklifi Ermənistan qəbul etməyəndə bunu normal hesab edir, amma bizim razı olmadığımız təklifi Ermənistan qəbul edəndə bunu bizim üçün qey-

ri-normal hesab edir... İndi bir ildir bizi qınayırlar ki, nə üçün biz bu «ümumi dövlət» formulunu qəbul etmirik və Minsk qrupu yeni bir təklif vermir»[276].

Heydər Əliyev həmin görüşdə münaqişənin həlli məsələsində Azərbaycan Respublikası ilə qarşı tərəfin mövqeyinin Minsk qrupu tərəfindən eyni dərəcədə qiymətləndirilməsinin doğru olmadığını da K.Vollebekin nəzərinə çatdıraraq demişdir: «Amma bu dediklərim də əsas verir ki, sizə bildirim: Ermənistanla Azərbayacanı bərabər vəziyyətdə qiymətləndirmək olmaz. Bir də təəssüf edirəm ki, beynəlxalq təşkilatlarda, o cümlədən ATƏT-də belə bir fikir hökm sürür»[277].

Bundan sonra Bakıda və İrəvanda ATƏT-in ofisi açılmasının barədə razılıq əldə edildi. Bunu da ATƏT tərəfindən müəyyən dərəcədə irəliyə doğru atılmış bir addım kimi qiymətləndirmək olardı.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük qətiyyətlə həyata keçirdiyi xarici siyasət Respublikanın beynəlxalq aləmdə daha da tanınmasına xidmət etmişdir.

ATƏT-in İstanbulda keçirilməsi nəzərdə tutulan zirvə görüşünə böyük ümidlə baxmaq olardı. Görüş ərəfəsində təşkilatın bir sıra qurumları ilə bərabər Minsk qrupunun həmsədrləri olan dövlətlər də Dağlıq Qarabağ probleminin həlli istiqamətində öz fəaliyyətlərini bir qədər canlandırdı. 1999-cu il sentyabrın 29-da münaqişə tərəflərinin xarici işlər nazirləri ABŞ-ın dövlət katibi Madlen Olbraytın təşəbbüsü və iştirakı ilə Nyu-Yorkda görüşdülər. Görüşdə danışıqların gələcəkdə də davam etdirilməsinə imkan verən formulların işlənib hazırlanmasına dair məsləhətləşmələr oldu. Madlen Olbrayt bu məsələ ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə məktub ünvanladı. 1999-cu il 24 sentyabr tarixli bu məktubda deyilirdi: «Əgər sammit başlayanadək danışıqların davam etdirilməsi istiqamətində kifayət qədər tərəqqi əldə edilərsə, əminəm ki, biz bu ha-

disədən münaqişənin nizamlanması prosesinə beynəlxalq dəstəyin gücləndirilməsi və nizamlamadan sonra regionda bərpa prosesinə iqtisadi yardım göstərilməsi üçün istifadə edə bilərik». Məktubda həmçinin vurğulanırdı ki, «Dağlıq Qarabağın gələcək statusu kimi məsələlərdə mübahisəli terminlərdən və adlardan çəkinməyi irəli getməyin ən yaxşı vasitəsi» hesab edilir. Bu prinsip Rusiya Federasiyasının ortaya atdığı «ümumi dövlət» ideyasını kənarda qoyurdu.

İstanbul zirvə görüşü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvan MR-in 75 illik yubileyində iştirak etmək üçün Muxtar Respublikaya səfəri zamanı Ermənistan prezidenti R.Koçaryanla görüşü də sammitə ciddi hazırlıq məqsədi daşıyırdı.

1999-cu il oktyabrın 9-da hər iki dövlətin xarici işlər nazirləri T.Zülfüqarov və V.Oskanyanın iştirakı ilə Vyanada keçirilmiş görüşdə münaqişənin mərhələli və paket həlli barədə irəli sürülən yeni təkliflərin ATƏT-in Minsk qrupunun həmsədrləri ilə razılaşdırılmasına baxmayaraq, Minsk qrupu tərəfindən İstanbulda problemin həllinə dair heç bir yeni təklif irəli sürülmədi.

1999-cu il noyabrın 18-19-da Türkiyənin İstanbul şəhərində keçirilən ATƏT-in zirvə görüşündə münaqişə tərəflərinin məsələyə müxtəlif mövqelərdən yanaşması səbəbindən Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar heç bir əlavə sənəd qəbul olunmadı. Minsk qrupu həmsədrlərinin əsas məqsədi Dağlıq Qarabağın statusunu Azərbaycan tərəfi ilə «ümümi dövlət» modelinə uyğun razılaşdırmaq idi. İkincisi, burada ATƏT beynəlxalq siyasi səhnədə ən işgüzar bir təşkilat imici qazanmaq naminə sülh sazişinin imzalanmasına nail olmağı əsas götürürdü.

Ermənistan Respublikası parlamentində təşkil edilmiş terror hadisəsinin ölkədəki ictimai-siyasi vəziyyəti mürəkkəbləşdirməsi və iqtidar - müxalifət münasibətlərinin daha da gərgin bir hala gəlməsi prezident R.Koçaryanın kom-

promisə gəlmək imkanının olmayacağı düşüncəsi ilə təşkil edilmiş hadisə öz mənfi təsirini göstərdi. Bu zaman Prezident Heydər Əliyev öz siyasi iradəsini ortaya qoymaqla Azərbaycan Respublikasının mənafeyinə xidmət etməyən hər hansı bir sənədin qəbul edilməsinə razı olmayacağını bildirdi. Beləliklə, görüşdə qəbul edilmiş siyasi bəyannaməyə 20-ci maddə əlavə edildi. Bu maddə Dağlıq Qarabağ münaqişəsinin mövcud vəziyyətindən bəhs edir, münaqişə tərəflərinə Minsk qrupunun vasitəsiliyi ilə danışıqları davam etdirmək tövsiyə olunurdu.

ATƏT-in Minsk qrupu həmsədrləri tərəfindən zirvə görüşünün gedişində zamanı Dağlıq Qarabağ münaqişəsi barədə məruzə yayılmışdı. Məruzədə dünyadakı üç ən əsas münaqişənin – Kosovo, Çeçenistan və Dağlıq Qarabağ münaqişələrinin həllində dövlətlərin ərazi bütövlüyünə hörmət edilməsi və bu məsələlərin Avropada təhlükəsizliyin təmin edilməsi baxımından müzakirə olunması nəzərdə tutulurdu. Bu məsələnin görüşün yekun sənədlərində əksini tapması Azərbaycan Respublikasının maraqlarının önə çəkilməsinə xidmət edirdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Minsk qrupunun fəaliyyətində yaranmış canlanmadan razılığını ifadə etsə də, həm Praqa müşavirəsində razılaşdırılmış bu sənədin, həm də problemin həlli ilə bağlı görülən digər işlərin heç bir əsaslı nəticələr verməməsindən ciddi surətdə narahat olduğunu bildirmişdi. Heydər Əliyevin sülhə doğru irəliləməyin başlıca şərti kimi atəşin dayandırılması təklifini qəti şəkildə irəli sürməsi də sağlam məntiqə əsaslanırdı. Bu onunla bağlı idi ki, Minsk qrupunun Praqada keçirilmiş müşavirəsində münaqişə tərəfləri kimi hər iki dövlət arasında qarşılıqlı inamın möhkəmləndirilməsinə dair müəyyən tədbirlər razılaşdırılmışdı. Həmçinin bunların bir hissəsinin atəş dayandırılana qədər, digərinin isə atəşkəs əldə edilməsindən sonra həyata keçirilməsi nəzərdə tutulurdu.

Təəssüf ki, Praqa sazişinin də müddəalarını həyata keçirmək mümkün olmadı.

Sonrakı proseslər, əvvəlki illərdən fərqli olaraq, BMT-nin 1999-cu il 15 dekabr tarixli iclasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair layihənin birmənalı qarşılanmaması, bəzi dövlətlərin səsvermədə bitərəf qalması, bəzilərinin isə hətta əleyhinə səs verməsi göstərdi ki, o dövrdə Dağlıq Qarabağın statusuna dair beynəlxalq aləmdə hələ də yekdil fikir formalaşmamışdı və bu problem müxtəlif siyasi baxışların mübahisə predmeti olaraq qalmaqda idi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2000-ci ilin yanvar ayında Rusiya Federasiyası xarici işlər nazirinin müavini Q.V.Berdennikovu qəbul edərkən bu məsələyə münasibətini belə açıqlamışdı: «On iki ildir seperatçılıqdan, Azərbaycanın ərazi bütövlüyünün pozulmasından əziyyət çəkirik. Hərçənd, indi bəziləri Azərbaycanın ərazi bütövlüyünü tanımamağı mümkün sayırlar. Hətta BMT-də Ermənistan-Azərbaycan münaqişəsi haqqında layihə olmuşdur, lakin ATƏT-in təqdim etdiyi mətndə bu tezis, təəssüflər olsun ki, yox idi. Halbuki, bütün illərdə belə qərar qəbul edildikdə bu məsələ hər il təsbit olunmuş və hamı bizi dəstəkləmişdir»[278].

Bu barədə V.Kazimirov yazır: «O vaxt məlumat daxil oldu ki, ABŞ diplomatları Bakıda və İrəvanda olaraq, Rusiya XİN-in fəaliyyəti ilə Bakı və Stepanakert arasında əldə edilmiş razılaşmanın uzadılması və genişlənməsinə dair əldə olunmuş razılığın əksinə çıxaraq Azərbaycanın yeni rəhbərliyini, eləcə də Ermənistan Respublikasını və Dağlıq Qarabağı sıxışdırır ki, «üçlüyə» (RF, ABŞ və Türkiyə) reanimasiyadan çıxması üçün kömək etsin. Onda biz, amerikalılara qətiyyətlə dedik ki, bu formatda işi davam etdirməyəcəyik.[279] Burada da Rusiya Federasiyası nümayəndəliyinin yeritdiyi siyasət qismən bəlli olur: Türkiyə Cümhuriyyətini vasitəçilikdən kənarlaşdırmaq.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1992-1993-cü illərdə ATƏT-in Minsk qrupunun üzvü kimi fəaliyyət göstərmiş Con Mareska ilə yanvarın 23-də görüşü zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında beynəlxalq təşkilatların vaxtilə yaranmış imkanlardan lazımınca yararlana bilməmələrini xatırlatmışdı: «Əslində, bu məsələnin həllində mürəkkəb bir şey yoxdur, onu sadəcə olaraq həyata keçirmək lazımdır və həmin prinsiplərdən heç vaxt geri çəkilmək olmaz. Lakin təəccüblü burasıdır ki, beynəlxalq təşkilatlar, böyük dövlətlər, bu məsələlərdə vasitəçilik edən qüvvələr bu sadə, elementar, eyni zamanda, tamamilə əsaslı olan prinsipləri vaxtilə nədənsə kənara qoyublar. Əgər belə olmasaydı, bu məsələ çoxdan həll edilərdi. Beynəlxalq təşkilatlar, bu məsələnin həllində iştirak edən böyük dövlətlər, vasitəçilik edən qüvvələr Ermənistana və Dağlıq Qarabağda olan adamlara gərək açıq surətdə bildirəydilər ki, Dağlıq Qarabağ heç vaxt müstəqillik əldə edə bilməz, Azərbaycanın tərkibindən çıxıb Ermənistana qoşula bilməz. Əgər bütün bunlar onlara və onları dəstəkləyən qüvvələrə vaxtında kəskinliyi ilə deyilsəydi, güman edirəm, başa düşərdilər ki, apardıqları müharibə nəticəsiz qalacaqdır. Təəssüf ki, belə olmayıb».

Azərbaycan Prezidenti amerikalı siyasətçinin nəzərinə bir məsələni də çatdırmışdı: «İndi görürəm ki, beynəlxalq təşkilatlarda, böyük dövlətlərdə bu məsələlərə obyektiv münasibət yaranıb. Ən mühüm odur ki, biz artıq hiss edirik ki, ədalət prinsipi üstünlük qazanır».

İstanbul zirvə görüşü Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün ATƏT-in Minsk qrupunun öz səylərini bir qədər də artırmalı olduğunun vacibliyini anlatdı. ATƏT-in fəaliyyətdə olan sədri K.Vollebekin və Minsk qrupu həmsədrlərinin İrəvan-Dağlıq Qarabağ-Bakı marşrutu üzrə münaqişə bölgəsinə səfər etməklə danışıqlar prosesini yenidən canlandırmaq cəhdlərindən məlum olur-

du ki, onlar problemin həllinə dair hazırlanacaq yeni təklifləri tərəflərlə razılaşdırmaq və münaqişədə iştirak edən hər iki dövlətin məsələyə münasibətini eyniləşdirmək üçün bəzi tədbirlər həyata keçirmək istəyirlər. Görülən bu işlərə Heydər Əliyev öz münasibətini belə bildirmişdi: «Minsk qrupunun nümayəndələri yeni adamlar olmaqla bərabər, eyni zamanda, bu məsələyə tamamilə yeni fikirlərlə yanaşırlar.... Yeni fikirlər deyəndə, mən onu nəzərdə tuturam ki, artıq məsələnin sülh yolu ilə həll olunması haqqında konkret söhbət gedir. Buna görə də sizin indiki missiyanız Minsk qrupunun tarixində demək olar ki, yeni bir mərhələ açır».

İstanbul zirvə görüşündən Minsk qrupunun fəaliyyətinə ATƏT-in yeni təkan verməsi ilə əlaqədar olaraq qrupun bölgəyə bu dəfəki səfəri digərlərindən bir sıra xüsusiyyətləri ilə fərqlənirdi. Minsk qrupu həmsədrlərinin ilk dəfə Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağın ətrafındakı rayonlarında olmaları maraqla qarşılandı. Eyni zamanda, bu missiyaya beynəlxalq maliyyə təsisatlarının və humanitar təşkilatların nümayəndələrinin də cəlb edilməsi azad ediləcək torpaqlarda yenidənqurma və bərpa işlərinə başlanılmasına ümid yaradırdı.

1999-cu ilin dekabrında BMT-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün bir daha təsdiq olunması, 2000-ci ildə Vaşinqtonun Ermənistan Respublikasına ayırdığı birbaşa yardımı azaltması, Dağlıq Qarabağa göstərdiyi maliyyə yardımını isə tamamilə dayandırması bu münaqişənin tənzimlənməsi məsələsində Qərbin mövqeyinin tədricən dəyişdiyini və Azərbaycan Respublikasının daha artıq dəstəkləndiyini nümayiş etdirirdi. Regionda həyata keçirilən qlobal iqtisadi layihələrdə Azərbaycan Respublikasının aparıcı rol oynaması və getdikcə demokratik dəyərlərin bərqərar olduğu məkana çevrilməsi respublikamızın iqtisadi qüdrətinin və siyasi nüfuzunun artmasına şərait yaradaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə

həll olunmasında onun prinsipial tələblərini tezliklə qəbul edilməsi üçün əlverişli zəmin hazırladı.

Rusiya-Azərbaycan münasibətlərinə gəldikdə, prezident B.Yeltsinin hakimiyyəti dövründə Rusiya-Azərbaycan münasibətləri süni şəkildə şişirdilsə də, əslində, mahiyyətcə mövqelərdə soyuqluq və inamsızlıqlar davam edirdi.

6.6. Heydər Əliyevin tarazlı siyasəti və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə qarşı maneələr

Bəzi dövlətlərin Azərbaycan Respublikasına qarşı geostrateji maraqlarından doğan məkrli məqsədləri beynəlxalq hüququn prinsipləri müstəvisində həmişə tənzimlənmir. Bunu nəzərə alan təcrübəli dövlət başçısı Heydər Əliyevin qonşu dövlətlərlə münasibətlərdə tarazlı siyasət yeridərək, əməkdaşlığın prioritet istiqamətlərini ABŞ və Avropa dövlətləri ilə bağlamağa üstünlük verdi. Bu istiqamətdə bir çox beynəlxalq təşkilatlara üzv olmağın böyük əhəmiyyəti də nəzərə alındı.

2000-ci ilin birinci yarısında Cenevrədə keçirilən görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair müzakirə zamanı humanitar məsələlərin həllinin vacibliyinə də toxunuldu. Həmçinin, İstanbul görüşündən sonra problemin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun yeni təkliflər irəli sürməyi planlaşdırması, bu məqsədlə bölgəyə səfər etməyi qərara alması əldə edilən müsbət hallar idi. Minsk qrupunun həmsədrlərinə Ermənistan Respublikası prezidenti ölkə daxilindəki qarışıq vəziyyətə görə bu səfəri təxirə salmaları üçün müraciət etdi. Ermənistan hökuməti danışıqlarda yaranmış fasilədən istifadə edərək, ölkədə hökm sürən qeyri-sabit siyasi-ictimai vəziyyəti yoluna qoymaq istəyirdi. Bu isə inadkar mövqe nümayiş etdirməklə

beynəlxalq aləmdə nüfuzunu itirəcəyindən narahat olan Ermənistan prezidentinin özünü konstruktiv mövqedən göstərmək niyyəti ilə bağlı idi.

2000-ci il yanvarın 27-30-da İsveçrənin Davos şəhərində keçirilən növbəti Dünya iqtisadi forumunda nizamlama prosesinin bütün tərəflərinin ABŞ prezidenti B.Klintonla, dövlət katibi M.Olbraytla və Ermənistan prezidenti R.Koçaryanla bir daha müzakirə edilməsi, Ermənistan rəhbərliyinin məsələyə əvvəlkilərdən fərqli olaraq nisbətən konstruktiv yanaşması Qarabağ düyününün açılacağına olan inamı bir qədər də artırırdı. Moskvada və Davosda paralel olaraq bu istiqamətdə xarici işlər nazirlərinin keçirdikləri görüşlər də önəmli idi. Rusiya Federasiyasının prezidenti V.Putinin Moskva sammitinin gedişində Qafqazda regional təhlükəsizliyin möhkəm mexanizminin yaradılması məqsədi ilə müntəzəm olaraq üç Cənubi Qafqaz respublikası ilə intensiv görüşlərin təşkilinə dair irəli sürdüyü təklifi ölkə başçılarının da yekdilliklə qəbul etməsi bu məsələnin həyata keçəcəyinə inamı artırırdı.

Lakin 2000-ci il iyunun 18-də «Dağlıq Qarabağ Respublikasında» ermənilərin «parlament seçkiləri» keçirməsi ATƏT-in münaqişəsinin həllinə dair üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdə qətiyyət nümayiş etdirmədiyini bir daha göstərdi. Belə bir qətiyyətsizlik separatçı qüvvələrin qarşıdurma hərəkətlərinə şərait yaradırdı.

Həmin dövrdə Minsk qrupu nümayəndələrinin bölgəyə səfərləri zamanı münaqişənin həllinə dair heç bir təklif və ya təşəbbüsə malik olmamaları, eyni zamanda, bu məsələ ilə bağlı Azərbaycan və Ermənistan prezidentlərindən kömək istəmələri yaxın gələcəkdə nizamlama prosesində hər hansı bir irəliləyişin əldə olunacağı barədə ümidi heçə endirirdi. Bu isə Azərbaycan Respublikasından fərqli olaraq, münaqişənin ATƏT çərçivəsində həllində maraqlı olmayan qüvvələri, o cümlədən Ermənistan rəhbərliyini qane edirdi.

Ermənistan Respublikasının prezidenti R.Koçaryanın Fransa prezidenti J.Şirakla görüşü zamanı problemin Minsk qrupu çərçivəsində deyil, münaqişə tərəfləri arasında əldə edilmiş razılığa əsasən həllinin mümkün olması barədə irəli sürdüyü fikirlər də bunu təsdiq edirdi. Eyni zamanda, MDB ölkələri dövlət başçılarının 2000-ci ilin 18-19 iyulunda Yaltada keçirilən görüşündə Ermənistan prezidenti R.Koçaryanın «Görünür, regiona çoxdan gözlənilən sülh gətirə biləcək düzgün qərarı hər halda ilk növbədə biz özümüz müəyyənləşdirməliyik» - deməsi də bundan irəli gəlirdi.

2000-ci il sentyabrın 6-8-də Nyu-Yorkda BMT Baş Məclisinin 55-ci yubiley sessiyası çərçivəsində Azərbaycan Respublikası və Ermənistan Respublikasının prezidentləri arasındakı ikitərəfli danışıqlarda, ABŞ prezidenti B.Klinton, dövlət katibi Madlen Olbrayt və ATƏT-in Minsk qrupunun amerikalı həmsədri K.Kavano ilə görüşlərdə yeni heç bir təklif və ya təşəbbüsün ortaya qoyulmaması Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll ediləcəyiini şübhə altında qoyurdu.

2000-ci ildən Ki-Uest görüşünədək olan dövr ərzində Minsk qrupunun fəaliyyətində uzun fasilələr və durğunluqlar baş verdi. Bu zaman problem yalnız müxtəlif beynəlxalq səviyyəli tədbirlərdə, bir çox xarici diplomatlarla aparılan danışıqlarda müzakirədən kənara çıxmadı.

RF Prezident Vladimir Putinin 2001-ci ilin ilk günlərində Bakıya səfəri Minsk qrupunun üzvü kimi Rusiya Federasiyasının Dağlıq Qarabağ probleminin həllinə münasibətini konkretləşdirdi. Rusiya Federasiyasının dövlət başçısı bu münaqişənin sülh yolu ilə həllini və ilk növbədə münaqişə tərəflərinin özlərinin gəldiyi razılıq əsasında reallaşacağını yeganə mümkün hal hesab etdiyini bildirdi: «Biz əminik ki, əlbəttə, beynəlxalq birliyin köməyi ilə, bu problemi başqa heç kim yox, ona cəlb olunmuş tərəflərin məhz rəhbərləri həll edə bilərlər. Yalnız sonra razılaşmaları nəzərə almaqla

və onların olması şərti ilə vasitəçilər işə qoşula və lazımi kömək göstərə bilərlər»[280]. Bu da arxasında respublika rəhbərlərinin gələcək razılaşmalarının müsbət nəticəsi olmayacağı şübhəsini gizlədən ikibaşlı fikir idi.

Rusiya Federasiyasının Qafqazda nüfuzunun bərpa olunacağına və bölgədə siyasi-iqtisadi maraqlarını təmin etmək üçün onu öz nüfuz dairəsində saxlamaq ümidləri ABŞ-da baş verən 11 sentyabr terror hadisəsindən sonra tamamilə azaldı. ABŞ-ın hərbi bazalarını dünyanın müxtəlif ölkələrində, o cümlədən, postsovet məkanında yerləşdirməsi Rusiya Federasiyasının maraqlarının ciddi təhlükə altında qalmasına səbəb oldu. Rusiya Federasiyasının bütün etirazlarına baxmayaraq, Amerikanın öz hərbi bazalarını Mərkəzi Asiyada yerləşdirməsi, Yuqoslaviyanın parçalaması, Əfqanıstan və İraqa hərbi müdaxilə etməsi, hətta İrana qarşı münasibətdə onun yaxın qonşusu və tərəfdaşı Rusiya Federasiyasının fikirlərini nəzərə almaması, eləcə də Ukraynaya, Gürcüstana və digər ölkələrə dəstək verməklə bu bölgələrdə möhkəmlənmək niyyətini gizlətməməsi Rusiya Federasiyasının mövqelərini (xüsusilə də Qafqazda) itirdiyini göstərirdi. Rusiya Federasiyası hökuməti bunları dərk etməyə başladı. Amerikanın demokratik şüarlarla Qafqaz sərhədlərinə yaxınlaşması, digər tərəfdən isə Rusiyanın ənənəvi imperiya ambisiyalarının yeni formada ortaya çıxması Qafqazda vəziyyətin mürəkkəbləşməsinə səbəb oldu. Şimali Atlantika İttifaqında Qafqaz və Orta Asiya regionları üzrə xüsusi səlahiyyətli nümayəndə postunun yaradılması və ABŞ Dövlət Departamentinin keçmiş müşaviri Robert Saymonsun bu vəzifəyə təyin edilməsi Amerika üçün Qafqaz regionunun strateji cəhətdən daha çox əhəmiyyət kəsb etdiyinin sübutu idi. Eyni zamanda, Rusiya Federasiyasının terrorçuluğa qarşı görəcəyi tədbirlərin müəyyən mənada müəmmalı xarakteri ABŞ-ı və digər iri dövlətləri narahat etməyə bilməzdi. Rusiya isə Qafqazda möhkəmlənmək üçün əlində əsas vasitə

olan erməni kartından istifadə edir, Dağlıq Qarabağ probleminin həlli prosesinə ciddi təsir göstərmək niyyətindən əl çəkmir, Ermənistan vasitəsilə münaqişənin həllini istədiyi şəkildə istiqamətləndirməkdə davam edirdi. Hətta Rusiya Federasiyasının ATƏT-in üzvü olmasına baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin əleyhinə olduğunu gizlədə bilmirdi. Çünki Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar hər hansı həll modelinin reallaşması Cənubi Qafqazın Rusiya Federasiyasının təsir dairəsindən çıxması demək olardı.

Azərbaycan və Ermənistan prezidentlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə xüsusi nümayəndələrinin Praqa şəhərində 2002-ci ilin iyul ayında keçirdikləri görüşlərdə Minsk qrupunun rusiyalı həmsədri N.Qribkovun «münaqişənin nizamlanmasının açarlarının prezidentlərin əlində olduğu» barədə bəyanatı danışıqların səmərəsini Azərbaycan və Ermənistanda keçiriləcək seçkilərin nəticələri ilə əlaqələndirməsi danışıqların müsbət nəticələnməyəcəyindən xəbər verirdi.

Prezident Heydər Əliyev 2002-ci il iyunun 24-26-da İqtisadi Əməkdaşlıq Təşkilatının 10 illik yubileyi münasibətilə üzv olan ölkələrin dövlət və hökumət başçılarının İstanbul sammitində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü zamanı onların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunması üçün daha qətiyyətli tədbirlər görəcəklərinə əminliyini ifadə etdi.

Bu zaman Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Ermənistan hökumətinin yürütdüyü siyasətə qarşı narazılıqlar baş qaldırırdı. Eks-prezident L.Ter-Petrosyan Ermənistan hökumətini Qarabağ böhranını daha da dərinləşdirməkdə günahlandırır, onu yürütdüyü qeyri-müəyyən siyasətdən əl çəkməyə çağırırdı. Ermənistanda bəzi siyasətçilər R.Koçaryanın siyasətini milli xəyanət kimi dəyərləndirirdilər.

Ermənistanın ilkin şərt kimi Azərbaycan tərəfinin

mahiyyətcə «mərhələli həll» planını özündə ehtiva edən Praqa formatını dəstəkləməsinin əksinə olaraq, Dağlıq Qarabağın statusu məsələsinin müzakirəsini tələb etməsi bu vaxta qədər aparılan danışıqların əhəmiyyətsiz olması təəsuratını yaratdı.

BMT-nin Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən bəyanatlarına «DQR»-da keçiriləcək saxta prezident seçkilərini tanımamaq barədə xəbərdarlıqlarına baxmayaraq, Ermənistanın hətta ən mötəbər təşkilatların belə tövsiyə və ya təzyiqinə məhəl qoymadıqları görünürdü. Əslində, bununla bağlı ATƏT tərəfindən də heç bir kəskin reaksiya verilmirdi. Hətta ATƏT-in Minsk qrupu həmsədrlərinin sentyabrın sonlarında bölgəyə səfərləri zamanı A.Qukasyanı «prezident» seçilməsi münasibətilə təbrik etməklə münaqişənin həllinə nail olmaq niyyətindən uzaq olduqlarını nümayiş etdirirdilər.

2002-ci il avqustun 14-də hər iki dövlətin prezidentləri Sədərək sərhəd zonasında görüşərək bu məsələlər ətrafında dörd saatlıq müzakirələr apardılar. Görüş zamanı R.Koçaryanın və ATƏT-in Minsk qrupu həmsədrlərinin eyni mövqedən çıxış etmələri bu danışıqların heç bir müsbət nəticəsi olmayacağını əvvəlcədən bəlli edirdi.

Minsk qrupu həmsədrlərinin 2002-ci il sentyabr ayının son günlərində Ermənistana və Azərbaycana səfər etmələrində əsas məqsəd hər iki ölkə başçısının Praqa danışıqlarına dair fikrini öyrənmək idi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ermənistanın müdafiə və təhlükəsizlik naziri S.Sarkisyana və həmsədrlərə kəskin etiraz nümayiş etdirdi: «Mən hesab edirəm ki, bu, çox gözəl deyildir. İstəyirəm siz də biləsiniz, o da bilsin ki, bizə minnət qoyursa, bu, əbəsdir. İndi o dövr deyil, əgər o, başlasa (yəni müharibə - Q.H.), özü də layiqli cavabını alacaqdır»[281].

2002-ci il oktyabrın 7-də MDB ölkələri dövlət başçılarının Kişinyovda keçirilən növbəti zirvə görüşündə Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan diplomatiyasının

ortaya qoyduğu qətiyyətli mövqedən sonra, Minsk qrupu öz fəaliyyətində müəyyən dəyişikliklər etdi. Azərbaycan və Ermənistan prezidentlərinin təkbətək söhbəti Praqa danışıqlarının sürətləndirilməsinə təkan vermiş oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Minsk qrupunun yeni təyin olunmuş fransalı həmsədri Anri Jakoləni qəbul edərkən demişdi: «...Mən güman edirəm ki, Minsk qrupu bundan sonra uzun müddət davam etməyəcəkdir. Biz bu məsələni həll edəcəyik və Minsk qrupu da öz fəaliyyətini sona çatdıracaqdır».

2003-cü il yanvarın 28-29-da MDB ölkələri dövlət başçılarının Kiyevdə keçirilən sammitinin gedişində Rusiya Federasiyası, Azərbaycan, Gürcüstan və Ermənistan prezidentlərinin Qafqazda sabitlik və təhlükəsizlik məsələlərinə dair apardıqları danışıqlar, sammit çərçivəsində ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan prezidenti R.Koçaryanla problemin həllinə dair apardıqları müzakirələr heç bir əsaslı nəticə vermədi. Bu səbəbdən də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sonralar iştirak etdiyi bütün rəsmi və qeyri-rəsmi tədbirlərdə beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in fəaliyyətini yararsız adlandırmışdır.

6.7. Heydər Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə dair görüş və çıxışlarının xronikası

1993-cü il

5 iyul. Respublikada yaranmış vəziyyətlə əlaqədar ABŞ, Rusiya Federasiyası və Türkiyənin Bakıdakı səfirlərini və BMT-nin Azərbaycandakı səlahiyyətli nümayəndəsini qəbul etmişdir.

10 iyul. ATƏM-in Minsk qrupunun başçısı Mario Rafael-

lini qəbul etmişdir.

14 iyul. Münaqişə zonasından qayıdan Mario Rafaellini qəbul etmişdir. M.Rafaelli ilə birlikdə yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirilmişdir.

20 iyul. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, Rusiya Federasiyasının Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə səlahiyyətli nümayəndəsi Vladimir Kazimirov ilə görüşmüşdür.

24 avqust. Vladimir Kazimirovu qəbul etmişdir.

28 avqust. Vladimir Kazimirovu İrəvandan və Dağlıq Qarabağdan Bakıya qayıtdıqdan sonra qəbul etmişdir.

31 avqust. Avqustun 29-da keçirilmiş referendumda müşahidəçi kimi iştirak etmək üçün ölkəmizə gəlmiş ATƏM-in nümayəndəsini qəbul etmişdir.

18 sentyabr. Qarabağ münaqişəsinin dinc yolla həlli üzrə MDB-nin parlamentlərarası qrupunun nümayəndə heyətini qəbul etmişdir.

19 sentyabr. Qarabağ münaqişəsinin dinc yolla həlli üzrə MDB-nin parlamentlərarası qrupunun nümayəndə heyətini Ermənistandan qayıtdıqdan sonra qəbul etmişdir.

21 sentyabr. Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə MDB-nin parlamentlərarası qrupunun nümayəndə heyətini qəbul etmişdir.

23 sentyabr. BMT-nin Azərbaycandakı daimi nümayəndəsi Mahmud əl-Səidlə görüşmüşdür.

24 sentyabr. MDB ölkələri Hökumət Başçılarının Şurasının iclasında iştirak etmək üçün Moskvaya yola düşmüşdür.

25 sentyabr. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin iqamətgahında Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşmüşdür.

8 oktyabr. Moskvada Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiya prezidentlərinin əməli görüşündə iştirak etmişdir.

11 oktyabr. ATƏM-in Bakıda səfərdə olan nümayəndə

heyətini qəbul etmişdir.

15 oktyabr. BMT-nin Azərbaycandakı daimi nümayəndəsi Mahmud əl-Səidi qəbul etmişdir.

22 oktyabr. ATƏM-in sədri M.af Uqqlasın Bakıya səfəri ərəfəsində Dağlıq Qarabağ məsələsinə dair müşavirə keçirmişdir.

25 oktyabr. BMT-nin Azərbaycandakı daimi nümayəndəsi Mahmud əl-Səidi qəbul etmişdir. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏM-in təklif etdiyi qrafikin müzakirəsini keçirmişdir.

26 oktyabr. ATƏM-in sədri, İsveçin xarici işlər naziri Marqareta af Uqlasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

13 noyabr. Vladimir Kazimirovu qəbul etmişdir.

18 noyabr. Vladimir Kazimirovu qəbul etmişdir.

1994-cü il

17 yanvar. BMT-nin Azərbaycandakı daimi nümayəndəsi Mahmud əl-Səidi qəbul etmişdir.

31 yanvar. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri və Qarabağa dair danışıqlarda Rusiya Federasiyası prezidentinin şəxsi nümayəndəsi Vladimir Kazimirovu qəbul etmişdir.

4 mart. Rusiya Federasiyası müdafiə nazirinin müavini Kondratyevi və Vladimir Kazimirovu qəbul etmişdir.

6 mart. BMT-nin bir sıra proqramları, təşkilat və agentliklərinin nümayəndə heyəti ilə görüşmüşdür.

2 aprel. ATƏM-in Minsk qrupunun fransalı nümayəndəsi Elen Dübuanı qəbul etmişdir.

6 aprel. Vladimir Kazimirovu qəbul etmişdir.

8 may. Vladimir Kazimirovu qəbul etmişdir.

9 may. Vladimir Kazimirovu qəbul etmişdir.

13 may. ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun sədri Yan Eliasson, onun müavini Matias Mosberq və Vladimir Kazimirovu qəbul etmişdir. «Mir» teleşirkətinə müsahibə vermişdir.

16 may. ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun sədri Yan Eliassonu qəbul etmişdir.

3 iyun. Vladimir Kazimirovla qəbul etmişdir.

15 iyun. ATƏM-in Minsk qrupunun sədri Yan Eliassonu qəbul etmişdir.

18 iyun. ATƏM-in Minsk qrupunun sədri Yan Eliassonu qəbul etmişdir.

26 iyun. Vladimir Kazimirovu qəbul etmişdir.

27 iyun. Vladimir Kazimirovu qəbul etmişdir.

22 iyul. Vladimir Kazimirovu qəbul etmişdir.

23 avqust. ATƏM-in Minsk qrupunun sədri Yan Eliassonu qəbul etmişdir.

26 avqust. ATƏM-in Minsk qrupunun sədri Yan Eliassonu qəbul etmişdir.

3 sentyabr. ABŞ prezidentinin şəxsi nümayəndəsi, ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Madlen Olbraytla görüşmüşdür.

4 sentyabr. Qahirədə BMT-nin baş katibi Butros Butros-Qali ilə görüşmüşdür.

5 sentyabr. Qahirədə BMT-nin təşkil etdiyi «Dünya əhalisi və inkişaf» mövzusunda beynəlxalq konfransda iştirak etmişdir.

8 sentyabr. Ermənistan prezidenti Levon Ter-Petrosyan ilə danışıqlar aparmışdır.

09 sentyabr. Ermənistan prezidenti ilə danışıqları davam etdirmişdir.

25-30 sentyabr. BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-da səfərdə olmuşdur.

27 sentyabr. ABŞ-ın BMT-dəki daimi nümayəndəsi, xanım Madlen Olbraytın iqamətgahında Ermənistan Prezidenti Levon Ter-Petrosyanla görüşmüşdür.

28 sentyabr. ATƏM-in Minsk qrupunun sədri Yan Eliassonu qəbul etmişdir.

29 sentyabr. BMT-nin baş katibi Butros Butros-Qali ilə görüşmüşdür.

BMT Baş Məclisin 49-cu sessiyasında çıxış etmişdir. BMT Baş Məclisinin 49-cu sessiyasında Millətlər Birliyinin xüsusi salonunda mətbuat konfransında bəyanat vermişdir.

25 oktyabr. BMT-nin Azərbaycandakı daimi nümayəndəsi Mahmud əl-Səidi qəbul etmişdir.

29 oktyabr. BMT-nin baş katibi Butros Butros-Qalini Bina hava limanında qarşılamışdır. KİV nümayəndələri üçün bəyanat verilmişdir.

30 oktyabr. BMT-nin baş katibi Butros Butros-Qalini qəbul etmişdir. BMT-nin baş katibi Butros Butros-Qali ilə birgə mətbuat konfransı keçirmişlər.

31 oktyabr. Milli Məclisin BMT-nin baş katibi Butros Butros-Qalinin ölkəmizə rəsmi səfərinə həsr olunmuş təntənəli iclasında nitq söyləmişdir.

5 noyabr. BMT-nin Azərbaycandakı daimi nümayəndəsi Mahmud əl-Səidi qəbul etmişdir.

14 noyabr. Minsk qrupunun sədri Anders Bürner başda olmaqla ATƏM-in nümayəndə heyətini qəbul etmişdir.

4-7 dekabr. ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə iştirak etmişdir.

5 dekabr. ABŞ Prezidenti Bill Klinton və Türkiyənin baş naziri Tansu Çillərlə söhbət etmişdir.

6 dekabr. ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə çıxış etmişdir.

ATƏM-in Minsk qrupunun sədri Yan Eliassonu qəbul etmişdir.

1995-ci il

19 yanvar. ATƏT-in nümayəndə heyətini qəbul etmişdir.

24 yanvar. BMT-nin humanitar məsələlər üzrə departamentinin nümayəndəsi Pol İberin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

26 yanvar. ATƏT-in Minsk qrupunun həmsədrləri –Vladimir Kazimirovu və İsveç diplomatı Andres Bürneri qəbul etmişdir.

9 fevral. Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşmüşdür.

10-12 mart. BMT-nin Danimarkada keçirilən zirvə toplantısında iştirak etmişdir.

11 mart. BMT-nin baş katibi Butros Butros-Qali ilə görüşmüşdür.

12 mart. Kopenhagen Zirvə toplantısında çıxış etmişdir. Ermənistan prezidenti Levon Ter-Petrosyan ilə görüşmüşdür.

24 mart. ATƏT-in Minsk qrupunun həmsədrləri Anders Bürneri və Vladimir Kazimirovu qəbul etmişdir.

13 aprel. ATƏT-in Dağlıq Qarabağ üzrə Minsk konfransının və onun Minsk qrupunun həmsədrləri vəzifələrinin icrasına başlayan Heykke Talvitiye və Rene Niberqi qəbul etmişdir.

26 aprel. BMT-nin İnkişaf Proqramının Azərbaycandakı nümayəndəsi Paolo Lembonu və Dünya Bankının Orta Asiya və Azərbaycan bölməsinin rəhbəri Tancu Yürükoğlunu qəbul etmişdir.

27 aprel. ATƏT-in Minsk qrupunun nümayəndə heyətini qəbul etmişdir.

8 may. Ermənistan prezidenti Levon Ter-Petrosyan ilə görüşmüşdür.

9 may. BMT-nin baş katibi Butros Butros-Qali ilə görüşmüşdür. AFR-in ATƏT-dəki nümayəndəliyinin başçısı Günter Yottseni qəbul etmişdir.

18 may. BMT-nin Azərbaycandakı daimi nümayəndəsi Mahmud əl-Səidi qəbul etmişdir.

29 may. Vladimir Kazimirovu qəbul etmişdir.

13 iyul. ATƏT-in Minsk konfransının Finlandiyadan və Rusiya Federasiyasından olan həmsədrləri Heykke Talvitiye və Valentin Lozinskini qəbul etmişdir.

17 iyul. Valentin Lozinskini və Heykke Talvitiyeni qəbul

etmişdir.

25 iyul. BMT İnkişaf Proqramının Şərqi Avropa və MDB ölkələri üzrə regional direktoru Anton Kruideriki və bu proqramın Azərbaycandakı nümayəndəsi Paolo Lembonu qəbul etmişdir.

7 avqust. ATƏT-in Minsk qrupunun təşkil etdiyi danışıqlarda Türkiyə Respublikasının təmsilçisi Kamal Ayxanı qəbul etmişdir.

21 avqust. ATƏT-in Minsk qrupunda Almaniyanın nümayəndəsi, səfir Frank Lambaxla görüşmüşdür.

22 avqust. AFR Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT-in Parlament Məclisinin vise-prezidenti Villi Vimmerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Vladimir Kazimirovu qəbul etmişdir.

24 avqust. BMT İnkişaf Proqramının Azərbaycandakı nümayəndəsi Paolo Lembonu və YUNİDO-nun nümayəndə heyətini qəbul etmişdir.

25 avqust. ABŞ-ın Dağlıq Qarabağa dair danışıqlarda xüsusi nümayəndəsi, səfir Cozef Presseli və bu ölkənin ATƏT-dəki nümayəndəsi Sem Braunu qəbul etmişdir.

31 avqust. ATƏT-in icraçı sədrinin xüsusi nümayəndəsi, Macarıstan dövlət katibinin müavini Andre Erdeşi qəbul etmişdir.

26 sentyabr. Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üzrə ATƏT-in Minsk konfransının həmsədrləri Heykke Talvitiyeni (Finlandiya) və Valentin Lozinskini (Rusiya), habelə Vladimir Kazimirovu, Minsk konfransının Türkiyə, ABŞ və İsveçrədən olan üzvlərini qəbul etmişdir.

Finlandiya dövlət katibinin müavini, ATƏT-in Minsk konfransının həmsədri Heykke Talvitiyeni qəbul etmişdir.

11 oktyabr. İsveçrə Konfederasiyası Federal Xarici İşlər Departamentinin dövlət katibi Yakob Kellenberqi, ATƏT-in icraçı sədrinin nümayəndəsi Deje Xorvatı qəbul etmişdir.

21 oktyabr. NATO-nun baş katibi vəzifəsini icra edən Ba-

lanzinom ilə görüşmüşdür.

BMT Baş Məclisinin xüsusi təntənəli iclasında çıxış etmişdir.

BMT-nin baş katibi Butros Butros Qali ilə görüşmüşdür.

24 oktyabr. Ermənistan Respublikasının Prezidenti Levon Ter-Petrosyan ilə görüşmüşdür.

4 noyabr. Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla nizama salınmasında ABŞ prezidentinin səlahiyyətli nümayəndəsi Cozef Presseli qəbul etmişdir.

10 noyabr. ATƏT Parlament Assambleyasının və Avropa Şurasının Parlament Assambleyasının nümayəndə heyətini qəbul etmişdir.

16 noyabr. BMT-nin ölkəmizdəki nümayəndəsi Mahmud Əl-Səidi qəbul etmişdir.

21 dekabr. Vladimir Kazimirovu qəbul etmişdir.

25 dekabr. Vladimir Kazimirovu qəbul etmişdir.

1996-cı il

27 yanvar. Vladimir Kazimirovu qəbul etmişdir.

26 fevral. ATƏT-in Minsk qrupunda ABŞ-ın səlahiyyətli nümayəndəsi Cozef Presseli qəbul etmişdir.

29 fevral. ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrə Konfederasiyasının xarici işlər naziri Flavio Kottini qəbul etmişdir.

21 mart. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Türkiyə Prezidentinin nümayəndəsi Kamal Ayhanı qəbul etmişdir.

8 aprel. Vladimir Kazimirovu qəbul etmişdir.

22 aprel. Ermənistan prezidenti Levon Ter-Petrosyanla birgə mətbuat konfransı keçirmişdir.

12 may. Məşhəddə Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşmüşdür.

24 may. Rusiya Federasiyası baş nazirinin müavini Aleksey Bolşakovu və Rusiya Federasiyası xarici işlər nazirinin 1-ci müavini Boris Pastuxovu qəbul etmişdir.

ATƏT-in Minsk qrupunda ABŞ-ın xüsusi nümayəndəsi Cozer Presseli qəbul etmişdir.

29 may. BMT-nin Azərbaycandakı resident-əlaqələndirici Paolo Lembonu qəbul etmişdir.

3 iyun. Kislovodskda Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiya dövlət başçılarının, habelə Rusiya Federasiyasının subyektləri olan Şimali Qafqaz respublikaları, diyarları və vilayətləri rəhbərlərinin görüşündə çıxış etmişdir. Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiya dövlət başçılarının görüşündə qəbul edilmiş «Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda» bəyannaməni imzalamışdır.

6 iyun. ATƏT-in Minsk konfransının həmsədri Valentin Lozinskini, ATƏT-in Minsk qrupunun həmsədrləri Rene Niberqi və Vladimir Kazimirovu, ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsi Valter Tenxeri qəbul etmişdir.

3 avqust. ATƏT-in Minsk qrupunun həmsədri, Qarabağ münaqişəsinin nizama salınmasında Rusiya Federasiyası Prezidentinin səlahiyyətli nümayəndəsi missiyasını başa vuran Vladimir Kazimirovu və onu bu vəzifədə əvəz edən Yuri Yukalovu qəbul etmişdir.

12 avqust. Almaniyanın ATƏT-in Minsk qrupundakı nümayəndəsi Frank Lambaxı qəbul etmişdir.

5 sentyabr. BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Paolo Lembonu qəbul etmişdir.

10 sentyabr. BMT-nin qaçqınlarla iş üzrə ali komissarının müavini Serjio Viyero de Mellonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

17 sentyabr. Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla həllində ABŞ prezidentinin səlahiyyətli nümayəndəsi Cozef Presseli qəbul etmişdir.

2 oktyabr. ABŞ Konqresinin ATƏT komissiyasının nümayəndəsini qəbul etmişdir.

3 oktyabr. ATƏT-in Minsk konfransının həmsədrləri Valentin Lozinskini (Rusiya), Heykke Talvitiyeni (Finlandiya), Minsk qrupunun həmsədrləri Rene Niberqi (Finlandiya) və Yuri Yukalovu (Rusiya) qəbul etmişdir.

25 oktyabr. Ermənistan prezidenti L.Ter-Petrosyanla görüşmüşdür.

4 noyabr. ATƏT-in Minsk qrupunda ABŞ-ın xüsusi nümayəndəsi Cozef Presseli qəbul etmişdir.

5 noyabr. ATƏT Parlament Assambleyasının nümayəndə heyətini qəbul etmişdir.

11 noyabr. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru xanım Odri Oliveri qəbul etmişdir.

19 noyabr. ATƏT-in Parlament Assambleyası sədrinin müavini Villi Vimmeri qəbul etmişdir.

23 noyabr. ATƏT-in Parlament Assambleyası sədrinin müavini Villi Vimmeri qəbul etmişdir.

2 dekabr. ATƏT-in Lissabon zirvə görüşündə nitq söyləmişdir.

Finlandiyanın prezidenti Marti Ahtisaari ilə görüşmüşdür.

ABŞ-ın vitse-prezidenti Albert Qorla görüşmüşdür.

İsrailin baş naziri Benyamin Netanyahu ilə görüşmüşdür.

ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kotti ilə görüşmüşdür.

Rusiya hökumətinin sədri Viktor Çernomırdinlə görüşmüşdür.

Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşmüşdür.

3 dekabr. ATƏT-in Lissabon zirvə görüşünün yekun iclasında nitq söyləmişdir.

Fransanın xarici işlər naziri Erve de Şarett ilə görüşmüşdür.

İngiltərənin xarici işlər naziri Malkolm Rifkind ilə görüşmüşdür.

AFR-in xarici işlər naziri Klaus Kinkel ilə görüşmüşdür.

Portuqaliyanın baş naziri Antonio Qutyerres ilə görüş-

müşdür.

ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kotti ilə görüşmüşdür.

KİV nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.

Türkiyə, Portuqaliya, Danimarka, Birləşmiş Ərəb Əmirlikləri jurnalistlərinə, Rusiyanın «Vesti» informasiya-televiziya proqramına müsahibə vermişdir.

6 dekabr. Prezident sarayında ATƏT-in Lissabon zirvə görüşünün yekunları ilə əlaqədar respublika ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.

21 və 25 dekabr. V.Kazimirovu qəbul etmişdir.

1997-ci il

4 fevral. ATƏT-in Minsk qrupunda Danimarka nümayəndəsi Süzan Xristianseni qəbul etmişdir.

21 aprel. ATƏT-in Minsk qrupunun həmsədri Yuri Yukalovu qəbul etmişdir.

28 aprel. Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşmüşdür.

1 iyun. ATƏT-in Minsk konfransının və Minsk qrupunun nümayəndələrini – ABŞ dövlət katibinin müavini, Minsk konfransının həmsədri Stroub Talbottu, Minsk qrupunun keçmiş həmsədri səfir Cozef Presseli və indiki həmsədri Lin Paskonu, Rusiya xarici işlər nazirinin birinci müavini Boris Pastuxovu, Minsk konfransının həmsədri, səfir Valentin Lozinskini, Minsk qrupunun həmsədri, səfir Yuri Yukalovu, Fransadan Minsk konfransının həmsədri Jak Blönü, Minsk qrupunun həmsədri, səfir Jorj Vojyeni qəbul etmişdir.

14 iyun. ATƏT-in Minsk qrupunun həmsədrləri Lin Pasko (ABŞ), Yuri Yukalov (Rusiya Federasiyası) və Jorj Vojye (Fransa) başda olmaqla ATƏT-in Minsk qrupunun nümayəndə heyətini qəbul etmişdir.

18-19 iyun. ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Yukalovu (Rusiya), Lin Paskonu (ABŞ), Jorj Vojyeni (Fransa) və Minsk konfransının həmsədri Valentin Lozinskini qəbul

etmişdir.

25 iyul. BMT-nin respublikamızdakı nümayəndəsi Paolo Lembonu qəbul etmişdir.

28 iyul. Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin daimi nümayəndələri ilə görüşdə nitq söyləmişdir.

29 iyul. BMT-də akkreditə olunmuş dünya dövlətlərinin daimi nümayəndələri - səfirləri ilə görüşdə çıxış etmişdir.

ABŞ Dövlət katibinin birinci müavini, ATƏT-in Minsk konfransının həmsədri Stroub Talbott və Minsk qrupunun həmsədri Linn Pasko ilə görüşmüşdür.

30 avqust. ATƏT-in Minsk qrupunda Almaniyanın nümayəndəsi Frank Lambaxı qəbul etmişdir.

23 sentyabr. ATƏT-in Minsk qrupunun həmsədrləri Jorj Vojyeni (Fransa), Linn Paskonu (ABŞ), Yuri Yukalovu (Rusiya Federasiyası) qəbul etmişdir.

10 oktyabr. Danimarkanın xarici işlər naziri, ATƏT-in sədri Niyels Petersenlə görüşmüşdür.

10 oktyabr. Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşmüşdür.

20 oktyabr. ATƏT-in yüksək səviyyəli planlaşdırma qrupunu qəbul etmişdir.

22 oktyabr. Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşmüşdür.

6 noyabr. ATƏT-in Minsk qrupunun həmsədrləri Lin Pasko (ABŞ), Jorj Vojye (Fransa), Yuri Yukalovu (Rusiya) qəbul etmişdir.

5 dekabr. ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Yukalovu (Rusiya Federasiyası), Lin Paskonu (ABŞ), Jorj Vojeni qəbul etmişdir.

11 dekabr. BMT-nin baş katibi Kofi Annan ilə görüşmüşdür.

1998-ci il

5 fevral. ATƏT-in Minsk qrupunda Türkiyənin xüsusi sə-

firi Əli Hikmət Alpı qəbul etmişdir.

6 mart. BMT-nin Qaçqınlarla İş üzrə Ali Komissarlığının Azərbaycan nümayəndəliyinin rəhbəri Didye Layı və Dünya Bankının Azərbaycan nümayəndəliyinin rəhbəri Tevfiq Yaprağı qəbul etmişdir.

17 mart. ATƏT-in Demokratik Təsisatlatlar və İnsan Hüquqları Bürosunun direktoru JerarŞtudmanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

16 aprel. BMT-nin Azərbaycandakı rezident-əlaqələndirici Ərcan Muradı qəbul etmişdir.

28 aprel. Moskvada Ermənistan prezidenti R.Koçaryanla görüşmüşdür.

16 may. ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Yukalovu (Rusiya), Linn Paskonu (ABŞ), Jorj Vojyeni (Fransa) qəbul etmişdir. ATƏT-in Minsk qrupunda Almaniyanın nümayəndəsi Frenk Lambaxı qəbul etmişdir.

30 may. BMT baş katibinin köçkünlərlə iş üzrə xüsusi nümayəndəsi Frensis Dengin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

2 sentyabr. BMT-nin qaçqınların işi üzrə ali komissarının köməkçisi Soren Yessen-Peterseni qəbul etmişdir.

6 sentyabr. BMT baş katibinin müavini, Avropa İqtisadi Komissiyasının katibi İv Bertalodu qəbul etmişdir.

13 sentyabr. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru JerarŞtudmanı və Büronun qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri ilə əlaqə üzrə müşaviri Vibek Qreni qəbul etmişdir.

15 sentyabr. ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Yukalovu (Rusiya), Jorj Vojyeni (Fransa), Donald Kayzeri (ABŞ) qəbul etmişdir.

9 noyabr. ATƏT-in Minsk qrupunun həmsədrləri Jorj Vojyeni (Fransa), Yuri Yukalovu (Rusiya), Donald Kayzeri (ABŞ) qəbul etmişdir.

25 noyabr. ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xari-

ci işlər naziri Bronislav Geremik ilə təkbətək görüşmüşdür. Bronislav Geremek sonra nümayəndə heyətlərinin görüşündə çıxış etmişdir.

8 dekabr. BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Ercan Muradı qəbul etmişdir.

1999-cu il

14 yanvar. BMT-nin Ümumdünya Ərzaq Proqramının şöbə müdiri Robert Hauzerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

22 fevral. ATƏT-in nümayəndələrini qəbul etmişdir.

18 mart. BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının Avropa Bürosunun direktoru Anne-Villem Baylaveldinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

24 aprel. Vaşinqtonda Ermənistan prezidenti R.Koçaryanla təkbətək görüşmüş, «Vaşinqton post» qəzetinin jurnalistlərinə müsahibə vermişdir.

15-17 iyul. Cenevrədə Ermənistan prezidenti R.Koçaryanla ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə təkbətək görüşmüşdür.

1 sentyabr. ATƏT-in Minsk qrupunda ABŞ-ın yeni təyin olunmuş xüsusi nümayəndəsi Keri Kavanonu qəbul etmişdir. ATƏT-in Demokratik Təsisatlar Və İnsan Hüquqları Bürosunun direktoru, səfir JerarŞtudmanı qəbul etmişdir.

9 sentyabr. BMT-nin qaçqınların işi üzrə ali komissarı Sadako Oqatanı qəbul etmişdir.

10 sentyabr. Ermənistan prezidenti R.Koçaryanla görüşmüşdür.

18 sentyabr. ATƏT-in sədri, Norveçin xarici işlər naziri Knut Vollebeki qəbul etmişdir.

9 noyabr. ATƏT-in Minsk qrupunun Fransa tərəfindən yeni həmsədri Jan Jak Qayyardın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

18 noyabr. ATƏT-in İstanbul zirvə görüşü çərçivəsində

Ermənistan prezidenti R.Koçaryan ilə görüşmüşdür. ATƏT-in Parlament Assambleyasının sədri Helle Den ilə görüşmüşdür.

18-19 noyabrda Türkiyənin İstanbul şəhərində ATƏT-in zirvə görüşü keçirilmişdir.

13 dekabr. ATƏT-in sədri, Norveçin xarici işlər naziri Knut Vollebeni qəbul etmişdir.

14 dekabr. ATƏT-in Minsk qrupunun həmsədrləri Keri Kovanonu (ABŞ), Jan Jek Qayardı (Fransa), Nikolay Qribkovu (Rusiya) qəbul etmişdir.

2000-ci il

22 yanvar. ABŞ-ın dövlət katibinin yeni müstəqil dövlətlər üzrə xüsusi müşaviri Steten Sestanoviç və ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Kerri Kavanonu qəbul etmişdir.

24 yanvar. Moskvada Ermənistan prezidenti Robert Koçaryanla, Rusiya prezidentinin vəzifələrini icra edən Vladimir Putinlə görüşmüşdür.

25 yanvar. Moskvada (Kremldə) Rusiya Federasiyası, Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Ermənistan Respublikası prezidentlərinin dördtərəfli görüşü olmuşdur.

28 yanvar. Ermənistanın Respublikasının prezidenti R. Koçaryanla görüşmüşdür.

28 yanvar. ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Keri Kavano ilə görüşmüşdür.

29 yanvar. BMT-nin qaçqınların işi üzrə ali komissarı xanım Sadako Oqata ilə görüşmüşdür.

15 may. BMT-nin İnsan Hüquqları Komissiyasının işgəncələrə qarşı xüsusi məruzəçisi Naysel Rodlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

1 iyun. ATƏT-in Parlament Assambleyasının sədri xanım Helle Daynın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

8 iyun. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquq-

ları Bürosunun direktoru Jerar Ştudmanı qəbul etmişdir.

Tehranda BMT-nin baş katibinin müavini Pino Arlaki ilə görüşmüşdür.

Azərbaycan Prezidenti Heydər Əliyevin, Rusiya prezidenti Vladimir Putinin və Ermənistan prezidenti Robert Koçaryanın üçtərəfli görüş olmuşdur.

Azərbaycan Prezidenti Heydər Əliyevin, Rusiya prezidenti Vladimir Putinin, Ermənistan prezidenti Robert Koçaryanın və Gürcüstan prezidenti Eduard Şevarnadze ilə dördtərəfli görüş olmuşdur.

2 iyul. ATƏT-in Minsk qrupunun nümayəndə heyətini qəbul etmişdir.

5 iyul. Vyanada BMT baş katibinin müavini, BMT-nin Vyanadakı nümayəndəliyinin baş direktoru Pino Arlakki ilə görüşmüşdür.

18 iyul. ATƏT-in sədri, Avstriyanın xarici işlər naziri xanım Benita Ferrero-Valdneri qəbul etmişdir.

18 avqust. Ermənistan prezidenti R.Koçaryanla görüşmüşdür.

6 sentyabr. BMT-nin iqamətgahında Minilliyin zirvə görüşünün açılış mərasimində iştirak etmişdir.

7 sentyabr. Nyu-Yorkda Ermənistan prezidenti R.Koçaryanla təkbətək görüşmüşdür.

31 oktyabr. ABŞ dövlət katibinin MDB ölkələri üzrə xüsusi müşaviri Stefan Sestanoviçi və ATƏT-in Minsk qrupunun ABŞ tərəfdən həmsədri Keri Kavanonu qəbul etmişdir.

3 noyabr. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Jerar Ştudmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

4 noyabr. Avropa Şurasının və ATƏT-in Parlament Assambleyasının nümayəndə heyətini qəbul etmişdir.

30 noyabr. Minskdə Ermənistan prezidenti R.Koçaryanla görüşmüşdür.

11 dekabr. ATƏT-in Minsk qrupunun həmsədrləri Keri

Kavanonu (ABŞ), Jan Jak Qayardı (Fransa), Nikolay Qribkovu (Rusiya) qəbul etmişdir.

2001-ci il

8 yanvar. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, Parlament Assambleyasının, Avropa Şurası Nazirlər Komitəsinin «AQO» monitorinq qrupunun nümayəndələrini qəbul etmişdir.

26 yanvar. Parisdə Ermənistan prezidenti R.Koçaryanla təkbətək görüşmüşdür.

Yelisey sarayında Fransa prezidenti Jak Şirak və Ermənistan prezidenti R.Koçaryanla üçtərəfli görüşü keçirilmişdir.

1 mart. ATƏT-in sədri, Rumıniyanın xarici işlər naziri Mirça Coane ilə görüşmüşdür.

4 mart. Ermənistan prezidenti R.Koçaryanla görüşmüşdür.

5 mart. Fransa prezidenti Jak Şirakla görüşmüşdür.

Azərbaycan, Fransa, Ermənistan prezidentlərinin üçtərəfli görüşü olmuşdur.

3 aprel. Ki-Uestdə ABŞ-ın dövlət katibi, Ermənistan prezidenti, ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşdə bəyanatla çıxış etmişdir.

Ki-Uestdə Harri Trumen adına kiçik Ağ Evdə ABŞ-ın dövlət katibi Kolin Pauell ilə görüşmüşdür.

Ki-Uestdə Rusiya Federasiyasının xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikovla görüşmüşdür.

4 aprel. Kiçik Ağ Evdə ATƏT-in Minsk qrupunun həmsədrləri Keri Kavano, Jan Jak Qayyard, Nikolay Qribkov və Rusiya xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov ilə görüşmüşdür.

5 aprel. Ki-Uestdə ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Keri Kavano ilə görüşmüşdür.

ATƏT-in baş katibi Yan Kubiş ilə görüşmüşdür.

6 aprel. ATƏT-in həmsədrləri Keri Kavano, Jan Jak Qayyard, Nikolay Qribkov və Rusiya xarici işlər nazirinin birinci

müavini Vyaçeslav Trubnikov ilə görüşmüşdür.

Minsk qrupunun amerikalı həmsədri Keri Kavanonu, Rusiya nümayəndə heyətinin rəhbəri Vyaçeslav Trubnikovu və Fransa nümayəndə heyətinin üzvü Filip de Suermanı qəbul etmişdir.

18 may. ATƏT-in Minsk qrupunun həmsədrlərini: Keri Kavanonu (ABŞ), Filip dö Suremeyni (Fransa), Nikolay Qribkovu (Rusiya) qəbul etmişdir.

30 may. BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Ercan Muradı qəbul etmişdir.

31 may. Minskdə Rusiya prezidenti V.Putin və Ermənistan prezidenti R.Koçaryanla birgə görüşmüşdür.

Rusiya Federasiyasının prezidenti V.Putin, Ermənistan prezidenti R.Koçaryan və Gürcüstan prezidenti E.Şevardnadze ilə birgə görüşmüşdür.

21 iyun. ATƏT-in baş katibi Yan Kubişi qəbul etmişdir.

12 iyul. ATƏT-in Minsk qrupunun həmsədrlərini: Keri Kavanonu və Nikolay Qribkovu qəbul etmişdir.

1 avqust. Ermənistan Prezidenti R.Koçaryanla görüşmüşdür. Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə görüşmüşdür.

2 avqust. Rusiya Federasiyasının prezidenti V.Putinlə görüşmüşdür.

23 oktyabr. ATƏT-in Parlament Assambleyasının sədri Adrian Severinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

25 oktyabr. ABŞ-ın ATƏT-in Minsk qrupundakı həmsədri Rudolf Perinanı qəbul etmişdir.

4 noyabr. ATƏT-in Minsk qrupunun həmsədrləri Rudolf Perinanı (ABŞ), Filip de Sürmeni (Fransa) və Nikolay Qribkovu (Rusiya) qəbul etmişdir.

28 noyabr. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Jerar Ştudmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

30 noyabr. Moskvada Rusiya prezidenti V.Putin və Ermənistan prezidenti R.Koçaryanla birgə görüşü olmuşdur.

2002-ci il

1 fevral. Nyu-Yorkda ATƏT-in Minsk qrupunun həmsədrləri Nikolay Qribkovu (Rusiya), Filip de Sürmeni (Fransa) və Rudolf Perinanı (ABŞ) qəbul etmişdir.

7 mart. ATƏT-in sədri, Portuqaliyanın dövlət naziri və xarici işlər naziri Jaymi Qamanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

8 mart. ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

24 iyun. ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

14 avqust. Naxçıvan MR-in Sədərək rayonunda Ermənistan prezidenti R.Koçaryanla təkbətək görüşmüşdür.

28 sentyabr. ATƏT-in Minsk qrupunun həmsədrləri Rudolf Perinanı (ABŞ), Nikolay Qribkovu (Rusiya), Üq Perneni (Fransa), Rusiya xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikovu qəbul etmişdir.

6-7 oktyabr. Kişinyovda Ermənistan prezidenti R.Koçaryan ilə təkbətək görüşmüşdür.

4 noyabr. ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Anri Jakoləni qəbul etmişdir.

21 noyabr. Praqada NATO Tərəfdaşlıq Şurasının zirvə görüşü çərçivəsində NATO-nun baş katibi, Türkiyə, Fransa, Gürcüstan və Ermənistan prezidentləri ilə görüşlər keçirmişdir.

2003-cü il

28-29 yanvar. Kiyevdə ATƏT-in Minsk qrupunun həmsədrləri Rudolf Perina (ABŞ), Nikolay Qribkov (Rusiya), Anri Jakolən və Üq Perneni (Fransa) qəbul etmişdir.

VII FƏSİL

PREZİDENT İLHAM ƏLİYEVİN ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ

7.1. Prezident İlham Əliyev və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüş və çıxışları zamanı dəfələrlə ifadə etmişdir ki, «Azərbaycanın ən ağrılı problemi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir».

Ulu öndərin beynəlxalq səviyyədə etdiyi çıxışlarında Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı və müasir ərazisinin bir hissəsi olması fikri öz əksini layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik çıxışlarında tapır: «Azərbaycan heç vaxt torpağında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Azərbaycan bütün imkanlarını səfərbər edib, diplomatik, siyasi, iqtisadi, hərbi – bütün imkanlardan istifadə edib öz doğma torpaqlarını azad edəcəkdir»[282].

Bununla bərabər, Prezident İlham Əliyevin vurğuladığı: «Azərbaycan torpaqları danışıq predmeti ola bilməz», həmçinin, «Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyildir və heç vaxt olmayacaqdır... Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcəkdir. Yəni Azərbaycanın ərazi bütövlüyü məsələsində... heç bir güzəşt olmayacaqdır» mötəbər və qiymətli fikirlər tariximizin bugünkü reallığını əks etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan tarixi üçün həlledici hadisələr - iqtisadi, siyasi, tarixi cəhətdən önəmli hadisələr düzgün araşdırılmalıdır, bu bizim üçün lazımdır, gələcək üçün vacibdir» devizini əldə rəhbər tutaraq, dövlətimizin yaratdığı əlverişli vəziyyətdən istifadə edərək, tarixi mənbələrə, faktlara əsaslanaraq tariximizi obyektiv tədqiq etməliyik. Bu baxımdan Azərbaycan dövlətinin, hökumətinin, elmi ictimaiyyətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin etnik münaqişə kimi təqdim edilməsinin qəbuledilməzliyinə laqeydliklə yanaşılması yolverilməzdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin vətənimiz, xalqımız, dövlətimiz üçün gördüyü nəhəng işlər hamını əmin etdi ki, Azərbaycanda onun yürütdüyü siyasətin alternativi yoxdur, ölkəmizin davamlı inkişafı, vətəndaşlarımızın firəvan həyatı, xoşbəxt gələcəyi məhz həmin siyasətin varisliyindən, dövlət hakimiyyətinin bu siyasətin həyata keçirilməsini təmin edəcək etibarlı davamçısından asılıdır. Bunu dərindən dərk edən xalqımız yeni minilliyin ilk prezident seçkilərində çox müdrik seçim etdi: Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olan Baş nazir İlham Əliyevə səs verdi.

Azərbaycan xalqı yeni əsrdə yeni liderinin - qətiyyətli və müdrik prezident İlham Əliyevin rəhbərliyi altında Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi kursla daha böyük uğurlara doğru yol başladı.

«Ən böyük xoşbəxtlik, ən böyük qiymət odur ki, xalq səni dəstəkləsin» deyərkən cənab prezident İlham Əliyev xalqın etimadını doğrultmağı və ona arxalanmağı nəzərdə tuturdu.

Ulu Öndər Heydər Əliyevin böyüklüyü onun imperiya içərisində qeyri-leqal şəkildə xalqımıza qarşı əyalət münasibətlərinin davam etdiyi bir dövrdə xalqın milli-mənəvi dəyərlərinin əriməsinə, məhv edilməsinə yönəlmiş fəaliyyətə qarşı mübarizə meydanında formalaşmışdısa, İlham Əliyev fenomeninin formalaşması qloballaşma, müasir sivilizasiya, sürətli inteq-

rasiya və yüksək tərəqqi meydanında xalqımızın dünya xalqları sırasında öz layiqli yerini tutmasına ehtiyac olduğu zaman və məkanına düşmüşdür. Bunların bir-biri ilə vəhdət təşkil etməsi xalqımızın taleyinə yazılmış xoşbəxtlikdir.

Ulu Öndər Heydər Əliyevin nadir tarixi simalar Vaşinqton, Nehru, De Qol, Atatürk, İlham Əliyevin isə Atilla, Cavanşir, Babək, Şah İsmayıl sırasında öz layiqli yeri görünür.

Prezident İlham Əliyev tariximizi Ulu Öndər Heydər Əliyevin bildiyi miqyasda bilir. Sürətlə dəyişən hadisələri tarixi bilik süzgəcindən məharətlə keçirir, çevik siyasi nəticə çıxarır. Ulu Öndərdən irs qalan xarici və daxili siyasət kursunu yüksək xüsusiyyətlər əsasında, qabiliyyətlə, dəyanətlə həyata keçirir. Rəhbər şəxsiyyəti, yüksək bilik, çevik siyasət, cəsarət, dəyanət formalaşdırırsa, bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyev öz yerindədir.

«Prezident seçilərəmsə, sosial sahə və iqtisadiyyat əsas fəaliyyətim olacaq. Bu iki önəmli məsələ ilə yanaşı, erməni işğalı altında olan Yuxarı Qarabağ probleminə də önəm verəcəyəm» deməsi Xalqın böyük sevgisinə arxalanan, Azərbaycan dövlətinin sükanını etibarlı saxlayan Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair bütün proseslərə ciddi nəzarət edir.

İllər keçməsinə baxmayaraq Ermənistan Respublikasının BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməməsi və ATƏT-in Minsk qrupunun isə bununla bağlı heç bir adekvat qərar qəbul etməməsini dəfələrlə diqqətə çatdıran Prezident İlham Əliyev «Azərbaycan problemin heç zaman «mövcud reallıqlar» əsasında həlli variantı ilə razılaşmayacaq və torpağının bir qarışını belə heç kimə verməyəcəkdir» deməsi, Azərbaycanın Dağlıq Qarabağ problemlərinə münasibətdə beynəlxalq ictimaiyyətin tutduğu passiv müşahidəçi mövqeyinin yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə biləcəyindən narahatlığını açıqdan-açığa bildirməkdən çəkinmədiyini ifadə etmişdir. Beynəlxalq ictimaiyyətin fəa-

liyyətsizliyindən təəssüflənən İlham Əliyev ATƏT-in Minsk qrupunun və BMT-nin Təhlükəsizlik Şurasının Ermənistanın təcavüzkar qüvvələri qarşısından geri çəkildiyini aşkar şəkildə bəyan etdiyi bildirilmişdir.

Dövlətimizin müstəqilliyini, xalqımızın əmin-amanlığını qorumağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə qadir olan silahlı qüvvələrə - güclü Milli Ordumuza arxalanan Prezident İlham Əliyevin «Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlamamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir» bəyanatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının etibarlı təminatdır.

«Ermənistan Azərbaycanın tarixi torpaqları olan İrəvan və Naxçıvan torpaqlarında yerləşir», «Azərbaycanın torpaqları danışıqların mövzusu ola bilməz», «Biz burada ikinci bir erməni dövlətinin yaradılmasına yol verə bilmərik» kimi fikirləri tariximizi yaxşı bilən alim, cəsarətli rəhbər və siyasi xadim – dəyanətli şəxsiyyət deyə bilər. Bu, Heydər Əliyev məktəbinin yetirməsi olan bir ziyalının siyasət aləmində dəyanətli və uğurlu addımlarıdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində ümummilli lider Heydər Əliyevin diplomatiyasının uzaqgörən, müdrik siyasətinin əsas səciyyəsi onun tarixi imkanlardan düzgün, xalqın və dövlətin mənafeləri naminə istifadə etməsi idi. Eyni zamanda, hələ siyasi fəaliyyətə başladığı ilk anlardan Azərbaycan Milli Məclisinin nümayəndə heyətinin başçısı İlham Əliyevin Strasburqdan Respublika televiziyasına birbaşa müsahibəsində demişdir: «Deyə bilərəm ki, münasibət dəyişir. Çünki bilirsiniz ki, ümumiyyətlə, son zamanlar dünyada ictimai rəy Azərbaycanın xeyrinə dəyişir. Azərbaycan çox müxtəlif tədbirlərdə öz mövqeyini açıq şəkildə bildirmişdir. Artıq bütün dünya açıq

şəkildə bilir ki, bu münaqişənin nəticəsi nə olubdur və münaqişənin kökündə hansı məsələlər durur. Artıq Ermənistan bütün dünyaya işğalçı bir dövlət kimi təqdim olunubdur. Çox sevindirici haldır ki, bayaq sizə dediyim o rəsmi bəyanatda müxtəlif ölkələrdən olan deputatlar da öz imzasını atıblar. İspaniyadan, Litvadan, Türkiyədən, Ukraynadan olan deputatlar. Yəni Azərbaycanın haqlı olduğunu artıq duymağa, eşitməyə, anlamağa başlayıblar...».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın Resublikasının bütün uğurlarının Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edərək bildirmişdir ki, Azərbaycan diplomatiyası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli məsələsində Heydər Əliyevin başladığı siyasi kursun uğurlu davamıdır.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyev məktəbinin layiqli davamçısı kimi bir qayda olaraq qonşuluq prinsipinə layiqli şəkildə və dönmədən əməl etmişdir. İlham Əliyevin arxalandığı siyasi kurs ona əsaslanır ki, ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətinin müdrikliyinə söykənən Azərbaycan Respublikası öz milli inkişaf yolundan dönməyəcəkdir.

Müdrik siyasətçi Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən İlham Əliyevin xarici səfərləri Heydər Əliyevin xarici siyasətinin yeni təcəssümüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasətinin əsasını da məhz Azərbaycan Respublikasının ərazi bütövlüyü, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli təşkil etmişdir. Prezident İlham Əliyevin apardığı çevik diplomatik mübarizə nəticəsində təcavüzkar Ermənistan dövlətinin ən müxtəlif səviyyələrdə ifşası davam etmişdir. Erməni lobbisinin türk dünyasına qarşı apardığı bədnam təbliğata qarşı səmərəli əks-hücumun təşkili, Azərbaycan Respublikası Prezidentinin apardığı siyasi mübarizəyə əsaslanan diplomatiya ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdı-

rılmasında daha fəal görünür, ardıcıl və sistemli fəaliyyətin həyata keçirilməsi ilə müşayiət olunmuşdur. Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan işğalçı dövlət olması faktı indi bir çox dünya dövlətləri tərəfindən qəbul edilir.

Azərbaycanın iqtisadi potensialının güclənməsi, hərbi büdcəsinin ildən-ilə artması danışqlar prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması prosesini gücləndirir. Avropa Şurası, Avropa Birliyi, İKT kimi nüfuzlu beynəlxalq qurumlar, habelə münaqişə ilə bağlı 4 qətnamə qəbul etmiş BMT-nin problemin həllində ərazi toxunulmazlığı prinsipini önə çəkməsi Respublikamızın beynəlxalq əməkdaşlıq mərkəzinə çevrilməsindən xəbər verir. ABŞ-ın münaqişənin bu prinsip əsasında həllinə tərəfdar olması problemin həlli istiqamətində son və əhəmiyyətli nəticədir.

Azərbaycan prezidenti İlham Əliyev türkdilli dövlətlərin və topluluqlarının 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayındakı çıxışında Ermənistanın ifşası istiqamətində səylərin daha da artırılması vacibliyini önə çəkməsi, kəskin şəkildə ifadə etdiyi «Azərbaycan torpaqları danışıqların mövzusu ola bilməz» fikri Dağlıq Qarabağ məsələsində nikbin əhval-ruhiyyənin ardıcıl davam etməsindən xəbər verir.

Artıq Ermənistanı himayə edən müəyyən siyasi dairələr, o cümlədən erməni lobbisi Azərbaycanda iqtisadiyyatın sürətlə inkişaf etdiyi, beynəlxalq aləmdə inamlı siyasət yeridildiyi bir mərhələdə, müstəqil iqtisadi siyasəti olmayan, regionun iqtisadi proseslərinə qoşula bilməyən, iqtisadi tənəzzül keçirən Ermənistanın getdikcə siyasi nüfuzunun da iflasa uğramasının qarşısını almaq barədə düşünürlər.

Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın münaqişə ocağına çevrilməsinin bütün morfologiyası İlham Əliyev diplomatiyasının daim diqqət mərkəzində olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il yanvarın 23-də «Fiqaro» qəzetinə verdiyi müsa-

hibəsində bildirmişdir ki, «Rusiya Ermənistanla müttəfiq olmasına baxmayaraq bu məsələnin həllində mühüm rol oynayan ABŞ və Fransa da vardır. Minsk qrupuna daxil olan bu ölkələr birlikdə təzyiq göstərməlidirlər ki, Ermənistan bizim əraziləri azad etmək məcburiyyətində qalsın».[283]

Vaxtilə Rusiya Federasiyasının Dağlıq Qarabağ üzrə vasitəçilik missiyasının başçısı Vladimir Kazimirov Ermənistan Respublikasının münaqişəyə müəyyən «aidliyini» qeyd edərək, hər iki tərəf üçün balanslaşdırılmış güzəştlər təklif edirdi ki, bu da, onun fikrincə, guya məsələnin həllində minimal irəliləyiş üçün zəmin yaradırdı. Bu, Rusiya Federasiyasının Azərbaycan Respublikasına dair rəsmi mövqeyini əks etdirirdi. Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində hər iki tərəfin eyni dərəcədə məsuliyyət daşıdığını iddia edən Rusiya diplomatı qəsdən Ermənistan dövlətini münaqişədə oynadığı təşəbbüsçü rolundan uzaqlaşdırır və onun rolunu ancaq «maraqlı» bir tərəf səviyyəsinə endirirdi. Bu faktı vaxtilə Heydər Əliyev jurnalistlərlə görüşündə qeyd etmişdi: «Münaqişədə Ermənistanın rolunu təyin etmək mümkün deyil. Lazım olan şəraitdə Ermənistan bəyan edir ki, Qarabağ ermənilər Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycana qarşı milli-azadlıq mübarizəsi aparırlar və bunun Ermənistana heç bir aidiyyatı yoxdur. Digər bir vəziyyətdə isə xüsusilə, daxili siyasi həyatımızda Ermənistan münaqişədə birbaşa iştirakını inkar etmir».[284]

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı törətdiyi bu münaqişə onun dövlət separatizmi səviyyəsində apardığı, hərbi müdaxilə ilə icra edilən təcavüzkarlıqdır. Ermənistan Respublikası, həmçinin beynəlxalq terrorizm də həyata keçirir ki, bu da BMT-nin Baş Assambleyasının 39-cu sessiyasında qəbul etdiyi 35/159 nömrəli qətnamədə «Digər suveren dövlətlərin siyasi-ictimai quruluşunu poza bilən dövlətlərin hər hansı bir hərəkəti və dövlət terrorizmi siyasətini aparmasının yolverilməzliyi» kimi bə-

yan edilmişdir[285].

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin, həmçinin onun ətrafında 7 rayonun -Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın, ümumilikdə, Azərbaycan 20 faiz ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal etməsi və hələ də işğal altında saxlaması Azərbaycan Respublikasının və eləcə də müasir dünyanın ən böyük narahatlıq doğuran problemlərindən biri olması şübhəsizdir.

Bütün dünyanın gözü qarşısında baş verən bu təcavüzkarlığa beynəlxalq təşkilatlar və dünyanın böyük dövlətləri tərəfindən laqeyd yanaşmaqla beynəlxalq hüquq normalarını və BMT Nizamnaməsini pozan Ermənistana qarşı nəinki heç bir ciddi tədbir görülmür, heç təcavüzkar birmənalı şəkildə belə öz adı ilə adlandırılmır.

BMT TŞ-nın münaqişəyə dair 4 qətnamə (1993-cü il 30 aprel tarixli 822 nömrəli; 1993-cü il 29 iyul tarixli 853 nömrəli; 1993-cü il 14 oktyabr tarixli 874 nömrəli və 11 noyabr 1993-cü il tarixli 884 nömrəli)[286] qəbul etməsinə baxmayaraq, münaqişənin həllinə dair danışıqlarda Ermənistan Respublikasının konstruktiv mövqe tutmaması səbəbindən mühüm nəticə əldə edilməmişdir.

Azərbaycan Respublikasının baş naziri olarkən İlham Əliyev 2003-cü il sentyabrın 24-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında beynəlxalq dəstəyin qazanılmasının zəruri olduğunu nəzərə alaraq BMT Baş Məclisinin 58-ci sessiyasında çıxışında bəyan etmişdir: «Azərbaycanın nümayəndə heyəti bu yüksək kürsüdən beynəlxalq icmanın diqqətini davam edən Ermənistan-Azərbaycan münaqişəsinə dönə-dönə cəlb etmişdir. Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir», «Ermənistan bu qətnamələri saymazlığı ilə bey-

nəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk Qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər»[287]. Baş nazir İlham Əliyev bu çıxışı ilə problemin həllinə daha ciddi yanaşılmasına diqqətin artırılmasına marağı artırdı.

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən, Heydər Əliyevin siyasi irsindən bəhrələnən İlham Əliyevin fəaliyyəti Azərbaycanın xarici siyasətində də yeni mərhələ başladı. Prezident cəmi bir neçə gün sonra ATƏT-in fəaliyyətdə olan sədri Yaap de Hoop Sxeffer Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq təşkilatların passivliyinə dair Azərbaycanın yeni dövlət başçısının iradlarına cavab verməli oldu: «Düşünürəm və ümid edirəm ki, Sizin bu yaxınlarda Azərbaycan Prezidenti kimi fəaliyyətə başlamağınız bu problemin həllinə yeni bir pəncərə açacaqdır. Bu, Dağlıq Qarbağ ətrafında danışıqların davam etdirilməsi üçün imkan pəncərələri olacaqdır. Bildiyiniz kimi, ATƏT bu məsələdə Sizə əlindən gələn yardımı etməyə həmişə hazırdır. ...sabitlik və təhlükəsizlik region üçün çox vacibdir. Buna görə də Avropa şurası, Avropa Birliyi və ATƏT kimi beynəlxalq təşkilatlar buraya gəlməli və öz fəaliyyətlərini davam etdirməlidir»[288].

Azərbaycanın siyasi, iqtisadi və beynəlxalq əlaqələrinin genişlənməsi və maraqlarının təmin olunması sahəsində varisliyə sadiq qalan Prezident İlham Əliyev ölkənin seçdiyi yolun alternativsizliyini hər bir məqamda vurğulayır.

Ermənistanın Azərbaycana qarşı məkrli, saxtakarlığa, uydurmalara söykənən təbliğatının səngimədiyi bir vaxtda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kəskin fikir söylədi: «Ermənistan on ildən artıqdır ki, Azərbaycan torpaqlarını işğal edib, indi Azərbaycanı işğal siyasətində ittiham edir. Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır,

ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki, sürə bilərik. Çünki inidiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Əgər onlar öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətində dəyişiklik etməlidirlər. Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız ittihamlardan əl çəkməlidirlər. Əks təqdirdə, Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcək, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcək, ərazi bütövlüyünü bərpa edəcək.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin əvvəllərində köçürülmüşlər. Bir dəfə Azərbaycan, türk torpağında erməni dövləti yaradılıb, burada ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt imkan vermərik»[289].

Azərbaycan Respublikasının Prezidenti mövcud durumu təhlil edərək demişdir: «Son dövrlərin siyasi təhlili göstərir ki, Azərbaycan dövlətinin hər bir ölkə ilə imzaladığı sənəddə Azərbaycanın ərazi bütövlüyünün tanınması və dəstəklənməsi onu göstərir ki, bütün beynəlxalq ictimaiyyət, dünyanın siyasi elitası bu məsələnin Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həll edilməsini mümkün sayır. ... Əgər dünya birliyi 1990-cı illərin ortalarında, - o vaxt Azərbaycan iqtisadi və siyasi cəhətdən o qədər də güclü deyildi, - Dağlıq Qarabağın müstəqilliyini tanımayıbsa, bugünkü vəziyyətdə, Azərbaycanın güclü dövlət olduğu bir dövrdə heç də bunu tanımayacaqdır».[290]

Prezident İlham Əliyev danışıqlar prosesində Ermənistanın qeyri-konstruktiv siyasəti nəticəsində razılaşmaya nail olunmamasını, bütün dünya ictimaiyyətinin və bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun bunun şahidi olmasına dair fikrini açıq bildirmişdir: «Biz öz ərazi bütövlüyümüzü heç vaxt güzəştə getməyəcəyik. Azər-

baycanın ərazi bütövlüyü toxunulmazdır, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı heç vaxt bununla razı olmayacaqdır. Beynəlxalq ictimaiyyət isə Dağlıq Qarabağın müstəqilliyini heç vaxt tanımayacaqdır. Biz danışıqları bu istiqamətdə aparırıq. ...Danışıqların əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın zəbt olunmuş bütün torpaqları işğalçılardan azad edilsin, Azərbaycan vətəndaşları – məcburi köçkünlər həmin torpaqlara qayıtsınlar, o cümlədən də Dağlıq Qarabağa qayıtsınlar. Bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən bir addım da kənara çıxmayacağıq. Ermənistan bunu nə qədər tez başa düşsə, onlar üçün bir o qədər yaxşıdır. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın»[291].

Azərbaycan Prezidentinin «Əgər Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratlarını həll etmək istəyirlərsə, onu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etsinlər, yaxud da əgər bunu istəmirlərsə, onda Dağlıq Qarabağdan çıxıb başqa yerdə özləri üçün ikinci dövlət yaratsınlar. Hər halda, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması qeyri-mümkündür»[292] xəbərdarlığı da siyasi həllin ciddi istiqamətdə davam etdirilməsinin vacibliyinə işarə idi.

Azərbaycan Prezidenti öz çıxışında xüsusi qeyd etdi ki, «Biz uzun illər ərzində danışıqlar yolu ilə çalışırıq ki, məsələni həll edək. Amma hələ ki, buna müvəffəq olmamışıq. Biz öz siyasətimizi aparacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa ediləcəkdir»[293] deməsi, bu prosesin ölkəmizin xeyrinə irəliləməsinin perspektivliliyini göstərdi.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində nəinki tutduğu mövqedən çəkilmir, hətta hücum diplomatiyasına üstünlük verir. Prezidentin diplomatlarla görüşdə dediyi - «Biz mü-

dafiədən hücuma keçməliyik» fikrinin əsas istiqaməti Ermənistan Respublikasının Dağlıq Qarabağ problemini indiki reallıqla razılaşmaqla həll etmək tezisi ilə çıxış edən anti-azərbaycan qüvvələrə qarşı yönəlmiş siyasi xətt idi.[294]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin türk dövlətləri və cəmiyyətlərinin toplantısında Ermənistanın Türkiyə və Azərbaycana qarşı informasiya müharibəsinə qarşı güclü informasiya hücumuna keçməyin vacibliyini bildirdi. Azərbaycan Prezidentinin «Azərbaycanın işğal olunmuş torpaqları, Türkiyəyə qarşı əsassız ittihamlar, qondarma soyqırımının tanıdılması cəhdləri - bütün bunlar bizim xalqımıza qarşı yönəldilən əməllərdir.... Biz güclənməliyik, hərtərəfli - hərbi, iqtisadi, siyasi cəhətdən, bütün cəhətlərdən və birgə fəaliyyət göstərməliyik!»[295].

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə ikili standartlarla yanaşmasını tənqid edən və buna son qoyulmasını tələb edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü il noyabrın 15-də Prezident sarayında Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçisi Per Qartonu qəbul edərkən demişdir: «Biz ümidvarıq ki, Avropa İttifaqı, Avropa Parlamenti bu məsələdə fəal rol oynayacaqdır. Əlbəttə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi region üçün böyük təhlükədir. Bu münaqişənin nəticəsində Azərbaycanın 20 faiz torpaqları işğal olunmuş və bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

ATƏT-in Minsk qrupu uzun illərdir ki, bu məsələ ilə məşğul olur, amma əfsuslar olsun ki, heç bir nəticə əldə edilməmişdir. Hesab edirəm ki, bu münaqişənin həll olunması üçün, ilk növbədə ikili standartlar siyasətinə son qoyulmalıdır, işğalçı dövlətdən işğal etdiyi torpaqlardan geri çəkilməsi tələb olunmalıdır. Sevindirici haldır ki, artıq Avropa strukturlarında bu istiqamətdə işlər aparılır və Avropa Şurasının Ermənistanı işğalçı dövlət kimi tanıması bunu əyani şəkildə

göstərir.

Ümidvaram ki, digər Avropa strukturları da bu təşəbbüsə qoşulacaqlar və məsələyə öz mövqelərini birmənalı şəkildə bildirəcəklər»[296].

Prezident İlham Əliyev 2004-cü il yanvarın 23-də «Fiqaro» qəzetinə verdiyi müsahibəsində bildirdi ki, «Rusiya Ermənistanla müttəfiq olmasına baxmayaraq, bu məsələnin həllində mühüm rol oynayan ABŞ və Fransa da vardır. Minsk qrupuna daxil olan bu ölkələr birlikdə təzyiq göstərməlidirlər ki, Ermənistan bizim əraziləri azad etmək məcburiyyətində qalsın, ... biz Qarabağın müstəqilliyini və onun Ermənistana birləşdirilməsini heç vaxt qəbul etməyəcəyik»[297].

2004-cü il fevralın əvvəllərində ATƏT-in Parlament Assambleyasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarker Cənubi Qafqaza səfər etdi. Münaqişə ətrafında yaranmış vəziyyət barədə obyektiv məlumat topladı[298].

Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyev 2004-cü il 26-27 iyunda NATO-nun İstanbul zirvə görüşü çərçivəsində «Avroatlantik İttifaqı yol ayrıcında» mövzusunda keçirilən beynəlxalq konfransında çıxışında beynəlxalq qurumların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində rolu barədə demişdir: «Biz istərdik ki, yalnız ATƏT deyil, Avropa Birliyi, Avropa Şurası və digər beynəlxalq təşkilatlar da məsələnin həllində fəal rol oynasınlar. Əlbəttə, ATƏT-in Minsk qrupunun məsələni həll etmək üçün mandatı vardır və biz bu mandata hörmətlə yanaşırıq. Amma düşünürəm ki, daha geniş beynəlxalq ictimaiyyətin bu yönümdə fəal rol oynamasının vaxtı çatmışdır»[299].

2004-cü il iyunun 21-də Azərbaycan Respublikasının və Ermənistan Respublikasının xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Praqada növbəti görüşü zamanı məlum oldu ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində qeyri-konstruktiv

mövqe tutan Ermənistana güclü təzyiqlər edilməyincə, onun mövqeyində dəyişikliyə nail olmaq mümkün olmayacaqdır.

2004-cü il sentyabrın 16-da Astana MDB ölkələrinin dövlət başçılarının növbəti görüşündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair müzakirələr üçün əlverişli şərait yaranmasından istifadə edən Azərbaycan və Ermənistan prezidentlərinin təkbətək, sonra isə Rusiya prezidenti V.Putinin və daha sonra Minsk qrupu həmsədrlərinin iştirakı ilə geniş formatda danışıqları oldu. Bu danışıqlarda əsasən Praqa görüşlərində razılaşdırılan məsələlərin müzakirəyə çıxarılması Azərbaycan tərəfini qane edən məqamlardan idi. Həmin məsələlər bundan bir neçə gün sonra Bakıda və İrəvanda səfərdə olmuş ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycan və Ermənistan üzrə xüsusi nümayəndəsi Filipp Dimitrovla da ətraflı müzakirə edildi[300].

2004-cü ilin noyabrın 19-da Minsk qrupu həmsədrlərinin iştirakı ilə Berlində, dekabrın 9-da isə Brüsseldə Praqada nəzərdən keçirilmiş məsələlərə dair fikir mübadiləsi aparıldı.

Rusiya Federasiyasının irəli sürdüyü «ümumi dövlət» təklifindən sonra məsələnin sonsuzluğa qədər uzanacağından ehtiyat edən beynəlxalq təşkilatlar, məsələn, AŞPA-nın Siyasi Komitəsi Azərbaycan və Ermənistan Respublikalarına çağırış ünvanlayaraq xəbərdarlıq etdi. Onları ATƏT-in himayəsi və səyi nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasının mümkünsüzlüyü mövcud olduğu təqdirdə, məsələyə BMT-nin Beynəlxalq məhkəməsində baxılacağı barədə məlumatlandırdı[301].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında BMT Təhlükəsizlik Şurasının münaqişənin həllinə, sülhün əldə olunmasına kifayət qədər diqqət yetirməməsini diqqətə çatdırmaqla, işğal altındakı ərazilərdə transmilli cinayətkarlığın güclənməsini, bəşəriyyət üçün yeni təhlükə mənbəyinə çevrilmə təhlükəsini vurğulayır, belə bir vəziyyətdə dünya birliyinin nümayiş etdirdiyi

laqeydliyin daha böyük təhlükələrə gətirəcəyindən narahatlığını bildirirdi.

Azərbaycan Prezidenti BMT Baş Məclisinin 59-cu sessiyasındakı çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə dövlətimizin mövqeyini bir daha açıqladı. BMT Təhlükəsizlik Şurasının fəaliyyətinə iradlarını bildirdi, «Beynəlxalq qurumun bir çox hallarda problemə qeyri-konstruktiv münasibəti münaqişənin aradan qaldırılmasına, sülhün əldə olunmasına deyil, əksinə, Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları irəli sürməsinə, ümumilikdə, regionda vəziyyətin daha da gərginləşməsinə zəmin yaradır. Belə ki, Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunduğu gündən etibarən dünya birliyi ölkələrini Ermənistanın yeritdiyi işğalçılıq, soyqırımı və etnik təmizləmə siyasətinin qarşısını almağa, dövlətimizin beynəlxalq hüquq normalarına əsasən təsbit olunmuş hüquqlarının, məcburən daimi yaşayış yerlərini tərk etmiş vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsində konstruktiv mövqe tutmağa çağırsa da, beynəlxalq qurumların fəaliyyətsizliyi üzündən heç bir nəticə alınmamışdır. Halbuki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünün, onun dövlət sərhədlərinin pozulmasının yolverilməz olduğu açıq göstərilmişdir»[302].

İlham Əliyev çıxışında münaqişənin hələ də həll olunmamasının əsas səbəbini açıqlayarkən beynəlxalq təşkilatların laqeydliyini açıq tənqid etmişdir: «Aydın məsələdir ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT-in və onun Minsk qrupunun problemə passiv və laqeyd münasibət göstərdiyi şəraitdə Ermənistan işğalçılıq əməllərindən və destruktiv mövqeyindən əl çəkməyəcəkdir».[303]

2005-ci il yanvarın 3-də Prezident İlham Əliyev BMT-nin TŞ-nın iclasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində proseslərin

əlverişli istiqamətdə getməsinə nail olunduğunu və bu problemin Praqa prosesi əsasında həllində «yeni mərhələlərin» başlandığını bəyan etməklə, ATƏT-in Minsk qrupunun həmsədrlərinə Avropanın 4 dövlətindən – Almaniya, İtaliya, İsveçrə və Finlandiyanın ekspert, siyasətçi və diplomatlarının da qoşulmasının münaqişənin həlli sahəsində əhəmiyyətli olduğunu göstərdi.[304]

2005-ci il yanvarın 11-də Strasburqda AŞPA-nın Siyasi Komitəsində qurumun Dağlıq Qarabağ üzrə məruzəçisi Devid Atkinsonun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin real nəticələrini obyektiv əks etdirən hesabatı dinlənildi. Hesabatda Ermənistan Respublikasının işğalçı dövlət kimi tanınması məsələsinə bir daha toxunuldu. Atkinson beynəlxalq təşkilatların və ayrı-ayrı dövlətlərin iqtisadi inkişaf və inteqrasiya yolunda tıxac kimi duran Dağlıq Qarabağ probleminin birdəfəlik və ədalətli həlli istiqamətində beynəlxalq təşkilatlara, konkret olaraq, ATƏT-in Minsk qrupuna səmərəli kömək etmək əzmində olduğunu bildirdi. Bundan sonra baş verən Varşava görüşü ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin, habelə prezidentlərin xüsusi nümayəndələrinin ardıcıl danışıqlar aparması mühüm bir mərhələ oldu. Amerika Birləşmiş Ştatlarının dövlət katibi Kolin Pauell Azərbaycanın xarici işlər nazirinə göndərdiyi cavab məktubunda yazırdı: «Birləşmiş Ştatlar münaqişənin sülh yolu ilə həllinə sadiqdir və bu məqsədlə ATƏT-in Minsk qrupu çərçivəsində və daha geniş diplomatik səviyyədə fəal işimizi davam etdirəcəyik»[305].

Rusiya Federasiyası XIN-in mətbuat və informasiya departamentinin bu proseslə bağlı məlumatında isə deyilirdi: «Azərbaycan və Ermənistan təmsilçiləri beynəlxalq *egida* altında keçən məsləhətləşmələr zamanı Qarabağ münaşiqəsi ilə bağlı yaranmış vəziyyətin bütün aspektlərini nəzərdən keçirir. Onların sırasında qoşunların çıxarılması, ərazilərin

silahsızlaşdırılması, beynəlxalq təminat, Dağlıq Qarabağın statusu və digər məsələlər var. Hər iki tərəf Cənubi Qafqaz regionunda gərginliyin azaldılması istiqamətində səylər göstərməkdə maraqlı olduğunu nümayiş etdirir»[306].

Artıq Prezident İlham Əliyevin müəyyən etdiyi xəttə əsaslanan Azərbaycan diplomatiyası ölkəmizin həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında daha da fəallaşdı. Bu diplomatik fəallıq ardıcıl və sistemli fəaliyyətin həyata keçirilməsi ilə müşayiət olunmağa başladı. Ermənistanın beynəlxalq hüquq normaları və prinsiplərinə məhəl qoymayan işğalçı dövlət olması faktı bir çox dünya dövlətləri tərəfindən qəbul edildi. Bu da Ermənistanın siyasi mövqelərinə ciddi zərbə vurdu. Beynəlxalq təşkilatlar münaqişənin həlli ilə bağlı fəaliyyətini xeyli dərəcədə gücləndirdi. Dünyanın ən aparıcı beynəlxalq təşkilatları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə daha çox diqqət ayırmağa başladı. BMT, ATƏT, Avropa Şurası, Avropa Birliyi, İKT kimi nüfuzlu beynəlxalq qurumlar problemin ərazi toxunulmazlığı prinsipi əsasında həllinə üstünlük verdi.

2006-cı il noyabrın 8-də NATO-nun baş katibi Yaap de Hoop Sxefferin Prezident İlham Əliyevlə görüşü zamanı rəhbərlik etdiyi təşkilatın Cənubi Qafqazdakı dövlətlərin ərazi bütövlüyünü və suverenliyini tanıdığını vurğulanması aparılan uğurlu siyasətin davamını göstərdi. 2006-cı ilin dekabrında isə ABŞ Prezidenti Corc Buş Azərbaycan hökumətinin Dağlıq Qarabağ münaqişəsinə dair siyasi xəttini bəyəndiyini bildirirdi.

Prezident İlham Əliyevin apardığı ardıcıl siyasət nəticəsində 2006-cı il bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycan diplomatiyasının fikirləri xarici dövlətlər üçün daha prioritet oldu. BMT-nın Baş Məclisində Azərbaycan torpaqlarının işğal edilməsi faktı sənədlərdə əksini tapdı. *Qondarma* Qarabağ Respublikası seçkiləri beynəlxalq qurumlar tərəfindən

ciddi qəbul edilmədi, belə bir qurumun tanınmaması prinsipi öz ənənəsini saxladı.

Prezident İlham Əliyevin bu məsələyə dair fikri belə olmuşdur: «Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, əfsuslar olsun ki, 2007-ci ildə öz həllini tapmadı. Amma günah bizdə deyil, günah Ermənistanın qeyri-konstruktiv mövqeyindədir. Biz danışıqlara hazırıq və bu danışıqları aparırıq. Baxmayaraq ki, danışıqların hələ heç bir nəticəsi yoxdur. Sadəcə olaraq, biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək, beynəlxalq hüquq əsasında həll edək. Əfsuslar olsun, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi, işğalçı siyasəti imkan vermədi ki, biz 2007-ci ildə bu məsələni həll edək. ...

Bizim prinsipial mövqeyimiz günü-gündən daha da çox beynəlxalq dəstək qazanır. Eyni zamanda, bir daha demək istəyirəm ki, biz danışıqlar prosesini bu istiqamətdə davam etdirəcəyik»[307].

Azərbaycan Respublikasının Prezidenti 2007-ci il iyunun 25-də İstanbulda QİƏT-in 15 illiyinə həsr edilmiş zirvə görüşündəki çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunaraq demişdir: «Məsələnin həll olunmaması bölgədə gərginliyin artmasına gətirib çıxarır. Bölgədə sülh bərqərar olunmur. Müvəqqəti atəşkəs mövcuddur, o da ki, çox həssasdır. Mən düşünürəm ki, Ermənistan da başa düşməlidir ki, biz artıq orta əsrlərdə yox, XXI əsrdə yaşayırıq və XXI əsrin əlamətləri hər bir ölkə üçün əsas olmalıdır. Biz istəyirik ki, bölgədə sülh olsun. Biz istəyirik ki, beynəlxalq hüquq normaları təmin edilsin. Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir. Mən bu fürsətdən istifadə edib dövlət və hökumət başçılarının diqqətini bir daha bu məsələyə çəkmək istəyirəm. Çünki bu məsələnin həll olunmaması həm bizim üçün, həm bütün region üçün, həm də regionda yaranan və güclənən əməkdaşlıq üçün çox böyük təhlükə mənbəyidir»[308].

İlham Əliyev 2007-ci il dekabrın 19-da Prezident sarayında Moldavanın «Kanal-4» televiziyasına müsahibə verərkən müxbirin «Qarşınızda çox kəskin şəkildə duran Qarabağ probleminin həlli məsələsində Avropa İttifaqından dəstək gözləyirsinizmi və əgər gözləyirsinizsə, bu dəstək nədən ibarət olmalıdır?» sualına cavabında demişdir: «Bu gün biz münaqişənin həlli məsələsində bütün dünya birliyi tərəfindən tam siyasi dəstək alırıq. Dünya birliyi, o cümlədən Avropa İttifaqı və bilavasitə tənzimləmə ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri – Rusiya, Fransa, ABŞ bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə birmənalı şəkildə tərəfdar olduqlarını bildirir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi tərəfindən, BMT tərəfindən tanınmışdır və bu məsələ bizim apardığımız danışıqların mövzusu deyildir. Bu mənada biz Avropa İttifaqı tərəfindən də siyasi və mənəvi dəstək alırıq. Bu, yeni qonşuluq siyasəti barədə Avropa İttifaqı ilə imzaladığımız sənəddə öz əksini tapmışdır. Bu başqa məsələdir ki, hələlik bu dəstək tənzimləmə üçün zəruri tədbirlərin, daha dəqiq desək, Ermənistan dövləti tərəfindən Azərbaycana qarşı aparılmış etnik təmizləmənin nəticələrinin aradan qaldırılması, bütün qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və beləliklə, münaqişənin tənzimlənməsi tədbirlərinin praktik şəkildə həyata keçirilməsinə çevrilməmişdir. Görünür, burada xalis siyasi, diplomatik bəyanatlar kifayət deyildir. Təəssüf ki, təcavüzkar dövlət olan Ermənistan iyirmi birinci əsrdə özünü orta əsrlər dövrünün deyil, iyirmi birinci əsrin reallıqlarına uyğun şəkildə aparmaq barədə dünya birliyinin çağırışlarına hələlik məhəl qoymur. Təəssüf ki, ermənilərin bu məsələyə yanaşmasında məhz orta əsrlər üçün səciyyəvi olan münasibət müşahidə olunur. Bu, qeyri-müəyyənliyə aparan yoldur, onlar heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına nail ola bilməyəcəklər. Dünya

birliyi heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaqdır və Azərbaycan heç vaxt buna razılıq verməyəcəkdir. Münaqişənin həlli yolları üzdədir, bu yollar bütün ölkələr üçün, o cümlədən Moldova üçün də eynidir. Bizim üzləşdiyimiz problemlər təcavüzkar separatizmdir. Dağlıq Qarabağ, Dnestryanı bölgə, Abxaziya, Cənubi Osetiya problemlərinin kökləri eyni, səbəbləri eyni və təəssüf ki, nəticələr də eynidir. Buna görə də onlar məhz beynəlxalq hüquq prinsipləri əsasında həll olunmalıdır. Ümidvaram ki, Ermənistanda sağlam düşüncə üstün gələcək və ermənilər yaranmış vəziyyətdən, beynəlxalq praktikanın reallıqlarından və regionda qüvvələr nisbətinin dəyişməsi reallıqlarından düzgün nəticə çıxaracaqlar»[309].

ATƏT-in Minsk qrupunun təşəbbüsü ilə 2007-ci il Madrid danışıqları Azərbaycan Respublikasının xarici siyasətinin uğurlu göstəricisi və Prezident İlham Əliyevin xarici siyasətinin uğuru kimi qiymətləndirilməlidir.[310]

2008-ci il martın 14-də BMT Baş Məclisində Azərbaycan Respublikasının ərazi bütövlüyü bir daha təsdiqləndi.

İlham Əliyev Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında demişdir: «Bütün beynəlxalq təşkilatlar, dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın haqq işini dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır və orada bilavasitə göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. ATƏT-in qərarları, İslam Konfransı Təşkilatının çoxnömrəli qətnamələri, Avropa Parlamenti, Avropa Şurası kimi təşkilatların qərar və qətnamələri məsələnin ədalətli və beynəlxalq hüquq normalarına uyğun şəkildə həll olunmasını tələb edir. Ancaq əfsuslar olsun ki, bu günə qədər bu məsələ ilə bağlı nəticə yoxdur». [311]

İlham Əliyevin bütün çıxışlarında Dağlıq Qarabağ probleminin həllindən bir an da kənarlaşmayacağını, Qarabağ

torpaqlarının azad edilməsi üçün bütün vasitələrdən istifadə ediləcəyini, hətta hərbi yolla həll edilə biləcəyini vurğulaması, müdafiədən hücuma keçməyin vaxtı çatdığını bildirməsi təsadüfi deyil ki, bütövlükdə Azərbaycan diplomatiyası üçün uğurlu olmuşdur. Son illər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycan tərəfinin fikirləri xarici dövlətlər üçün daha prioritet olmuşdur. Qondarma Dağlıq Qarabağ Respublikasında keçirilmiş referendumun beynəlxalq təşkilatlar tərəfindən tanınmaması, BMT-nın Baş Assableyasında Azərbaycan torpaqlarının işğal edilməsi faktının sənədlərdə əksini tapması, Azərbaycanın Qarabağ bölgəsində ermənilər tərəfindən törədilmiş yanğınlar haqqında sənədlərin ATƏT-də qəbul edilməsi və bu quruma daxil olan dövlətlərə göndərilməsi üçün qərarın qəbul edilməsi müsbət hal kimi qiymətləndirilir.

Beləliklə, Prezident İlham Əliyevin böyük qətiyyətlə apardığı xarici siyasət Azərbaycanın milli maraqlarına tam cavab verməklə, respublikanın beynəlxalq aləmdə daha da tanınmasına xidmət edir. Azərbaycanın malik olduğu iqtisadi potensial, ölkə rəhbərliyi tərəfindən həyata keçirilən kompleks islahatların respublikamızın sülh, əməkdaşlıq və tərəqqi mərkəzinə çevrilməsi, xalqımızın milli maraq və mənafelərini daha etibarlı səviyyədə təmin etməsi, Azərbaycanın sürətli inkişaf yolunda olması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə ediləcəyinə böyük inam yaradır.

Azərbaycanın iqtisadi potensialının güclənməsi, hərbi büdcəsinin ildən-ilə artması danışqlar prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması prosesini gücləndirir. Bir daha qeyd etmək lazımdır ki, Ermənistan isə bunun müqabilində münaqişənin həlli ilə bağlı siyasi arenada heç bir irəliləyişə nail olmamışdır.

Dağlıq Qarabağın azərbaycanlı icmasının mərkəzi qərargahının açılışında İlham Əliyev demişdir: «Bu gün biz tam

əminliklə deyə bilərik ki, artıq Azərbaycan Ermənistanın və erməni lobbisinin yalançı təbliğatına böyük zərbə vura bilmişdir. Bu gün dünyanın bütün əsas beynəlxalq təşkilatları qəbul edilmiş qərarları ilə Azərbaycanın haqq işini dəstəkləyir. BMT, Avropa Parlamenti, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, digər təşkilatlar müxtəlif dövrlərdə münaqişə ilə bağlı çox tutarlı və həqiqəti əks etdirən qətnamələr, qərarlar qəbul etmişdir ki, bu qərarlar münaqişənin həlli üçün əsasdır». [312]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da 2011-ci il Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağındakı çıxışında ölkənin ən ağrılı məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin dövlətin xarici siyasətində əsas yer tutduğunu bir daha vurğulamışdır: «Tarix elmləri ilə bağlı olan məsələlər daim diqqət mərkəzindədir. Biz bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Çünki əfsuslar olsun ki, dünya birliyi demək olar bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Biz təşəbbüslərimiz, tarixə müraciətimiz və konkret dəlillərlə, faktlarla mövqeyimizi əsaslandırmışıq ki, İrəvan Ermənistanın paytaxtı kimi Azərbaycan dövləti tərəfindən 1918-ci ildə verilmişdir. İrəvan xanlığında yaşayan əhalinin əksəriyyəti azərbaycanlılar idi. Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zən-

gəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Doğma torpağımızın bir parçası Ermənistana birləşdirildi. Bunun çox böyük mənfi nəticəsi oldu. Bu, bütün türk dünyasını parçaladı. Bu gün türk dünyası coğrafi baxımdan parçalanıb. Düzdür, biz siyasi addımlarla, iqtisadi təşəbbüslərlə, türkdilli dövlətlərin zirvə görüşlərinin keçirilməsi ilə,- mən TÜRKSOY-un fəaliyyətini də qeyd etməliyəm, - çalışırıq və çalışacağıq ki, bütün türk dünyasını birləşdirək, siyasi maraqları birləşdirək, iqtisadi sahədə daha da çoxtərəfli əməkdaşlıq aparılsın. Ancaq coğrafi cəhətdən bu gün türk dünyası parçalanıbdır. Yəni, bütün bu tarixi həqiqətlər işıq üzü görməlidir. Nəinki ölkə daxilində, eyni zamanda, xaricdə də bunu bilməlidirlər. Ona görə bu kitabların xarici dillərdə nəşri xüsusi məna daşıyır.

Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəli toponimlərdir. Şəhərlərin, kəndlərin adları. Hətta bunu Böyük Sovet Ensiklopediyasında da görmək mümkündür. O vaxt erməni şəhərlərinin adları və onların əski variantı yazılmışdı. Biz bütün bunları bilməliyik. Bu gün Ermənistan dövləti bizə qarşı ərazi iddiası ilə çıxış edir. Torpaqlarımız işğal altındadır. Dağlıq Qarabağ işğal altındadır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Erməni təbliğatı bütün dünyada bizə qarşı işə salınıbdır. Biz isə həqiqətləri çatdırmalıyıq ki, Xankəndi şəhəri Stepanakert deyil, Xankəndidir. Stepanakert quldur dəstəsinin rəhbəri Şaumyanın adına verilmişdir. Mən dəfələrlə bu barədə demişəm, əgər o yaşayış məntəqəsinin tarixi adı olsa idi, o tarixi adı ermənilər bərpa edərdilər. Bu, bizim torpağımızdır. Elmi araşdırmalar və elmi əsərlər, kitablar çox vacibdir. Mən çox şadam ki, bu istiqamətdə işlər gedir. Biz bu sahədəki işimizi daha da gücləndirməliyik, müasirləşdirməliyik. Bu məsələlərə nəinki alimlərimiz, hesab edirəm ki, ictimaiyyətin üzvləri də internet vasitəsilə fəal qoşulmalıdırlar. Nəzərə alsaq ki, həqiqət və tarixi ədalət bizim tərəfimizdədir, bu, bu

gün də lazımdır, gələcək üçün də.

Mən yenə də deyirəm, bu sahədəki işlərlə bağlı təşəbbüslər reallaşır. Bu, çox müsbət haldır. Hesab edirəm ki, bu məsələyə xüsusi diqqət göstərilməlidir. Biz həm bu məsələnin elmi tərəfindən, həm də təbliğatımızda bu amildən daha da geniş şəkildə istifadə etməliyik.» [313]

Ermənistan hökuməti Azərbaycan Respublikasına qarşı xəyanətkar çıxışları müxtəlif səpkilərdə davam etdirilsə də, Azərbaycan dövləti, onun Prezidenti İlham Əliyevin kəskin müqaviməti onların istəklərinin qarşısını alır. Hər an erməni siyasətinin mahiyyəti açılır, məqsədləri ifşa olunur: «... Azərbaycan mədəniyyəti, incəsənəti o qədər zəngindir ki, başqa tərəflərdən bizim milli sərvətimizi özününküləşdirmək üçün cəhdlər göstərirlər. Bu təkcə ədəbiyyatla, yaxud da ki, Nizaminin əsərləri ilə bağlı olan məsələ deyildir. Bizim musiqimiz ermənilər tərəfindən utanmadan oğurlanır. Dahi Üzeyir bəyin əsərləri özününküləşdirilir. Bizim milli mətbəximiz yenə də ermənilər tərəfindən oğurlanır. Onlar bunu müxtəlif yollarla erməni mətbəxi kimi təqdim etməyə çalışırlar. Halbuki, milli yeməklərimizin adları da Azərbaycan sözləridir. Əgər ermənidən soruşsan, dolma ermənicə nə deməkdir, onu deyə bilməz. Necə ki, Qarabağ deyəndə, onlar üçün bu, sadəcə bir sözdür, onu anlamırlar. Çünki bu, erməni sözü deyildir. Ona görə də belə hərəkətlər, əlbəttə ki, bizi çox üzür.

Biz öz milli, mədəni irsimizi qorumalıyıq. Bunun üçün təbliğat işləri daha da güclü olmalıdır. Bizim imkanlarımız daha da geniş olmalıdır. Baxın, indi demək olar ki, bütün dünyada Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir, 50-dən yuxarı ölkədə Azərbaycan səfirlikləri fəaliyyətə başlamışdır və uğurla fəaliyyət göstərirlər. Yəni, indi bizim təbliğat imkanlarımız genişdir. Biz heç vaxt, tarix boyu başqa xalqın milli dəyərinə, yaxud da ki, milli irsinə göz dikməmişik. Ancaq əfsuslar olsun ki, bizə qarşı həmişə belə cəhdlər olub. Yenə də deyirəm, bunun əsas səbəbi Azərbaycan

xalqının istedadı və mədəniyyətimizin zəngin olmasıdır. Ancaq biz əlbəttə ki, mədəni irsimizi qoruyacağıq, bütövlükdə müstəqilliyimizi qoruyacağıq, müstəqil seçimimizi qoruyacağıq. Əminəm ki, Azərbaycanın inkişafı çox parlaq, çox uğurlu olacaqdır. Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri sırasına daxil olacaqdır». [314]

Fəaliyyəti dövründə Prezident İlham Əliyev ölkəmizin ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məqsədilə danışıqlar aparmaq üçün 17 dəfə Ermənistanın dövlət başçıları (12 dəfə R.Koçaryanla, 5 dəfə S.Sarkisyanla) ilə görüşmüşdür. Münaqişənin sülh yolu ilə həlli məsələsi ilə əlaqədar ATƏT-in Minsk qrupunun ABŞ, Fransa və Rusiya Federasiyasından olan həmsədrlərini 47 dəfə qəbul etmişdir. Bütün bunlar münaqişənin həllinin sürətlənməsinə xidmət etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qarabağ regionuna səfəri zamanı bəyan etmişdir: «Mən şübhə etmirəm ki, biz Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olacağıq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək». [315]

Bərdə zəhmətkeşləri ilə görüşündə Azərbaycan Respublikasının və Ermənistanın Respublikasının inkişaf səviyyəsinin müqayisəedilməzliyini diqqətə çatdıran Prezident demişdir: «Biz irəliyə gedirik, onlar isə geriyə gedir, tənəzzülə uğrayır. Bizim iqtisadiyyatımız artır, onların iqtisadiyyatı faktik olaraq iflic vəziyyətindədir. Bizdə əhali artır, orada artıq demoqrafik fəlakət yaşanır, demək olar ki, həm təbii artım yoxdur, həm də ölkədən kütləvi surətdə köç gedir. Ancaq onların rəsmi statistikasının məlumatlarına görə, ilin birinci yarısında təqribən 70-80 min insan ölkəni həmişəlik tərk edib. Nəyə görə? İnamsızlığa görə. İş yox, ədalət yox, onların işğalçı siyasəti, ilk növbədə, özlərinə böyük zərbə vurur. Biz ümid edirik ki, onlar bunu, nəhayət, dərk edəcək və torpaqlarımızı sülh yolu ilə boşaldacaqlar. Əgər dərk etsələr, ilk

növbədə öz xalqına tarixi xidmət göstərmiş olarlar. Dərk etməsələr, mən tam əminəm ki, biz o torpaqları istənilən yolla qaytaracağıq, o torpaqlara qayıdacağıq, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa ediləcək».[316]

Prezident Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinə də diqqət çəkərək onu tarixi ədalətsizlik adlandırıb: «20 ildir ki, Ermənistan bütün sülh danışıqlarının mərhələlərində gedən ümidverici meyllərə balta vurur. Razılaşmaya bir balaca yaxınlaşarkən müxtəlif bəhanələrlə ya danışıqlardan yayınmaq üçün cəhd edir, yaxud ümumiyyətlə danışıqlardan imtina edir. Ona görə 20 ildir köçkün soydaşlarımız əziyyət çəkirlər. Bu, əlbəttə ki, xalqımız üçün çox ağır bir haldır. Ancaq eyni zamanda tarix var və tarix qarşısında məsuliyyət var. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və Azərbaycan torpağı kimi də dünya birliyi tərəfindən tanınır. Əlbəttə, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində olmalıdır, başqa variant nəzərdən keçirilmir və biz bu varianta nail olmaq üçün çalışmalıyıq. Bəlkə də danışıqlar bir müddət də aparıla bilər, mən bunu istisna etmirəm. Ancaq danışıqların sonunda biz o torpaqlara qayıdacağıq».[317]

Prezident İlham Əliyev demişdir ki «Mən, əlbəttə, istəyirəm ki, biz bunu qan tökülmədən edək. Ancaq biz istənilən varianta hazır olmalıyıq və hazırıq. Bu gün nəinki güclü iqtisadiyyatımız, güclü ordumuz var. Ordu potensialı da, insan potensialı da, vətənpərvərlik hissləri də çox güclüdür».[318]

Prezident İlham Əliyev «Biz ermənilər beynəlxalq müstəvidə artıq məğlub etmişik» deyərək, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsinin Ermənistanın acı məğlubiyyəti olduğunu da vurğulayıb: «Qoşulmama Hərəkatında 120 ölkə artıq Azərbaycanın ərazi bütövlüyünü nəinki dəstəkləyir, münaqişənin həllini yalnız ərazi bütövlüyü prinsipi əsasında görür. Bütün digər beynəlxalq təşkilatlarda bizim nüfuzumuz artır. Azərbaycan bölgədə söz sahi-

bidir və biz nüfuzumuzdan, imkanlarımızdan bundan sonra da istifadə edəcəyik ki, Ermənistanı daha da böyük təcridə salaq. Onlar onsuz da bütün beynəlxalq layihələrdən təcrid edilib və biz bu siyasəti əlbəttə ki, gələcəkdə də davam etdirəcəyik. Biz daha güclü olmalıyıq. Daha güclü olsaq, məsələ öz həllini tapar».[319]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin ən ağır problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll edilməməsinin əsas səbəbinin son zamanların prosesləri əsasında təhlil edərək gəldiyi nəticəni belə ifadə etmişdir: "Bizim düşmənimiz erməni lobbisidir"[320]. Bu, indiki mərhələdə, erməni lobbisinin Ermənistan Respublikasının və onun havadarları olan bəzi dövlətlərin antiazərbaycan fəaliyyətini üstələməsinə işarədir.

ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN XRONOLOGİYASI (1987-1994-CÜ İLLƏR)

1987-ci il

İyun-iyul. Ermənilər Xankəndi şəhərində ilk separatçı çağırışlara - antiazərbaycan vərəqələr yaymaqla Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün təbliğata başlamışlar.

Oktyabr. Ermənistanın paytaxtı İrəvan şəhərində «Qarabağ komitəsi» ilk açıq mitinq keçirmişdir. Komitəyə İqor Muradyan və Levon Ter-Petrosyan başçılıq edirdilər.

16 noyabr. M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbeqyan Parisdə "Humanite" qəzetinə müsahibəsində, Dağlıq Qarabağın Ermənistana verilməsi ilə əlaqədar M.Qorbaçovu razı saldığını bildmişdir.

1988-ci il

13 fevral. Ermənilər Xankəndidə vilayət partiya komitəsinin binası qarşısında ilk mitinq keçirmişlər. 400-ə qədər adamın iştirak etdiyi mitinqə «Krunk» terrorçu təşkilatının sədri Arkadi Manuçarov rəhbərlik edirdi.

19 fevral. İrəvanda antitürk mitinqi keçirilmişdir. Mitinqdə «Ermənistanı türklərdən təmizləməli», «Ermənistanda ancaq ermənilər yaşamalıdır» çağırışları səslənmişdir.

19 fevral. Bakıda Ermənistandakı antiazərbaycan çıxışları əleyhinə «Qarabağ bizimdir!» şüarları ilə ilk yürüş keçirilmişdir.

20 fevral. Ermənilər Xankəndidə vilayət partiya komitəsinin binası qarşısında 3 min nəfərin iştirak etdiyi növbəti mitinq keçirirmişlər. Azərbaycan SSR DQMV XDS-nin növbədənkənar sessiyası «Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-nin tərkibinə verilməsi barədə təq-

dimat haqqında» qərar qəbul etmişdir.

22 fevral. Əsgəran qəsəbəsində azərbaycanlıların dinc yürüşü erməni silahlıları tərəfindən güllələbaran edilmişdir. 2 nəfər yeniyetmə – Əli Hacıyev və Bəxtiyar Quliyev öldürülmüş, 19 nəfər yaralanmışdır.

23 fevral. Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi Boris Gevorkov vəzifəsindən azad edilmış, onun yerinə antiazərbaycan çıxışları ilə daha çox fərqlənən Henrix Poqosyan "seçilmişdir".

28-29 fevral. Sumqayıtda ermənilər tərəfindən təxribat xarakterli qırğınlar törədilmiş, 32 nəfər - 26 erməni, 6 azərbaycanlı öldürülmüşdür.

14 may. Şuşada azərbaycanlılar 5 min nəfərin iştirak etdiyi mitinq keçirmişlər. Mitinqdə erməni silahlılarının hücumlarına son qoyulması tələb edilmişdir.

16 may. Xankəndidə bir qrup azərbaycanlını döyərək maşına yığmış və Şuşaya göndərmişlər.

18 may. Bakıda Dağlıq Qarabağ ermənilərinin separatçı hərəkətlərinə, Ermənistandan gələn emissarların oradakı fəaliyyətinə son qoyulması tələbləri ilə mitinq keçirmişlər.

15 iyun. Ermənistan SSR Ali Soveti DQMV XDS-nin xahişi ilə əlaqədar Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə keçməsi haqqında qərar qəbul etmişdir.

24 iyun. Arkadi Volski Moskvanın xüsusi nümayəndəsi kimi Dağlıq Qarabağa göndərilmişdir.

18-21 sentyabr. Xankəndidə azərbaycanlılar yaşayan evlər yandırılmış, adamlar döyülmüş və Şuşaya göndərilmişdir.

21 sentyabr. Dağlıq Qarabağda və Ağdam rayonunda xüsusi fövqəladə vəziyyət elan olunmuşdur.

22 sentyabr. İrəvan, Leninakan, Abovyan, Eçmiədzin və digər şəhərlərdə Qarabağın Ermənistana birləşdirilməsi, azərbaycanlıların Ermənistandan çıxarılması tələbləri ilə kütləvi tətillər, mitinqlər keçirilmişdir.

04 oktyabr. Xankəndi və Xocalı şəhərlərində azərbaycan-

lılara basqınlar edilmiş, onlar döyülmüş və köçüb getmələri tələb olunmuşdur.

18 noyabr-5 dekabr. Bakıda Azadlıq meydanında fasiləsiz izdihamlı mitinqlər keçirilmişdir. Mitinq iştirakçıları ermənilərin Dağlıq Qarabağdakı vəhşiliklərinə, Ermənistanın Dağlıq Qarabağa müdaxilələrinə son qoyulmasını tələb etmişlər.

21 noyabr. Bakıda və Gəncədə iğtişaşlar baş vermiş, 3 hərbçi öldürülmüş, xeyli adam yaralanmışdır. Bakıda, Naxçıvanda və Gəncədə fövqəladə vəziyyət elan edilmişdir.

24 noyabr. Ermənistanın ərazisindən Azərbaycanın Qubadlı rayonunun Eyvazlı, Qədirli, Davudlu kəndlərinə basqınlar edilmiş, Eyvazlı kəndi tamamilə yandırılmışdır.

Noyabr. Ermənistanın şimal-şərqindəki Vartan kəndində 12 azərbaycanlı diri-diri yandırılmışdır.

Noyabrın sonu. Ermənistanın Quqark və Spitak rayonlarında 70 nəfər azərbaycanlı qətlə yetirilmişdir. Təkcə Gözəldərə kəndində 21 nəfər, o cümlədən 6 qadın, 3 körpə uşaq öldürülmüşdür.

8 dekabr. Ermənistanda zəlzələdən zərər çəkənlərə yardım məqsədi ilə Azərbaycandan 80 peşəkar xilasedici, mexanikləşdirilmiş dəstə Spitaka yola düşmüşdür. Onlar bir neçə gün ərzində 63 nəfəri xilas etmişlər.

10 dekabr. Zəlzələ ilə əlaqədar olaraq Yuqoslaviyadan göndərilən təyyarə Belqrad-Ankara-İrəvan marşrutu ilə Ermənistana uçmuşdur. Ankaradan uçduğu üçün ermənilər onu türk təyyarəsi hesab edərək qəzaya uğratmışlar. Təyyarənin 6 nəfərlik şəxsi heyəti həlak olmuşdur.

11 dekabr. Zəlzələ ilə əlaqədar olaraq Azərbaycanın xilasedici dəstəsi Ermənistanın Leninakan (indiki Gümrü) şəhərinə uçmuşdur. Ermənilər yanlış koordinat verərək təyyarəni qəzaya uğratmışlar. 69 nəfər xilasedici və 4 nəfər ekipaj üzvü həlak olmuşdur. Yalnız bir nəfər xilasedici salamat qalmışdır. Onu xəstəxanaya yerləşdirmiş, lakin az sonra

ermənilər mitinq edərək onun xəstəxanadan çıxarılmasına nail olmuşlar.

15 dekabr. SSRİ rəhbərliyi Azərbaycan və Ermənistan rəhbərlərinə bir sıra qanunsuz hərəkətlərə görə öz respublikalarında vəzifəli şəxslərin cəzalandırılması barədə tapşırıq vermişdir. Bir ay ərzində Azərbaycanda ermənilərı guya sıxışdırdıqlarına görə 2532 nəfər məsuliyyətə cəlb olunmuş, 222 nəfər işdən çıxarılmış, 65 nəfər partiya və komsomoldan xaric edilmişdir. Bu tədbirlərdən sonra 19 min nəfərdən çox erməni Azərbaycana qayıtmışdır. Ermənistanda isə həmin vaxt ərzində 13 nəfər partiyadan xaric edilmiş, 24 nəfər vəzifəsindən çıxarılmış, 69 nəfərə partiya cəzası verilmişdir. Ermənistana bir nəfər də olsun azərbaycanlı qayıtmamışdır.

25 dekabr. Ermənistandan azərbaycanlının deportasiya edilməsi əsasən başa çatdırılmışdır.

1989-cu il

12 yanvar. SSRİ Ali Soveti tərəfindən Dağlıq Qarabağ ərazisində Xüsusi İdarəetmə Komitəsi yaradılmışdır. Komitəyə Moskvanın nümayəndəsi Arkadi Volski rəhbər təyin edilmişdir. Komitənin tərkibinə 5 rus, 2 erməni və 1 azərbaycanlı daxil idi.

3 may. Xankəndi şəhərində ermənilərin tətili başlanmışdır. Onlar vilayətdə Xüsusi İdarəetmə Komitəsinin ləğv edilməsini, vilayət partiya və icraiyyə komitələrinin fəaliyyətinin bərpa olunmasını tələb etmişlər.

7 iyul. Xankəndi yaxınlığındakı azərbaycanlılar yaşayan Kərkicahan qəsəbəsi yandırılmışdır.

8 iyul. Xankəndidə «Miatsum» hərəkatının təsis yığıncağı keçirilmiş və Robert Koçaryanı hərəkata sədr seçmişlər.

13 iyul. Mardakert (Ağdərə) rayonundakı Çapar kəndinin 50 erməni sakini Kəlbəcər rayonunun Ağdaban kəndinə basqın etmişdir.

16 iyul. Azərbaycan Xalq Cəbhəsi yaradılmış və Əbülfəz Elçibəy sədr seçilmişdir.

29 iyul. Ermənilərin davamlı hücumlarının nəticəsi olaraq, Azərbaycanın mərkəzindən Naxçıvana gedən qatarların hərəkəti tamamilə dayandırılmışdır. Naxçıvan Muxtar Respublikası blokada vəziyyətinə düşmüşdür.

16 avqust. Xankəndidə «DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı» deyilən yığıncaq keçirilmiş, Milli Şura və Rəyasət heyəti yaradılmışdır. «Qurultay» Azərbaycan SSR-in tərkibində muxtar vilayət kimi Dağlıq Qarabağın statusunu tanımaqdan imtina etdiyini, Vilayətdə Azərbaycan SSR Konstitusiyasının və respublikanın digər qanunlarının qüvvəsinin dayandırıldığı bildirilmiş, Dağlıq Qarabağ «müstəqil İttifaq ərazisi» elan edilmişdir.

15 sentyabr. Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağdakı Xüsusi İdarəetmə Komitəsi ləğv olunmuşdur.

16 sentyabr. Ermənilər Tibilisi-Bakı avtobusunu partlatmışlar, 5 nəfər ölmüş, 25 nəfər yaralanmışdır.

21 sentyabr. Xankəndidə yaşayan azərbaycanlılar döyülərək şəhərdən qovulmuşlar.

7 oktyabr. Erməni terrorçusu A.Abramyan tərəfindən Şuşanın Xəlfəliçay körpüsü partladılmışdır.

1 dekabr. Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqda qərar qəbul etmişdir.

6 dekabr. Azərbaycanın SSR Ali Soveti tərəfindən Dağlıq Qarabağ üzrə Respublika Təşkilat Komitəsi yaradılmış, Viktor Polyaniçko sədr təyin edilmişdir.

31 dekabr. Araz çayı boyunca 137 km-lik məsafədə sərhəd qurğuları dağıdılmışdır.

1990-cı il

4 yanvar. Erməni terrorçusu Q.Sarkisyan Əsgəran-Ağdam körpüsünü partlatmışdır.

12 yanvar. Ermənistandan 500 nəfərlik silahlı dəstə vertolyotlarla Azərbaycanın Xanlar rayonunun Quşçu kəndinə gələrək onu dağıtmış, onlarca dinc sakini öldürmüşlər.

15 yanvar. SSRİ Ali Soveti Dağlıq Qarabağda və ətraf rayonlarda fövqəladə vəziyyət elan etmişdir.

18 yanvar. Keçmiş SSRİ Silahlı Qüvvələrinin Zaqafqaziya hərbi dairəsi 7-ci ordusunun hərbi hissələrinin iştirakı ilə Naxçıvan MR-in Şərur rayonunun Kərki kəndi ermənilər tərəfindən işğal edilmişdir.

20 yanvar. Sovet qoşunları Bakıya daxil olaraq qırğın törətmişlər. Rəsmi məlumatlara görə 131 nəfər həlak olmuş, 800-dən artıq adam yaralanmışdır.

5 fevral. 1987-ci ildən başlayan Ermənistandan azərbaycanlının vəhşiliklə çıxarılması prosesi başa çatmışdır.

18 fevral. Ermənilər Şuşa-Bakı avtobusunu partlatmışlar, 13 nəfər yaralanmışdır.

11 iyul. Ermənilər Tərtərdən Kəlbəcərə gedən maşın karvanına silahlı hücum etmişlər. 14 nəfər həlak olmuş, 35 nəfər yaralanmışdır.

10 avqust. Tibilisi-Ağdam avtobusu erməni terrorçuları A.Avanesyan və M.Tatevosyan tərəfindən partladılmışdır. 20 nəfər ölmüş, 30 nəfər yaralanmışdır.

10 avqust. Ermənistan terrorçuları tərəfindən Şəmkir-Gəncə avtomobil yolunda avtobus partladılmışdır. 17 nəfər həlak olmuş, 26 nəfər yaralanmışdır.

20 avqust. Ermənistan silahlı qüvvələri Qazax rayonunun Bağanis Ayrım kəndini işğal etmişlər. 5 nəfər kənd sakini öz evlərində diri-diri yandırılmışdır.

30 noyabr. Ermənistan terrorçuları tərəfindən Xankəndi yaxınlığında sərnişin avtobusu partladılmışdır. 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

15 dekabr. S.Babayanın terror qrupu Əsgəranda 3 nəfər azərbaycanlını qətlə yetirmişdir.

1991-ci il

9 yanvar. Dağıq Qarabağın Qaladərəsi kəndi yaxınlığında Laçın-Şuşa avtomobil yolunun altıncı kilometrliyində er-

məni quldurları «Molodyoj Azerbaydjana» qəzetinin xüsusi müxbiri Salatın Əsgərovanın və iki nəfər rus zabitinin olduğu avtomobili atəşə tutub, onları qətlə yetirmişlər.

14 yanvar. Azərbaycan SSR Ali Soveti Şaumyan (kənd) rayonunun ləğvi haqqında qərar qəbul etmişdir.

18 aprel. Erməni terrorçusu Q.Sarkisyan Xocavənd rayonunda 3 azərbaycanlı milis işçisini öldürmüşdür.

30 may. Erməni terrorçuları Moskva-Bakı qatarını partlatmışlar. 11 nəfər ölmüş, 22 nəfər yaralanmışdır.

19 iyun. Erməni terrorçuları Yevlax-Laçın yolunda avtomaşını partlatmışlar. 11 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

25 iyun. ABŞ Senatı ermənilərin Azərbaycan ərazisindən «zorla köçürülməsini» pisləyən qətnamə qəbul etmişdir.

27 iyun. «Qarabağ» adlı erməni terror təşkilatı Dağlıq Qarabağın Qaradağlı kəndinə hücum etmişdir, 6 nəfər azərbaycanlı öldürülmüşdür.

31 iyul. Erməni terrorçuları tərəfindən Moskva-Bakı sərnişin qatarı partladılmış, 16 nəfər ölmüş, 20 nəfər yaralanmışdır.

2 avqust. Dağlıq Qarabağın Hadrut rayonunun Dolanlar kəndində ermənilər tərəfindən avtomaşın partladılmışdır, 4 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

8 avqust. Ermənistanda azərbaycanlıların yaşadıqları sonuncu kənd - Nüvədi boşaldılmış, əhalisi döyülərək qovulmuşdur.

21 avqust. Dağlıq Qarabağın Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında avtobus partladılmışdır, 2 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

23 avqust. Şuşa-Cəmilli yolunda avtobus erməni terrorçuları tərəfindən atəşə tutulmuşdur, 4 nəfər həlak olmuş, 13 nəfər yaralanmışdır.

30 avqust. Azərbaycan müstəqilliyinin bərpa olunması haqda Bəyannamə ilə çıxış etmişdir.

2 sentyabr. Ermənilər «Dağlıq Qarabağ Respublikası» adlı qondarma qurumun yarandığını elan etmişlər.

5 sentyabr. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi yaradılmış, Valeh Bərşadlı nazir təyin edilmişdir.

8 sentyabr. Erməni terrorçuları Ağdam-Xocavənd avtobusunu atəşə tutmuşlar, 5 nəfər həlak olmuş, 34 nəfər yaralanmışdır.

8 sentyabr. Erməni terrorçuları Ağdam-Qaradağlı avtobusunu atəşə tutmuşlar, 8 nəfər həlak olmuş, 42 nəfər yaralanmışdır.

8 sentyabr. Ayaz Mütəllibov Azərbaycan Respublikasının ilk prezidenti seçilmişdir.

20-23 sentyabr. Rusiya Prezidenti B.N.Yeltsin və Qazaxıstan Prezidenti N.A.Nazarbayev İrəvan, Stepanakert, Gəncə və Bakıya səfər etmişlər.

21 sentyabr. Erməni terrorçuları Yevlax-Laçın yolunda avtomaşını partlatmışlar. 2 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

23 sentyabr. B.Yeltsin və N.Nazarbayevin təşəbbüsü ilə Şimali Qafqazın Jeleznovodsk şəhərində Azərbaycan, Ermənistan, Rusiya və Qazaxıstan prezidentlərinin görüşü keçirilmişdir.

18 oktyabr. Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edilmişdir.

19 oktyabr. Dağlıq Qarabağın Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında ermənilər tərəfindən avtomaşın partladılmışdır. 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

20 noyabr. Erməni terrorçuları tərəfindən Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında «Mİ-8» vertolyotu vurulmuşdur. Vertolyotda olan bütün şəxslər: Azərbaycan Respublikasının Dövlət katibi T.İsmayılov, Baş nazirin müavini Z.Hacıyev, Prezidentin müşaviri M.Əsədov, Baş prokuror İ.Qayıbov, deputatlar V.Cəfərov, V.Məmmədov, Prezident aparatının şöbə müdiri O.Mirzəyev, meliorasiya və su təsərrüfatı nazirinin 1-ci müavini Q.Nəmazəliyev, Dağlıq Qarabağın prokuroru İ.Plavski, Milli Təhlükəsizlik Nazirliyinin şöbə müdiri S.İvanov, Dağlıq Qarabağın milis rəisi general-mayor

V.Kovalyov, komendant N.Jinkin, dövlət katibinin köməkçisi R.Məmmədov, Azərbaycan televiziya və radiosunun əməkdaşları A.Mustafayev, A.Hüseynzadə, F.Şahbazov, müşahidəçilər: general-mayor M.Lukaşov və podpolkovnik V.Köçərov, Qazaxstan daxili işlər nazirinin 1-ci müavini S.Serikov və ekipaj üzvləri həlak olmuşlar.

26 noyabr. Azərbaycan parlamenti Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv olunması haqda qanun qəbul etmişdir.

27 noyabr. SSRİ Dövlət Şurası Azərbaycan rəhbərliyindən DQMV-nin ləğvi ilə bağlı qərarın dəyişdirilməsini tələb etmişdir.

8 dekabr. Belarusun Brest şəhəri yaxınlığında (Belovejsk) Rusiya Federasiyası, Ukrayna və Belorus prezidentləri saziş imzalayaraq Müstəqil Dövlətlər Birliyinin yaratdıldığını elan etmişlər.

10 dekabr. Dağlıq Qarabağ ermənilərı qondarma referendum keçirmiş, «müstəqilliyə» səs vermişlər.

23 dekabr. Ermənilərin «Qarabağ» adlı terror təşkilatı Dağlıq Qarabağın Əsgəran rayonunun Meşəli kəndinə hücum etmişdir. 6 nəfər öldürülmüş, 15 nəfər yaralanmışdır.

26 dekabr. Şuşa şəhər sakini Süleyman Abbasov, onun hamilə həyat yoldaşı, yaşyarımında olan oğlu, qayınanası və onların getdikləri maşının sürücüsü Ağdam-Şuşa yolunda erməni terrorçuları tərəfindən qətlə yetirilmişlər.

27 dekabr. Ermənilər ağır texnikanın müşayəti ilə Xankəndi yaxınlığındakı Kərkicahan qəsəbəsinə hücum etmişlər. Mehman Hüseynovun başçılığı altında kəndin 22 nəfərdən ibarət müdafiə dəstəsi qeyri-bərabər döyüşə girmişlər. Səkkiz saat davam edən döyüşdə 70-dən çox erməni quldurı məhv edilmişdir.

28 dekabr. Erməni quldurları Kərkicahan kəndinə hücum zamanı Moskvanın «Mayak» radiostansiyasının xüsusi müxbiri Leonid Lazareviçi öldürmüşlər.

1992-ci il

Yanvar –Çexoslavakiya ATƏM-in sədrliyində Almaniyanı əvəz etmişdir.

8 yanvar. Erməni terrorçuları Krasnovodskdan Bakıya üzən gəmi bərədə partlayış törətmişlər. 25 nəfər ölmüş, 88 nəfər yaralanmışdır.

10 yanvar. Respublika Təşkilat Komitəsi Xankəndini tərk etmişdir.

15 yanvar. Kərkicahan qəsəbəsi işğal edilmişdir.

26 yanvar. Şuşa yaxınlığındakı Daşaltı kəndində Azərbaycan əsgərləri ermənilərin pusqusuna düşmüşlər, qeyri-bərabər döyüşdə 33 nəfər həlak olmuş, 36 nəfər yaralanmış, 34 nəfər itkin düşmüşdür.

28 yanvar. Ağdam-Şuşa marşurutu ilə uçan mülki vertolyot erməni terrorçuları tərəfindən vurulmuşdur. Əsasən qadın və uşaqlardan ibarət olan 41 nəfər sərnişin və 3 nəfər ekipaj üzvü həlak olmuşdur.

30 yanvar. Rusiya Federasiyası Xarici İşlər Nazirliyi Qarabağda münaqişənin kəskinləşməsi ilə bağlı bəyanat vermişdir.

30-31 yanvar. Praqada Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Nazirlər Şurasının ikinci iclası keçirilmişdir. Azərbaycan Respublikası və Ermənistan Respublikası ATƏM-in üzvü olmuşdur. ATƏM-in diplomatik missiyasının ATƏM-ə daxil olan MDB dövlətlərinə və Dağlıq Qarabağ münaqişə regionuna səfəri haqda qərar qəbul edilmişdir.

10-12 fevral. Malıbəyli və Quşçular kəndlərinin əhalisi erməni quldurlarının həmlələri nəticəsində böyük itki verərək kəndlərini tərk etməyə məcbur olmuşlar.

12-18 fevral. ATƏM-in diplomatik missiyası münaqişə regionuna səfər etmişdir.

13-17 fevral. Dağlıq Qarabağın Xocavənd rayonunun Qaradağlı kəndi əldən-ələ keçmiş, kəndin 92 nəfər müdafiəçisi və 54 nəfər sakini öldürülmüşdür. Ermənilər 117 nəfər

kənd sakinini girov götürmüş, onlardan 77 nəfərini qətlə yetirmişlər. Ermənilər kəndin yaxınlığındakı fermada 6 nəfəri diri-diri yandırmışlar.

20 fevral. Rusiya Federasiyasının xarici işlər naziri A.Kozırevin təşəbbüsü ilə Moskvada Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin görüşü olmuş, müştərək bəyanat qəbul edilmişdir.

24 fevral. İranın xarici işlər naziri Əli Əkbər Vəlayəti münaqişə rayonuna səfər etmişdir.

25-26 fevral. Erməni quldur dəstələri Rusiya Federasiyasının 366-cı alayının köməyi ilə Xocalı şəhərini darmadağın etmiş, soyqırım törətmişlər. Xocalıya hücuma erməni mayoru Seyran Ohanyan və 366-cı alayın 3-cü taburunun komandiri Y.Nabokixin bilavasitə rəhbərlik etmişlər.

28 fevral. ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin 7-ci iclası region dövlətlərindən, xüsusən də Qazaxıstan və Rusiyadan atəşkəsin davamı üçün səylərini artırmağa və danışıqlara yardım etməyi istəmişdi.

2 mart. Azərbaycan BMT-yə üzv qəbul edilmişdir.

5 mart. Rusiya Federasiyasının prezidenti Dağlıq Qarabağdakı vəziyyətlə bağlı bəyanat vermişdir.

8 mart. Qazax rayonunun Xeyrimli kəndi işğal edilmişdir.

12 mart. Qazax rayonunun Aşağı Əskipara kəndi işğal edilmişdir.

12 mart. Dağlıq Qarabağın Sırxavənd, Qaraşlar, Bəşirlər, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli kəndləri işğal edilmişdir.

13 mart. ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin 8-ci iclasında ATƏM-in Nazirlər Şurasının Dağlıq Qarabağa dair fövqəladə sessiyasının çağırılması haqda qərar qəbul edilmişdir.

16 mart. Tehranda atəşin bir həftəlik dayandırılmasını nəzərdə tutan üçtərəfli(İran, Azərbaycan və Ermənistan arasında) sənəd imzalanmışdır. Lakin atəşkəs baş tutmamışdır.

18-20 mart. Rusiya Federasiyası prezidentinin xüsusi nümayəndəsi Bakı və İrəvana səfər etmişdir.

20 mart. Kiyevdə MDB Dövlət Başçılarının Şurasının iclasında Dağlıq Qarabağdakı vəziyyət müzakirə edilmişdir.

22 mart. Erməni terrorçuları tərəfindən Qazax rayonu ərazisində avtomaşın partladılmışdır. 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

24 mart. ATƏM tərkibində 11 ölkənin - Azərbaycan, Ermənistan, Belorus, Almaniya, İtaliya, Rusiya Federasiyası, ABŞ, Türkiyə, Fransa, İsveç, Çexoslovakiyanın (sonralar onun əvəzinə Avstriya, Finlandiya, Norveç daxil edilmişdir) nümayəndələrinin daxil olduğu Minsk qrupu yaradılmışdır.

24 mart. Helsinki şəhərində ATƏM Şurası əlavə görüşündə Minskdə Dağlıq Qarabağ məsələsi ilə bağlı iki dövlətin iştirakı ilə ATƏM-in rəhbərliyi altında konfrans çağırmağı qərara almışdır.

30 mart. ATƏM-in xüsusi səlahiyyətli sədri J.Dinstbin münaqişə regionuna səfər etmişdir.

31 mart. Rusiya Federasiyası XİN-in xüsusi nümayəndələri Dağlıq Qarabağ münaqişə zonasına səfər etmişdir.

3-5 və 10 aprel. Rusiyanın xarici işlər naziri A.Kozırevin münaqişə regionuna ikinci səfəri olmuşdur.

7 aprel. ATƏM-in sədri İtalyanın xarici işlər nazirinin müavini Mario Rafaellini Minsk konfransının sədri təyin etmişdir.

7-8 aprel. Kəlbəcər rayonunun Ağdaban kəndi zəbt edilmiş və yandırılmışdır. Kəndin 67 nəfər dinc sakini qətlə yetirilmiş (o cümlədən 8 qoca, 2 uşaq, 7 qadın diri-diri yandırılmış), 51 nəfər itkin düşmüş, 10 nəfər girov götürülmüşdür.

12 aprel. Ermənistan silahlı qüvvələri Şuşa şəhərinin müdafiəçilərinə qarşı kimyəvi silah işlətmişlər. 120 millimetrlik toplardan şəhərə sianid maddəsi hopdurulmuş iynəvari qəlpəli mərmilər atılmışdır.

13 aprel. Rusiya Federasiyası Dağlıq Qarabağda vəziyyətin həllinə dair iki mərhələli həll təklif etmişdir.

ATƏM-in vəzifəli sədrinin şəxsi nümayəndəsinin başçılığı ilə ATƏM missiyası münaqişə zonasına səfər etmişdir.

14 aprel. Rusiya Federasiyası XİN-i Dağlıq Qarabağa dair bəyanat vermişdir. Xarici işlər naziri A.Kozırev BMT-nin baş katibinə Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri haqqında məktub ünvanlamışdır.

26 aprel. Ermənistan hərbi hissələri Zəngilan rayonunun Qazançı və Dərəli kəndlərini işğal etmişdir.

27 aprel. Qazax rayonunun Sofulu kəndi işğal olunmuşdur.

2 may. Moskvada Azərbaycan, Ermənistan parlamentlərinin deputatları və Dağlıq Qarabağ nümayəndələri ilə görüşü olmuşdur.

7 may. Tehranda Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərinin icraçısı Yaqub Məmmədov və Ermənistan Respublikasının prezidenti Levon Ter-Petrosyanın görüşü olmuş, İran prezidenti A.X.Rəfsancani ilə birgə bəyanat imzalanmışdır.

8 may. Şuşa şəhəri işğal edilmişdir.

11 may. Qazax rayonunun Qızılhacılı kəndi işğal edilmişdir. Ertəsi gün BMT Təhlükəsizlik Şurasının sədri bununla bağlı bəyanat vermişdir.

13 may. Rusiya Federasiyası XİN Şuşanın işğalı ilə bağlı bəyanat vermişdir.

15 may. «SSRİ-nin hərbi əmlakının bölüşdürülməsi haqqında» Daşkənddə imzalanmış müqavilə əsasında 4-cü ordunun silahlarını Azərbaycana təhvil verməyə başlamışlar.

17-18 may. Laçın rayonu Ermənistan tərəfindən işğal olunmuşdur. Azərbaycan Respublikası ermənilər Şuşa və Laçını tərk edənədək Minsk konfransında iştirakdan imtina etmişlər. Konfransa üzv dövlətlərin nümayəndələrinin «Fövqəladə hazırlıq görüşünün» keçirilməsi razılaşdırılmış, bu, daha sonra ATƏM-in Minsk Qrupunun formalaşmasına gətirib çıxarmışdır.

22 may. Rusiya Federasiyası XİN Laçın şəhərinin işğalı

ilə bağlı bəyanat vermişdir.

20 may. Zəngilan rayonunun Qazançı kəndi yaxınlığında erməni terrorçuları tərəfindən avtomaşın partladılmış, 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

7 iyun. Əbülfəz Elçibəy Azərbaycan Respublikasının prezidenti seçilmişdir.

8 iyun. Qazax rayonunun Yuxarı Əskipara kəndi işğal edilmişdir.

12 iyun. Azərbaycan Ordusu genişmiqyaslı hərbi əməliyyatlara başlamışdır. 83 gün davam edən hücum əməliyyatı nəticəsində Dağlıq Qarabağın ərazisinin yarısı işğaldan azad edilmişdir.

14 iyun. Rusiya Federasiyası XİN Dağlıq Qarabağın şimalında Azərbaycan qoşunlarının irəliləməsi ilə bağlı bəyanat vermişdir.

15 iyun. İstedadlı jurnalist və teleoperator Çingiz Mustafayev həlak olmuşdur.

29 iyun-7 iyul. Romada ATƏM-in Minsk qrupu hərbi əməliyyatların 30 günlük dayandırılmasına dair çağrış qəbul etmişdir. Azərbaycan Respublikası buna razılıq vermiş, Ermənistan Respublikasından isə cavab alınmamışdır.

9-10 iyul. Helsinkidə ATƏM-in zirvə toplantısı olmuşdur. Azərbaycan Respublikası və Ermənistan Respublikası arasındakı kəskin fikir ayrılıqları Dağlıq Qarabağa dair sənədin qəbul olunmasına imkan verməmişdir.

17 iyul-21 iyul. Romada ATƏM-in Minsk qrupunun 8 "bitərəf" ölkəsinin qeyri-rəsmi məsləhətləşmələri olmuşdur.

21-27 iyul. Rusiya Federasiyasının vasitəçilik missiyasının Bakı, Naxçıvan, Xankəndi və İrəvana səfəri olmuşdur.

7-8 avqust. Moskvada Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələrinin Rusiya Federasiyasının XİN-də görüşü olmuşdur. RF-nin XİN-in vasitəçiliyi ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası sərhədlərində vəziyyətin normallaşdırılmasına dair razılaşma

layihəsi hazırlanmışdır. Azərbaycan Respublikası onun imzalanmasına razılıq verməmişdir.

8 avqust. Gədəbəy rayonunun Başkənd kəndi Ermənistan hərbçilərindən azad edilmişdir.

11-14 avqust. Rusiya Federasiyası XİN Dağlıq Qarabağdakı vəziyyətlə bağlı bəyanat vermişdir.

20 avqust. Azərbaycan Respublikası və Ermənistan Respublikası nümayəndə heyətlərinin qatarların hərəkətinin bərpası və enerji təchizatı məsələlərinə dair görüşlərinin yekun protokolu imzalanmışdır.

21 avqust. Moskvada Rusiya Federasiyası və Ermənistan Respublikası prezidentlərinin görüşü olmuşdur.

22 avqust. Rusiya Federasiyası prezidenti Azərbaycan Respublikası və Ermənistan Respublikası prezidentlərinə müraciət etmişdir.

24-26 avqust. Minsk qrupunun sədri M.Rafaelli hərbi əməliyyatların 60 günlük dayandırılması barədə çağırışını təqdim etmək üçün Bakı, İrəvan və Xankəndiyə səfəri olmuşdur.

27 avqust. Almatada Qazaxıstan prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikası və Ermənistan Respublikasının xarici işlər nazirlərinin görüşü olmuş, memorandum qəbul edilmişdir. Sentyabrın 1-dən Azərbaycan Respublikası və Ermənistan Respublikasının sərhədlərində atəşkəs nəzərdə tutulmuş, lakin tezliklə atışmalar yenidən canlanmışdır.

28 avqust. Ə.Elçibəy M.Rafaelliyə hərbi əməliyyatların 60 günlük dayandırılması ilə bağlı cavab göndərmişdir.

4 sentyabr. Azərbaycan Respublikası prezidentinin Rusiya Federasiyası prezidentinə cavab müraciəti olmuşdur.

11 sentyabr. Minsk qrupu sədrinin hərbi əməliyyatların 60 günlük dayandırılması haqda Azərbaycan Respublikası prezidentinə təkrar müraciəti olmuşdur.

16-17 sentyabr. Rusiya Federasiyası prezidentinin şəxsi nümayəndəsinin Bakıya səfəri olmuşdur. Azərbaycan sentyabrın 22-dən etibarən 60 günlük hərbi əməliyyatların da-

yandırılması haqqında təklifi qəbul etməmişdir.

19 sentyabr. Soçidə Rusiya Federasiyasının təhlükəsizlik və müdafiə nazirlərinin iştirakı ilə Azərbaycan Respublikası və Ermənistan Respublikasının müdafiə nazirlərinin arasında 2 ay müddətinə hərbi əməliyyatların dayandırılması haqqında razılaşma əldə edilmişdir.

23 sentyabr. M.Rafaelli ATƏM-in fəaliyyətdə olan sədrindən MQ-nun mandatının dəqiqləşdirilməsini xahiş etmişdir.

23-25 sentyabr. Moskvada Soçi razılaşmasının yerinə yetirilməsi mexanizmi haqqında hərbi-texniki protokol imzalanmışdır. Münaqişə ərazisinə Rusiya Federasiyasından 50-dən çox müşahidəçi göndərilmişdir. Ukrayna, Belarus, Qazaxıstan və Gürcüstan müşahidəçi verməmişdir. Tərəflər atəşi dayandırmamış (atəşkəsə əməl etməmişdi), hər biri bunda qarşı tərəfi günahlandırmışdır. Tezliklə Rusiya Federasiyası müşahidəçilərini geri çağırmalı olmuşlar.

6 oktyabr. Moskvada Rusiyanın xarici işlər naziri A.Kozırevin Azərbaycan Respublikası xarici işlər naziri T.Qasımovla görüşü olmuşdur.

12 oktyabr. Rusiya Federasiyası prezidenti Moskvaya rəsmi səfərə gələn Azərbaycan Respublikasının prezidenti Ə.Elçibəylə görüşmüşdür.

16 oktyabr. Levon Ter-Petrosyan Ermənistanın prezidenti seçilmişdir.

20 oktyabr. Ə.Elçibəy M.Rafaelliyə hərbi əməliyyatların 60 günlük dayandırılması məsələsi ilə bağlı cavab məktubu göndərmişdir.

24 oktyabr. ABŞ Konqresi "Azadlığa dəstək aktı"na «907-ci düzəliş» qəbul etmişdir. Bu düzəliş Azərbaycana ABŞ hökuməti tərəfindən yardımı qadağan etmişdir.

27 oktyabr. BMT Təhlükəsizlik Şurasının sədri Dağlıq Qarabağda hərbi əməliyyatların davam etməsi ilə bağlı narahatlığını bildirən bəyanat vermişdir.

29 oktyabr. Azərbaycan Hava Yolları Konserninin Yevlax

Aviasiya Şirkətinə məxsus AN-2 təyyarəsi DQMV-nin Əsgəran rayonunda vurulmuşdur.

30 oktyabr. MDB dövlət başçıları Azərbaycan Respublikasına və Ermənistan Respublikasına danışıqları bərpa etmək üçün müraciət etmişdir.

16 noyabr. Xankəndidə erməni yaraqlılarından ibarət dəstə vilayət prokrorluğunun binasına soxulmuş, Azərbaycan Respublikası Prokrorluğu istintaq şöbəsinin prokroru Şükür Rzayevi girov götürmüşdür.

10-12 dekabr. Ermənistanın işğalçı qoşunları Qubadlı və Zəngilan rayonlarının Şayıflı, Seyidlər, Ərkənd, Bərəli, Qazançı, Günqışlaq, Pirveyisli, Canbar, Yuxarı Qayalı kəndlərini zəbt etmişdir.

1993-cü il

1 yanvar. İsveçin ATƏM sədrliyini Çexoslovakiya əvəz etmişdir.

3 yanvar. ABŞ və Rusiya Federasiyası prezidentləri Dağlıq Qarabağ barədə birgə bəyanat vermişlər.

18-24 yanvar. Minsk qrupunun sədri M.Rafaelli Bakıya, İrəvan və Xankəndiyə «doqquzluğun» cədvəlini qəbul etməyə razı salmaq məqsədi ilə səfər etmişdir.

29 yanvar. BMT TŞ-nın Dağlıq Qarabağ münaqişəsi haqqında bəyanatı olmuşdur.

6-8 fevral. Montrödə (İsveçrə) Ermənistan və Azərbaycan dini liderlərinin Ümumdünya dini təşkilatın təşəbbüsü ilə görüş olmuşdur.

22 fevral-1mart. Romada ATƏT-in Minsk qrupunun Rusiya Federasiyası nümayəndələrinin verdiyi müşahidəçilər qrupunun mandatı razılaşdırılmışdır.

25 fevral. Rusiya Federasiyası və ABŞ-ın birgə bəyanatı olmuşdur.

28 fevral. Kislovodsk-Bakı sərnişin qatarı erməni terrorçuları tərəfindən partladılmış, 11 nəfər həlak olmuş, 18

nəfər yaralanmışdır.

27 mart. Ermənistan hərbi qüvvələrinin Kəlbəcər ərazisinə qəfil hücumu başlamış, Ağqaya və Mərcimək kəndləri ələ keçirilmişdir.

28 mart. Ermənistan qoşunları Kəlbəcərin Ağdaban, Təzəkənd, Ağcakənd və Narışlar kəndlərini ələ keçirmişlər.

30 mart. İrəvanın «Zvartnos» aeroportuna Livandan 1500 nəfərə qədər muzdlu döyüşçü gətirilmişdir.

31 mart. Ermənilər Kəlbəcərin 12 kəndini işğal etmişdir.

2-3 aprel. Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonu işğal edilmişdir.

2 aprel. Erməni ordusunun bölmələri Füzuli rayonunun Qacar, Divanlılar və Gövşadlı kəndlərini işğal etmişlər.

6 aprel. Azərbaycan Respublikasının xarici işlər naziri T.Qasımov məsləhətləşməni tərk etmiş, ermənilər Kəlbəcərdən çıxana qədər Minsk prossesində iştirakdan imtina etmişdir.

7 aprel. BMT Təhlükəsizlik Şurasının sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair bəyanat vermişdir.

30 aprel. BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini müzakirə etmiş, erməni qoşunlarının Kəlbəcərdən və Azərbaycanın digər işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən 822 nömrəli qətnamə qəbul etmişdir.

20 may. Rusiya Federasiyasının qoşunları Azərbaycan Respublikasının ərazisini tərk etməyə başlamışdır.

02 iyun. Bakı dəmiryol vağzalında sərnişin qatarında Ermənistan Respublikasının xüsusi xidmət orqanlarının göndərdiyi terrorçu qrup tərəfindən partlayış törədilmişdir.

12-15 iyun. Ermənistanın silahlı qüvvələri Ağdam rayonunun Əliağalı, Əlimədədli, Qalayçılar kəndlərini işğal etmişdir.

16 iyun. Ermənistanın silahlı qüvvələri Ağdərə bölgəsində Metsşen (Ulu Qarabəy), Madagiz, Akop Kamari (Lüləsaz)

kəndləri istiqamətində və Ağdam istiqamətində güclü hücuma keçmiş, Cinli, Qalayçılar, Əlimədədli və Əliağalı kəndlərini ələ keçirmişdir.

25 iyun. Ermənistanın silahlı qüvvələri Ağdam rayonunun Boyəhmədli, Papravənd kəndlərini işğal etmişdir.

26 iyun. Ermənistanın silahlı qüvvələri Ağdərə şəhərini işgal etmişdir.

4 iyul. Ermənistanın silahlı qüvvələri Füzuli rayonunun Arış, Qoçəhmədli, Qaracalı, Xatınbulaq, Gorazilli kəndlərini işğal etmişdir.

5 iyul. Ermənistanın silahlı qüvvələri Ağdam rayonunun Şelli kəndini işğal etmişdir.

21 iyul. Ermənistan ordusunun bölmələri Ağdam rayonunun Muğanlı və Şıxbabalı kəndlərini ələ keçirmişlər.

22 iyul. Ermənistan ordusunun hissələri Ağdamın Qiyaslı, Xıdırlı, Sarıcalı və Muradbəyli, Mərzili, Novruzlu və Yusifcanlı kəndlərini işğal etmişdir.

22 iyul. Tərtər rayonu ərazisində erməni terrorçuları tərəfindən partlayış törədilmiş, 5 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

22 iyul. Qazax rayonu ərazisində erməni terrorçuları tərəfindən partlayış törədilmiş, 6 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

23 iyul. Ermənistan silahlı qüvvələri Ağdam şəhərini işğal etmişdir.

24 iyul. Füzuli rayonunun Cuvarlı kəndi işğal edilmişdir.

29 iyul. BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətini kəskin pisləyən 853 nömrəli qətnamə qəbul etmişdir.

15 avqust. Ermənistanın silahlı qüvvələri Füzuli rayonunun Aşağı Veysəlli və Yuxarı Yağlıvənd, Cəbrayıl rayonunun Sur, Banazur, Quşçular və Qışlaq kəndlərini işğal etmişdir.

20-22 avqust. Rusiya Federasiyası XİN-nin nümayəndə heyəti və Rusiya Federasiyasının vasitəçilik missiyası Bakıda

səfərdə olmuşdur.

23 avqust. Ermənistan silahlı qüvvələri Füzulini işğal etmişdir.

23 avqust. Ermənistan silahlı qüvvələri Cəbrayılı işğal etmişdir.

23-26 avqust. Heydər Əliyev ATƏM-in Minsk qrupunun sədri Yan Eliassonu qəbul etmişdir.

24-28 avqust. Rusiya Federasiyasının vasitəçilik missiyası Bakı, İrəvan və Xankəndiyə səfər etmişdir.

30 avqust. Hadrut rayonu ərazisində erməni terrorçuları tərəfindən avtomaşın partladılmış, 2 nəfər həlak olmuşdur.

30 avqust. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyev «Nezavisimaya qazeta»ya müsahibəsində münaqişənin həllinə mane olan əngəllər barədə fikrini açıqlamışdır.

31 avqust. Ermənistan ordusu Qubadlı şəhərini işğal etmişdir. Rusiya Federasiyasının vasitəçiliyi ilə sentyabrın 10-dək (10 gün müddətinə) atəşkəsin bərpası haqqında razılıq əldə edilmişdir.

2 sentyabr. Ermənistan ordusu Cəbrayılın Kavdar və Fuğanlı yaşayış məntəqələrini işğal etmişdir.

2 sentyabr. Hadrut rayonunda erməni terrorçuları tərəfindən sərnişin avtobusu partladılmış, 4 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

17-19 sentyabr. Rusiya Federasiyası vasitəçilik missiyasının İrəvana səfəri olmuşdur.

16-20 sentyabr. ABŞ və Rusiya Federasiyası prezidentlərinin Dağlıq Qarabağ məsələsinə dair müraciəti olmuşdur.

23-25 sentyabr. Moskvada ATƏM-in səlahiyyətli sədri Mossberq və Minsk Qrupunun sədri Huk Fornari ilə məsləhətləşmələr olmuşdur.

24 sentyabr. Azərbaycan Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olmuşdur.

3 oktyabr. Heydər Əliyev Azərbaycan Respublikasının

Prezidenti seçilmişdir.

6-14 oktyabr. ATƏM-in şəxsi nümayəndəsi Mossberqin rəhbərliyi ilə ATƏM missiyasının münaqişə regionuna səfəri olmuşdur.

10 oktyabr. Heydər Əliyev rəsmi şəkildə Azərbaycan Respublikası prezidenti vəzifəsinin icrasına başlamışdır.

14 oktyabr. BMT Təhlükəsizlik Şurası 874 nömrəli qətnamə qəbul etmişdir.

18 oktyabr. Mossberqin ATƏM missiyasının münaqişə regionuna səfərinin nəticəsi haqqında məruzəsi olmuşdur.

18 - 21 oktyabr. Romada ATƏM-in Minsk qrupunun görüşü olmuşdur.

23 oktyabr. Ermənistan ordusu Füzuli rayonunun Horadiz qəsəbəsini işğal etmişdir.

24 - 28 oktyabr. ATƏM-in sədri M.Aff-Uqlas Cənubi Qafqaza səfər etmişdir.

27 – 29 oktyabr. Ermənistanın işğalçı ordusu Zəngilan şəhərini işğal etmişdir.

28 oktyabr. Ermənistan silahlı qüvvələri Mincivan qəsəbəsini işğal etmişdir.

29 oktyabr. Ermənistan silahlı qüvvələri Zəngilanı tamamilə işğal etmişdir.

4 noyabr. Minsk konfransı «doqquzluğunun» bəyanatı olmuşdur.

9 noyabr. ATƏM-in Minsk qrupunun sədri M.Rafaelli BMT Təhlükəsizlik Şurasının sədrinə məktub göndərmişdir.

12 noyabr. BMT Təhlükəsizlik Şurası 884-cü qətnaməsini qəbul etmişdir.

12-19 noyabr. Rusiya Federasiyasının vasitəçilik missiyası Bakıya səfər etmişdir.

16 noyabr. Moskvada Rusiya Federasiyası xarici işlər nazirinin müavini Adamişinin Azərbaycan Respublikasının baş nazirinin müavini A.Abbasovla görüşü olmuşdur.

17-18 noyabr. Moskvada Pravoslav kilsəsi başçısının vasitəçiliyi ilə erməni apostol kilsəsinin rəhbərliyi Azərbaycan müsəlmanlarının nümayəndəsi ilə görüşmüşdür. Birgə rəsmi məlumat imzalanmışdır.

20 noyabr. Azərbaycan Respublikası və Ermənistan Respublikası sərhəddində Rusiya Federasiyası vasitəçilik missiyasını müşayiət edən avtomobilə atəş açılmışdır. Bununla bağlı A.Kozırevin bəyanatı olmuşdur.

22 noyabr. Rusiya Federasiyasının vasitəçilik missiyasına atəş açılması ilə bağlı A.Kozırev və V.Kazimirovun mətbuat konfransı və Rusiya Federasiyası hökumətinin bəyanatı olmuşdur.

24 noyabr. Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədinin 161 km-ni nəzarət altına almışdır.

1 dekabr. Romada ATƏM Şurasının IV görüşü keçirilmişdir. ATƏM-də sədrlik İsveçrədən İtalyaya keçmişdir.

16 dekabr. Ermənistan ordusu Beyləqan şəhərinə hücum etməyə cəhd göstərmişdir.

21-22 dekabr. MDB parlamentlərarası Assambleyası Dağlıq Qarabağ məsələsini «Aland modeli» üzrə həll etməyi təklif etmişdir.

21-22 dekabr. MDB Parlamentlərarası Assambleyası Rusiya Federasiyasının XİN və Aland Sülh İnstitutunun təşəbbüsü ilə Aland adalarında Azərbaycan Respublikası və Ermənistan Respublikası parlament nümayəndələrinin simpoziumunu keçirmişdir.

1994-cü il

1 yanvar. İtalya (xarici işlər naziri Benjamino Andreatla, daha sonra Antonio Mortino) ATƏM-də sədrliyə başlamışdır.

8 yanvar. Füzuli rayonunun Horadiz qəsəbəsi erməni işğalından azad edilmişdir. Hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu 30 km irəliləmişdir.

10-11 yanvar. Bakıya Rusiya Federasiyasının vasitəçilik missiyası səfər etmişdir.

12 yanvar. Moskvada Rusiya Federasiyası XİN-də ABŞ-ın nümayəndəsi Kozlariçlə məsləhətləşmələr olmuşdur.

18 yanvar. Moskvada Rusiyanın xarici işlər naziri A.Kozırevin Azərbaycan Respublikasının xarici işlər naziri H.Həsənovla danışıqları olmuşdur.

20 yanvar. Moskvada A.Kozırevin Ermənistan Respublikasının xarici işlər naziri V.Papazyanla və qondarma «DQR-in xarici işlər naziri» A.Qukasyanla danışıqları olmuşdur.

25-27 yanvar. Stokholmda Rusiya Federasiyası-İsveçrə-ABŞ (V.Kazimirov-M.Mossberq-Kreyq-Dançerli) formatında məsləhətləşmələr olmuşdur. Rusiya Federasiyasının ATƏM-in MQ ilə əməkdaşlıq etmək üçün təklifləri qəbul edilmişdir.

27 yanvar. Rusiya Federasiyası münaqişə tərəflərinə fevralın 1-dən ən azı 2-3 həftəlik atəşkəs və Moskvada fevralın 1-2 də xarici işlər nazirləri səviyyəsində görüş keçirməyi təklif etmişdir. Xankəndi və İrəvan razılıq vermişdir. Bakı isə hər iki təklifi rədd etmişdir.

28-31 yanvar. Rusiya Federasiyası vasitəçilik missiyasının Bakı, İrəvan və Xankəndiyə səfəri olmuşdur.

01 fevral. Erməni terrorçuları Kislovodsk-Bakı sərnişin qatarında partlayış törətmişlər, 3 nəfər ölmüş, 20 nəfərdən çox adam yaralanmışdır.

ATƏM-in MQ-nin sədri italyan M.Rafaellini isveç Yan Eliasson əvəz etmişdir.

05 fevral. Türkiyənin hava hücumundan müdafiə qüvvələri radarlarının Suriyanın Hələb şəhərindən gizlincə İrəvana silah daşıyan təyyarəni izlədiyi barədə məlumat verilmişdir. Rusiya Federasiyası və Ukraynaya məxsus olan, həftədə 4 gün Suriyadan Odessaya və Soçiyə guya turist daşımaqla məşğul olan təyyarələri izləyən radarlar onların İrəvanda endiklərini aşkara çıxarmışdır.

18 fevral. Moskvada Rusiya Federasiyası müdafiə naziri-

nin vasitəçiliyi ilə Azərbaycan Respublikasının və Ermənistan Respublikasının müdafiə nazirlərinin görüşü olmuşdur.

1994-cü il martın 1-dən etibarən atəşkəsi və təmas xətlərindən tərəflərin qüvvələrinin çəkilməsini nəzərdə tutan protokol imzalanmışdır.

23 fevral. Moskvada Rusiya Federasiyasının xarici işlər naziri səlahiyyətlərinin müvvəqəti icraçısı Adamişinlə Azərbaycan Respublikasının müdafiə naziri M.Məmmədovun görüşü olmuşdur.

18 mart. Erməni terrorçuları Xankəndi üzərində İran diplomatlarını və onların ailə üzvlərini aparan təyyarəni vurmuşlar, 34 nəfər həlak olmuşdur.

19 mart. Erməni terrorçuları Bakıda «20 Yanvar» metro stansiyasında partlayış törətmişlər. 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır.

13 aprel. Erməni terrorçuları Moskva-Bakı sərnişin qatarında partlayış törətmiş, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

15 aprel. Moskvada MDB Dövlət Başçılarının Şurası Qarabağda atəşkəsin qəti bərpası ilə bağlı bəyanat vermişdir. Rusiya Federasiyası prezidentinin Azərbaycan Respublikası və Ermənistan Respublikası prezidentləri ilə görüşü olmuşdur.

26 aprel - 2 may. Mossberqin başçılığı ilə ATƏM missiyasının münaqişə bölgəsinə səfəri olmuşdur.

4 – 5 may. Bişkekdə MDB Parlamentlərarası Assambleyasının, Qırğızıstanın Ali Şurasının və Rusiya Federasiyası XİN-in vasitəşiliyi ilə Azərbaycan və Ermənistan parlamentləri sədrlərinin və Dağlıq Qarabağ nümayəndələrinin görüşü olmuşdur. Mayın 9-dan etibarən atəşkəs haqqında Bişkek protokolu qəbul edilmişdir.

7 may. Rusiya Federasiyasının vasitəcilik missiyası Bakıya gəlmişdir.

9 may. Azərbaycan tərəfi Bişkek protokolunu imzalamışdır.

12 may. Azərbaycanla Ermənistan arasında atəşkəs elan

olunmuşdur.

1-6 iyun. Rusiya Federasiyası vasitəçilik missiyasının Bakı, İrəvan və Xankəndiyə səfəri olmuşdur.

12 iyun. Səfir C.Pressel ABŞ-ın ATƏM-in MQ-da nümayəndəsi təyin edilmişdir.

13-14 iyun. Moskvada Rusiya Federasiyası XİN-də Azərbaycan Respublikasının ekspertləri ilə məsləhətləşmələr (Ermənistan Respublikası nümayəndələri iştirakdan imtina etmişdilər) olmuşdur.

14-18 iyun. ATƏM-in fəaliyyətdə olan sədri Y.Eliassonun münaqişə ərazisinə səfəri olmuşdur.

23 iyun. Moskvada Rusiya Federasiyası prezidentinin səlahiyyətli nümayəndəsinin və ATƏM-in MQ sədrinin münaqişə tərəflərinin rəhbərlərinə birgə müraciəti olmuşdur.

Vyanada ATƏM-in Parlament Assambleyasında Azərbaycan və Ermənistan parlamentləri sədrlərinin görüşü olmuşdur.

3 iyul. Erməni terrorçuları Bakıda metro qatarında partlayış törətmiş, 13 nəfər həlak olmuş, 42 nəfər yaralanmışdır.

10 noyabr. Avropa Şurası Parlament Assambleyası Qarabağ münaqişəsinə dair 1047 nömrəli qətnaməsini qəbul etmiş, tərəfləri atəşkəsi poza biləcək hərbi hərəkətlərdən çəkinməyə çağırmışlar.

17 oktyabr. ATƏM-in Minsk Qrupunun Vyanada keçirilən görüşündə İtaliya nümayəndə heyəti çoxmillətli qüvvələr yaratmağı təklif etmişdir. Oktyabrın 24-də ATƏM-in xüsusi iclasında ATƏM-in sədri, İtaliya xarici işlər nazirinin müavini A.Martininin sülhməramlı qüvvələr yaradılması planı qəbul olunmuşdur. Bu plana əsasən, münaqişə bölgəsinə 3000 nəfərə qədər hərbçi və hərbi texnika göndərilməsi nəzərdə tutulurdu. Sülhməramlı qüvvələrin tərkibində hər bir dövlətin hərbçilərinin ümumi sayı 30%-dən çox ola bilməzdi. Bu plana görə danışıqların aparılması və münaqişə bölgəsinə sülhməramlı qüvvələrin göndərilməsinin bütün məsuliyyətini Minsk Qrupu öz üzərinə götürürdü.

ATƏM çərçivəsində ilk dəfə bu cür qərarın qəbul olunması böyük irəliləyiş idi. Amma bu, Rusiyanın narazılığına səbəb oldu. Rusiya bilirdi ki, ATƏM qüvvələrinin münaqişə bölgəsinə gətirilməsi onu faktik olaraq münaqişənin nizama salınması prosesindən kənarlaşdıra bilər.

5-6 dekabr. ATƏT-in Budapeşt sammiti keçirilmişdir. İlk dəfə olaraq, Dağlıq Qarabağ məsələsi xüsusi problem kimi müzakirə olunmuş, mərhələli nizamlama variantının ilkin prinsipləri müəyyən edilmişdir. Sammitdə «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi» adlı qərar qəbul edilmişdir.

13 dekabr. İslam Konfransı Təşkilatının Kasablankada keçirilən Zirvə toplantısında qəbul edilən qətnamədə Ermənistan təcavüzkar dövlət kimi tanınmışdır.

NƏTİCƏ

Ermənilərin Azərbaycan hökumətinin rəhbərliyi altında güya yaşamağın mümkünsüzlüyünü bəhanə edərək, heç bir hüquqi əsası olmayan "müqəddaratlarını təyin etmək" bəhanəsi ilə süni "Dağlıq Qarabağ problemi" yaratdılar.

Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi vəziyyət gərginləşdi. Vilayətin Ermənistana birləşdirilməsi haqda qərar qəbul edildi. Nəticədə ermənilərlə azərbaycanlılar arasında ədavəti qızışdırmaqdan ötrü azərbaycanlılara qarşı qətllər törədildi.

Sonrakı Ermənistan adlandırılmış qədim oğuz-türk yurdu olan Qərbi Azərbaycanda azərbaycanlılara məxsus kəndlərin və qəsəbələrin dağıdılması prosesi başlandı. Yüzlərlə günahsız insan öldürüldü, 200 mindən çox soydaşımız öz tarixi-etnik torpaqlarından vəhşiliklə çıxarıldı.

1988-ci ilin iyulunda DQMV-nin Azərbaycan tərkibindən çıxması, 1989-cu ildə isə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsinə dair qərar qəbul edildi. Silahlı erməni quldur dəstələri Dağlıq Qarabağ ərazisində yaşayan yerli azərbaycanlı əhalini doğma yurd-yuvasından didərgin saldı.

1991-ci ildə erməni silahlı birləşmələri açıq hərbi əməliyyatlara başladılar. 1991-ci il sentyabrın 2-də erməni separatçıları Yuxarı Qarabağda qeyri-qanuni bir qurum, oyuncaq «Dağlıq Qarabağ Respublikası»nın yarandığını və müstəqilliyini elan etdilər.

1992-ci ildə erməni silahlı birləşmələri Yuxarı Qarabağda irimiqyaslı hərbi əməliyyatları gücləndirdilər. 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndləri işğal olundu. Erməni və rus hərbi birləşmələri fevralın ortalarında Qaradağlı kəndini ələ keçirdilər. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Rusiya Federasiyasının Xankəndində (Stepanakertdə) yerləşən silahlı qüvvələrinin 366-cı alayının köməyi ilə

əhalisinin hamısı (7 min) azərbaycanlı olan Xocalı şəhərini yerlə yeksan etdilər. Dinc mülki əhali dəhşətli soyqırıma məruz qoyuldu.

1992-1993-cü illərdə Ermənistan Respublikası Yuxarı (Dağlıq) Qarabağın ərazisini və Azərbaycan Respublikasının digər 7 rayonu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilanı, yəni Azərbaycan Respublikası ərazisinin 20 %-ni işğal etdi.

Erməni işğalçıları məşhur Xocalı kurqanlarını yer üzündən sildilər. İşğal etdikləri ərazilərdə muzeyləri dağıtdılar, külli miqdarda muzey eksponatlarını Ermənistana apardılar. Şuşada Azərbaycan mütəfəkkirlərinin heykəllərini avtomat güllələri ilə deşik-deşik etdilər.

Birmənalı şəkildə bildirmək olar ki, «Dağlıq Qarabağ problemi» Azərbaycanın müstəqilliyinə mane olaraq, onu öz təsir dairəsində saxlamaq istəyən dövlətlərin irticaçı qüvvələrinin yaratdığı münaqişə obyektidir.

Azərbaycanı bölüb parçalamaq istəyən xarici irticaçı qüvvələrin planlar hazırladığı və həyata keçirmək istədiyi bir dövrdə hakimiyyətə gələn Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas etdi.

Taleyin iradəsi ilə Azərbaycan dövlətinə və xalqına tarixin ahəngini öz nəzarəti altına götürə biləcək, realist və praqmatik, cəmiyyətin bütün aparıcı qüvvələri tərəfindən qəbul edilən və onları öz arxasınca aparmağa qadir olan, balanslaşdırılmış xarici siyasət yeridə bilən şəxsiyyətin - Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışı baş verdi, tarixi inkişafın obyektiv ictimai-siyasi prosesi məntiqi nəticəsini göstərdi.

Qısa zaman kəsiyi Heydər Əliyev şəxsiyyətinin qüdrətini, onun öz xalqının və milli dövlətçiliyinin keşiyində duran, Azərbaycan varlığını müdhiş uçurumdan xilas edən müdrik strateq olduğunu təsdiq etdi.

1992-ci il martın 24-də ATƏM-in Nazirlər Şurası özünün

Helsinkidə keçirilmiş toplantısında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə 11 dövlətin (Azərbaycan, Ermənistan, Rusiya Federasiyası, ABŞ, Fransa, Polşa, Almaniya, Türkiyə, Belarus, Finlandiya və İsveç) daxil olduğu Minsk qrupunun yaradılması haqqında qərar qəbul etdi. Bir müddət sonra, may ayının 12-də münaqişənin getdikcə gərginləşməsi ilə əlaqədar olaraq, Helsinkidə ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin toplantısı keçirildi. Toplantıda ABŞ nümayəndəsi tərəfindən münaqişənin həlli ilə bağlı layihə təklif olundu. Layihədə iştirakçı dövlətlər tərəfindən münaqişənin hərbi yolla həlli rədd edilir, Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmaq və zəbt olunmuş ərazilərdən erməni hərbi birləşmələrinin çıxarılması tələb olunurdu. Layihədə münaqişənin tərəfləri kimi Ermənistan və Azərbaycan göstərilirdi. Məhz bu fakt amerikalı nümayəndə tərəfindən irəli sürülmüş layihəyə Ermənistan nümayəndəsinin səsvermədən imtina etməsinə səbəb oldu. Beləliklə, ATƏM-ə üzv olan dövlətlərin hamısı Ermənistanı Azərbaycana qarşı müharibə aparan tərəf kimi tanıdı.

Ermənilərin Azərbaycanın Dağlıq Qarabağdan kənar ərazilərinə təcavüz aktı beynəlxalq ictimaiyyətin böyük narazılığına səbəb oldu. Azərbaycanın Kəlbəcər rayonunun işğalından sonra BMT-nin Təhlükəsizlik Şurası 30 aprel 1993-cü il tarixində özünün 822 nömrəli qətnaməsini, Ağdam rayonunun işğalından sonra 29 iyul 1993-cü il tarixində 853 nömrəli qətnaməsini, Cəbrayıl, Füzuli və Qubadlı rayonlarının işğalından sonra 14 oktyabr 1993-cü il tarixində 874 nömrəli qətnaməsini, Zəngilan rayonunun işğalından sonra isə 12 noyabr 1993-cü il tarixində 884 nömrəli qətnaməsini qəbul etdi. Qətnamələrin hər birində Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı və ərazilərin zor gücünə zəbt edilməsinin yolverilməzliyi təsdiq olunur, erməni hərbi birləşmələrinin işğal etdikləri ərazilərdən qeyd-şərtsiz çıxmaları birmənalı

şəkildə tələb olunurdu.

Azərbaycan hakimiyyəti 1993-cü ilin ikinci yarısından hərtərəfli düşünülmüş, aydın, ardıcıl və prinsipial siyasi kurs yürütməyə başladı. Məhz bu dövrdən etibarən Azərbaycan Prezidenti Heydər Əliyev respublikamızın müstəqillik və təhlükəsizlik problemlərini beynəlxalq təşkilatlar vasitəsilə ümumavropa təhlükəsizliyi fonuna çıxararaq, regionda sülhün bərqərar olmasına onların təsir etməsini sürətləndirdi. Beynəlxalq və regional təşkilatlarda münaqişə haqqında əsl həqiqətlərin dünyanın siyasi dairələrinə və dünya ictimaiyyətinə çatdırılmasına, Ermənistanın təcavüzkar kimi tanıdılmasına, Azərbaycanı dəstəkləyən ölkələrin sayının artırılmasına və bu təşkilatların yığıncaqlarında münaqişənin həlli yollarına dair qərarlar qəbul edilməsinə nail oldu.

Təcavüzkarı cəzalandırmaq üçün iqtisadi və hərbi təzyiq mexanizmlərinə malik olan BMT Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinin təmin olunmasında böyük rol oynaya bilmədi. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən Ermənistanın Azərbaycana etdiyi təcavüzlə bağlı 4 qətnamə qəbul olunsa da, bu qətnamələrdə əks olunmuş tələblər yerinə yetirilmədi. Tələblərinin yerinə yetirilməməsinə görə BMT tərəfindən təcavüzkar Ermənistana qarşı bu vaxta qədər heç bir sanksiya tətbiq olunmamışdır. Bu isə təcavüzkar Ermənistanın beynəlxalq qanunlara sayğısızlıq göstərmək və beynəlxalq birliyə meydan oxuması ilə nəticələndi. Bütün bunlar BMT-də və onun Təhlükəsizlik Şurasında mövcud olan ikili standartların nəticəsi olduğunu göstərdi. Təhlükəsizlik Şurasının Ermənistana bu münasibətinin əsasında dünyanın fövqəldövətlərinin Cənubi Qafqazdakı geosiyasi maraqlarının dayanması özünü büruzə verdi.

Prezident Heydər Əliyev diplomatiyasının təsiri ilə dünyanın süper dövləti olan ABŞ-ın 1994-cü ildə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bəyanatında Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərin

toxunulmazlığına dair bəyanat ilə Dağlıq Qarabağın Azərbaycan ərazisi olması təsdiq olunurdu.

Azərbaycan Prezidenti Heydər Əliyev beynəlxalq və regional təşkilatların tribuna və kuluarlarından işğalçılığı məntiqi şəkildə əsaslandıran konstruktiv çıxışlar üçün maksimum istifadə etdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişənin əsl mahiyyəti haqqında dünya dövlətlərini lazımınca məlumatlandırdı, ayrı-ayrı dövlətlərin, regional təşkilatların Ermənistanın mövqeyini pisləyən qərarlarının, bəyanatlarının qəbul edilməsinə nail oldu.

Heydər Əliyev 1994-cü ilin may ayında atəşkəs haqqında sazişin imzalanmasına nail oldu və bu atəşkəsin qorunub saxlanmasına daim əməl olunmasını təmin etdi.

Azərbaycanla Ermənistan atəşkəsin elan olunması ilə (1994-cü ilin mayın 12-də) tərəflər hərbi əməliyyatları dayandırmaqla beynəlxalq təşkilatlara, xüsusilə də münaqişə ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupuna münaqişənin tənzimlənməsi ilə bağlı operativ işləməsinə şərait yaratmış oldu. 1994-cü ilin 6 dekabr tarixində keçirilən ATƏT-in Budapeşt Sammitinə əsasən yaradılmış Minsk qrupu həmsədrləri institutu (həmsədrlər əvvəlcə Rusiya Federasiyası və Finlandiya, 1997-ci ildən isə Rusiya Federasiyası, ABŞ və Fransa) münaqişənin sülh yolu ilə nizamlanması planını işləyib hazırlamağı həmsədr dövlətlərə tapşırdı. Budapeşt Sammitinin işi zamanı münaqişənin tənzimlənməsi prosesinin iki mərhələdə həyata keçirilməsi qərarlaşdırıldı.

Qərarlara görə, razılaşmaların həyata keçirilməsi yolu ilə silahlı münaqişənin nəticələri aradan qaldırılmalı, zəbt olunmuş bütün ərazilər boşaldılmalı və məcburi köçkünlər öz daimi torpaqlarına qayıtmalı, Minsk konfransının işi nəticəsində münaqişənin tam əhatəli sülh yolu ilə tənzimlənməsi razılıq əldə olunmaqla idi. Lakin Budapeşt sammitindən sonra aparılan danışıqlarda Şuşa və Laçın rayonları daxil olmaqla, bütün ərazilərin boşaldılması, münaqişə iştirakçıla-

rının təhlükəsizliyi və Ermənistan silahlı qüvvələri bölmələrinin Azərbaycan Respublikası ərazisindən çıxarılması kimi prinsipial məsələlərdə razılıq əldə oluna bilmədi.

1996-cı il dekabr ayının 2-3-də ATƏT-in Lissabon sammiti keçirildi. Lissabon sammitində Dağlıq Qarabağ münaqişəsi müzakirə mövzularından birinə çevrildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qəti və inadlı mövqeyi nəticəsində ATƏT-in icraçı sədrinin bəyanatında münaqişənin üç prinsip əsasında tənzimlənməsi öz əksini tapdı. Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; razılaşmada müəyyən edilmiş öz müqəddəratını təyin etməyə əsaslanan, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə dərəcəsi verən Dağlıq Qarabağın hüquqi statusu; qarşılıqlı öhdəliklər daxil olmaqla, tənzimləmə müddəalarına bütün tərəflərin riayət etməsi və Dağlıq Qarabağ, eləcə də onun bütün əhalisinin təminatlı təhlükəsizliyindən ibarət idi. Bu prinsiplər Ermənistandan başqa ATƏT-in 53 dövləti tərəfindən dəstəkləndi.

ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı özlərinin üçüncü və sonuncu təkliflərini («Ümumi dövlət») tərəflərə təqdim etdilər (1998-ci il noyabr). «Ümumi dövlət» də ATƏT-in Minsk qrupunun həmsədrlərinin ilk təklifi kimi, paket xarakteri daşıyırdı. Bu sənəd münaqişənin mərhələlərlə həllini əsas götürən ATƏT-in Budapeşt və Lissabon sammitlərinin qərarlarına zidd idi. Həm də həmsədrlər bu dəfə Dağlıq Qarabağın statusunun qəbul edilməsini silahlı qarşıdurmanın dayandırılmasından daha əvvəl nəzərdə tuturdular. Üstəlik, həmin status münaqişəyə cəlb edilmiş ölkələrin parlamentlərində ratifikasiya olunmalı idi. Bu da öz növbəsində münaqişənin həllini istənilən qədər uzatmaq və lazımi mərhələdə onu siyasi alver vasitəsinə çevirmək üçün qarşı tərəfin, konkret olaraq Ermənistan tərəfinin əlinə kifayət qədər güclü imkanlar vermiş olurdu.

Sammitdə ATƏT-in fəaliyyətdə olan sədri Ermənis-

tan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini üç prinsip əsasında həllini nəzərdə tutan və Ermənistan istisna olmaqla, ATƏT-in 53 üzv dövləti tərəfindən dəstəklənmiş bəyanatla çıxış etdi: Azərbaycan və Ermənistan Respublikalarının ərazi bütövlüyü; Azərbaycanın tərkibində Dağlıq Qarabağın öz müqəddəratını təyin etməyə əsaslanan ən yüksək hüquqi statusu; Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi.

ATƏT-in 1996-cı ilin 2 dekabr tarixində keçirilən 1998-ci ilin noyabrında «Ümumi dövlət» təklifini tərəflərə təqdim etdikdən sonra ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyəti demək olar ki, səmərəsiz olmuşdur. Ötən bu illər ərzində həmsədrlər dəfələrlə regiona səfər edərək, hər iki ölkənin dövlət başçıları ilə danışıqlar aparmış, çıxış yolları aramışlar. Lakin Ermənistan rəhbərliyinin qeyri-konstruktiv mövqeyi münaqişənin tənzimlənməsi istiqamətində müsbət nəticələrin əldə olunmasına mane olmuşdur. Bu isə bütövlükdə Minsk qrupunun fəaliyyətini sıfra endirmişdir. Buna əsas səbəblərdən biri ATƏT-in və onun Minsk qrupunun kifayət qədər prinsipial mövqe tuta bilməməsi və dünya birliyinin təcavüzkarı tanımaq istəməməsidir. Son zamanlar Minsk qrupunun həmsədrləri həmişəki kimi, münaqişənin sülh yolu ilə həllini önə çəkərək, münaqişə tərəflərinin öz aralarında hansı bir razılığa gələcəklərsə, onu da dəstəkləyəcəkləri ilə bağlı verdikləri bəyanatlar onu göstərdi ki, artıq münaqişənin tənzimlənməsində ATƏT-in və onun Minsk qrupunun imkanları tükənmişdir.

ATƏT-in İstanbul (1999-cu il) sammitində münaqişənin həlli yolunda mühüm bir addımın atılması ilə yadda qaldı.

Son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın təcavüzə məruz qalan, Ermənistanın isə təcavüzkar olduğunun sübuta yetirilməsi, bununla da erməni millətçilərinin ölkəmizə qarşı yaratdığı informasiya blokadasının yarılması, nəhayət, Azər-

baycan Respublikasının bir sıra beynəlxalq qurumlara qəbul olunması və müstəqil dövlətimizin dünya birliyində öz layiqli yerini tutması və digər inkaredilməz reallıqlar Heydər Əliyevin tarixin məhvərini öz əlində saxlayan və zamanı qabaqlamağı bacaran nadir siyasi şəxsiyyət və dövlət xadimi olduğunu təsdiqlədi.

Ölkəmizin ətrafında baş verənləri, başımızın üstünü alan qara buludları görən, prosesləri uzaqgörənliklə dərk edən Heydər Əliyev Ermənistanın təcavüzünün dəf edilməsi, respublikamızın pozulmuş ərazi bütövlüyünün bərpa olunması və işğalçıları ölkə ərazisindən çıxarılmasının düzgün yolunu müəyyənləşdirdi. Bundan sonra Dağlıq Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması müstəqil dövlət quruculuğunun bütün dövrlərində Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifələrdən biri oldu.

Azərbaycan dövləti və hökuməti bu dövrdə bütün gücünü müstəqil dövlətimizin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəltdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və respublikamızın ərazi bütövlüyü prinsipinə uyğun olaraq problemin həllinə əlverişli beynəlxalq dəstəyin təmin edilməsi zərurəti ilə qarşılaşdı.

Ümumilli lider Heydər Əliyevin diplomatiyası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dünya səviyyəsinə çıxarılması və həlli ilə bağlı xüsusi konsepsiya hazırlayaraq konkret vəzifələri həyata keçirmək üçün ardıcıl siyasi kurs yeritməyi planlaşdırdı.

Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan dövlətinə qarşı yönəlmiş çıxışlarının beynəlxalq separatizmin tərkib hissəsi kimi qorxulu, ağır nəticələr törədən və digər dövlətlərin də ərazisində oxşar problemlərin alovlanmasına təkan verən təhlükəli bir hərəkət olduğunu sübut etdi, dün-

ya ictimaiyyətinin diqqətini belə təhlükələrin qarşısını vaxtında almağın vacibliyinə yönəltdi.

Böyük siyasi xadim bu məsələnin xüsusi məqsədlə ortaya atılmış olduğunu qeyd etdi və bundan sonra beynəlxalq aləmdə bu istiqamətdə geniş təbliğat başlandı.

Beynəlxalq görüşlərdə və danışıqlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini ön sıraya çıxarmağa nail oldu.

Azərbaycan hökumətinin müxtəlif səviyyələrdə təkidi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsi nüfuzlu beynəlxalq təşkilatlardan biri olan Avropa Şurasında da müzakirə obyektinə çevrilmişdir. 2001-ci ilin yanvar ayında Avropa Şurası Ermənistan Respublikasının təcavüzkar bir dövlət olmasına baxmayaraq, təcavüzə məruz qalmış Azərbaycan Respublikası ilə eyni bir gündə öz sıralarına qəbul etdi. Avropa Şurasının üzvü olaraq *Avropa normaları ilə yaşamağa razılıq verən bir dövlətin* Şuranın üzvü olan başqa bir dövlətə qarşı təcavüzkar mövqedə dayanması yolverilməz olması bəyan edildi. Avropa Şurasının Parlament Assambleyasında Dağlıq Qarabağ münaqişəsi və erməni təcavüzü ilə bağlı məsələ dəfələrlə müzakirə olunmuş, neçə illərdir ki, erməni hərbi birləşmələri tərəfindən zəbt olunmuş Azərbaycan ərazilərinin nəzarətdən tamamilə kənarda qalaraq narkotik bitkilərin plantasiyalarına və terrorçuların təlim-məşq düşərgəsinə çevrilməsi faktı vaxtilə nümayəndə heyətinin rəhbəri İlham Əliyev tərəfindən qaldırılmış və tutarlı faktlarla sübut olunmuşdur. İlham Əliyev Ermənistanın hərbi xarakterli cinayətlərini avropalı deputatların diqqətinə çatdıraraq bildirmişdir ki, Azərbaycanın müxtəlif yerlərində erməni terrorçuları tərəfindən törədilmiş terror aktları nəticəsində 2 mindən artıq dinc Azərbaycan vətəndaşı qətlə yetirilmişdir. Azərbaycan nümayəndə heyətinin inadlı fəaliyyətindən sonra Avropa Şurası 43 dövlətin nümayəndələrinin iştirakı ilə Azərbaycanın ərazi bü-

tövlüyünün dəstəklənməsi ilə bağlı sənəd qəbul etmişdir.

1997-ci ildən ATƏT-in Minsk qrupu 3 tərəfli həmsədirlik formatında fəaliyyətə başladı. 1997-ci il fevralın 14-də ATƏT-in sədri Nils Petersen ABŞ dövlət katibinin müavini Stroub Telbotu *ATƏT-in Minsk qrupunun həmsədri təyin etdi.* Beləliklə, ABŞ, Rusiya, Fransanın həmsədirlik etdiyi Minsk qrupu münaqişənin nizamlanması istiqamətində fəaliyyətə başladı.

1997-ci il iyun ayının 1-də ATƏT-in Minsk Qrupunun həmsədrləri V.Lozinski (Rusiya), J.Blo (Fransa) və S.Telbott (ABŞ) tərəfindən münaqişənin həlli ilə bağlı «paket həll planı» təqdim edilir. Bu təklif Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin daha dəqiq təminatı, sülhməramlı qüvvələrin iştirakı, onların münaqişə regionunda qalmasının müddəti və Dağlıq Qarabağın statusu haqqında idi. «Paket həll planı» Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərinə daxil olmayan rayonlarının azad edilməsi və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusunun müəyyənləşdirilməsinin paralel həllini nəzərdə tuturdu. Müvafiq həll variantı danışıqlara başlamaq üçün zəmin kimi Azərbaycan tərəfindən müəyyən qeyd-şərtlərlə qəbul olundu, Ermənistan tərəfindən isə ümumiyyətlə rədd edildi.

Həmin il sentyabr ayının 19-da ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəflərə münaqişənin həlli ilə bağlı «mərhələli həll planı»nı təqdim etdilər. Bu planın mahiyyəti münaqişənin iki mərhələdə həll edilməsindən ibarət idi. Birinci mərhələdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə bitişik ərazilərin – erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş altı rayonunun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) azad edilməsi nəzərdə tutulurdu. İkinci mərhələdə isə Laçın və Şuşanın azad olunması ilə yanaşı, Dağlıq Qarabağın statusu da müəyyən edilməli idi. Həmin il oktyabr ayının 10-da Azərbaycan və Ermənistan prezidentləri Strasburqda münaqişənin mərhələli həll variantını qəbul

etmələri haqqında bəyanat verdilər. Lakin 1998-ci ilin fevralında Ermənistanın o vaxtkı prezidenti Levon Ter-Petrosyan təzyiqlər altında istefa verməli oldu. Hakimiyyətə «Qarabağ klanının» nümayəndəsi baş nazir Robert Koçaryan gəldi və *Ermənistan mərhələli həll variantından* imtina etdi.

1998-ci il noyabrın 9-da həmsədrlər münaqişənin «Ümumi dövlət» adlanan növbəti həll variantını irəli sürdülər. Təkliflər paketində Dağlıq Qarabağdan kənarda yerləşən işğal olunmuş 6 rayonun azad edilməsi və qaçqınların öz torpaqlarına qayıtması müddəaları olduğu kimi saxlanılmışdı. Amma burada fərq ondan ibarət idi ki, əgər əvvəlki planda ermənilər Dağlıq Qarabağdan kənar 6 rayonu qeyd-şərtsiz azad etməli idilərsə, bu planda bunun reallaşması yalnız Azərbaycanın Dağlıq Qarabağla qurulacaq münasibətlərindən asılı vəziyyətə salınmışdır. Belə çıxırdı ki, 6 rayon Dağlıq Qarabağın statusu müəyyənləşəndən sonra azad edilə bilərdi. Eyni zamanda burada «Ümumi dövlət» *prinsipinin* mahiyyəti barədə heç nə deyilmirdi.

Azərbaycan tərəfi müvafiq həll variantının beynəlxalq hüquq normaları, habelə, milli qanunvericiliyinə zidd olduğunu nəzərə alaraq, münaqişənin nizamlanması ilə bağlı danışıqlar üçün zəmin kimi qəbul olunmasını rədd etdi. Bundan sonra ATƏT-in Minsk qrupu hər hansı bir təklif irəli sürmədi. Nəticədə, Minsk prosesi çərçivəsində sülh danışıqlarında fasilə yarandı.

1999-cu il noyabrın 17-18-də İstanbulda ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in Minsk Konfransı həmsədrlərinin məruzəsi dinlənildi. Məruzədə həmsədrlər Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında ciddi siyasi dialoqun yarandığını və hər iki dövlət başçısının 1999-cu il ərzində keçirdiyi 6 görüşü (1 aprel Moskva, 27 aprel Vaşinqton, 16 iyul və 23 avqust Cenevrə, 10 sentyabr Yalta, 11

oktyabr Sədərək) yüksək qiymətləndirdilər. Ümumiyyətlə, 1999-2001-ci illər problemin həlli ilə əlaqədar Ermənistan və Azərbaycan prezidentləri arasında birbaşa görüşlərin keçirilməsi, eyni zamanda ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların davam etdirilməsi ilə xarakterizə olunmuşdur.

2001-ci ilin fevral ayında Dağlıq Qarabağ probleminin həllinə dair geniş ictimaiyyətin də təmsil olunduğu ümumrespublika toplantısı keçirildi. Toplantıda 23 fevral tarixində ümummilli liderimiz Heydər Əliyev münaqişənin nizamlanmasına dair proqram xarakterli çıxış etdi.

2002-ci il mart ayının 8-də ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişənin həlli üzrə danışıqlar prosesinə prezidentlərin Xüsusi Nümayəndələrinin təyin olunması təklifi ilə çıxış edirlər. 2002-ci il ərzində Xüsusi Nümayəndələr üç dəfə – may və iyul aylarında Praqada, noyabr ayında isə Vyanada görüşdülər.

İyul ayının 12-də Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin yekun sənədində Avropa İttifaqı bir daha münaqişənin sülh yolu ilə həlli üçün əsas kimi Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini ifadə etdi. Avqust ayının 2-də Avropa İttifaqı Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda separatçı qüvvələr tərəfindən keçirilən «prezident seçkiləri»ni pislədi.

2003-cü il yanvar ayının 23-də Avropa Şurası Nazirlər Komitəsinin Bürosunun Strasburqda genişləndirilmiş tərkibdə Ermənistan və Azərbaycanın münaqişənin sülh yolu ilə həlli ilə bağlı öhdəliklərinin yerinə yetirilməsi məsələsinə həsr olunmuş xüsusi iclası keçirildi.

2003-cü il fevral ayının 19-da Ermənistanda prezident seçkiləri keçirilməndən, R.Köçəryan növbəti müddətə prezident seçildikdən sonra Avropra Şurası Parlament Assambleyasını, ATƏT-i təmsil edən müşahidəçilər seçkilərin ciddi qanun pozuntuları ilə müşaiyət olunduğunu bildirdilər. Həmin il iyunun 19-da hökumət növbəti dördillik fəaliyyət proqra-

mını ölkə parlamentinə təqdim etdi. Proqramın «Müdafiə və Təhlükəsizlik» adlanan bölməsində hökumətin «münaqişənin həllini «Dağlıq Qarabağ» xalqının öz müqəddəratını müəyyənetmə hüququ, beynəlxalq tanınması və «Dağlıq Qarabağ Respublikası» xalqının təhlükəsizliyinə təminatı əsasında sülh danışıqları prosesi çərçivəsində» gördüyü vurğulanır, Dağlıq Qarabağın Azərbaycan Respublikasına tabeçiliyi istisna olunurdu.

İlham Əliyev 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyev irsinin milli inkişafımıza yönəlmiş dəyərlərindən bəhrələnən və Azərbaycan Respublikasının müasir inkişafında mətin addımlar atan Prezident İlham Əliyev müasir Azərbaycanın bütün uğurlarının Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirdi. Prezident İlham Əliyevin rəhbərlik etdirdiyi Azərbaycan diplomatiyası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Heydər Əliyevin başladığı siyasi kursu uğurla davam etdirməyə başladı.

Dekabr ayının 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının prezidenti Robert Koçaryanla Cenevrədə ilk görüşü keçirildi.[321]

2004-cü il aprel ayının 16-da Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Praqada görüşü keçirildi.

2004-cü il aprel ayının 28-30-da Azərbaycan və Ermənistan prezidentlərinin Varşavada görüşü keçirildi.

2004-cü il may ayının 12-13-də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Strasburqda görüşü keçirildi.

2004-cü il iyun ayının 21-də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Praqada görüşü keçirildi.

2004-cü il iyun ayının 28-29-da Azərbaycan və Ermə-

nistan xarici işlər nazirlərinin Türkiyənin xarici işlər naziri Abdulla Gülün iştirakı ilə İstanbulda görüşü keçirildi.

2004-cü il avqust ayının 8-də Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni separatçıları tərəfindən «yerli özünüidarəetmə orqanları»na seçkilər keçirildi.

2004-cü il avqust ayının 30-da Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Praqada görüşü keçirildi.

2004-cü il sentyabr ayının 15-də Azərbaycan və Ermənistan prezidentlərinin Astana şəhərində MDB-nin Sammiti çərçivəsində görüşü keçirildi.

2004-cü il oktyabr ayının 14-də Azərbaycan BMT-nin 59-cu sessiyasının gündəliyinə «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair» məsələsinin çıxarılması ilə bağlı müraciət edir. Oktyabr ayının 29-da BMT Baş Məclisi müvafiq məsələnin sessiyanın gündəliyinə daxil edilməsi ilə əlaqədar qərar qəbul etmişdir.

2004-cü il noyabr ayının 17-də Avropa Şurasının Parlament Assambleyasının Siyasi Komitəsinin iclasında britaniyalı deputat Devid Atkinsonun Dağlıq Qarabağa dair məruzəsinin müzakirəsi keçirildi.

2004-cü il dekabr ayının 5-də Sofiya şəhərində Ermənistan və Azərbaycanın xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirildi.

2004-cü il dekabr ayının 6 və 7-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində ATƏT-in Nazirlər Şurasının 12-ci iclası keçirildi. İclasda Nazirlər Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanatı qəbul olundu. Bəyanatda Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı 2004-cü ildə əldə olunmuş tərəqqi, xüsusən Azərbaycan və Ermənistan Prezidentlərinin, həmçinin iki ölkənin xarici işlər nazirlərinin görüşləri təqdir olunur.

2004-cü il dekabr ayının 9-da Ermənistan və Azərbaycanın xarici işlər nazirlərinin Brüsseldə görüşü keçirildi.

2005-ci il yanvar ayının 11-də Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə Praqada görüşü keçirildi.

2005-ci il may ayının 15-də Polşanın paytaxtı Varşava şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının prezidenti Robert Koçaryanla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi ilə əlaqədar ATƏT-in Minsk qrupu həmsədrləri, Rusiya və Fransanın xarici işlər nazirlərinin iştirak ilə görüşü keçirildi.

2005-ci il iyun ayının 17-də Fransanın paytaxtı Paris şəhərində Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirildi, xarici işlər nazirlərinin növbəti görüşü iyunun 21-də Belçikanın paytaxtı Brüsseldə, İraqa dair beynəlxalq Konfrans çərçivəsində baş tutmuşdur.

2005-ci il avqust ayının 27-də Rusiya Federasiyasının Kazan şəhərində, Müstəqil Dövlətlər Birliyinin Zirvə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının prezidenti Robert Koçaryanla görüşü keçirildi.

2006-cı il 10-11 fevral tarixində Fransanın Rambuye şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının prezidenti Robert Koçaryanla görüşü keçirildi.

2006-cı il 18-19 yanvar tarixində Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Böyük Britaniyanın paytaxtı Londonda görüşü keçirildi.

2006-cı il may ayının 18-də Fransanın Strasburq şəhərində Avropa Şurasının Nazirlər Komitəsinin iclası zamanı, Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Böyük Britaniyanın paytaxtında görüşü keçirildi.

2006-cı il 4-5 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının prezidenti Robert Koçaryanla Rumıniyanın paytaxtı Buxarest şəhərində Qara Dəniz Əməkdaşlıq və Dialoq Forumu üzrə Sammit çərçivəsində görüşü keçirildi.

2006-cı il iyun ayının 13-də Paris şəhərində, Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun Fransa və Rusiyadan olan həmsədrlərinin iştirakı ilə görüş keçirildi.

2006-cı il sentyabr ayının 13-də Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə Böyük Britaniyanın paytaxtı Londonda görüşü keçirildi.

2006-cı il 5-6 oktyabr tarixində Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində görüşü keçirildi.

2006-cı il 24-25 oktyabr tarixində Fransanın paytaxtı Paris şəhərində, Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun Fransa və Rusiyadan olan həmsədrlərinin iştirakı ilə görüş keçirildi.

2006-cı il noyabr ayının 14-də Belçikanın paytaxtı Brüssel şəhərində, Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun Fransa və Rusiyadan olan Həmsədrlərinin iştirakı ilə görüş keçirildi.

2006-cı il noyabr 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının prezidenti Robert Koçaryanla Belorusun paytaxtı Minsk şəhərində Müstəqil Dövlətlər Birliyinin Zirvə toplantısı çərçivəsində görüşü keçirildi.

2007-ci il yanvar 23-də Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Rusiya Federasiyası-

nın paytaxtı Moskva şəhərində görüşü keçirildi.

2007-ci il mart ayının 14-də Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə İsveçrənin Cenevrə şəhərində görüşü keçirildi.

2007-ci il aprel ayının 18-də Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Belqrad şəhərində görüşü keçirildi.

2007-ci il iyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının prezidenti Robert Koçaryanla Rusiyanın Sankt-Petrburq şəhərində görüşü keçirildi.

2008-ci il martın 14-də BMT-nin Baş Assambleyasında Azərbaycan Respublikasının ərazi bütövlüyü bir daha təsdiqləndi.

2008-ci il avqustun 8-də Dağlıq Qarabağda yerli özünüidarəetmə orqanlarına qondarma seçkiləri keçirdi. Bununla da BMT-nin, ATƏT-in qərar və qətnamələrinə etinasızlıq nümayiş olundu.

Azərbaycan Respublikasının İlham Əliyevin bütün çıxışlarında Dağlıq Qarabağ probleminin həllindən bir an da kənarlaşmayacağını, Qarabağ torpaqlarının azad edilməsi üçün bütün vasitələrdən istifadə ediləcəyini, hətta hərbi yolla həll edilə biləcəyini vurğulaması, müdafiədən hücuma keçməyin vaxtı çatdığını bildirməsi təsadüfi deyil ki, bütövlükdə Azərbaycan diplomatiyası üçün uğurlu olmuşdur.

Türkiyə prezidenti Abdullah Gülün Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan prezidenti İlham Əliyev Türkiyə dövlətinin Azərbaycan üçün dost, qardaş dövlət olması və ölkələrimizin strateji tərəfdaşlığının əhəmiyyətini qeyd etməsi siyasi baxımdan böyük əhəmiyyət kəsb edir.

Beləliklə, Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyevin müasir siyasətinin reallıqları göstərir ki, böyük qə-

tiyyətlə həyata keçirilən xarici siyasət kursu xalqımızın milli maraqlarına tam cavab verməklə, Respublikamızın beynəlxalq aləmdə daha da tanınmasına, sülh, əməkdaşlıq və tərəqqi mərkəzinə çevrilməsinə xidmət edir. Azərbaycanın malik olduğu iqtisadi potensial, ölkə rəhbərliyi tərəfindən həyata keçirilən kompleks islahatlar kursu respublikamızın sülh, əməkdaşlıq və tərəqqi mərkəzinə çevrilməsi, milli maraq və mənafelərini daha etibarlı səviyyədə təmin etməsi, bir sözlə Azərbaycanın sürətli inkişaf yolunda olması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə etməyə böyük inam yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yüksək kürsülərdən cəsarətlə «Azərbaycan torpaqları hesabına ikinci bir erməni dövləti yaradılmasına yol verilməyəcəkdir» deməsi, yüksək siyasi iradənin nümayişidir.

Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad ediləcəyinə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa ediləcəyinə isə heç bir şübhə ola bilməz.

Bu gün hər bir azərbaycanlı Dağlıq Qarabağın xilasının İlham Əliyevə nəsib olacağına, torpaqlarımızın işğaldan azad edilərək, orada Azərbaycan dövlətçiliyinin bərpa ediləcəyinə inanır.

Beləliklə, Azərbaycan Respublikası dövləti tərəfindən münaqişənin həllinə ciddi səy göstərilsə də Ermənistan Respublikasının, bəzi beynəlxalq təşkilatlar və söz sahibi olan dövlətlərin qeyri-konstruktiv mövqeyi nəticəsində bu məsələ həllini tapmamışdır. Azərbaycan torpaqları hələ də işğal altındadır və 1 milyondan artıq vətəndaşımız öz dədə-baba yurdlarından didərgin düşmüşlər. Beynəlxalq ictimaiyyət isə buna göz yumur.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

(Endnotes)

1. Heydər Əliyev Fondunun 6 illiyinə həsr olunmuş mərasimdə Prezident İlham Əliyevin nitqi. 10 may 2010.

2. Ramiz Mehdiyev. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr. I-II c. Bakı, 206-207

3. Yenə orada, s.525-526

4. İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər. I k. Bakı, 1999.

5. Yenə orada, s.537-538

6. Heydər Əliyev Fondunun 6 illiyinə həsr olunmuş mərasimdə İlham Əliyevin nitqi. 10 may 2010.

7. Aforizmlər. Tərtibçi S.Xəlilov. Bakı, 1997

8. Heydər Əliyev Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. I-II c., Bakı, 2013

9. Мяло К.Г. Россия и последние войны XX века. Москва, 2002; Жуков Д. Войны на руинах СССР. Москва. 2010.

10. Bax: Михаил Жирохов. Мечь и огон Карабаха. Хроника незнаменитой войны 1988-1994. Москва, Цсентрополиграф, 2012

11. Ramiz Mehdiyev. Azərbaycanlılara qarşı *soyqırım* gerçəklikləri. Bakı, 2000

12. Ramiz Mehdiyev. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003.

13. Ramiz Mehdiyev. Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr. // Dirçəliş - XXI əsr, 2003, №64, s.58-87.

14. Ramiz Mehdiyev. Gorus-2010: absurd teatrı mövsümü. Bakı, 2011

15. Yenə orada

16. Hacıyev Qasım. Nuriyev Sədi. Akademik Ramiz Mehdiyevin «Gorus - 2010: absurd teatrı mövsümü» əsərini oxuyarkən düşüncələr // Azərbaycan qəzeti. - 2011.-22 yanvar. - №15. s. 6 .

17. Yenə orada

18. Bu barədə mötəbər mənbələr və tədqiqat məlumatları *mövcuddur.*

19. Bax: Gasim Hajiyev. The Phenomenon of the personality's impact to the historical and social-political processes (Based on the academician Ramiz Mehdiyev's works). // Azerbaijan & Azerbaijanis, № 1-2, Vol. 111-112. Baku, 2012, p. 40-48.

20. Ramiz Mehdiyev. Gorus-2010: absurd teatrı mövsümü. Bakı, 2011

21. Yenə orada

22. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. I-II c. (Kitabın ideya rəhbəri: Ramiz Mehdiyev, redaktoru: Ə.Həsənov). Bakı, 2012, 422, 444 s.

23. Yenə orada

24. Yenə orada

25. Yenə orada

26. Ramiz Mehdiyev. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr. I-II c. Bakı, 2006-2007, s. 524

27. Əli Həsənov. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997). Bakı, Azərbaycan Universiteti, 1997; Əli Həsənov Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən stateji tərəfdaşlığa doğru, oktyabr 1991-avqust 1998, Bakı, Azərnəşr, 1998.

28. Əli Həsənov Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə *münasibətləri (1991-1996). Bakı, Elm, 2000, 368 s.*

29. Əli Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996), Bakı, Azərnəşr, 1998, 315 s

30. Əli Həsənov. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, 80 s.

31. Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, 752 s.

32. Yaqub Mahmudov "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti". Bakı, "Təhsil" 2002.

33. Yaqub Mahmudov. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, Təhsil, 2011, 608 s.

34. Y.Mahmudov, K.Şükürov. Qarabağ: real tarix, faktlar, sənədlər (Azərbaycan, ingilis, fransız, ərəb, alman və rus dillərində). Bakı, Təhsil, 2005, 380 s.

35. Qasım Hacıyev. Qarabağın maddi və mənəvi mədəniyyəti (Azərbaycan, ingilis və fransız dillərində)". Bakı, Təhsil, 2010,152 s.

36. Qasım Hacıyev "Bərdə şəhərinin tarixi (b.e.ə. III – b.e. XVIII əsri)". Bakı, 2000, 320 s.; Yenə onun Bərdə şəhəri – coğafi, siyasi, mədəni tarixi (b.e.ə. IV – b.e. XIX əsri)". Bakı, 2008, 250 s.

37. Məmmədov N. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti (1923-1991). Bakı, 2008, 568 s.

38. Qasım Hacıyev, Ənvər Çingizoğlu. Qarabağlı hərbiçilər: Çar və AXC ordusunun zabitləri. Bakı,Təknur, 2011, 340 s.

39. Ramiz Mehdiyev. Gorus-2010: absurd teatrı mövsümü. Bakı, 2011

40. Heydər Əliyev Fondunun 6 illiyinə həsr olunmuş mərasimdə Prezident İlham Əliyevin nitqi. 10 may 2010.

41. Azərbaycan beynəlxalq aləmdə. 3 cilddə, III cild. Bakı, 1998-ci il, 776 s. 571-572.

42. Məmmədov E. Ermənilərin Sumqayıtda qanlı aksiyası. Sumqayıt ,2010, 168 s.

43. Luchterhandt O. Das Recht der Berg-Karabach Armenier auf Selbstbes-timmung aus völkerrechtlicher Sicht. – Hamburg, 1992, s.14

44. Yenə orada

45. Azərbaycanların soyqırımı... s. 206

46. "Ekonomiks". İngiltərə. 6 iyul 1988

47. А.Мелик-Шахназаров А. Нагорный Карабах: факты против лжи. Москва, Волшебный фанар, 2009, с.579

48. Куда сдается оружие? // Известия, 1990, 26 сентябр.

49. İsmayıl Hacıyev. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı, Elm, 2003, s. 164

50. İsmayıl Hacıyev. Naxçıvan Muxtar Resublikasının icti-

mai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan. "Əcəmi" Nəşriyyat-Poliqrafiya birliyi, 272 s., s.45

51. Səmədzadə Z. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Bakı, Vətən, 1995. 83 s.

52. Агаян Ц. Победа советской власти и возрожъдение армянского народа. Москва, 1981, 321 с, 159

53. Paşayev A. Köçürmə. Bakı, Azərrnəşr, 1995, 40 s.; Paşayev A. Ermənilərin ərazi iddiaları necə yaranmışdır? // Dirçəliş - XXI əsr, 2001, iyun, № 41, s. 45-53: Paşayev A. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında) t.e.d. elmi dərəcəsi almaq üçün dissetasiyanın avtoreferatı). Bakı, 2008.

54. Paşayev A. Köçürmə. Bakı, Azərrnəşr, 1995, 40 s.

55. «Pravda» 24 dekabr, 1975

56. Помпеев Ю. Кровавый омут Карабаха. Баку, 1992, 130 с 16-17

57. Qasımov Ə.Q. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri). Bakı, Təhsil, 2009, 320 s.

58. Hacıyev Q.Ə. Ermənistanın Azərbaycan Respublikasının Naxçıvan və Qarabağ torpaqlarına əsassız ərazi iddialarının Naxçıvan bu gün: islahatlar, perspektivlər. Bakı, Naxçıvan, 2008, s. 112-118

59. İsmayıl Hacıyev. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, 2012.

60. Qasım Hacıyev. Qarabağın maddi və mənəvi mədəniyyəti (Azərbaycan, ingilis və fransız dillərində)". Bakı, Təhsil,

61. Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, Təhsil, 2011, s.139

62. Yenə orada, s.140

63. Yenə orada.

64. Yenə orada, s.142

65. Yenə orada, s.142

66. Ramiz Mehdiyev. Milli məfkurə, dövlətçilik, müstəqillik

yolu ilə: məqalələr, çıxışlar, müsahibələr, I-II c. Bakı 2006-2007. s.525-526

67. Борьба за выход из состава Аз.ССР 1923-1990 гг Москва 2009

68. Köçərli T. Yaddan çıxmaz Qarabağ, Nəqşi-Cahan Naxçıvan. Bakı, Elm, 1998. s.194

69. Məmmədov N. Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti iyun 1941- dekabr 1950-ci illərdə. Bakı, Elm, 2006.

70. Yenə orada

71. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Altıncı kitab: mart, 1996 – iyun, 1996 (bur. məsul Ramiz Mehdiyev.) – Bakı: Azərnəşr, 1998, 512 s.

72. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti - Bakı şəhəri, 29 dekabr 2000-ci il.

73. Томас де Ваал. Чёрный сад. Армения и Азербайджан между миром и войной. Москва, «Текст», 2005, 413 с., 38-39.

74. Бобков Ф.Д. КГБ и власть. Москва, «Ветеран МП», 1995, 381 с., 295-296

75. Yenə orada.

76. Бобков Ф. КГБ и власть. Москва, 2003. с. 315.

77. Томас.де Ваал. Черный Сад. Армения и Азербайджан между миром и войной. Москва, 2005. с. 38.

78. Бобков Ф.Д. Как готовили предателей. Москва, «Алгоритм», 2011, 209-210

79. İnternet: "Noev Kovceq" № 04 (151) Апрель 2010 года.

80 Yenə orada.

81. Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. III hissə. Bakı, "Ozan", 2009, 804 s.

82. Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. III hissə.-Bakı, "Ozan", 2009, 804 s.

83. Бобков Ф. КГБ и власть. Москва, 2003 с.318.

84. Воротников В. А было это так... Из дневника члена

Политбюро ЦК КПСС. Москва, 1995. s.234

85. Крючков В. Личное дело. Москва, 2003.

86. Яковлев А. Сумерки. Москва, 2003. с. 519

87. Лигачев Е. Предостережение. Москва, 1999, с. 308-310.

88. Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. III hissə.-Bakı, "Ozan", 2009, 804 s.

89. Yenə orada

90. Yenə orada, s.668-669

91 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, 29 dekabr 2000-ci il.

92. Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. III hissə. Bakı, "Ozan", 2009, s.697

93 Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi. F.1, s.83, i.16, v.1

94. Yenə orada. F.1, s.83, i.16, v. 2

95. Dağlıq Qarabağ. Zəka qalib gələcək. Sənədlər və materiallar. Bakı. 1997, s.464

96 События вокруг НКАО в кривом зеркале фальсификаторов.-Бəку, 1989, s.5

97. Помпеев Ю.А. Кровавый Омут Карабаха. Санкт-Петербург, 1992, s.43

98. Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi. F.1, s.83, i.112, v.4

99 Yenə orada, i.112, v.5

100. Yenə orada F.1, s.83, i.16, v.3

101. «Вышка», 22 мая 1990 г.

102. Постановление Президиума Верховного Совета СССР «О несоответствии Конституции СССР актов по Нагорному Карабаху, принятых Верховным Советом Армянской ССР 1 декабря 1989 года и 9 января 1990 года», 10 января 1990 года // Ведомости Верховного Совета СССР, 1990, № 3, с. 38.

103. İsmayıl Hacıyev. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, "Əcəmi", 2012, s. 192

104. Yaqub Mahmudov (Mahmudlu). Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, 2011, s.257-258.

105. «Nezavisimayz qazeta», 23 iyul 1991-ci il, «Azadlıq» qəzeti, 26 iyul 1991-ci il; Heydər Əliyev. Şəxsi mövqe. – Bakı. – 1994, s. 20-23; http://ebooks.preslib.az /pdfbooks/azbooks /sheximovq.pdf

106. «Aydınlıq» qəzeti, 15-21 fevral 1991-ci il; «Vətən səsi», 27 fevral 1991-ci il

107. Hüseynova İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaçıoğlu, 2008, 672 s.

108. Грачев А. Кремлевская хроника. Москва, 1994, с.46.

109. Yenə orada, s. 47.

110. http: //vesti.az/wews.phpid

111. Лигачев Е. Предостережение. Москва, 1999, с. 241-270.

112. Yenə orada.

113. Yenə orada, s. 184-185.

114. Yenə orada, s. 184-185.

115. Яковлев А. Сумерки. Москва, 2003. с. 519.

116. Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. III hissə. Bakı, "Ozan", 2009, 804 s.

117. Ramiz Mehdiyev. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Bakı, 2000; Məmmədova H. Xocalı: şəhidlər, şahidlər. Bakı, XXI-YNE, 2003, 197 s; Əziz B. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı, Azərnəşr, 2008, 224 s; Şükürov M. Xocalı: daş yaddaşım, qan yaddaşım. Bakı, 2011, 248 s.

118. T Томас.де Ваал. Черный Сад. Армения и Азербайджан между миром и войной. Москва, 2005. с. 38.

119. Beyrutun "Al-Şərq" nəşriyyatında nəşr olunmuş bu kitab Dağlıq Qarabağıda aparılan müharibəyə həsr olunmuşdur.

120. Балаян З. Ванадзор. Москва, с. 260-262

121. Балаян З. Между адом и раем. Москва, 1995.

122. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, Turan, 1998, 137 s.

123. Ramiz Mehdiyev. Dünyanı heyran qoyan insan. Bakı, Azərnəşr, 2004, 374 s., s.53.

124. Emin Arif (Şıxəliyev). Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. Bakı, Elm və təhsil, 2011, s. 60-71

125. Казимиров В. Мир Карабаху: Посредничество России в урегулировании нагорно-карабахского конфликта. Москва: Международные отношения, 2009, s.189

126. Yenə orada

127. Yenə orada

128. Məmmədov E.Ermənilərin Sumqayıtda qanlı aksiyası. Sumqayıt, 2010, 168 s.

129. Yenə orada

130. Yenə orada

131. Yenə orada

132. Yenə orada

133. Yenə orada

134. "Военные ведомости". Санкт-Петербург, 1998, s.96.

135. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. altıncı kitab. Azərnəşr, Bakı-1998, s. 236-238.

136. Yenə orada

137. Yenə orada, s. 238.

138. Yenə orada, s.239

139. Yenə orada, s.242

140. Yenə orada, s.243

141. Yenə orada, s.244-245

142. Yenə orada, s.245

143. Yenə orada, s.246-248

144. Yenə orada.

145. Yenə orada

146. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti - Bakı şəhəri, 29 dekabr 2000-ci il.

147. Yenə orada, s. 51

148. www.azerbaijan.news

149. Əli Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996), Bakı, Azərnəşr, 1998, 315 s.

150. ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına dair təklifləri. // «Xalq qəzeti», 21 fevral 2001-ci il.

151. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ABŞ, Kanada və Avropa ölkələri idarəsinin cari arxivi.

152. Yaqub Mahmudov (Mahmudlu). Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, Təhsil, 2011, 608 s.

153. Əli Həsənov. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, 80 s.

154. Əli Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996), Bakı, 1998, 315 s.

155. "Xalq qəzeti", 9 mart 1993.

156. Əli Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996), Bakı, 1998, 315 s.

157. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, Turan, 1998, 137 s., s.20

158. Əli Həsənov. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997, 80 s.

159. İradə Hüseynova. Müstəqilliyimizin təminatçısı (məqalələr, çıxışlar, müsahibələr, rəylər ...). Bakı, Təhsil, 2003, 504 s.

160. Azərbaycan beynəlxalq aləmdə. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar. I-IV cildlər. (c.I, 1996, 268 s.; c.II, 1997, 761 s.; c.III, 1998, 776 s.; c.IV, 1999, 520 s.), Bakı, Göytürk, 1996-1999.

161. Yenə orada.

162. Yenə orada.

163. Əli Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996), Bakı, Azərnəşr, 1998, 315 s.

164. Heydər Əliyev. Qayıdış. 1990-1993. Bakı: Azərnəşr, 1996, 791 s.

165. Независимая газета, август 1993 г.

166. «Xalq qəzeti», 25.09, 1993

167. Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Siyasi elmlər doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2001, 55 s.

168. Əli Həsənov. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması. // Dirçəliş - XXI əsr, 2003, № 63, s.39-54.

169. «Azərbaycan» qəzeti, 11 oktyabr 1993-cü il

170. «Azərbaycan» qəzeti, 29 oktyabr 1993-cü il

171. Azerbaijan: Seven Years of Conflikt in Naqorno-Karabakh. -Human Rights Watch/New York, 1994., 4; Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, Turan, 1998, 137 s., s. 79

172. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, 137 s., s.84

173. Çarlz Van Der Liuv. Azerbaijan. A quest for identity. - Surrey, Enqland, 2000, c.182

174. Fransua Tual. Azərbaycan işğal və özünü təsdiqetmə arasında. - Paris, 2003.

175. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, 1997

176. Yenə orada, s. 292

177. Yenə orada, s.297-299

178. «Azərbaycan» qəzeti, 13 yanvar 1994

179. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. 1997, s, 315 s.316

180. Yenə orada, s.316-317

181. Yenə orada, s.317

182. Yenə orada, s.317-318

183. Yenə orada, s.318

184. Yenə orada.

185. Yenə orada,
186. Yenə orada, s.324
187. Yenə orada.
188. Yenə orada
189. Yenə orada
190. Yenə orada, s. 349-350
191. Yenə orada, s. 360
192. Yenə orada, s. 369
193. Yenə orada, s. 383-384
194. Yenə orada, s. 387-388
195. Yenə orada, s. 389
196. Yenə orada, s. 395
197. Yenə orada.
198. Yenə orada, s. 401-402
199. Yenə orada, s. 418
200. Yenə orada, s. 424
201. Yenə orada, s. 425
202. Yenə orada, s. 438-439
203. Yenə orada, s. 456
204. Yenə orada, s. 456-457
205. Yenə orada, s. 461, 463
206. Yenə orada, s. 473-474
207. Yenə orada, s. 518-521
208. Yenə orada, s. 524, 527-528
209. Yenə orada, s. 549-550
210. Yenə orada, s. 553
211. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, Bakı, 1997, s. 23
212. Yenə orada, s. 62
213. Yenə orada, s. 69
214. Yenə orada, s.72
215. Yenə orada, s. 72-73
216. Yenə orada, s. 301-302
217. Yenə orada, s. 308-313

218. Yenə orada, s. 316-317
219. Yenə orada, s. 437-439
220. Yenə orada, s. 574-576
221. Yenə orada, s. 21-22
222. Yenə orada, s.188
223. Yenə orada, s.130
224. Yenə orada, s.189
225. Yenə orada, s.191
226. Yenə orada, s. 189
227. Azərbaycan beynəlxalq aləmdə. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar. I-IV cildlər. (c.I, 1996, 268 s.; c.II, 1997, 761 s.; c.III, 1998, 776 s.; c. IV, 1999, 520 s.), Bakı, Göytürk, 1996-1999. I k.
228. Казимиров В. Мир Карабаху: Посредничество России в урегулировании нагорно-карабахского конфликта. Москва, 2009, s. 189
229. Əli Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996), Bakı, 1998, 315 s.
230. Əli Həsənov. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən stateji tərəfdaşlığa doğru, oktyabr 1991-avqust 1998, Bakı, 1998.
231. Azərbaycan beynəlxalq aləmdə. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar. I-IV cildlər. (c.I, 1996, 268 s.; c.II, 1997, 761 s.; c.III, 1998, 776 s.; c.IV, 1999, 520 s.) Bakı, Göytürk, 1996-1999., I k.
232. Казимиров В. Мир Карабаху: Посредничество России в урегулировании нагорно-карабахского конфликта. Москва, 2009, s.191-192
233. Yenə orada, s. 192
234. Hacıyev Qasım, Nuriyev Sədi. Vladimir Kazimirovun "Qarabağa sülh" arzusu və əsl niyyəti.-Bakı, 2011, 130 s.
235. Казимиров В. Мир Карабаху: Посредничество России

в урегулировании нагорно-карабахского конфликта. Москва, 2009. с. 192

236. Yenə orada, s. 193

237. BMT-nin baş assambleyasının 39-cu sessiyasında qəbul etdiyi 35/159 saylı qətnamə.

238. Казимиров В. Мир Карабаху: Посредничество России в урегулировании нагорно-карабахского конфликта. Москва, 2009

239. "Dirçəliş" - XXI əsr, 2005, s.289.

240. Con C.Mareska ABŞ-ın ATƏT-in Minsk qrupunda ilk münayəndəsi (1992-1993-cü il), eyni zamanda UNOCAL Amerika neft şirkətinin vitse-prezidenti, 1997-ci ildə isə ABŞ-ın Əfqanıstanda səfiri olmuşdur.

241. "Azərbaycan" qəzeti, 24 yanvar 1996-cı il

242. Lissabon sammiti-96. tərtib edən: Ə.Həsənov., Ş.Şahməmmədov. Bakı, Azərbaycan, 1997, 312 s.

243. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in Lissabon Zirvə toplantısının yekunları ilə əlaqədar respublika ictimaiyyətinin nümayəndələrilə görüşdə nitqi - Prezident sarayı, 6 dekabr 1996-cı il. http://lib.aliyev-heritage.org/az/682837.html

244. "Dirçəliş" - XXI əsr, 2003, №70.

245. Azərbaycan Respublikası XIN-nin bəyanatı- 20 noyabr 1996.

246. Ramiz Mehdiyev. Lissabon sammiti – 1996, Bakı, 1997.

247. «Xalq qəzeti», 06.12.2004

248. İsmayılov F., Həsənov S. ATƏT-in Minsk qrupu: Dağlıq Qarabağ münaqişəsinin gerçəklikləri və həlli yolları. // Dirçəliş -XXI əsr, 2002, №53, s.117-125., №53, 122

249. Novruzoğlu R. XXI əsr...Dünyanın sonu?.. Azərbaycandan baxış (Dövlətçiliyimiz üçün təhlükə mənbələri), 5 cilddə, II cild, Bakı, 2005, 440 s.s. 148

250. Azerbaijan: Seven Years of Conflikt in Naqorno-Karabakh. Human Rights Watch/New York, 1994., s.8-12

251. «Xalq qəzeti», 10.12.1996.

252. « Yenə orada, 13.12.1996

253. Yenə orada, 27.12.1996

254. AzərTAC-ın məlumatı., 14.12.1996

255. Lissabon sammiti-96. tərtib edən: Ə.Həsənov, Ş.Şahməmmədov. Bakı, Azərbaycan, 1997, 312 s.

256. Heydər Əliyev: «Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik». Bakı, 2006, 472 s.; «Heydər Əliyev irsi» Beynəlxalq elektron kitabxanası, 2006; Dirçəliş - XXI əsr, 2003, dekabr, №70, s.103

257. Əli Həsənov ATƏT və Azərbaycan: Helsinkidən Lissabona qədər. Lissabon Sammiti 96. Bakı, Azərnəşr, 1997, 312 s.

258. Yenə orada

259. Yenə orada

260. «Xalq qəzeti», 08.03.1997

261. «Известия» 30 сентябр 1997

262. «Xalq qəzeti», 08 iyul 1997.

263. *Карабахская проблема - взгляд из XXI век* // Зеркало, № 223, 20 ноября 2004, с.28-33.

264. «Sabah», 13 dekabr 1997

265. «Xalq qəzeti», 10.01.1997

266. AzərTAC-ın məlumatı, 23.01.1997

267. Yenə orada,

268. «Xalq qəzeti», 14.03.1997

269. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar, I-IV cild. Bakı, Göytürk, 1996-1999. 03.1997

270. «Xalq qəzeti», 18 03. 1997

271. «Xalq qəzeti», 30.04.1997

272. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. XIX kitab, Bakı, 2006, s. 402-403

273. Полухов Э. Основные направления внешнеполитического курса Азербайджанской Республики на современном этапе. // Центральной Азия и Кавказ, 1999, №4(5).

274. «Xalq qəzeti», 22.04.1999
275. Azərbaycan Respublikası XIN-in mətbuat mərkəzinin məlumatı., 18.05.1999
276. «Xalq qəzeti», 19.09.1999
277. «Xalq qəzeti», 19.09.1999
278. «Respublika», 18 yanvar 2000.
279. Казимиров В. Мир Карабаха...s.81
280. «Azərbaycan», 10 yanvar 2001-ci il
281. «Azərbaycan», 23 sentyabr 2002
282. www.preziden.az
283. Əliyev İ.H. Azərbaycan prezidenti İlham Əliyevin Fransa Beynəlxalq Əlaqələr İnstitutunda görüşü. // Dirçəliş – XXI əsr, 2004, № 71, s.15-28.
284. Bax: Hacıyev Q., Nuriyev S. V.Kazimirovun "Qarabağa sülh" arzusu və əsilniyyəti. Bakı, 2011, 130 s
285. BMT-nin baş assambleyasının 39-cu sessiyasında qəbul etdiyi 35/159 saylı qətnamə.
286. «Diplomatiya aləmi», 2002, №1
287. Azərbaycan 2003: İnkişaf strategiyasında yeni mərhələ, Bakı, 2005, 520 s., s.74
288. «Azərbaycan», 23 oktyabr 2003-cü il
289. Dirçəliş - XXI əsr, 2005, № 84-85, s.194
290. Yenə orada, 2003, № 67-68, s.234
291. Yenə orada, s.323
292. Yenə orada, № 67-68
293. Yenə orada, 2005, № 84-85, s.194
294. Yenə orada, s.193
295. Yenə orada
296. Azərbaycan 2003: İnkişaf strategiyasında yeni mərhələ, Bakı, 2005, 520 s., s.367
297. İlham Əliyev. Qafqaz bütün hərbi bazalardan azad olmalıdır (23 yanvar 2004-cü il «Fiqaro» qəzetinə verdiyi müsahibə). // Dirçəliş – XXI əsr, 2004, № 71, s.5-8.
298. «Xalq qəzeti», 5 fevral 2004

299. Yenə orada, 29 iyun 2004
300. Yenə orada, 16 sentyabr 2004
301. Yenə orada, 24 noyabr 2004
302. «Azərbaycan», 25 sentyabr 2004
303. İlham Əliyev. Azərbaycan prezidenti İlham Əliyevin Fransa Beynəlxalq Əlaqələr İnstitutunda görüşü. // Dirçəliş – XXI əsr, 2004, № 71, s.15-28.
304. «Xalq qəzeti», 4 yanvar 2005
305. AzərTAC-ın məlumatı, 18 yanvar 2005
306. «Xalq qəzeti», 16 yanvar 2005
307. «Dirçəliş - XXI əsr», s.323
308. Yenə orada, s.247
309. Yenə orada, s.299- 300
310. Региональные новости. // Регион плус. Аналитический взгляд, №5 (5), 29 апреля 2006, с.32-33.; Шариф А. Чего стоит услуга, которая уже оплачена? // Зеркало, № 95, 27 мая 2006, с.34.; Шариф А. Чего стоит услуга, которая уже оплачена? // Зеркало, № 104, 10 июня 2006, с.28.
311. Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında İlham Əliyevin nitqi. 16 sentyabr 2010
312. Dağlıq Qarabağın azərbaycanlı icmasının mərkəzi qərargahının açılışında İlham Əliyevin nitqi. 06 iyul 2010.
313. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında çıxışı. 26 aprel 2011-ci il.
314. Yenə orada
315. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 oktyabr 2012-ci ildə Bərdə şəhərində nitqi.
316. Yenə orada
317. Yenə orada
318. Yenə orada
319. Yenə orada
320. İlham Əliyev. YAP-ın 20 illik yubleyi münasibətilə "Buta" sarayında nitqi,16 noyabr 2012.


Təknur

***

Arx-278908



Qasım Əhəd oğlu Hacıyev

Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu "Qarabağ tarixi" şöbəsinin müdiri, tarix elmləri doktorudur.

"Bərdə şəhərinin tarixi (b.e.ə. III əsr – b.e. XVIII əsri)", "Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarix", "Qarabağın maddi və mənəvi mədəniyyəti", "Vladimir Kazimirovun "Qarabağa sülh" arzusu və əsil niyyəti" (S.Nuriyevlə həmmüəllif), "Qarabağlı hərbiçilər: çar və AXC ordusunun zabitləri" (Ənvər Çingizoğlu ilə həmmüəllif), "Sarkisyanın Gorusdakı absurd teatrı məfsümünün İrəvan ("akademik" Arutyunyan) mərhələsi" (rusca) adlı əsərlərin müəllifidir.